AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI
A.A.BAKIXANOV ADINA TARİX İNSTİTUTU

VASİF QAFAROV

# AZƏRBAYCAN TÜRKİYƏ-RUSİYA MÜNASİBƏTLƏRİNDƏ (1918-1922)

BAKI - MÜTƏRCİM - 2020

Azərbaycan Milli Elmlər Akademiyası A.A.Bakıxanov adına
Tarix İnstitutu Elmi Şurasının qərarı ilə çap olunur.

**Ön sözün müəllifi
və elmi redaktor:** **Yaqub Mahmudov**
AMEA-nın həqiqi üzvü,
Əməkdar elm xadimi,
Dövlət mükafatı laureatı

**Qafarov V.V. Azərbaycan Türkiyə-Rusiya münasibətlərində (1918-1922). – Bakı: Mütərcim, 2020. – 472 səh.**

Tarix üzrə fəlsəfə doktoru, dosent V.V.Qafarovun oxuculara təqdim edilən bu kitabı müəllifin 2011-ci ildə çap olunan "Türkiyə-Rusiya münasibətlərində Azərbaycan məsələsi (1917-1922)" əsərinin təkmilləşdirilmiş və əlavələr edilmiş yeni nəşridir. Əsər Azərbaycan tarixinin olduqca mürəkkəb, ziddiyyətli və eyni zamanda maraqlı bir dövrünü əhatə edir. Monoqrafiyada Türkiyə-Rusiya münasibətlərində Azərbaycan məsələsinin meydana çıxması, bu dövlətlərin Azərbaycanla bağlı planları və bu planların gerçəkləşdirilməsi üçün həyata keçirilən tədbirlər kompleks şəkildə araşdırılmışdır. Zəngin ilkin arxiv sənədlərinə dayanan müəllif 1918-1922-ci illərdə Azərbaycanın Türkiyə-Rusiya münasibətlərindəki yerini və oynadığı rolu regionda və bütövlükdə beynəlxalq münasibətlərdə cərəyan edən hadisə və proseslər fonunda tədqiq edərək xalqımızın taleyüklü məsələlərinin həll olunduğu bu dövrün obyektiv tarixi mənzərəsini yarada bilmişdir.

Kitab beynəlxalq münasibətlər tarixi ilə məşğul olan mütəxəssislər, bu ixtisas üzrə təhsil alan tələbə və magistrlər və yaxın keçmişimizin tarixi ilə maraqlanan geniş oxucu dairəsi üçün nəzərdə tutulmuşdur.

**ISBN: 5-86874-496-9**

**© Vasif Qafarov, 2020.**

## MÜNDƏRİCAT

Ön söz ......................................................................5

Giriş ........................................................................9

**I FƏSİL. OSMANLI-RUSİYA MÜNASİBƏTLƏRİNDƏ AZƏRBAYCAN MƏSƏLƏSİNİN MEYDANA ÇIXMASI ............................................30**

§ 1. Osmanlı imperiyasının Qafqaz siyasəti və Azərbaycan ...30
§ 2. Rusiyanın Qafqaz siyasəti və Azərbaycan........................65
§ 3. Brest-Litovsk sülh konfransında Qafqaz müsəlmanlarının müstəqilliyi məsələsi ..........................91
§ 4. Osmanlı imperiyasının Qafqazda fəallaşması və onun siyasi nəticələri ........................................................112

**II FƏSİL. OSMANLI-RUSİYA QARŞIDURMASI VƏ AZƏRBAYCAN ..............................................156**

§ 1. Batum konfransının Azərbaycan üçün nəticələri............156
§ 2. Osmanlı-Azərbaycan münasibətlərində ilhaq məsələsi ..181
§ 3. Azərbaycanda Osmanlı-Rusiya qarşıdurması.................215
§ 4. Berlin danışıqlarında Azərbaycan məsələsi....................255

**III FƏSİL. TÜRKİYƏ-RUSİYA ƏMƏKDAŞLIĞI VƏ AZƏRBAYCAN......................................278**

§ 1. Anadolu hərəkatı və Azərbaycan....................................278
§ 2. Rusiya-Azərbaycan münasibətləri və 1920-ci ilin aprel istilası ..............................................................297
§ 3. Türkiyə-Rusiya yaxınlaşması və Azərbaycanın milli dövlətçilik problemi..........................328
§ 4. Moskva və Qars konfranslarında Azərbaycanın ərazi bütövlüyü və suverenliyi məsələsi ........................381
§ 5. Azərbaycanın formal müstəqilliyinin ləğv edilməsi prosesi və Türkiyə....................................409

**NƏTİCƏ..........................................................................430**

**İSTİFADƏ EDİLMİŞ MƏNBƏ VƏ ƏDƏBİYYAT ..................................................445**

# DÖVLƏTÇİLİK TARİXİMİZİN ARAŞDIRILMASI İŞİNƏ MÜHÜM TÖHFƏ

## VASİF QAFAROVUN

## "AZƏRBAYCAN TÜRKİYƏ-RUSİYA MÜNASİBƏTLƏRİNDƏ (1918-1922)" MONOQRAFİYASINA

# ÖN SÖZ

Tədqiqatları maraqla qarşılanan istedadlı yetirməm tarix üzrə fəlsəfə doktoru, dosent Vasif Qafarovun "Azərbaycan Türkiyə-Rusiya münasibətlərində (1918-1922)" monoqrafiyası Azərbaycan tarixinin olduqca mühüm elmi və praktik əhəmiyyət kəsb edən aktual bir probleminə həsr olunmuşdur. 1918-1920 və 1920-1922-ci illər Azərbaycanın dövlətçilik tarixində xüsusi mərhələlərdir. Belə ki, Azərbaycan xalqının uzun illərdən bəri apardığı milli azadlıq mübarizəsinin yekunu kimi 1918-ci il mayın 28-də ölkənin şimalında Azərbaycanın istiqlalı elan edilmiş və bununla da xalqımız yenidən öz müstəqilliyinə qovuşmuşdur. Azərbaycan Xalq Cümhuriyyəti cəmi 23 ay yaşasa da, bu qısa müddət ərzində ölkənin ərazi bütövlüyünü və suverenliyini təmin edə bilmiş, dövlətçilik atributlarını qəbul etmiş, dövlət quruculuğu, ordu, iqtisadiyyat, təhsil, mədəniyyət və digər sahələrdə çox mühüm addımlar atmış və bununla müstəqil Azərbaycan dövlətçiliyinin möhkəm özülünü yaratmışdır. Təsadüfi deyildi ki, 1998-ci il yanvarın 30-da Azər-

baycan Respublikasının Prezidenti Ümummilli Lider Heydər Əliyev Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasının 80 illiyinin qeyd edilməsi haqqında verdiyi xüsusi sərəncamda cümhuriyyətin bu 23 aylıq fəaliyyətini yüksək qiymətləndirərək qeyd edirdi: "Azərbaycan Xalq Cümhuriyyəti ölkənin daxilində və xaricində yaranmış gərgin və mürəkkəb ictimai-siyasi şəraitdə fəaliyyət göstərmişdir. Bu dövlətin qısa bir müddətdə həyata keçirdiyi tədbirlər xalqımızın tarixində böyük iz buraxmışdır. Milliyyətindən, siyasi və dini mənsubiyyətindən, cinsindən asılı olmayaraq bütün vətəndaşlara bərabər hüquqlar verilməsi, dövlət sərhədlərinin müəyyən olunması, Azərbaycan dövlətçiliyi atributlarının qəbul edilməsi, ana dilinin dövlət dili elan olunması Azərbaycanın gələcək müstəqilliyi üçün möhkəm zəmin yaratmışdır. Demokratik dövlət quruculuğu, iqtisadiyyat, mədəniyyət, təhsil, hərbi quruculuq sahələrində atılmış addımlar Azərbaycan Xalq Cümhuriyyətinin 23 aylıq fəaliyyətini əks etdirən əsas istiqamətlərdir... 1991-ci ildə dövlət müstəqilliyini bərpa edən xalqımız Azərbaycan Xalq Cümhuriyyətinin qısamüddətli fəaliyyətinin zəngin ənənələrindən istifadə etmiş və bu tarixi varislik üzərində müstəqil Azərbaycan dövlətini yaratmışdır".

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2008-ci il fevralın 15-də imzaladığı "Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasının 90 illik yubileyi haqqında", 2017-ci il mayın 16-da imzaladığı "Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyinin keçirilməsi haqqında" sərəncamlarda da cümhuriyyətin həyata keçirdiyi tədbirlərin Azərbaycanın gələcək müstəqilliyi üçün möhkəm zəmin yaratdığı xüsusi vurğulanır və Azərbaycan Xalq Cümhuriyyətinin tarixinin tədqiqi də xüsusi olaraq qeyd olunurdu.

1920-ci il aprelin 27-də Sovet Rusiyası hərbi işğal yolu ilə Azərbaycan Xalq Cümhuriyyətinin varlığına son qoysa da, cümhuriyyətin müstəqilliyi faktını silib ata bilmədi və sovet quruluşunda Azərbaycanın müstəqilliyini təsbit etməli oldu.

Azərbaycan tarixşünaslığında ilk dəfə Ümummilli Lider Heydər Əliyev tariximizin 1920-1922-ci illər dövrünü, yəni 1920-ci il aprel işğalından 1922-ci ildə SSRİ-nin yaradılmasına qədərki döv-

rünü müstəqilliyin saxlanılması dövrü kimi qiymətləndirmişdir. Bolşeviklər Şərq ölkələrinin yeni inqilabi dəyişikliklərə can atmaq arzusunda olmadıqlarını və öz siyasətlərinin iflasa uğradığını görcək bolşevizmin siyasi məqsədləri naminə Azərbaycanın müstəqilliyinin qorunub saxlanılması ideyasından əl çəkdilər. 1921-ci ildə Zaqafqaziya federasiyasının yaradılması artıq müstəqilliyin itirilməsi yolunda ilk addım oldu. 1922-ci il dekabrın 30-da SSRİ-nin yaranması ilə Azərbaycanın müstəqilliyinə son qoyuldu. Azərbaycan bir sıra dövlətçilik atributlarını, o cümlədən bayraq, gerb, himn və konstitusiyasını qoruyub saxlamasına baxmayaraq, bir çox sahələrdə özünün beynəlxalq hüququn subyekti olmaq statusunu itirdi.

Buna görə 1918-1920 Azərbaycan Xalq Cümhuriyyəti dövrü və 1920-1922-ci illər Azərbaycan Sovet Sosialist Respublikası dövrü müstəqillik dövrü kimi xarakterizə olunur. Bəhs edilən dövrdə Azərbaycanın suverenliyi məsələsi Türkiyə və Rusiya dövlətləri arasındakı münasibətlərdə çox mühüm yer tutmuşdur. İstər 1918-ci ildə Türkiyə-Rusiya qarşıdurmasında və istərsə də 1920-ci ildə Türkiyə-Rusiya əməkdaşlığında Azərbaycanın yeri və rolunu müəyyən etmək və onun taleyi ilə bağlı aparılan danışıqları, imzalanan sənədləri tədqiq edib oxucuların ixtiyarına vermək həm tarix, həm də müasirlik baxımından mühüm aktuallıq kəsb edir.

T.ü.f.d., dos. Vasif Qafarov AMEA Tarix İnstitutunun dəstəyi ilə Türkiyə Cümhuriyyətinin arxivlərində çox səmərəli tədqiqatlar aparmış, Azərbaycan tarixinin bir çox qaranlıq məqamları ilə bağlı Osmanlı arxiv sənədlərini ölkəyə gətirmiş və bu sənədlərdən öz tədqiqatlarında geniş istifadə edib onları elmi dövriyyəyə daxil etmişdir.

Əminəm ki, t.ü.f.d., dos. Vasif Qafarovun əvvəlki əsərləri kimi bu sanballı monoqrafiyası da geniş oxucu kütləsi tərəfindən maraqla qarşılanacaq, Azərbaycanın və bütövlükdə Qafqazın, eyni zamanda Türkiyə və Rusiyanın 1918-1922-ci illər tarixini öyrənmək və araşdırmaq arzusunda olanlar üçün əsas istinad mənbəyi olacaqdır.

T.ü.f.d., dos. Vasif Qafarovun "Azərbaycan Türkiyə-Rusiya münasibətlərində (1918-1922)" monoqrafiyası çağdaş tarixşünas-

lığımızın böyük uğurudur. Bu uğur münasibətilə onu ürəkdən təbrik edirəm. Ümidvaram ki, istedadlı alim yeni tədqiqatları ilə tarixşünaslığımızı və tarixə dair biliklərimizi daha da zənginləşdirəcəkdir.

**Yaqub MAHMUDOV**
AMEA-nın həqiqi üzvü,
Əməkdar elm xadimi,
Dövlət mükafatı laureatı

# GİRİŞ

1918-1922-ci illər zaman etibarilə tarix üçün qısa bir dövr olsa da, bu illər Azərbaycan xalqının tarixində dərin izlər buraxmışdır. Birinci dünya müharibəsinin və Rusiyada baş verən inqilabi hadisə və proseslərin təsiri altında Azərbaycan xalqının milli istiqlal mübarizəsi də özünün yüksəliş mərhələsinə qədəm qoyaraq 1917-ci ilin yazından etibarən "mədəni muxtariyyət" uğrunda mübarizədən "milli-ərazi muxtariyyəti", daha sonra "milli istiqlal" uğrunda mübarizə mərhələlərinə keçdi və bu mübarizə özünün məntiqi yekunu kimi 1918-ci il mayın 28-də itirilmiş dövlətçiliyin yenidən bərpası Azərbaycan Cümhuriyyətinin yaranması ilə nəticələndi. Müstəqil yaşamağa əzm etmiş və bu yolda böyük qurbanlar vermiş Azərbaycan xalqı 1918-1920-ci illərdə özünü müstəqil yaşamağa qadir və buna layiq bir xalq kimi dünyaya nümayiş etdirdi. Daha sonra Azərbaycan Cümhuriyyətinin əsrlərə bərabər bu iki illik müstəqilliyi 1920-ci ilin aprelində Rusiya təcavüzünün qurbanı oldu, ölkənin milli müstəqilliyi əməli olaraq formal müstəqilliklə əvəz edildi, az sonra 1922-ci ildə bu formallıq da aradan qaldırılaraq, Azərbaycan Sovet imperiyasının tərkibinə daxil edildi. Lakin uzun illər boyu həyata keçirilən sərt, amansız tədbirlər, qeyri-insani, ağlasığmaz cinayətlər də zor gücünə yaradılmış bu imperiyanı qoruyub saxlaya bilmədi, 1991-ci ildə SSRİ dağıldı və Azərbaycan öz milli dövlətçiliyini yenidən bərpa etdi.

Müstəqil milli dövlətin mövcudluğu xalqımızın uzun illərdən bəri apardığı şərəfli milli istiqlal mübarizəsini, onun milli dövlətçilik tarixini obyektiv araşdırmağa geniş imkanlar açdı. Xüsusən də, tarixi saxtalaşdırılmış və unutdurulmuş Azərbaycan Cümhuriyyəti dövrünə böyük maraq yarandı. Hadisələrlə son dərəcə zəngin 1918-1922-ci illər Azərbaycan xalqının taleyində sınaq və dönüş illəri olmuşdur. XIX əsrin əvvəllərində itirilmiş milli dövlətçi-

liyin 1918-ci ildə bərpa edilməsi Azərbaycan xalqının tarixində çox böyük və təqdirəlayiq hadisə idi. Yaranmış tarixi fürsətdən istifadə edib ölkənin müstəqilliyi elan edilməsəydi, Azərbaycan ərazisi Rusiya, Ermənistan və Gürcüstan arasında bölüşdürüləcəkdi. "Aprel çevrilişi" ilə ölkəni işğal edən Sovet Rusiyası Cümhuriyyətin müstəqilliyi faktını silib ata bilmədi və formal da olsa, Azərbaycan dövlətinin varlığını təsbit etməli oldu ki, bu da 1991-ci ildə müstəqil Azərbaycan Respublikasının yaranması üçün əsas oldu. Bu dövrə həsr olunmuş çoxsaylı tədqiqatlar aparılmış, monoqrafiyalar ortaya qoyulmuşdur. Qafqaz regionu, Xəzər hövzəsi beynəlxalq rəqabət meydanına çevrildiyindən Azərbaycanın geosiyasi və geoiqtisadi rolu mühüm əhəmiyyət kəsb etmişdir. Bu baxımdan "Azərbaycan Türkiyə-Rusiya münasibətlərində (1918-1922-ci illər)" probleminin araşdırılmasını bir sıra elmi və siyasi amillər aktual edir. Çünki bütövlükdə 1918-1922-ci illərdə Azərbaycanda cərəyan edən hadisə və proseslər daxildən çox xarici amillərlə bağlı olmuş və daha çox Türkiyə-Rusiya arasında gedən gərgin mübarizədən asılı olmuşdur. Buna görə də Türkiyə və Rusiyanın Qafqazdakı qarşıdurmasında və əməkdaşlığında Azərbaycanın yerini və rolunu müəyyən etmək böyük elmi və əməli əhəmiyyət kəsb edir.

Birinci dünya müharibəsində Osmanlı imperiyasının turançı siyasəti və bu siyasəti gerçəkləşdirmək üçün türklərin Azərbaycan xalqının milli istiqlal mübarizəsinə verdiyi dəstək və Oktyabr çevrilişindən sonra bolşeviklərin elan etdiyi "xalqların öz müqəddəratını təyin etmək" prinsipindən yararlanıb Brest-Litovsk sülh konfransında Qafqaz müsəlmanlarının müstəqilliyinə nail olmaq cəhdləri, Osmanlı-Qafqaz münasibətləri və bu münasibətlərdə Azərbaycanın yeri, Bakı nefti uğrunda gedən beynəlxalq mübarizə fonunda Türkiyə və Rusiyanın Bakıya sahib olmaq uğrunda apardıqları diplomatik-siyasi və hərbi mübarizə, yeni yaranan müstəqil Azərbaycan Cümhuriyyətinə münasibətdə Türkiyə və Rusiyanın yeritdiyi siyasət kimi problemlərin xüsusi tədqiqata ehtiyacı vardır.

Həmçinin, Almaniya-Osmanlı bloku Birinci dünya müharibə-

sində məğlub olduqdan sonra Türkiyənin mövcudluğunun təhlükəyə düşməsi, ölkədə başlanan milli azadlıq hərəkatını bolşeviklərlə yaxınlaşdıran amillər, Anadolu hərəkatı-Azərbaycan münasibətləri, Rusiya-Azərbaycan münasibətləri, 1920-ci ilin aprel istilasında türk-rus yaxınlaşmasının yeri və rolu, Azərbaycanın ərazi bütövlüyü və müstəqilliyi məsələsi ətrafında Moskva və Qars konfranslarında gedən türk-rus diplomatik çəkişmələri, Azərbaycanın formal müstəqilliyinin ləğv edilməsi prosesi kimi məsələlərin Türkiyə-Rusiya münasibətləri kontekstində araşdırılması tarix və müasirlik baxımından böyük elmi və əməli əhəmiyyətə malikdir və bu qeyd edilən məsələlərlə bağlı tarixşünaslıqda olan boşluq, çatışmazlıq və səhv tendensiyaların aradan qaldırılmasına da mühüm töhfə olardı.

Problemin aktuallığını şərtləndirən amillərdən biri də müasirlikdir. Hazırda Azərbaycan artıq 30 ilə yaxındır ki, müstəqil dövlətdir və dünya birliyinin üzvüdür. Dövlətimiz öz sələfi olan Azərbaycan Cümhuriyyətinin topladığı təcrübəyə böyük əhəmiyyət verir və bu təcrübənin dərindən öyrənilməsini özünün mühüm vəzifələrindən biri hesab edir. Təsadüfi deyildir ki, Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin 1998-ci il yanvarın 30-da imzaladığı "Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasının 80 illiyinin qeyd edilməsi haqqında", daha sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2008-ci il fevralın 15-də imzaladığı "Azərbaycan Xalq Cümhuriyyətinin 90 illik yubileyinin keçirilməsi haqqında" və 2017-ci il mayın 16-da imzaladığı "Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyinin keçirilməsi haqqında" sərəncamlarda da Cümhuriyyətin həyata keçirdiyi tədbirlərin Azərbaycanın gələcək müstəqilliyi üçün möhkəm zəmin yaratdığı, lakin tariximizin bu mərhələsi ilə bağlı bir çox sənədlərin hələ də xarici ölkələrin qapalı arxivlərində saxlanıldığı vurğulanır və Azərbaycan Cümhuriyyətinin tarixinin tədqiqi də xüsusi olaraq qeyd olunurdu.[1] Bu baxımdan Azərbaycanın milli və

---

[1] Azərbaycan Xalq Cümhuriyyətinin 80 illiyinin keçirilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı – 30 yanvar 1998 / http://axc.preslib.az/az/page/8bQ4nzv76X; Azərbaycan Xalq Cümhuriyyətinin 90 illik yubileyi

formal müstəqillik dövrlərində (1918-1920; 1920-1922) Türkiyə və Rusiyanın Azərbaycanla bağlı planlarını və bu planların gerçəkləşməsi üçün həyata keçirilən tədbirləri araşdırmaq qeyd edilən sərəncamlarda irəli sürülən vəzifələrin həlli istiqamətində mühüm addım olmaqla, Azərbaycan müstəqillik dövrü tarixinin daha dolğun və kompleks şəkildə öyrənilməsinə töhfə hesab edilə bilər.

Tədqiqat işinin xronoloji çərçivəsi 1918-1922-ci illəri əhatə edir. Osmanlı və Rusiya dövlətlərinin Azərbaycan və bütövlükdə Cənubi Qafqazla bağlı planlarının əsl mahiyyətini aydınlaşdırmaq üçün bəzən xronoloji çərçivədən kənara da çıxılmış, Birinci dünya müharibəsi dövrünə də nəzər salınmışdır. Xronoloji çərçivənin son həddi kimi Azərbaycanın formal müstəqilliyinin ləğv edilərək onun SSRİ-nin tərkibinə daxil edilməsi – 1922-ci ilin sonları müəyyən edilmişdir.

1918-1922-ci illərdə müstəqil Azərbaycanın Türkiyə və Rusiyanın Qafqaz siyasətindəki yerini və oynadığı rolu, bu dövlətlərin Azərbaycanla bağlı planlarını və onların bu planları reallaşdırmaq üçün həyata keçirdikləri hərbi-siyasi tədbirləri kompleks şəkildə araşdırmaq tədqiqatın əsas məqsədidir. Tədqiqat işinin əsas predmeti kimi 1918-1922-ci illərdə Azərbaycanla bağlı Türkiyə-Rusiya münasibətlərində Azərbaycanda və onun hüdudlarından kənarda cərəyan edən hadisə və proseslər təhlil edilmişdir.

"Azərbaycan Türkiyə-Rusiya münasibətlərində (1918-1922-ci illər)" problemi indiyədək tarix elmində ayrıca tədqiqat obyekti olmamışdır. Bununla belə, həddindən çox həssas, mürəkkəb və ziddiyyətli məqamlarla zəngin olan tədqiq etdiyimiz dövrlə bağlı istər Azərbaycanda, istərsə də Azərbaycandan kənarda yazılmış bir çox əsərlərdə problemin bu və ya digər məqamları ilə bağlı müəyyən faktlar söylənilmiş, mülahizələr irəli sürülmüşdür. Bir çox hallarda bu əsərlər bir-birinə daban-dabana zidd olmuş və

haqqında Azərbaycan Respublikası Prezidentinin sərəncamı 15 fevral 2008 /http://archive.president.az/articles.php?item_id= 20080215094 224869& sec_id=30; Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı – 16 may 2017 / http://www. president. az/articles/23701

tədqiq olunan dövrlə bağlı bir-birini təkzib edən əks konsepsiyalar meydana çıxmışdır.

Sovet hakimiyyəti illərində nəşr olunan əsərlərdə bir qayda olaraq 1917-1920-ci illər Azərbaycanda "sosialist inqilabı"nın hazırlıq mərhələsi kimi, 1920-1922-ci illər isə Azərbaycanda sovet hakimiyyətinin qurulması və möhkəmləndirilməsi dövrü kimi qiymətləndirilmiş və daha çox bolşevik təşkilatlarının fəaliyyəti işıqlandırılmış, Azərbaycanın bu dövrdə Türkiyə-Rusiya münasibətlərində oynadığı rol ya epizodik xatırlanmış, ya da ümumiyyətlə, diqqətdən kənarda qalmışdır. XX əsrin 20-ci illərinin ikinci yarısından etibarən sovet hakimiyyət orqanları Azərbaycanın 1917-1920-ci illər tarixinin tədqiqinə xüsusi diqqət yetirməyə başladılar və Azərbaycanda "tarix elmini təşkil etmək" üçün mərkəzdən Y.Ratqauzer, A.Rayevski, A.Steklov, S.Sef və digər mütəxəssislər Bakıya ezam edildilər. Bu mütəxəssislər yerli dövlət və partiya xadimləri ilə birlikdə 20-30-cu illərdə Azərbaycandakı sovet hakimiyyətinin alternativi olan "Müsavat irsi"nə qarşı mübarizəyə yönəlmiş bir sıra əsərlər yazıb nəşr etdilər.[2] Bu əsərlər bir qayda ola-

[2] Ratqauzer Y. Bakıda inqilab və vətəndaş müharibəsi: 1917-1918-ci illər. I hissə. Bakı: Azərnəşr, 1928; Yenə onun. Şura Azərbaycanı uğrunda mübarizə: Aprel inqilabı tarixinə dair. Bakı: Azərnəşr, 1929; Раевский А. Английская интервенция и мусаватское правительство. Из истории интервенции и контрреволюции в Закавказье. Баку: Истпарт, 1927; Его же. Английские "друзья" и мусаватские "патриоты", Баку: Аз. Гиз., 1927; Его же. Мусаватское правительство на Версальской конференции. Донесения представителей Азербайджанской мусаватской делегации. Баку: Изд-во АзГНИИ, 1930; Стеклов А. Армия Мусаватского Азербайджана. Баку: Аз. Гиз., 1928; Сеф С.Е. Как большевики пришли к власти в 1917-1918 г. г. Бакинском районе (доклад т. Сефа С.Е. на кружке текущей политики БК АКП (б) 16/II-27 года). Баку: АзГИЗ, 1927; Его же. Борьба за Октябрь в Баку. Тифлис: Загкнига. 1930; Его же. Борьба за Октябрь в Закавказье. Тифлис: Загкнига, 1932; Его же. Революционный пролетариат в борьбе за власть, Баку: 1928; Его же. Революция 1917 года в Закавказье. Документы. Материалы. Тифлис: 1927; Караев А.Г. Из недавнего прошлого. Баку: Бак. Рабочий, 1926; Гусейнов М.Д. Тюркская демократическая партия федералистов "Мусават" в прошлом и настоящем, Баку: Загкнига, 1927; Гусейнов Т. Октябрь в Азербайджане. Баку: Аз. Изд., 1927; Кулиев М. Враги

raq siyasi təbliğat xarakteri daşıyırdı. Birtərəfli polemika əsasında yazılmış bu əsərlərdə qarşıya qoyulmuş əsas məqsəd "Müsavat" hökumətinə qarşı böhtanlar yağdırmaq, milli Azərbaycan dövlətçiliyi fikrini ictimai şüurdan silmək və sovet hakimiyyətinin "xilaskarlıq missiyası"nı əsaslandırmaq idi. Bu əsərlərdə türk qoşunlarının bölgədəki hərbi əməliyyatları Osmanlı imperiyasının Azərbaycanı və bütövlükdə Qafqazı istila etmək cəhdi kimi qiymətləndirilmişdir. Lakin bir qədər sonra, hələ sovet tarix məktəbinin nümayəndələri kimi tam püxtələşməmiş bu tarixçilər "ifşaedici" tənqidlə də olsa, Azərbaycan Cümhuriyyəti dövrü ilə bağlı bəzi həqiqətləri oxuculara çatdırdıqlarına görə repressiyaya məruz qaldılar, onların əsərləri də qadağan edildi. Bu səbəbdən uzun müddət "təhlükəli" dövr olan 1917-1920-ci illər tarixini araşdırmağa cürət edən olmadı. Yalnız XX əsrin 50-ci illərində bu dövr yenidən tədqiq edilməyə başladı. Nəticədə, 50-60-cı illərdə Azərbaycanda sovet hakimiyyətinin qurulması və möhkəmlənməsinə həsr olunmuş bir sıra əsərlər meydana gəldi. Z.İbrahimovun, P.Əzizbəyovanın, C.Quliyevin, H.Şahgəldiyevin, İ.Hüseynovun, Y.Tokarjevskinin, M.İsgəndərovun, Y.Bağırovun və digər müəlliflərin əsərlərində[3] Azərbaycandakı "sosialist inqilabı"nın elmi əsaslandırmaları aparıldı və problemlə bağlı kosmopolit-kommunist konsepsiya formalaşdırıldı. 20-30-cu illərdən fərqli olaraq bu dövrdə yazılan əsərlər

Октября в Азербайджане. Баку: Аз. Изд., 1927; Беленький С., Манвелов А. Революция 1917 года в Азербайджане. Баку: Аз. Изд., 1927.

[3] İbrahimov Z.İ. İngilis-amerikan müdaxiləçilərinə qarşı Azərbaycan xalqının mübarizəsi. Bakı: Uşaqgəncnəşr, 1950; Yenə onun. Sosialist inqilabı uğrunda Azərbaycan zəhmətkeşlərinin mübarizəsi. 1917-1918-ci illər. Bakı: Azərnəşr, 1957; Əzizbəyova P.Ə. Azərbaycanda Sovet hakimiyyətinin qurulmasında böyük rus xalqının qardaşlıq köməyi. Bakı: Birləşmiş Nəşriyyat, 1954; Quliyev C.B. V.İ.Lenin və Azərbaycanda Sovet hakimiyyətinin qələbəsi və möhkəmləndirilməsi uğrunda mübarizə. Bakı: Azərnəşr, 1957; Şahgəldiyev H. Azərbaycanda sovet hakimiyyətinin qələbəsində rus xalqının köməyi. Bakı: Azərnəşr, 1960; Токаржевский Е.А. Из истории иностранной интервенции и гражданской войны в Азербайджане. Баку: Изд. АН Аз. ССР, 1957; Искендеров М. Из истории борьбы коммунистической партии Азербайджана за победу Советской власти. Баку: Азернешр, 1958; Багиров Ю.А. Из истории советско-турецких отношений. Баку: Изд. АН Аз. ССР, 1965.

"akademik"liyi ilə seçilsə də, siyasi sistemin ideoloji qəlibindən kənara çıxa bilmədi və bilməzdi də. İdeoloji aspektin hakim olmasına baxmayaraq bu əsərlərdə tədqiq etdiyimiz mövzu bağlı bir sıra maraqlı fakt və mülahizələrə rast gəlmək mümkündür. O da qeyd olunmalıdır ki, bu əsərlərin hamısında istinad edilən arxiv materiallarının sovet ideologiyasına cavab verməyən və ya bu ideologiyaya əks olan tərəfləri ya ümumiyyətlə tədqiqata cəlb olunmamış, ya da saxtalaşdırılaraq verilmişdir. 70-80-ci illərdə yazılmış əsərlərdə də problemlərə sırf ideoloji mövqedən yanaşılmışdır.[4]

XX əsrin 90-cı illərinin əvvəllərində Azərbaycan tarixşünaslığında Azərbaycan Cümhuriyyəti dövrünə həsr olunmuş milli ruhda yazılan əsərlər meydana gəlməyə başladı. Bu əsərlər içərisində N.Nəsibzadənin, A.Balayevin, N.Yaqublunun əsərlərini göstərmək olar.[5] Bu əsərlərdə mövzumuzla bağlı bəzi faktlara rast gəlmək mümkündür.

C.Həsənovun 1918-1920-ci illərdə Azərbaycan Cümhuriyyətinin beynəlxalq münasibətlər sistemindəki yerinin öyrənilməsinə həsr olunan əsərində[6] mövzumuz baxımından maraq doğuran bir sıra fakt və mülahizələr yer almışdır. Müəllif haqlı olaraq 1918-ci ilin yaz və yayında Azərbaycanda cərəyan edən hadisələrə daha çox Rusiya-Türkiyə qarşıdurması prizmasından yanaşır. Bununla belə, əsərin Türkiyə arxiv materiallarına istinad edilmədən yazıl-

---

[4] İbrahimov Z.İ. V.İ.Lenin və Azərbaycanda sosialist inqilabının qələbəsi. Bakı: Azərbaycan Dövlət Nəşriyyatı, 1970; Əliyev X.A. Azərbaycanda sosialist inqilabının bir sıra xüsusiyyətləri. Bakı: Azərnəşr, 1970; Гулиев Дж.Б. Борьба Коммунистической партии за осуществление ленинской национальной политики в Азербайджане. Баку: Азернешр, 1970; Кочерли Т.К. Исторический поворот в судьбах Азербайджанского народа. Баку: Азернешр, 1980; Азимов Г.С. Великий Октябрь в Азербайджане. Баку: Азернешр, 1987.

[5] Nəsibzadə N. Azərbaycan Demokratik Respublikası. Bakı: Elm, 1990; Балаев А. Азербайджанское национально-освободительное движение в 1917-1920. Баку: Элм, 1990; Yaqublu N. Məmməd Əmin Rəsulzadə. Bakı: Gənclik, 1991.

[6] Həsənov C. Azərbaycan beynəlxalq münasibətlər sistemində (1918-1920-ci illər). Bakı: Azərnəşr, 1993.

ması bir sıra boşluqların və səhv tendensiyaların yaranmasına səbəb olmuşdur. Belə ki, müəllif 1918-ci il iyun ayının 14-də Batumda Azərbaycanla Türkiyə arasında "Dostluq" müqaviləsinə əlavə olaraq bir sazişin imzalandığını iddia edir və qeyd edir ki, bu "saziş əsasında 4 iyun müqaviləsinin Almaniya və Avstriya-Macarıstana da aid olduğu bildirilir, Türkiyə Azərbaycanın istiqlaliyyətinin öz müttəfiqləri tərəfindən tanınacağı barədə üzərinə təəhhüdlər götürürdü".[7] Lakin apardığımız araşdırmalar belə bir sazişin imzalanmadığını ortaya qoydu.

C.Həsənovun qeyd edilən iddiası M.Qasımovun Birinci dünya müharibəsi illərində böyük dövlətlərin Azərbaycan siyasətinə həsr etdiyi əsərində də təkrar olunur.[8] Bununla belə, əsərdə böyük dövlətlərin Azərbaycanla bağlı planları və onların bu planları gerçəkləşdirmək üçün həyata keçirtdikləri tədbirlər şərh olunur. Müəllifin 1920-1922-ci illəri əhatə edən "Xarici dövlətlər və Azərbaycan" əsəri[9] də tədqiq etdiyimiz problem baxımından maraq doğurur.

N.Nəsibzadənin Azərbaycan Cümhuriyyətinin xarici siyasətinə həsr olunan əsərləri[10] Azərbaycan-Türkiyə və Azərbaycan-Rusiya münasibətlərini öyrənmək baxımından əhəmiyyətlidir.

E.Muradəliyevanın Azərbaycan neftinin tarixinə həsr olunmuş əsəri[11] böyük dövlətlərin Bakı nefti uğrunda apardıqları mübarizəni öyrənmək üçün əhəmiyyətlidir. Müəllif haqlı olaraq Sovet Rusiyasını Azərbaycanı yenidən işğal etməyə sövq edən əsas amil kimi Bakı neftini göstərir və bunu dağılmış Rusiya iqtisadiy-

---

[7] Həsənov C. Azərbaycan beynəlxalq münasibətlər sistemində. s. 96.

[8] Qasımov M. Birinci dünya müharibəsi illərində böyük dövlətlərin Azərbaycan siyasəti (1914-1918-ci illər). 3 hissədə. II hissə. Bakı: Adiloğlu, 2001, s. 167.

[9] Qasımov M. Xarici dövlətlər və Azərbaycan (Aprel işğalından SSRİ yaradılana qədərki dövrdə diplomatik-siyasi münasibətlər). Bakı: Qanun, 1998.

[10] Nəsibzadə N. Azərbaycanın xarici siyasəti (1918-1920). Bakı: Ay-Ulduz, 1996; Yenə onun. Bölünmüş Azərbaycan, bütöv Azərbaycan. Bakı: Ay-Ulduz, 1997.

[11] Мурадалиева Э.Б. Кровь земная-нефть Азербайджана и история. Баку: Мутарджим, 2005.

yatının bərpa edilməsi üçün neftə yaranmış böyük tələbatla əlaqələndirir.

İ.Musayevin əsərləri[12] tədqiq etdiyimiz dövrdə Azərbaycanda və bütövlükdə Cənubi Qafqazda gedən ictimai-siyasi və hərbi prosesləri, Azərbaycan Cümhuriyyətinin diplomatik fəaliyyətini öyrənmək baxımından mühüm əhəmiyyətə malikdir. Müəllif ermənilərin anti-Azərbaycan siyasətini əhatəli şəkildə araşdırır və türk qoşunlarının Azərbaycana dəvət edilməsinin zəruriliyini əsaslandırır. Azərbaycanın Naxçıvan və Zəngəzur bölgələrində baş vermiş hadisələri tədqiq edən müəllif Türkiyənin bu bölgələrdəki xilaskarlıq missiyasını yüksək qiymətləndirir.

Azərbaycan Milli Elmlər Akademiyasının Tarix İnstitutunun müəlliflər kollektivi tərəfindən yazılmış 7 cildlik Azərbaycan tarixinin V-VI cildləri[13] tədqiq etdiyimiz dövrün bir çox ictimai-siyasi, sosial-iqtisadi və hərbi proseslərini zəngin mənbələr əsasında işıqlandırır. Əsərin V cildinin V-XI fəsilləri 1917-1920-ci illərdə Azərbaycanda cərəyan edən hadisələrdən, xüsusilə də Azərbaycan Cümhuriyyətinin fəaliyyətindən bəhs edir. Burada mövzumuzla bağlı bir sıra dəyərli fakt və mülahizələrə rast gəlmək mümkündür. Əsərin VI cildi Azərbaycanda 1920-ci ildə qurulan sovet cəmiyyətinin tarixinə həsr olunmuşdur. Amma nədənsə burada Türkiyə-Rusiya münasibətlərində Azərbaycanın oynadığı roldan, Türkiyənin Azərbaycanın ərazi bütövlüyü və müstəqilliyi məsələsi ilə bağlı apardığı gərgin mübarizədən bəhs olunmur, Naxçıvanın statusunun müəyyən edildiyi Moskva və Qars konfranslarının üzərindən epizodik şəkildə keçilir.

M.Sofiyevin Sovet-Türkiyə əlaqələrində Cənubi Qafqaz respublikalarının roluna həsr olunmuş əsəri[14] 1922-1936-cı illəri əha-

---

[12] Musayev İ. Azərbaycanın Naxçıvan və Zəngəzur bölgələrində siyasi vəziyyət və xarici dövlətlərin siyasəti (1917-1921-ci illər). Bakı: Bakı Universiteti, 1996. Yenə onun. Azərbaycanın xarici siyasəti (XX əsr). I hissə. Bakı: İqtisad Universiteti, 2001.

[13] Azərbaycan tarixi. 7 cilddə. V c., Bakı: Elm, 2001; VI c., Bakı: Elm, 2000.

[14] Sofiyev M. Güney Qafqaz respublikaları Sovet-Türkiyə əlaqələrində (1922-1936). Bakı: Çaşıoğlu, 2000.

tə etsə də, əsərdə mövzumuzla bağlı bəzi mülahizələrə rast gəlmək mümkündür. Əsər 2000-ci ildə nəşr olunsa da, sovet hakimiyyəti illərində yazılmışdır. Buna görə də əsər kommunist ideologiyasının tam təsiri altındadır.

M.Süleymanovun əsərləri[15] Osmanlı imperiyasının Azərbaycan siyasətində hərbi amili öyrənmək baxımından əhəmiyyətlidir. Müəllif Qafqaz İslam Ordusunun Azərbaycan hərəkatını zəngin arxiv sənədləri əsasında kompleks şəkildə araşdırmış, həmçinin türk ordularının Azərbaycana gəlməsinin zəruriliyini əsaslandırmışdır.

R.Hətəmovun əsərləri[16] Birinci dünya müharibəsinin son mərhələsində Azərbaycanla bağlı yaranan türk-alman ziddiyyətlərini, bu ziddiyyətləri yaradan amilləri öyrənmək baxımından qiymətlidir. Bununla belə, o da qeyd olunmalıdır ki, müəllif 1918-ci il aprelin 27-də Almaniya ilə Türkiyə arasında Cənubi Qafqazı nüfuz dairələrinə bölmək haqqında müqavilə imzalandığını iddia edir. Doğrudur, həmin dövrdə almanlar tərəfindən belə bir müqavilə layihəsi hazırlanmışdı. Lakin layihə ilə bağlı tərəflər arasında yaranan ciddi fikir ayrılıqları səbəbindən bu müqavilə layihəsi elə layihə olaraq da qaldı, imzalanmadı. Bir qədər sonra bu layihə tərəflər arasında yenidən gündəmə gəlsə də, onun gerçəkləşməsi həyata keçmədi.

Azərbaycan Cümhuriyyəti liderlərinin, həmçinin rus işğalı nəticəsində vətəni tərk etmək məcburiyyətində qalmış digər aydınların mühacirətdə yazdığı əsərlər mövzumuzla bağlı bir sıra qaranlıq məqamlara aydınlıq gətirməkdə bizə yardımçı olur. Mühacirət tarixşünaslığının əsas üstün cəhəti ondan ibarətdir ki, bu müəlliflər Cümhuriyyət dövrü hadisələrinin bilavasitə iştirakçıları olmuşdular. Mühacir liderlərdən M.Ə.Rəsulzadə, Ə.Topçubaşov, M.Y.Mehdizadə, C.Hacıbəyli, M.B.Məmmədzadə, N.Şeyxzaman-

---

[15] Süleymanov M. Qafqaz İslam Ordusu və Azərbaycan. Bakı: Hərbi Nəşriyyat, 1999; Yenə onun. Nuru paşa. Bakı: Hərbi Nəşriyyat, 1999.

[16] Hətəmov R. Almaniyanın Şərq siyasətində yeni meyllər və Qafqaz uğrunda mübarizə (1917-ci ilin sonu – 1918-ci ilin mayı) // Tarix və onun problemləri, I məqalə. 1998, № 4. s. 58-66; II məqalə. 1999, № 1. s. 127-132.

lı və digərlərinin əsərləri[17] Azərbaycan Cümhuriyyəti dövründə cərəyan edən hadisə və prosesləri, Türkiyə və Rusiyanın Azərbaycanın istiqlalına münasibətini, 27 aprelin əsl mahiyyətini və bir çox problemləri öyrənmək baxımından qiymətlidir. M.Ə.Rəsulzadə "Azərbaycan Cümhuriyyəti" əsərində müstəqillik ərəfəsində və sonrakı dövrdə Azərbaycanda cərəyan edən hadisələri işıqlandırır və 1920-ci ilin 27 aprel istilasında Azərbaycandakı Anadolu nümayəndələrinin iştirakını faktlarla şərh edir. Bütövlükdə, əsər mövzumuzla bağlı bizə bir çox maraqlı fakt və mülahizələr təqdim edir.

Tədqiq etdiyimiz dövrün Türkiyə tarixşünaslığı zənginliyi ilə seçilir. Türkiyə tarixşünaslığında bir çox əsərlər yalnız türk mənbələrinə istinadən yazıldığından bu əsərlərdə birtərəflilik hökm sürür, lakin fundamental əsərlər də az deyildir. Türkiyə-Rusiya münasibətlərinə həsr olunmuş əsərlər içərisində A.N.Kuratın əsəri[18] problemlə bağlı hərtərəfliliyi və geniş mənbə bazası ilə seçilir. Osmanlı-Rusiya münasibətlərini kompleks şəkildə araşdıran müəllif əsas diqqətini Birinci dünya müharibəsi dövrünə vermişdir. Müəllif gənc türklərin turançı siyasətinə, Qafqaz İslam Ordusunun Azərbaycan və Dağıstan hərəkatına, Cənubi Qafqazla bağlı yaranmış türk-alman-rus ziddiyyətlərinə xüsusi diqqət yetirir. Osmanlı imperiyası ilə Rusiya arasında Azərbaycan məsələsi ilə bağlı yaranan qarşıdurmanı şərh edən müəllif yazır ki, İstanbul hökumətinin məqsədi Qafqazda Türkiyə ilə Rusiya arasında bufer rolunu oyna-

---

[17] Rəsulzadə M.Ə. Azərbaycan Cümhuriyyəti. Bakı: Elm, 1990; Yenə onun. Əsrimizin Siyavuşu. Çağdaş Azərbaycan ədəbiyyatı. Çağdaş Azərbaycan tarixi. Bakı: Gənclik, 1991; Topçubaşov Ə.M. Azərbaycanın təşəkkülü // Azərbaycan SSR Elmlər Akademiyasının Xəbərləri. Tarix, fəlsəfə və hüquq seriyası, 1990, № 3, s. 114-134; Mehdizadə M.Y. Beynəlmiləl siyasətdə petrol. Bakı: Azərbaycan Dövlət Nəşriyyatı, 1994; Гаджибейли Дж.А. Избранное. Сост.: М.Теймуров, А.Асланов. Баку: Азернешр, 1993; Məmmədzadə M.B. Milli Azərbaycan hərəkatı. Bakı: Nicat, 1992; Şeyxzamanlı N. Azərbaycan istiqlal mücadiləsi xatirələri. Bakı: Azərbaycan, 1997; Baykara H. Azərbaycan istiqlal mübarizəsi tarixi. Bakı: Azərnəşr, 1992.
[18] Kurat A.N. Türkiye ve Rusya. Ankara: Kültür Bakanlığı Yayınları, 1990.

yacaq, Osmanlı dövlətinin himayəsi və nəzarətində olacaq bir "İslam dövləti" qurmaq idi.[19]

K.Gürünün 1920-1953-cü illərdə türk-sovet münasibətlərinə həsr olunmuş əsəri[20] Anadolu hərəkatı ilə bolşeviklər arasında yaxınlaşmanı, Baha Sait və Fuad Sabit bəylərin Bakı missiyalarını, Moskva konfransında cərəyan edən hadisələri öyrənmək baxımından əhəmiyyətlidir.

S.Kılıçın əsərində[21] Brest-Litovsk sülh konfransı tədqiq olunmuşdur. Əsərdə mövzumuzla bağlı əhəmiyyətli faktlara rast gəlmək mümkündür.

M.Çolakın Almaniyanın Qafqaz siyasətinə həsr olunmuş əsəri[22] alman arxiv sənədləri əsasında yazılmışdır. Əsər Birinci dünya müharibəsi illərində Almaniya və Osmanlı dövlətlərinin Qafqaz siyasətini öyrənmək baxımından əhəmiyyətlidir.

S.Sonyelin "Türk Qurtuluş Savaşı"nın xarici siyasətinə həsr olunmuş iki cildlik əsərində[23] mövzumuzla bağlı müəyyən mülahizələr yer almışdır. Türk-bolşevik yaxınlaşmasına, Azərbaycan hökumətinin Türkiyəyə yardım etməməsinə və digər məsələlərə xüsusi maraq göstərən müəllif 1919-cu ilin sonu – 1920-ci ilin əvvəllərində Nuru paşanın Azərbaycanın iqtidarını ələ keçirməyə çalışmasından da bəhs edir.

N.Yüccerin əsəri[24] Osmanlı ordusunun Azərbaycan və Dağıstan əməliyyatını öyrənmək üçün mühüm əhəmiyyətə malikdir. Əsərin geniş arxiv sənədləri əsasında yazılmasını yüksək qiymətləndirməklə bərabər onu da qeyd etməliyik ki, müəllif türk ordula-

[19] Kurat A.N. Türkiye ve Rusya, s. 527.
[20] Gürün K. Türk-Sovyet İlişkileri (1920-1953). Ankara: Türk Tarih Kurumu Yayınları, 1991.
[21] Kılıç S. Türk-Sovyet İlişkilerinin Doğuşu. İstanbul: Ülke Kitapları, 1998.
[22] Çolak M. Alman İmperatorluğu'nun Doğu Siyaseti Çerçivesinde Kafkasya Politikası (1914-1918). Ankara: Türk Tarih Kurumu Yayınları, 2006.
[23] Sonyel S. Türk Kurtuluş Savaşı ve Dış Politika. C. I-II. Ankara: Türk Tarih Kurumu Yayınları, 1987; 1986.
[24] Yüceer N. Birinci Dünya Savaşı'nda Osmanlı Ordusu'nun Azerbaycan ve Dağıstan Harekatı, Azerbaycan ve Dağıstan'ın Bağımsızlığını Kazanması 1918. Ankara: Genelkurmay Basım Evi, 1996.

nının Cənubi Qafqazdakı hərbi əməliyyatları ərəfəsi və gedişində mövcud siyasi və beynəlxalq vəziyyəti əsasən türk mənbə və ədəbiyyatlarına istinadən birtərəfli şərh etmişdir.

B.Aslanın əsəri[25] də Türkiyə-Azərbaycan münasibətlərini öyrənmək baxımından maraq doğurur. "Anadoluya bolşevik yardımlarının təmin edilməsinə Azərbaycanın "Müsavat" hökumətinin mane olduğu" xüsusi vurğulanan bu əsərdə 1920-ci ilin 27 aprel istilasında Anadolunun xüsusi rol oynadığı da etiraf edilir.

Milliyyətcə yunan olan S.Yerasimosun əsəri[26] türk-sovet münasibətlərini öyrənmək baxımından əhəmiyyətli tədqiqatdır. Müəllif türk mənbələri ilə yanaşı çap olunmuş sovet mənbələrinə də istinad etmişdir. Əsərdə mövzumuzla bağlı bir çox məsələlər, xüsusilə də türk-sovet münasibətlərinin ilkin dövrü geniş işıqlandırılsa da, Türkiyə-Rusiya münasibətlərində Azərbaycan məsələsinə çox səthi yanaşılmışdır. Bununla belə, əsərdə bizim üçün faydalı olan bir çox fakt və mülahizələr yer almışdır.

Türkiyədə çap olunmuş əsərlər içərisində A.Sayılqan, Ş.S.Aydemir, T.Sünbül, Y.Aslan, İ.E.Atnur, M.Perinçek, M.C.Bilsel, A.Akşin, E.Şahin, N.Toksoy, K.T.Çağlayan, M.Budak, S.Yel və digər müəlliflərin əsərlərində[27] də mövzumuzla bağlı bir çox maraqlı fakt və mülahizələrə rast gəlmək mümkündür.

---

[25] Aslan B. Türkiye-Azerbaycan İlişkileri ve İbrahim Ebilov (1920-1923). İstanbul: Kaynak Yayınları, 2004.

[26] Yerasimos S. Türk-Sovyet İlişkileri. Ekim Devriminden "Milli Mücadele"ye. İstanbul: Gözlem Yayınları, 1979.

[27] Sayılqan A. Solun 94 Yılı (1871-1965). Ankara: Mars Yayınları, 1968; Aydemir Ş.S. Makedonya'dan Ortaasya'ya Enver Paşa. C. III. 1914-1922. İstanbul: Remzi Kitapevi, 1985; Sünbül T. Azerbaycan Dosyası. Ankara: Kök Yayınları, 1990; Aslan Y. Türkiye Komünist Fırkası'nın Kuruluşu ve Mustafa Suphi. Ankara: Türk Tarih Kurumu Yayınları, 1997; Atnur İ.E. Osmanlı Yönetiminden Sovyet Yönetimine Kadar Nahçıvan (1918-1921). Ankara: Türk Tarih Kurumu Yayınları, 2001; Perinçek M. Atatürk'ün Sovyetler'le Görüşmeleri (Sovyet Arşiv Belgeleriyle). İstanbul: Kaynak Yayınları, 2005; Bilsel M.C. Lozan. C. I. Istanbul: Sosyal Yayınları, 1998; Akşin A. Atatürk'ün Dış Politika İlkeleri ve Diplomasisi. Ankara: Türk Tarih Kurumu Yayınları, 1991; Şahin E. Rus İhtilallerinden Mondros Mütarekesi'ne Kadar Türkiye-Mavera-yı Kafkasya İlişkileri // Yeni Türkiye Dergisi. Mart-Nisan 2002, Yıl 8, Sayı 44. s. 348-369;

Rus tarixçilərindən A.Stavrovski, N.Q.Korsun, A.F.Miller, F.İ.Notoviç, A.A.Fursenko, E.F.Ludşuveyt, A.B.Kadışev, A.D.Noviçev və digərlərinin əsərləri[28] Rusiya-Türkiyə münasibətlərinin ümumi mənzərəsini öyrənmək baxımından bizə əhəmiyyətli kömək edir.

Tədqiq etdiyimiz dövrlə bağlı Qərb tarixşünaslığında nəşr olunmuş əsərlər də mühüm elmi əhəmiyyət kəsb edir. Qərb tarixşünaslığında Azərbaycanın Türkiyə-Rusiya münasibətlərində oynadığı rola həsr olunmuş ayrıca tədqiqat işi olmasa da, bir sıra

---

Yenə onun. Türkiye-Mavera-yı Kafkasya İlişkilerinden Bir Kesit: Trabzon Konferansı (14 Mart – 14 Nisan 1918) // Cumhuriyet'in 75, Osmanlı Devleti'nin 700 Yılında Trabzon Tarihi İlmi Toplantısı (6-8 Kasım 1998). Bildiriler. Trabzon: 1999, s. 489-524; Yenə onun. Trabzon ve Batum Konferanslarında Kuzey Kafkasya'nın Bağımsızlığı İle İlgili Gelişmeler // Atatürk Universitesi Türkiyat Araştırmaları Enstitüsü Dergisi. Erzurum: 1996, Sayı 4, s. 71-88; Toksoy N. Rusya'nın Trans-Kafkas Politikası ve Komisserlik'le Münasebetleri // Atatürk Araştırma Merkezi Dergisi, Temmuz 2000, Cilt: XVI, Sayı 47, s. 491-536; K.T.Çağlayan. Birinci Dünya Savaşı Sonlarında Kafkasya'da İngilis Faaliyetleri // Türk Tarih Kurumu, Belleten. Ağustos 2000. Cilt LXIV, Sayı 240, s. 487-507; Budak M. Osmanlı-Rus İlişkilerinde Kafkasya // Avrasya Etüdleri. 1995. Cilt 1, Sayı 4, s. 101-128; Yel S. Brest-Litovsk Barış Konferansında Sovyet Rusya'nın Ermeni Politikası // Atatürk Araşurma Merkezi Dergisi. 2002, Cilt XVIII, Sayı 54, s. 829-848.

[28] Ставровский А. Закавказье после Октября. Взаимоотношения с Турцией в первой половине 1918 г. Москва-Ленинград: Гос. Изд., 1925; Корсун Н.Г. Сарыкамышская операция на Кавказском фронте в мировой войне 1914-1915 гг. Москва: Госвоениздат, 1937; Его же. Первая мировая война на Кавказском фронте. Оперативно-стратегический очерк. Москва: Воениздат, 1946; Миллер А.Ф. Очерки новейшей истории Турции. Москва-Ленинград: Наука. 1948; Нотович Ф.И. Дипломатическая борьба в годы первой мировой войны. Москва: Изд. АН СССР, 1947; Фурсенко А.А. Нефтяные тресты и мировая политика. 1880-е годы – 1918 г. Москва-Ленинград: Наука. 1965; Лудшувейт Е.Ф. Турция в годы первой мировой войны. 1914-1918 гг. Военно-политический очерк. Москва: Изд. МГУ, 1966; Кадышев А.Б. Интервенция и гражданская война в Закавказье. Москва: Воениздат, 1960; Новичев А.Д. Турция. Краткая история. Москва: Наука, 1965; Хейфец А.Н. Советская Россия и сопредельные страны Востока в годы гражданской войны (1918-1920). Москва: Наука, 1964.

Qərb tədqiqatçılarının əsərlərində tədqiq etdiyimiz problemə bu və ya digər dərəcədə toxunulmuş və dəyərli fakt və mülahizələr söylənilmişdir. Problemin tədqiqi zamanı Qərb müəlliflərindən U.Allen və P.Muratovun, A.S.Zenkovskinin, R.G.Syuninin, T.Svyatoçovskinin, E.Karrın, P.Renouvinin, Ç.Haleyin, F.Kazımzadənin, J.Bennetin, R.Paypsın, R.Hovanisianın, A.Altstadtın, G.Jaskenin, U.Bihlin, U.Baumgartın və U.Zürrerin əsərlərinə[29] də müraciət edilmişdir. Qeyd edək ki, rus sovet və Türkiyə arxiv sənədlərinə istinad edilmədən yazılan Qərb tarixçilərinin əsərlərində

---

[29] Allen W.E.D. ve P.Muratoff. Kafkas Harekatı. 1828-1921 Türk-Kafkas Sınırındakı Harplerin Tarihi. Ankara: Genelkurmay Basımevi, 1966; Zenkovski A.S. Rusya'da Pantürkizm ve Müslümanlık. Tercüme: İzzet Kantemir. Ankara: İpek Matbaası, 1971; Suny R.G. Baku Komünü. Rus Devriminde Sınıf ve Ulusallık. Çeviren: Kudret Emiroğlu. İstanbul: Belge Yayınları, 1990; Swietochowski T. Müslüman Cemaatten Ulusal Kimliğe Rus Azerbaycanı 1905-1920. Türkcesi: Nuray Mert. İstanbul: Bağlam Yayınları, 1988; Carr E.H. Sovyet Rusya Tarihi. Bolşevik Devrimi. 1917-1923. C. III. Çeviren: Tuncay Birkan. İstanbul: Metis Yayınları, 2004; Yenə onun. Lenin'den Stalin'e Rus Devrimi. 1917-1929. Çeviren: Levent Cinemre. İstanbul: Mer Yayınları, 1992; Renouvin P. Birinci Dünya Savaşı ve Türkiye. 1914-1918. Türkçesi: Örgen Uğurlu. İstanbul: Örgün Yayınevi. 2004; Haley Ch.D. Son Savaşçı Enver Paşa. Tercüme: Necdet Özbek. İstanbul: Fener Yayınları, 2000. Kazemzadeh F. The Struggle for Transcaucasia (1917-1921). New-York: 1951; Wheeler-Bennet J.W. Brest-Litovsk. The Forgotten Peace. March 1918. London: Macmillan, 1963; Pipes R. The Formation of the Soviet Union. Communist and Nationalism. 1917-1923. Cambridge: 1964; Hovannisian R.G. Armenia on the Road to Independence 1918. Los Angeles: Berkeley, 1967; Altstadt A.L. The Azerbaijani Turks: Power and identity under Russian Rule. Stanford, California: Hoover İnstitution Press, 1992; Jaschke G. Der Turanismus der Jungturken. Zur Osmanischen Aussenpolitik im Weltkriege. Die Welt des İslams, Band 23, Heft 1/2. Leipzig: 1941, pp. 1-54; Bihl W. Die Kaukasus Politik der Mittelmächte. İhre Basis inder Orient-Politik und hre Aktionen 1914-1917. Teil I. Wien-Köln-Graz: Böhlau Verlag, 1975; Bihl W. Die Kaukasus Politik der Mittelmächte. Die Zeit der versuchten kaukasischen Staatlichkeit (1917-1918). Teil II. Wien-Köln-Weimar: Böhlau Verlag, 1992; Baumgart W. Deutsche Ostpolitik 1918. Von Brest-Litovsk bis zum Ende des Ersten Weltkrieges. Wien-München: 1966; Zürrer W. Kaukasien 1918-1921. Der Kampf der Grobmächte um die Landbrücke zwischen Schwarzem und Kaspischem Meer. Düsseldorf: Droste Verlag, 1978.

birtərəflilik açıq-aydın gözə çarpır. Bu əsərlərdən F.Kazımzadənin və T Svyatoçovskinin tədqiqatlarına tarixşünaslığımızda müəyyən qiymət verilmişdir.

Qərb tədqiqatçılarının əsərləri içərisində G.Jaskenin əsəri[30] mövzumuzla bağlı bəzi məsələlərə aydınlıq gətirmək baxımından xüsusi əhəmiyyət daşıyır. Türkiyə tarixşünaslığına da istinad edilməklə yazılan bu əsər Birinci dünya müharibəsi illərində Osmanlı imperiyasının turançı siyasətini öyrənmək üçün mühüm tədqiqatlardan sayıla bilər.

Avstriyalı tədqiqatçı U.Bihlin iki cildlik "İttifaq dövlətlərinin Qafqaz siyasəti (1914-1918)" əsəri[31] Birinci dünya müharibəsi illərində Almaniya və Osmanlı dövlətlərinin Qafqaz siyasətini öyrənmək üçün mühüm əhəmiyyətə malikdir. Əsasən Almaniya və Avstriya arxiv sənədləri əsasında yazılan bu əsərdə Almaniya və Osmanlı dövlətlərinin Qafqaz siyasəti, bu siyasətin formalaşmasına təsir göstərən amillər, Qafqaz uğrunda mübarizədə yaranan türk-alman ziddiyyətləri və bu ziddiyyətləri doğuran səbəblər və s. məsələlər kompleks şəkildə araşdırılır, Rusiyanın Qafqaz siyasətinə də bəzən toxunulur. Əsərin yazılmasında Osmanlı arxiv sənədlərindən istifadə edilməməsi, həmçinin Türkiyə tarixşünaslığına da lazımi yer verilməməsi müəyyən birtərəfliliyə yol açmış və bu özünü bütün tədqiqat boyu göstərmişdir.

U.Zürrerin "Qafqaz 1918-1921" adlı əsəri[32] Almaniya və İngiltərə arxiv sənədləri əsasında yazılmışdır. Bu tədqiqat bir növ U.Bihlin əsərini tamamlayacaq bir mahiyyət daşıyır. Əsərdə Qaf-

---

[30] Jaschke G. Der Turanismus der Jungturken. Zur Osmanischen Aussenpolitik im Weltkriege, Die Welt des İslams, Band 23, Heft 1/2, Leipzig: 1941. pp. 1-54.

[31] Bihl W. Die Kaukasus Politik der Mittelmächte. İhre Basis inder Orient-Politik und hre Aktionen 1914-1917. Teil I. Wien-Köln-Graz: Böhlau Verlag, 1975; Bihl W. Die Kaukasus Politik der Mittelmächte. Die Zeit der versuchten kaukasischen Staatlichkeit (1917-1918). Teil II. Wien-Köln-Weimar: Böhlau Verlag, 1992.

[32] Zürrer W. Kaukasien 1918-1921. Der Kampf der Grobmächte um die Landbrücke zwischen Schwarzem und Kaspischem Meer, Disseldorf; Droste Verlag, 1978.

qazda müstəqil dövlətlərin yaranmasında Almaniya və Osmanlı dövlətlərinin rolu, bu iki müttəfiqin Qafqazda nüfuz uğrunda apardıqları mübarizə və yaranan fikir ayrılıqları və ziddiyyətlər, ingilislərin Qafqaza daxil olması, Qafqazın sovetləşdirilməsi ərəfəsində bölgədəki siyasi vəziyyət və s. məsələlər alman və ingilis arxiv sənədləri əsasında işıqlandırılır. U.Bihl kimi U.Zürrer də "Birinci dünya müharibəsi illərində Osmanlı hökumətinin Qafqazda öz müttəfiqlərindən gizli bir türkçü siyasət yeritdiyi" qənaətinə gəlir. Lakin U.Bihldə olduğu kimi, U.Zürrerin əsərində də Osmanlı mənbələrinə istinad edilməməsi özünü açıq-aydın göstərir.

Tədqiqatın gedişində mövzu ilə bağlı xeyli sayda arxiv sənədləri elmi dövriyyəyə cəlb edilmiş və təhlil olunmuşdur. Bu sənədlərin bir qismi Azərbaycan və Türkiyə arxivlərində saxlanılır, digər qismi isə müxtəlif illərdə Azərbaycan, Gürcüstan, Rusiya, Türkiyə və başqa ölkələrdə sənədlər toplusu halında çap olunmuşdur.[33] Sovet hakimiyyəti illərində Azərbaycan, Gürcüstan və Rusi-

[33] Azərbaycanda sosialist inqilabının qələbəsi uğrunda bolşeviklərin mübarizəsi (Sənədlər və materiallar). 1917-1918-ci illər (Tərtib edən: Z.İ.İbrahimov). Bakı: Azərnəşr, 1960; Azərbaycana xarici müdaxilə tarixindən. 1918-1920-ci illər. Sənədlər və materiallar // Azərbaycan arxivi. 1988. № 1-2 (31-32), s. 15-196; Топчибашев А.А. Дипломатические беседы в Стамбуле (записи чрезвычайного посланника и полномочного министра Азербайджанской Республики). 1918-1919 гг. Баку: Эргюн, 1994; Yenə onun. Paris məktubları. Bakı: Azərnəşr, 1998; Fətəli Xan Xoyski. Həyat və fəaliyyəti (Sənəd və materiallar). Bakı: Azərbaycan, 1998; Azərbaycan Xalq Cümhuriyyəti (1918-1920). Parlament (Stenoqrafik hesabatlar). C. I-II. Bakı: Azərbaycan, 1998; Азербайджанская Демократическая Республика (1918-1920). Армия (Документы и материалы). Баку: Азербайджан, 1998; Азербайджанская Демократическая Республика (1918-1920). Внешняя политика. (Документы и материалы). Баку: Азербайджан, 1998; Азербайджанская Демократическая Республика (1918-1920). Законодательные акты. (Сб. Документов). Баку: Азербайджан, 1998; Qasımlı M. Birinci dünya müharibəsi illərində böyük dövlətlərin Azərbaycan siyasəti (1914-1918). 3 hissədə. III hissə. Bakı: Adiloğlu, 2004; Zaqafqaziya Seyminin Müsəlman fraksiyası və Azərbaycan Milli Şurası iclaslarının protokolları. Azərbaycan Respublikasının Milli Arxiv idarəsi. Məsul red: A.Ə.Paşayev. Bakı: Adiloğlu, 2006; Документы и материалы по внешней политике Закавказья и Грузии. Тифлис: Типография правительства Грузинской Республики, 1919; Пипия Г.В. Политика Германии в Закавказье в

yada çap olunmuş toplularda cəmlənmiş sənəd və materiallar hakim kommunist partiyasının sifarişi ilə seçilmiş sənədlərdir. Burada yalnız sovet ideologiyasına xidmət edən sənədlər cəmlənmiş, bir çox hallarda arxiv sənədlərinə qarşı düşmən münasibət bəslənilmiş, sənəd və materialların kommunist ideologiyasına əks olan qisimləri kəsilib atılmış və çap edilməmişdir. Qeyd edilən çatışmazlıqların olmasına baxmayaraq, bu toplularda çap olunmuş sənədlər mövzumuzla bağlı bir çox qaranlıq məqamlara aydınlıq gətirilməsində mühüm əhəmiyyət kəsb edir.

Azərbaycan Cümhuriyyətinin yaranmasının 80 illiyi münasibəti ilə 1998-ci ildə Cümhuriyyətin fəaliyyətinin bir sıra sahələrini əhatə edən arxiv sənədləri toplular halında çap edildi. Bu toplularda cəmlənmiş sənədlər Azərbaycan tarixinin 1917-1920-ci illər dövrünün araşdırılması üçün çox dəyərli mənbələrdir. Onu da qeyd edək ki, bu toplularda cümhuriyyət tarixi ilə bağlı yalnız Azərbaycan arxivlərində olan sənədlər çap edilmişdir. Bu sənədlər mövzumuzla bağlı bir sıra məsələlərin tədqiqində əvəzedilməz rol oynamışdır.

Problemin araşdırılmasında mövzu ilə bağlı Azərbaycan və Türkiyə arxivlərində saxlanılan sənədlərin tədqiqi və təhlilinə geniş yer verilmişdir. Mövzunun tədqiqi zamanı Azərbaycan Respublikası Dövlət Arxivində (ARDA) saxlanılan 28 (Azərbaycan SSR Xalq Xarici İşlər Komissarlığı), 894 (Azərbaycan Cümhuriy-

---

1918 г. (Сб. Документов). Тбилиси: Сабчота Сакартвело, 1971; Документы по истории гражданской войны в СССР. Под. ред. И.Минца и Е.Городецкого. Т. I. Первый этап гражданской войны (1917-1918). Москва: Госполитиздат, 1940; Документы внешней политики СССР. Т. I-IV. Москва: Госполитиздат, 1957-1960; Osmanlı Devleti İle Azerbaycan Türk Hanlıkları Arasındaki Münasebetlere Dair Arşiv Belgeleri. C. II. (1575-1918). Ankara: T.C. Başbakanlık Devlet Arşivleri Genel Müdürlüğü Osmanlı Arşivi Daire Başkanlığı, 1993; Soysal İ. Türkiye'nin Siyasal Antlaşmaları (1920-1945). C. I. Ankara: Türk Tarih Kurumu Yayınları, 1983; TBMM Gizli Celse Zabıtları. Devre: I. C. II. Ankara: Türkiye İş Bankası Kültür Yayınları, 1985; TBMM Zabıt Ceridesi. Devre: I. C. VI. IX. XI. Ankara: TBMM Matbaası, 1943, 1954, 1958; Caucasian Boundaries: Documents and Maps, 1802-1946. Edited by Anita L.P.Burdett. Richmond: Archive Editions, 1996.

yətinin Daxili İşlər Nazirliyi), 897 (Azərbaycan Cümhuriyyətinin Gürcüstandakı diplomatik nümayəndəliyi), 970 (Azərbaycan Cümhuriyyətinin Xarici İşlər Nazirliyi) və Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi Siyasi Sənədlər Arxivində (ARPİİSSA) saxlanılan 1 (Mərkəzi Komitə), 276 (Polis departamentinin sənədləri. 1885-1918), 277 (Azərbaycan Cümhuriyyəti dövrü) və 609-cu (N.Nərimanov fondu) fondlardan geniş istifadə olunmuşdur.

Tədqiqat işinin mənbəşünaslıq bazasının böyük bir hissəsini Türkiyə arxivlərində saxlanılan sənədlər təşkil edir. Mövzunun tədqiqi zamanı Türkiyə Cümhuriyyəti Cümhurbaşkanlığı Dövlət Arxivləri Başkanlığı Osmanlı Arxivində (BOA) Osmanlı imperiyasının Sədrəzəmliyi, Kabinə Məclisi, Xarici İşlər, Daxili İşlər, Maliyyə və digər nazirliklərinin fondlarında saxlanılan dosyalardan geniş istifadə edilmişdir.

Tədqiq etdiyimiz mövzu ilə bağlı Türkiyə Cümhuriyyəti Genelkurmay Əsgəri Tarix və Strateji Etüd Dairəsi Başkanlığı Arxivi (ATASE) Osmanlı Arxivinə nisbətən arxiv materiallarının daha da zənginliyi ilə seçilir. Ümumilikdə, ATASE arxivində olan 10 milyona qədər sənədin 3,7 milyonu məhz Birinci dünya müharibəsi illərinə aiddir. Azərbaycanla bağlı Osmanlı Arxivində olan sənədlərin böyük bir əksəriyyətinin bir nüsxəsi də ATASE arxivində vardır. Tədqiq etdiyimiz mövzu ilə bağlı istər Osmanlı-Rusiya, istərsə də Osmanlı-Azərbaycan münasibətlərini, həmçinin Osmanlı imperiyasının bütövlükdə Qafqaz siyasətini araşdırmaq baxımından ATASE arxivində saxlanılan sənədlər müstəsna əhəmiyyətə malikdir. Tədqiqat işində bu sənədlərdən böyük bir qismi ilk dəfə olaraq elmi dövriyyəyə daxil edilmiş və təhlil olunmuşdur.

Problemin araşdırılması zamanı memuar ədəbiyyatından da geniş istifadə edilmişdir. Dövrün məşhur siyasi və hərbi xadimlərindən Camal paşa, Kazım Qarabəkir paşa, Ali İhsan Sabis, Xəlil paşa, Nuru paşa, Rıza Nur, Veysəl Ünüvar, Hüsaməddin Tuğaç, E.Lüdendorf, L.Corc, L.Denstervil, U.Çörçil, L.Sanders, Z.Ava-

lov və digərlərinin memuarları[34] mövzumuzla bağlı bir sıra qaranlıq məqamlara aydınlıq gətirmək üçün mühüm əhəmiyyət kəsb edir.

K.Qarabəkir paşanın iki cildlik "İstiqlal Hərbimiz" əsəri[35] Türkiyə milli azadlıq hərəkatı ilə Sovet Rusiyası arasındakı münasibətlərin, ələlxüsus da bu münasibətlərdə Azərbaycan məsələsinin öyrənilməsi baxımından xüsusi əhəmiyyətə malikdir. Anadolu hərəkatı ilə Sovet Rusiyası arasındakı əlaqələrdə vasitəçi olan K.Qarabəkir paşanın bu əsərində tədqiq etdiyimiz problemlə bağlı külli miqdarda sənəd və materiallar cəmlənmişdir. İlk dəfə 1960-cı ildə generalın qızları tərəfindən nəşr olunan bu əsərdə Türkiyə-Rusiya yaxınlaşması zəminində həyata keçirilən Azərbaycanın 1920-ci il 27 aprel faciəsinin hazırlanması və gerçəkləşməsi ilə bağlı tutarlı sənədlər vardır. Tədqiqat zamanı bu sənədlərdən geniş istifadə olunmuşdur.

[34] Записки Джемал паши (1913-1919 гг.). Пер. с. англ. Б.Т.Руденко. С предисловием Сим. Такаева. Тифлис: Изд. Заккрайкома РКП(б), 1923; Karabekir K. İstiklal Harbimiz. C. I-II. İstanbul: Yapı Kredi Yayınları, 2006; Sabis A.İ. Birinci Dünya Harbi. Harp Hatıralarım. C. I-IV. İstanbul: Nehir Yayınları, 1990, 1991; Halil Paşa. İttihat ve Terakki'den Cumhuriyet'e Bitmeyen Savaş. Hazırlayan: Taylan Sorgun. İstanbul: Kamer Yayınları, 1997; Nuru Paşa. Qafqaz İslam Ordusu Hərəkatı – M.Süleymanov. Nuru Paşa. Bakı: Hərbi Nəşriyyat, 1999; Nur R. Hayat ve Hatıratım. C. III. İstanbul: Altındağ Yayınları, 1968; Ünüvar V. Naxçıvan: təlatüm və burulğanlar (1920-1921). Türk dilindən tərcümə edən: Ə.Quliyev. Naxçıvan: Əcəmi, 2006; Людендорф Э. Мои воспоминания о войне 1914-1918 гг. В двух томах. Пер. с 5-го нем. изд., под ред. А.Свечина. Москва: Госиздат, Т. I, 1923; Т. 2, 1924; Джордж Л. Правда о мирных договорах. Т. I-II. Москва: Изд. Иностранная литература, 1957; Денстервиль Л. Британский империализм в Баку и Персии. 1917-1918. Воспоминания. Пер. с англ. Б.Руденко. Тифлис: Советский Кавказ, 1925; Черчилль У. Мировой кризис. Пер. с англ. с предисл. И. Минца. Москва-Ленинград: Государственное Военное Издательство, 1932; Sanders L. Türkiye'de Beş Sene. Çeviren: Osmanlı Genelkurmayı Askeri Tarih Encümeni Tercüme Heyeti. Yayına Hazırlayan: Muzaffer Albayrak. İstanbul: Yeditepe Yayınları, 2007; Авалов З. Независимость Грузии в международной политике (1918-1921). Воспоминания, Очерки. Париж: Navarre, 1924.

[35] Karabekir K. İstiklal Harbimiz. C. I-II. İstanbul: Yapı Kredi Yayınları, 2006.

Əsərdə tədqiq olunan dövrdə Azərbaycan və Türkiyədə nəşr olunan bir sıra mətbuat orqanlarına da müraciət olunmuşdur.

Tədqiqatın metodoloji əsasını obyektivlik, tarixi hadisələrə kompleks yanaşma və sistemlilik prinsipləri təşkil edir. Tədqiqatın aparılmasında struktur-funksional təhlil, tarixi-genetik, tarixi alternativlik prinsiplərinə istinad edilmiş, müqayisəli-tənqidi təhlilin aparılmasına üstünlük verilmişdir. Iş problemlər üzrə xronoloji ardıcıllıqla yazılmışdır. Tarixi hadisə və proseslərə yanaşmada rəğbət və ya nifrət deyil, tarixi fakt və hadisələrə obyektiv, ədalətli münasibət göstərilmişdir.

# I FƏSİL
# OSMANLI-RUSİYA MÜNASİBƏTLƏRİNDƏ AZƏRBAYCAN MƏSƏLƏSİNİN MEYDANA ÇIXMASI

## § 1. Osmanlı imperiyasının Qafqaz siyasəti və Azərbaycan

Birinci dünya müharibəsi ərəfəsində Osmanlı imperiyası dərin sosial-iqtisadi və siyasi böhran keçirirdi. Balkan müharibəsində məğlub olan və Balkanlardakı torpaqlarının böyük bir hissəsini itirən Osmanlı imperiyası əlavə olaraq ərəb, erməni və kürd problemləri ilə də üzləşmişdi. Belə bir vəziyyətdə Osmanlı imperiyasının artıq yaşayıb-yaşamayacağına şübhə ilə baxmağa başlayan Almaniya İngiltərə ilə Osmanlı imperiyasını bölüşdürmək fikrinə düşüb, Osmanlı mirasından pay almağı yeganə çıxış yolu hesab etsə də, İstanbuldakı alman səfiri Hans von Vangenheymin buna qarşı çıxması və İngiltərənin Anadolunu almanlarla bölüşdürməyə yanaşmaması nəticəsində Almaniyanın bu niyyəti baş tutmamışdı. Osmanlı imperiyasının bölüşdürülməsi ilə bağlı İngiltərədən və bəzi alman bürokratlarından lazımi dəstəyi ala bilməyən Almaniya Xarici İşlər Nazirliyi bu siyasətini dəyişərək, "Osmanlı imperiyası ilə heç bir zaman dostluq münasibətlərini pozmamaq" siyasəti yeritməyə başladı.

Müharibəyə hazırlaşan dövlətlərin hər birinin Osmanlı imperiyasını bölüşdürməklə bağlı öz planları vardı. Bu planları önləmək üçün Osmanlı hökuməti bir sıra dövlətlərə – ilk öncə

Fransaya, sonra İngiltərəyə, daha sonra Rusiyaya belə hərbi-siyasi ittifaq təklif etmişdi. Amma bu dövlətlərin heç biri Osmanlı hökumətinin ittifaq təklifini qəbul etməmişdi. Gənc türklər daha öncə – 1913-cü ilin sentyabrında Almaniyaya ittifaq təklif etmişdilər.[36] Osmanlı imperiyasının hamisi kimi görünən Almaniya da "əlavə yük olar" deyə Türkiyəni öz yanına çəkmək istəmirdi. İstanbuldakı alman səfiri Vangenheym də Türkiyə ilə Almaniya arasında bir "ittifaq"ın əleyhinə idi, çünki onun fikrincə, Türkiyə hərbi baxımdan heç bir əhəmiyyət kəsb etmirdi. Osmanlı imperiyasının hərbi naziri Ənvər paşanın 1914-cü ilin iyul ayının əvvəllərində Almaniyaya dəvəti və alman baş qərargah rəisi Helmut von Moltke ilə görüşdüyü zaman ona hər hansı bir "ittifaq bağlamaq" təklifi edilmədiyi anlaşılır. Amma az sonra Kayzer II Vilhelmin və Almaniya hərbi komandanlığının fikri dəyişdi və Türkiyə ilə dərhal bir ittifaq bağlamaq haqqında qərar verildi.[37] Beləcə hər iki tərəfdən yuxarı dairələrdəki bəzi siyasi və hərbi xadimlərin belə gözləmədiyi bir anda və Osmanlı hökumətində Səid Həlim paşa, Tələt bəy, Xəlil bəy və Ənvər paşadan başqa digər kabinə üzvlərinin belə xəbəri olmadan İstanbulda Vangenheym ilə sədrəzəm və xarici işlər naziri Səid Həlim paşa arasında 1914-cü il avqustun 2-də gizli Almaniya-Osmanlı müqaviləsi imzalandı. Bu müqaviləyə görə: 1) Hər iki tərəf Avstriya-Macarıstan ilə Serbiya arasındakı savaşda tərəfsiz qalacaqdı; 2) Ancaq Rusiya Avstriya-Macarıstan əleyhinə hərbi əməliyyatlara başlayardısa və Almaniya müharibəyə girərdisə, Osmanlı imperiyası da müharibəyə qatılacaqdı; 3) Osmanlı ordusuna təlim keçmək üçün Türkiyədə olan alman əsgəri heyəti müharibə başladıqdan sonra yerində qalacaq və Osmanlı hərbi qüvvələrinin idarə edilməsində vəzifə alacaqdı; 4) Osmanlı torpaqlarına hər hansı hücum olacağı təqdirdə, Almaniya Osmanlı imperiyasını silahla qorumalı idi; 5) Bu müqavilə 1918-ci il 31 de-

---

[36] Mahmut Muhtar Paşa. Maziye bir Nazar. Berlin Muahedesi'nden Harbi Umumi'ye kadar Avrupa ve Türkiye-Almanya Münasebetleri. İstanbul: Matbaay-i Ahmed İhsan ve Sürekası, 1341, s. 232.
[37] Kurat A.N. Türkiye ve Rusya, s. 228.

kabr tarixinə qədər qüvvədə olmalı idi; 6) Müddətin sonunda tərəflərdən biri ondan imtina etmədikdə, müddət daha 5 il uzadılmalı idi; 7) Müqavilə imzalandıqdan sonra bir ay müddətində təsdiq olunmalı idi; 8) Müqavilə məxfi idi və yalnız qarşılıqlı razılıq əsasında çap edilə bilərdi.[38] Halbuki Almaniya bu müqavilənin imzalanmasından bir gün əvvəl – 1 avqust 1914-cü ildə Rusiyaya müharibə elan etmişdi. Bu vəziyyətdə müqaviləyə imzaların atıldığı andan Osmanlı imperiyası üçün "casus foederis" vəziyyəti qüvvəyə minmiş və bu, Türkiyənin müharibəyə girməsi demək idi.

İttifaq müqaviləsi imzalanandan dərhal sonra Almaniya hərbi komandanlığı bu müqavilənin ikinci maddəsinə istinad edərək Osmanlı imperiyasının dərhal Rusiyaya müharibə elan etməsini istədi. Osmanlı hökuməti isə 1914-cü il avqustun 3-də bu müharibədə bitərəf qalacağını elan etdi.[39]

Almaniya türk ordularının döyüş qabiliyyətinin zəif olmasını nəzərə alaraq Şərq cəbhəsindəki rus qoşunlarının bir qismini yayındırmaq məqsədilə Türkiyənin Qafqaz cəbhəsi açmasında maraqlı idi. İstanbulun Rusiyaya müharibə elan etməkdə ləng davrandığını görən Almaniya Osmanlı hökumətini hərəkətə gətirmək üçün ittihadçıların xarici siyasət sahəsindəki xəyallarını gerçəkləşdirə biləcək bir təkliflə Osmanlı hakim dairələri qarşısında çıxış etdi.

İstanbuldakı alman səfiri Vangenheymin 1914-cü il avqustun 6-da Osmanlı imperiyasının sədrəzəmi Səid Həlim paşaya təqdim etdiyi məktubunda qeyd edilirdi ki, Almaniya müharibəni zəfərlə başa çatdıracağı, düşmənlərinə sülh müqavilələrini diktə etdirəcəyi təqdirdə Türkiyənin Rusiyadakı müsəlmanlarla əlaqə qurması üçün onun Şərq sərhədlərinin yenidən müəyyən edilməsinə və ka-

[38] Yılmaz V. 1nci Dünya Harbi'nde Türk-Alman İttifakı ve Askeri Yardımlar. İstanbul: Cem Ofset Matbaacılık Sanayi A.Ş., 1993, s. 65-66.
[39] Wallach J.L. Bir Askeri Yardımın Anatomisi. Çeviren: Fahri Çelikar. Ankara: Genelkurmay Basımevi, 1977, s. 141.

pitulyasiyaların ləğv edilməsinə yardımçı olacaqdır.[40] Əslində Osmanlı imperiyasının Berlindəki hərbi attaşesi Cəmil bəy İstanbula göndərdiyi 3 avqust 1914-cü il tarixli raportunda Almaniya dənizçilik naziri vəkili ilə görüşdüyünü və Almaniyanın müharibədən qalib çıxacağı təqdirdə Qafqaz və ətrafının Türkiyəyə veriləcəyini təəhhüd etdiyini Vangenheymin məktubundan daha öncə bildirmişdi: "Bu hərbdə müvəffəqiyyət qazansaq, Qafqaz və havalisi sizə veriləcəkdir".[41]

Alman orduları Marnada məğlub edildikdən sonra (5-12 sentyabr 1914) baş qərargah rəisi Moltkenin yerinə keçən Falkenhayn sentyabrın 17-də Türkiyədəki alman hərbi missiyasının rəhbəri Liman Sandersdən Osmanlı imperiyasını dərhal Qafqazda, Qara dənizdə və Süveyş kanalında müharibəyə sürükləməyi tələb etdi.[42] Osmanlı hakim dairələri isə maliyyə problemlərinin olduğunu əsas gətirərək müharibəyə girməyə tələsmirdilər. Bir sıra tərəddüdlərdən sonra oktyabrın 11-də Ənvər paşa və onun ən yaxın silahdaşları Tələt bəy, Camal paşa və Xəlil bəy Almaniya Osmanlı hökumətinə 2 milyon türk lirəsi məbləğində borc verərsə, admiral Vilhelm Suşonun fövqəladə səlahiyyətlərlə Osmanlı donanmasının komandanlığına gətiriləcəyini və ona rus donanmasına qarşı hərəkətə keçmək üçün təlimat veriləcəyini alman səfiri Vangenheymə vəd etdilər.[43] Oktyabrın 20-də keçirilən məhdud kabinə toplantısında (Ənvər paşa, Tələt bəy, Camal paşa, Xəlil bəy) Rusiyaya qarşı müharibəyə girmək haqqında qərar qəbul edildi[44] və oktyabrın 22-də Ənvər paşa donanma komandanı admiral Suşona yazılı olaraq belə bir gizli əmr verdi: "Türk donanması Qara dənizdə dəniz hakimiyyətini ələ keçirməlidir. Rus donanmasını ara-

[40] Sabis A.İ. Birinci Dünya Harbi. C. I, s. 108-109; Wallach J.L. Bir Askeri Yardımın Anatomisi, s. 141-142; Готлиб В.В. Тайная дипломатия во время первой мировой война. Москва: Соцэкиздат. 1960, с. 51.
[41] ATASE. BDH, K. 243, D. 1009, F. 7.
[42] Wallach J.L. Bir Askeri Yardımın Anatomisi, s. 149; Лорей Г. Операция германо-турецких морских сил в 1914-1918 гг. Пер. с нем. Е.Шведе. Москва: Государственное Военное Издательство. 1937, с. 67.
[43] Wallach J.L. Bir Askeri Yardımın Anatomisi, s. 149.
[44] Kurat A.N. Türkiye ve Rusya, s. 243.

yın və harada görsəniz savaş elan etmədən hücum edin".[45] Bu əmrlə hərəkət edən admiral Suşon tabeliyində olan Geben (Yavuz) və Breslau (Midilli) və türk hərbi gəmiləri ilə oktyabrın 29-da Rusiyanın Sevastopol, Odessa, Feodosiya və Novorossiysk limanlarını bombardman etdi və bir neçə rus gəmisini batırdı. Noyabrın 2-də Rusiya Türkiyəyə müharibə elan etdi və beləliklə, Osmanlı imperiyası fələn müharibəyə girmiş oldu.

Müharibənin başlanması ilə Türkiyə xaricindəki iki yüz milyondan artıq müsəlmandan və xüsusilə də Rusiyadakı türk-müsəlman zümrələrindən geniş ölçüdə faydalanmaq məqsədilə Osmanlı imperiyası "cihad" elan etdi və bütün türk-islam dünyasını Antanta dövlətlərinə qarşı müharibəyə səslədi. Qafqazda isə "türkçülük" və "turançılığ"ın əsaslarına söykənən bir siyasətin gerçəkləşdirilməsi planlaşdırılmışdı. Ənvər paşa türkçülük və islamçılıq kimi cərəyanları özündə birləşdirən bir şəxs olsa da, birinci cərəyana daha yaxın idi.

Birinci dünya müharibəsinə girdikdən sonra Osmanlı imperiyası Rusiyaya qarşı hərbi əməliyyatları başladıqda türkçülük ideologiyası ölkənin rəsmi siyasətində əsas yer tuturdu. Ənvər paşa Rusiyaya qarşı aparılan hərbi əməliyyatların əsas məqsədini Rusiya imperiyası tərkibində olan bütün türk xalqlarının çarizmin əsarətindən azad edilməsi və böyük Turan dövlətinin tərkibinə daxil edilməsində görürdü.

"Turan" sözü fars mənşəli olub, iranlıların İranın şimal-şərqindəki ərazilərə verdikləri addır. İlk dəfə macarlar tərəfindən irəli sürülən "turançılıq" siyasi məna etibarilə türk mənşəli bütün xalqların Osmanlı imperiyasının hakimiyyəti altında birləşmələrini və siyasi birlik qurmalarını nəzərdə tuturdu. XX əsrin əvvəllərində siyasi və hərbi proseslərin sürətli axarı türkçülük və turançılıq ideyasının türk xalqları arasında geniş yayılmasına səbəb olmuşdu. İsmayıl bəy Qaspıralı (Qasprinski) türkçülüyün bəzi əsaslarını işləyib hazırlamışdı. Onun 1883-cü ildən etibarən rus və türk dillərində nəşr etdiyi "Tərcüman" qəzetinin türkçülük şüarı: "dildə, fi-

[45] Wallach J.L., Bir Askeri Yardımın Anatomisi, s. 150; Yılmaz V. 1nci Dünya Harbinde Türk-Alman İttifakı ve Askeri Yardımlar, s. 90.

kirdə və işdə birlik" idi. Bu cərəyanın genişlənərək ideologiyaya çevrilməsi və bu ideologiyanın Kazan, Azərbaycan və Türküstanda geniş yayılması Rusiyada genişlənən rus şovinizmi və panslavyanizmə qarşı müqavimət kimi qiymətləndirilirdi.

Türkçülük mövzusunda, türk irqinə söykənən ilk əsaslı və sistemli siyasi tezis İsmayıl bəy Qaspıralının kürəkəni Yusif Akçura tərəfindən ortaya atılmışdır. Onun Rusiyada yazdığı və Misirdə nəşr olunan "Türk Qazetesi"ndə yayımladığı "Üç Tarz-ı Siyasət" tezisi bu mövzuda xüsusi yer tutur. "Üç Tarz-ı Siyasət"də Y.Akçura 3 əsas prinsip üzərində dayanır:

1. Bir Osmanlı milləti meydana gətirmək;
2. İslamçılığa söykənən bir dövlət strukturu qurmaq;
3. İrqə söykənən bir türk siyasi millətçiliyi meydana gətirmək.

Y.Akçura bu üç prinsipdən ilk olaraq "Osmanlılıq" üzərində dayanır və Osmanlı imperiyasının sərhədlərinin qorunması nöqteyi-nəzərindən "Osmanlı milləti" yaratmaq məsələsini yeganə çarə kimi görür. Y.Akçuraya görə, müxtəlif dinə və irqə mənsub olan xalqların "Osmanlı vətəni" və "Osmanlı milləti" düşüncəsi altında birləşdirilməsi qarışıq bir millətin yaradılması ilə nəticələnəcək və bu siyasətin həyata keçiriləcəyi halda Osmanlı imperiyasının hakim etnik ünsürü olan türklər digər xalqlar içərisində əriyib gedəcəklər.[46] Y.Akçura "Osmanlılığ"ın Osmanlı imperiyasına gətirəcəyi fayda və zərərlərə və gerçəkləşməsindəki çətinliklərə aydınlıq gətirdikdən sonra "...zənnimcə, artıq Osmanlı milləti meydana gətirməklə məşğul olmaq, beyhudə bir yorğunluqdur" deyərək, "Osmanlılıq" fikrinin gerçəkləşməsinin mümkün olmayacağını bildirir.[47]

"Osmanlılıq"dan sonra "İslamçılığ"ı təhlil edən Y.Akçura İslamçılığı tam halda rədd etmir. Müsəlmanların əksəriyyətinin böyük (güclü) dövlətlərin müstəmləkəsi altında olduğundan, belə bir vəziyyətdə İslamçılığın ortaya atılması Osmanlı imperiyasını bu dövlətlərlə qarşı-qarşıya gətirəcəyi və Osmanlı təbəəsi içərisində

---

[46] Akçura Y. Üç Tarz-ı Siyaset. Ankara: Türk Tarih Kurumu Yayınları, 1998, s. 27.
[47] Yenə orada, s. 31.

də xeyli miqdarda qeyri-müsəlman olduğundan müəllif bu fikrə də önəm vermir.[48]

"Türkçülük" isə onun tezisinin son bölümünü təşkil edir. Y.Akçuraya görə, "Türk birliyi ilk olaraq Osmanlı imperiyasında türklərin, türk olmadıqları halda az-çox türkləşmiş olanların və "milli vicdandan məhrum" olanların şüurlandırılması və türkləşməsi ilə başlayacaqdır. Sonra Asiya və Şərqi Avropaya yayılan türklərin birləşdirilməsinə keçilərək əzəmətli bir siyasi milliyyət meydana gətiriləcəkdir.

Y.Açkura qeyd edirdi ki, "Türk birliyi" fikri çox yenidir, tarixdə örnəyi yoxdur. Nə Osmanlılar dövründə, nə də daha öncə izinə rast gəlinmir. İstanbulda son illərdə Türk milliyyəti lehinə qurulan bir mərkəz varsa da, bunun fəaliyyəti siyasi olmaqdan çox elmidir. Osmanlı imperiyasından kənarda müxtəlif məmləkətlərdəki türklər arasında da bu siyasət ya yoxdur, ya da Rusiya türkləri arasında olduğu kimi qeyri-müəyyəndir. Türk birliyində ən böyük rolu Osmanlı imperiyası oynayacaqdır. Bu rol Yaponiyanın sarılar aləmində oynadığı rolun ağlar arasında bənzəri olacaqdır.

Türk birliyinin təmin edəcəyi bu yararlarla bərabər zərərləri də olması təbiidir. Xüsusilə, Osmanlı xalqından olan, müsəlman olmayan və türkləşdirilməsi qeyri-mümkün olan topluluqlar Osmanlı imperiyasından ayrılmaq istəyəcəklər. Hətta böyük miqdarda türk xalqına sahib olan Rusiyanın da Türk birliyinə əngəl olmaq istəyi aşkardır. Bütün bu əngəllərə və türklərdən çoxunun keçmişlərini unutmuş olmalarına baxmayaraq, türklərin böyük bir qisminin müsəlman olması Türk milliyyətinin təşəkkülündə önəmli bir amil olacaqdır.[49]

XX əsrin əvvəllərində Türkiyənin siyasi və ictimai xadimləri arasında Osmanlı imperiyasının tənəzzülünün qarşısını almaq məqsədilə həyata keçirilməli olan siyasi tədbirlərlə bağlı gərgin müzakirələr gedirdi. Yuxarıda qeyd etdiyimiz Y.Akçuranın "Osmanlılıq", "İslamçılıq" və "Türkçülüy"ü bu müzakirələrin əsas mövzusu idi. Gizli şəkildə Tibbiyə məktəbində yaranan "İttihad və

[48] Akçura Y. Üç Tarz-ı Siyaset, s. 32-33.
[49] Yenə orada, s. 33-34.

Tərəqqi" cəmiyyətində də bu üç yoldan hansının dövlətin tənəzzülünün qarşısını alacağı və inkişafı təmin etmək üçün reallığa daha çox uyğun olacağı ilə bağlı müzakirələr, mübahisələr getməkdə idi. İttihadçılar iqtidarı ələ keçirdikdən sonra "Osmanlılıq", "İslamçılıq" və "Türkçülük" cərəyanlarının hər üçünə söykənən bir siyasət yürütməyə başladılar. Amma Birinci dünya müharibəsi başladıqdan sonra baş verən ictimai, siyasi və hərbi proseslər nə "Osmanlılığ"ın, nə də "İslamçılığ"ın gerçəkləşməsinin mümkün olmayacağını ortaya çıxartdı. Müharibə başladıqdan sonra ərəblərin ingilislərə, ermənilərin ruslara meyl etmələri və bununla bağlı baş verən hadisələr "Türkçülüy"ü və "Turançılığ"ı ön plana çıxartdı. İttihad və Tərəqqi partiyasının hakim dairələri bundan sonra Qafqaz və Orta Asiya ilə daha çox maraqlanmağa başladılar və "Turançılıq" Osmanlı imperiyasının rəsmi siyasətinə çevrildi.

Həmdullah Sübhi bəy tərəfindən qurulan "Türk Ocaqları" təşkilatı və onun mətbuat orqanı kimi 1911-ci ildən Yusif Akçura tərəfindən nəşr edilən "Türk Yurdu" məcmuəsi türkçülük ideologiyasının yayılmasında müstəsna xidmətlər göstərmişdir. "Türk Ocaqları" təşkilatının ətrafında toplaşan o dövrün məşhur türkçülərindən Yusif Akçura, Məmməd Emin, Halide Edip, Əli bəy Hüseynzadə, Əhməd bəy Ağaoğlu, Ziya Göyalp və digərlərinin İttihad və Tərəqqi partiyasına daxil olmaları, türkçülük ideologiyasının İttihad və Tərəqqi partiyası tərəfindən mənimsənilməsi, partiyanın liderlərindən Ənvər paşa, Tələt bəy və Xəlil bəy Menteşə kimi simaların bu ideologiyanı tamamilə qəbul etmələri Osmanlı hökumətinin xarici siyasətinə əsaslı təsir göstərmiş və Dövlət-i Aliyyənin xarici siyasətinin "Turançılıq" üzərində köklənməsinə gətirib çıxartmışdı.

Osmanlı imperiyası Rusiyaya qarşı müharibəyə başladıqdan sonra "İttihad və Tərəqqi" Cəmiyyəti tərəfindən 1914-cü il noyabrın 11-də cəmiyyətin bütün şöbələrinə göndərilən bəyannamədə deyilirdi: "Vətənimizin və millətimizin milli idealları bizi Moskva düşmənini məhv etməyə yönəltməkdədir; beləliklə, Rusiyadakı bütün irqdaşlarımızı içinə alan, onlarla birləşməyimizə imkan ve-

rəcək təbii hüdudlarımız əldə edilmiş olacaqdır".[50] Bu idealı gerçəkləşdirmək məqsədilə Ənvər paşa Qafqaz cəbhəsində ilk böyük hərbi əməliyyat olan Sarıqamış əməliyyatına başladı. Qafqaz cəbhəsində türk ordusunun qarşısında aşağıdakı vəzifələr qoyuldu: qalib türk orduları bütün Qafqazı tutmalı, Cənubi Azərbaycana keçməli, Xəzər dənizini bütün tərəflərdən əhatə etməli, sonra Volqa-Ural rayonlarında tatar əhalisini və Orta Asiya müsəlmanlarını Rusiyaya qarşı ayağa qaldırmalı idi.

Qafqaz, Orta Asiya, Krım və Volqaboyunun istilası Turan imperiyasının yaradılması işinin məhək daşı idi. İttihad və Tərəqqi partiyasının görkəmli nümayəndəsi Rifat Mövlanzadənin məlumatlarına görə, hərbi nazir Ənvər paşa gənc türklərin liderlərinin müşavirəsində bildirmişdi ki, Almaniyanın köməyi ilə biz təkcə Makedoniyanı deyil, həm də Qafqaz və Misiri tutacaq və İttihad və Tərəqqi partiyasının hakimiyyətini dünyada ən güclü imperiyaya çevirəcəyik.[51]

Ənvər paşa Almaniya, Avstriya və Türkiyə orduları tərəfindən despotizmin məhv edilməsini, türk xalqlarının rus zülmündən azad edilməsini, 30-40 milyon türkün öz müstəqilliyini qazanmasını və Turan imperiyasının yaradılmasını istəyirdi. Sonralar Kazım Qarabəkir paşanın yazdığına görə, Ənvər paşanın düşüncələrində yalnız bir fikir var idi: bir cəhdlə Turan yaratmaq.[52]

Ənvər paşa Qafqaz müsəlmanlarını Rusiyaya qarşı ayağa qaldırmaq üçün Dərbəndə ordu hissələri göndərməyi də planlaşdırırdı. O, rus arxa cəbhəsinə müsəlmanların köməyi ilə zərbə vurmaq istəyirdi. Ənvər paşa deyirdi ki, "bu yürüşə mən böyük əhəmiyyət verirəm, yalnız onun sayəsində biz Asiyanın müsəlmanlarını ayağa qaldıra bilərik".[53] Bu məqsədlə Osmanlı hökuməti Qafqaz müsəlmanları ilə təmas yaratmaq üçün yollar axtarırdı. Ancaq Os-

---

[50] Jaschke G. Der Turanismus der Jungturken. p. 12.
[51] Azərbaycan tarixi. 7 cilddə. V c., s. 164.
[52] Qasımov M. Birinci dünya müharibəsi illərində böyük dövlətlərin Azərbaycan siyasəti (1914-1918-ci illər). 3 hissədə. I hissə (1914-cü il avqust – 1917-ci il oktyabr). Bakı: Qanun, 2000, s. 75.
[53] Yenə orada, s. 75-76.

manlı imperiyası ilə Rusiya (Qafqaz) müsəlmanları arasındakı yolda maneə olan iki xalq vardı: gürcülər və ermənilər. Osmanlı hökuməti Qafqazla bağlı planlarını reallaşdırmaq məqsədilə gürcü və ermənilərdən də faydalanmaq qərarına gəldi və hər iki xalqın qabaqcıl nümayəndələri ilə danışıqlar aparmağa başladı.

İstanbuldakı gürcü kilsəsinin təmsilçiləri 1914-cü il sentyabrın 3-də gürcülərin tam müstəqillik istədiklərini, Almaniya və Avstriya-Macarıstan bu müstəqilliyə zəmanət verib gürcüləri silah-sursatla təmin edərlərsə, o zaman Rusiyaya qarşı vuruşacaqlarını İstanbuldakı Almaniya və Avstriya-Macarıstan səfirliklərinə bildirdilər. Gürcü kilsəsinin bildirdiyinə görə, Osmanlı hökuməti Gürcüstana aid bir sıra bölgələri işğal edib buradakı xristian gürcülərə məhdud hüquqlar vermək istəyir. Amma gürcülər qəti olaraq Osmanlı imperiyasına bağlı və ya ondan asılı bir Gürcüstana qarşı çıxırdılar.[54]

1914-cü ilin sentyabrında Almaniya Xarici İşlər Nazirliyinin təklifi ilə bu zaman Berlində fəaliyyət göstərən "Gürcü Milli Komitəsi"nin liderlərindən Georgi Maçabelli və Mixail Sereteli alman siyasi dairələrinə özlərinin tərtib etdikləri "Cənubi Qafqazın Rusiyadan ayrılması və onun sonrakı siyasi quruluşu" adlı planlarını təqdim etdilər.[55] Planda Cənubi Qafqazın Rusiyadan ayrılmasından sonra burada Almaniyanın siyasi təsiri altında olacaq Cənubi Qafqaz Federativ Respublikasının yaradılması ideyası irəli sürülürdü.[56] Lakin Türkiyənin yardımına ehtiyac duyan Almaniyanın hakim dairələri göstərilən plana Türkiyənin mənafeyi baxımından əhəmiyyətli olan bəzi düzəlişlərin əlavə edilməsini zəruri hesab etdikləri üçün 1914-cü il sentyabrın 27-də Maçabelli və Sereteli tərəfindən Almaniya baş qərargah rəisinin müavini Vesendonka "Qafqazın gələcəkdəki siyasi quruluşu və bitərəfləşdirilməsi layihəsi" adlı yeniləşdirilmiş plan təqdim olundu. Yeni plana əsasən Qafqazda konstitusiyalı monarxiya quruluşunda "Gürcüs-

---

[54] Bihl W. Die Kaukasus Politik der Mittelmächte. T. I, p. 60.

[55] Пипия Г.В. Германский империализм в Закавказье в 1910-1918 гг. Москва: Наука, 1978, с. 64.

[56] Yenə orada, s. 64.

tan Krallığı", "Erməni-Tatar Kantonu" və "Dağlı xalqların federasiyası"ndan ibarət bitərəf bir "Qafqaz Dövlətlər Birliyi"nin yaradılması təklifi irəli sürülürdü.[57] Gürcü Krallığı Almaniya və Avstriya-Macarıstan imperiyalarının yardımları ilə təşkil olunacaq, Qərbi Avropa mənşəli bir prinsin (şahzadənin) hökmranlığında konstitusiyalı bir quruluşa sahib olacaqdı. Əhatə edəcəyi ərazilər Tiflis, Kutais, Batum, Suxum və Qarsın bir hissəsindən ibarət olacaqdı. Erməni-Tatar Kontonu isə Gəncə, Bakı və İrəvan vilayətləri ilə Qarsın türklərin çoxluq təşkil etmədiyi bölgələrindən meydana gələcəkdi. Erməni və tatarlar (azərbaycanlılar) mədəni muxtariyyət alacaqdılar və hətta müsəlman bir prinsləri (şahzadələri) də ola bilərdi, amma qəti olaraq Osmanlı imperiyasının və ya İranın vassal bir dövləti olmayacaqdılar. Dağlı xalqlarına (çərkəzlər, çeçenlər, kabardalılar, inquşlar, osetinlər, ləzgilər) gəlincə, bunların müsəlman bir prinsləri olacaq və eyni zamanda hər bir xalqın ayrıca bir "bəy"i və konstitusiyası olacaqdı. "Qafqaz Dövlətlər Birliyi"nin sərhədlərini Almaniya, Avstriya-Macarıstan, Osmanlı imperiyaları və bu üç Qafqaz dövlətindən təşkil olunacaq bir komissiya müəyyən edəcəkdi. Bu dövlətin vahid pul sistemi, dəniz və quru qoşunları və gömrük birliyi olacaqdı. Bütövlükdə Batum və Qarsın türklər çoxluq təşkil etməyən bölgələri heç bir halda Osmanlı imperiyasına verilməyəcək, bunun əvəzində İrəvanın bir hissəsi ilə Qarsın türklər yaşayan bölgələri Türkiyəyə veriləcəkdi.[58]

1914-cü il sentyabrın 14-də Almaniyanın İstanbuldakı səfiri Vangenheym müharibənin zəfərlə başa çatacağı, düşmən barış masasına oturdulduğu təqdirdə gürcü mühaciri Leo Keresselidzeyə aşağıdakı zəmanəti verdi:

1. Gürcüstan müstəqil bir dövlət olacaq. Nə Rusiya, nə də Osmanlı imperiyası Gürcüstan üzərində hər hansı bir hökmranlıq qurmağa cəhd edəcəkdir.

---

[57] Bihl W. Die Kaukasus Politik der Mittelmächte. T. 1, p. 60; Пипия Г.В. Германский империализм в Закавказье в 1910-1918 гг., с. 66.
[58] Bihl W. Die Kaukasus Politik der Mittelmächte. T. 1, p. 60-61.

2. İndiyə qədər Gürcüstanın ərazisi kimi bilinən bölgələr yenə də Gürcüstana aid olaraq qalacaqdır. Yəni gürcü sərhədləri Novorossiyskin 60 km cənubundan Qara dənizə, oradan Kutais, Tiflis bölgəsini əhatə edərək Dağıstan sərhədinə, oradan Zaqatala da daxil olmaqla Göyçə gölünə çatacaq və Batum, Axıska və Axalkələk ilə Gürcüstan sərhədləri daxilindəki müsəlman gürcülərin yaşadığı bölgələr Gürcüstana aid olacaq. Gəncə, Qars və İrəvan Gürcüstan sərhədləri xaricində qalacaqdır.[59]

Vangenheymin Keresselidzeyə verdiyi bu zəmanətlə Almaniya Gürcüstanın müstəqilliyini tanıyıb, onun sərhədlərini müəyyən etmiş olurdu. Gürcülər də bunun müqabilində Almaniya lehinə təbliğat aparmalı və Rusiyaya qarşı üsyana qalxmalı idilər.

Vangenheym gürcülərə müstəqillik zəmanəti verdikdən sonra, elə həmin gün Gürcüstanın gələcəyi ilə bağlı danışıqlar aparmaq üçün Keresselidzeni Tələt bəy və Ənvər paşa ilə görüşdürdü. Uzun-uzadı aparılmış Osmanlı-Gürcü danışıqları 1914-cü ilin sonlarında (Sarıqamış əməliyyatından əvvəl) müvəqqəti bir müqavilənin imzalanması ilə nəticələndi.

Bu müqaviləyə görə, Osmanlı hökuməti Gürcüstanın müstəqilliyini və Osmanlı torpaqlarında bir gürcü ordusunun təşkil edilməsini qəbul edirdi. Amma bu müstəqillik Gürcüstanın xarici işlərinə müəyyən məhdudiyyətlər qoyurdu. Gürcüstan dövləti daxili işlərində, məsələn, qanun qəbul etmək, idarəçilik və məhkəmə sahəsində tam müstəqil olurdu, ancaq xarici siyasətində Osmanlı imperiyası ilə bərabər hərəkət etməli idi.[60]

Altı maddədən ibarət olan bu müqaviləni Gürcü Komitəsi adından Keresselidze imzaladığı halda, Osmanlı imperiyası adından hər hansı bir nazir deyil, Daxili İşlər Nazirliyinin səlahiyyətli bir məmuru imzalamışdı. Bu müqavilənin Osmanlı hökumətinin səlahiyyətli bir naziri tərəfindən imzalanmaması gürcülərdə müharibənin zəfərlə başa çatacağı təqdirdə Türkiyənin bu müqavilə ilə üzərinə götürdüyü öhdəlikləri yerinə yetirməyəcəyi və Qafqazı öz

[59] Bihl W. Die Kaukasus Politik der Mittelmächte, T. I, p. 63.
[60] Yenə orada, s. 235-236.

nəzarəti altında saxlayacağı ilə bağlı şübhələrin yaranmasına gətirib çıxartmışdı. Başqa sözlə, gürcülər türklərə inanmırdılar.

Osmanlı-Gürcü anlaşılmazlığının bir neçə səbəbi var idi. Birincisi, hər iki tərəf Batuma iddialı idi və onu itirmək istəmirdi. İkincisi, hər iki tərəf müsəlman gürcüləri öz hakimiyyəti altında saxlamaq istəyirdi. Üçüncüsü, gürcülər Osmanlı-Gürcü müqaviləsinin sədrəzəm tərəfindən imzalanmasını və nəhayət, Osmanlı imperiyasının Qafqazdan tamamən əl çəkməsini və Qafqazın Almaniyanın nüfuz dairəsinə daxil edilməsini istəyirdilər.

1915-ci il iyunun 15-də Milli Gürcü Komitəsi İstanbuldakı alman səfiri Vangenheymlə birgə hazırladığı yeni bir layihəni Osmanlı hökumətinə təqdim etdi. Layihədə Gürcüstanın Osmanlı hökuməti tərəfindən tanınması, Osmanlı ərazisində müvəqqəti gürcü hökumətinin və gürcü legionunun təşkil edilməsi, bunların qarşılığında gürcülərin Osmanlı ordusunu dəstəkləmələri və Rusiyaya qarşı Türkiyə lehinə təbliğat aparmaları və digər məsələlər öz əksini tapmışdı.[61]

Osmanlı hökuməti 1914-1915-ci illərdə Qafqaz cəbhəsində Rusiyaya qarşı aparılan hərbi kampaniya uğursuzluqla nəticələndikdən sonra, bir sıra şərtlər daxilində gürcülərlə anlaşmaya hazır olduğunu bildirdi. Nəticədə 1915-ci il sentyabrın 16-da Osmanlı hökuməti Hərbi Nazirliyin şöbə rəisi yarbay İsmət bəy (İnönü) və Milli Gürcü Komitəsinin liderlərindən Georgi Maçabelli tərəfindən hazırlanmış müqaviləni təsdiq etdi. Müqaviləyə görə:

1. Osmanlı hökuməti müstəqil Gürcüstan dövlətini aşağıda qeyd olunan tarixi sərhədlər daxilində qeyd-şərtsiz qəbul edirdi: Qara dəniz sahilində Daxovskdan Abişira-Elbrus-Balta-Azaxo xəttindən Dağıstan sərhədinə, oradan Salavat-Göyçə gölünün şimal sahilindən Çıldır-Balvana və Ardanuça qədər olan ərazilər. Gəncə, Gümrü, İrəvan, Qars və Ərdəhan Gürcüstan dövlətinin sərhədləri xaricində qalacaqdı.

[61] Bihl W. Die Kaukasus Politik der Mittelmächte. T. I, p. 239.

2. Osmanlı hökuməti ruslardan azad olunan gürcü bölgələrində müvəqqəti gürcü hökumətinin qurulmasına və bu hökumətin fəaliyyətinə mane olmayacaqdı.

3. Müvəqqəti gürcü hökuməti qurulduqdan dərhal sonra Osmanlı hökuməti bu hökuməti tanıyacaq və onun göndərəcəyi bir təmsilçini qəbul edəcəkdi.

4. Osmanlı hökuməti heç bir zaman rusların Gürcüstandakı dövlət təsisatları üzərində haqq iddia etməyəcək. Bu təsisatlar uzun illər rus himayəsində qalmağın əvəzi olaraq gürcülərə veriləcəkdi.

5. Osmanlı ordusu Gürcüstanda olduğu müddətdə gürcü xalqından hər hansı bir vergi almayacaqdı.

6. Rusiya-Osmanlı müharibəsinin sonuna qədər Osmanlı hökuməti öz ərazisində Gürcü Komitəsi və gürcü xalqı üçün almanlar tərəfindən göndəriləcək silahların nəqlinə yardımçı olacaqdı.

7. Osmanlı hökuməti öz ərazisində qurulacaq gürcü legionunun təlim-tərbiyəsində Gürcü Komitəsinə yardımçı olacaq, legionerlər isə aşağıdakı qaynaqlardan təmin ediləcəkdi:

– Almaniya, Türkiyə və Avstriya-Macarıstandakı əsir düşərgələrində olan gürcü əsilli əsirlərdən;

– Rusların işğal etdiyi bölgələrdən qaçıb Osmanlı ərazilərində sığınan gürcü qaçqınlarından;

– Könüllü olaraq Gürcüstandan gələcək mülki və hərbi personaldan.

8. Gürcü legionunun zabitləri və komandirləri Gürcü Komitəsi tərəfindən təyin olunacaqdı.[62]

Bu müqavilənin digər maddələri üç bölümdən ibarət idi. Birinci bölüm gürcü ordusunun təşkili və Osmanlı ordusu ilə işbirliyi məsələlərinə aid idi. Buna görə, Osmanlı hökuməti gürcü ordusunun daxili təşkilati işlərinə heç bir şəkildə qarışmayacaq, gürcü ordusunun rəhbər komanda heyətinin təyinatı hər iki tərəfin razılığı ilə Gürcü Komitəsi tərəfindən həyata keçiriləcək və gürcü ordusu Osmanlı Qafqaz ordusunun əmrində olacaqdı. İkinci bölümdə,

---

[62] Jaschke G. Der Turanismus der Jungturken. p. 13-14.

Osmanlı hökumətinin Gürcüstandakı hüquqlarının çərçivəsi müəyyən olunurdu; Müharibə dövründə Osmanlı hökuməti Gürcüstandakı dəmir yollarından, nəqliyyat vasitələrindən istifadə edə bilərdi. Həmçinin, müvəqqəti gürcü hökumətinin icazəsi ilə türklər öz ordusuna lazım olan materialları toplaya bilərdi. Üçüncü bölüm isə, Milli Gürcü Komitəsinin öz üzərinə götürdüyü öhdəliklərə aid idi. Buna görə, Gürcü Komitəsi müharibə dövründə türk ordusuna bütün sahələrdə yardım edəcək, Türkiyə lehinə, Rusiya əleyhinə Gürcüstan torpaqlarında təbliğat aparacaq və bütün imkanlarını səfərbər edərək, Gürcüstanda Rusiyaya qarşı üsyanın başlaması üçün lazımi təşkilatçılığı təmin edəcəkdi.[63]

Bu müqavilə ilə Osmanlı hökuməti gürcülərə müharibədə özünün qalib gələcəyi təqdirdə sərhədləri də müəyyən edilməklə müstəqil Gürcüstan dövlətinin yaradılacağını təəhhüd etmiş olurdu. Amma türk qoşunları gürcü ərazilərinə girəndə gürcülərin Rusiyaya qarşı hər hansı bir üsyanına rast gəlinmədi. Sadəcə acarlar silaha sarıldılar və Oltu-Ərdəhan cəbhəsində ruslara qarşı şiddətlə vuruşdular. Türk orduları geri çəkilmək məcburiyyətində qalanda isə, acarlar üçün fəlakət başlanmış oldu. Rusların alacağı intiqamın qorxusundan 60 mindən çox acar türk torpaqlarına sığındı.[64] Yerdə qalan acar əhalisinə qarşı ruslar qətliam həyata keçirdilər.

Gənc türklər 1908-ci ildə daşnaklarla da danışıqlar aparmağa başlamışdılar. 1914-cü ilin avqust ayının əvvəllərində Daşnaksütyun partiyasının Ərzurumda keçirilən səkkizinci konqresində İttihad və Tərəqqi partiyasının təmsilçiləri Ömər Naci, Bahəddin Şakir və Hilmi bəy daşnaklara Türkiyənin ermənilər yaşayan və müharibə nəticəsində Rusiyadan alınacaq Cənubi Qafqazın bəzi bölgələrini özündə birləşdirəcək muxtar erməni dövləti yaradılmasını təklif etmişdilər. Bunun qarşılığında ermənilər müharibədə Türkiyəni dəstəkləməli və Rusiyaya qarşı üsyan qaldırmalı idilər. Lakin bu təklif Daşnaksütyun partiyası tərəfindən rədd edildi.[65]

---

[63] Bihl W. Die Kaukasus Politik der Mittelmächte. T. I, p. 74-82.

[64] Kurat A.N. Türkiye ve Rusya, s. 499.

[65] Jaschke G. Der Turanismus der Jungturken, p. 15; Kazemzadeh F. The Struggle for Transcaucasia, p. 26; Swietochowski T. Müslüman Cemaatten

Daşnaklar partiyanın İstanbul komitəsi ilə Qafqaz bürosunun birləşdirilməsi məsələsini qəti olaraq həll edib, başlanacaq müharibədə Osmanlı imperiyasına qarşı Rusiyanın yanında yer almaq haqqında qərar qəbul etdilər[66] və beləliklə də öz xalqlarının sonrakı taleyini müəyyənləşdirdilər.

Osmanlı hökuməti Rusiyaya qarşı müharibədə Azərbaycan və Dağıstan müsəlmanlarının köməyinə ümid bəsləyirdi. Lakin müharibənin əvvəllərində Osmanlı hökuməti Azərbaycanın müstəqilliyinə dair heç bir vəd vermir, onun gələcək Turan imperiyasının tərkibinə qatılmasını planlaşdırırdı.[67]

Ənvər paşa Osmanlı imperiyasının bütün imkanlarını reallaşmasına inandığı Turançılıq ideyasının həyata keçirilməsinə səfərbər etməyə çalışırdı. Rusiya imperiyası tərkibində yaşayan türk xalqlarını, xüsusilə Azərbaycan və Dağıstan müsəlmanlarını çarizmin əsarətindən azad edərək böyük Turan imperiyasının tərkibinə qatılmasını planlaşdıran Ənvər paşa siyasi və hərbi fəaliyyətində daim bu planı diqqət mərkəzində saxlayırdı.

Osmanlı hərbi komandanlığı bir neçə cəbhədə müharibə aparmasına baxmayaraq, Qafqaz cəbhəsini digər cəbhələrdən daha mühüm əhəmiyyət kəsb edən döyüş meydanı hesab edirdi. Qafqaz cəbhəsində 3-cü ordunun tərkibində 1914-cü ilin sonlarında bütün türk hərbi qüvvələrini əhatə edən 40 piyada diviziyadan 11-i vuruşurdu. Bundan əlavə 3-cü ordu komandanlığının sərəncamına 1 süvari diviziyası və 4 ½ kürd irrequlyar süvari diviziyalar verilmişdi. Səciyyəvi haldır ki, ingilis ordularının ciddi-cəhdlə qoruduqları Süveyş kanalını ələ keçirmək üçün türk hərbi komandan-

---

Ulusal Kimliğe Rus Azerbaycanı, s. 111; Yerasimos S. Milliyetler ve Sınırlar. Balkanlar, Kafkasya ve Ortadoğu. Türkçeye çeviren: Şirin Tekeli. İstanbul: İletişim Yayınları, 1994, s. 282.

[66] Борян Б.А. Армения, международная дипломатия и СССР. В двух томах. Москва-Ленинград: Государственное Издательство, 1928, с. 359.

[67] Swietochowski T. Müslüman Cemaatten Ulusal Kimliğe Rus Azerbaycanı, s. 111-112.

lığının Camal paşanın başçılığı altında göndərdiyi hərbi qüvvələr Qafqazdakı türk hərbi qüvvələrindən iki dəfə az idi.[68]

1914-cü il noyabrın əvvəllərində 3-cü türk ordusu Ərzurum-Sarıqamış istiqamətindən hücuma keçdi və Acarıstanadək irəliləməyə nail oldu. İlk uğurlardan ruhlanan və buna böyük əhəmiyyət verən Ənvər paşa orduya komandanlığı şəxsən öz üzərinə götürdü və böyük hücuma başlamaq əmrini verdi. Ənvər paşanın əsas məqsədi Qars və Sarıqamış arasında rus qoşunlarını məğlub etmək idi. Burada rusların dayaq məntəqəsi yerləşirdi. Bu əməliyyatın uğurla qurtaracağı təqdirdə Cənubi Qafqazın istilası əslində həll edilmiş olurdu.[69]

1914-cü ilin dekabrın 22-dən 1915-ci ilin yanvarın 19-dək davam edən Sarıqamış əməliyyatında yüksək dağlar, yolsuzluq, sərt şaxtalar kimi çox ağır bir şəraitdə türk ordusu göstərdiyi fədakarlıqlara baxmayaraq, rus cəbhəsini yara bilməyib fəlakətlə üzləşdi, 118 min nəfərlik 3-cü ordu 86 min əsgər itirdi.

Qafqaz cəbhəsində türk və rus orduları arasında gərgin döyüşlərin getdiyi bir vaxtda Ənvər paşa əmisi Xəlil bəyin komandanlığı altında Cənubi Azərbaycana və Qafqaza 13 min nəfərdən ibarət bir ordu göndərdi.[70] Xəlil bəyin bu ekspedisiya korpusu Təbrizi tutduqdan sonra Şimali Azərbaycana keçərək Bakını tutmalı, sonra Dağıstana doğru irəliləyib müsəlman əhalisini Rusiyaya qarşı ayağa qaldırmalı, rus ordusuna arxadan zərbə vuraraq onları Xəzər dənizinin qərb sahillərindən geri oturtmalı idi. Xəlil bəyin bu ekspedisiya korpusu 1914-cü il dekabrın 11-də İstanbuldan qatarla hərəkətə başladı. Elə həmin gün Ənvər paşa Köprüköydən Xəlil bəyə göndərdiyi teleqramda bu ordunun vəzifəsini detallarına qədər açıqlayırdı: "Vəzifəniz firkanızla İranda Təbriz üzərindən Dağıstana yürüyərək orada ümumi bir üsyana əsas olmaq, yürüş əs-

[68] Hətəmov R. Almaniyanın Şərq siyasətində yeni meyllər və Qafqaz uğrunda mübarizə (1917-ci ilin sonu – 1918-ci ilin mayı). I məqalə // Tarix və onun problemləri, 1998, № 4, s. 60.
[69] Azərbaycan tarixi. 7 cilddə. V c., s. 165.
[70] Birinci Dünya Harbinde Türk Harbi, Kafkas Cebhesi, 3. Ordu Harekatı, C. II, Ankara: Genelkurmay Basımevi, 1993, s. 424.

nasında rus dəmir yol və teleqraf xətlərini, xüsusilə Bakı-Tiflis xəttini dağıdıb, rusları Xəzər dənizinin qərbindən geri oturtmaq; yoldakı əşirətləri ruslar əleyhinə müharibəyə təşfiq və sövq etməkdir".[71]

Xəlil bəyin ekspedisiya korpusu 1915-ci ilin yanvarında Təbrizi ələ keçirdi. Gənc türklər hərəkatının görkəmli xadimi, İttihad və Tərəqqi partiyasının Azərbaycan və Qafqaz üzrə baş müfəttişi təyin olunmuş Ömər Naci Azərbaycanın şimal və cənub hissələrinin Türkiyənin himayəsi altında birləşdirilməsi ideyasını irəli sürdü və Bakı istiqamətində hərəkət etmək üçün, Cənubi Azərbaycandakı şahsevən tayfaları ilə əlaqə yaradaraq, onlardan silahlı dəstələr formalaşdırmağa başladı.[72] Lakin Ömər Nacinin bu planı baş tutmadı. 1915-ci il yanvarın sonunda rus qoşunları hücuma keçib Təbrizə daxil oldular, Xəlil bəyin ekspedisiyası Təbrizi tərk etmək məcburiyyətində qaldı.

Buna baxmayaraq, Osmanlı hərbi komandanlığı Turançılıq ideyasını həyata keçirmək üçün strateji cəhətdən xüsusi əhəmiyyət kəsb edən Cənubi Azərbaycanın tutulmasına böyük önəm verirdi. Xəlil bəy baş komandan vəkilinə yazırdı ki, əgər Təbriz bizim əlimizdə olarsa, ruslar əbədi olaraq İrana girə bilməyəcəklər və Şərqi Qafqazın işğalı mümkün olacaq.[73] Ənvər paşa tərəfindən Xəlil bəyə "Mosuldan Təbrizə hərəkət etməsi və rusların yenidən Təbrizdən çıxarılması" əmri verildi. Xəlil bəy 1915-ci il martın əvvəllərində Mosula girdi və oradan Rəvandüz-Urmiya istiqamətində hərəkət etməyə başladı. Lakin mayın 1-də Dilman döyüşündə Xəlil bəyin korpusu ruslar tərəfindən məğlub edildi[74] və tezliklə Cənubi Azərbaycandan sıxışdırılıb çıxarıldı. Türk qoşunlarının Cənubi

[71] ATASE, BDH, K. 17, D. 83, F. 3.
[72] Swietochowski T. Müslüman Cemaatten Ulusal Kimliğe Rus Azerbaycanı, s. 113-114.
[73] Bayur Y.H. Türk İnkılabı Tarihi. C. III, 1914-1918 Genel Savaşı. K. I. Ankara: Türk Tarih Kurumu Yayınları, 1983, s. 5.
[74] Pomiankowski J. Osmanlı İmperatorluğu'nun Çöküşü. "1914-1918. I Dünya Savaşı". Çeviren: Kamal Turan. İstanbul: Kayıhan Yayınları, 1990, s. 131; Halil Paşa. İttihat ve Terakki'den Cumhuriyet'e Bitmeyen Savaş, s. 138-139.

Azərbaycandakı bu uğursuzluğu Osmanlı imperiyasının Azərbaycanla bağlı planlarının reallaşmasına imkan vermədi.

1915-ci ilin fevralında Gəncədə fəaliyyət göstərən "Difai" təşkilatının nümayəndəsi Əmiraslan xan Xoyski (Fətəli xan Xoyskinin qardaşı oğlu) gizli surətdə cəbhə xəttini keçərək, Ənvər paşanın Ərzurumda olan qərargahına gəlib Osmanlı hərbi komandanlığının nümayəndələri ilə görüşmüşdü. Osmanlı rəsmi dairələri tərəfindən "özünü "Difai" cəmiyyətinin qurucularından olduğunu bəyan edən" Əmiraslan xan haqqında Əhməd bəy Ağaoğludan ətraflı məlumat alındıqdan[75] sonra o, Ənvər paşa tərəfindən qəbul edildi. Danışıqlarda Əmiraslan xan Ənvər paşaya Qafqazda bir çox millətlərin daxil olduğu İsveçrə tipli müstəqil bir dövlət qurulmasını təklif etdi.[76] Əmiraslan xanın bu səfərdə əsas məqsədi Bakı, Yelizavetpol, İrəvan quberniyaları ilə Terek və Dağıstanı əhatə edəcək bir dövlətin qurulması işinə Osmanlı hökumətinin razılığını və yardımını almaq idi.[77]

Ənvər paşaya təqdim edilən layihədə Azərbaycanın Osmanlı imperiyasına birləşdirilməsindən deyil, burada müstəqil bir dövlətin yaradılmasından söhbət gedirdi. Bunun müqabilində Əmiraslan xan Qafqazda yüz minlərlə müsəlmanın Rusiyaya qarşı döyüşməyə hazır olduğunu bildirib, əgər Osmanlı imperiyası Cənubi Azərbaycandan dəstək verərsə, Dağıstan və Cənubi Qafqaz müsəlmanlarını Rusiyaya qarşı üsyana qaldırmağa söz verirdi.[78] Sarıqamış fəlakətini yaşamış Ənvər paşa bu layihəni məqbul hesab etdi. Bununla da, Qafqazda Rusiya və Osmanlı imperiyaları arasında bufer rolunu oynayacaq bir müsəlman dövlətinin qurulması fikri ortaya atılmış oldu.

[75] BOA, DH.EUM.KLH, no. 1/22, v. 1-2; DH.EUM. 2.Şb., no. 5/41, v. 1-4.

[76] Jaschke G. Der Turanismus der Jungturken. p. 16; Kurat A.N. Türkiye ve Rusya, s. 500.

[77] Jaschke G. Der Turanismus der Jungturken, p. 16; Swietochowski T. Müslüman Cemaatten Ulusal Kimliğe Rus Azerbaycanı, s. 115.

[78] Bihl W. Die Kaukasus Politik der Mittelmächte. T. I, p. 71; Swietochowski T. Müslüman Cemaatten Ulusal Kimliğe Rus Azerbaycanı, s. 115.

Əmiraslan xan eyni zamanda 1915-ci il fevralın 8-də Almaniyanın Ərzurumdakı konsulluğuna gedərək Qafqaz müsəlmanlarını Rusiyaya qarşı ayağa qaldırmaq və Qafqazın gələcək statusu ilə bağlı alman rəsmiləri ilə də danışıqlar apardı. O, danışıqlarda yüz minlərlə Qafqaz müsəlmanını Rusiyaya qarşı ayağa qaldırmaq istəyini qeyd edərək, əsl məqsədinin Osmanlı dövləti və Rusiyadan asılı olmayan, ancaq Almaniya və Osmanlı imperiyaları ilə hərbi müqavilələri olan, "İsveçrə tipli" bir Qafqaz dövləti yaratmaq olduğunu bildirdi. Əmiraslan xan Qafqaz müsəlmanlarını Rusiyaya qarşı ayağa qaldırmaq üçün üç şərt irəli sürürdü: 1. Almaniyanın Qafqazın müstəqilliyinə təminat verməsi; 2. Osmanlı imperiyasının bu üsyanları bir diviziya ordu ilə dəstəkləməsi; 3. İki və ya üç alman zabitinin Qafqaza göndərilməsi.

Əmiraslan xanın təqdim etdiyi plana görə, Rusiyaya qarşı üsyan Dağıstan, Gəncə, İrəvan, Bakı və Vladiqafqaz bölgələrində baş verəcəkdi. Üsyan uğurla nəticələndiyi təqdirdə, hər bölgənin və ya vilayətin idarəçiliyi öz bəylərinin əlinə veriləcək və bu bəylərin idarəçiliyindəki bölgələrdən ibarət Qafqaz federasiyası təşkil olunacaqdı.

Üsyan iki qrup halında başlamalı idi: "A" qrupu Şuşa üzərindən Nuxaya hərəkət edib, Xaldanın cənubundakı dəmir yolu körpüsünü dağıtdıqdan sonra Gəncə yaxınlığındakı silahlı dəstələrlə (üsyançılarla) birləşib Gəncə üzərinə hərəkət etməli, Gəncə zəbt edildikdən sonra əməliyyat Tiflis və Vladiqafqaz istiqamətində davam etdirilməli idi. "B" qrupu isə Çenkin cənubundan hərəkətə keçərək, Tek-Çay dəmir yolu körpüsünü dağıtmalı, dəmir yolu əlaqəsi kəsilmiş olan Bakını tutmalı və Dərbənddə olan rus ordusunun irəliləməsinin qarşısını almalı idi. Sərhəddəki Osmanlı diviziyasının vəzifəsi isə mümkün qədər uzun müddət rus ordusunun başını qatmaqla üsyançıların toplanması və silahlanması üçün vaxt qazanmaq olacaqdı.[79]

1915-ci ilin sentyabrında Əmiraslan xan İstanbula gedərək Almaniyanın İstanbuldakı səfiri Vangenheym ilə də müsəlmanla-

---

[79] Çolak M. Alman İmperatorluğu'nun Doğu Siyaseti Çerçivesinde Kafkasya Politikası. s. 75-76.

nın Rusiyaya qarşı ayağa qaldırılması və Qafqazın gələcək statusu ilə bağlı danışıqlar apardı. O, danışıqlarda Rusiya hökumətinin indiyə qədər hərbi xidmətə çağırmadığı müsəlmanları orduya çağırmağa başladığını, bunun da rus ordusunda xidmət etmək istəməyən müsəlmanların ciddi narazılığına səbəb olduğunu və beləliklə, lazımi qədər silah və sursata da malik olan Qafqaz müsəlmanlarının Rusiyaya qarşı ayağa qaldırılması üçün münasib zamanın yetişdiyini alman səfirinin diqqətinə çatdırdı. Danışıqların yekunu olaraq, Əmiraslan xan Vangenheymdən Qafqazın müstəqil olacağına dair təminat aldı. Amma bu təminat Qafqaz müsəlmanlarının Rusiyaya qarşı üsyanı uğurla nəticələndiyi və Almaniya-Osmanlı bloku müharibədən qalib çıxdığı təqdirdə keçərli olacaqdı.[80]

Onu da qeyd etmək lazımdır ki, artıq bu dövrdə, Sarıqamış əməliyyatında fəlakətlə üzləşmiş və əməliyyatdan sonrakı dövrdə də rus ordusu tərəfindən ağır zərbələr almış 3-cü ordu Əmiraslan xanın Qafqaz müsəlmanlarını Rusiyaya qarşı ayağa qaldırmaq üçün Türkiyə və Almaniya qarşısında irəli sürdüyü ikinci şərti – üsyançıların toplanması və silahlanması üçün vaxt qazanmaq məqsədilə rusların başını Qafqaz cəbhəsində qatmaq üçün güclü bir türk ordusunun rus ordusuna qarşı vuruşmasını – həyata keçirmək iqtidarında deyildi. Digər tərəfdən almanlar Əmiraslan xanın dediklərinə (yüz minlərlə müsəlmanın Rusiyaya qarşı ayağa qalxmaq üçün hazır olması, lazımi qədər silahlarının da olması və s.) bir qədər şübhə ilə yanaşırdılar. 1915-ci ilin əvvəllərindən başlayaraq türk ordusunun rus ordusu qarşısında dalbadal məğlubiyyəti və geriləməsi səbəbindən Qafqaz müsəlmanları ilə əlaqələrin tamamilə kəsilməsi, müsəlmanların Rusiyaya qarşı ayağa qalxmaq istəyinin doğru olub-olmadığını yoxlamağın qeyri-mümkünlüyü, habelə Əmiraslan xandan başqa bu bölgədən digər bir kimsə ilə əlaqələrin olmaması bu şübhələrin yaranmasına səbəb olurdu.

Qafqaz müsəlmanları ilə əlaqə yaratmağı vacib hesab edən Ərzurumdakı alman hərbi missiyası güclü bir rus ordusunun olmadığı Cənubi Azərbaycan vasitəsilə Qafqaz müsəlmanları ilə əlaqə

[80] Çolak M. Alman İmperatorluğu'nun Doğu Siyaseti Çerçivesinde Kafkasya Politikası. s. 77.

yaratmaq fikrini irəli sürdü və bu məqsədlə 3-cü ordunun seçmə əsgərlərindən ibarət iki kiçik birlik təşkil edildi. Bu birliklərdən birinə Ömər Naci, digərinə isə Almaniyanın Ərzurumdakı konsulunun köməkçisi olan M.Şoybner-Rixter komandan təyin edildi.[81] Ömər Nacinin birliyində yaxşı təlim görmüş 500 atlı, bir dağ topu, Şoybnerin birliyində isə 100 atlı, bir dağ topu, 30 könüllü və beş alman zabiti var idi.

Ömər Naci və Şoybner əsgəri birlikləri ilə 1915-ci ilin sentyabr ayının axırlarında Ərzurumdan Bitlis-Başkala-Urmiya istiqamətində hərəkət etməyə başladılar. Amma Bitlisə çatdıqda Van gölünün cənubunda güclü bir rus ordusunun olduğunu öyrəndikdən sonra marşrutlarını dəyişərək Mosula, oradan da Cənubi Azərbaycana doğru hərəkət etməyi qərara aldılar. Mosula çatdıqda Ömər Naci və Şoybnerin birlikləri 6-cı ordunun komandanı general Kolmar von der Qoltz tərəfindən ərəb, nasturi və ermənilərin Cizrə yaxınlığında qaldırdıqları qiyamları yatırmaq üçün göndərildi. Şoybner isə bu qiyamların Osmanlı imperiyasının daxili işi olduğunu və bir alman zabiti kimi bu işə qarışmayacağını bildirərək öz birliyindən ayrılıb Mosulda qaldı və digər alman zabitlərini də geri çağırdı. Nəticədə, Şoybnerin 130 nəfərdən ibarət birliyi də Ömər Nacinin sərəncamına verildi. Ömər Naci də öz növbəsində, Osmanlı imperiyasına qarşı qalxmış qiyamları yatırmaqla məşğul oldu və Cənubi Azərbaycana, son nəticədə isə Qafqaza gəlib çıxa bilmədi.

1916-cı ilin əvvəllərində Şoybner Mosulda Ənvər paşanın əmisi Xəlil paşanın yardımı ilə Cənubi Azərbaycandan keçməklə Şimali Azərbaycan müsəlmanları ilə əlaqə yaratmaq (onları Rusiyaya qarşı üsyana sövq etmək) məqsədilə 6-cı ordunun əsgərlərindən və könüllü kürd tayfalarından ibarət yeni bir birlik (tabur) təşkil etdi. 1916-cı ilin fevral-may aylarında İran ərazisində Şoybnerin hərbi dəstəsi ilə ruslar arasında bir sıra toqquşmaların baş verməsinə baxmayaraq, Şoybner rus ordusunun mövqelərini yarıb Şimali Azərbaycana daxil olmağa müvəffəq olmadı.

---

[81] Çolak M. Alman İmperatorluğu'nun Doğu Siyaseti Çerçivesinde Kafkasya Politikası. s. 78. 138.

Bu arada Əmiraslan xan Xoyski İstanbuldan Ərzuruma gələrək buradakı alman hərbi missiyasının rəhbəri Şulenburq ilə görüşdü və artıq əlində Almaniyanın Şərqi qafqazlıların müstəqilliyini tanıması ilə bağlı Vangenheymin verdiyi təminatın olduğunu, yubanmadan Bakıya gedəcəyini, gürcüləri və Osmanlı birliklərini gözləmədən müsəlmanları ayağa qaldıracağını bildirdi. Əmiraslan xan Vangenheymə Bağdad-Tehran-Ənzəli yolu ilə Bakıya gedəcəyini bildirsə də, qəfil fikrini dəyişib Mosula, oradan Bakıya getmək qərarına gəldi. Mosula gəldikdən sonra o, burada Osmanlı hökuməti tərəfindən toplanan könüllü atlı birliklərin komandanı vəzifəsinə təyin edildi.[82] Bu təyinatı qısqanclıqla qarşılayan almanlarda Əmiraslan xanın Ömər Nacinin təsiri altına düşməsi və türkçülərin istəyi ilə hərəkət etməsi ilə bağlı müəyyən şübhələr yaranmağa başladı. Və bu təyinata cavab olaraq İstanbuldakı alman səfirliyi Şərqi Qafqazın müstəqilliyi ilə bağlı Əmiraslan xana verdiyi təminatı qəbul etmədiyini, onun geri qaytarılmasını və ya hökmsüz saymasını ondan tələb etdi. Əmiraslan xan bu tələbi rədd etdi, lakin 1916-cı il mayın əvvəllərində almanların istəyi ilə Mosul valisi Heydər bəy tərəfindən həbs olundu. Az sonra Əmiraslan xan alman səfirinin ona verdiyi təminat vərəqini geri qaytardıqdan sonra həbsdən azad edildi.[83] Bu hadisədən sonra Əmiraslan xan öz nüfuzunu və ona qarşı olan inamı itirdi, onun sonrakı müraciətlərinə Osmanlı və Almaniya rəsmiləri tərəfindən heç bir reaksiya verilmədi.

Almaniya Qafqaz xalqlarını Rusiyaya qarşı ayağa qaldırmaq üçün maliyyə yardımlarını da əsirgəmirdi. Bu məqsədlə Almaniya hökuməti ilk altı ayda 5 mln. marka pul ayırmışdı. Bu məbləğin 50.000-i Qafqaz xalqlarını üsyana hazırlayacaq milli liderlərə, önəmli şəxsiyyətlərə və öncüllərə alınan hədiyyələrə, 3.378.900-ü isə üsyançılara maliyyə yardımı və digər nəzərdə tutulmamış xərclər üçün ayrılmışdı. 1916-cı ilin fevralına qədər Qafqaz hərbi

[82] Bihl W. Die Kaukasus Politik der Mittelmächte. T. I. p. 71.
[83] Yenə orada, s. 71-72.

missiyasının rəhbəri olan Şulenburqa 1.158.000 marka pul göndərilmişdi.[84]

Almaniya Baş Qərargahının siyasi şöbəsinin rəsmisi Nadolni Şulenburqa Qafqazla bağlı aşağıdakı vəzifələrin həyata keçirilməsini tapşırmışdı:

a) Şimali Qafqazda çərkəzlərin və çeçenlərin yaşadığı bölgələrdə, Rostov-Dərbənd dəmir yolunda sabotaj təşkil edərək dəmir yolunun işini pozmaq;

b) Tatarların (azərbaycanlıların – V.Q.) və dağıstanlıların yaşadığı bölgələrdə sabotaj yolu ilə Xəzər dənizindəki gəmi səfərlərinin işini pozmaq və Bakı-Tiflis, Bakı-Dərbənd, Tiflis-Culfa dəmir yollarının müntəzəm işləməsinə mane olmaq üçün Bakıdakı neft anbarlarını məhv etmək;

c) Tiflisdən qərbdə, gürcülərin yaşadığı bölgələrdə isə əsas hədəf Qara dənizdəki rus gəmi səfərlərinin və Batum-Tiflis dəmir yolunun işini pozmaq.[85]

Almaniya müharibədə Rusiya üçün xüsusi rol oynayan, rus iqtisadiyyatının mühüm mənbələrindən biri olan Bakı neft mədənlərinin məhv edilməsinə də xüsusi əhəmiyyət verirdi. Bu məqsədlə Almaniyanın Ərzurum konsulluğuna göndərilən neft mühəndisi Paul Şvars, konsul köməkçisi Şoybner-Rixter, bölgəyə agent kimi göndərilən Alois Mosel, türk ordusuna təlim keçmək üçün göndərilən Viktor Pitşman kimi şəxslər ayrılmış və onlara Bakı neft mədənlərini məhv etmək üçün xüsusi tapşırıqlar verilmişdi.[86] Bu dövrdə Şulenburqun əmrində xidmətdə olan alman zabiti Paul Leverkun öz xatirələrində almanların Bakı neft mədənlərini və digər kommunikasiya vasitələrini məhv etməklə bağlı planları haqqında yazırdı: "Rusiyanın əsas xammal mənbələrindən biri Bakı nefti idi. Məqsədimiz bu bölgədə dağıdıcı fəaliyyətlər təşkil etmək, sabotajlarla körpü və dəmir yollarının istifadəsini çətinləşdirmək idi. Eyni zamanda bu durum bölgədəki türk hücumlarının uğurlu olub-olmayacağını müəyyənləşdirdiyindən, bu məqsəd hərbi və siyasi

---

[84] Bihl W. Die Kaukasus Politik der Mittelmächte. T. I, p. 69.
[85] Yenə orada, s. 70.
[86] Yenə orada, s. 65-67.

bir əhəmiyyət daşıyırdı. Xüsusilə də, Bakıdan Tiflisə, Batuma və Qara dənizə uzanan boru xəttinin kəsilməsi; Bu müvəffəqiyyəti təmin etmək üçün Şimali İran üzərindən hərəkət etmək və ya başqa bir yoldan irəliləməyi təmin edəcək imkanları tapıb sınaqdan keçirmək və lazım olarsa həyata keçirmək Şoybnerin vəzifəsi olmalı idi".[87]

Bütün bunlara baxmayaraq, almanlar Bakı neft mədənlərinin məhv edilməsi və Cənubi Qafqazın digər strateji obyektlərinə zərər vurmaqla bağlı planlarını reallaşdıra bilmədilər. Onu da qeyd edək ki, Şulenburq Ərzurumda Əmiraslan xanla görüşündə də Bakı neft mədənlərinin dağıdılması məsələsini ortaya atmışdı. Lakin Əmiraslan xan Bakı neft mədənlərinin "Difai"nin və azərbaycanlıların gəlir mənbəyi olduğunu, xalqın neft mədənlərinə hər hansı bir ziyan vurulmasını istəmədiyini və mədənlərin möhkəm qorunduğunu əsas gətirərək bu məsələyə qarşı çıxmışdı.[88]

Almanlar üçün Qafqaza gedən yol İstanbuldan keçirdi. Ona görə də, Almaniya müharibənin başlanğıcından Brest-Litovsk sülhünə qədər olan dövrdə Qafqaz siyasətini Osmanlı imperiyası ilə bərabər və İstanbul vasitəsilə həyata keçirirdi. Bu səbəbdən bəhs olunan dövrdə türklərin Qafqazla bağlı fəaliyyətləri təkcə Osmanlı imperiyasının deyil, eyni zamanda Almaniyanın da Qafqaz siyasəti kimi xarakterizə olunmalıdır. 1915-ci ilin əvvəllərinə qədər olan dövrdə isə Almaniya Qafqazla bağlı bütün işlərdə və fəaliyyətlərdə Osmanlı imperiyasının öndə olmasını istəyirdi.

Osmanlı hökuməti də Qafqazla bağlı planlarını reallaşdırmaq üçün sadəcə hərbi əməliyyatlar və Qafqaz xalqlarını Rusiyaya qarşı ayağa qaldırmaqla bağlı fəaliyyətlə kifayətlənməyib, diplomatik-siyasi vasitələrdən də istifadə edirdi. Müharibənin əvvəllərində Ənvər paşanın təlimatı və yardımı ilə çərkəz əsilli Osmanlı marşalı Fuad paşa İstanbulda Şimali qafqazlı, azərbaycanlı və gürcülərdən ibarət "Qafqaz Komitəsi" adlı bir təşkilat yaratmış-

---

[87] Leverkuehn P. Sonsuz Nöbette Görev. Çeviren: Zakiye Hasançebi. İstanbul: Arba Yayınları, 1998, s. 18.

[88] Çolak M. Alman İmperatorluğu'nun Doğu Siyaseti Çerçivesinde Kafkasya Politikası. s. 86.

dı.[89] Qafqaz xalqlarının apardığı milli istiqlal mübarizəsini Türkiyənin himayəsi altında birləşdirməyə çalışan bu komitə Qafqazda bir neçə muxtar ölkədən ibarət vahid dövlətin yaradılmasını və bu dövlətin idarəsinin Osmanlı şahzadəsinə verilməsini təklif edirdi.[90]

Bu ideyanın həyata keçirilməsi üçün Almaniya və Avstriya-Macarıstanın dəstəyinə ehtiyac duyan "Qafqaz Komitəsi" Fuad paşanın rəhbərliyi ilə, Əziz Meker (çərkəz), İsa Kotseki (Dağıstan), Georgi Maçabelli (gürcü), Kamil Tavqridze (gürcü) və Səlim Behbudovdan (azərbaycanlı) ibarət bir heyəti 1915-ci il noyabrın 18-də danışıqlar aparmaq üçün Vyana və Berlinə yola saldı.[91] Bütün xərcləri Osmanlı hökuməti tərəfindən ödənilən bu səfərdə əsas məqsəd qeyd olunan ideyanın reallaşması üçün Almaniya və Avstriya-Macarıstandan dəstək və kömək almaq, habelə bu ideya ətrafında Avropada təbliğat aparmaqdan ibarət idi. Amma hər iki ölkənin rəsmi dairələri nümayəndə heyətinə Qafqaz xalqlarının Rusiyaya qarşı apardıqları mübarizəni dəstəklədiklərini və müstəqil bir Qafqaz dövlətinin yaradılmasının tərəfdarı olduqlarını bildirməklə kifayətləndilər.

Komitənin Şimali Qafqazdan olan nümayəndələri ilə Cənubi Qafqaz nümayəndələri arasında bir sıra məsələlərdə fikir ayrılıqları yarandığından 1916-cı ilin aprelində Qafqaz Komitəsi dağıldı. Qafqaz Komitəsinin gürcü və azərbaycanlı nümayəndələri isə "Şimali Qafqazdan Türkiyəyə Sığınanlar Komitəsi"nə girdilər[92] və eyni zamanda, bu nümayəndələrin əksəriyyəti həmin dövrdə Almaniyanın da dəstəklədiyi "Rusiyaya düşmən xalqların liqası"nda fəaliyyətlərini davam etdirdilər.[93]

Osmanlı imperiyası Rusiyaya qarşı müharibəyə başladıqdan az sonra, "Rusiyada yaşayan türk-müsəlman xalqlarının öz mənə-

---

[89] Bal H. Kuzey Kafkasya'nın İstiklalı ve Türkiye'nin Askeri Yardımı (1917-1918) // Kafkas Araştırmaları, İstanbul, 1997, Sayı 3, s. 32-33.
[90] Kurat A.N. Türkiye ve Rusya, s. 500.
[91] BOA, HR.SYS. no. 2415/51, v. 1.
[92] Bihl W. Die Kaukasus Politik der Mittelmächte. T. I, p. 240.
[93] Yenə orada, s. 45-47.

vi və siyasi haqlarını istəməsini" dünyaya çatdırmaq məqsədilə İstanbulda bir neçə "dərnək", "cəmiyyət" quruldu. Bu dövrdə çarizmin pəncəsindən canlarını qorumaq üçün Türkiyəyə sığınan mühacirlər tərəfindən 1915-ci ildə yaradılan "Rusiya Məhkumu Müsəlman Türk-Tatarların Hüquq Müdafiə Cəmiyyəti" bu cəmiyyətlər arasında ən məşhuru idi.[94] Bu "Cəmiyyət"də Azərbaycan türklərindən Əli bəy Hüseynzadə və Əhməd bəy Ağaoğlu, Kazan türklərindən Yusif Akçura, Kadı Əbdürrəşid İbrahim, Krım türklərindən Mehmed Əsəd Çələbizadə, Buxaralı Mukimüddin Bekcan[95], Molla M.Cihan (krımlı) kimi tanınmış türkçü-turançı məşhurlar var idi. Dünya müharibəsində Rusiyanın məğlub ediləcəyi təqdirdə rus işğalı altında olan bütün türk bölgələrinin Türkiyəyə qatılacağını uman gənc türklər bu "cəmiyyət"ə çox böyük rəğbətlə yanaşırdılar. Bu "cəmiyyət"in üzvlərinin bəziləri, eyni zamanda, İttihad və Tərəqqi partiyasının da üzvü idi. Rusiyadakı müsəlmanların haqlarını qoruyan bu "cəmiyyət" öz fəaliyyətini Mərkəzi Avropa ölkələrinə doğru genişləndirdi.[96]

"Rusiya Məhkumu Müsəlman Türk-Tatarların Hüquq Müdafiə Cəmiyyəti" Rusiya müsəlmanlarının hüquqlarını müdafiə etmək və bunları Mərkəzi Avropa dövlətlərinin rəsmi dairələrinə bildirmək məqsədilə 1915-ci il noyabrın 21-də Ə.Hüseynzadə, Y.Akçura, M.O.Çələbizadə və M.Bekcandan ibarət dörd nəfərlik bir heyəti Avropaya göndərdi.[97] Bu heyət "Turan heyəti" kimi də tanınır. Türk hökuməti tərəfindən dəstəklənən, təşviq edilən və bütün məsrəfləri ödənilən[98] bu heyət noyabrın 27-də Budapeştə gəldi. Heyət üzvləri Macarıstanın baş naziri Kont Tisza və parlament üzvlərindən Kont Andrassi ilə görüşərək, onlara bir memo-

---

[94] Jaschke G. Der Turanismus der Jungturken. p. 17.

[95] Saray M. Atatürk ve Türk Dünyası. Ankara: Türk Tarih Kurumu Yayınları, 1995, s. 94.

[96] Zenkovski A.S. Rusya'da Pantürkizm ve Müslümanlık, s. 197.

[97] Bayat A.H. Hüseynzade Ali Bey. Ankara: Atatürk Kültür Merkezi Başkanlığı Yayınları, 1998, s. 20.

[98] Kurat A.N. Türkiye ve Rusya, s. 502.

randum təqdim etdilər.[99] Qeyd edək ki, macarlar "Turançılığ"a xüsusi önəm verirdilər və hətta bir "Turan" cəmiyyəti də qurmuşdular. Bu səbəbdən Türk-tatar heyəti macar rəsmi dairələri tərəfindən yüksək səviyyədə qarşılandı və heyətlə bir sıra danışıqlar aparıldı.

Türk-tatar heyətinin Budapeştdə gördüyü ən mühüm işlərdən biri də 1915-ci ilin dekabrında "Paster Lloyd" qəzetinin mətbəəsində alman dilində bir memorandum çap etdirərək yayımlamasıdır.[100] "Rusiyadakı müsəlman türk-tatar xalqlarının haqlarını qoruma komitəsinin memorandumu" adlı bu sənəd Y.Akçura və Ə.Hüseynzadə tərəfindən İngiltərə, Fransa, İtaliya kimi Antanta dövlətləri də daxil olmaqla İttifaq və bitərəf dövlətlərə xitabən tərtib edilmişdi. Bu memorandumun sonuna Y.Akçura və Ə.Hüseynzadə ilə yanaşı Turan heyətinin digər iki üzvü, M.Ə.Çələbizadə və M.Bekcan da imza atmışdılar. Memorandumda Rusiyada yaşayan türklərlə bağlı qısa tarixi və statistik məlumatlar verildikdən sonra, bu xalqların Rusiya tərəfindən nə zaman və necə işğal edildiyi açıqlanmış, Rusiyanın türklər yaşayan bölgələrdə apardığı siyasət, idarəçilikdə baş verən özbaşınalıqlar və haqsızlıqlarla bağlı məlumatlar yer almışdı. Daha sonra memorandumda çarizmin hakimiyyəti altında olan müsəlman türk xalqlarının yaratdığı mədəniyyətin ruslar tərəfindən necə məhv edildiyini və Rusiyanın hakim olduğu bölgələrdə mədəniyyətin necə gerilədiyini vurğulayaraq, dünya dövlətlərinin diqqətini rus imperiyası ərazisində yaşayan türk-müsəlman xalqlarına yönəltməyə çalışırdılar. Sonda istər Antanta dövlətləri qrupuna, istərsə İttifaq dövlətləri qrupuna daxil və ya bitərəf olan hər bir mədəni dövlətdən bu türk-müsəlman xalqların azadlıq mübarizəsinə köməklik göstərmələrini, Krım, Buxara və Xivə kimi türk xanlıqlarının yenidən qurularaq Osmanlı

[99] Togan Z.V. Bugünkü Türk İli Türkistan ve Yakın Tarihi. C. I. İstanbul: Enderun Yayınları, 1981. s. 475.
[100] Məmmədzadə M.B. Milli Azərbaycan hərəkatı, s. 173; Jaschke G. Der Turanismus der Jungturken, p. 17.

imperiyasının himayəsinə verilməsinin dəstəklənməsini istəyirdilər.[101]

Dekabrın 14-də Budapeştdən Vyanaya gələn Türk-tatar heyəti Avstriyanın baş naziri Kont Stürq və xarici işlər naziri Kont Forqaç tərəfindən qəbul edildi. Heyət üzvləri qeyd olunan memorandumu Avstriya rəsmilərinə təqdim etdilər və rus imperiyasının müstəmləkə zülmü altında inləyən türk-müsəlman xalqlarının azadlığı üçün dəstək istədilər. Budapeştdə olduğu kimi, Vyanada da böyük maraqla qarşılanan heyət[102] buradan Berlinə gəldi. Berlində Almaniyanın xarici işlər naziri Qotlib Yaqov və müavini Artur Zimmermanla görüşən heyət üçün onların istəkləri ilə bağlı almanların mövqeyi xüsusilə önəmli idi. Əslində, turançılığın və ya Rusiya müsəlmanlarının mədəni və siyasi haqlarının əldə edilməsinin ancaq Almaniyanın dəstəyi və yardımı ilə mümkün olacağı heç kimdə şübhə doğurmurdu. Ona görə də bu məsələyə almanların diqqətini yönəltmək, Almaniyanın baş nazirinin və xüsusilə də alman baş komandanlığının razılığını almaq və dəstəyini təmin etmək lazım idi. Bu məqsədlə heyət üzvləri Berlində və digər şəhərlərdə alman rəsmiləri ilə bir sıra görüşlər keçirib, onlara memorandumlar təqdim etdilər və Rusiya müsəlmanları üçün mədəni və siyasi haqların əldə edilməsinə dair müzakirələr apardılar.[103]

Türk-tatar heyəti adından Ə.Hüseynzadə 1916-cı ilin yanvarında Berlində keçirilən Türk topluluqları konqresinə də qatılaraq orada məruzə ilə çıxış etdi. Ə.Hüseynzadə məruzəsində Rusiyada yaşayan türklərlə bağlı statistik məlumatları verməklə bərabər, çarizmin hakimiyyəti altında olan türklərə qarşı yeritdiyi siyasəti təhlil edib, Rusiya türkləri arasında XIX əsrin ikinci yarısından

---

[101] ATASE, BDH, K. 268, D. 1105, F. 1. 1-1;1-5; Türk ve Tatar Heyeti, Türk Yurdu, IX/100. 1331, Osmanlıcadan aktaran. Tutibay Yayınları. Ankara: 1999. s. 312-313; Jaschke G. Der Turanismus der Jungturken, p. 17-18.

[102] Аршаруни А., Габидуллин К. Очерки Пан-Исламизма и Пан-Тюркизма в России. Москва: Издательство Безбожник, 1931, c. 56; Zenkovski A.S. Rusya'da Pantürkizm ve Müslümanlık, s. 197.

[103] Kurat A.N. Türkiye ve Rusya, s. 503; Bayur Y.H. Türk İnkılabı Tarihi. C. III. K. IV. Ankara: Türk Tarih Kurumu Yayınları. 1983. s. 284-285.

etibarən başlayan intellektual və yeniləşmə hərəkatlarından da bəhs etdi.[104]

Türk-tatar heyəti daha sonra Berlindən Sofiyaya gedərək, Bolqarıstanın baş naziri Rodoslavov, məclis üzvü professor Şişmanov və digərləri ilə görüşüb, bəhs edilən memorandumu onlara da təqdim edib, Rusiya əsarəti altında yaşayan türklərin arzu və istəklərini bəyan etdi və bu dövlətdən də siyasi yardım istədi.[105]

Almaniya, Avstriya-Macarıstan və Bolqarıstan səfərini başa vurub, 1916-cı ilin fevralında İstanbula qayıdan Türk-tatar heyəti, iyun ayında Lozannada toplanacaq Millətlər Birliyinin III konqresinə qatılmaq üçün mayın əvvəllərində İsveçrəyə gəldi. Bu heyət əvvəlkindən daha mütəşəkkil idi və demək olar ki, rus çarizminin pəncəsi altında inləyən türk-müsəlman xalqlarının əksəriyyətini təmsil edirdi. Burada Azərbaycanı Əli bəy Hüseynzadə və Əhməd bəy Ağaoğlu, Kazan tatarlarını Yusif Akçura və Əbdürrəşid İbrahim, özbəkləri Mukimüddin Bekcan, qazax və qırğızları Səfa Əhmədoğlu, kumıkları Əhməd Saip Kaplanov, Dağıstanı Seyid Tahir Əfəndi, çərkəzləri isə Əziz Meker təmsil edirdi.[106]

"Rusiya Məhkumu Müsəlman Türk-Tatarların Hüquq Müdafiə Cəmiyyəti"nin daha geniş ölçüdə fəaliyyət göstərməsi üçün bitərəf ölkə olan İsveçrə daha münasib idi. Həmçinin, bu dövrdə İsveçrədə təhsil alan bir çox türk tələbələri var idi və bu tələbələr Türk-tatar heyətinin bir sıra dairələrlə əlaqələr qurmasında mühüm rol oynayırdılar.

"Rusiya Məhkumu Müsəlman Türk-Tatarların Hüquq Müdafiə Cəmiyyəti"nin üzvləri İsveçrədən İngiltərə, Fransa və digər ölkələrin hökumətlərinə teleqramlarla müraciət edərək, onlardan "Rusiya müsəlmanlarının haqlarının tanınması"nı xahiş etdilər. Bu arada Skandinaviyada olan Əbdürrəşid İbrahim tərəfindən 9 may 1916-cı il tarixində Stokholmdan Amerika Birləşmiş Ştatlarının

---

[104] Ülken H.Z. Türkçülüyün ve Türk Sosyalizminin Babası Ali Turan (Hüseynzade Ali Bey) // Yeni Insan. Ocak, 1970, VIII/85, s. 6-8.

[105] Togan Z.V. Bugünkü Türk İli Türkistan ve Yakın Tarihi, s. 475-476.

[106] Hayit B.M. Türkistan Devletleri'nin Milli Mücadeleleri Tarihi. Ankara: Türk Tarih Kurumu Yayınları. 1995, s. 202.

prezidenti Vudro Vilsona eyni məzmunlu teleqram göndərildi.[107] 1916-cı ilin may ayının 18-də "Rusiya Məhkumu Müsəlman Türk-Tatarların Hüquq Müdafiə Cəmiyyəti" adından Y.Akçura, Ə.Hüseynzadə, Ə.Ağaoğlu və Ə.İbrahimin imzaları ilə V.Vilsona daha bir teleqram göndərildi. Bu teleqramda da çarizmin əsarəti altında yaşayan millətlərin vəziyyətindən söz açılır, "Rusiya imperiyasında yaşayan müsəlman türk-tatar xalqlarının siyasi və mədəni haqlarının tanınması" xahiş edilirdi.[108]

"Rusiya Məhkumu Müsəlman Türk-Tatarların Hüquq Müdafiə Cəmiyyəti"nin üzvləri 1916-cı il iyunun 27-29-da Lozannada toplanan "Millətlər Birliyi"nin III konqresinə qatıldı. Lakin bu konqresdə təmsil olunan türk-tatar nümayəndələri vahid bir memorandumla çıxış etmədilər. Heyət üzvləri təmsil etdikləri xalqların durumuna görə qruplaşaraq, ayrı-ayrılıqda tələblər irəli sürdülər.[109] Onu da qeyd edək ki, konqres iştirakçılarına paylamaq üçün Y.Akçura tərəfindən Berndə çap edilən "Rusiyadakı müsəlman türk-tatarların bugünkü vəziyyəti və onların istəkləri" adlı kiçik broşürdə, yuxarıda qeyd edilən memorandumdan fərqli olaraq, "Rusiya müsəlmanlarının mədəni muxtariyyətdən başqa bir istəklərinin olmadığı" və sadəcə öz varlıqlarını mühafizə etmək üçün mübarizə apardıqları bildirilmiş və siyasi haqlar məsələsinə toxunulmamışdı.[110]

Y.Akçura eyni zamanda, İsveçrədə təhsil alan türk tələbəsi Əziz bəylə birlikdə həmin vaxt Sürixdə olan Vladimir İliç Leninlə də görüşüb, onunla Rusiyada yaşayan türk-müsəlman xalqlarının hüquqlarının təmin olunması ilə bağlı danışıqlar apardı. Lakin bu

[107] Kurat A.N. Türkiye ve Rusya. s. 504; Jaschke G. Der Turanismus der Jungturken. p. 18.
[108] Temir A. Yusuf Akçura. Ankara: Türk Kültürünü Araştırma Enstitüsü Yayınları, 1987, s. 54-55; Kurat A.N. Türkiye ve Rusya, s. 504; Togan Z.V. Bugünkü Türk İli Türkistan ve Yakın Tarihi, s. 475; Bihl W. Die Kaukasus Politik der Mittelmächte. T. I. p. 240.
[109] Temir A, Yusuf Akçura. s. 55.
[110] Kurat A.N. Türkiye ve Rusya. s. 503.

məsələ ilə əlaqədar qəti bir mövqe bildirməyən V.İ.Lenin ümumi mahiyyətli sözlərlə kifayətləndi.[111]

Türk-tatar heyəti Almaniya və Avstriya-Macarıstan rəsmiləri ilə apardığı danışıqlar nəticəsində Rusiya ilə müharibədə əsir alınan Rusiya təbəəsi olan türklərin saxlanıldığı əsir düşərgələrində heyətin fəaliyyət göstərməsi üçün icazə ala bildi. Heyət üzvlərindən Ə.İbrahim Almaniyaya əsir düşən Rusiya türklərinin (Kazan türkləri və başqırdlar) saxlanıldığı Berlin yaxınlığındakı Zossen düşərgəsində İngiltərə və Rusiyaya qarşı savaşmaq üçün könüllü birliklər təşkil etməyə başladı. Zossen düşərgəsində təqribən 15 minə qədər tatar əsiri var idi. Əsirlər arasında təbliğat və təşkilati iş aparan heyət yalnız Rusiya türklərindən ibarət xüsusi bir birlik təşkil etməyi planlaşdırırdı. Nəticədə, əsirlərin bir qismi könüllü olaraq Mesopotamiyada ingilislərə qarşı vuruşan türk ordusuna qatılmaq istədilər və bunlardan bir tabur (Asiya taburu) İraq cəbhəsində vuruşmaq üçün Türkiyəyə göndərildi. Amma əsirlərdən Rusiyaya qarşı vuruşmaq istəyən tapılmadı.[112]

Türk-tatar heyətinin göstərdiyi bütün cəhdlərə və fəaliyyətlərə baxmayaraq, Avropa dövlətləri Rusiya müsəlmanlarının siyasi və mədəni hüquqlarının müdafiəsi ilə bağlı heç bir iş görmədilər. Bu dövrdə onlardan nəsə bir şey gözləmək də sadəlövhlük olardı. Çünki bölüşdürülmüş dünyanın yenidən bölüşdürülməsi uğrunda gedən dünya müharibəsində vuruşan dövlətlərdən hər biri əsarətdə olan xalqlar barəsində onları bir siyasi alət kimi istifadə etməkdən başqa bir şey düşünmürdü. Buna baxmayaraq, heyətin Avropa ölkələrinin hökumətlərinə göndərdiyi teleqramları, dövlət rəsmilərinə və konfranslara təqdim etdiyi memorandumları, habelə mətbuatdakı çıxışları təsirsiz ötüşmədi. Ən azından ona görə ki, Rusiyanın müsəlmanlar yaşayan bölgələrdə yeritdiyi müstəmləkəçilik siyasəti, müsəlmanların hüquqsuz vəziyyəti ilk dəfə olaraq xarici aləmə – Avropaya çatdırıldı.

---

[111] Kurat A.N. Türkiye ve Rusya. s. 503-504.

[112] Zenkovski A.S. Rusya'da Pan-Türkizm ve Müslümanlık, s. 198; Hayit B.M. Türkistan Devletleri'nin Milli Mücadeleleri Tarihi, s. 202.

Ə.Hüseynzadə Osmanlı millət vəkili Nesim Masliyuh və professor Aqil Muxtarla birlikdə 1917-ci il iyulun 14-də Stokholmda keçirilən Millətlərarası Sosialist konfransına da qatıldı. Konfransda Türkiyəni təmsil edən nümayəndələr Hollandiya-Skandinaviya Komitəsinə türklərin haqlarının qorunması ilə bağlı bir memorandum təqdim edərək, sosialist təşkilatlarına türklərin arzu və istəklərinin haqlı olduğunu izah etməyə çalışdılar.[113] Ə.Hüseynzadə burada rus sosialistləri ilə də görüşmüş və eyni zamanda, Türkiyədən gələn nümayəndələrlə birlikdə ermənilərin apardığı propaqandalara tez-tez cavab vermək məcburiyyətində qalmışdı. Konfransda Ə.Hüseynzadə "Milliyyət və Çoxluq" adlı məruzə ilə çıxış etdi. Lakin nümayəndə heyəti İttihad və Tərəqqi partiyasını Avropa imperializminin aləti kimi təqsirləndirən konfrans iştirakçıları tərəfindən geri göndərildi.

Onu da qeyd edək ki, Ə.Hüseynzadə İstanbulda "Türk Ocağı"nda etdiyi çıxışında Gürcüstan istisna olmaqla bütün Qafqazı türk eli olaraq təsvir etmiş, Qafqaz türklərinin tarixini isə böyük Turan tarixinin bir parçası kimi dəyərləndirmiş və Qafqazın siyasi təşəkkülü üçün üç ehtimalın qəbul edilə biləcəyi görüşünü müdafiə etmişdi:

1. Qafqaz Federasiyası;
2. Ayrı-ayrı gürcü və müsəlman dövlətləri;
3. Türklərin yaşadığı ərazilərin hidiviyat (valilik) şəklində Osmanlı imperiyasına birləşdirilməsi.[114]

Ümumiyyətlə, Osmanlı hökumətinin Birinci dünya müharibəsinin əvvəllərindən başlayaraq Qafqaz və xüsusilə Azərbaycanla bağlı yeritdiyi siyasətin araşdırılması onu deməyə əsas verir ki, Ənvər paşa və digər ittihadçıların Qafqaz və İranda apardıqları hərbi əməliyyatların təməlində gənc türklərin yeritdiyi islamçı və türkçü siyasət dururdu. Ancaq müharibənin gedişində ərəblərin ingilislərin lehinə türklərə qarşı üsyana qalxmaları artıq bu iki cərəyandan İslam birliyinin də mümkün olmayacağı gerçəyini ortaya qoyduqdan sonra, 1916-cı ilin əvvəllərindən başlayaraq Osmanlı

---

[113] Ülken H.Z. Türkçülüyün ve Türk Sosyalizminin Babası Ali Turan, s. 8

[114] Jaschke G. Der Turanismus der Jungturken, p. 25.

hökumətinin rəsmi siyasətində türkçülük hakim rol oynamağa başladı. Onu da qeyd etmək lazımdır ki, hələ 1914-cü ilin avqust ayının əvvəllərində müharibənin zəfərlə başa çatdırılacağı təqdirdə Qafqazın Osmanlı imperiyasına verilməsi ilə bağlı Almaniyadan təminat almış[115] gənc türklər Qafqazın gələcək statusu ilə bağlı gürcü və ermənilərə müəyyən şərtlər daxilində muxtariyyət (sonradan gürcülərə müstəqillik) vəd etsələr də, Sarıqamış əməliyyatına qədər Azərbaycanın muxtariyyətinə dair heç bir vəd vermir, onun gələcəkdə yaradılacaq Turan imperiyasının tərkibinə qatılmasını planlaşdırırdılar. Sarıqamışda fəlakətlə üzləşdikdən sonra, artıq təkcə öz qüvvəsi ilə Qafqazın işğalını həyata keçirə bilməyəcəyini anlayan Osmanlı hökuməti Qafqaz müsəlmanlarının Rusiyaya qarşı üsyana qaldırılması məqsədilə Əmiraslan xanın irəli sürdüyü layihəni məqbul hesab etdi. Bu layihədə Azərbaycanın Osmanlı imperiyasına birləşdirilməsi deyil, burada (Azərbaycan və Dağıstan ərazisində) Türkiyə və Rusiyadan asılı olmayan, lakin İstanbul hökuməti ilə hərbi müqaviləsi olan, bir çox millətlərin (müsəlmanlar nəzərdə tutulur) daxil olacağı İsveçrə tipli bir Qafqaz müsəlman dövlətinin yaradılması nəzərdə tutulurdu.

Osmanlı imperiyasının Azərbaycan və bütövlükdə Qafqazla bağlı planlarını reallaşdırmaq üçün türk hərbi komandanlığının göstərdiyi bütün səylərə baxmayaraq, 1914-1916-cı illərdə Qafqaz istiqamətində aparılan hücum əməliyyatları tam uğursuzluqla nəticələndi. Canlı qüvvə itkiləri ilə yanaşı Türkiyə ərazisinin bir hissəsi də rus orduları tərəfindən işğal edildi. 1915-ci ilin yayında Vanı işğal edən rus orduları 1916-cı ilin əvvəllərindən qüvvətli əks hücuma keçib, yanvarın 17-də Köprüköyü, 19-da Hasankalanı, fevralın 16-da Ərzurumu və Muşu, 23-də İspir və Aşkalanı, martın 3-də Bitlisi, 8-də Rizeni, aprelin 18-də Trabzonu, iyulun 15-də Bayburtu, 18-də Kelkiti, 25-də Ərzincanı işğal etdilər.[116] Lakin Rusiyanın bu bölgədə mövqelərinin güclənməsindən çəkinən və Türkiyənin tamamilə darmadağın edilməsinə yol verməmə-

---

[115] ATASE. BDH. K. 243, D. 1009, F. 7.

[116] Kurat A.N. Türkiye ve Rusya. s. 286-295; Gürsel H.F. Tarih Boyunca Türk-Rus İlişkileri. İstanbul: AK Yayınları, 1968. s. 165.

yə çalışan İngiltərə və Fransa hökumətlərinin təzyiqi altında rus qoşunlarının sonrakı hücumu dayandırıldı. 1916-1917-ci illərin qışında türk-rus cəbhəsində kəşfiyyat xarakterli hərəkətlərdən başqa elə bir ciddi hadisə olmadı. Rusiyada baş vermiş Fevral inqilabı ilə əlaqədar Qafqaz cəbhəsində yaranan durğunluqdan istifadə etmək istəyən Osmanlı hərbi komandanlığı 1917-ci ilin martında 2-ci və 3-cü orduları birləşdirərək, I Ferik Əhməd İzzət Paşanın komandanlığı altında "Qafqaz Ordular Qrupu"nu yaratdı. İnqilabdan sonra Rusiyada qurulan Müvəqqəti hökumət müharibəni sona qədər davam etdirəcəyini bildirsə də, artıq müharibədən cana gəlmiş rus əsgərləri vuruşmaq istəmirdilər. Belə bir vəziyyətdə müharibəni davam etdirmək iqtidarında olmayan rus orduları işğal etdikləri Muş bölgəsini öz istəkləri ilə boşaltdılar və 1917-ci il mayın 1-də türk ordusu döyüşsüz olaraq Muşa girdi.[117] Belə bir əlverişli vəziyyətdən istifadə etmək istəyən türk hərbi komandanlığı 1917-ci ilin yaz-yay aylarında Qafqaz cəbhəsində böyük bir hərbi əməliyyat keçirməyi planlaşdırırdı. Amma rus inqilabından faydalanıb rusları separat sülhlə müharibədən çıxarmaq istəyən və bu məqsədlə 1917-ci ilin mayında İsveç sosialisti Qrimi sülh təklifi ilə Müvəqqəti hökumətlə danışıqlar aparmağa göndərən Almaniya hökuməti türk ordusunun Qafqaz cəbhəsində hər hansı bir hücum əməliyyatı həyata keçirməsini istəmirdi və qətiyyətlə buna qarşı çıxırdı. Bu səbəbdən türk hərbi komandanlığının planlaşdırdığı hücum əməliyyatı həyata keçirilmədi.

Bütün bunlara baxmayaraq, Sarıqamış əməliyyatından 1917-ci ilin sonlarına qədər Qafqaz cəbhəsində üstünlük Rusiya tərəfində idi. 1917-ci ilin oktyabrında baş vermiş bolşevik çevrilişindən sonra Rusiya daxilində tüğyan edən anarxiya, bolşeviklərin verdiyi "Sülh dekreti" ilə rus cəbhələrinin faktiki olaraq dağılması və rus dövlətçiliyinin dərin böhrana düşməsi Osmanlı hakim dairələrində "Turançılıq" ideyasının gerçəkləşməsi yolunda yeni ümidlər yaratdı. 1917-ci ilin sonlarına doğru yaranmış əlverişli şəraitdə Azərbaycan və bütövlükdə Qafqazla bağlı planlarını reallaşdırmaq

[117] Sanders L. Türkiye'de Beş Sene. s. 225.

istəyən Osmanlı hökuməti Qafqaz bölgəsini yenidən özünün fəal xarici siyasət orbitinə daxil etdi.

## § 2. Rusiyanın Qafqaz siyasəti və Azərbaycan

Birinci dünya müharibəsində vuruşan dövlətlərin hər birinin dünyanın siyasi xəritəsini öz xeyrinə dəyişdirməklə bağlı planları var idi. 1914-cü ilin avqustunda Antanta blokunun tərkibində müharibəyə girən çar Rusiyası imperiyanın sərhədlərini genişləndirmək, xüsusilə də Bosfor və Dardanel boğazlarına yiyələnib İstanbulu öz nəzarətinə keçirmək istəyirdi. Osmanlı imperiyası müharibəyə girdikdən sonra Rusiya öz müttəfiqlərinə təzyiq göstərərək Bosfor və Dardanel boğazlarının ona verilməsini tələb etdi. 1915-ci il martın 12-də İngiltərə, aprelin 10-da da Fransa verdikləri notalarla Rusiyanın bu tələbini qəbul etdiklərini bildirdilər. Rusiya da öz növbəsində, İngiltərə və Fransanın Asiya Türkiyəsindəki və Osmanlı imperiyasından ayrılacaq ərəb ölkələri üzərindəki nüfuzlarını qəbul etdi.[118] 1916-cı ildə Böyük Britaniya və Fransa ilə imzalanan gizli sazişə əsasən Rusiya nəinki Qafqazda öz mövqelərini qoruyub saxlamalı, habelə Osmanlı imperiyasının bölüşdürülməsi hesabına öz ərazilərini genişləndirməli idi. Həmin sazişə görə, Rusiya Ərzurum, Trabzon, Van və Urmiya gölü ətrafındakı əraziləri ilhaq etməli idi, əvəzində isə Sivas və Xarput arasında yerləşən, əhalisinin kiçik bir hissəsi ermənilərdən ibarət olan ərazini "Kiçik Ermənistan" adı ilə Fransaya hədiyyə edirdi. 1916-cı ildə İngiltərə və Fransa arasında imzalanmış gizli Sayks-Piko müqaviləsinə əsasən İngiltərə Mesopotamiyanın əsas hissəsini tutmalı, Fransa Kilikiya, Sivas, Xarput və Diyarbəkiri əldə etməli idi.

[118] Gürsel H.F. Tarih Boyunca Türk-Rus İlişkileri, s. 167-168.

Müttəfiqlər Trabzon, Van, Bitlis və Ərzurumun Rusiyaya keçməsinə etiraz etmirdilər.[119]

Rusiya Osmanlı imperiyası ilə bağlı planlarını reallaşdırmaq üçün "erməni amili"ndən istifadə etmək qərarına gəldi. Çarizm ermənilərin müharibədə Rusiyanı dəstəkləyəcəyi və Osmanlı imperiyasına qarşı qiyam təşkil edəcəkləri təqdirdə, onlara Şərqi Anadoluda, o cümlədən Kilikiyada muxtariyyət, Rusiya ermənilərinə isə islahatlar vəd edirdi.[120] Çar Rusiyası bu yolla türk boğazlarını, Şərqi Anadolunu və Kilikiyanı istila etmək istəyirdi. Rusiya Dardanel və Bosfor boğazlarını ələ keçirməklə Şərqi Anadolu vilayətlərində öz dayağını möhkəmləndirməyə çalışırdı və bu ərazilərdə kazak əhalisini məskunlaşdırmaqla Aralıq dənizinə çıxış əldə etmək niyyətində idi. Çar Rusiyasının naziri Lobanov-Rostovski erməni məsələsinə dair çarın planına toxunaraq qeyd edirdi ki, çarizmə "ermənilərsiz Ermənistan" lazımdır.[121]

Erməni kilsəsi və siyasi təşkilatları Birinci dünya müharibəsinin nəticəsinə uyğun olaraq "erməni məsələsi"nin həllinə böyük ümid bəsləyirdilər. Ona görə də erməni katolikosu V Gevork 1914-cü ilin avqustunda Qafqaz canişini Vorontsov-Daşkova sorğu ilə müraciət etdi. Müraciətdə deyilirdi ki, gələcəkdə müharibənin nəticələrinin aradan qaldırılmasına müvafiq olaraq Rusiyanın protektoratlığı altında Osmanlı ermənilərinə ərazi muxtariyyəti verilməsinə çar hökuməti təminat verməlidir. Vorontsov-Daşkov katolikos V Gevorka cavabında bildirdi ki, Rusiya ermənilərin tələbini müdafiə edir.[122]

Şərqi Anadoluda ermənilərə muxtariyyət vəd edən çarizm həm də Osmanlı imperiyasının Rusiyada yaşayan türk-müsəlman əhali ilə əlaqələrini kəsəcək bufer bir ərazi yaratmaq istəyirdi.

---

[119] Həsənov C. Azərbaycan beynəlxalq münasibətlər sistemində, s. 27; Yıldırım H. Türk-Rus-Ermeni Münasebetleri (1914-1918). Ankara: Kök Yayınları, 1990, s. 92-93.

[120] История Азербайджана по документам и публикациям. Под. ред. акад. З.М.Буниятова. Баку: Элм, 1990, с. 89.

[121] Yenə orada, s. 93.

[122] Yenə orada, s. 91-92.

Millətçilik hərəkatının geniş vüsət aldığı bir dövrdə Azərbaycan xalqının milli azadlıq hərəkatının genişlənməsindən çəkinən Rusiya azərbaycanlılara münasibətdə isə, onları Osmanlıdan uzaq tutmağa, bölgədən uzaqlaşdırmağa, sünni-şiə ixtilaflarından bir alət kimi istifadə etməyə, ruslaşdırmağa və türk olduqlarını unutdurmağa (ən azından fars olduqlarına inandırmağa) çalışırdı. Rusiyada yaşayan müsəlmanlar, o cümlədən azərbaycanlılar hərbi xidmətə çağırılmırdılar. Çar hökuməti orduda xidmət edən müsəlmanların cəbhələrdə Osmanlı ordusuna qarşı vuruşmayacağından və silahı rus müstəmləkəçilərinə qarşı çevirə biləcəyindən qorxurdu. Rusiya hakimiyyət orqanları müstəmləkə zülmü altında olan azərbaycanlılara və digər müsəlmanlara inanmadıqlarından, müharibə başladıqdan sonra onların üzərinə ciddi nəzarət qoydular, hətta 1916-cı ilin yayından Azərbaycanda fövqəladə vəziyyət tətbiq etdilər. Ümumilikdə, müharibənin gedişində Rusiya Azərbaycana xammal mənbəyi, mühüm iqtisadi baza və Türkiyəyə hücum üçün hərbi-strateji məntəqə kimi baxırdı və burada Rusiya üçün hər hansı bir xoşagəlməz hadisənin baş verməməsi üçün bütün lazımi tədbirlər görülürdü.

Müharibə dövründə rus hərbi komandanlığının Qafqaz cəbhəsi ilə bağlı planı belə idi: 1. Sarıqamış-Qars-Tiflis dəmir yolu kommunikasiyasını qorumaq; 2. Bakı şəhərini və neft mədənlərini mühafizə etmək; 3. Türklərin Qafqaz ərazisinə daxil olmasına imkan verməmək.[123] Rusiyanın Türkiyə ilə sərhədlərini qorumalı olan Qafqaz ordusu yalnız ən ağır vəziyyətdə Bakının sol cinahınadək, mərkəzdə Cənubi Qafqazla Rusiyanın mərkəzini birləşdirən hərbi Gürcüstan dəmir yoluna qədər geri çəkilə bilərdi.[124]

1917-ci ilin Fevral inqilabı ilə 300 ildən artıq hökmranlıq edən və Rusiyanı xalqlar həbsxanasına çevirən Romanovlar sülaləsinin devrilməsindən sonra yaranan Müvəqqəti hökumət də imperiyanı qoruyub saxlamağa, müstəmləkəçilik siyasətini davam

[123] Qasımov M. Birinci dünya müharibəsi illərində böyük dövlətlərin Azərbaycan siyasəti. I h., s. 94.

[124] Yenə orada, s. 95; Вержховский Д.В., Ляхов В.Ф, Первая мировая война. 1914-1918. Москва: Воениздат. 1964, с. 32-33.

etdirməyə çalışırdı. 1917-ci il martın 17-də Müvəqqəti hökumət çarizmin bağladığı bütün beynəlxalq müqavilələrə və Rusiyanın götürdüyü öhdəliklərə sadiq olduğunu bəyan etdi.[125] Bu da Rusiyanın müharibəni sonadək davam etdirməsi demək idi. Amma inqilab cəbhələrdəki vəziyyətə ciddi təsir göstərdi, Rusiyanın mövqeləri zəiflədi. Müharibədən cana doymuş və həmçinin bolşevik təbliğatı ilə beyinləri doldurulmuş rus əsgərləri vuruşmaq istəmirdilər, cəbhələrdə fərarilik halları çoxalmışdı. Belə bir vəziyyətdə İngiltərə və Fransa hökumətləri türk qoşunlarının Qafqaz istiqamətində irəliləməsinin qarşısını almaq üçün müharibənin əvvəllərindən Osmanlı imperiyasına qarşı vuruşan ermənilərdən faydalanmaq qərarına gəldilər.[126] 1917-ci il mayın 29-da ABŞ-ın Tiflisdəki təmsilçisi Smit erməni könüllü birliklərinin liderlərindən olan Andraniklə görüşüb Qafqazda türk irəliləyişinin qarşısını almaqla bağlı danışıqlar apardı. Andranik Smitə ingilis qoşunlarının Kiprdən İskəndəruna çıxarılaraq şərq istiqamətində irəliləməsini, müttəfiqlərin Türkiyə ermənilərindən ibarət hərbi hissələr təşkil etmələrini və beləliklə, hər iki cəbhədən eyni vaxtda hücuma keçərək türkləri əzməyi təklif etdi. Smit Andranikin təklifini Moskvada olan ingilis və fransız hərbi attaşelərinə və ruslara bildirdi. Andranikin planı müttəfiqlər tərəfindən məqbul sayıldı və təsdiq edildi.[127] Ruslar Andranikin qoşunlarını ərzaq və geyimlə təmin etməyi, ingilislər və amerikanlar isə Andranikə maliyyə yardımları göstərməyi və erməni əsgərlərinin ailələrini qoruyacaqlarını öz öhdələrinə götürdülər. Bundan başqa ruslar Andranikə medallar və general rütbəsi də verdilər.[128] Bununla da, Antanta dövlətləri Osmanlı ordularının Qafqaz istiqamətində hərəkəti yolunda ermənilərdən ibarət bir sədd yaratmış oldular.

Fevral inqilabından sonra yaranmış Müvəqqəti hökumət 1917-ci il martın 9-da Cənubi Qafqazı idarə etmək üçün Dövlət

[125] Bayur Y.H. Türk İnkılabı Tarihi. C. III, K. IV, s. 65.
[126] BOA. HR.SYS. no. 2885/19; Sonyel S. The Great War and the Tragedy of Anatolia. Ankara: Turkish Historical Society Printing House, 2000. p. 157.
[127] Hovannisian R.G. Armenia on the Road to Independence, p. 82.
[128] Yenə orada. s. 82.

Dumasının yerli üzvlərindən ibarət Xüsusi Cənubi Qafqaz Komitəsi (OZAKOM) yaratdı. Komitənin sədri rus kadeti V.A.Xarlamov, üzvləri – azərbaycanlı kadet, sonralar müsavatçı M.Y.Cəfərov, gürcü federal-sosialisti K.Abaşidze, erməni kadeti M.Papacanov, rus kadeti P.Pereverzev idilər. İki gündən sonra Nazirlər Şurasının sədri Lvovun əmri ilə P.Pereverzev gürcü menşeviki A.Çxenkeli ilə əvəz edildi. Müvəqqəti hökumətə tabe olan Xüsusi Komitə Cənubi Qafqazda mülki işləri idarə etmək üçün təsis edilmişdi, qanunvericilik hüququna malik deyildi. Cənubi Qafqaz kimi mürəkkəb və çətin regionda sabitliyi təmin etmək üçün əsaslı addımlar atmaqda acizlik göstərən Xüsusi Komitə əslində hadisələrin gərginliyi fonunda batıb qalırdı.

1917-ci il oktyabrın 25-də (noyabrın 7-də[129]) Petroqradda bolşeviklərin silahlı çevrilişi nəticəsində Müvəqqəti hökumət devrildi. Oktyabrın 25-26-da Smolnıda keçirilən II Sovetlər qurultayında "Sülh" və "Torpaq" haqqında dekretlər qəbul edildi və V.İ.Leninin başçılığı ilə sovet hakimiyyətinin əsası qoyuldu.

Oktyabr çevrilişi haqqında xəbər Azərbaycana çatandan sonra, 1917-ci il oktyabrın 27-də Bakıda müxtəlif siyasi partiyaların, həmkarlar təşkilatlarının, hərbi hissələrin və Xəzər donanması üzvlərinin iştirakı ilə Bakı Fəhlə və Əsgər Deputatları Sovetinin fövqəladə yığıncağı keçirildi. Bolşeviklərin kəskin etirazına baxmayaraq, eser-menşevik-daşnak bloku 168 səsə qarşı 246 səslə Bakıda ali hakimiyyət orqanı kimi İctimai Təhlükəsizlik Komitəsinin yaradılması haqqında qərar qəbul etdi. Bu qərarla razılaşma-

---

[129] Yuri təqvimindən Qriqori təqviminə keçid (13 günlük fərq) Osmanlı imperiyasında 1917-ci ildə (15 fevral 1917-ci il tarixinin ertəsi günü 16 fevral deyil, 1 mart 1917-ci il oldu), Rusiyada isə 1918-ci ildə (31 yanvar 1918-ci il tarixinin ertəsi günü 1 fevral deyil, 14 fevral 1918-ci il oldu) tətbiq edildi. Cənubi Qafqazda isə Yuri təqvimindən Qriqori təqviminə keçid 18 aprel 1918-ci il tarixindən (17 aprel 1918-ci il tarixinin ertəsi günü 18 aprel deyil, 1 may 1918-ci il oldu) tətbiq edildi. Osmanlı imperiyasında, Rusiyada və Cənubi Qafqazda Yuri təqvimindən Qriqori təqviminə keçid eyni tarixdə baş vermədiyi üçün tarixləri qarışdırmamaq məqsədi ilə 1917-ci ilin son ayları (əsas köhnə təqvimlə, mötərizədə yeni təqvimlə) və 1918-ci ilin ilk aylarında (əsas yeni təqvimlə, mötərizədə köhnə təqvimlə) tarixləri hər iki təqvimlə vermişik.

yan bolşeviklər hakimiyyət məsələsini geniş müzakirəyə çıxartdılar və noyabrın 2-də Bakı Sovetinin iclasında şəhərdə ali hakimiyyət orqanı kimi Bakı Sovetinin elan edilməsinə nail oldular. Bakı Soveti İcraiyyə Komitəsinin M.Basin, N.Vatsek, P.Caparidze, İ.Fioletov, S.Şaumyan və başqalarından ibarət yeni tərkibi seçildi. İcraiyyə Komitəsinin sədri S.Şaumyan oldu.[130] Beləliklə, sovetdə iştirak edən digər partiyalar – eser və menşeviklərlə müsavatçılar arasındakı ziddiyyətlərdən istifadə edən bolşeviklər Bakı Sovetində əsas vəzifələri ələ keçirdilər.

Onu da qeyd edək ki, Azərbaycanın milli istiqlal davasını aparan Müsavat partiyası Oktyabr çevrilişini rəğbətlə qarşıladı və çevrilişin ilk günlərində bolşeviklərlə eyni mövqedən çıxış etdi. Müsavatçılar bu qənaətdə idilər ki, "vahid və bölünməz Rusiya" ideyasını müdafiə edən eser və menşeviklərin hakimiyyətə gəlməsi Rusiyada yaşayan milli azlıqların, o cümlədən, azərbaycanlıların vəziyyətini çətin ki, yaxşılaşdırardı. Daşnaklara gəldikdə isə, onların Azərbaycana qarşı siyasətinin şərhə ehtiyacı yox idi. Buna görə də həmin ərəfədə bolşeviklər yeganə partiya idilər ki, millətlərə öz müqəddəratını təyin etmə, hətta ayrılma hüququ vəd edirdilər. Bu, "Müsavat"ın liderlərində belə bir ümid oyadırdı ki, bolşeviklər öz vədlərinə əməl edəcək və Azərbaycana öz müqəddəratını təyin etmək hüququ veriləcək.[131]

1917-ci il noyabrın 2-də (15-də) sovet hökuməti "Rusiya xalqlarının hüquq bəyannaməsi"ni qəbul etdi ki, həmin bəyannamədə sovet hakimiyyətinin milli siyasətinin əsas prinsipləri elan edildi. Burada keçmiş Rusiya imperiyasının tərkibinə daxil olan bütün xalqların bərabərliyi və suverenliyi, ayrılıb ayrıca müstəqil dövlət qurmağa qədər, bütün Rusiya xalqlarının öz müqəddəratını təyin etmək hüququ, bütün və hər cür ictimai, milli və dini im-ti-

[130] Azərbaycan tarixi. 3 cilddə. III c., I h., Bakı: Elm, 1973, s. 83; Azərbaycan tarixi. 7 cilddə. V c., s. 287-289.

[131] Балаев А. Азербайджанское национально-освободительное движение в 1917-1920 гг., с. 15; Məmmədov X. Azərbaycan xalqının milli istiqlal mübarizəsi (XIX yüzilliyin sonları – XX yüzilliyin əvvəlləri), Bakı: Elm, 2005, s. 200.

yazların ləğv edildiyi, Rusiya ərazisində yaşayan milli azlıqların və etnik qrupların azad inkişafının təmin edilməsi və s. məsələlər öz əksini tapmışdı.[132]

1917-ci il noyabrın 20-də (dekabrın 3-də) V.İ.Leninin və İ.V.Stalinin imzası ilə elan edilmiş başqa bir sənəddə – "Rusiyanın və Şərqin bütün müsəlman zəhmətkeşlərinə" adlı müraciətnamədə isə sovet hökuməti müsəlman zəhmətkeşlərinə öz həyatlarını azad və sərbəst olaraq qurmaq hüququnu təntənə ilə bildirirdi. sovet hökuməti müsəlman xalqlara müraciət edərək bəyan edirdi ki, "bu gündən etibarən sizin dininiz və adətləriniz, milli və mədəni müəssisələriniz azad və toxunulmaz elan edilir. Siz özünüz öz ölkənizin sahibi olmalısınız. Öz milli həyatınızı azad və istədiyiniz kimi qurun. Sizin buna haqqınız vardır, çünki sizin öz müqəddəratınız öz əlinizdədir".[133]

Bolşeviklər "xalqların öz müqəddəratını təyin etmək" hüququnu elan etsələr də, sonralar Stalin bəyan etdi ki, bu məsələ ancaq "xalqın sosializmi seçməsi" şərti ilə həyata keçirilə bilər. Stalinə görə, yaradılmaqda olan muxtariyyətlər gələcək sosialist mərkəzçiliyinə və ya unitar dövlətçiliyə keçid üçün sadəcə bir vasitə idi. Milli siyasətçilər elan etdikləri muxtariyyəti tanıtmaq üçün hər hansı güzəştlərə getməyə hazır olsalar da, xalqların öz müqəddəratını təyin etmək hüququnu elan edən bolşeviklər onların sovet hakimiyyətini qəbul etdikləri və bu hakimiyyətə tabe olduqları halda muxtariyyətlərinin tanınacağını bəyan edirdilər.[134] V.İ.Leninin göstərişlərinə əsasən İ.Stalin 1918-ci il 18 mart tarixində Bakı bolşeviklərinə yazdığı məktubda bildirirdi ki, "müsəlmanlar muxtariyyət tələb edirlərsə, mərkəzdə və yerlərdə sovet hakimiyyətini

[132] Декреты Советской власти. Т. 1. Ред. комис: Г.Д.Обичкин и др. Москва: Политиздат, 1957, с. 39-41.
[133] Документы внешней политики СССР. Т. 1. Москва: Госполитиздат, 1957, с. 34-35; Декреты Советской власти. с. 113-115.
[134] Həsənov H. Nəriman Nərimanovun milli dövlətçilik baxışları və fəaliyyəti. Bakı: Elm. 2005, s. 23.

sözsüz olaraq tanımağı şərt qoymaqla onlara muxtariyyət vermək lazımdır".[135]

Ümumiyyətlə, bolşeviklərin "xalqların öz müqəddəratını təyin etmək" hüququnu elan etmələri sovet hökumətinin siyasətini ört-basdır etmək və milli siyasəti daha incə üsullarla həyata keçirmək məqsədi daşıyırdı. Əslində bu rus çarizminin əsarətdə olan xalqlara qarşı yeritdiyi siyasətin başqa formada davam etdirilməsi demək idi.

Oktyabr çevrilişindən sonra bolşeviklər Bakı Sovetində hakimiyyəti öz əllərinə almağa müvəffəq olsalar da, Azərbaycanın digər bölgələrində və bütövlükdə Cənubi Qafqazda hakimiyyətə yiyələnmək yolunda müsavatçılar, menşeviklər və daşnakların simasında ciddi maneələrlə üzləşdilər. Müvəqqəti hökumətin devrilməsi ilə Fevral inqilabından sonra Cənubi Qafqazı idarə etmək üçün yaradılan Xüsusi Cənubi Qafqaz Komitəsinin də fəaliyyəti sona çatdı. İdarə və siyasi yöndən Cənubi Qafqazın Rusiya ilə əlaqələri kəsildi. Fəaliyyəti sona çatan Xüsusi Komitənin təşəbbüsü ilə Cənubi Qafqazda fəaliyyət göstərən siyasi təşkilatların 1917-ci il noyabrın 11-də (24-də) Tiflisdə keçirilən müşavirəsində gürcü menşevikləri, Azərbaycan müsavatçıları, erməni daşnakları və sağ eserlərin nümayəndələri Rusiya bolşevik hökumətini tanımaqdan imtina etdiklərini bildirib, Müəssislər Məclisi tərəfindən hakimiyyət məsələsi həll edilənə qədər regionu idarə etmək üçün Cənubi Qafqaz hökuməti yaratmaq haqqında qərar qəbul etdilər. Noyabrın 15-də (28-də) Cənubi Qafqaz Komissarlığı yaradıldı.[136] Gürcü menşeviki E.Gegeçkorinin rəhbərlik etdiyi hökumətdə daxili işlər komissarı A.Çxenkeli, hərbi komissar D.Donskoy, maliyyə komissarı X.Karçikyan, maarif və ədliyyə komissarı Ş.V.Alekseyev-Mesxiyev, ticarət və sənaye komissarı M.Y.Cəfərov, yollar komissarı X.Məlik-Aslanov, dövlət əmlakı komissarı A.Neruçev, ərzaq komissarı Q.Ter-Qazaryan, ictimai himayəçilik komissarı

[135] İbrahimov Z. V.I.Lenin və Azərbaycanda sosialist inqilabının qələbəsi, s. 210.

[136] Документы и материалы по внешней политике Закавказья и Грузии, с. 7; ATASE, BDH. K. 152. D. 681. F. 9.

A.Ohancanyan, dövlət nəzarəti komissarı X.Xasməmmədov idi. Əmək və xarici işlər komissarı vəzifələri də E.Gegeçkorinin öz səlahiyyətində idi.[137]

Cənubi Qafqaz Komissarlığı Petroqraddakı sovet hökumətini tanımadığını bəyan etsə də, Rusiya ilə əlaqələrini kəsməmişdi və özünü “Böyük Rus Dövləti”nin bir hissəsi olaraq görürdü. Komissarlığın 1917-ci il noyabrın 18-də (dekabrın 1-də) elan etdiyi bəyannaməyə görə, yeni iqtidar ümum-Rusiya Müəssislər Məclisinin çağırılmasına qədər hakimiyyətdə olacaqdı. Əgər Rusiya hadisələri Müəssislər Məclisinin toplanmasına imkan verməsə, bu hökumət Cənubi Qafqazdan və Qafqaz cəbhəsindən Rusiya Müəssislər Məclisinə seçilən nümayəndələrin toplanmasına qədər iqtidarda olacaq və Məclisə seçilən nümayəndələr qrupuna tabe olacaqdı.[138]

E.Gegeçkori hökuməti Birinci dünya müharibəsi və daxili ziddiyyətlərlə əlaqədar Cənubi Qafqazın ərazi bütövlüyünü qoruyub saxlamağı xarici siyasətdə başlıca vəzifə kimi qarşıya qoymuşdu. Amma Komissarlığın xarici siyasətinə münasibətdə ilk gündən milli fraksiyalar arasında fikir ayrılığı mövcud idi və bu sonralar daha da dərinləşdi. Müsəlman fraksiyası ayrı-ayrı dövlətlərlə əlaqə məsələsində hökumətin tam müstəqilliyini elan edən bəyannamə qəbul edilməsini zəruri hesab edirdi. Gürcü fraksiyası yalnız bir sıra daxili məsələlərin həll edilməsi ilə kifayətlənməyi lazım bilirdi. Erməni milli fraksiyasının isə nə müstəqilliyin elan edilməsi, nə də sülh məsələsində yekdil fikri yox idi. Lakin sovet hakimiyyətinə münasibət məsələsində, demək olar ki, bütün fraksiyalar eyni mövqedən çıxış edirdilər.

1917-ci il noyabrın 26-da Cənubi Qafqazda, o cümlədən Azərbaycanda Müəssislər Məclisinə seçkilər keçirildi. Bütün Cənubi Qafqaz üzrə 2.455.274 seçicinin iştirak etdiyi seçkilərdə səslər siyasi partiyalar arasında aşağıdakı kimi bölünmüşdü. Menşeviklər 661.934, Müsavat 615.816, Daşnaksütyun 558.400, Müsəlman Sosialist Bloku 159.770, Eserlər 117.522, Bolşeviklər

[137] Документы и материалы по внешней политике Закавказья и Грузии, с. 7-8.
[138] Yenə orada. s. 8-9; ATASE. BDH, K. 152, D. 681, F. 9-1.

93.581, Hümmət 84.748, İttihad 66.504, Gürcü milli demokratları 25.733, Kadetlər 25.673, Gürcü Sosial Federalistləri 22.754, Erməni Xalqçıları 15.180, Sionistlər 7.018, Xalq Sosialistləri 570, Cənubi Qafqaz Müsəlmanları 71.[139]

Hər 60.000 səs üçün bir mandat verilməklə, gürcü menşevikləri 11, Müsavat 10, Daşnaksütyun 9, Müsəlman Sosialist Bloku 2, Bolşeviklər, Eserlər, Hümmət və İttihad isə hərəsi bir mandat qazandılar. Cənubi Qafqaz dairəsi üzrə seçkilərdə iştirak edən 15 partiya arasında menşeviklər, müsavatçılar və daşnaklar ümumilikdə səslərin 73 faizini qazandılar. Bolşeviklər Bakıda əhalinin 20 faizinin və qarnizon əsgərlərinin səslərinin 70 faizindən çoxunu qazansalar da, bütövlükdə Cənubi Qafqaz dairəsi üzrə cəmi 4,4 faiz səs yığa bilmişdilər.[140] Seçkilərin nəticələri bir daha göstərdi ki, Bakı şəhəri istisna olmaqla, bütün Cənubi Qafqazda gürcü menşevikləri, Azərbaycan müsavatçıları və erməni daşnakları daha böyük nüfuza malikdirlər.

1918-ci il yanvarın 18-də (5-də) Petroqradda Müəssislər Məclisi toplandı. Bütün günü gedən uzun müzakirələrdən sonra Müəssislər Məclisinin bolşeviklərə qarşı olduğu anlaşıldı. Yanvarın 19-da (6-da) səhər ümum-Rusiya Mərkəzi İcraiyyə Komitəsi Müəssislər Məclisinin iclasını başqa günə keçirməklə onun varlığına son qoyan qərar dərc etdi. Bununla da, bolşevik iqtidarının çox sürməyəcəyinə və Rusiya ilə bağlı bütün məsələlərin Müəssislər Məclisində həll ediləcəyinə inanan, demokratik Rusiya uğrunda mübarizə aparan bütün siyasi qüvvələrin, o cümlədən Cənubi Qafqaz Komissarlığının ümidləri boşa çıxdı. Ancaq Cənubi Qafqaz Komissarlığı bolşeviklər tərəfindən Müəssislər Məclisinin qovulmasından sonra da özünün "Rusiyanın bir hissəsi olması" ilə bağlı mövqeyini qoruyub saxladı, lakin mərkəzdəki sovet hökuməti ilə əlaqələrini kəsdi.

Müəssislər Məclisinin toplanmasından çox şey gözləyən və hətta bunun üçün Osmanlı imperiyası ilə Brest-Litovsk sülh danışıqlarına qatılmaqdan imtina edən Cənubi Qafqaz Komissarlığı

[139] Suny R.G. Baku Komünü, s. 179.
[140] Azərbaycan tarixi. 7 cilddə. V c., s. 294.

bolşeviklərin əsl simasını gördükdən sonra Komissarlığın 1917-ci il 18 noyabr tarixli bəyannaməsi çərçivəsində bölgədə hakimiyyət məsələsini həll etmək üçün Cənubi Qafqazdan ümum-Rusiya Müəssislər Məclisinə seçilmiş nümayəndələri 1918-ci ilin fevral ayının əvvəllərində Tiflisə topladı.[141] Toplantı iştirakçıları yaranmış hakimiyyətsizlik şəraitində yeganə çıxış yolunu Cənubi Qafqaz Seymini (parlamentini) yaratmaqda gördülər. Eyni zamanda, regionda heç bir nüfuzu və kifayət qədər güclü hakimiyyəti olmayan Cənubi Qafqaz Komissarlığı özünü buraxmaq məcburiyyətində qaldı. 1918-ci il fevralın 23-də (10-da) Cənubi Qafqazdan ümum-Rusiya Müəssislər Məclisinə seçilmiş nümayəndələrin Tiflisdə keçirilən yığıncağında Cənubi Qafqaz Seyminin yaradılması və bölgədə yerli hakimiyyətin bu orqana verilməsi haqqında qərar qəbul edildi.[142] Beləliklə, Cənubi Qafqazın ali hakimiyyət orqanı kimi Seym öz işinə başladı və E.Gegeçkori başda olmaqla Cənubi Qafqaz hökuməti təşkil edildi. Cənubi Qafqaz Seymində Müəssislər Məclisinə seçilmiş nümayəndələrin sayını bərabər şəkildə üç dəfə artırmaq yolu ilə menşeviklər 33, Müsavat və bitərəf demokratik qrup 30, daşnaklar 27, Müsəlman Sosialist Bloku 7, eserlər 5, hümmətçilər 4, ittihadçılar isə 3 yer əldə etdilər.[143]

Cənubi Qafqaz Seymi məcburiyyət qarşısında meydana gəlmiş bir orqan idi. Seymə daxil olan hər üç millət – gürcülər, azərbaycanlılar və ermənilər öz-özlüyündə tamamilə müstəqil idilər. Bunların hər biri öz milli maraqlarına ən uyğun şəkildə təşkilatlarını qurmuşdular və milli ideallarını gerçəkləşdirməyə çalışırdılar. Hər üç millətin milli maraqları çox zaman bir-biri ilə toqquşurdu. Ona görə də bunların hər biri onu dəstəkləyəcək bir qüvvə, bir böyük dövlət axtarışında idi. Bu şərtlər daxilində Cənubi Qafqaz Seyminin gerçəklikdən uzaq bir birlik olduğu və ilk böyük sarsıntıda bu Seymin dağılacağı göz qabağında idi.

[141] Kazemzadeh F. The Struggle for Transcaucasia, p. 83-84.
[142] ATASE, BDH, K. 2921, D. 511, F. 1-74, 1-100; K. 2909, D. 452, F. 2-77; K. 3939, D. 153, F. 5.
[143] Zaqafqaziya Seyminin Müsəlman fraksiyası və Azərbaycan Milli Şurası iclaslarının protokolları. s. 6.

Bununla belə, Seymin yaranması ilə faktiki olaraq Cənubi Qafqaz Rusiyadan ayrılmışdı. Artıq Cənubi Qafqaz qanuni seçilmiş nümayəndələrdən ibarət ali bir məclisə və onun qarşısında məsul olan hökumətə malik idi. Yaranmış bu tarixi fürsətdən istifadə edib Cənubi Qafqazın müstəqilliyini elan etmək Seymdən asılı idi. Lakin Seymə daxil olan partiyalar bu məsələdə yekdil deyildilər. Sosial-demokratlar son dəqiqəyə qədər özlərini "Rusiya demokratiyasının ayrılmaz bir hissəsi" adlandırırdılar. Gürcü sosial-federalistləri isə bunun əksinə olaraq, Seymi Rusiyanın süqutu gedişində müvəqqəti bir mərhələ hesab edirdilər. Onların fikrincə, tənəzzül davam edəcək və millətlər öz sərhədləri daxilində müqəddəratlarını öz əllərinə alacaqlar. Ancaq ondan sonra müstəqil dövlətlər öz aralarında bir ittifaq qura bilərlər. Bu məntiqi fikir daha çox reallığa uyğun olsa da, məhdud bir azlığın nəzəriyyəsi halında qalmışdı.

Cənubi Qafqaz Seymi də komissarlıq kimi özünü "Rusiyanın bir hissəsi" hesab etsə də, bolşeviklərin hakimiyyətini əsla qəbul etmirdi. Bolşeviklər də öz növbəsində, Seymi Cənubi Qafqazın Rusiyadan ayrılması yolunda bir mərhələ olaraq görür və bunu həzm edə bilmirdilər. Cənubi Qafqaz Seyminin açıldığı gün bolşeviklər Tiflisdəki Aleksandrovski parkında bir etiraz mitinqi təşkil etdilər. Baş verə biləcək hər hansı bir xoşagəlməz hadisənin qarşısını almaq məqsədilə Gegeçkori və Jordaniyanın əmrləri ilə "Vəhşi diviziya" Gəncədən Tiflisə gətirilmişdi. Mitinqi qırmızı rus bayraqları ilə bəzəyən bolşeviklər Seym əleyhinə bir sıra şüarlar səsləndirdilər. Polis nümayişçilərə dağılmalarını əmr etsə də, izdiham əmrə tabe olmadı və polis makinalı tüfənglərlə onlara atəş açdı.[144] Nəticədə 5 nəfər öldü, 15 nəfər yaralandı. Tiflis hökuməti Sovet Rusiyasının Qafqaz işləri üzrə müvəqqəti fövqəladə komissarı S.Şaumyanın həbs olunması barədə qərar qəbul etdi. Buna görə də S.Şaumyan və digər bolşevik liderləri Tiflisi tərk edib, Bakıya qayıtmağa məcbur oldular. Bu dövrdən başlayaraq Tiflis antibolşevik mübarizənin mərkəzi, Bakı isə bolşeviklərin istehkamı oldu.

---

[144] Kazemzadeh F. The Struggle for Transcaucasia. p. 88; Suny R.G. Baku Kommunu, s. 207.

Ümumiyyətlə, Oktyabr çevrilişindən sonrakı ilk günlərdə bolşeviklər hiylə yolu ilə Bakı Sovetini şəhərdə ali hakimiyyət orqanı elan edib burada əsas vəzifələri ələ keçirsələr də, Azərbaycanın digər bölgələrində və bütövlükdə Cənubi Qafqazda hakimiyyətə yiyələnə bilmədilər. Bununla da, Sovet Rusiyası XIX əsrin əvvəllərindən başlayaraq çarizmin öz əsarəti altında saxladığı Cənubi Qafqaz regionunu itirmək təhlükəsi qarşısında qaldı. Həm çar Rusiyası, həm menşevik, həm də bolşevik Rusiyası Cənubi Qafqazın itirilməsi faktı ilə razılaşmadılar. Cənubi Qafqaz Rusiya üçün həyati, özünün geosiyasi mövqeyi ilə mühüm iqtisadi və siyasi-strateji əhəmiyyətə malik bir region idi. Ona görə də Rusiya Cənubi Qafqazı itirməməyə, bütün böyük dövlətlər isə Cənubi Qafqazı ələ keçirib burada möhkəmlənməyə var qüvvə ilə çalışırdılar. Qafqazın təbii ehtiyatları, xüsusən də Rusiyada istehsal olunan neftin 83 faizini verən neft Bakısı dünya dövlətlərinin maraq dairəsinə çoxdan daxil olmuşdu. Bununla yanaşı, Bakı Yaxın Şərqlə Mərkəzi Asiyanın kəsişdiyi bir mərkəz rolunu oynayırdı. Oktyabr çevrilişindən sonra dünya müharibəsində iştirak edən dövlətlərin Qafqazla bağlı planlarında neft Bakısını ələ keçirmək başlıca məqsədə çevrilmişdi.

Cənubi Qafqazın Rusiyadan ayrılması Rusiya üçün iqtisadi və hərbi-strateji əhəmiyyətinə görə mühüm bir ərazinin itirilməsi demək idi. Əvvəla, Cənubi Qafqaz Rusiyanın mühüm enerji bazası idi. Təbii ki, burada Bakı nefti başlıca yer tuturdu. Bu bazanın istər müstəqil Cənubi Qafqaz hökuməti, istərsə də imperialist dövlətlər tərəfindən ələ keçirilməsi Rusiyanı yanacaq sarıdan ağır vəziyyətdə qoyardı. İkincisi, Cənubi Qafqazın itirilməsi Rusiyanın Xəzər dənizi hövzəsində mövqeyini sarsıda, Həştərxan və Orta Asiya istiqamətindən Rusiyaya qarşı hərbi yürüşləri asanlaşdıra bilərdi. Bütövlükdə, Cənubi Qafqazın itirilməsi Rusiya ilə Yaxın Şərq arasında yaranmış tarixi, iqtisadi və siyasi əlaqələrin pozulması demək idi. Ona görə də Rusiyanın Cənubi Qafqaz siyasəti daha irticaçı xarakter daşıyırdı. Ruslar Bakını kiməsə vermək niyyətində deyildilər.

Birinci dünya müharibəsi və bolşevik istilası nəticəsində iqti-

sadi cəhətdən tənəzzülə uğrayan Rusiyanı yalnız Bakı nefti xilas edə bilərdi. Həmçinin, bolşeviklərin hakimiyyəti ələ almaları ilə başlayan daxili müharibədə neft "qırmızılar" üçün həyati əhəmiyyətli bir maddə halına gəlmişdi. Ona görə də bolşeviklər, nəyin bahasına olursa olsun, Bakı neftini öz əllərində saxlamaq istəyirdilər. Bu məqsədlə bolşevik hakimiyyəti qurulan kimi sovet liderləri neft Bakısını və bütövlükdə Cənubi Qafqazı öz nəzarətində saxlamaq üçün bir sıra tədbirlərə əl atdılar. 1917-ci il dekabrın 16-da (29-da) Rusiya Sovet Federativ Sosialist Respublikası (RSFSR) Xalq Komissarları Sovetinin (XKS) V.İ.Leninin sədrliyi ilə keçirilmiş iclasında Qafqaz haqqında İ.Stalinin məruzəsi dinlənildikdən sonra Bakı Fəhlə və Əsgər Deputatları Sovetinin sədri S.Şaumyan Qafqaz işləri üzrə müvəqqəti fövqəladə komissar təyin edildi və Bakı Sovetinə 500 min rubl pul buraxılması haqqında qərar qəbul edildi.[145] Bunun ardınca, 29 dekabr 1917-ci il (11 yanvar 1918-ci il) tarixində V.İ.Lenin və İ.Stalinin imzaları ilə RSFSR XKS-nin "Türkiyə Ermənistanı" haqqında 13 nömrəli dekreti elan edildi ki, bunun da icrası S.Şaumyana tapşırıldı. "Məşhur" Andranik tərəfindən son yüz ilin Rusiya tarixində "Böyük Ermənistan"ın bərpasına rəvac verən ilk rəsmi sənəd kimi dəyərləndirilən[146] bu dekretdə deyilirdi:

"Xalq Komissarları Soveti rus ordusu tərəfindən işğal edilmiş Türkiyə Ermənistanında erməni xalqının tam istiqlalını elan etmək dərəcəsinə qədər təyini-müqəddərat haqqını müdafiə edəcəyini bütün erməni xalqına elan edir.

Xalq Komissarları Soveti bu haqqın tətbiqi üçün bütün erməni xalqının sərbəst səsvermə yolu ilə milli iradə təsbit edilincəyə qədər bəzi köməkçi tədbirlərə əl atmağı lazım bilir və köməkçi tədbir olmaq üzrə bunları qərara alır:

1. Türkiyə Ermənistanını işğal etmiş rus ordusunu dərhal çıxararaq o məntəqələrdə şəxsi təhlükəsizlik və ictimai asayişin təmin edilməsi üçün erməni xalq milis qüvvələri yaradılmalıdır.

---

[145] V.İ.Lenin Azərbaycan haqqında. Tərtib edən: C.B.Quliyev. Bakı: Azərbaycan Dövlət Nəşriyyatı, 1970, s. 119-121.
[146] Musayev İ. Azərbaycanın xarici siyasəti. s. 21.

2. Qaçqın ermənilərin və dünyanın müxtəlif ölkələrinə səpələnmiş erməni mühacirlərinin maneəsiz şəkildə Türkiyə Ermənistanına geri qayıtmaları təmin edilməlidir.

3. Müharibə dövründə türk hakimiyyət orqanları tərəfindən Osmanlı imperiyasının daxili vilayətlərinə sürgün edilmiş ermənilərin Türkiyə Ermənistanına maneəsiz qaytarılması təmin edilməlidir. Xalq Komissarları Soveti Türkiyə ilə aparılan sülh danışıqlarında bu məsələ üzərində israrla duracaqdır.

4. Demokratik əsaslarla seçiləcək Erməni Xalq Deputatları Soveti Türkiyə Ermənistanının müvəqqəti idarəsini təşkil etməlidir.

İkinci və üçüncü maddələrdəki qərarların həyata keçirilməsi üçün Türkiyə Ermənistanı əhalisinə hər cür yardım göstərmək və Türkiyə Ermənistanındakı rus ordusunun çıxarılması (I maddə) işini tənzimləmək məqsədilə məhəlli komissiyalar yaratmaq kimi vəzifələr Qafqaz işləri üzrə müvəqqəti fövqəladə komissar S.Şaumyana tapşırılır.

**Qeyd:** Türkiyə Ermənistanının coğrafi sərhədləri erməni xalqının demokratik əsaslarla seçiləcək nümayəndələri tərəfindən qonşu ölkələrlə mübahisəli məntəqələrin müsəlman və digər əhalisi ilə anlaşmaq surətilə Qafqaz işləri üzrə müvəqqəti fövqəladə komissarın iştirakı ilə təyin olunacaqdır".[147]

Bu dekret sovet hökumətinin Türkiyə ilə Rusiya arasında Brest-Litovskda aparılan sülh danışıqlarında "erməni məsələsi"nin həll edilməsi ilə bağlı tutacağı mövqeyi açıq-aydın göstərdi. Həmçinin, bolşeviklər "ermənilərin hamisi" rolunu oynadıqlarını və bununla da çar Rusiyasının siyasətini təkrar etdiklərini nümayiş etdirdilər. Bu dekretlə sovet hökuməti ermənilərin köçürülməsi hesabına Türkiyənin şərq vilayətlərində erməni çoxluğu yaratmaq, referendum yolu ilə burada rus himayəsi altında oyuncaq bir erməni dövləti qurmaq və gələcəkdə bu əraziləri Sovet Rusiyasına

[147] Документы внешней политики СССР. Т. 1, с. 74-75; BOA, BEO, A.VRK. no. 817/40; Məmmədzadə M.B. Milli Azərbaycan hərəkatı. s. 90-91; Kurat A.N. Türkiye ve Rusya. s. 336-337; Selvi H. Birinci Dünya Savaşı`ndan Lozan'a Ermeni Sorunu. Sakarya: Sakarya Üniversitesi Yayınları, 2004. s. 87.

ilhaq etməyi nəzərdə tuturdu. Daha sonra bu "erməni dövləti"nin sərhədləri Azərbaycan torpaqları hesabına genişləndiriləcəkdi və nəticədə "Osmanlı imperiyasının Rusiyada yaşayan türk-müsəlman əhali ilə əlaqələrini kəsəcək bufer bir ərazi yaratmaq"la bağlı rus çarizminin planları həyata keçirilmiş olacaqdı. Bolşeviklər həm də Oktyabr çevrilişindən sonra faktiki olaraq Rusiyanın nəzarətindən çıxan Cənubi Qafqaz regionunda ermənilərin simasında özlərinə dayaq yaradaraq, onların köməkliyi ilə bölgədə öz hakimiyyətlərini bərqərar etmək istəyirdilər. Amma bu dövrdə Cənubi Qafqazda baş verən hadisələr, o cümlədən Brest-Litovsk sülh konfransında türk diplomatiyasının çevikliyi bu dekretin gerçəkləşməsinə imkan vermədi.

M.B.Məmmədzadə adı keçən dekretə toxunaraq qeyd edirdi ki, "rus çarlarının yolu ilə gedən Lenin Böyük Ermənistan vasitəsilə Aralıq dənizinə və Hind okeanına çıxacaq, Avropa kapitalistlərinin öz müstəmləkələrinə gedən yollarını kəsmək surətilə dünya inqilabı yaradacaqdı. Böyük Ermənistan bu məqsədlə ona çox lazım idi. Ancaq bunun üçün Qafqaz hərəkət bazasına gəlməli idi. Qafqaz sovetləşdirilməli idi".[148]

Beləliklə, V.İ.Lenin və İ.Stalinin imzaladıqları 13 nömrəli dekretlə S.Şaumyana, Kuznetsova və başqa bolşeviklərə Qafqazda sovetləşdirmə əməliyyatını həyata keçirmək tapşırılmış, həmçinin, Türkiyədə rus ordularının işğalı altında olan torpaqlarda Ermənistan yaratmaq səlahiyyəti verilmişdi. Bu məqsədlə S.Şaumyan Tiflisə gələrək, 1918-ci il yanvarın 22-də çıxış etdi və bütün Qafqazı sovetləşdirməyə çağırdı. Cənubi Qafqaz Komissarlığı isə bu çıxış üçün Şaumyanı 24 saat ərzində ölkəni tərk etməyə məcbur etdi. Şaumyan və yoldaşları Tiflisdən Bakıya qaçdılar.[149] Bununla da, Tiflisdəki gürcü menşeviklərinin və digər anti-bolşevik qüvvələrinin nüfuzu və fəaliyyəti qarşısında Cənubi Qafqazda bolşevik idarəsini qura bilməyən S.Şaumyan bütün diqqətini Bakıya yönəltdi.

---

[148] Məmmədzadə M.B. Milli Azərbaycan hərəkatı, s. 91.
[149] Baykara H. Azərbaycan istiqlal mübarizəsi tarixi, s. 226.

Bu dövrdə Qafqaz cəbhəsinin ləğv olunması ilə cəbhədən dönən rus əsgərlərinin bir hissəsi Bakıda yerləşmişdi. S.Şaumyan ilk öncə bolşevik fikirli rus əsgərlərindən, daha sonra daşnak partiyasının köməyi ilə ermənilərin türk-müsəlmanlara olan düşmənçiliyindən məharətlə istifadə etdi. Rus əsgərlərinə və ermənilərə arxalanan S.Şaumyan menşevik, eser və müsavatçıların çoxluq təşkil etdikləri Bakı Soveti və bələdiyyə məclisini zorla yeniləşdirib bolşeviklərin çoxluğunu təmin etdi, həmçinin Bakı şəhərinin idarələrində çalışan azərbaycanlıları tutduqları vəzifələrdən uzaqlaşdırdı. Bununla da, Bakı şəhərini və ətrafını bolşevikləşdirdiyini zənn edən S.Şaumyan erməniləri və rus əsgərlərini, xüsusilə Xəzər hərbi dəniz donanmasının matroslarını azərbaycanlılara qarşı təhrik etməyə başladı. Bakıda özünün rəhbərliyi altında sovet hökuməti quran S.Şaumyan Azərbaycanın muxtariyyətinə qənim kəsilmişdi və onun bu siyasəti 1918-ci ilin Mart qırğını ilə nəticələndi.

Cənubi Qafqazda milli-azadlıq hərəkatının genişləndiyi bir şəraitdə Azərbaycanın geniş xalq kütlələri Müsavat partiyası ətrafında sıx birləşərək Azərbaycana muxtariyyət verilməsi tələbini qətiyyətlə irəli sürürdülər. Lakin Azərbaycana muxtariyyət verilməsinin əleyhinə olan S.Şaumyan Azərbaycan xalqının öz müqəddəratını təyin etməsi tələbini bilərəkdən təhrif edərək, bunu "millətçilərin öz müqəddəratını təyin etməsi" kimi qələmə verirdi. Ümumiyyətlə, Cənubi Qafqazda millətlərin öz müqəddəratını təyin etmək cəhdlərinə qarşı açıq düşmənçilik mövqeyi tutan S.Şaumyan bunu inqilabi Rusiyaya qarşı xəyanət kimi qələmə verməyə çalışırdı. Cənubi Qafqaz xalqlarının gələcəkdə milli respublikalar yaratmaq cəhdlərini o, istehza ilə "üç milli satraplıq" adlandırırdı. Lakin S.Şaumyan Cənubi Qafqazın gələcək inzibati-ərazi bölgüsü haqqında düşünərkən, ilk növbədə, erməni xalqının gələcəyi, onun payına düşə biləcək torpaqlar barədə daha çox narahat olurdu. O yazırdı: "Zaqafqaziyaya gəlincə, mən inzibati vahidlərin bir qədər dəyişdirilməsini zəruri hesab edirəm. Zaqafqaziyanı üç vilayətə parçalamaq lazımdır. 1. Qərbi Zaqafqaziya: Kutaisi, Batum quberniyaları və Tiflis quberniyasının bir hissəsi; 2. Şərqi Zaqafqaziya: İrəvan quberniyası, Tiflis quberniyasının bir

hissəsi, Qars və Yelizavetpol quberniyaları; 3. Bakı vilayəti: Yelizavetpol quberniyasının bir hissəsi və Dağıstan vilayəti".[150]

Cənubi Qafqazı beləcə ermənilərin xeyrinə bölməklə kifayətlənməyən S.Şaumyan "Türkiyə Ermənistanı"nı da unutmurdu və hesab edirdi ki, "əgər onlar Rusiya ilə birləşməyi qərara alsalar, Ermənistana birləşməlidirlər".[151]

Azərbaycanın muxtariyyəti və müstəqilliyi uğrunda mübarizə aparan Müsavat partiyası bolşevik-erməni alyansının başlıca düşməninə çevrilmişdi. 1918-ci ilin Mart qırğını da başlıca olaraq Azərbaycanın muxtariyyəti və müstəqilliyi əleyhinə yönəldilmişdi. M.Ə.Rəsulzadə də Mart qırğınının səbəbini 1917-ci ilin son rübündən başlayaraq müsəlman demokratiyasının həyata keçirməyə çalışdığı "Azərbaycan muxtariyyəti"ndə görürdü. O yazırdı ki, "siyasi proqram şəklində meydana atılmış Azərbaycan muxtariyyəti bolşeviklərin planlarına uyğun gəlmirdi".[152] M.Ə.Rəsulzadə bolşevik orqanı olan "Bakinskiy raboçiy"in muxtariyyətçilərə necə cavab verdiyini belə xatırlayırdı: "Azərbaycan muxtariyyəti türk burjuaziyasının muxtariyyətidir. Bu muxtariyyətə nə Rusiya burjuaziyası, nə də Rusiya demokratiyası razı olur. Azərbaycan muxtariyyətini istəyən müsavatçılar nəticədə xarabazar bulurlar".[153] Bakıda Mart qırğınının törədilməsinin başlıca səbəbləri Azərbaycanın muxtariyyəti və müstəqilliyinin qarşısının alınması, Bakının mühüm iqtisadi və siyasi əhəmiyyəti ilə bağlı idi. Rusiya üçün Bakı böyük əhəmiyyət daşıyırdı. V.İ.Lenin bildirirdi ki, "kommunizmi yaşatmaq və onu sağlam təməllərdə yüksəltmək üçün qara qızıl diyarı olan Azərbaycanı ələ keçirməliyik".[154] 1918-ci il martın ikinci yarısında V.İ.Lenin ABŞ-ın Qırmızı Xaç nümayəndəliyinin rəhbəri polkovnik R.Robinsonun "Rusiya Sovet Respublikası üçün Bakının iqtisadi əhəmiyyəti nədədir" sualına

---

[150] Çıraqzadə V. İstiqlal yollarında. Bakı: Azərnəşr. 1992, s. 16.
[151] Yenə orada, s. 16.
[152] Rəsulzadə M.Ə. Azərbaycan Cümhuriyyəti, s. 32.
[153] Yenə orada, s. 32.
[154] İşyar Ö.G. Bölgesel ve Global Güvenlik Çıkarları Bağlamında Sovyet-Rus Dış Politikaları ve Karabağ Sorunu. İstanbul: Alfa Yayınları. 2004, s. 316.

"Bu – neft, işıq və enerjidir", deyə cavab vermişdi.[155] Mart qırğınını törətməklə bolşeviklər Bakıda Azərbaycan muxtariyyətini tələb edən müsavatçıların sosial bazasını məhv etməyə nail olmaq ümidində idilər.

Cənubi Qafqazda "sosialist inqilabı"nın qalası olmaq etibarı ilə Bakıya böyük əhəmiyyət verən sovet hökuməti, şəxsən V.İ.Lenin neft şəhərində sovet hakimiyyətinin möhkəmlənməsinə xüsusi diqqət yetirirdi. Sovet Rusiyasının keçirdiyi çətinliklərə baxmayaraq V.İ.Leninin bilavasitə göstərişi ilə XKS Bakı Sovetinə hər cür yardım göstərirdi. 1918-ci il yanvarın ortalarında Millətlər işi üzrə Xalq Komissarlığının blankında İ.Stalinin əli ilə yazılmışdı: "Təcili surətdə hərbi və pulla Bakıya yardım göstərilsin".[156] RSFSR XKS Bakı Soveti İcraiyyə Komitəsinin xahişini yerinə yetirərək 1918-ci ilin fevralında Bakıya 30,8 milyon rubl pul göndərmişdi. Bu pulu V.İ.Leninin xüsusi tapşırığı ilə Orta Asiya işləri üzrə fövqəladə komissar P.A.Kobozev fevralın 9-da Xəzər dənizi vasitəsilə Bakıya gətirmişdi.[157] Bundan başqa, 1918-ci ilin martında XKS Moskva hərbi dairəsi komandanına Bakıya bir qoşun dəstəsi, iki təyyarə, üç zirehli maşın və beş min tüfəng göndərmək haqqında göstəriş vermişdi. Moskvadan yola salınan silah və hərbi ləvazimat artıq aprelin əvvəllərində Həştərxandan Bakıya gətirilmişdi.[158]

Siyasi baxışlarında kəskin fərqlər olmasına baxmayaraq Bakıda fəaliyyət göstərən bütün rus və erməni siyasi partiya və təşkilatları müsəlmanlara qarşı vahid cəbhədə birləşdilər. Daşnaksütyun partiyası və Erməni Milli Şurasının Ter-Qazaryan və Y.Ter-Mikaelyandan ibarət nümayəndələri ilə Müsavat partiyası və Müsəlman Milli Şurasının Ə.Topçubaşov və başqalarından ibarət nümayəndələri ilə aparılan danışıqlarda daşnaklar Bakı Sovetinə qar-

[155] Qasımov M. Birinci dünya müharibəsi illərində böyük dövlətlərin Azərbaycan siyasəti. II h., s. 104.
[156] İbrahimov Z. V.I.Lenin və Azərbaycanda sosialist inqilabının qələbəsi, s. 221.
[157] Yenə orada, s. 221.
[158] Azərbaycan tarixi. 3 clddə. III c., I h., s. 115.

şı mübarizədə müsavatçılara bir şərtlə kömək göstərməyə razı oldular ki, Bakıda koalisiyon müsavat-daşnak hökuməti yaradılsın. Lakin müsavatçılar bu həyasız təklifi rədd etdilər. Əslində bu danışıqlar təxribat xarakteri daşıyırdı. "Bakını Azərbaycanın paytaxtı elan etmək istəyən"[159] müsavatçıları şəhərdən uzaqlaşdırmağı qarşısına məqsəd qoyan S.Şaumyan "Böyük Ermənistan" xülyasında olan Daşnaksütyun partiyası ilə prinsipsiz ittifaqa girmişdi. Daşnaksütyun partiyasının o dövrdəki liderlərindən biri olan O.Kaçaznuni də bolşevik-daşnak əməkdaşlığından danışaraq qeyd edirdi ki, "Bakının erməni əhalisinin təhlükəsizliyi nöqteyi-nəzərindən bolşevik diktaturası Müsavat diktaturasından daha münasib idi... Bizim köməyimizlə bolşeviklər 1918-ci ilin martında Müsavatı darmadağın etdilər, bolşeviklərin və rus elementlərinin köməyi ilə biz Bakını türk-tatar hücumlarından müdafiə edə bildik".[160] Beləliklə, Azərbaycanın milli istiqlal mübarizəsini aparan Müsavat partiyasının nüfuzunun günbəgün artması, xalqın bu partiya ətrafında sıx birləşməsi "Böyük Ermənistan" yaratmaq xülyası ilə yaşayan daşnakları ciddi narahat etdiyindən onlar ümumi düşmən hesab etdikləri Müsavata qarşı bolşeviklərlə eyni cəbhədə birləşdilər.

Eyni zamanda, belə təhlükəli bir məqamda Bakı menşeviklərinin lideri Q.Ayollo onların soveti müdafiə edəcəklərini bəyan etdi. Eserlərin başçısı S.Saakyan panislamizmə qarşı vuruşacaqlarını, hətta bolşeviklərə dərin nifrət bəsləyən kadetlər də "rus işi" uğrunda mübarizə aparan bolşevikləri müdafiə edəcəklərini bildirdilər. Uzun müddət menşeviklərə qarşı mübarizə aparan bolşeviklərin menşevik və eserlərlə, hətta kadet və daşnaklarla mart günlərində birləşməsi dini və milli zəmində baş verdi.

Beləliklə, üç gün – (18-21 mart (30 mart – 2 aprel) 1918-ci il) – davam edən Mart qırğınında, Fövqəladə Təhqiqat Komissiyasının ümumiləşdirdiyi hesabatına görə, Bakıda "əksinqilabçı" adı ilə, milli və dini əlamətlərə görə 11 mindən artıq azərbaycanlı

---

[159] Şaumyan S. Seçilmiş əsərləri. 2 clddə. II c., Bakı: Azərnəşr. 1978, s. 260.
[160] Качазнуни Ов. Дашнакцутюн больше нечего делать. Баку; Элм, 1990, с. 21.

məhv edildi, kütləvi formada insan cəsədləri iyrənc və dəhşətli şəkildə təhqir edildi.[161]

Azərbaycan xalqına qarşı törədilmiş bu soyqırım aktı təkcə Bakı ilə məhdudlaşmadı. Aprel ayından başlayaraq Bakı Sovetinin bolşevik-daşnak qoşunları T.Əmirov, S.Lalayan, Hamazasp və başqa canilərin rəhbərliyi ilə Şamaxı, Salyan, Kürdəmir, Quba, Lənkəran və digər bölgələrdə də Bakıda başladıqları soyqırım əməlini davam etdirdilər. 1918-ci ildə Azərbaycan xalqına qarşı törədilmiş bu soyqırım aktları nəticəsində ümumilikdə 100 mindən artıq türk-müsəlman qətlə yetirilərək məhv edildi. H.Baykara haqlı olaraq yazırdı ki, Şaumyan verdiyi sözə əməl edirdi, azərilərə "azadlıq istiqlaliyyəti yerinə məzarlıq" bağışlayırdı.[162]

S.Şaumyan 1918-ci il aprelin 13-də XKS-nə yazdığı məktubda hadisələri vətəndaş müharibəsi kimi qələmə verməyə çalışsa da, milli qırğın faktını gizlədə bilmir. O, yazırdı: "Həm yerli sovetin, həm də buraya gəlmiş (Tiflisdən və Sarıqamışdan) Qafqaz ordusu hərbi-inqilab komitəsinin səyləri sayəsində bizim 6 min nəfərə yaxın silahlı qüvvəmiz var idi. "Daşnaksütyun"un da 3-4 min nəfərlik milli hissələri var idi ki, bunlar da bizim ixtiyarımızda idi. Milli hissələrin iştirakı vətəndaş müharibəsinə qismən milli qırğın xarakteri vermişdir. Lakin buna yol verməmək mümkün deyildi. Biz buna bilərəkdən yol verirdik. Əgər onlar (müsavatçılar – V.Q.) qalib gəlsəydi, Bakı Azərbaycanın paytaxtı elan edilər və bütün qeyri-müsəlman ünsürlər tərksilah və məhv edilərdi".[163] Göründüyü kimi, S.Şaumyan nəinki Azərbaycana muxtariyyət verilməsi, heç Bakının Azərbaycanın paytaxtı olması fikri ilə də razılaşa bilmirdi.

---

[161] ARPİİSSA, f. 277, siy. 2, iş 27, v. 18; Həsənov C. 1918-ci ilin martı: vətəndaş müharibəsi, yoxsa türk-müsəlman soyqırımı? – "Azadlıq" qəzeti. 31 mart 1994; Azərbaycan tarixi. 7 cilddə. V c., s. 302; İsgəndərov A. 1918-ci ilin Mart qırğınının tarixşünaslığı. Bakı: Mütərcim, 1997, s. 170; İsgəndərov A. Azərbaycanda türk-müsəlman soyqırımı probleminin tarixşünaslığı 1918-1920. Bakı: Adiloğlu, 2006, s. 295.

[162] Baykara H. Azərbaycan istiqlal mübarizəsi tarixi, s. 227.

[163] Şaumyan S. Seçilmiş əsərləri. II c., s. 260.

Aprelin 2-də Caparidze Şaumyana yazırdı ki, Daşkənddən və Şimaldan bizə kömək gəlir, artıq indi müsəlmanları sakitləşdirmək üçün onlara muxtariyyət vəd etmək olar. Üç gündən artıq davam edən faciəli hadisələrə inqilabi don geyindirmək üçün Məşədi Əzizbəyov şəhərin onsuz da boş qalmış müsəlman hissəsinə komissar təyin edildi. Mart qırğınlarından sonra İ.Suxartsev Bakı Sovetinin iclasında sevinc içərisində bildirirdi ki, "Müsavat firqəsi darmadağın edildi və Türkiyənin Bakı cəbhəsi alındı".[164]

M.Ə.Rəsulzadə 1918-ci ilin Mart faciəsini sırf siyasi-milli amil kimi səciyyələndirərək, bir il sonra bu hadisənin ildönümü ilə bağlı yazırdı: "Şaumyanların Bakıda törətdikləri hadisələr Petroqrad və Moskva hərəkətlərinə qətiyyən bənzəmirdi. Orada sinfi bir hərb, burada isə sinfi hərb adı ilə milli qətl icra edilirdi. Daşnaklar intiqam alırdılar. Martın 18-dən 20-nə qədər Bakı türk demokratiyasının qafasında partlayan toplar, müsəlmanlara edilən ədalətsizlik Azərbaycan fikrini daşıyanları, muxtariyyət və istiqlal əqidəsi ilə yaşayanları məhv etmək üçün idi".[165]

Azərbaycan xalqının milli istiqlal mübarizəsi tarixində ən böyük sınaq olan 1918-ci ilin Mart hadisələri faciə ilə nəticələnsə də, bu faciə Azərbaycan xalqının milli istiqlal əzmini qıra bilmədi. Bolşevik-daşnak birliyi öz istəyinə nail olmadı. Faciəli mart hadisələri Azərbaycan siyasi dairələrinin rus inqilabına olan ümidlərini puça çıxartdı, məlum hadisələrə qədər muxtariyyət uğrunda olan mübarizə, tam müstəqillik uğrunda mübarizə ilə əvəz edildi.

S.Şaumyanın rəhbərlik etdiyi Bakı Sovetinin daşnaklarla birləşib azərbaycanlıları qırğına məruz qoyaraq Bakıda hakimiyyəti qəsb etməsi RSFSR XKS-nin sədri V.İ.Lenin tərəfindən çox böyük məmnunluqla qarşılandı. 1918-ci il aprelin 6-da neftlə dolu 7 gəmi ilə Həştərxana, sonra isə Moskvaya göndərilən Bakı Sovetinin nümayəndəsi Saak Ter-Qabrielyanı qəbul edən V.İ.Lenin Bakı Sovetinin siyasətindən heyran qaldığını ifadə edərək, "Bakı proletariatına həm mənəvi, həm də maddi kömək göstərməyə həmişə

[164] Azərbaycan tarixi, 7 cilddə, V c., s. 304.
[165] Məmmədov X. Azərbaycan xalqının milli istiqlal mübarizəsi. s. 215.

hazır olduğunu" bildirmişdi.[166] V.İ.Leninin göstərişinə əsasən Bakı Sovetini hərbi cəhətdən möhkəmləndirmək məqsədilə Bakıya 5 min tüfəng, 2 milyon patron, 35 pulemyot və döyüşçü dəstələri, o cümlədən 4-cü Moskva səyyar inqilabi dəstəsi göndərildi.[167]

Beləliklə, Moskvadakı mərkəzi kommunist hökuməti tərəfindən hər cür himayə edilən Bakı Sovetinin bolşevik-erməni irticası 1918-ci il aprelin 25-də S.Şaumyan başda olmaqla Bakı XKS-ni yaratdılar. Bakı XKS 1918-ci il mayın 1-də əsas fəaliyyət proqramı kimi elan etdiyi bəyannamədə özünü Sovet Rusiyasının Azərbaycanda fəaliyyət göstərən yerli hakimiyyət orqanı olduğunu və birbaşa Moskvaya tabe olacağını bildirdi. Bəyannamədə qeyd edilirdi ki, "Bakı XKS RSFSR XKS hökuməti ilə ən sıx əlaqədə fəaliyyət göstərəcək və onun bütün dekret və sərəncamlarını özü üçün vacib bilib, yerli şəraitə uyğun olaraq həyata keçirəcəkdir".[168] Bəyannamədə, həmçinin göstərilirdi ki, Bakı XKS bütün Cənubi Qafqazda və Dağıstan vilayətində sovet hakimiyyətinin bərqərar olması uğrunda mübarizə aparacaqdır. Buradan da göründüyü kimi, Bakıda öz diktaturasını qurmuş Şaumyan rejimi tamamilə Sovet Rusiyası tərəfindən istiqamətləndirilirdi, bu da öz növbəsində, Bakının iqtisadiyyatının, o cümlədən neft sənayesinin mənafelərinin Rusiyanın mənafelərinə tabe etdirilməsi demək idi.

Oktyabr çevrilişindən sonra vətəndaş müharibəsinin qızışdığı Sovet Rusiyasında bolşeviklərin qələbəsini təmin etmək, habelə Birinci dünya müharibəsi nəticəsində çökmüş rus iqtisadiyyatını bərpa etmək üçün V.İ.Leninin Bakı neftinə böyük ehtiyacı var idi. Buna görə də elə ilk gündən V.İ.Lenin Bakı Sovetinin qarşısında neft sənayesinin milliləşdirilməsi məsələsini qoyur və Rusiyanı daha çox neftlə təmin etmək tələbini irəli sürürdü.

RSFSR XKS-nin 1918-ci il 22 may tarixli Bakı ilə bağlı qərarında deyilirdi ki, "...ən çox miqdarda neft yola salınması işi

[166] Бакинский рабочий, 30 июня 1918.
[167] Azərbaycan tarixi, 3 cilddə, III c., I h., s. 125.
[168] Известия Бакинского Совета. 1 мая 1918. № 81.

birinci növbədə və sözsüz təmin edilsin".[169] İyunun 5-də S.Şaumyana "nefti birinci yerə qoymaq" tapşırığını[170] verən V.İ.Lenin iki həftə sonra, iyunun 18-də Bakı Kommunasının sədrinə göndərdiyi teleqramda yazırdı: "...Neft məhsullarının tezliklə Bakıdan Volqaya daşınması üçün bütün tədbirləri görün. Baş Neft Komitəsinə neft sənayesinin vəziyyəti haqqında hər gün məlumat verin".[171] Bu faktlar vətəndaş müharibəsi aparan Sovet Rusiyasının Bakı neftinə nə dərəcədə ehtiyac duyduğunu açıq-aydın göstərir.

1918-ci il mayın 28-də RSFSR XKS V.İ.Leninin təklifi ilə neft sənayesinin milliləşdirilməsi haqqında qərar qəbul etdi. Neft sahibkarlarının və beynəlxalq inhisarların müqavimətinə baxmayaraq, bolşeviklər Bakıdan mümkün qədər çox neft daşınmasına nail olmaq üçün Azərbaycanda neft sənayesinin milliləşdirilməsini tələm-tələsik həyata keçirdilər. RSFSR XKS neft sənayesinin milliləşdirilməsi haqqında qərar qəbul etdikdən sonra, elə həmin gün İ.Stalin tərəfindən bu qərar barəsində Bakıya, S.Şaumyana teleqramla məlumat verildi. Bakı XKS Lenin hökumətinin bu qərarına əsasən 1918-ci il iyunun 2-də Bakı neft sənayesinin, iyunun 5-də isə Xəzər ticarət donanmasının milliləşdirilməsi haqqında dekretlər verdi.[172]

İngiltərə və Fransa hökumətlərinin təşəbbüsü ilə İspaniya, Hollandiya, Norveç, Danimarka, İsveçrə və İranın Moskvadakı diplomatik nümayəndələri neft sənayesinin milliləşdirilməsinə öz etirazlarını bildirsələr də, onların bu etirazları "RSFSR hökumətinin daxili işlərinə müdaxilə" kimi qiymətləndirilərək rədd edildi. Azərbaycan neft sənayesinin milliləşdirilməsinə qarşı olan kəskin etirazlar qarşısında Baş Neft Komitəsi milliləşdirilmə əməliyyatını hələlik dayandırmaq barəsində qərar qəbul etsə də, V.İ.Leninin bilavasitə göstərişi ilə bu qərar ləğv edildi. 1918-ci il iyunun 20-də

---

169 Бакинский рабочий. 25 мая 1918, № 95; V.İ.Lenin Azərbaycan haqqında. s. 125.

170 V.İ.Lenin Azərbaycan haqqında, s. 127.

171 Вестник Бакинского Совнаркома, 2 июля 1918, № 1-2.

172 Azərbaycanda sosialist inqilabının qələbəsi uğrunda bolşeviklərin mübarizəsi, s. 436–440, 446–450.

RSFSR XKS-nin iclasında Azərbaycan neft sənayesinin milliləşdirilməsinə dair Bakıdan alınan teleqram oxunduqdan sonra Rusiyanın bütün neft sənayesinin milliləşdirilməsi haqqında dekret verildi.[173]

Nəticədə milliləşdirilmə adı altında Azərbaycan neft sənayesinin 408 müəssisəsi Bakı XKS-nin orqanı olan Xalq Təsərrüfatı Şurasının sərəncamına verildi. Xalq Təsərrüfatı Şurası da öz növbəsində, Azərbaycan neftinə kəskin ehtiyac duyan Sovet Rusiyasına daha çox miqdarda neftin göndərilməsi ilə bağlı V.İ.Leninin göstərişlərini yerinə yetirmək üçün var qüvvəsi ilə əmək sərf edirdi. Azərbaycan neft sənayesi milliləşdirilənədək Bakı Soveti tərəfindən Rusiyaya gündə 600 və ya 700 min pud neft daşınırdısa, milliləşdirmədən sonra, 1918-ci il iyunun birinci yarısında bu rəqəm gündəlik 1,3-1,4 milyon puda, iyulun əvvəllərindən isə 2 milyon puda çatdırıldı. Bakı nefti Sovet Rusiyasına başlıca olaraq Xəzər dənizi, sonra isə Volqa çayı vasitəsilə göndərilirdi. 1918-ci ilin yanvar ayında Bakıdan Sovet Rusiyasına 39 min ton, fevral ayında 26 min ton, mart ayında 26,5 min ton, aprel ayında 94 min ton, may ayında 182 min ton, iyun ayında 466 min ton, iyul ayında isə 492 min ton neft daşınmışdı.[174] Rəqəmlərdən də göründüyü kimi, dekretdən sonra Bakıdan Sovet Rusiyasına daşınan neftin həcmi bir neçə dəfə artmışdı. Bir sözlə, milliləşdirilmə Bakı neftinin Sovet Rusiyasına daha çox həcmdə və daha intensiv daşınmasına xidmət edirdi. Bakı Sovetinin həyata keçirdiyi zorakı tədbirlər nəticəsində 1918-ci ilin fevral-iyul ayları ərzində Bakıdan Rusiyaya 1,3 milyon tona yaxın neft və neft məhsulları göndərildi. Sovet Rusiyası da öz növbəsində, Bakını əldə saxlamaq üçün Bakı

[173] Azərbaycan tarixi. 3 cilddə. III c., I h., s. 145.

[174] Дубнер А. Бакинский пролетариат в годы революции 1917-1920 гг. Баку: Аз.ГНИИ, 1931, с. 64; Suny R.G. Baku Komünü, s. 233-234; İbrahimov Z. Azərbaycan zəhmətkeşlərinin sosialist inqilabı uğrunda mübarizəsi, s. 401; Maksvell N. Azərbaycan Demokratik hökumətinin siyasətində neft məsələsi (1918-1920-ci illər) // Azərbaycan Neft Sənayesi tarixinə dair birinci beynəlxalq konfrans. 7 iyul 1996-cı il. Hyuston: 1997, s. 40.

XKS-nə pul, hərbi qüvvə, kadr və s. şəklində öz yardımını əsirgəmirdi.

Cənubi Qafqaz Seyminin dağılması ilə 1918-ci il mayın 28-də Azərbaycanın istiqlaliyyəti elan olunduqdan sonra RSFSR XKS və onun yerli orqanı olan Bakı XKS milli Azərbaycan hökumətini nəinki tanımadı, eyni zamanda mümkün saydığı bütün vasitələrlə ona qarşı müharibə elan etdi. 1918-ci il iyunun 6-da Bakı Kommunasının ordu və donanma işləri üzrə komissarı Q.Korqanov Azərbaycan milli hökumətini beşiyində boğmaq üçün Gəncə üzərinə yürüş haqqında əmr verdi. Azərbaycan və Osmanlı qoşunlarından ibarət Qafqaz İslam Ordusu ilə Kommuna qoşunları arasında iyunun 27-si ilə iyulun 1-i arasında baş vermiş dörd günlük Göyçay döyüşü ilə Kommuna qoşunlarının Gəncə üzərinə yürüşünün qarşısını alan İslam Ordusu Bakı istiqamətində hərəkətə başladı. İyunun sonlarında Rusiyadan gətirilən silah və hərbi sursat, o qədər də böyük olmayan canlı hərbi qüvvə də Qafqaz İslam Ordusunun Bakı istiqamətinə hərəkətinin qarşısını ala bilmədi.

Cənubi Qafqazda yeni yaranan Azərbaycan, Gürcüstan və Ermənistan respublikalarının yarandığı əraziləri özünün ərazisi hesab edən Sovet Rusiyası bu dövlətləri tanımağı qətiyyətlə rədd etsə də, Rusiyada vətəndaş müharibəsinin alovlandığı bir dövrdə V.İ.Lenin hökuməti Cənubi Qafqaza hər hansı bir hərbi müdaxilə etmək iqtidarında deyildi. Artıq bir növ Cənubi Qafqazda baş verən reallıqla əlaqədar bölgəni itirmək faktı ilə razılaşmaq məcburiyyətində qalan Sovet Rusiyası heç olmasa Rusiya üçün həyati əhəmiyyət kəsb edən neft Bakısını əldə saxlamaq üçün bütün diplomatik-siyasi vasitələrə əl atdı. Bütün bunlara baxmayaraq, sovet hökuməti "Rusiya Respublikasının ən mühüm şəhərlərindən biri" hesab etdiyi[175] Bakını tərk etməyə məcbur oldu. Eser-menşevik-daşnak birləşmələri Bakıda hakimiyyətə yiyələnsələr də, bu uzun sürmədi. 1918-ci il sentyabrın 15-də Qafqaz İslam Ordusu tərəfindən Bakı azad edildi və Azərbaycan Cümhuriyyəti öz təbii paytaxtına yiyələndi.

---

[175] Документы внешней политики СССР. Т. 1, с. 490-491.

Bütövlükdə, istər çar, istərsə də bolşevik Rusiyasının Azərbaycana münasibətdə yeritdiyi siyasət tam olaraq müstəmləkəçilik siyasəti idi. Dünya müharibəsinin gedişində Rusiya Azərbaycana mühüm iqtisadi baza və Türkiyəyə hücum üçün strateji məntəqə kimi baxırdı.

Oktyabr çevrilişindən sonra faktiki olaraq Cənubi Qafqaz Rusiyadan ayrı düşdü. Amma rəngindən asılı olmayaraq Rusiyanı təmsil edən bütün qüvvələr Azərbaycanın və bütövlükdə Cənubi Qafqazın itirilməsi faktı ilə barışa bilmədilər. Ölkədə gedən vətəndaş müharibəsi səbəbindən Rusiya Cənubi Qafqazda gedən siyasi və hərbi proseslərə fəal müdaxilə etmək iqtidarında da deyildi. Cənubi Qafqazın itirilməsi faktını həzm etmək məcburiyyətində qalan Rusiyanın heç olmasa neft Bakısını əldə saxlamaq cəhdləri də uğursuzluqla nəticələndi.

Bolşeviklərin "xalqların öz müqəddəratını təyin etmək" hüququnu elan etmələri isə sovet hökumətinin siyasətini ört-basdır etmək, rus çarizminin əsarətdə olan xalqlar arasında yeritdiyi siyasəti daha incə üsullarla davam etdirmək məqsədi daşıyırdı. Bu hüququn əsl mahiyyəti 1918-ci ilin martında Bakıda törədilən türk-müsəlman soyqırımında tam çılpaqlığı ilə üzə çıxdı. Bu "müqəddəratını təyin etmək" hüququ daxildə bolşeviklərin işinə çox yarasa da, beynəlxalq aləmdə, xüsusilə də Brest-Litovsk sülh konfransında Sovet Rusiyasını fakt qarşısında qoydu.

## § 3. Brest-Litovsk sülh konfransında Qafqaz müsəlmanlarının müstəqilliyi məsələsi

Bolşeviklər Rusiyada hakimiyyəti ələ keçirdikdən dərhal sonra, 26 oktyabr (8 noyabr) 1917-ci il tarixində "Sülh haqqında dekret" qəbul etdilər. Birinci dünya müharibəsində vuruşan bütün dövlətlərə müraciət şəklində olan bu dekretdə "müharibəni dərhal dayandırmaq, atəşkəs imzalamaq, heç bir ərazi ilhaqı və müharibə

təzminatı olmadan demokratik və ədalətli bir sülh imzalamaq" istənilirdi.[176] V.İ.Lenin tərəfindən qələmə alınan bu dekret vuruşan dövlətlərin hökumətlərindən daha çox həmin dövlətlərin xalqlarına, zəhmətkeşlərinə müraciət formasında tərtib edilmişdi və tamamilə siyasi propaqanda mahiyyəti daşıyırdı. Sovet hökuməti hələ heç bir dövlət tərəfindən tanınmadığı üçün V.İ.Leninin bu dekreti ilk əvvəl o qədər də ciddi qarşılanmadı.

Bu dekretə ən cazibədar yanaşan Osmanlı imperiyası oldu. Çünki bir çox cəbhələrdə məğlub olan, ordusu demək olar ki, dağılan və böyük iqtisadi sıxıntılara məruz qalan Türkiyədə müharibənin sona çatması və sülhün imzalanması səbrsizliklə gözlənilirdi. Hər kəs Türkiyənin ərazi itirmədən və müharibə təzminatı ödəmədən bu böyük hərbdən qurtulmasını istəyirdi. İngiltərə və Fransanın (məğlub durumda olmasaydı, həmçinin Rusiyanın) Türkiyəyə çox ağır şərtlər qəbul etdirəcəyinə kimsə şübhə etmirdi. Bu səbəbdən Sovet Rusiyasından gələn "ilhaqsız və təzminatsız sülh" təklifi Türkiyədə böyük bir məmnuniyyət hissi ilə qarşılandı.

Bolşeviklərin "Sülh haqqında dekret"i Antanta dövlətləri tərəfindən qəzəblə qarşılandı və bu dekretə heç bir rəsmi reaksiya verilmədi. İngiltərə, Fransa və ABŞ dövlətləri cəbhələrdəki rus əsgərlərinə müharibəni davam etdirəcəkləri təqdirdə pul və ərzaq yardımları vəd edir, Sovet Rusiyasının sülh təşəbbüslərinə əngəl olmaq istəyir və bütün vasitələrlə bolşevik rejiminin devrilməsinə çalışırdılar.[177]

İlhaqsız və təzminatsız ümumi bir sülh imzalamaq istəyən Sovet Rusiyası bu məqsədlə Antanta dövlətlərinə bir neçə dəfə müraciət etsə də, heç bir nəticə əldə olunmadı. Belə olduqda, sovet hökuməti birtərəfli qaydada Mərkəz dövlətləri ilə sülh bağlayıb müharibədən çıxmaq qərarına gəldi və 13 (26) noyabr 1917-ci il tarixində sovet təmsilçiləri cəbhəni aşaraq Almaniya baş komandanlığına barışıq təklifi ilə müraciət etdilər.[178] Almaniya bolşeviklərin

[176] Документы внешней политики СССР. Т. 1, с. 11-14; Ивашин И. Очерки внешней политики СССР. Москва: Госполитиздат. 1958, с. 38.

[177] ATASE, BDH, K, 3182, D. 15, F. 1-10.

[178] Документы внешней политики СССР. Т. 1, с. 25.

barışıq təklifinə müsbət cavab verdi. Nəticədə 2 (15) dekabr 1917-ci il tarixində Brest-Litovskda Almaniya, Osmanlı dövləti, Avstriya-Macarıstan və Bolqarıstanla Sovet Rusiyası arasında 11 maddədən ibarət barışıq sazişi imzalandı, cəbhələrdə 28 günlük (4 (17) dekabr 1917 – 1 (14) yanvar 1918) atəşkəs elan edildi və sülh danışıqlarının başlanması qərara alındı.[179]

Bu dövrdə artıq Cənubi Qafqazda komissarlıq yaranmışdı. Cənubi Qafqaz Komissarlığı bolşevik iqtidarını əsla qəbul etmirdi və Rusiya ilə bağlı bütün məsələlərin Müəssislər Məclisində həll ediləcəyi qənaətində idi. Bu səbəbdən Osmanlı hökuməti Qafqaz cəbhəsində ayrı bir barışıq sazişi imzalamaq məcburiyyətində qaldı. Ənvər paşa Lenin hökumətinin sülh təşəbbüsü ilə çıxış etməsi xəbərini aldıqdan dərhal sonra 3-cü ordu komandanı Mehmed Vehib paşadan Qafqaz cəbhəsindəki rus baş komandanlığı ilə əlaqə yaradıb barışıq təklifi ilə çıxış etməsini istədi. Ənvər paşa bu teleqramında həmçinin, barışıq bağlanan zaman bir sıra məqamların diqqətdə saxlanılmasını Vehib paşaya bildirirdi: "Ruslar rus sərhədlərinin gerisinə çəkiləcək, Osmanlı ordusu onları təqib etməyəcək, ancaq bölgədə idarə, asayiş və ümumi təhlükəsizliyin qorunması üçün Osmanlı hökumət məmurları ilə yetərli sayda kiçik jandarma dəstələri tədricən rusların boşaltdıqları bölgəyə girəcəkdir".[180] Buradan görünür ki, Ənvər paşa bolşeviklərin ilhaqsız və təzminatsız sülh çağırışına sadəlövhcəsinə inanmışdı.

Ənvər paşadan aldığı əmr üzrə hərəkət edən Vehib paşa "Rus Qafqaz Ordusu Ümumi Komandanlığına" barışıq təklifi ilə 11 (24) noyabr 1917-ci il tarixində yazdığı məktubu ertəsi gün Ərzincandakı Rus I Qafqaz Korpusu komandanı general Lyaxova göndərdi. Bu məktub Rusiya Qafqaz Orduları komandanı general P.Prjevalskiyə 17 (30) noyabr tarixində çatdı.[181] General Prjevalski Vehib paşanın məktubunu Cənubi Qafqaz Komissarlığına

[179] ATASE, BDH, K. 324, D. 1308, F. 1-17; Документы внешней политики СССР. Т. 1. с. 47-51; Kurat A.N. Brest-Litovsk Müzakereleri ve Barışı // Belleten. Ankara: 1967. Cilt: XXXI. Sayı: 123. s. 378.
[180] ATASE, BDH, K. 2897, D. 398, F. 3.
[181] ATASE. BDH. K. 2921, D. 511, F. 1-9.

göndərdi. Komissarlıq 21 noyabr (4 dekabr) tarixli iclasında Vehib paşanın məktubunu müzakirə etdi. Bu məsələ ilə əlaqədar komissarlığın qəbul etdiyi qərarda göstərilirdi ki, Rusiyada vahid, mərkəzi və hamı tərəfindən qəbul edilən hökumət olmadığından, vətəndaş müharibəsi nəticəsində ali baş komandanlıq sistemi dağıldığından, həmçinin Rusiyanın ümumi siyasi vəziyyətini nəzərə alaraq Cənubi Qafqaz Komissarlığı Osmanlı komandanlığının təklifinə müsbət yanaşır və Osmanlı tərəfinin İngiltərənin Mesopotamiyadakı ordusuna təhlükə yaradacaq hər hansı strateji əhəmiyyətli hərbi yerdəyişmə aparmadan Qafqaz cəbhəsində atəşkəs rejiminin tətbiq olunmasını məqsədəuyğun hesab edir.[182] Cənubi Qafqaz Komissarlığı hərbi əməliyyatları dayandırmaq və danışıqlara başlamaq barədə general P.Prjevalskiyə göstəriş verdi.[183] General Prjevalski 22 noyabr (5 dekabr) tarixində Vehib paşaya məktub göndərərək atəşkəs haqqında sazişin imzalanmasına razı olduğunu bildirdi.[184] Nəhayət, türk və rus nümayəndələri atəşkəslə bağlı danışıqları 2 (15) dekabr 1917-ci il tarixində Ərzincanda aparmaq haqqında razılığa gəldilər. Danışıqlarda Osmanlı imperiyasını 3-cü ordunun qərargah rəisi miralay Ömər Lütfi bəy, 3-cü ordunun hərəkət şöbəsinin rəisi minbaşı Hüsrev bəy və 3-cü ordunun tərcüməçisi yüzbaşı Yaqub bəy təmsil edirdi. Rus nümayəndə heyətinə isə Qafqaz ordusunun qərargah rəisi general Vışinski, 156-cı Yelizavetpol piyada alayının komandiri və köməkçiləri əsgər Al.Smirnov, Privat (Dosent) V.Tevzaya və tərcüməçi zabit Vedrinski daxil idi.[185]

Bu arada Ənvər paşa türk nümayəndə heyətinə göndərdiyi şifrəli teleqramda general P.Prjevalskini ancaq Rusiya Qafqaz Orduları komandanı olaraq tanımalarını və bundan başqa müstəqil Qafqaz hökuməti və ya digər bir adla onunla müzakirələrə girişməmə-

---

[182] Документы и материалы по внешней политике Закавказья и Грузии. с. 11-12.

[183] Yenə orada, s. 12.

[184] ATASE. BDH, K. 2921. D. 510. F. 1-1. 1-3; D. 511. F. 1-9; Документы и материалы по внешней политике Закавказья и Грузии, с. 13.

[185] Kurat A.N. Türkiye ve Rusya. s. 332-333.

lərini istəyir və bildirirdi ki, "sülh danışıqları ayrıca bir müstəqil Qafqaz hökuməti ilə aparılarsa, onda işğal altındakı torpaqlarımızın boşaldılmasında çətinliklərlə qarşılaşa bilərik".[186] Ənvər paşa türk nümayəndə heyətinə göndərdiyi digər teleqramında isə, "Brest-Litovsk barışıq şərtlərinin Qafqazdakı Osmanlı və rus orduları arasında da qəbul edilməsi gərəkdiyinin Rusiya Qafqaz ordusu baş komandanlığına bildirilməsi" istənilirdi.[187]

1917-ci il dekabrın 3-də (16-da) Ərzincandakı rus nümayəndələri müstəqil Qafqaz hökuməti adından hərəkət etdiklərini bəyan etdilər[188] və Avropa cəbhəsində qəbul edilən qərarları əsas olaraq tanımayacaqlarını, ancaq Rusiya Respublikasının Mərkəz dövlətləri ilə bağlayacağı ümumi barışıq Müəssislər Məclisi tərəfindən təsdiq edildikdən sonra bu hökmlərin Qafqaz cəbhəsi üçün də məcburi icra ediləcəyini bildirdilər.[189] Yaranmış vəziyyətdən narahat olan Ənvər paşa Vehib paşaya göndərdiyi 4 (17) dekabr 1917-ci il tarixli teleqramında ruslara aşağıdakı məzmunda cavab verilməsini təlimat verdi: "Osmanlı ordusu baş komandanlığından mənə verilən təlimatda Brest-Litovskda imzalanan barışıq şərtlərinin Qafqazda olan Osmanlı və rus orduları arasında da qəbul ediləcəyi bildirilmişdir. Buna görə də, mən əsgər olmaq etibarilə aldığım əmr gərəyincə, qeyd olunan barışıq şərtlərini Rusiya orduları baş komandanlığının Qafqaz hökuməti və ya digər bir hökumət adına və ya müstəqil hərəkət etməsiylə əlaqədar bulunmadığını bəyan edərim".[190]

Ənvər paşa elə həmin gün Brest-Litovska vurduğu teleqramında konfransdakı türk hərbi nümayəndəsi Zəki paşaya bildirirdi ki, "Qafqaz cəbhəsindəki rus baş komandanlığı müstəqil Qafqaz hökuməti adından hərəkət etmişdir. Brestdəki müttəfiq və rus nümayəndə heyətlərini bu məsələ ilə əlaqədar xəbərdar edin, onla-

[186] ATASE. BDH, K. 2897, D. 398, F. 3-61; K. 340, D. 1366, F. 1-8, 1-34; K. 529, D. 2067, F. 18.
[187] ATASE, BDH, K. 2897, D. 398, F. 3-62.
[188] ATASE. BDH. K. 340, D. 1366, F. 1-15; K. 152, D. 681, F. 9-1.
[189] ATASE, BDH, K. 2921, D. 510, F. 1-8.
[190] ATASE. BDH. K. 340, D. 1366, F. 1-10.

rın nə düşündüklərini, xüsusilə rus heyətinin bu məsələyə münasibətini öyrənərək mənə məlumat verin".[191] Ənvər paşa tərəfindən 5 (18) dekabr 1917-ci il tarixində general Lossov vasitəsilə Almaniyanın baş qərargah rəisi general Hindenburqa göndərilən şifrəli teleqramda da Qafqazdakı vəziyyətlə əlaqədar məlumat verilir və bildirilirdi ki, Vehib paşaya müstəqil bir Qafqaz hökuməti ilə danışıqlar aparmamaq əmr edilmişdir.[192]

Ənvər paşanı narahat edən əsas məsələ Rusiyanın işğalı altındakı türk torpaqlarının boşaldılması məsələsi idi. Ona görə də türklər Ərzincan danışıqlarındakı rus nümayəndə heyətini bolşevik hökumətini tanımayan bir hökumətin nümayəndələri kimi qəbul etmək istəmirdilər. Lakin rus nümayəndə heyəti də güzəştə getmək fikrində deyildi və sonadək öz mövqeyində israr etdi.

Nəhayət, uzun müzakirələrə lüzum görmədən, 1917-ci il dekabrın 5-də (18-də) saat 15:00-da Ərzincanda rus və türk ordu komandanlıqları arasında 14 maddədən ibarət barışıq sazişi imzalandı.[193] Bu barışığın dördüncü maddəsində qeyd edilirdi ki, Qafqaz cəbhəsindəki türk hərbi hissələrinin Suriya-Mesopotamiya cəbhəsindəki ingilis ordularına qarşı aparılan hərbi əməliyyatlara cəlb edilməsi yolverilməz hesab edilir və bu şərtin pozulması Qafqaz cəbhəsində hərbi əməliyyatların yenidən başlanmasına səbəb olacaqdır. Barışığın on ikinci maddəsində isə deyilirdi ki, "...Mərkəz dövlətləri ilə Rusiya Respublikası arasında ümumi bir barışıq müqaviləsi imzalanarsa, bu müqavilənin bütün bəndləri Qafqaz cəbhəsi üçün də keçərli olacaqdır".[194]

Sonradan Ənvər paşa türk tərəfinin orduların yerdəyişmə aparmaması və kürdlərlə bağlı götürdüyü öhdəliklərin qarşılığında

---

[191] ATASE, BDH, K. 529, D. 2067, F. 15.
[192] ATASE, BDH, K. 529, D. 2067, F. 18.
[193] ATASE, BDH, K. 2697, D. 284, F. 1-3; K. 153, D. 682, F. 2; Документы и материалы по внешней политике Закавказья и Грузии. с. 18-21; Документы внешней политики СССР. Т. 1, с. 53-56.
[194] ATASE, BDH, K. 152, D. 679, F. 1, 9; K. 2697, D. 284, F. 1-9; K. 2921, D. 511, F. 1-10:1-12; Документы и материалы по внешней политике Закавказья и Грузии, с. 19-20, 21; Документы внешней политики СССР. Т. 1, с. 53-56.

rus tərəfinin də eyni məzmunlu öhdəliklər götürməsi üçün Ərzincan barışığına düzəlişlər etmək istəsə də, onun bu istəkləri yalnız kağız üzərində qaldı.[195] Bundan başqa, Ənvər paşa 1917-ci il dekabrın 7-də (20-də) 2-ci ordu komandanlığına göndərdiyi və təcili yerinə yetirilməsini istədiyi şifrəli teleqramında qeyd edirdi ki, "demarkasiya xətləri təsbit edilməmişdən əvvəl 2-ci ordu zəif kəşfiyyat hərəkətləri həyata keçirib, mümkün olduğu qədər ordu cəbhəsini irəli çəksin və hər hansı bir əməliyyata yol vermədən düşmən əsgərlərinin olmadığı yerləri işğal etsin".[196] Bununla təsbit ediləcək demarkasiya xəttinin mümkün olduğu qədər irəliyə çəkilməsi nəzərdə tutulmuşdu.

Bununla da 2 (15) dekabr 1917-ci il tarixli Brest-Litovsk və 5 (18) dekabr 1917-ci il tarixli Ərzincan barışıqları ilə Birinci dünya müharibəsindəki rus-türk hərbi sona çatdı.

1917-ci il dekabrın 9-da (22-də) Sovet Rusiyası ilə Almaniya bloku ölkələri arasında Brest-Litovsk sülh konfransı öz işinə başladı və danışıqlara bir neçə dəfə ara verilməklə konfrans 1918-ci il martın 3-nə (fevralın 18-nə) qədər davam etdi. Bu dövrdə Osmanlı hökuməti bütün nəzər-diqqətini sülh danışıqlarına yönəltmişdi. Ümumiyyətlə, Osmanlı hökumətinin Brest-Litovsk sülh konfransında reallaşdırmaq istədiyi Qafqazla bağlı istəklərini üç qismə bölmək olar:

1. Rusların işğalı altında olan Şərqi Anadolu vilayətlərinin boşaldılması (geri alınması);

2. 1877-1878-ci illər rus-türk müharibəsinin yekununa görə Osmanlı imperiyasının ödəyə bilmədiyi müharibə təzminatının bir qisminin əvəzi olaraq Rusiyaya vermək məcburiyyətində qaldığı türk torpaqlarının – Qars, Ərdəhan və Batum vilayətlərinin Osmanlı dövlətinə qaytarılması;*

[195] ATASE. BDH. K. 152, D. 681, F. 6-9; K. 340, D. 1366, F. 1-27.
[196] ATASE, BDH, K, 152, D, 681, F, 6-10; K, 2697, D, 284, F, 1-18,
* 1877-1878-ci illər Rus-Türk müharibəsində məğlub olan Osmanlı dövlətinin üzərinə Rusiya 1 milyard 410 milyon rubl təzminat qoymuşdu. Bu təzminatı ödəyə bilməyən Osmanlı dövləti Qars, Ərdəhan və Batum vilayətlərini, o cümlədən Dobruçanı Rusiyaya verməyə məcbur olmuş və bunun əvəzində təzmina-

3. Sovet Rusiyasının elan etdiyi "xalqların öz müqəddəratını təyin etmək" hüququndan yararlanıb Qafqaz müsəlmanlarının müstəqilliyinə nail olmaq və Qafqazda Türkiyənin himayəsi altında bir müsəlman dövləti yaratmaq.

Osmanlı imperiyasının baş komandan vəkili və hərbi naziri Ənvər paşa 1917-ci il dekabrın 3-də (15-də) Brest-Litovsk konfransındakı türk nümayəndəsi, Almaniyadakı Osmanlı hərbi attaşesi Zəki paşaya göndərdiyi teleqramında bildirirdi ki, "rus işğalı altında olan Osmanlı torpaqlarının Sovet Rusiyası tərəfindən boşaldılması məsələsini müttəfiq heyətlərlə müzakirə etdikdən sonra sovet heyətindən tələb edin".[197] Bundan dörd gün sonra, Ənvər paşa Zəki paşaya göndərdiyi 7 (20) dekabr 1917-ci il tarixli teleqramında isə qeyd edirdi ki, 1877-1878-ci illər rus-türk müharibəsinin yekunlarına görə müharibə təzminatı olaraq ruslara verilmiş Qars, Ordəhan və Batum vilayətlərinin Osmanlı imperiyasına qaytarılması məsələsini ruslarla sülh danışıqlarında qaldırın və bu məsələnin Osmanlı dövlətinin lehinə çözülməsi üçün səmimi bir dost olan general Lüdendorfun yardımını rica edin.[198] Bunun ardınca, dekabrın 12-də (25-də) Ənvər paşa İstanbuldakı alman hərbi attaşesi general Otto von Lossov vasitəsilə Almaniya baş komandanlığından təzminat olaraq Rusiyaya verilmiş üç vilayətin yenidən Osmanlı imperiyasına qaytarılması üçün köməklik göstərilməsini istədi.[199] Ənvər paşa elə həmin gün Zəki paşaya göndərdiyi teleqramda da, qeyd edilən üç vilayətin Osmanlı imperiyasına qaytarılması məqsədilə Almaniya baş komandanlığına yardım üçün müraciət etməsini istəyirdi. Ənvər paşa dekabrın 14-də (27-də) Almaniyanın baş qərargah rəisinin müavini general Erix Lüdendorfa göndərdiyi teleqramında türk istəklərinin Almaniya tərə-

tın həcmi 400 milyon rubla endirilmişdi (Karal E.Z. Osmanlı Tarihi. C. VIII. Ankara: Türk Tarih Kurumu, 1988, s. 66). Berlin konqresinin qərarlarına görə, Bəyazid şəhəri və Alaşkert düzü Osmanlı dövlətinə qaytarılsa da, Qars. Ordəhan və Batum vilayətləri Rusiyada qaldı (Kurat A.N. Türkiye ve Rusya, s. 89-90).

[197] ATASE. BDH. K. 529, D. 2067, F. 2.

[198] Kılıç S. Türk-Sovyet İlişkilerinin Doğuşu, s. 119.

[199] Yenə orada. s. 119.

findən dəstəklənməsini xahiş edirdi.[200] Amma Almaniya ilk əvvəl Türkiyənin bu tələblərini dəstəkləmədi.[201] Əslində Osmanlı hökumətinin rusların işğalı altında olan türk torpaqlarının boşaldılması və müharibə təzminatı olaraq Rusiyaya verilmiş Qars, Ərdəhan və Batum vilayətlərini geri istəməsi Sovet Rusiyasının "ilhaqsız və təzminatsız sülh" dekretinə tam uyğun idi. Lakin Osmanlı hökumətinin bu istəyini qəbul etməklə özünün də işğal etdiyi torpaqları boşaltmaq məcburiyyətində qalacağını çox yaxşı anlayan Almaniya belə bir istək qarşısında Sovet Rusiyasının da əks-təkliflərlə çıxış edəcəyindən çəkinərək, ruslardan əvvəl türk istəklərini rədd etdi.

Qeyd edək ki, Brest-Litovsk sülh konfransında iştirak etmək üçün İstanbuldan yola çıxan Osmanlı nümayəndə heyətinə yazılı olaraq verilən, həmçinin müttəfiq hökumətlərə də bildirilən təlimatda Birinci dünya müharibəsi illərində Rusiya tərəfindən işğal edilən ərazilərin boşaldılmasından başqa Osmanlı hökumətinin Sovet Rusiyasından hər hansı bir ərazi istəyi yox idi. Ola bilsin ki, Ənvər paşa türk heyətinin rəhbəri, xarici işlər naziri Əhməd Nəsimi bəyə Elviye-i Səlasə (Qars, Ərdəhan və Batum vilayətləri) ilə bağlı hər hansı bir şifahi təlimat veribmiş. Ancaq Ənvər paşa 1878-ci ildə Rusiyaya verilmiş Qars, Ərdəhan və Batum vilayətlərinin Osmanlı imperiyasına qaytarılması məsələsinin Brest-Litovsk konfransında qaldırılmasını ilk dəfə 7 (20) dekabr 1917-ci il tarixli teleqramında Zəki paşadan istəmişdi.

Ənvər paşadan aldığı əmr üzrə hərəkət edən Zəki paşa bir neçə dəfə konfransdakı alman nümayəndə heyətinin rəhbəri, Şərq Orduları Qrupunun komandanı general Maks Hoffmandan "ruslar tərəfindən işğal edilən türk ərazilərinin boşaldılması" şərtini müqavilə maddələri arasına salınmasını istəsə də, general Hoffman "alman baş komandanlığından bu məsələ ilə bağlı hər hansı bir

[200] ATASE, BDH, K. 529, D. 2067, F. 14.
[201] ATASE. BDH. K. 151, D. 678, F. 108-5.

əmr almadığını" önə çəkərək, bu məsələnin ruslarla xüsusi müzakirəsinin lazım olduğunu bildirdi.[202]

Zəki paşa, həmçinin 16 (29) dekabr 1917-ci il tarixində Brest-Litovskdakı sovet nümayəndələrindən Lev Kamenev ilə görüşüb, Rusiyanın işğalı altında olan Şərqi Anadolu vilayətlərinin boşaldılmasını istədi. L.Kamenev bildirdi ki, sovet hökuməti prinsip etibarilə işğal altındakı türk ərazilərinin boşaldılmasını qəbul edir. Amma bu bəzi şərtlər daxilində mümkün olacaq. Belə ki, bu ərazilərdən hicrət etmiş və ya türklər tərəfindən başqa ərazilərə köçürülmüş əhali millət və məzhəb fərqi qoyulmadan öz yerlərinə qaytarılmalı, hər iki tərəfdən təşkil edilən bir komissiya buna nəzarət etməli və əhali yerləşdirildikdən sonra bu ərazilərin Türkiyə ilə bağlı qalmaq və ya muxtariyyət halında idarə olunmaq istəyi referendumla təsbit edilməli, bu ərazilərin idarə şəklinə Türkiyə hökuməti tərəfindən zəmanət verilməlidir.[203] L.Kamenevin bu "prinsipləri" bir qədər sonra V.İ.Lenin və İ.Stalin tərəfindən elan ediləcək (29 dekabr 1917) "Türkiyə Ermənistanı" haqqında dekretdəki prinsiplərlə eyniyyət təşkil edirdi.

Bu arada Osmanlı hökuməti öz mövqeyində qəfil dəyişiklik edib Cənubi Qafqaz Komissarlığı ilə əlaqələr qurmaq qərarına gəldi. Bu məqsədlə Ənvər paşa 3-cü ordu komandanı Vehib paşadan Cənubi Qafqaz hökuməti haqqında məlumat istəyirdi. Ənvər paşanın Vehib paşaya göndərdiyi 20 dekabr 1917-ci il tarixli teleqramında deyilirdi: "Müstəqil hərəkət edəcəyini bəyan edən Qafqaz cümhuriyyətini idarə edən kimlərdir? Bunların hal-hazırkı rus hökumətinə qarşı fikir və vəziyyətləri nədir? Bu cümhuriyyətdə xüsusilə müsəlmanlarla gürcülər və ermənilərin və digər ünsürlərin mövqeləri necədir? Hansı ünsür vəziyyətə daha çox hakimdir və nüfuzludur? Müsəlmanların müəyyən bir məslək və məqsədləri vardırmı? Hər ünsürün başlıca liderləri kimlərdir və Qafqaz cümhuriyyəti ilə bunların münasibət və əlaqələri nə dərəcədədir?"[204]

---

[202] Kurat A.N. Türkiye ve Rusya, s. 363-364; Yerasimos S. Türk-Sovyet İlişkileri. s. 13.
[203] Kurat A.N. Türkiye ve Rusya, s. 364.
[204] ATASE. BDH. K. 340, D. 1366, F. 1-22.

Ənvər paşanın bu teleqramına Vehib paşa aşağıdakı cavabı verdi; "Müstəqil Qafqaz hökumət məclisi əksəriyyətini ermənilər və gürcülər, az hissəsini ruslar təşkil etməklə 40 nəfərdən ibarətdir. Qafqaz ordusu baş qərargahının da bu məclisdə nüfuzlu bir komissarı vardır. Bu məclis iclaslarını Tiflisdə Böyük knyaz Nikolay Nikolayeviçin sarayında keçirir. Rusların bizdən zəbt etdiyi və bu gün öz işğalında və istilasında saxladıqları ərazinin ermənilərə aid olması və bunun qarşılığında Qafqaz daxilindəki erməni ərazisinin bir qismindən imtina edilməsi surətiylə ermənilərlə gürcülər işbirliyinə girərək, hərbin davamına tərəfdar və bolşevik hökumətinə əleyhdardırlar. Ümumi surətdə istər Şimali Qafqaz və istərsə Cənubi Qafqaz hökuməti eyni mövqedədirlər. Qafqaz müsəlmanları siyasətə biganədirlər və hökumətdə hansısa nüfuz və təsirə malik deyillər. Qafqaz ordusu zabitləri bolşeviklərin siyasətinə müxalif olduqlarından dolayı hərb tərəfdarıdırlar, bir qismi isə, erməni və gürcü amalı üçün qan tökməyəcəklərini bəyan etməkdə və məmləkətlərinə sövq edilmələrini arzu etməkdədirlər. Qara dəniz donanması bolşevik hökuməti tərəfdarıdır və hətta Qafqaz ordusunun xüsusilə sahildəki hissələrini bu donanma təşviq etməkdədir".[205]

Artıq bu dövrdə Osmanlı hökuməti nəyin bahasına olursa olsun Cənubi Qafqaz hökumətinin müstəqilliyini tanımaq və bununla da Rusiyanın Qafqaza hakim olmasının qarşısını almağa çalışırdı. Türkiyə ilə Rusiya arasında Qafqazda bufer rolunu oynayacaq bir dövlətin yaranması İstanbul hökumətinin planlarına uyğun idi. Amma Osmanlı hakim dairələri bu dövləti erməni və gürcülərin üstünlük təşkil etdikləri Cənubi Qafqaz Komissarlığının timsalında deyil, Qafqaz müsəlmanlarının bir "İslam dövləti" kimi görmək istəyirdilər. Lakin Şərqi Anadolunun da bir hissəsi ruslar tərəfindən işğal edildiyindən türklər Qafqazdan uzaq düşmüşdülər və bölgədə baş verən hadisələrin gedişinə təsir etmək imkanında deyildilər. Bu səbəbdən Osmanlı hökuməti reallıqla barışıb Cənubi Qafqaz Komissarlığı ilə əlaqə yaratmaq və onun "müstəqilliyi"ni

[205] ATASE. BDH. K. 153, D. 682, F. 4, 4-1:4-4.

tanımaq qərarına gəldi. Ənvər paşa Vehib paşaya göndərdiyi 12 yanvar 1918-ci il (30 dekabr 1917-ci il) tarixli şifrəli teleqramında Cənubi Qafqaz hökumətinin Brest-Litovsk sülh danışıqlarına dəvət edilməsini istəyir və qeyd edirdi ki, "Brest-Litovskda dünənki iclasda Ukrayna hökumətinin istiqlalı Rusiya Respublikası hökuməti tərəfindən təsdiq və qəbul edilməklə Ukrayna nümayəndələrinin müstəqil olaraq sülh müzakirələrində iştirakı qərarlaşdırıldı. Əvvəlki barışıqda Rusiya Qafqaz ordusu komandanlığı tərəfindən təsbit edilmiş Qafqaz cümhuriyyəti və ya müstəqil hökumətinin təşəkkülü bizcə arzu olunandır. Əgər bu cümhuriyyət və ya hökumətin təşəkkülündə bu arada bizim də yardımımızı Qafqaz siyasiləri istəyirlərsə, buna hər surətdə hazırıq. Yalnız özləri, ukraynalıların etdiyi kimi, Qafqaz cümhuriyyəti və ya hökuməti nümayəndələrini vaxt keçirmədən seçib Brest-Litovska ezam etsinlər. Orada onların qəbuluna və təmsil etdikləri hökumətin rəsmən tanınmasına yardım edəcəyik. Hər halda müvəffəqiyyət əldə olunacaqdır".[206]

Vehib paşa Ənvər paşanın bu istəyini 1918-ci il yanvarın 16-da (3-də) Qafqaz cəbhəsinin baş komandanı general Odişelidzeyə bildirdi və Cənubi Qafqaz Komissarlığını rəsmən Brest-Litovska dəvət etdi.[207] Lakin Cənubi Qafqaz Komissarlığı yanvarın 23-də (10-da) Vehib paşaya vurduğu teleqramda Brest sülhündə iştirak etməkdən imtina etdiyini və özünün Rusiyanın tərkib hissəsi olduğunu bildirdi.[208]

Ənvər paşa danışıqlar aparmaq üçün Tiflisə bir Osmanlı nümayəndə heyəti göndərməyi təklif etsə də, Cənubi Qafqaz Komissarlığı bu təklifi qəbul etmədi.[209] Cənubi Qafqaz Komissarlığının sülh məsələsində qərarsız davranışlarına baxmayaraq, Osmanlı

[206] ATASE. BDH. K. 340, D. 1366, F. 1-48; K. 2906, D. 438, F. 7-6.
[207] ATASE, BDH. K. 2906, D. 438, F. 7-2.7-4. 7-8; Документы и материалы по внешней политике Закавказья и Грузии, с. 52.
[208] Документы и материалы по внешней политике Закавказья и Грузии, с. 109-110.
[209] ATASE, BDH, K. 2905, D. 433, F. 1-32; Документы и материалы по внешней политике Закавказья и Грузии, с. 25-26.

hökuməti bu hökumətlə siyasi əlaqələr qurmaqda israrlı idi. Ənvər paşa Vehib paşaya göndərdiyi 25 yanvar 1918-ci il tarixli teleqramında qeyd edirdi ki, Odişelidzenin yanına bir baş qərargah rəisi və ya hərbiyyə zabiti göndərin və generalın həqiqətən gürcü amalına xidmət etdiyi tam anlaşıldıqdan sonra bizim aşağıdakı nöqteyi-nəzərimizin ona şifahi şəkildə təbliği müvafiq görülür:

"Gürcülər ya müstəqil bir gürcü hökuməti təşkil edərlər və ya Şərqi Dağıstan (Azərbaycan nəzərdə tutulur – V.Q.) ilə birləşərək müttəhid hökumət vücuda gətirərlər və bu halda bizim ərazi ilə heç əlaqələri qalmamaq şərtilə ermənilərı də bu heyət-i müttəhidəyə qəbul edə bilərlər. Və ya 93 hərbində (1877-1878-ci illər rus-türk müharibəsində – V.Q.) rusların bizdən zorla aldıqları yerlər bizə qaytarılmaq şərtilə gürcülərlə dağıstanlılar (azərbaycanlılar – V.Q.) Qafqaz daxilindəki erməni məntəqələrini öz aralarında bölə bilərlər.

Hansı şəkil və surətdə olursa olsun biz belə bir Qafqaz hökumətini rəsmən tanıyarıq və təsdiq edərik. Hətta istəyərlərsə onlara maliyyə köməyi etmək, hərbi qüvvə və ya hərbi sursat göndərərək yardım etmək surətilə dəstək olmağa hazırıq [Fəqət, yuxarıda yazdığım vəchlə bunları general Odişelidzenin mövqeyi və əsl məqsədi tam anlaşıldıqdan sonra təbliğ etmək münasibdir]".[210] Ənvər paşanın bu mövqeyi Qafqazdakı rus ordusu dağıldıqdan sonra türklərin Qafqaz istiqamətində irəliləməsinə qarşı yaranmaqda olan gürcü-erməni ittifaqının gerçəkləşməsinə yol vermək istəməməsindən irəli gəlirdi. Çünki bu dövrdə İngiltərə və ABŞ dövlətləri Osmanlı imperiyasının Qafqaza daxil olmasının qarşısını almaq məqsədilə gürcü və erməni ordularının təşkil edilməsinə və türk irəliləyişinə qarşı onların ittifaqını yaratmağa böyük səy göstərirdilər.

Qeyd etdiyimiz kimi, Osmanlı hökuməti Brest-Litovsk danışıqlarına böyük önəm verirdi və bütün nəzər-diqqətini sülh konfransına yönəltmişdi. Bu səbəbdən Osmanlı sədrəzəmi Mehmed Tələt paşanın Brest-Litovska getməsi uyğun görüldü və

[210] ATASE. BDH. K. 2905, D. 433, F. 5-24; K. 2921, D. 511, F. 1-24.

1918-ci il yanvarın əvvəllərində Tələt paşa sülh konfransına qatıldı.

Sovet Rusiyası "Türkiyə Ermənistanı" haqqında dekreti elan etdikdən sonra sovetlərin Şərqi Anadolu ilə bağlı strateji hədəfləri Brestdəki Osmanlı nümayəndə heyəti üçün tam gerçəkliyi ilə aydınlaşmış oldu və bu onları hərəkətə gətirdi. 1918-ci il yanvarın 17-də Brest-Litovskdan Ənvər paşaya göndərilən teleqramda deyilirdi: "...Almanlardan gərək qüvvət istəyərək Qara dəniz vasitəsilə Batuma əsgər çıxartmaq və mümkün olarsa Qafqazdakı müsəlmanlarla birləşərək müharibənin əvvəlindəki fikrinizi realizə etməkdən başqa çarə yoxdur. Ruslar bütün Rusiya adından sülh bağladıqlarına görə, şəklən onlara asi vəziyyətdə olan Qafqaz cümhuriyyətinə qarşı aparılacaq bu hərəkata etiraz etməmələri lazım gəlir..."[211]

1918-ci il yanvarın 18-də Ənvər paşa Brestdə olan Əhməd Nəsimi bəyə göndərdiyi teleqramında rus işğalı altında olan bölgələrdə ermənilərin müsəlman əhalisinə qarşı törətdiyi vəhşiliklərdən bəhs etdikdən sonra bildirirdi ki, "əgər ruslar bu vəhşiliklərin qarşısını almasa, Osmanlı hökuməti iri miqyaslı hərbi əməliyyata başlamaq məcburiyyətində qalacaqdır".[212] Ənvər paşa bu qərarının rus heyətinə də bildirilməsini istəyirdi.

1918-ci il yanvarın 16-da Tələt paşa Əhməd Nəsimi bəy, Əhməd İzzət paşa və İbrahim Hakkı paşa ilə birlikdə bu zaman Brest-Litovskda olan Almaniyanın xarici işlər naziri Rixard von Külmanla rus işğalı altında olan Şərqi Anadolu vilayətlərinin boşaldılması məsələsi ilə bağlı çox geniş danışıqlar apardı. Danışıqlarda Külman bildirdi ki, bolşeviklərlə əsas etibarilə sülh imzalamağa imkan yoxdur. Bu yaxınlarda vəziyyətdə dəyişiklik olacaq (yəni atəşkəs sona çatacaq) və dolayısıyla rus işğalı altındakı türk ərazisinin geri alınması üçün hərbi əməliyyatlara başlamaq mümkün

[211] Kılıç S. Türk-Sovyet İlişkilerinin Doğuşu. s. 241-242.

[212] ATASE, BDH, K. 2905, D. 433, F. 6-19; K. 153, D. 682, F. 4-7; K. 529, D. 2067, F. 98.

olacaqdır; bu surətlə ortada siyasi bir əngəl qalmayacaqdır.[213] Bu danışıqlardan ruhlanan Tələt paşa elə həmin gün İstanbula, Ənvər paşaya teleqram vuraraq, Külmanla apardığı müzakirələr haqqında məlumat verdikdən sonra, Ənvər paşanın Almaniya Baş qərargahı ilə əlaqəyə girərək, türk ordusunun irəli hərəkatını uğurla həyata keçirmək üçün indidən hazırlığa başlanmasının zəruri olduğunu bildirdi.[214]

Tələt paşa adı keçən teleqramında daha sonra bildirirdi ki, Ukrayna ilə sülh bağlandıqdan sonra almanlar bolşevikləri sülhü imzalamağa məcbur etmək üçün Petroqrad üzərinə hücum etmək niyyətindədirlər və bunun üçün lazımi hazırlıqlara başlamışlar. Türk heyəti məsələnin bu şəkildə həll edilməsinin bizim mənafelərimiz baxımından da əlverişli olacağı qənaətindədir. Bolşeviklərin propaqandalarının arxasında başqa şəkildə yenidən köhnə Rusiyanı bərpa etmək istəyi vardır. Bolşeviklərin vahid bir Rusiya Respublikası təşkil etmək niyyəti ilə Finlandiya və Ukraynanın istiqlalına qarşı hücuma keçmələri onların əsl məqsədlərini ortaya qoymuşdur. Müstəqil bir Ukrayna təşəkkül edərsə, Krım hökuməti də təşəkkül edəcək və gələcəkdə Qafqazda da bir müsəlman dövlətinin təşəkkülü mümkün olacaqdır.[215]

Fevralın 3-də Osmanlı və sovet nümayəndələri arasında keçirilmiş görüşdə bolşevik nümayəndələri Osmanlı hökumətinin Qafqaz hökuməti ilə müzakirələrə girişdiyi haqda xəbər alındığı və bunun nə dərəcədə doğru olub-olmadığını türk heyətindən öyrənmək istədilər. Türk nümayəndələri bildirdilər ki, Türkiyə ilə Qafqaz hökuməti arasında hər hansı müzakirələr aparılmamışdır.[216]

1918-ci il fevralın 10-da Brest-Litovsk danışıqları növbəti dəfə kəsildi və sovet nümayəndə heyətinin rəhbəri Lev Trotski Petroqrada qayıtdı. Belə bir vəziyyətdə sədrəzəm Tələt paşa, xarici işlər naziri Əhməd Nəsimi bəy və Əhməd İzzət paşa artıq Brest-

---

[213] Türkgeldi E.A. Brest-Litovsk Konferansı Hatıraları // Belgelerle Türk Tarihi Dergisi, Ankara: 1986, Sayı 13, s. 49-50.
[214] Kurat A.N. Türkiye ve Rusya. s. 368.
[215] Yenə orada, s. 368-369.
[216] Yenə orada. s. 375-376.

Litovskda qalmağa lüzum görmədilər və İstanbula qayıtdılar. Türkiyənin Berlindəki səfiri İbrahim Hakkı paşa ilə Zəki paşa Brestdə qaldı.

Brest-Litovsk danışıqlarından bir nəticə hasil olmadıqda, Ənvər paşa Qafqaz cəbhəsindəki 3-cü ordu komandanı Vehib paşaya Ərzincan istiqamətində hücum etmək əmri verdi. Türk orduları 1918-ci il fevralın 12-də hərbi əməliyyatlara başladılar.[217] Almanlar da fevralın 18-dən etibarən hərbi əməliyyatları bərpa etdilər.[218] Bunun ardınca Almaniya fevralın 21-də Rusiyaya ultimatum verdi. Bununla da V.İ.Lenin hökuməti inqilabı ixrac etməklə bağlı fəaliyyətlərini bir qırağa qoyub, sülh imzalamağa məcbur oldu və Q.Sokolnikovun başçılığı ilə Brestə yeni bir heyət göndərdi.

Sovet heyətinin konfransı nəticəsiz tərk etməsi əslində Türkiyənin lehinə oldu. Bu vaxta qədər türk heyəti sovetlər qarşısında maksimum tələblər irəli sürməkdən çəkinmişdi. Türklər bir tərəfdən almanlardan dəstək ala bilmir, digər tərəfdən də maksimum tələblər irəli sürməklə danışıqların kəsilməsinə səbəb olmaq istəmirdilər. İndi artıq sovet heyətinin göstərdiyi de-marş qarşısında danışıqlar yenidən başladıqda türklərin maksimum tələblərlə çıxış etməsi üçün əlverişli şərait yetişmiş olurdu.

Tələt paşa və Nəsimi bəy Brestdən İstanbula dönən kimi məsələni kabinə toplantısında müzakirə etdilər. Nəticədə almanların ruslara verəcəkləri yeni ultimatuma aşağıdakı türk tələblərinin salınması qərara alındı:

1. 1877-1878-ci illər müharibəsi nəticəsində Osmanlı imperiyasının ödəyə bilmədiyi müharibə təzminatının əvəzi olaraq Rusiyaya verməyə məcbur olduğu türk torpaqlarının – Qars, Ərdəhan və Batum vilayətlərinin Osmanlı imperiyasına qaytarılması;

2. Türklərin məskunlaşdığı bu bölgələrin rus orduları və qızıl birliklər tərəfindən boşaldılması, bu ərazilərdə ictimai asayiş və qayda-qanun təmin edilənədək bölgənin türk qüvvələri tərəfindən işğal edilməsi;

[217] ATASE, BDH, K. 4801, D. 14, F. 2-61; K. 2908, D. 444, F. 38.
[218] ATASE. BDH. K. 2914, D. 477, F. 21.

3. 1878-ci il sərhədlərinin qarşı tərəfində olan Qafqaz ərazisindəki müsəlmanların Sovet Rusiyasının elan etdiyi "xalqların öz müqəddəratını təyin etmək" prinsipindən yararlanması və onlara da bu haqqın tanınması.[219]

Bu qərar 24 fevral 1918-ci il tarixində Ənvər paşa tərəfindən Brestdə olan Zəki paşaya və onun vasitəsilə Almaniya baş komandanlığına bildirildi. General Lüdendorf da Almaniya baş komandanlığının Brest-Litovskdakı təmsilçisi general Hoffmandan bu türk tələblərinin sülh konfransında dəstəklənməsini və müdafiə edilməsini istədi.[220]

Alman hərbi komandanlığının əksinə olaraq, xarici işlər naziri Külman bu yeni türk tələblərini uyğun görmürdü və bildirirdi ki, həddindən çox böyük olan bu tələblər sülhü təhlükəyə sala bilər və bəlkə də Osmanlı-Rusiya toqquşmasına səbəb olar. Bununla belə, Külman türk istəklərinə qarşı çıxmağı da münasib bilmirdi. Nəticədə, aşağıdakı türk tələblərinin alman ultimatumu ilə birlikdə ruslara verilməsinə qərar verildi:

1. Rusların işğalı altında olan Şərqi Anadolu vilayətlərinin dərhal rus orduları tərəfindən boşaldılması;

2. 1877-1878-ci illər müharibəsi nəticəsində Osmanlı imperiyasının ödəyə bilmədiyi müharibə təzminatının əvəzi olaraq Rusiyaya verməyə məcbur olduğu Qars, Ordəhan və Batum vilayətlərinin Rusiya ordu hissələri tərəfindən boşaldılması və bu ərazilərdə asayiş və qayda-qanun təmin edilənədək bölgənin türk qüvvələri tərəfindən işğal edilməsi;

3. İndiyə qədər Osmanlı imperiyası ilə Rusiya arasında imzalanmış bütün müqavilələrin (xüsusilə iqtisadi sahədəki müqavilələrin) ləğvi.[221]

Almaniyanın İstanbuldakı səfiri Bernstorfun gəldiyi qənaətə görə, "türk hökuməti digər cəbhələrdə (Fələstin, Suriya və İraqda) itirdiyi ərazilərin yerini Qafqazda doldurmaq arzusunda idi. Ənvər və Tələt paşalar türklərin almanlarla birlikdə Batum-Bakı dəmir

[219] Kılıç S. Türk-Sovyet İlişkilerinin Doğuşu. s. 343.
[220] Yenə orada, s. 343.
[221] Yenə orada. s. 381-382.

yolu vasitəsilə Asiyada (Türküstan və İranda) iqtisadi sahədə əməkdaşlıq edə biləcəklərini iddia etməkdə idilər".[222] Buradan belə çıxır ki, Ənvər və Tələt paşalar hələ Brest-Litovsk sülhü imzalanmadan Qafqazda türk irəliləyişinin Bakıya qədər uzanmasını düşünməyə başlamışdılar. Bunun gerçəkləşməsi üçün və xüsusilə də gələcəkdə rus təhdidini sovuşdurmaq məqsədilə Qafqazdakı bütün müsəlmanları Osmanlı imperiyasının himayəsi altında bir "İslam dövləti" halında birləşdirmək lazım idi. Bu məqsədlə Ənvər paşa tərəfindən Brestdəki türk nümayəndəsi İbrahim Hakkı paşaya da lazımi təlimat göndərilmişdi. 1918-ci il fevralın 27-də göndərilən təlimatda Qafqazla bağlı aşağıdakı tələblərin qəbul etdirilməsi istənilirdi:

"1. Qafqaz daxilində mövcud millətlərin öz müqəddəratlarını müstəqil təyin etməsi və heç bir halda daxili işlərinə müdaxilə edilməyəcəyinin təəhhüd olunması;

2. Rusiya daxilində təşəkkül edəcək digər müsəlman hökumətlərin də müqəddəratlarını təyində sərbəst olmalarının qəbul olunması".[223]

Qars, Ərdəhan və Batum vilayətlərinin Osmanlı imperiyasına qaytarılması ilə bağlı türk tələbləri almanlar tərəfindən qəbul edilib ruslara verilən son ultimatuma daxil edildikdən sonra Brest-Litovsk konfransının son mərhələsində, 27 fevral 1918-ci il tarixində İbrahim Hakkı paşa Rusiyaya qarşı yeni tələblərlə çıxış etdi: "Sovet Rusiyasının elan etdiyi "xalqların öz müqəddəratını təyin etmək" hüququ əsas tutularaq, Qafqazda müstəqil bir "İslam dövləti" qurulmalıdır, həmçinin Kazan, Orenburq, Türküstan və Buxara müsəlmanlarının milli hökumətləri tanınmalıdır".[224]

Osmanlı nümayəndə heyətinin mövqeyinə görə, Qafqazda Türkiyəyə bitişik bir müsəlman dövləti qurulmalı, bu dövlət Rusiya ilə Türkiyə arasında bufer dövlət rolunu oynamalı idi. Bu dövlətə Azərbaycan və Dağıstanın daxil edilməsi nəzərdə tutulurdu. Sovet heyətindən əvvəl almanlar bu təklifə qəti etiraz etdilər.

[222] Kurat A.N. Türkiye ve Rusya. s. 382.
[223] BOA, HR.SYS, no. 2296/1, v. 61, 62.
[224] Jaschke G. Der Turanismus der Jungturken, p. 24.

Almanlar öz mənafeləri baxımından belə bir müsəlman dövlətini müvafiq görmədiklərinə görə türk təklifini dəstəkləmədilər.[225] Nəticədə bu təklif qəbul edilmədi. Bununla belə, ruslar Qafqaz müsəlmanlarına geniş hüquqlar verəcəklərini vəd etdilər.

Osmanlı hökuməti Brest-Litovsk konfransında yalnız bu tələblərlə kifayətlənmirdi. Türk heyəti yalnız Qafqaz müsəlmanlarını deyil, Rusiyadakı bütün türk-müsəlmanların Osmanlı imperiyasının himayəsi altına keçirilməsini istəyirdi. Onlar Rusiyadakı türklərə geniş siyasi və mədəni haqların verilməsini tələb edir və bunların tətbiqinə bir növ Osmanlı imperiyası tərəfindən nəzarət edilməsini nəzərdə tuturdular. Onu da qeyd edək ki, Rusiyadakı türk-müsəlmanların haqlarının tanınması məsələsi ilk dəfə idi ki, beynəlxalq müstəvidə müzakirə olunurdu. Bütün bunlara baxmayaraq, türk heyətinin Qafqaz və bütövlükdə Rusiyada yaşayan bütün türk-müsəlman xalqları ilə bağlı tələbləri almanlar tərəfindən məqbul hesab edilmədi və dəstəklənmədi. Avstriya-Macarıstan nümayəndələri də türklərin bu tələbini sülh üçün təhlükə kimi qiymətləndirdilər və dəstəkləmədilər. Türk heyətinin heç olmasa öz müttəfiqlərinin dəstəyini almaq üçün cəhd göstərməyə də vaxt yox idi. Danışıqlar çox sürətlə sona doğru gedirdi. Bu səbəbdən sovet nümayəndələri Almaniya və Avstriya-Macarıstanın mövqeyindən istifadə edərək türk tələblərini rədd etdilər. Bununla belə, sülh şərtlərində Rusiyadakı türk-müsəlmanlarla bağlı bəzi qeydlər yer aldı. Məsələn: Rusiya müsəlmanlarından Türkiyəyə köçmək istəyənlərə sovet hökuməti tərəfindən heç bir maneçilik törədilməməli idi və s. Bununla da sovet hökuməti Osmanlı imperiyasının Rusiyadakı türk-müsəlmanlarla maraqlandığını qəbul və təsdiq etmək məcburiyyətində qaldı.

Brestdəki Osmanlı heyətinin rəhbəri İbrahim Hakkı paşa 2 mart 1918-ci il tarixində Tələt paşaya göndərdiyi teleqramında yazırdı: "...Brest-Litovskdakı bu ikinci toplantının məqsədi rusların qəbul etdiyi ultimatum şərtləri daxilində sülh müqaviləsinin imza-

---

[225] Arslan A. I Dünya Savaşı ve Milli Mücadele Döneminde Ahıska-Ahılkelek (1914-1921) // Kafkas Araştırmaları, 1997. Sayı: 3. s. 99.

lanması idi... Ruslara verilən ultimatumun hüdudlarını genişləndirməyə imkan yoxdur.

Bu arada, Qafqaz və digər xüsuslarla bağlı hökmlərin andlaşmaya daxil edilməsi yolundakı bir çox əmr və təlimatlara, bu əlavələri qəbul etdirməyin mümkünsüzlüyünü bildirərək, cavablar ərz etdim. Sülh müqaviləsi sabah imzalanacaqdır. Hər şey imzalanmışdır. Bunu nə dəyişdirməyə, nə də ertələməyə imkan olmadığından sabah müttəfiq heyət nümayəndələri ilə birlikdə imza edəcəyimizi ərz edirəm.

Qafqaz haqqındakı teleqrafnaməniz alınar-alınmaz bu mövzuda da təkrar nəsə etmək imkanı qalıb-qalmadığı xüsusu alman nümayəndələri ilə müzakirə edildi. İşin başından son gününə qədər olayların ortaya qoyduğu durum belədir: Rusiyaya sonradan bir ultimatum verilə bilməz. 21 fevralda bir ultimatum verilmiş, Rusiya da bunu verilmiş zaman içində qəbul etmişdir. Beynəlxalq hüquq əsaslarına görə, adı keçən ultimatumda yer alan şərtlərin sonradan ağırlaşdırılmasına heç bir imkan yoxdur... Almaniya ultimatumun dəyişdirilməsinə imkan olmadığını İstanbuldakı səfiri vasitəsilə Osmanlı hökumətinə bildirmişdir... Qafqaz haqqında yenidən təkliflərlə çıxış etməyin imkansızlığı müəyyənləşmişdir. Bunu digər heyətlərə qəbul etdirmək xəyal olduğu kimi, ruslara da təklif etmək yeni bir ultimatum deməkdir və artıq buna imkan yoxdur..."[226]

İbrahim Hakkı paşanın bu teleqramına ədliyyə naziri və xarici işlər naziri vəkili Xəlil bəy tərəfindən göndərilən 3 mart 1918-ci il tarixli cavabda deyilirdi: "Ənvər paşa tərəfindən Zəki paşaya da bildirildiyi kimi, Qafqazın istiqlalı haqqındakı təklifimizdən vaz keçdiyimizdən sülh andlaşmasını qərarlaşdırılan son şəkildə imzalamağınız uyğundur əfəndim".[227] Artıq Qars, Ərdəhan və Batum vilayətlərinin Osmanlı imperiyasına qaytarılması sülh şərtlərinə daxil edilmişdi. Osmanlı rəsmiləri də bununla kifayətlənib sülhü təhlükəyə salmamaq qərarına gəldilər. Qafqaz müsəlmanlarının müstəqilliyi məsələsi nəinki Rusiya, heç Osmanlı imperiyasının

[226] Türkgeldi E.A. Brest-Litovsk Konferansı Hatıraları, s. 52-53.
[227] Yenə orada. s. 53.

müttəfiqləri tərəfindən də dəstəklənmədi. Digər tərəfdən Brest-Litovsk danışıqlarının əvvəlki mərhələləri nəticəsiz başa çatdıqda Antanta dövlətləri müharibəni davam etdirəcəyi təqdirdə Sovet Rusiyasına öz yardımlarını vəd edirdilər. Bolşeviklərin öz daxilində də Brestdə Rusiya qarşısında irəli sürülən tələblərin qəbul edilməsini Rusiyaya qarşı xəyanət kimi qəbul edən və müharibənin davam etdirilməsini istəyənlər az deyildi. Bütün bunları nəzərə alan Osmanlı rəsmiləri Qafqaz müsəlmanları ilə bağlı tələblərində israr etməyi lazım bilmədilər.

Nəhayət, 1918-ci il martın 3-də Brest-Litovskda Sovet Rusiyası ilə Almaniya, Avstriya-Macarıstan, Osmanlı dövləti və Bolqarıstan arasında 14 maddədən ibarət sülh müqaviləsi və bu müqaviləyə əlavə protokollar, həmçinin müttəfiqlərlə Sovet Rusiyası arasında ayrı-ayrılıqda sülh müqavilələri imzalandı.[228]

Brest-Litovsk müqaviləsinin Qafqazla bağlı dördüncü maddəsində deyilirdi: "...Rusiya Şərqi Anadolu vilayətlərinin boşaldılması və Türkiyəyə müntəzəm bir şəkildə geri verilməsi üçün əlindən gələn hər şeyi edəcəkdir.

Ərdəhan, Qars və Batum vilayətləri də Rusiya orduları tərəfindən dərhal boşaldılacaq. Rusiya bu ərazilərin yeni idarə formasına və hüquqi durumlarına qarışmayacaq. Bu bölgələrin gələcək idarə forması qonşu dövlətlər və xüsusilə Türkiyə ilə razılaşacaq yerli əhali tərəfindən müəyyən ediləcəkdir".[229]

Bununla da, Osmanlı hökuməti Brest-Litovsk danışıqlarında qarşısına qoyduğu Qafqazla bağlı üç tələbindən ikisini – Şərqi Anadolu vilayətlərinin boşaldılması və Elviye-i Səlasənin Türkiyəyə qaytarılması məsələsini öz istəyinə uyğun şəkildə həll edə bildi. Sovet hökuməti Brest sülhünə imza atmaqla "Türkiyə Ermənistanı" haqqında elan etdiyi dekretdən də imtina etmiş olurdu.

---

[228] BOA, HR.HMŞ.İŞO, no. 55/2; ATASE, BDH, K. 2918, D. 496, F. 1-151; K. 4324, D. 200, F. 28; Документы внешней политики СССР. Т. 1, с. 119-124.
[229] BOA, HR.HMŞ.İŞO, no. 55/2; ATASE, BDH, K. 2918, D. 496, F. 1-151; Документы внешней политики СССР. Т. 1, с. 121; Caucasian Boundaries: Documents and Maps. p. 464.

Brest-Litovsk sülhündən sonra Osmanlı imperiyasının Qafqaz siyasətində yeni mərhələ başladı. Bundan sonra Türkiyə Qafqazda daha fəal siyasət yeritməyə başladı. Həmçinin, Brest sülhünü imzalayıb müəyyən qədər nəfəs alan Sovet Rusiyası da bölgədə fəallaşdı. Artıq bu dövrdən başlayaraq Osmanlı hökuməti Cənubi Qafqaz Seymi ilə Sovet Rusiyası arasında yaranmış gərginlikdən istifadə edərək, həmçinin Rusiya imperiyası ərazisində yaşayan türk-müsəlmanların, xüsusilə də Qafqaz müsəlmanlarının Rusiyaya qarşı apardıqları azadlıq mübarizəsini dəstəkləyərək bölgədə İstanbula bağlı rejimlər qurmağa girişdi.

## § 4. Osmanlı imperiyasının Qafqazda fəallaşması və onun siyasi nəticələri

1917-ci il dekabrın 2-də (15-də) Brest-Litovskda Sovet Rusiyası ilə Mərkəz dövlətləri arasında barışıq sazişi imzalandıqdan üç gün sonra, dekabrın 5-də (18-də) Ərzincanda Qafqazdakı rus və türk ordu komandanlıqları arasında da barışıq sazişi imzalandı.[230] Ərzincan barışığı Petroqraddakı sovet hökuməti ilə deyil, Cənubi Qafqaz Komissarlığı və "Rusiya Respublikası"nı təmsil edən Qafqazdakı rus ordusu komandanlığı ilə Osmanlı Qafqaz ordusu komandanlığı arasında imzalandı. Cənubi Qafqaz Komissarlığı Ərzincan barışığının imzalanması prosesində "Rusiya Respublikası"nın təmsilçisi kimi çıxış etdi.

Osmanlı baş komandanlığı Ərzincan barışığını imzalamaqla dolayısıyla Cənubi Qafqaz Komissarlığını bir hökumət olaraq tanımış olurdu. Lakin Osmanlı hökuməti bu dövrdə Cənubi Qafqaz Komissarlığı ilə birbaşa münasibət yaratmaq və onu tanımaq istəmirdi. Osmanlı hökuməti bu zaman Brest-Litovsk sülh konfran-

---

[230] ATASE, BDH, K. 2697, D. 284, F. 1-3; K. 153, D. 682, F. 2; Документы и материалы по внешней политике Закавказья и Грузии, с. 18-21; Документы внешней политики СССР. Т. 1, с. 53-56.

sında rus işğalı altında olan türk torpaqlarının boşaldılmasını Sovet Rusiyasına qəbul etdirmək üçün gərgin iş apardığından sovetləri tanımayan hər hansı bir hökumətlə Qafqazda sülh danışıqları aparmaq niyyətində deyildi. Ənvər paşa Qafqaz cəbhəsindəki 3-cü ordunun komandanı Vehib paşaya və onun vasitəsilə Ərzincan danışıqlarındakı türk nümayəndə heyətinə göndərdiyi şifrəli teleqramında general P.Prjevalskini ancaq Rusiya Qafqaz Orduları komandanı olaraq tanımalarını və bundan başqa müstəqil Qafqaz hökuməti və ya digər bir adla onunla müzakirələrə girişməmələrini istəmiş və bildirmişdi ki, "sülh danışıqları ayrıca bir Qafqaz hökuməti ilə aparılarsa, onda işğal altındakı torpaqlarımızın boşaldılmasında çətinliklərlə qarşılaşa bilərik".[231] Bu səbəbdən ilk əvvəl Cənubi Qafqaz Komissarlığına münasibətdə Osmanlı hökuməti bitərəf və gözləmə mövqeyi tuturdu. Həmçinin, bu dövrdə Osmanlı siyasi dairələri Cənubi Qafqaz kimi mürəkkəb və siyasi sabitliyin olmadığı bir bölgədə məcburiyyət qarşısında meydana gəlmiş bir orqan olan komissarlığın çox yaşamayacağı və tezliklə dağılacağı qənaətində idilər.

Lakin Ərzincan barışığının imzalanmasından az sonra Osmanlı hökuməti Qafqaz siyasətində strateji bir dəyişiklik edərək, Cənubi Qafqaz Komissarlığı ilə yaxınlaşmaq və onu tanımaq qərarına gəldi. 1917-ci il dekabrın 18-dən başlayaraq Ənvər paşa 3-cü ordu komandanı Vehib paşaya və Brestdəki Osmanlı nümayəndəsi Zəki paşaya teleqramlar göndərərək "Qafqaz hökuməti" haqqında məlumat tələb edirdi.[232] Qeyd etdiyimiz kimi, bu dövrdə Ənvər paşanı narahat edən əsas məsələ rus işğalı altındakı türk torpaqlarının boşaldılması məsələsi idi və o, 18 (31) dekabr 1917-ci il tarixində Brestə, Zəki paşaya göndərdiyi teleqramın şifrəli qismində qeyd edirdi ki, "Qafqaz haqqında məlumatlı olan konfransdakı Ukrayna heyətindən müstəqil Qafqaz hökumətinin

[231] ATASE. BDH, K. 2897, D. 398, F. 3-61; K. 340, D. 1366, F. 1-8, 1-34; K. 529, D. 2067, F. 18.
[232] ATASE. BDH, K. 340, D. 1366, F. 1-22; K. 529, D. 2067, F. 17.

işğal altında olan ərazimizin boşaldılması ilə bağlı mövqeyini öyrənin".[233]

Ənvər paşanın teleqramına Vehib paşa tərəfindən cavab olaraq yazılmış raportların birində deyilir: "...Qafqaz hökuməti yalnız isməm və rəsmən mövcuddur. Həqiqətdə isə Qafqazda böyük bir anarxiya hökm sürür. Müsəlmanlar, gürcülər və ermənilər fələn ayrılmış olub, öz milli komitələri vasitəsilə idarə olunmaqdadırlar".[234] Beləcə, Ənvər paşa Zəki paşadan və Vehib paşadan aldığı məlumatlarla Qafqazdakı siyasi vəziyyət haqqında xəbərdar olurdu. Vehib paşa ilə Ənvər paşa arasında Qafqaz hökuməti ilə bağlı yazışmalar 1918-ci il yanvarın əvvəllərinə qədər davam etdi və nəticədə baş komandan vəkili və hərbi nazir Cənubi Qafqaz Komissarlığı ilə əlaqələr qurulması məsələsini sözdən əmələ keçirməyə qərar verdi. Cənubi Qafqaz Komissarlığı ilə rəsmi əlaqələr qurmaq istəyən Ənvər paşa komissarlığın sovet hökumətinə qarşı olan mövqeyini, həmçinin sülhlə bağlı düşüncələrini yerində tədqiq etmək məqsədilə Tiflisə bir Osmanlı heyəti göndərməyi təklif etsə də[235], Tiflis hökuməti bu təklifi qəbul etmədi.[236] Çünki bu dövrdə Cənubi Qafqaz Komissarlığı Petroqradda toplanacaq Müəssislər Məclisində sülhlə bağlı qərar qəbul edilənədək Türkiyə ilə hər hansı bir danışıq aparmaq niyyətində deyildi.

Cənubi Qafqaz Komissarlığının sülh məsələsində qərarsızlığına baxmayaraq, Ənvər paşa bu hökumətlə siyasi əlaqələr qurmaqda qərarlı idi. Ənvər paşadan aldığı təlimat üzrə hərəkət edən Vehib paşa tərəfindən 1918-ci il yanvarın 9-da göndərilən, amma yanvarın 14-də (1-də) general Odişelidzeyə çatan məktubda türk diplomatiyası "müstəqil Qafqaz hökuməti ilə hansı formada əlaqələr qurmağın mümkünlüyünü" öyrənməyə çalışırdı.[237] S.Yerasi-

[233] ATASE. BDH. K. 529, D. 2067, F. 17.
[234] ATASE. BDH. K. 2909, D. 452, F. 57; K. 2921, D. 511, F. 1-74.
[235] ATASE, BDH, K. 2921, D. 511, F. 1-16; K. 340, D. 1366, F. 1-44, 1-43.
[236] ATASE, BDH, K. 2905, D. 433, F. 1-32; Документы и материалы по внешней политике Закавказья и Грузии, с. 25-26.
[237] Документы и материалы по внешней политике Закавказья и Грузии, с. 24.

mos türk tərəfinin bu təklifi ilə bağlı yazırdı ki, "bu Tiflisdəkilərə atılan bir "çəngəl" idi, çünki o tarixdə onlar özləri belə "müstəqil" olduqlarını iddia etməmişdilər".[238]

Artıq bu dövrdə Osmanlı hökuməti Cənubi Qafqazı öz təsiri altında olan müstəqil bir dövlət kimi görmək istəyirdi. Bu dövlət Rusiya ilə Türkiyənin bir əsrə yaxın qarşı-qarşıya dayandığı Qafqazda bufer rolunu oynayıb Asiya Türkiyəsinə gedən yolda Rusiyaya qarşı ciddi maneəyə çevrilə bilərdi. Osmanlı hakim dairələri bu dövləti gürcü və ermənilərin üstünlük təşkil etdikləri Cənubi Qafqaz Komissarlığı timsalında deyil, Qafqaz müsəlmanlarının bir "İslam dövləti" kimi görmək istəyirdilər. Lakin bölgədə gedən siyasi proseslərə təsir etmək imkanı kifayət qədər olmayan Osmanlı hökuməti ən azından Rusiyanın Qafqaza hakim olmasının qarşısını almaq məqsədilə de-fakto mövcud olan Cənubi Qafqaz Komissarlığını tanımağı lazım bildi. Ona görə də Osmanlı hökuməti Cənubi Qafqaz Komissarlığını nəinki özü tanımaqla kifayətlənir, eyni zamanda 1918-ci il yanvarın 16-da (3-də) etdiyi müraciəti ilə onu Brest-Litovsk danışıqlarına cəlb etməklə Mərkəz dövlətləri (Almaniya, Avstriya-Macarıstan və Bolqarıstan) və Rusiya tərəfindən də tanınmasına nail olmaq istəyirdi.[239] Nəzərə almaq lazımdır ki, 1918-ci ilin əvvəllərində Sovet Rusiyasının böhranlı vəziyyəti ilə əlaqədar Cənubi Qafqaz hökumətini tanımaq üçün ona diplomatik təzyiq göstərməyə əlverişli şərait var idi. Bundan başqa rus ordusunun Qafqazdan çıxması ilə əlaqədar Antantanın bura nüfuz etməsindən də Türkiyə ehtiyat edirdi. Türk diplomatiyasının fikrincə, Cənubi Qafqazda yaranan müstəqil dövlət hər hansı formada olmasından və burada hansı rejimin qələbə çalmasından asılı olmayaraq onun üçün Rusiyadan dəfələrlə münasib olardı.[240] Digər tərəfdən Osmanlı imperiyasının Qafqazla bağlı planlarını reallaşdırmaq, ilk növbədə Rusiya tərəfindən işğal edilən Şərqi Anadolu ərazisini boşaltmaq, sonra Qars, Ərdəhan və Batum vila-

---

[238] Yerasimos S. Türk-Sovyet İlişkileri, s. 17.
[239] ATASE, BDH, K. 2906, D. 438, F. 7-2:7-4, 7-8; Документы и материалы по внешней политике Закавказья и Грузии, с. 52.
[240] Həsənov C. Azərbaycan beynəlxalq münasibətlər sistemində, s. 43-44.

yətlərini Türkiyəyə geri qaytarıb 1877-1878-ci illər müharibəsinə qədərki sərhədi bərpa etmək, daha sonra Ənvər paşanın turançı siyasətini gerçəkləşdirmək üçün də qat-qat güclü olan Rusiyadansa "müstəqil Cənubi Qafqaz hökuməti" ilə üz-üzə gəlmək daha münasib olardı. Bu səbəbdən Osmanlı hökuməti Brest-Litovskda Cənubi Qafqaz Komissarlığının iştirakçı dövlətlər tərəfindən tanınmasını vəd edirdi.

Lakin Osmanlı hökumətinin təklifləri komissarlıqda müsbət qarşılanmadı və dolayısı ilə rədd edildi. Noy Jordaniya 1918-ci il yanvarın 17-də (4-də) sülh danışıqlarına başlamaqla bağlı Vehib paşanın təklifinə münasibət bildirərək qeyd edirdi ki, "...biz sülhə qarşı çıxmırıq, lakin Qafqaz müstəqil deyil, yalnız Rusiyanın bir hissəsidir... Qafqazın Türkiyə ilə separat sülh bağlaması tamamilə absurddur... Türkiyəyə cavab vermək lazımdır ki, biz müstəqil dövlət deyilik və hər şeydən əvvəl, məsələni Müəssislər Məclisində qoymaq və ondan səlahiyyət almaq lazımdır..."[241] Nəticədə Cənubi Qafqaz Komissarlığı 1918-ci il yanvarın 23-də (10-da) Vehib paşaya vurduğu teleqramında Brest-Litovsk sülh danışıqlarında iştirak etməkdən imtina etdiyini və özünün Rusiyanın tərkib hissəsi olduğunu bildirdi.

Petroqradda toplanmış Müəssislər Məclisi bolşeviklər tərəfindən zorla qovulduqdan (19 (6) yanvar 1918) sonra Cənubi Qafqaz Komissarlığı Osmanlı hökumətinin sülh təklifini 1918-ci il yanvarın 28-də (15-də) yenidən müzakirə etməyə məcbur oldu. Uzun və gərgin müzakirələrə baxmayaraq sülh məsələsində ümumi bir rəyə gələ bilməyən komissarlıq bu məsələnin Rusiya imperiyasına daxil olan və xüsusilə Qafqazla qonşu olan xalqlarla birgə müzakirə edilməsinin zəruri olduğu qənaətinə gəldi və Türkiyənin sülh təklifinə cavab verilməsi üçün üç həftəlik bir vaxt verilməsini məqsədəuyğun hesab etdi.[242] Elə həmin gün komissarlığın sədri E.Ge-

241 Жордания Н.Н. За два года (с 1 марта 1917 года по 1 марта 1919 года). Доклады и речи. Тифлис: Типография Грузинского Правительства, 1919, с. 60-61.

242 Документы и материалы по внешней политике Закавказья и Грузии, с. 29-35.

geçkorinin imzaladığı bir məktubla bu qərar barəsində Vehib paşaya məlumat verildi.[243] General Odişelidze tərəfindən 30 (17) yanvar 1918-ci il tarixində göndərilən bu məktubu Vehib paşa alan kimi onu dərhal Ənvər paşaya göndərdi.[244]

1918-ci il yanvarın 29-da (16-da) E.Gegeçkori Kiyevə – Mərkəzi Ukrayna Radasına və Yekaterinodardakı Cənub-Şərq İttifaqına müraciət edib, Türkiyənin sülh təklifi və komissarlığın bu təkliflə bağlı verdiyi cavab haqqında məlumat verdikdən sonra onları türklərin təklifini müzakirə etmək və birgə siyasət aparmaq üçün fevralın 14-də (1-də) Tiflisdə keçiriləcək konfransa dəvət etdi.[245] Lakin bu hökumətlərin hər ikisi müxtəlif bəhanələrlə Gegeçkorinin təklifindən yayındılar[246], çünki bu məsələnin həqiqətən də onlara aidiyyəti yox idi.

Qafqaz cəbhəsindəki rus orduları qərargahının Ərzincandan Ərzuruma köçürülməsindən sonra Ərzincan ətrafında ermənilərin müsəlman əhalisinə qarşı törətdiyi vəhşiliklər daha intensiv xarakter aldı. Vehib paşa 22 (9) yanvar 1918-ci il tarixində Rusiya Qafqaz Orduları komandanı general Odişelidzeyə teleqramla müraciət edərək, ermənilərin törətdiyi qırğınların qarşısının alınmasını tələb etdi.[247] Eyni məzmunlu teleqramı fevralın 1-də (yanvarın 19-da) Rusiya Qafqaz cəbhəsi ordularının baş komandanı general P.Prjevalskiyə göndərən[248] Vehib paşa fevralın 11-də (yanvarın 29-da) yenidən teleqramla general Odişelidzeyə müraciət edib, ermənilərin müsəlmanlara qarşı törətdiyi vəhşiliklərin qarşısını almağı tələb etdi.[249] General Odişelidze bir gün sonra Vehib paşaya göndərdiyi teleqramda "müsəlman əhalinin qorunacağı" haqqında tə-

[243] Документы и материалы по внешней политике Закавказья и Грузии, с. 35-36.
[244] ATASE. BDH. K. 2921, D. 511, F. 1-22. 1-26. 1-45.
[245] Документы и материалы по внешней политике Закавказья и Грузии, с. 36-37.
[246] Yenə orada, s. 40, 53.
[247] Yenə orada, s. 41-42.
[248] Yenə orada, s. 43-44.
[249] Yenə orada, s. 44-46.

minat versə də[250], bu qırğınların qarşısını almaq üçün komissarlıq tərəfindən əməli addımlar atılmadı.

Bu arada Brest-Litovskda rusların almanlar tərəfindən verilən ultimatumu qəbul etməmələri səbəbindən 10 fevral 1918-ci il tarixində danışıqlar növbəti dəfə kəsildi. Almaniya baş komandanlığı Rusiyaya qarşı hərbi əməliyyatların yenidən bərpa edilməsinə qərar verdi və fevralın 17-dən hərbi əməliyyatlara başlanılacağını elan etdi. Belə bir vəziyyətdə Osmanlı hökuməti daha cəld tərpənərək fevralın 12-də (yanvarın 30-da) Qafqaz cəbhəsində hücuma keçdi.[251] Əslində türklər bu hücumu gerçəkləşdirmək üçün əlverişli məqamın yetişməsini çoxdan gözləyirdilər.

Vehib paşa 1918-ci il yanvarın əvvəllərindən başlayaraq Ənvər paşaya göndərdiyi teleqramlarında Rusiyada, o cümlədən Qafqazda tüğyan edən anarxiyadan, komissarlığın Lenin hökumətini tanımamasından bəhs edərək, həmçinin ingilislərin türklərə qarşı yaratmaqda olduqları erməni-gürcü ittifaqına diqqəti çəkərək Qafqaz istiqamətində hərbi əməliyyatların bərpa edilməsinin vacib olduğunu bildirirdi.[252] Nəhayət, Vehib paşa hərbi əməliyyat üçün bütün hazırlıqları başa çatdırdıqdan sonra 1918-ci il fevralın 11-də Ənvər paşaya göndərdiyi teleqramında "irəli" hərəkatın sabah başlanılacağını bildirdi.[253] Buna cavab olaraq Ənvər paşa Vehib paşaya aşağıdakı şifrəli teleqramı göndərdi: "Hərəkatın sabahdan sonra başlamasına qərar verilmiş olmaqla bərabər, bəzi bölgələrin dərhal işğalı və vaxt keçirilməməsi mütləq gərəkirsə, bu durumda ordunun sağ qanadının bu gündən irəliləməsi uyğundur. Ancaq bunun ordu hərəkatı kimi göstərilməməsi, əksinə Ərzincan ətrafındakı əqrabalarının qətl edildiyini öyrənən əsgərlərin ailələrinə yardım etmək və həyatlarını qurtarmaq üçün hərəkətə keçməyə məcbur qaldıqları şəklində göstərilməsi gərəklidir".[254]

---

250 Документы и материалы по внешней политике Закавказья и Грузии. с. 46-47.

251 ATASE, BDH, K. 4801, D. 14, F. 2-61; K. 2908, D. 444, F. 38.

252 ATASE. BDH. K. 2928, D. 545, F. 1-15.

253 ATASE, BDH, K. 2908, D. 444, F. 34-1.

254 ATASE. BDH. K. 2908, D. 444, F. 34-2.

Bunun ardınca, Ənvər paşa elə həmin gün (fevralın 11-də) Vehib paşaya göndərdiyi digər bir şifrəli teleqramında hərəkatın sürətləndirilməsini istəyir və qeyd edirdi ki, "əvvəlki gün (Brest-Litovskda – V.Q.) Ukrayna ilə İttifaq dövlətləri arasında sülh müqaviləsi imzalandı. Sədrəzəm Tələt paşa dünənki teleqramında bolşevik hökumətinə bir ultimatum verilərək, hərb və ya sülhdən birini seçmələri ruslardan tələb olunacağını da bildirmişdir. Bu gün alınan məlumata görə Trotskinin Petroqrada gedərək, bütün əsgərlərin tərxisini əmr etdiyi və müharibə vəziyyətinin sona çatdığını elan etdiyi anlaşılır. Dolayısıyla ruslarla aramızda sülhün imzalanması ehtimalı çox yaxındır. Sülh imzalanmadan əvvəl işğal altındakı torpaqlarımızı qurtarmaq və sonrası üçün əlverişli bir vəziyyətdə olmaq üçün, bu sabahkı teleqramımda da bildirdiyim kimi, ordunun sağ cinahla dərhal irəliləyərək ermənilərlə və bu ermənilərin bəhanəsiylə Cənubi Qafqaz hökuməti ilə müharibə vəziyyətində qalmağımız müvafiq və gərəklidir".[255]

Ənvər paşa ilk əvvəl hərbi əməliyyatların başlandığını general Odişelidzeyə bildirilməsini istəsə də, lakin sonradan hərəkatın başlanmasına qədər bunun gizli saxlanılması qərara alındı.[256]

Beləliklə, 12 fevral (30 yanvar) 1918-ci il tarixində türk hərbi komandanlığı general Odişelidzeyə işğal altında olan türk torpaqlarında erməni quldur dəstələri tərəfindən müsəlmanlara qarşı törədilən vəhşilikləri bir daha xatırladıb[257], müsəlman əhalisinin təhlükəsizliyini və əmlaklarının mühafizə edilməsini təmin etmək adı altında Qafqaz cəbhəsində fəal hərbi əməliyyatlara başladı. Elə həmin gün Ənvər paşa İstanbulda deputatlar palatasında çıxış edərək Batum və Bakını tutmaq və oradan Türküstanla əlaqə yaratmaq barədə göstəriş verdiyini söylədi.[258]

---

[255] ATASE. BDH. K. 2908, D. 444, F. 34.
[256] ATASE, BDH, K. 2909, D. 452, F. 2-2.
[257] Документы и материалы по внешней политике Закавказья и Грузии, с. 49-50.
[258] Qasımov M. Birinci dünya müharibəsi illərində böyük dövlətlərin Azərbaycan siyasəti. II h., s. 54-55.

Fevralın 13-də Ərzincanı tutan türk orduları sürətlə irəliləyərək fevralın 19-da Bayburtu, fevralın 22-də Mamahatunu (Tərcanı), fevralın 24-də Trabzonu, martın 12-də Ərzurum, Malazgird və Hınısı ələ keçirərək 14 mart 1918-ci il tarixində 1914-cü ildəki türk-rus sərhədinə çatdılar.[259] Türk ordularının hücumları qarşısında tab gətirə bilməyən erməni ordu hissələri geri çəkilməyə məcbur oldular.

Qeyd edək ki, Ərzincan barışığından sonra Qafqaz cəbhəsində rus qoşunları geri çəkilməyə başladı. Əslində isə Rusiya üçün bu cəbhə dağıldı. Qafqaz cəbhəsi qərargahının komissarı D.Donskoy qərara aldı ki, ordunu milli zəmində təşkil etsin. Cənubi Qafqaz Komissarlığı 1917-ci il dekabrın 19-da Qafqazda olan rus ordusunun tərxis olunması haqqında əmr verdi və həmin əmrə əsasən Qafqazdan olan hərbi hissələr yalnız milli korpuslar halında saxlanılırdı. Ilk addım kimi Qafqaz cəbhəsi baş komandanlığının 26 dekabr 1917-ci il tarixli əmrinə əsasən tərkibində üç piyada diviziya, altı briqadası və ərazi polkları olan erməni ordu korpusu yaradıldı. Qısa müddətdə gürcü milli korpusu da yaradıldı. Çarizm dövründə müsəlmanlar orduya çağırılmadıqlarına görə Azərbaycan milli korpusunun yaradılması bir sıra çətinliklərlə qarşılaşdı.

Erməni və gürcü ordu hissələrinin yaradılmasında Antanta dövlətləri, xüsusilə də İngiltərə maraqlı idi və ingilislər bu işdə onlara yardım göstərirdilər. Bağdadda olan ingilis baş qərargahının qarşısında duran ən mühüm vəzifələrdən biri almanları və türkləri Qafqaza buraxmamaq idi. 1917-ci il dekabrın 23-də İngiltərə və Fransa Rusiyanın cənubunu nüfuz dairələrinə bölmək haqqında saziş imzaladılar. Fransızlar tərəfindən Klemanso, Pişon və Foşun, ingilislər tərəfindən lord Milnerin, lord Robert Sesilin və digər ingilis hərbi dairələri nümayəndələrinin hazırladığı sazişin 3-cü maddəsinə əsasən, fransızlar Bessarabiya, Ukrayna və Krımı, ingilislər isə Qafqazı tutmalı idilər. Bu planın həyata keçirilməsi üçün ingilislər ilk növbədə Bakını və "Bakı-Batum dəmir yolunu"

---

[259] Allen W.E.D., Muratoff P. Kafkas Harekatı, s. 429-431.

ələ keçirmək istəyirdilər.[260] Lakin onların Qafqazda və ona yaxın olan ərazilərdə hərbi qüvvələri yox idi. Bu reallığı nəzərə alan ingilislər mövcud vəziyyətdə Almaniya-Osmanlı blokunun, xüsusilə də Osmanlı imperiyasının Qafqaz və Orta Asiya ilə bağlı planlarının gerçəkləşməsinin qarşısını almağa çalışdılar və bu məqsədlə 1917-ci ilin sonu – 1918-ci ilin əvvəllərində üç plan tərtib etdilər:

1. Rus əsgərlərini maddi və mənəvi cəhətdən dəstəkləyərək, onların cəbhələrdə qalmalarını təmin etmək;

2. Şimaldan gələ biləcək alman və bolşevik hücumlarına və cənubdan gələ biləcək türk hücumuna qarşı qoyula biləcək gücdə Rumıniya, Ukrayna, Don, Kuban və Terek bölgələri ilə Cənubi Qafqaz Komissarlığının daxil olacağı bir "Cənub Bloku" yaratmaq;

3. Erməni və gürcüləri dəstəkləyib təşkilatlandırmaq və Qafqaza Osmanlı-Almaniya hücumlarına qarşı onlardan istifadə etmək.

Böyük Britaniya hökumətinə "cəbhələrdəki rus əsgərlərini dəstəkləyərək onların müharibəni davam etdirmələrini təmin etmək" təklifi Batumdakı ingilis konsulluğundan gəlmişdi. Konsul Stivens ingilis hökumətinə göndərdiyi 17 noyabr 1917-ci il tarixli teleqramında bildirirdi ki, rus əsgərlərinin ərzaq və geyim ehtiyaclarını ödəyərək onların cəbhələrdə qalmağını təmin etmək vacibdir. Bu edilmədiyi təqdirdə türklər Qafqaza girəcəklər.[261] Lakin Qafqazdakı rus ordusu bolşevik təbliğatının təsiri ilə hələ Oktyabr çevrilişindən əvvəl hərbi əməliyyatları dayandırmışdı və bu təbliğatın davam etdiyi müddətdə ordunun yenidən silaha sarılması qeyri-mümkün olduğundan ingilislərin bu planının gerçəkləşməsi baş tutmadı.

"Rus əsgərlərini cəbhələrdə saxlamaq" planı baş tutmadıqda ingilislər "Cənub Bloku" yaratmaq planını ortaya atdılar. Bu plan bolşeviklərin hakim olduqları Mərkəzi Rusiya xaricində qalan

---

[260] Черчилль У. Мировой кризис, с. 105.

[261] Çağlayan K.T. Birinci Dünya Savaşı Sonlarında Kafkasya'da İngiliz Faaliyetleri // Türk Tarih Kurumu, Belleten. Ağustos 2000, Cilt LXIV, Sayı: 240, s. 496-497.

Don, Terek, Kuban, Ukrayna və Qafqazdakı məhəlli idarələrin bolşevikləri tanımaması nəticəsində meydana gəlmişdi. Britaniya siyasi dairələri qeyd edilən ölkələri bir araya gətirməklə və hətta Rumıniyanı da bu ittifaqa daxil etməklə bir "Cənub Bloku" yaratmaq və bu blokla bir tərəfdən bolşevikləri cənubdan çənbərə almaq, digər tərəfdən isə bundan almanlara qarşı istifadə etmək və Qafqaza türk irəliləyişinin qarşısını almağı nəzərdə tutmuşdular. İngilislər "Cənub Bloku"nu yaratmaqla, həm də alman və türk ordularının dağılmış rus cəbhəsindən digər cəbhələrə aparılmasının da qarşısını alacaqdılar. Bütün bunlara baxmayaraq, həddindən çox geniş olan və böyük miqdarda maliyyə tələb edən bu planın gerçəkləşməsi İngiltərə, ABŞ və Yaponiya arasında gələcək nüfuz dairələri ilə bağlı yaranan qarşılıqlı qısqanclıq, habelə Rumıniya və Ukraynanın hər an Almaniya tərəfindən işğal edilmə ehtimalı, Qara dənizdən almanların yaratdığı təhdid, kazakların bolşeviklərin təsirinə düşməsi və s. problemlərlə bağlı gecikdi. Bu gecikmə əsnasında 1918-ci il fevralın 10-da Brest-Litovskda danışıqlar kəsildikdən sonra Almaniya həyata keçirdiyi hərbi əməliyyatlarla Rumıniya və Ukraynanı (1918-ci il fevralın 9-da (yanvarın 27-də) Mərkəz dövlətləri ilə Ukrayna arasında Brestdə sülh müqaviləsi imzalanmışdı) öz nəzarəti altına aldı. Beləcə layihənin önəmli hissələri itirilmiş oldu. Digər tərəfdən türk ordusu da irəli hərəkatına başlamış, rus işğalı altında olan Şərqi Anadolu və Qara dəniz vilayətlərini azad etdikdən sonra Qafqaza doğru yönəlmişdi. Bununla da, "Cənub Bloku" yaratmaq planı həyata keçirilmədən uğursuzluğa düçar oldu. Bundan sonra, Böyük Britaniya Xarici İşlər Nazirliyinin rəsmilərindən R.G.Klerkin ifadəsi ilə desək, "yeganə bir layihə qalmışdı ki, bu da Qafqaz cəbhəsində türk irəliləyişinə qarşı erməni və gürcülərdən istifadə etmək idi".[262]

Qafqaza türk irəliləyişinə qarşı erməni və gürcülərdən istifadə etməyə qərar vermiş Böyük Britaniya hökuməti bu yolla Qafqaz, İran, Orta Asiya və nəhayət, Hindistana qədər uzana biləcək "türk təhlükəsi"nin qarşısını almağı düşünürdü. İngilis siyasi dairələri

---

[262] Çağlayan K.T. Birinci Dünya Savaşı Sonlarında Kafkasya'da İngiliz Faaliyetleri, s. 499-500.

erməni və gürcüləri türklərə qarşı qoymaqla bir tərəfdən Mesopotamiyadakı ingilis ordularının çətin vəziyyətə düşməsinin qarşısını almaq, digər tərəfdən də Balkanlardan Çinə qədər olan ərazini ehtiva edən "Turançılıq" təhlükəsinə qarşı bir sədd yaratmağı nəzərdə tuturdular. 150 min nəfərə yaxın olan erməni əsgərlərinin yalnız 35 mini Qafqaz cəbhəsində olduğundan digər cəbhələrdəki ermənilərin Qafqaza nəqli üçün ingilis hərbi heyətinə lazımi təlimatlar, tapşırıqlar verildi. Erməni və gürcü ordularının təşkili, silah alınması və digər problemləri həll etmək üçün ingilislər tərəfindən 1917-ci ilin dekabrında 1 mln. rubl Türkiyə Erməni Komitəsinə, 3 mln. rubl isə Qafqazdakı erməni və gürcülərə göndərildi. İngilislər 1918-ci ilin əvvəllərində yenidən Tiflisə 2 mln, 808 min rubl məbləğində pul göndərdilər.[263]

Onu da qeyd edək ki, ingilis yardımlarının böyük qisminin ermənilərə ayrılması gürcüləri müəyyən dərəcədə narazı salmışdı. Digər tərəfdən gürcü liderləri ingilislərin dəstəyi ilə Türkiyə və Almaniyaya qarşı öz ərazi bütövlüyünü qoruyacaqları qənaətində deyildilər. Gürcülərdə Almaniyaya sığınıb gürcü torpaqlarının bütövlüyünü qorumaq düşüncəsi daha güclü idi. Bölgədə gürcülər üçün bu dövrdə ciddi təhdidi türklər təşkil edirdilər və türklərin də qarşısını ala biləcək yeganə güc Osmanlı imperiyasının müttəfiqi olan Almaniya idi. Azərbaycanlılar isə açıq-aydın türklərin tərəfdarı kimi çıxış edirdilər və ingilislərə qarşı mənfi münasibətdə idilər. Hətta 1918-ci ilin əvvəllərində Müsəlman Milli Komitəsi Azərbaycan torpaqlarında və dəniz yollarında səyahət edən bütün ingilislərin həbs edilməsinə dair qərar çıxarmışdı.[264]

İngilislər türklərin Qafqaza hücumlarına qarşı ermənilərin müqavimətini daha yaxşı təşkil etmək üçün bölgəyə bir hərbi kontingent göndərmək istəsələr də, bunun üçün münasib bir marşrut yox idi. Yeganə yol quru yolu ilə Bağdaddan Ənzəliyə, oradan dəniz yolu ilə Bakıya və Bakıdan dəmir yolu ilə Tiflisə getmək idi ki, bu da ümumilikdə təqribən iki min kilometrlik bir yol idi. Buna

[263] Çağlayan K.T. Birinci Dünya Savaşı Sonlarında Kafkasya'da İngilis Faaliyetleri, s. 502.
[264] Yenə orada. s. 503.

baxmayaraq, ingilis hökuməti 1918-ci il yanvarın 14-də qeyd edilən layihəni gerçəkləşdirmək üçün Qafqaza göndərmək məqsədilə general Lionel Denstervilin rəhbərliyində 150 zabit və 300 təlimatçıdan ibarət bir heyət qurmağı qərara aldı. Lakin bu heyət yoldakı çətinliklər və xüsusilə də Ənzəlinin bolşevik nəzarətində olması səbəbindən lazımi vaxtda Qafqaza gəlib çıxa bilmədi və bunun üçün daha əlverişli məqamın yetişməsini gözləməli oldu. General Denstervilin səfəri uğurlu olsaydı belə, artıq gec idi, çünki 1918-ci il fevralın 12-dən etibarən Qafqaz istiqamətində hərbi əməliyyatları bərpa edən türk qoşunları qısa vaxt ərzində Şərqi Anadolunu azad edib, martın 14-də müharibədən əvvəlki türk-rus sərhədinə çatmışdılar. Cənubi Qafqaz Komissarlığı da Osmanlı imperiyası ilə sülh müzakirələrinə başlamağa qərar vermişdi.

Komissarlığın 1918-ci il 14 (1) fevral tarixli toplantısında qəbul edilmiş qərarlarla bağlı fevralın 19-da (6-da) Osmanlı hökumətinə teleqramla məlumat verən E.Gegeçkori bildirirdi ki, Cənubi Qafqaz hökuməti Osmanlı imperiyası ilə sülh danışıqlarına başlamağa hazırdır və sülhün şərtləri fevralın 23-də (10-da) toplanacaq Seym tərəfindən hazırlanacaqdır.[265] Fevralın 23-də (10-da) Vehib paşa Cənubi Qafqaz hökumətinin sülh təklifinə müsbət cavab verdi.[266] Nəhayət, sülh danışıqlarının yeri ilə bağlı aparılan bir sıra məsləhətləşmələrdən sonra Osmanlı imperiyası ilə Cənubi Qafqaz Seymi arasında sülh konfransının Trabzonda keçirilməsi qərara alındı.[267]

Onu da qeyd edək ki, Cənubi Qafqaz hökumətinin Osmanlı hökuməti qarşısında sülh təklifi ilə çıxış etməsi heç də Türkiyə rəsmi dairələri tərəfindən birmənalı qarşılanmadı. Vehib paşa E.Gegeçkorinin sülh təklifi ilə bağlı teleqramını alan kimi onu İstanbula göndərdi. Xarici işlər naziri Əhməd Nəsimi bəy Osmanlı

---

[265] ATASE, BDH. K. 2921, D. 510, F. 1-39; Документы и материалы по внешней политике Закавказья и Грузии, с. 60.

[266] Документы и материалы по внешней политике Закавказья и Грузии, с. 62.

[267] ATASE, BDH, K. 2921, D, 510, F, 1-2; Документы и материалы по внешней политике Закавказья и Грузии, с. 66.

Parlamentinin 23 fevral 1918-ci il tarixli toplantısında Cənubi Qafqazdan gələn sülh təklifi haqqında məlumat verdi və bildirdi ki, "bu müraciəti təbii kamal-i əhəmiyyətlə nəzər-i diqqətə aldıq və dərhal lazımi təşəbbüsatın icrasından da geri qalmadıq..."[268]

Ə.Nəsimi bəyin çıxışından sonra söz alan Ə.Ağaoğlu E.Gegeçkoridən gələn sülh təklifinə aşağıdakı məzmunda münasibət bildirdi: "Xariciyə naziri bəyəfəndi buyurur ki, Qafqaz hökuməti adına Qafqazdan bir təklif gəlmiş və o təklifin altındakı imza Gegeçkorinin adını daşıyır. Mən belə zənn edirəm ki, Qafqaz adı ilə təşəkkül edəcək və o adla təkliflə çıxış edəcək bir hökumətin başında Gegeçkori və bu adlarda başqa bir adam ola bilməz. Bu təklifi edəcək adam ya Mehmed olar, ya Ömər və ya Əli...

Çünki bu gün orada olan on bir milyon əhalinin yeddi milyonu müsəlmandır. Bu həqiqət nəzər-i diqqətə alındığı təqdirdə, əlbəttə orada təşəkkül edəcək olan heyət-i hökumətin başında olacaq şəxsin adı ya Ömər, ya Mehmed və ya Əli olması lazımdır. Bu adın ətrafında başqaları da ola bilər, digərləri də bunlarla birləşə bilər. Fəqət, dediyim kimi, o mürəkkəb heyətin başında yalnız o adlar olmaq şərti ilə varid olacaq təklif, əlbəttə təklif-i həqiqidir. O təklifi hökumətimiz alar, tədqiq edər, araşdırar və ona lazım olan cavabı verər...

Zənn edirəm ki, orada təşəkkül edəcək hökumət müzakirələr aparmaq üçün Osmanlı hökumətini Tiflisə deyil, Bakıya və yaxud Gəncəyə dəvət edə bilər. Çünki Tiflis heç zaman orada təşəkkül edəcək və bütün Qafqazı təmsil edəcək bir dövlətin mərkəzi ola bilməz. Orada təşəkkül edəcək və bütün Qafqazı təmsil edəcək bir dövlətin mərkəzi ya Bakı və yaxud Gəncə ola bilər. Başqa cür ola bilməz. Amma Qafqazın bir qismini təmsil edəcək hökumətin mərkəzi Tiflis ola bilər. Lakin Qafqaz mənasını, Qafqaz məfhumunu ifadə edəcək bir hökumətin mərkəzi isə nə Tiflis, nə də başqa bir yer ola bilər. Bunu xüsusilə bildirirəm ki, ya Bakı və yaxud Gəncə ola bilər. Dolayısıyla hökumətimizdən xahiş edirəm ki, Brest-Litovskda düşdüyü tələyə Tiflisdə də düşməsin..."[269]

---

268 Sabah, 26 Şubat 1334, no. 10158; Ati, 24 Şubat 1334, no. 55.
269 Tanin, 25 Şubat 1334, no. 2308; Tasvir-i Efkar, 24 Şubat 1334, no. 2375.

Ə.Ağaoğlu və onun kimi düşünən digər millət vəkilləri Qafqaz əhalisinin böyük bir hissəsinin müsəlman olmasına və Tiflis hökumətinin bütün Qafqazı təmsil edə bilməyəcəyinə diqqəti çəkərək, qeyd edirdilər ki, sülh təklifinə cavab verilmədən bu təklifin kim tərəfindən və kimləri təmsilən edildiyi öyrənilməlidir. Bu qrupun mövqeyinə görə, "madam ki, Cənubi Qafqazda sakin olan əhalinin əksəriyyətini müsəlmanlar təşkil edir, o halda bu əksəriyyəti təmsil edəcək hökumətin adı kimi rəisi də müsəlman olmalı və ancaq belə bir hökumətdən gələn sülh təklifi tədqiq və müzakirə edilməlidir".[270] Bu qrup Osmanlı imperiyası ilə Rusiya arasında Qafqazda yaranan bufer dövlətin ya müsəlman dövləti və ya ayrı-ayrı müsəlman və gürcü dövlətləri olması ideyasını müdafiə edirdi, gürcü və ermənilərin üstünlük təşkil etdikləri Cənubi Qafqaz hökumətini əsla qəbul etmirdi.

Baş komandan vəkili və hərbi nazir Ənvər paşanın bu aralarda Vehib paşaya göndərdiyi teleqramlar Osmanlı hökumətinin Tiflisdən gələn sülh təklifinə münasibətdə tutduğu mövqeyi açıq-aydın göstərir. Ənvər paşa Vehib paşaya göndərdiyi 21 fevral 1918-ci il tarixli teleqramında yazırdı: "İstədiyimiz şərait dairəsində Qafqaz hökuməti ilə sülh bağlanması mümkün olarsa, təbii ən asan və ən çevik bir şəkildə bizi məqsədə çatdırar. Bununla bərabər Qafqaz hökumətini görmədən, hüdudunu və şəkli-nüfuzunu tanımadan, xüsusilə də Qafqaz müsəlmanları ilə görüşmədən gələcək bir neçə rus nümayəndəsi ilə ciddiyyəti məchul müzakirələrə başlamaq bizə vaxt itirməkdən başqa bir nəticə verməz. Bununla yanaşı, rusların təklifini rədd etməmiş olmaq üçün Cənubi Qafqaz hökumətinə sülh imzalanmasının Osmanlı hökuməti tərəfindən də arzu edilən olduğunu, bu məqsədlə Tiflisə bir nümayəndə heyəti göndəriləcəyini və bu heyətə həm Qafqaz hökumətini tanımaq, həm də sülh müzakirələrinə əsas olacaq məsələləri müzakirə etmək vəzifəsinin veriləcəyini və sülh təşəbbüsləri bu şəkildə Tiflisdə qısa zaman kəsiyində görüşüldükdən, sülh müzakirələri üçün zəmin hazırlandıqdan sonra əsl nümayəndələrimizi yekun müzaki-

[270] Tanin, 25 Şubat 1334, no. 2308; Sabah, 26 Şubat 1334, no. 10158.

rəyə tam səlahiyyətlə ezam edəcəyimizi təbliğ buyurunuz..."[271] Ənvər paşanın Tiflisə bir heyət göndərməkdə məqsədi "Cənubi Qafqaz hökuməti və bu hökumətdə müsəlmanların yeri haqqında yerindəcə ətraflı məlumat toplamaq və sonra sülh müzakirələrinə başlamaq" idi. Lakin Tiflis hökuməti bunu uyğun görmədi.

Osmanlı sədrəzəmi Tələt paşa isə Cənubi Qafqaz hökuməti ilə sülh danışıqlarına başlamağa tələsməməyi və Brest-Litovsk danışıqlarının nəticələrini gözləməyi lazım bilirdi. Bütövlükdə Osmanlı hökuməti Cənubi Qafqaz ilə sülh müzakirələrinə başlamağa tələsmir, Brest danışıqlarının nəticələrini gözləyir və bu dövrdə türk ordularının Qafqaz istiqamətində daha çox irəliləməsi üçün zaman qazanmağa çalışırdı.

1918-ci il fevralın 23-də (10-da) toplanıb bölgənin müqəddəratını öz əlinə alan Cənubi Qafqaz Seyminin qarşısında duran əsas vəzifə Osmanlı imperiyası ilə sülh müqaviləsinin bağlanması idi. Seymin martın 1-də (fevralın 16-da) keçirilən iclasında bir sıra müzakirələrdən sonra Osmanlı imperiyası ilə sülh müqaviləsinin aşağıdakı təkliflər əsasında bağlanmasına dair qərar qəbul olundu:

"1. Seym sülh bağlamaq üçün səlahiyyətlidir;

2. Türkiyə ilə sülh müqaviləsinin bağlanmasını Seym özünün əsas vəzifəsi hesab edir;

3. Türkiyə ilə sülh müqaviləsi 1914-cü il sərhədlərinə əsaslanmalıdır;

4. Cənubi Qafqaz nümayəndələri Şərqi Anadolunun təyini müqəddəratına və Osmanlı imperiyası daxilində Türkiyə Ermənistanına muxtariyyət verilməsinə çalışacaqlar".[272]

Seym sülh nümayəndə heyətinin Trabzona yola düşməsi ərəfəsində, 1918-ci il martın 2-də (fevralın 17-də) RSFSR xalq xarici işlər komissarının müavini, Brest-Litovskdakı sovet nümayəndə heyətinin katibi Lev Karaxandan alınan teleqram mürəkkəb bir vəziyyət yaratdı. Teleqramda deyilirdi: "...Biz hələlik müzakirədə olan müqaviləni imzalamaq qərarına gəldik. 21 fevral ultimatumu-

---

[271] ATASE. BDH. K. 2909, D. 452, F. 2-72.

[272] Документы и материалы по внешней политике Закавказья и Грузии, с. 83-84.

nun ən ağır şərti Ərdəhan, Qars və Batumun təyini müqəddəratı adı altında Rusiyadan ayrılmasıdır".[273] Səhəri gün (3 mart 1918) Sovet Rusiyası Brest-Litovsk sülhünü imzaladı və bununla da Rusiya Qars, Ərdəhan və Batum vilayətlərinin (bölgədə keçiriləcək referendumun nəticələrinə uyğun olaraq) Türkiyəyə keçdiyini təsdiq etdi.

Cənubi Qafqaz Seymi L.Karaxandan teleqram aldıqdan dərhal sonra başda Petroqrad olmaqla London, Paris, Vaşinqton, Roma, Tokio, İstanbul, Berlin, Vyana və Kiyevə teleqramlar göndərərək, Cənubi Qafqaz və onun sərhədləri barəsində ondan xəbərsiz və onun iştirakı olmadan imzalanmış Brest-Litovsk sülh müqaviləsini tanımadığını bildirdi. Halbuki, Osmanlı hökuməti 1918-ci il yanvarın 16-da Cənubi Qafqaz hökumətini Brest-Litovsk danışıqlarına dəvət etmişdi[274], amma bu hökumət özünün Rusiyanın tərkib hissəsi olduğunu bildirərək Brest danışıqlarında iştirak etməkdən imtina etmişdi. İndi isə, Cənubi Qafqaz hökuməti nəyin bahasına olursa olsun, Qars, Ərdəhan və Batumun Türkiyəyə keçməsinə mane olmaq istəyirdi. Osmanlı hökuməti də Brest-Litovskda əldə etdiyi uğurları Seymə güzəştə getmək fikrində deyildi. 1918-ci il martın 10-da (fevralın 25-də) Vehib paşa Qafqazdakı rus ordusunun baş komandanı general Lebedinskiyə radioteleqram göndərərək, Rusiya ilə imzalanmış Brest-Litovsk müqaviləsinin şərtlərinə görə Qars, Ərdəhan və Batum vilayətlərinin boşaldılmasını tələb etdi.[275]

Belə bir vəziyyətdə 1918-ci il 14 (1) mart tarixində Osmanlı imperiyası ilə Cənubi Qafqaz Seymi arasında Trabzon konfransı öz işinə başladı.[276] Konfransın ümumilikdə 6 rəsmi iclası və 2 xüsusi müzakirəsi oldu.[277]

---

[273] Документы и материалы по внешней политике Закавказья и Грузии, с. 85.

[274] ATASE. BDH. K. 2906. D. 438. F. 7-2; Документы и материалы по внешней политике Закавказья и Грузии, с. 52.

[275] Документы и материалы по внешней политике Закавказья и Грузии, с. 86.

[276] ATASE, BDH, K, 2921, D, 511, F, 1-113,

[277] ARDA. f. 970, siy. 1. iş 1, v. 2.

Trabzon konfransında Akaki Çxenkelinin rəhbərlik etdiyi Cənubi Qafqaz nümayəndə heyətinə H.Abaşidze, M.H.Hacınski, İ.Heydərov, Q.Qvazava, R.Kaçaznuni, Q.Lasxişvili, M.Y.Mehdiyev, X.Xasməmmədov, A.Xatisov və Ə.Şeyxülislamov daxil idilər.[278] M.Ə.Rəsulzadə də bu heyətin tərkibində müşavir kimi konfransda iştirak edirdi.[279] Cənubi Qafqaz nümayəndə heyətinin sayı hərbi, maliyyə, ticarət və s. sahələrlə bağlı müşavirlər, tərcüməçilər və katiblərlə birlikdə 43-ə, xidmətçi və mühafizəçilərlə birlikdə isə 106-ya çatırdı.[280] Amma türklər "bu heyətin Osmanlı hökumətinin müsafiri olduğunu və türklərin bu heyəti qorumağa borclu olduğunu" bildirərək, 50 nəfərlik mühafizə bölüyünün tərksilah edilməsini tələb etdilər.[281] Nəticədə mühafizə bölüyü Türkiyə ərazisinə buraxılmadı, gəmidə qaldı.

Hüseyn Rauf Orbayın rəhbərlik etdiyi 9 nəfərlik Osmanlı nümayəndə heyətinə isə Mehmed Nüsrət bəy, Rıza bəy, Tevfik Salim bəy, Hüsrev bəy və başqaları daxil idilər.[282]

Martın 13-də Osmanlı nümayəndə heyəti ilə Cənubi Qafqaz nümayəndə heyətinin müsəlman üzvləri və bu arada Trabzonda olan Dağıstan nümayəndələri arasında gizli görüş keçirildi. Bu görüşdə Azərbaycan və Dağıstan nümayəndələri bildirdilər ki, hansı firqəni təmsil etdiyindən asılı olmayaraq, Qafqaz müsəlmanları Osmanlı ordusunun Qafqaza daxil olmasını umurlar və gözləyirlər. Müsəlman nümayəndələri türk ordusunun Qafqaza girməsinin vacib olduğunu açıq-aydın bildirdilər və narahatlıqlarını ingilislərin erməniləri himayə edərək təşkilatlandırmaları və bolşeviklərin müsəlmanlar üçün yaratdığı təhlükələrlə əsaslandırdılar. M.Y.Mehdiyev bəyan etdi ki, sülh danışıqları ancaq indiki Qafqaz hökumətinin özünü rəsmən müstəqil bir hökumət olaraq elan et-

[278] ARDA, f. 970, siy. 1, iş 3, v. 1; ATASE, BDH, K. 2920, D, 506, F. 9-98; K. 2912, D. 468, F. 2-10; Документы и материалы по внешней политике Закавказья и Грузии, с. 107.

[279] ATASE, BDH, K. 2921, D. 511, F. 1-99.

[280] ATASE, BDH, K. 2914, D. 475, F. 5-1.

[281] Документы и материалы по внешней политике Закавказья и Грузии, с. 108.

[282] ATASE, BDH, K. 2914, D. 475, F. 4-9; K. 2918, D. 496, F. 1.

məsi ilə mümkündür. Hüseyn Rauf bəy bu görüşü bəyənsə də, müsəlman, gürcü və ermənilərdən ibarət mürəkkəb bir "Qafqaz Cümhuriyyəti"nin təşəkkül tapmasını və yaşamasını mümkün hesab etmirdi.[283] Müsəlman nümayəndələr Rauf Orbaya, həmçinin onu da bildirdilər ki, Cənubi Qafqaz hökuməti ruslardan yardım ala bilmək ümidi ilə onları özünə qarşı qoymamaq üçün öz istiqlaliyyətini elan etmək istəmir.[284] Bundan başqa konfrans boyu Osmanlı nümayəndələri Seymin müsəlman nümayəndələri ilə bir neçə dəfə gizli görüş keçirib, Cənubi Qafqaz nümayəndə heyətinin məqsəd və məramı, həmçinin Qafqazda gedən siyasi proseslər haqqında ətraflı məlumatlar ala bildilər.

Trabzon konfransının elə ilk iclasında Osmanlı nümayəndələri Seym nümayəndələrinə Qafqazda yaranan yeni respublikanın idarəçilik forması, siyasi və inzibati quruluşu barədə sorğu ilə müraciət etdilər. Türklər öyrənmək istəyirdilər ki, Cənubi Qafqaz nümayəndə heyəti müstəqil bir dövləti, yoxsa Rusiyanın bir hissəsini təmsil edir.[285] Cənubi Qafqaz nümayəndələri türkləri inandırmağa çalışırdılar ki, Cənubi Qafqaz "demək olar ki" müstəqil dövlətdir.[286]

Konfransda Cənubi Qafqaz nümayəndə heyəti Brest-Litovsk müqaviləsinin Qafqaza aid maddələrinə etiraz etdi. Lakin türklər bu etirazı rədd edib bildirdilər ki, Cənubi Qafqazın Brest sülhündə marağı və mənafeyi olduğu üçün beynəlxalq hüquq normalarına cavab verən prinsiplər əsasında təşkil olunmalı və digər dövlətlər tərəfindən tanınması üçün tədbirlər görməli idi. Ona görə də Cənubi Qafqaz hökuməti indi tanınsa belə, əvvəlki beynəlxalq hüquqi prinsiplərə etiraz edə bilməz. Halbuki, həmin hökumət yanvarın 23-də Vehib paşaya vurduğu teleqramda özünün Rusiyanın tərkib hissəsi olduğunu bildirmiş və Brest sülhündə iştirak etməkdən imtina etmişdi. Türk nümayəndələrinin fikrincə, əgər doğrudan da Cənubi Qafqaz hökuməti beynəlxalq hüququn subyekti olmaq is-

[283] Kurat A.N. Türkiye ve Rusya, s. 468-469.
[284] Yenə orada, s. 469.
[285] ARDA, f. 970, siy. 1, iş 1, v. 2-3.
[286] Kazemzadeh F. The Struggle for Transcaucasia. p. 96.

təyirsə, onda tezliklə Rusiyadan ayrılmalı və öz müstəqilliyini elan etməlidir. Belə olan təqdirdə Türkiyə onunla mehriban qonşuluq münasibətlərinə girməyə hazırdır.[287]

Cənubi Qafqaz nümayəndə heyəti Brest sülhünün şərtlərini tanımaqdan imtina etməklə bərabər, Seymin 1 mart (16 fevral) tarixində qəbul etdiyi 4 bənddən ibarət tələbini türk nümayəndələrinə təqdim etdi. Türk heyəti bu tələbləri (xüsusilə də "Şərqi Anadolunun öz müqəddəratını təyin etməsi"ni) Osmanlı imperiyasının daxili işlərinə müdaxilə kimi qiymətləndirib rədd etdi və bildirdi ki, Cənubi Qafqaz hökumətinin Osmanlı hökuməti tərəfindən qəti və rəsmi şəkildə tanınması bağlanacaq müqavilədəki xüsusi vəziyyətin köməyi ilə mümkün ola bilər və bu sonuncu barədə danışıqlar yalnız Qars, Ərdəhan və Batum vilayətlərinə ola biləcək hər hansı iddiadan imtina edildikdən sonra başlana bilər.[288] Brest sülhünü qəbul edib, Qars, Ərdəhan və Batum vilayətlərinin Türkiyəyə keçdiyini təsdiq etməklə bağlı Trabzondakı Cənubi Qafqaz nümayəndələri arasında, həmçinin Seymdəki fraksiyalar arasında birlik yox idi. Erməni və gürcülər Türkiyənin tələblərini rədd edib, onunla müharibə aparmağa çalışırdılarsa, Azərbaycan fraksiyası qarşılıqlı güzəştlər əsasında Osmanlı imperiyası ilə razılığa gəlməyi təklif edirdi. Ərazi məsələlərinin müzakirəsi son anda ona gətirib çıxartdı ki, gürcülər Batumu əldə saxlamaqla Qars və Ərdəhanın güzəştə gedilməsinə razı idilərsə, ermənilər Batum və Acariyanın güzəştə gedilməsinə tərəfdar olub, Qarsın Türkiyəyə verilməsinə razı deyildilər. Azərbaycan fraksiyası isə bu fikirdə idi ki, Qars və Ərdəhanın əhalisinin əksəriyyəti türklər olduğu üçün Brest-Litovsk müqaviləsinin bu iki vilayət haqqındakı maddələri yerinə yetirilməlidir. Onların fikrincə, Acariya Cənubi Qafqazın tərkibində ayrıca müsəlman respublikasına çevrilməlidir, əgər bu mümkün olmazsa, onda o, Türkiyəyə birləşdirilməlidir. Batum isə xaricə mühüm çıxış yolu kimi Cənubi Qafqazın tərkibində qalmalıdır.[289] Cənubi Qafqaz nümayəndə heyətinin tərkibində Trabzon-

[287] ARDA, f. 970, siy. 1, iş 3, v. 6.
[288] ARDA, f. 970, siy. 1, iş 3, v. 7.
[289] BOA. HR.SYS. no. 2371/6. v. 6.

da olan azərbaycanlı nümayəndələrdən M.Ə.Rəsulzadə, X.Xasməmmədov, M.H.Hacınski və Ə.Pepinov aprelin 8-də Batum məsələsi ilə bağlı Osmanlı heyətinə ayrıca bir memorandum təqdim etdilər. Doqquz maddədən ibarət olan bu memorandumda "müsəlmanların əbədi düşməni və daimi rus dostu olan ermənilərin" Qafqazın istiqlalı üçün törətdiyi maneçilik, müsəlmanların təşkilat və hərbi təchizat cəhətdən bölgədə ən zəif durumda olmaları, bolşeviklərin Bakıdakı hərəkətləri, bolşeviklərdən müdafiə olunmaq üçün gürcülərin müsəlmanlara göstərdikləri yardım önə çəkilərək, Osmanlı imperiyasının Qafqazda rus və erməni düşmənlərinə gürcüləri də əlavə etməməsi və türklərə qarşı erməni-gürcü ittifaqının yaranmasına yol verilməməsi üçün Batumun gürcülərə güzəştə gedilməsi istənilirdi.[290]

Trabzon konfransındakı Osmanlı heyətinin rəhbəri Hüseyn Rauf Orbay və 3-cü ordu komandanı Mehmed Vehib paşa Türkiyənin Qafqaz istiqamətində hərəkəti qarşısında gürcü-erməni ittifaqının yaranmasına yol verməmək üçün yeganə çarənin Batumun gürcülərə güzəştə gedilməsi olduğu qənaətinə gəlsələr də[291], Ənvər paşa qətiyyətlə bunun əleyhinə çıxırdı və Batumda gürcülərə müəyyən iqtisadi güzəştlər verməyi düşünürdü.[292] Ənvər paşa 1918-ci il aprelin 10-da Vehib paşaya göndərdiyi şifrəli teleqramında yazırdı: "Zati-alilərinə əvvəlcə də təbliğ etdiyim kimi, niyyətimiz Qərbi Qafqazda müsəlman olan qismin (ki, bu da həmən 93 hüdudu daxilidir) birbaşa bizə birləşdirilməsi və digər qisimdə hər millət müstəqil olmaq və bir konfederasiya şəklində aralarında birləşmək üzrə bir qüvvətli Qafqaz cümhuriyyəti yaratmaqdır. Bu xüsusda gürcülərlə müsəlmanların birgə hərəkətlərini istəyirik və hər vəchlə onlara yardım edərik. Gürcülər Batum məsələsində onlara iqtisadi güzəştlər edə biləcəyimizi və başqa bir şey etmək iqtidarında olmadığımızı bilməlidirlər. Bunun xaricində hər surətdə müsəlmanlar qədər onlara da yardım edərik və istəyərlərsə, dünən

---

[290] BOA, HR.SYS, no. 2371/6, v. 19-20; ATASE, BDH, K. 2921, D. 511, F. 1-204:1-206.
[291] ATASE, BDH, K. 2921, D. 511, F. 1-194, 1-195.
[292] ATASE. BDH. K. 2921, D. 511, F. 1-209.

yazdığım kimi, bir ittifaq müqaviləsi də bağlaya bilərik. Bu sözü tam əminliklə dinləyə bilərlər. Ermənilər məsələsində gürcülərlə birgə hərəkət etmək istəyirik. Əgər onlar erməniləri öz hüdudlarında müstəqil görmək istəyərlərsə, bunu da qəbul edərik. Təbii hüdud və sair məsələlər sonda həll olunar. Bu yolda onlara münasib təminat verilməsini müvafiq görürəm".[293] Buradan da göründüyü kimi, Brest sülhünün tətbiqi üzərində israrla duran Ənvər paşa bu dövrdə Qafqazda konfederasiya yaradılmasını uyğun görürdü, həmçinin gürcü-erməni ittifaqına yol verməmək üçün gürcülərə müsəlmanlarla eyni həcmdə yardım vəd edirdi.

Trabzon konfransında danışıqların uzanmasına baxmayaraq, türk tərəfi Brest-Litovsk sülhü əsasında sülh bağlamağa israr edir, Seym nümayəndələri isə inadla buna qarşı çıxıb Brest müqaviləsinin qanuniliyini qəbul etməkdən imtina edirdilər. Belə olduqda Osmanlı hökuməti Trabzondakı nümayəndələrinə danışıqları dayandırmaq barədə göstəriş verdi.[294] Buna görə də Osmanlı nümayəndələri aprelin 6-da (martın 24-də) Cənubi Qafqaz nümayəndələrinə ultimatum verib, Brest-Litovsk sülh müqaviləsini tanıyıb-tanımamaq barəsində 48 saat ərzində cavab verilməsini tələb etdilər. Eyni zamanda, ultimatumda göstərilirdi ki, əgər Cənubi Qafqaz hökuməti Türkiyə ilə müqavilə münasibətlərinə girmək istəyirsə, öz müstəqilliyini elan etməlidir, yalnız bundan sonra diplomatik danışıqlar başlana bilər. Aprelin 7-də A.Çxenkeli alınmış ultimatum barədə Tiflisə məlumat verdi. Ölkədə anarxiyanın hökm sürdüyünə və cəbhənin dağılmasına istinad edərək, o, Batum istisna olmaqla, Brest müqaviləsinin tanınmasına və təcili surətdə müstəqilliyin elan edilməsinə çağırırdı.[295]

Ultimatumda verilən müddət başa çatdıqda A.Çxenkeli Rauf bəylə görüşüb Brest müqaviləsini tanımaq üçün öz hökumətindən icazə istədiyini, cavabın hələ gəlmədiyini, amma özünün fikrinin bu istiqamətdə olduğunu bildirdi. Ona görə də ultimatumun vaxtı

[293] ATASE, BDH, K. 2921, D. 511, F. 1-209.
[294] ATASE. BDH. K. 2918, D. 496, F. 1-54.
[295] Документы и материалы по внешней политике Закавказья и Грузии, c. 155-157.

aprelin 10-na qədər uzadıldı.[296] Bu vaxt başa çatdıqda, aprelin 10-da A.Çxenkeli artıq Tiflisdən cavab gözləmədən Osmanlı nümayəndələrinə aşağıdakı məzmunda cavab verdi: "Cənubi Qafqaz nümayəndəliyi Osmanlı nümayəndə heyətinin 6 aprel 1918-ci il tarixli məktubuna cavab olaraq bildirir ki, o, Brest-Litovsk müqaviləsini qəbul edir və sonrakı danışıqları onun əsasında davam etdirməyə hazırdır".[297] A.Çxenkeli türk ultimatumunu qəbul etsə də, Seymdə ultimatumla bağlı müzakirələr çox ciddi bir şəkil aldı və nəticədə müsəlman fraksiyasına daxil olan müsavatçılar, demokratik bitərəf qrup və ittihadçıların kəskin müqavimətinə baxmayaraq, Seym 1918-ci il 13 aprel tarixli iclasında Osmanlı imperiyası ilə müharibə etmək haqqında qərar qəbul etdi.[298] Ölkədə hərbi vəziyyət elan edildi, Seymin fəaliyyəti iki həftəlik donduruldu. E.Gegeçkori, N.Ramişvili və X.Karçikyandan ibarət Ali Müdafiə Şurası yaradıldı. Azərbaycanlılar Türkiyə ilə müharibənin əleyhinə olduqları üçün onlar bu Şuraya daxil edilmədilər. Aprelin 14-də Trabzondakı heyət geri çağırıldı.[299] Lakin bu tədbirlər türk qoşunlarının irəliləməsinin qarşısını ala bilmədi, səkkiz günlük müharibədən sonra Seym türklərin sülh təklifini qəbul etməyə məcbur oldu.

Onu da qeyd edək ki, türk hərbi komandanlığı Seymin müharibə haqqında qərar qəbul etməsindən bir qədər əvvəl hərbi əməliyyatları bərpa etmişdi. Trabzon danışıqlarında bir nəticə əldə edilmədikdə türk komandanlığı 25 mart 1918-ci il tarixində ermənilərin müsəlmanlara qarşı törətdikləri vəhşiliklərin qarşısını almaq adı altında yenidən hərbi əməliyyatlara başlamışdı. Artıq 1914-cü il türk-rus sərhədini keçən türk orduları martın 25-də Ol-

[296] Документы и материалы по внешней политике Закавказья и Грузии. с. 112.
[297] Yenə orada, s. 160.
[298] ARDA, f. 970, siy. 1, iş 1, v. 6-7; Документы и материалы по внешней политике Закавказья и Грузии, с. 82-83. 163-184.
[299] Документы и материалы по внешней политике Закавказья и Грузии, с. 84. 184.

tunu[300], üç gün sonra Artvini[301], aprelin 3-də Ərdəhanı[302], iki gün sonra Sarıqamışı[303], aprelin 15-də Batumu[304], aprelin 25-də isə Qarsı[305] ələ keçirib bir neçə gündən sonra 1877-1878-ci illər müharibəsinə qədərki Osmanlı-Rusiya sərhədinə çatdılar. Bununla da, 1918-ci il aprel ayının sonlarında Osmanlı imperiyası Qars, Ərdəhan və Batumu müharibə yolu ilə ələ keçirmiş oldu.

Hələ Batum türklər tərəfindən tutulmamış, 1918-ci il aprelin 12-də RSFSR Xalq Xarici İşlər Komissarlığı Georgi Çiçerin və Lev Karaxanın imzaladığı bir nota ilə Almaniyaya müraciət edib ondan Qafqaz cəbhəsində hücumu dayandırmaqda Türkiyəyə təsir göstərməyi tələb edirdi. Notada deyilirdi: "Türk cəbhəsində üstünlük Rusiyanın tərəfində idi. Rusiya Ərdəhan, Qars və Batumu ona görə güzəştə getdi ki, Türkiyə Almaniyanın müttəfiqi idi".[306] Sovet hökuməti nəyin bahasına olursa olsun Rusiyanı 1914-cü il sərhədləri çərçivəsində bərpa etməyi xarici siyasətində əsas prinsip olaraq qəbul etmişdi. Qeyd edək ki, Osmanlı imperiyası bu zaman hələ Brest sülhü ilə ona verilmiş ərazilərin hərb yolu ilə əldə edilməsi üçün müharibə aparırdı və bu sülhün müəyyən etdiyi sərhədlərdən kənara çıxmamışdı.

Türk ordularının hücumları qarşısında tab gətirə bilməyən Cənubi Qafqaz Seymi Türkiyənin tələblərini qəbul etməyə məcbur oldu. Aprelin 22-də Türkiyə tərəfi sülh təşəbbüsü ilə çıxış etdi. Elə həmin gün Seymin iclasında Cənubi Qafqaz müstəqil Demokratik Federativ Respublika elan olundu. Həmçinin burada Türkiyə

---

[300] Çakmak F. Büyük Harpte Şark Cebhesi Hareketleri. Ankara: Genelkurmay Matbaası,1936, s. 268.
[301] Birinci Dünya Harbinde Türk Harbi. Kafkas Cebhesi. 3. Ordu Harekatı. C. II, s. 474-476.
[302] Yenə orada, s. 482.
[303] Yenə orada, s. 481.
[304] Tanin, 16 Nisan 1334, no. 3358; Tasvir-i Efkar, 17 Nisan 1334, no. 2427; Документы и материалы по внешней политике Закавказья и Грузии, с. 195-196.
[305] Tanin, 27 Nisan 1334, no. 3369; Çakmak F. Büyük Harpte Şark Cebhesi Hareketleri, s. 269.
[306] Документы внешней политики СССР. Т. 1, с. 240-241.

ilə sülh danışıqlarının davam etdirilməsi və tezliklə sülh müqaviləsinin bağlanması haqqında qərar qəbul edildi.[307] Yeni hökumətin yaradılması sülh tərəfdarı olan A.Çxenkeliyə tapşırıldı. Aprelin 23-də A.Çxenkeli Vehib paşaya məlumat verib bildirdi ki, öz müstəqilliyini elan etmiş Cənubi Qafqaz Respublikası Türkiyənin tələblərini qəbul edir və Brest-Litovsk sülhü əsasında danışıqları davam etdirməyə hazırdır. A.Çxenkeli həmçinin xahiş etdi ki, sülh danışıqları Batumda davam etdirilsin.[308] 1918-ci il aprelin 26-da Osmanlı hökuməti Cənubi Qafqaz Respublikasının müstəqilliyini tanıdı və sülh danışıqlarının Batumda keçirilməsinə razılıq verdi.[309]

Osmanlı imperiyası ilə Cənubi Qafqaz Respublikası arasında Batum konfransı 1918-ci il may ayının 11-də açıldı və fasilələrlə iyunun 4-nə qədər davam etdi. Konfransda 10 nəfərlik Osmanlı nümayəndə heyətinə ədliyyə naziri və xarici işlər naziri vəkili Xəlil bəy Menteşə rəhbərlik edirdi. Qafqaz cəbhəsinin komandanı Ferik Mehmed Vehib paşa da bu heyətdə təmsil olunan əsas simalardan biri idi.[310]

A.Çxenkelinin rəhbərlik etdiyi Cənubi Qafqaz nümayəndə heyətinə Seymdəki fraksiyalararası qarşılıqlı inamsızlıq səbəbindən 45 nəfər daxil idi. Lakin nümayəndəlik 6 həlledici üzvdən ibarət idi. Buraya gürcülərdən A.Çxenkeli və N.Nikoladze, azərbaycanlılardan M.Ə.Rəsulzadə və M.H.Hacınski, ermənilərdən R.Kaçaznuni və A.Xatisov daxil edilmişdi.[311]

Konfransda Rusiyadan ayrılmağa qərar vermiş Şimali Qafqaz dağlılarının nümayəndələri də Heydər Bammatovun rəhbərlik et-

---

[307] Документы и материалы по внешней политике Закавказья и Грузии. с. 222.

[308] Yenə orada, s. 224.

[309] Yenə orada, s. 253; Авалов З. Независимость Грузии в международной политике, с. 33.

[310] ATASE, BDH, K. 2917, D. 493, F. 1-34.

[311] Авалов З. Независимость Грузии в международной политике, с. 34.

diyi bir heyətlə iştirak edirdilər.[312] Dağlılar İttifaqının Batum konfransında iştirakına Türkiyə və Almaniya razılıq vermişdi. Sovet Rusiyası bu barədə Almaniyaya öz etirazını bildirsə də, bunun elə bir əhəmiyyəti olmadı.

Trabzon konfransından fərqli olaraq Batum konfransında Almaniya da müşahidəçi qismində iştirak edirdi. Almaniyanın İstanbuldakı hərbi attaşesi general Otto von Lossovun rəhbərlik etdiyi alman heyətinə Tiflisdəki keçmiş alman konsulu qraf Şulenburq və Yaxın Şərq üzrə mütəxəssis, diplomat von Vesendonk daxil idi.[313] Almaniya 1918-ci il mayın 2-də Moskvadakı səfiri qraf Mirbax vasitəsilə Batum konfransında iştirak edəcəyini sovet hökumətinə də bildirdi.[314] Qeyd etdiyimiz kimi, Almaniya Brest sülhünə qədər Qafqaz siyasətini birbaşa deyil, İstanbul vasitəsilə həyata keçirirdi. Alman hərbi komandanlığının müharibə üçün xammal ehtiyacları ilə bağlı digər cəbhələrdə qarşısına qoyduğu məqsədlər iflasa uğradıqda, almanlar Brest sülhündən sonra Qafqazın təbii sərvətləri və xüsusilə Bakı nefti ilə birbaşa maraqlanmağa başladılar. Bu dövrdə Türkiyə Qafqaz istiqamətində təkbaşına irəlilədikdə, alman siyasi dairələri türklərin bölgədəki uğurlarına qısqanclıqla yanaşır və buna mane olmağa çalışırdılar. Buna görə də Almaniya Qafqazda gedən proseslərdən kənarda qalmamaq, həmçinin bölgədə özünün mənafeyini təmin etmək məqsədilə Batum konfransına qatıldı.

Almanlar bu dövrdə Batuma sərbəst liman statusu verilməsini istəyirdilər. Bu istək gerçəkləşmədiyi təqdirdə Potiyə alman əsgərlərinin çıxarılması planlaşdırılmışdı.[315]

Osmanlı imperiyasının Qafqazda siyasi və hərbi cəhətdən fəallaşması nəticəsində meydana gələn yeni siyasi şəraitdən öz strateji məqsədləri üçün maksimum dərəcədə faydalanmağa çalı-

---

312 Şahin E. Trabzon ve Batum Konferanslarında Kuzey Kafkasya'nın Bağımsızlığı İle İlgili Gelişmeler // Atatürk Üniversitesi Türkiyat Araştırmaları Enstitüsü Dergisi. Erzurum, 1996, Sayı: 4, s. 82.

313 Bihl W. Die Kaukasus Politik der Mittelmächte. T. II, p. 48-49, 51.

314 Yenə orada, s. 49.

315 Yenə orada. s. 43-44. 157.

şan Berlin hökuməti mövcud vəziyyətdə Almaniyanın Qafqaz siyasətini müəyyən etmək üçün 1918-ci il aprelin 22-də alman siyasi və hərbi dairələrinin iştirakı ilə konfrans keçirtdi. Yeni siyasi şəraitdə Almaniyanın Qafqaz siyasətinin əsas prinsiplərini müəyyən edən bu konfransın qəbul etdiyi qərarlara görə, Osmanlı imperiyasına Brest-Litovsk müqaviləsinin müəyyən etdiyi sərhəd xəttini keçməyə imkan verilməməli, Cənubi Qafqazın müstəqilliyinin İttifaq dövlətləri, Rusiya və Ukrayna tərəfindən tanınmasına nail olunmalı, Cənubi Qafqaz tam olaraq Almaniyanın təsiri altına keçirilməli və bölgənin iqtisadi resurslarından maksimum dərəcədə istifadə edilməli idi.[316] Bu qərarlar çərçivəsində hərəkət edən Almaniya Xarici İşlər Nazirliyi 29 aprel 1918-ci il tarixində "Türkiyə ilə Cənubi Qafqaz arasında aparılan danışıqlarda əsas tutulacaq prinsiplər" adı altında yeddi maddədən ibarət bir "prinsiplər paketi" hazırladı. Bu "prinsiplər paketi"nə aşağıdakılar daxil idi:

1. Almaniya və Türkiyə Cənubi Qafqazın müstəqilliyinin Rusiya tərəfindən tanınmasına çalışacaqlar;

2. Cənubi Qafqaz Brest-Litovsk sülh müqaviləsini tanıyacaqdır və buna görə Qars və Ərdəhan vilayətləri ilə Batum vilayətinin Çoruh çayının cənubuna qədər və bu çayın yan qolu Acarşat tərəfdə olan bir qismi və İrəvan əyalətinin Araz çayının cənubundakı qərb hissəsi olan Sürməli Türkiyəyə veriləcəkdir. İranlıların (talışların) yaşadığı Kür və Araz çaylarının cənubunda olan Talış əyaləti İrana veriləcək. Bunun əvəzində İran müharibə təzminatı olaraq Maku və Qotur bölgələrini Türkiyəyə verəcək;

3. Cənubi Qafqaz ilə Türkiyə bir hərbi ittifaq müqaviləsi imzalayacaqlar və buna görə iki ölkədən biri hər hansı üçüncü bir ölkə tərəfindən hücuma məruz qaldıqda digər ölkə hərbi kömək göstərməyi öz öhdəsinə götürəcək;

4. Cənubi Qafqaz dəmir yolları və Batum limanı Almaniya, Cənubi Qafqaz və çox az miqdarda Türkiyə sərmayəsi ilə qurulacaq və dövlət nəzarətində olan bir qurum tərəfindən idarə ediləcək. Bu qurumda üstünlük almanlarda olacaq;

---

[316] Bihl W. Die Kaukasus Politik der Mittelmächte. T. II, p. 45.

5. Cənubi Qafqazın bütün yeraltı təbii sərvətləri dövlət inhisarına alınacaq və bu sərvətlərin istifadəsi Almaniya və Cənubi Qafqazın bərabər şəkildə təmsil olunacağı bir mədənçilik şirkətinə veriləcək;

6. Almaniya Cənubi Qafqazın hər yerində konsulluqlar açmaq hüququna malik olacaq. Bu konsulluqlar və Almaniyanın yaradacağı digər diplomatik nümayəndəliklər Cənubi Qafqazdakı alman koloniyalarının mənafeyini qorumaq haqqına sahib olacaqlar;

7. Türkiyə ona verilən yeni bölgələrdə Brest-Litovsk müqaviləsinin şərtlərinə uyğun olaraq, köçürülmüş ermənilərə geri dönmək və öz müqəddəratını təyin etmək hüququ verəcək və onlara bölgədəki digər xalqlarla birlikdə bir plebissit keçirmək imkanı yaradacaqdır.[317]

Göründüyü kimi, Almaniya bir tərəfdən Osmanlı imperiyasının Cənubi Qafqaza nüfuz etməsinin qarşısını almaq, digər tərəfdən də bölgənin təbii sərvətləri və dəmir yolları üzərində öz hegemonluğunu qurmaq istəyirdi. Bu prinsiplərin tam həyata keçirildiyi təqdirdə Cənubi Qafqazın müstəqilliyi formallıqdan o yana getməyəcək və bölgə Almaniyanın yarımmüstəmləkəsinə çevriləcəkdi. Onu da qeyd edək ki, burada Osmanlı imperiyası ona veriləcək Maku, Qotur ərazisi və Sürməli koridoru ilə Azərbaycanla birbaşa əlaqə yaratmaq imkanına malik olurdu.

1918-ci il aprelin 30-da Almaniya hökuməti 29 aprel tarixli "prinsiplər paketi"nə cüzi dəyişikliklər edərək onu "Bir tərəfdə Almaniya və Türkiyə, digər tərəfdə Cənubi Qafqaz olmaqla bağlanacaq müqavilənin layihəsi" adı altında ortaya çıxartdı. Bu layihəyə görə:

1. Almaniya və Türkiyə Rusiya ilə aparılan danışıqlarda Cənubi Qafqazın Rusiyadan ayrılmasını dəstəkləyəcək, ayrılmadan sonra isə bu iki ölkə Cənubi Qafqazı müstəqil bir dövlət olaraq tanıyacaqlar və bu dövlətin qurulmasında, onun təhlükəsizliyinin təmin edilməsində, qonşuları ilə sərhədlərinin müəyyən edilməsində ona köməklik göstərəcəklər. Əgər Şimali Qafqaz xalqları Cə-

---

[317] Bihl W. Die Kaukasus Politik der Mittelmächte. T. II, p. 46-47; Zürrer W. Kaukasien 1918-1921. p. 56.

nubi Qafqaza qatılmaq istəsələr, Almaniya və Osmanlı hökumətləri bunun gerçəkləşməsi üçün Rusiya nəzdində təşəbbüs göstərəcəklər;

2. Cənubi Qafqaz Respublikası Almaniya və Türkiyə ilə olan münasibətlərində Brest-Litovsk müqaviləsinin prinsiplərini əsas olaraq qəbul edəcəkdir;

3. Qars və Ərdəhan vilayətləri və Batum vilayətinin Çoruh-Acarşat çaylarından cənubdakı bölgələri Türkiyəyə, Araz və Kür çaylarının cənubundakı Talış əyaləti isə İrana veriləcəkdir. Cənubi Qafqazın şimal sərhədləri isə onun şimaldakı qonşuları ilə bağlayacağı müqavilələrlə təsbit ediləcəkdir;

4. Türkiyə ilə Cənubi Qafqaz Respublikası arasında daimi bir hərbi ittifaq andlaşması imzalanacaq ki, buna görə, tərəflərdən biri üçüncü bir dövlət tərəfindən hücuma məruz qaldığı təqdirdə, digəri bütün hərbi gücü ilə bu hücuma qarşı mübarizə aparacaqdır;

5. Cənubi Qafqazın dəmir yolları rəsmi bir Cənubi Qafqaz komissiyasının sərəncamına veriləcək. 7 nəfərdən ibarət olacaq bu komissiyanın üzvlərinin 4-ü alman, 2-si Cənubi Qafqazlı, 1-i türk olacaq. Batum limanının (Layihəyə görə, Batum limanı Cənubi Qafqaz Respublikasında qalırdı) idarəçilik hüququ da bu komissiyaya veriləcəkdir;

6. Cənubi Qafqazın bütün yeraltı sərvətləri dövlət inhisarına alınacaq və bu sərvətlərdən istifadə hüququ Almaniya və Cənubi Qafqaz tərəfindən bərabər şəkildə təşkil olunacaq bir komissiyaya veriləcək. Bu təbii sərvətlərin daşınması və ixracı isə gömrük və ya digər hər hansı bir maneə ilə məhdudlaşdırılmayacaqdır;

7. Almaniya Cənubi Qafqazın istənilən yerində konsulluqlar açmaq hüququna malik olacaq. Konsullar və alman diplomatları hökumət mərkəzində təmsilçilik hüququna sahib olacaq, alman kolonistlərinin, hətta bu kolonistlər Cənubi Qafqaz dövlətinin vətəndaşları olsalar belə, onların mənafelərini qoruyacaqlar.[318]

[318] Bihl W. Die Kaukasus Politik der Mittelmächte. T. II, p. 48.

Bu layihə dərhal İstanbuldakı alman səfiri Bernstorf vasitəsilə Batum konfransında Almaniyanı təmsil edəcək Lossovun rəhbərlik etdiyi heyətə göndərildi.[319]

Hələ bir qədər əvvəl, 1918-ci ilin fevralında türk orduları Qafqaz istiqamətində fəal hərbi əməliyyatları bərpa etdikdə və bölgəyə doğru irəlilədikdə bu, alman hərbi komandanlığı tərəfindən müsbət qarşılanmışdı. Almaniyanın baş qərargah rəisinin müavini general E.Lüdendorf martın 13-də Lossova göndərdiyi teleqramında "türklərin Azərbaycanı ələ keçirmələrini və bununla da Xəzər dənizinə qədər uzanan torpaqları öz nəzarəti altına almalarını" dəstəklədiyini və buna önəm verdiyini bildirirdi.[320] Ancaq 1918-ci ilin aprel ayında Osmanlı imperiyası uğurlu hərbi əməliyyatları ilə artıq Kutais istiqamətində irəlilədikdə və Qars-Tiflis-Batum dəmir yolunu istədikdə, bu zaman general Lüdendorf Osmanlı Ordusunun baş qərargah rəisi general von Sektdən türk irəli hərəkatını dayandırmağı və Türkiyəni Cənubi Qafqaz hökuməti ilə danışıqlar stolu arxasına oturtmağı tələb edirdi.[321] Almanlar artıq qəti olaraq Qafqazın təbii sərvətlərindən maksimum dərəcədə faydalanmaq qərarına gəlmişdilər və bunun üçün Batumun və Gürcüstanın alman nəzarətində qalmasına çalışırdılar. Bu səbəbdən Almaniya 24 aprel 1918-ci il tarixində Batum və Gürcüstanın alman nüfuz dairəsi kimi tanındığı təqdirdə, ermənilərin əlində olan bəzi ərazilərin Osmanlı imperiyasına verilməsini və Ermənistan ilə Azərbaycanın türk nüfuz dairəsi kimi tanınmasını, bunun qarşılığında isə bu yerlərdə Almaniyaya iqtisadi imtiyazlar verilməsini İstanbul hökumətinə təklif edirdi.[322*] Lakin türklər Batum

---

[319] Bihl W. Die Kaukasus Politik der Mittelmächte. T. II, p. 45.

[320] Yılmaz V. I nci Dünya Harbi'nde Türk-Alman İttifakı ve Askeri Yardımlar, s. 216.

[321] Zürrer W. Kaukasien 1918-1921. p. 51.

[322] Yenə orada. s. 52-53; Bihl W. Die Kaukasus Politik der Mittelmächte. T. II. p. 47.

[*] A.Balayev və R.Hətəmov Q.V.Pipiyanın əsərinə (Пипия Г.В. Германский империализм в Закавказье в 1910-1918 гг. Москва: Наука, 1978, с. 101) istinad edərək, 1918-ci il aprelin 27-də İstanbulda Almaniya və Osmanlı dövlətləri arasında Zaqafqaziyanın nüfuz dairələrinə bölünməsi haqqında müqavilənin

məsələsində israrlı idilər. Digər tərəfdən Almaniya 29 aprel tarixli "prinsiplər paketi" və 30 aprel tarixli "Cənubi Qafqaz ilə imzalanacaq müqavilənin layihəsi"ni ortaya atmaqla Cənubi Qafqazın nüfuz dairələrinə bölünməsi ilə bağlı Osmanlı hökumətinə etdiyi təklifin önünə sədd çəkmiş olurdu. Amma bir qədər sonra Osmanlı hökuməti Almaniyanın hazırladığı müqavilə layihəsini rədd etdikdə və özü tam əks bir layihə ilə çıxış etdikdə, bu zaman Almaniya hərbi komandanlığı türk layihəsinin əksinə olaraq yenidən Cənubi Qafqazın nüfuz dairələrinə bölünməsi məsələsini ortaya atdı. Lakin türklər güzəştə getmədilər. Osmanlı hökumətinin Qafqaz məsələsində Almaniyaya güzəştə getməməsi və öz mövqeyində israrla durması iki müttəfiq arasında Qafqazla bağlı yaranan fikir ayrılıqlarının ziddiyyətlərə çevrilməsinə və bu ziddiyyətlərin durmadan dərinləşməsinə gətirib çıxartdı. Əslində Osmanlı hökuməti öz mövqeyində haqlı idi. Lakin almanlar Türkiyənin Qafqazdakı uğurlarına qısqanclıqla yanaşır və bölgəni öz nəzarətinə keçirmək istəyirdilər. Bu da öz növbəsində türklərin mövqeyini daha da sərtləşdirirdi.

Onu da qeyd edək ki, Qafqazla bağlı türk-alman ziddiyyətləri artdıqca Almaniya hərbi komandanlığı diplomatların əksinə olaraq İngiltərəyə qarşı Türkiyə ilə birlikdə mübarizə aparmaq üçün İstanbul hökumətinin Qafqazla bağlı istəklərinin müəyyən hissəsini qəbul edib Cənubi Qafqaz ilə sülhü tezləşdirmək istəyirdi.[323] Almaniyanın irəli sürdüyü Cənubi Qafqaz ilə bağlanacaq sülhə dair müqavilə layihəsi türklərin bərk narazılığına səbəb olmuşdu, çünki bu layihə Osmanlı imperiyasının Qafqazdakı mənafelərinin tapdalanmasına və bölgənin Almaniyanın yarımmüstəmləkəsinə çev-

imzalanmasından bəhs edirlər (Балаев А. Азербайджанское национальное движение в 1917-1918. Баку: Элм, 1998, с. 194; Həşimov R. Almaniyanın Şərq siyasətində yeni meyllər və Qafqaz uğrunda mübarizə (1917-ci ilin sonu – 1918-ci ilin mayı). II məqalə // Tarix və onun problemləri. 1999, № 1. s. 128). Çoxsaylı arxiv materiallarına əsaslanaraq qeyd edə bilərik ki, belə bir müqavilə imzalanmamışdır, bu, sadəcə almanlar tərəfindən irəli sürülən bir təklif, bir layihə olmuş və Osmanlı hökuməti tərəfindən qəbul olunmamışdır.

[323] Zürrer W. Kaukasien 1918-1921, p. 62; Bihl W. Die Kaukasus Politik der Mittelmächte. T. II. p. 52.

rilməsinə xidmət edirdi. Bununla yanaşı, "Talış əyalətinin müharibədə iştirak etməyən İrana verilməsi" də türkləri qəzəbləndirdi. Türklərin Talış əyaləti ilə bağlı etirazına Lüdendorf da dəstək verirdi. O qeyd edirdi ki: "Əsas etibarilə iranlılara deyil, türklərə yardım edilməlidir. İranlılar İngiltərəyə qarşı hərəkətsizlik göstərirlər. Talışı İrana vermək İngiltərənin Kür çayına doğru önünü açmaq deməkdir. Halbuki Türkiyənin Şimali İrana doğru irə-liləməsi ingilis irəliləyişinin qarşısını alacaqdır... Azərbaycanın və hətta Talış əyaləti ilə birlikdə Xəzər dənizinin türklərin əlinə keçməsi bizə ancaq fayda gətirər. Bununla biz öz nüfuzumuzu Türkiyə və Cənubi Qafqaz Respublikası vasitəsilə bu bölgələrdə yaya bilərik".[324]

Bütün bunlara rəğmən, Batumdakı Osmanlı heyətinin Almaniyanın irəli sürdüyü müqavilə layihəsini qəbul etməsi mümkün deyildi. Çünki Osmanlı heyətinə Ənvər paşa tərəfindən göndərilən müqavilə layihəsi, demək olar ki, alman layihəsinin əksi idi. Ənvər paşa 2 may 1918-ci il tarixində Vehib paşaya göndərdiyi təlimatda yazırdı: "Cənubi Qafqaz hökuməti ilə müzakirə ediləcək sülh şərtlərimizi aşağıda yazıram. Bu şərtlərin qəbul edildiyi təqdirdə heç bir müşkülat və məsələ qalmaz. Qəbul olunmadığı halda, bu şərtlərin silah yolu ilə əldə edilməsi təbii, məcburi olar. Ədliyyə naziri (Xəlil bəy Menteşə – V.Q.) bəyəfəndi həzrətləri də müzakirələri çox qısa və qəti aparacaqdır. Bu xüsusu Xəlil bəyəfəndi ilə görüşdükdən sonra müzakirələrinizin nəticələrini də bildirməyinizi rica edirəm. Onuncu maddədə nəzərdə tutulan ittifaqı indidən ərz etmək də müvafiqdir".[325] Ənvər paşanın Batumdakı Osmanlı heyətinə göndərdiyi və Cənubi Qafqaz hökuməti sülh yolu ilə qəbul etməzsə, hərb yolu ilə qəbul etdirmək istədiyi "Qafqaz hökuməti ilə imzalanacaq sülh müqaviləsi layihəsi" adlı 11 maddədən ibarət müqavilə layihəsi aşağıdakılardan ibarət idi:

---

[324] Zürrer W. Kaukasien 1918-1921, p. 62-63; Bihl W. Die Kaukasus Politik der Mittelmächte, T. II, p. 51-52.
[325] ATASE. BDH. K. 2917, D. 493, F. 1-136.

"1. Qafqaz hökuməti ordusunu dərhal hal-hazırkı vəziyyətdə buraxacaqdır. Bu ordunun miqdarı və yerləşəcəyi yer Osmanlı hökumətinin razılığı ilə təyin ediləcəkdir;

2. Qafqaz hökuməti Osmanlı ordusu və ya Dövlət-i Osmaniyə tərəfindən yaradılacaq Müsəlman korpusu üçün könüllü toplanmasına icazə verəcəkdir;

3. Osmanlı hökuməti zərurət yarandığı halda daxili nizam-intizam və asayişin bərpa olunması və qorunması üçün Qafqaz hökumətinə silahlı qüvvələri ilə köməklik göstərəcəkdir. Digər tərəfdən Qafqaz hökuməti erməni quldur dəstələri ilə olan müharibədə Osmanlı qüvvələrinə köməklik göstərməyə borcludur;

4. Osmanlı hökuməti Qafqaz hökumətinin sərhədlərini xarici düşmənlərdən qoruyacaqdır;

5. Qafqaz hökuməti öz ərazisində olan ingilis, fransız, amerikan, italyan və rus zabitlərini dərhal ölkə xaricinə çıxaracaq və gələcəkdə bu təbəələrdən ordu və hökumət idarələrində istifadə etməməyi öhdəsinə götürəcək;

6. Osmanlı ordusu baş komandanlığı Qafqaz hökumətinin dəmir yollarında hər cür hərbi yüklər daşımaq hüququna malik olacaq. Bu məqsədlə Osmanlı ordusu baş komandanlığı bir hərbi dəmir yol heyəti təşkil edəcək ki, bu heyət dəmir yollarının təhlükəsiz və fasiləsiz işləməsini təmin edəcəkdir;

7. Osmanlı hökuməti altıncı maddədəki hüquqlarını tam və ya qismən öz müttəfiqlərindən birinə verməyə və ələlxüsus da müttəfiqlərinin hərbi yüklərinin nəqlini icra etməyə səlahiyyətlidir;

8. Osmanlı dövləti tələb edərsə, Qafqaz hökuməti Bakı limanındakı müəssisələrlə Xəzər dənizindəki Qafqaz hökumətinə aid nəqliyyat vasitələrini Osmanlı hökumətinin sərəncamına verəcəkdir;

9. Qafqaz hökuməti Osmanlı dövləti müharibədə olduğu müddətdə onun düşmənləri ilə diplomatik və ya heç bir siyasi əlaqədə olmayacaqdır;

10. Osmanlı hökuməti Qafqaz hökuməti ilə xarici siyasət və hərbi sahədə tərəflərin iqtisadi mənafelərinə uyğun bir ittifaq bağlayacaq;

11. Qafqaz hökuməti öz ərazisində istehsal olunan məhsulların Osmanlı məmləkətinə və onunla müttəfiq olan məmləkətlərə ixrac edilməsi üçün bütün qüvvəsi ilə köməklik göstərəcək və bu məmləkətlərə göndərilmək üçün Qafqazdan keçəcək yüklərin tranzitini asanlaşdıracaqdır. Osmanlı dövləti də bunun müqabilində Qafqaz hökumətinin ehtiyac duyduğu malların idxalında ona yardım edəcəkdir".[326]

Müqavilə layihəsindən də göründüyü kimi, bu şərtlərin qəbul edilməsi Cənubi Qafqazın Osmanlı imperiyasının nəzarətinə keçməsi demək idi. Üstəlik, səkkizinci maddədə irəli sürülən tələblər Osmanlı siyasi dairələrinin daha irəli gedən turançı siyasətindən xəbər verirdi. Ənvər paşa irəli sürdüyü müqavilə layihəsi ilə kifayətlənməyərək, sonrakı günlərdə Cənubi Qafqaz hökumətinə qarşı yeni-yeni tələblər irəli sürürdü. O, 1918-ci il mayın 4-də Vehib paşaya göndərdiyi teleqramında Osmanlı imperiyası ilə Qafqaz müsəlmanları arasında əlaqənin kəsilməməsi üçün Axıska, Axalkələk, Gümrü, Alagöz dağı və bölgədəki dəmir yolunun Türkiyəyə verilməsini tələb edirdi.[327] Bundan bir gün sonra, mayın 5-də Ənvər paşa Osmanlı imperiyası ilə Cənubi Qafqaz arasında təsbit ediləcək sərhəd xəttini xırda detallarına qədər izah edib və bunu xəritə üzərində cızıb Vehib paşaya göndərdi.[328] Ənvər paşanın Batum konfransında Cənubi Qafqaz hökumətinə qəbul etdirmək istədiyi bu yeni sərhəd xəttinə görə Axıska, Axalkələk, Gümrü, Sürməli, Naxçıvan (Ordubad istisna olmaqla) qəzaları ilə Eçmiədzin və İrəvan qəzalarının bir hissəsi Osmanlı imperiyasına verilməli idi.[329]

Qafqazın təbii sərvətlərinə, xüsusilə də Bakı neftinə göz dikən və bu səbəbdən bütövlükdə Cənubi Qafqazı öz təsiri altına keçirməyi qarşısına məqsəd qoyan Almaniya Türkiyənin Qafqazla bağlı planlarına mane olmaq üçün Sovet Rusiyasını Batum konfransına cəlb etməyə cəhd göstərdi. 1918-ci il mayın 8-də Almaniyanın

---

[326] ATASE, BDH, K. 2917, D. 493, F. 1-136, 1-137.
[327] ATASE, BDH, K. 2919, D. 499, F. 3-1, 3-2.
[328] ATASE, BDH, K. 2919, D. 499, F. 3-2.
[329] ATASE, BDH, K. 2919, D. 499, F. 3-2.

Moskvadakı səfiri qraf Mirbax sovet hökumətinə müraciət edərək Cənubi Qafqaz hökuməti ilə Rusiya arasındakı mübahisəli məsələlərin həll edilməsində Almaniyanın vasitəçiliyini təklif etdi. Sovet Rusiyası Almaniya və Türkiyə arasında Qafqaz uğrunda gedən gərgin mübarizədən xəbərdar idi və bundan öz məqsədləri üçün istifadə etmək istəyirdi. Ona görə də RSFSR xalq xarici işlər komissarı G.Çiçerin mayın 11-də Mirbaxa verdiyi cavab notasında onun təklifini rədd edib, Sovet Rusiyasının Cənubi Qafqazın ayrılmasını tanımadığını bəyan etdi və Qafqazda Brest-Litovsk müqaviləsinin həyata keçirilməsi ilə bağlı məsələlər barəsində danışıqların yalnız Sovet Rusiyası ilə Almaniya və Türkiyə arasında aparılmasını istədi.[330]

Mayın 14-də qraf Mirbax yenidən Sovet Rusiyasına müraciət edərək Batumdakı danışıqlarda Sovet Rusiyası ilə Cənubi Qafqaz hökuməti arasında Almaniyanın vasitəçiliyini təklif etdi və bununla əlaqədar Rusiyanın öz tələb və təkliflərini yazılı şəkildə ona bildirməsini xahiş etdi. Mayın 15-də G.Çiçerin Mirbaxın notasına cavab verib bildirdi ki, Sovet Rusiyası Cənubi Qafqaz hökumətini tanımamaq mövqeyini saxlamaqla sovet nümayəndə heyətinin Batum danışıqlarında iştirakının təmin edilməsini tələb edir və bildirir ki, onun iştirakı olmadan imzalanacaq müqaviləni tanımayacaqdır.[331] Rusiya tərəfindən Cənubi Qafqaz hökumətinin mövcudluğunun inkar edilməsi Cənubi Qafqaz nümayəndələrinin Rusiyanın konfransa dəvət olunmasına qarşı müqavimətini gücləndirdi. Osmanlı hökuməti də qətiyyətlə Rusiyanın Batum danışıqlarında iştirakına qarşı çıxırdı. Buna görə də Almaniyanın Sovet Rusiyasını Batum danışıqlarına cəlb etmək cəhdi Osmanlı və Cənubi Qafqaz nümayəndə heyətlərinin kəskin müqaviməti nəticəsində baş tutmadı.

Batum konfransı 1918-ci il mayın 11-də öz işinə başladı. Konfransın ilk və son ümumi toplantısı olan bu iclası Osmanlı nümayəndə heyətinin rəhbəri Xəlil bəy Menteşə giriş sözü ilə açdı və Türkiyənin tələblərini şərh etdi. Nitqin qısa mahiyyəti ondan

---

[330] Документы внешней политики СССР, Т. I, с. 285

[331] Yenə orada. s. 302-303.

ibarət idi ki, əgər iki dövlət arasında Brest-Litovsk müqaviləsindən sonra qan axıdılmışsa həmin müqavilənin şərtləri indiki danışıqlar üçün əsas ola bilməz.[332] Ənvər paşanın Batumdakı Osmanlı heyətinə göndərdiyi, qeyd etdiyimiz təlimatlar əsasında hazırlanmış on iki maddədən və üç əlavədən ibarət olan "Osmanlı imperiyası ilə Cənubi Qafqaz Konfederasyon Respublikası arasında sülh və dostluq haqqında" müqavilə layihəsi müzakirə üçün Cənubi Qafqaz nümayəndələrinə təqdim edildi. Bu layihədə artıq Türkiyə hərbi əməliyyatlar meydanında verdiyi qurbanların əvəzi olaraq bir sıra yeni ərazilər və imtiyazlar tələb edirdi.[333]

Cənubi Qafqaz nümayəndəliyi isə Brest-Litovsk müqaviləsi əsasında sülh bağlamaq üçün Batuma gəlmişdi. Türk tələbləri ilə bağlı nota Cənubi Qafqaz nümayəndə heyətinə təqdim edildikdən sonra nümayəndəlikdə gərgin bir vəziyyət yarandı və Cənubi Qafqaz heyətində, həmçinin Seymdə onsuz da mövcud olan fikir ayrılıqları və ziddiyyətlər daha da dərinləşməyə başladı.

Osmanlı hökuməti Batum konfransına təqdim etdiyi tələblərinin yerinə yetirilməsində qəti və israrlı idi. İstanbuldan Batuma göndərilən təlimatlarda türk heyətindən tələb edilirdi ki, danışıqları çox qısa, qəti və ultimativ şəklində aparsın.[334] Bununla paralel olaraq, Ənvər paşa Osmanlı Qafqaz Ordularının Qrup komandanı Yaqub Şövqi paşaya göndərdiyi teleqramlarında hərbi əməliyyatlara başlayıb erməni vəhşiliklərinin qarşısını almağı və strateji Gümrü-Culfa dəmir yolunu ələ keçirməyi, daha sonra Cənubi Qafqaz hökumətini türk tələblərini qəbul etməyə məcbur etmək üçün Tiflis üzərinə hücuma keçməyi əmr edirdi.[335] Mayın 14-də Xəlil bəy Batumdakı Cənubi Qafqaz heyətinə nota verib, İrandan Qaf-

---

[332] Документы и материалы по внешней политике Закавказья и Грузии, с. 313-314.

[333] ATASE. BDH. K. 2919, D. 499. F. 3-1, 3-2; K. 2917. D. 493, F. 1-136, 1-137; Rəsulzadə M.Ə. Azərbaycan Cümhuriyyəti. s. 38; Авалов З. Независимость Грузии в международной политике, с. 42; Bihl W. Die Kaukasus Politik der Mittelmächte. T. II, p. 52, 59, 238; Zürrer W. Kaukasien 1918-1921, p. 66. 75-76; Pomiankowski J. Osmanlı İmperatorluğu'nun Çöküşü, s. 321.

[334] ATASE, BDH, K. 2917, D. 493, F. 1-136,

[335] ATASE. BDH. K. 2921, D. 511, F. 1-225. 1-227.

qaz istiqamətində hərəkət edən ingilis qoşunlarına qarşı mübarizə aparmaq üçün türk qoşunlarının Cənubi Qafqaza buraxılmasını tələb etdi.[336] A.Çxenkeli buna etiraz etsə də[337], bu etirazın elə bir əhəmiyyəti olmadı.

1918-ci il mayın 15-də hücuma keçən türk qoşunları elə həmin gün Gümrünü tutdular. Gümrünün tutulması ilə türk ordularının qarşısında olan iki yol – cənub istiqamətində Gümrü-İrəvan-Culfa dəmir yolu və şərq istiqamətində Gümrü-Qarakilsə-Tiflis-Bakı dəmir yolu açılmış oldu.

May ayının ortalarından başlayaraq Batum danışıqlarında xeyli fəallaşan Lossovun rəhbərlik etdiyi alman nümayəndələri türklərin yalnız bir – Cənubi Qafqaz dəmir yolundan ordu daşınması üçün istifadə etmək tələbini müdafiə edir və göstərirdilər ki, dəmir yolunun idarəsi yalnız türklərə deyil, Almaniya, Osmanlı və Cənubi Qafqaz nümayəndələrindən ibarət qarışıq bir komissiyaya verilməlidir.[338] Almanlar həm də təklif edirdilər ki, Batumda Brest sülhü əsasında ilkin saziş imzalansın, qalan müqavilələr isə İstanbulda Dördlər İttifaqı nümayəndələrinin iştirakı ilə imzalansın. Türklər bu təkliflərin heç birini qəbul etmədilər, almanlar da Türkiyə ilə münasibətləri kəskinləşdirməmək üçün təkid etmədilər və danışıqların sonrakı gedişi üçün öz vasitəçiliklərini təklif etdilər.[339]

Lossov mayın 21-də A.Çxenkeliyə də nota ilə müraciət edib bildirdi ki, Sovet Rusiyası Almaniyanın Batum danışıqlarında vasitəçiliyini qəbul etmişdir. Bundan başqa notada göstərilirdi ki, Sovet Rusiyası Suxumi və Bakı istiqamətindən Cənubi Qafqaza qarşı geniş hərbi əməliyyatlar keçirməyi planlaşdırır və Almaniya hökuməti ona bu planlardan əl çəkməyi təkidlə məsləhət görür.[340]

[336] Документы и материалы по внешней политике Закавказья и Грузии. с. 269-270.
[337] Yenə orada, s. 271.
[338] BOA. HR.SYS, no. 2372/3, v. 40, 83-86.
[339] Kazemzadeh F. The Struggle for Transcaucasia, p. 113.
[340] Документы и материалы по внешней политике Закавказья и Грузии, с. 303.

Azərbaycan nümayəndələrinin etirazlarına baxmayaraq, Cənubi Qafqaz heyəti Almaniyanın vasitəçiliyini qəbul etsə də[341], Türkiyə qəti olaraq alman vasitəçiliyindən imtina etdi.[342]

Batum danışıqlarında meydana çıxan ziddiyyətlər Azərbaycan nümayəndələrinin Türkiyəyə, gürcü və erməni nümayəndələrinin isə Almaniyaya sığınmasına gətirib çıxartdı ki, belə şərtlər daxilində Cənubi Qafqaz federasiyasının mövcudluğu sual altında qaldı.

1918-ci il may ayının 14-də gürcü Milli Şurasının gizli iclası keçirildi və qərara alındı ki, general Otto von Lossov vasitəsilə Gürcüstana qəyyumluq göstərmək üçün Almaniya hökumətinə müraciət edilsin. Əslində Milli Şuranın bu iclası keçiriləndə Berlinə getmiş gürcü nümayəndələri Gürcüstanı himayədarlığa götürmək barədə Almaniyanın razılığını almışdılar. Ona görə də Milli Şuranın iclası formal olaraq bunu rəsmiləşdirdi. General Lossovla gizli danışıqlar aparmaq üçün menşeviklərin lideri N.Jordaniya başda olmaqla komissiya yaradıldı. Danışıqlar zamanı Lossov bildirdi ki, Almaniya bir şərtlə Gürcüstana qəyyumluğu öz üzərinə götürür ki, o, Cənubi Qafqaz federasiyasının tərkibindən çıxıb özünün müstəqilliyini elan etsin. Bu aralarda Almaniyanın Batum heyətinin Tiflisdə olan üzvü Şulenburq Lossova bildirirdi ki, "nəyin bahasına olursa olsun, heç olmasa Gürcüstanı əlimizdə saxlamalıyıq. Əks təqdirdə Qafqazın digər hissələri də tez və ya gec əlimizdən çıxacaqdır".[343] Almanların tövsiyəsi ilə hərəkət edən gürcülər artıq may ayının 22-də Gürcüstanın müstəqilliyini elan etmək haqqında qəti qərara gəldilər.

May ayının 25-də Lossov A.Çxenkeliyə məktub göndərərək bildirdi ki, etibarlı mənbələrdən aldığı məlumatlar Cənubi Qafqaz federasiyasının artıq parçalanmaq ərəfəsində olduğundan xəbər verir. Onun səlahiyyəti yalnız Cənubi Qafqaz federasiyası ilə danışıqlara aid olduğundan o, yeni səlahiyyətlər almaq məqsədilə

---

[341] Kazemzadeh F. The Struggle for Transcaucasia, p. 113-114.

[342] Документы и материалы по внешней политике Закавказья и Грузии, с. 306.

[343] Bihl W. Die Kaukasus Politik der Mittelmächte. T. II, p. 58.

Berlinə yola düşür.[344] Elə həmin gün alman nümayəndə heyəti Batumu tərk etdi.

1918-ci il may ayının 26-da Cənubi Qafqaz Seyminin sonuncu iclası keçirildi və burada Gürcüstanın federasiyadan çıxmaq haqqında bəyanatı dinlənildikdən sonra Cənubi Qafqaz Seymi özünü buraxmaq haqqında qərar qəbul etdi. Elə həmin gün Gürcü Milli Şurası tərəfindən Gürcüstanın müstəqilliyi elan edildi.[345] Mayın 28-də Gürcüstan Almaniya ilə aparılmış Poti danışıqlarının yekunu olaraq hazırlanmış müqavilə və sazişləri imzaladı və bununla da Almaniyanın qəyyumluğunu qəbul etdi. Bu müqavilə və sazişlərlə Gürcüstanın dəmir yolları, limanları və təbii sərvətləri Almaniyanın nəzarətinə keçirdi. Bunun əvəzində isə Almaniya Gürcüstanın müstəqilliyini tanıyacaq və onun Sovet Rusiyası tərəfindən tanınması üçün çalışacaqdı, həmçinin Gürcüstanın sərhədlərinin müəyyən edilməsi və onun qonşu dövlətlərlə müna-sibətlərinin qurulmasında da Almaniya köməklik göstərməli idi.[346] Bununla da Almaniya 29 aprel 1918-ci il tarixində "Türkiyə ilə Cənubi Qafqaz arasında aparılan danışıqlarda əsas tutulacaq prinsiplər" adı altında irəli sürdüyü "prinsiplər paketi"ndə qarşısına qoyduğu məqsədlərə bütün Cənubi Qafqazda olmasa da, Gürcüstanın timsalında demək olar ki, nail ola bildi.

Seymin buraxılması ilə yaranmış böhranlı siyasi vəziyyətlə əlaqədar Seymdəki Azərbaycan nümayəndələri mayın 27-də toplaşaraq Azərbaycanın idarə olunması vəzifəsini öz üzərinə götürdülər və özlərini Azərbaycanın Müvəqqəti Milli Şurası elan etdilər.[347] Azərbaycan Milli Şurası mayın 28-də keçirdiyi ilk iclasında geniş müzakirələrdən sonra 24 səslə (iki nəfər – S.M.Qəniyev və C.Axundov bitərəf qalmışdı) Azərbaycanın istiqlaliyyətinin elan

[344] Документы и материалы по внешней политике Закавказья и Грузии. с. 307.
[345] BOA, HR.SYS, по. 2398/7, v. 52; Документы и материалы по внешней политике Закавказья и Грузии. с. 336-338.
[346] Авалов З. Независимость Грузии в международной политике. с. 59-63; Bihl W. Die Kaukasus Politik der Mittelmächte. T. II, p. 61-62.
[347] ARDA. f. 970, siy. 1. iş 1, v. 46-47; BOA. HR.SYS. no. 2398/7, v. 52.

olunması haqqında qərar qəbul etdi və altı bənddən ibarət "İstiqlal Bəyannaməsi"ni elan etdi.[348] Bu tarixi aktda deyilirdi: "Böyük Rusiya inqilabının cərəyanında dövlət vücudunun ayrı-ayrı hissələrə ayrılması ilə Zaqafqaziyanın rus orduları tərəfindən tərkini mövcub bir vəziyyəti-siyasiyyə hasil oldu. Kəndi qüvayi-məxsusələrinə tərk olunan Zaqafqaziya millətləri müqəddəratlarının idarəsini bizzat kəndi əllərinə alaraq Zaqafqaziya Qoşma Xalq Cümhuriyyətini təsis etdilər. Vəqayii-siyasiyyənin inkişaf etməsi üzərinə gürcü milləti Zaqafqaziya Qoşma Xalq Cümhuriyyəti cüzindən çıxıb da müstəqil Gürcü Xalq Cümhuriyyəti təsisini səlah gördü.

Rusiya ilə Osmanlı imperatorluğu arasında zühur edən müharibənin təsviyyəsi yüzündən hasil olan vəziyyəti-hazırəyi-siyasiyyə və məmləkət daxilində bulunan misilsiz anarşi Cənubi-Şərqi Zaqafqaziyadan ibarət bulunan Azərbaycana dəxi bulunduğu xarici və daxili müşkülatdan çıxmaq üçün xüsusi bir dövlət təşkilatı qurmaq lüzumunu təlqin ediyor.

Buna binaən arai-ümumiyyə ilə intixab olunan Azərbaycan Şurayi-Milliyei-İslamiyyəsi bütün camaata elan ediyor ki:

1. Bu gündən etibarən Azərbaycan xalqı hakimiyyət haqqına malik olduğu gibi Cənubi-Şərqi Zaqafqaziyadan ibarət olan Azərbaycan dəxi kamil-əl-hüquq müstəqil bir dövlətdir.

2. Müstəqil Azərbaycan dövlətinin şəkli-idarəsi xalq cümhuriyyəti olaraq təqərrür ediyor.

3. Azərbaycan Xalq Cümhuriyyəti bütün millətlər və bilxassə həmcivar olduğu millət və dövlətlərlə münasibəti-həsənə təsisinə əzm edər.

4. Azərbaycan Xalq Cümhuriyyəti millət, məzhəb, sinif, silk və cins fərqi gözləmədən qələmrovində yaşayan bütün vətəndaşlarına hüquqi-siyasiyyə və vətəniyyə təmin eylər.

5. Azərbaycan Xalq Cümhuriyyəti ərazisi daxilində yaşayan bilcümlə millətlərə sərbəstanə inkişafları üçün geniş meydan buraxır.

---

[348] ARDA. f. 970, siy. 1. iş 1. v. 49-50.

6. Məclisi-Müəssisan toplanıncaya qədər Azərbaycan idarəsinin başında arai-ümumiyyə ilə intixab olunmuş Şurayi-Milli və Şurayi-Milliyə qarşı məsul hökuməti-müvəqqətə durur".[349*] Bundan sonra Milli Şura Azərbaycan hökümətinin yaradılmasını Fətəli Xan Xoyskiyə tapşırdı. Bir saatlıq fasilədən sonra F.X.Xoyskinin hökümətin yaradılması haqqında məruzəsini dinləmək üçün Milli Şuranın iclası öz işini davam etdirdi. İlk Azərbaycan müvəqqəti hökümətini F.X.Xoyski aşağıdakı tərkibdə təqdim etdi: Nazirlər Şurasının sədri və daxili işlər naziri - Fətəli Xan Xoyski, hərbi nazir – Xosrov Paşa bəy Sultanov, xalq maarifi və maliyyə naziri – Nəsib bəy Yusifbəyli, xarici işlər naziri – Məhəmməd Həsən Hacınski, poçt-teleqraf və yollar naziri – Xudadat bəy Məlik-Aslanov, əkinçilik və əmək naziri – Əkbər ağa Şeyxülislamov, ədliyyə naziri – Xəlil bəy Xasməmmədov, ticarət və sənaye naziri – Məmməd Yusif Cəfərov, dövlət nəzarəti naziri – Cəmo bəy Hacınski.[350] Bununla da Milli Şura Azərbaycan xalqı qarşısında çox şərəfli və tarixi bir missiyanı yerinə yetirmiş oldu.

Gürcüstan və Azərbaycanın ardınca mayın 30-da erməni Milli Şurası tərəfindən Ermənistanın da müstəqilliyi elan edildi.[351]

Hələ Cənubi Qafqaz federasiyası dağılmamışdan əvvəl Batumdakı türk nümayəndələri gürcü-alman danışıqlarından xəbərdar idilər və bu haqda mütəmadi olaraq İstanbula məlumat göndərirdilər. Artıq federasiyanın dağılacağına şübhə etməyən Ənvər paşa mayın 25-də Vehib paşaya göndərdiyi təlimatda bildirirdi: "...Cənubi Qafqaz hökumətinə iyirmi dörd saatlıq bir ultimatum veriləcəyindən bəhs etmişdim. Xəlil bəydən aldığım məlumata görə, əgər ermənilər bu ultimatumu qəbul etməyərək dağılarsa, onda gürcülər dərhal müstəqil bir hökumət təşkil edərək bizimlə sülh

[349] ARDA. f. 894, siy. 10. iş 192, v. 3.

[*] Arxivlərdə "İstiqlal Bəyannaməsi"ndən başqa Cümhuriyyət dövrü ilə bağlı heç bir sənəddə "Azərbaycan Xalq Cümhuriyyəti" adına rast gəlinmir. Bütün sənədlərdə dövlətin adı rəsmən "Azərbaycan Cümhuriyyəti" getmişdir.

[350] Azərbaycan Cümhuriyyəti Hökümətinin qanun və binagüzarlıq məcmuəsi. 1919, № 1, s. 6.

[351] Hovannisian R.G. Armenia on the Road to Independence. p. 191.

bağlayacaqlar. Hər hansı bir ehtimala qarşı da lazımi etimadnamələrini gətirmişlər. Hərbi qüvvələrin bir yerə yığılmasını tövsiyə etməkdə məqsədim belə bir sülh bağlanıldığı halda sərbəst qalacaq qüvvələrdən Bakıya və ya cənuba (ingilislərə – V.Q.) qarşı istifadə etmək imkanını yaratmaq üçün bu qüvvələrin toplu halında və istirahət etdirilmiş olaraq saxlanılmasını bildirmək idi. Bununla yanaşı, bu qüvvənin bir tərəfdən Gəncə, digər tərəfdən də İrəvana toplu sövq edilərək, bir an əvvəl hədəflərinə çatması mühüm olan qüvvələrin hərəkatına təsir etməməsi lüzumunu da əlavə edirəm".[352]

1918-ci il mayın 26-da Cənubi Qafqaz Seymi özünü buraxmış və Gürcüstanın müstəqilliyi elan edilmişdi. Artıq baş verən bu son hadisələr haqqında hələ xəbərsiz olan Ənvər paşa elə həmin gün Vehib paşaya göndərdiyi təlimatında yazırdı: "Gürcülər istiqlallarını elan etdikləri halda Cənubi Qafqaz müsəlmanlarının da mərkəzi Gəncə olmaq üzrə istiqlal elan edərək, Osmanlı hökuməti ilə bir ittifaq müqaviləsi bağlamaq arzusunda olduqlarını Xəlil bəyəfəndiyə müraciətlə Hökumət-i Səniyyəyə təbliğ eyləmələri ən müvafiq olar. Şimali Qafqaz müsəlmanları da əsasən bu şəkildə müstəqil olaraq istədikləri formada Cənubi Qafqaz müsəlmanları ilə birləşərək daha güclü bir müsəlman kütləsi vücuda gəlmiş olar. Ermənilərə gəlincə, bunların Qafqaz (Azərbaycan nəzərdə tutulur – V.Q.) və gürcü hökumətləri arasında bölüşdürülməsini və əllərində cüzi bir əsgəri qüvvənin belə qalmamasını uyğun görürəm. Bununla belə, bu mənim şəxsi fikrimdir, Xəlil bəyə hökumət tərəfindən bu haqda təlimat veriləcəkdir. Gürcülərlə sülh danışıqlarının davamı dövründə də Tiflisə doğru hərbi hərəkatın dayandırılmamasını, bununla yanaşı, gürcülərlə əvvəlki şərtlər daxilində tezliklə müqavilə bağlanmasını əhəmiyyətlə rica edirəm".[353] Buradan Ənvər paşanın mövqeyi açıq-aydın görünür. Cənubi və Şimali Qafqaz müsəlmanlarını birləşdirib bölgədə Osmanlı imperiyasının himayəsi altında bir müsəlman dövləti yaratmaqla bağlı Ənvər paşanın bir qədər əvvəlki planları yenidən gündəmə gəlmiş olurdu.

---

[352] ATASE, BDH, K. 2919, D. 499, F. 3-20.
[353] ATASE, BDH, K. 2919, D. 499, F. 3-21.

Ermənilərlə bağlı Ənvər paşanın planları isə Tələt paşanın mövqeyi ilə tam üst-üstə düşürdü.

Tiflisdə baş verən son hadisələrdən xəbərsiz olan Batumdakı Osmanlı nümayəndə heyətinin rəhbəri Xəlil bəy 26 may 1918-ci il tarixində Cənubi Qafqaz nümayəndə heyətinə son ultimatumunu verdi. Ultimatumda Türkiyənin may ayının 11-də irəli sürdüyü əsas tələbləri ilə yanaşı bir sıra yeni tələblər də yer almışdı ki, bunların da qəbul edilib-edilməyəcəyi ilə bağlı 72 saat ərzində cavab verilməsi tələb edilirdi.[354] Qeyd etdiyimiz kimi, bu ultimatum verilən vaxt artıq Cənubi Qafqaz federasiyası mövcud deyildi. 1918-ci il may ayının 26-sı saat 15:00-da Cənubi Qafqaz Federativ Respublikası özünü buraxmışdı və elə həmin gün saat 17:00-da Gürcüstan öz müstəqilliyini elan etmişdi.[355] Türk ultimatumu isə saat 20:00-da verilmişdi.[356] Bu səbəbdən Osmanlı imperiyası Cənubi Qafqaz federasiyası ilə başladığı Batum danışıqlarını bu federasiyanın parçalanması nəticəsində yaranan Gürcüstan, Azərbaycan və Ermənistan respublikaları ilə ayrı-ayrılıqda davam etdirməli oldu. Tiflisdə baş verən son hadisələrlə əlaqədar ultimatumun müddəti daha bir gün uzadıldı və may ayının son günlərindən başlayaraq ayrı-ayrılıqda Osmanlı-Azərbaycan, Osmanlı-Ermənistan və Osmanlı-Gürcüstan danışıqları başladı. Bu danışıqlar da Osmanlı hökumətinin hələ konfransın əvvəlində irəli sürdüyü və üzərində israrla durduğu bütün tələblərinin qəbul edilməsi ilə sonuclanan 4 iyun 1918-ci il tarixli Batum müqavilələrinin imzalanması ilə nəticələndi.

Beləliklə, 1918-ci ilin fevralından etibarən Qafqaz istiqamətində fəal hərbi əməliyyatlara başlayan Osmanlı komandanlığı qısa vaxt ərzində Şərqi Anadolu vilayətlərini işğaldan azad edib martın 14-də müharibədən əvvəlki türk-rus sərhədinə yetişdi. Cə-

[354] Документы и материалы по внешней политике Закавказья и Грузии. с. 309-310.

[355] BOA, HR.SYS, no. 2398/7, v. 52; Документы и материалы по внешней политике Закавказья и Грузии, с. 331, 339.

[356] Документы и материалы по внешней политике Закавказья и Грузии, с. 310, 339.

nubi Qafqaz Seyminin Brest-Litovsk sülh müqaviləsini qəbul etməməsi Trabzon konfransının uğursuzluğa düçar olmasına gətirib çıxartdı. Osmanlı hökuməti də Brest sülhü ilə əldə etdiyi uğurları Cənubi Qafqaz Seyminə güzəştə getmək fikrində deyildi. Nəticədə, Osmanlı imperiyası Brest sülhü ilə əldə etdiyi ərazilərə silah gücünə yiyələnməli oldu. Bu da öz növbəsində, Batum konfransında İstanbul hökumətinin mövqeyinin sərtləşməsinə gətirib çıxartdı.

Osmanlı imperiyasının Brest sülhü ilə əldə etdiyi ərazilərə girməsi belə Sovet Rusiyası tərəfindən etirazla qarşılandı. Bu dövrdə daxildə vətəndaş müharibəsi aparan Rusiya Cənubi Qafqazda gedən siyasi və hərbi proseslərə hər hansı fəal müdaxilə etmək iqtidarında deyildi və ancaq diplomatik vasitələrdən istifadə edirdi. Lakin bu etirazların elə bir əhəmiyyəti olmadı.

Sovet Rusiyası Cənubi Qafqaz Seymini tanımamaq mövqeyini saxlamaqla Batum konfransında iştirak etməyə də cəhd etdi. Bölgədə öz maraqlarını təmin etməyə çalışan Almaniya da Rusiyadan Osmanlı dövlətinə qarşı istifadə etmək üçün onun konfransda iştirak etməsinə çalışırdı. Lakin Osmanlı hökumətinin, eyni zamanda Cənubi Qafqaz hökumətinin qəti olaraq buna qarşı çıxması nəticəsində Almaniyanın bu istəyi baş tutmadı.

Artıq Brest-Litovsk sülhündən sonra Qafqazda fəallaşan Almaniya Batum konfransı ərəfəsində bölgəni tam olaraq öz nəzarətinə keçirmək üçün Cənubi Qafqaz hökuməti ilə bağlanacaq müqavilənin "layihəsi"ni ortaya atsa da, bölgə ilə bağlı öz planları olan Osmanlı hökuməti alman "layihəsi"ndən qəti olaraq imtina edib buna əks olan bir layihə ilə çıxış etdi və sonadək heç bir güzəştə getməyib öz mövqeyində durdu.

Batum konfransında sərtləşən türk tələbləri Cənubi Qafqaz Seymində onsuz da mövcud olan fikir ayrılıqlarını və ziddiyyətləri daha da kəskinləşdirdi. Nəticədə Seym dağıldı və Cənubi Qafqazda müstəqil respublikalar yarandı. Osmanlı hökuməti Cənubi Qafqaz Seyminin parçalanmasından sonra da öz tələblərində hər hansı bir güzəştə getmədi və nəticədə Seymə qəbul etdirə bilmədiyi tələblərini milli respublikalara ayrı-ayrılıqda qəbul etdirdi.

# II FƏSİL
# OSMANLI-RUSİYA QARŞIDURMASI VƏ AZƏRBAYCAN

## § 1. Batum konfransının Azərbaycan üçün nəticələri

Osmanlı hökuməti Trabzon konfransında Brest-Litovsk sülh müqaviləsinin Qafqaza aid maddələrini Cənubi Qafqaz Seyminə qəbul etdirib, onun əsasında sülh bağlamaq istəsə də, Seymin Brest müqaviləsini qəbul etməməsi səbəbindən bir aya qədər davam edən danışıqlar uğursuzluqla nəticələndi və Tiflis hökuməti türk tələbləri qarşısına silahla çıxdı. Cənubi Qafqaz hökumətinin belə mövqeyi Batum konfransında Türkiyənin mövqeyinin daha da sərtləşməsinə səbəb oldu.

Batum konfransının 1918-ci il may ayının 11-də keçirilən ilk iclasında Osmanlı nümayəndə heyətinin rəhbəri Xəlil bəy Menteşə Brest müqaviləsinin şərtlərini indiki danışıqlar üçün əsas kimi qəbul etmədiyini bildirib, Türkiyənin hərbi əməliyyatlar meydanında verdiyi qurbanların əvəzi olaraq bir sıra yeni ərazilər və imtiyazlar tələb etdi. Bu tələblərə Tiflis quberniyasının Axıska və Axalkələk qəzaları, İrəvan quberniyasının Aleksandropol (Gümrü) və Sürməli qəzaları, Eçmiədzin qəzasının Sərdarabad hissəsi, İrəvan qəzasının cənub və cənub-qərb hissəsini təşkil edən Kəmərli (Qərnibasar), Uluxanlı (Zəngibasar) və Vedibasar bölgələri, Şərur-Dərələyəz qəzasının Şərur hissəsi və Ordubad istisna olmaqla Naxçıvan qəzası, habelə Qars-Aleksandropol-Culfa dəmir yolu daxil idi.

Bundan əlavə, İngiltərəyə qarşı müharibə davam etdiyi müddətdə Türkiyəyə Cənubi Qafqazın bütün dəmir yol şəbəkəsindən istifadə etmək hüququ verilməli idi.[357]

Osmanlı hökumətinin bu tələbləri nəinki Brest müqaviləsinin Türkiyə üçün müəyyən etdiyi 1877-1878-ci illər müharibəsinə qədərki türk-rus sərhəd xəttini, hətta 1828-ci ildəki türk-rus sərhədini də aşırdı. Bu tələblərə münasibətdə ümumi bir mövqeyə gələ bilməyən Cənubi Qafqaz heyətində fikir ayrılıqları və ziddiyyətlər daha da dərinləşdi. Bu da öz növbəsində heyətdə təmsil olunan azərbaycanlı, gürcü və erməni nümayəndələrinin ayrı-ayrılıqda Türkiyə və Almaniya ilə danışıqlar aparmasına gətirib çıxartdı. Gürcülər türk tələbləri qarşısında çıxış yolu kimi Almaniyaya sığınmaq qərarına gəldilər. Gizli aparılan gürcü-alman danışıqları Gürcüstanın Cənubi Qafqaz Seymindən çıxıb öz müstəqilliyini elan etməsi və Almaniyanın qəyyumluğunu qəbul etməsi ilə nəticələndi.[358]

Türk tarixçisi A.N.Kurat yazırdı ki, "...gürcü, erməni və azərbaycanlıların bir dövlət halında yaşamaları imkansız idi. Bu durum qarşısında Türkiyə ilə imzalanacaq qəti sülhün davamlı və əsaslı olmasını təmin etmək üçün "konfederasiya" təşkil edən hər üç zümrənin ayrı-ayrılıqda müstəqil dövlət halına gəlmələri vacib idi. Bu görüş Osmanlı hökuməti tərəfindən irəli sürüldü və ancaq bu reallaşdığı təqdirdə qəti bir sülhün imzalana biləcəyi "Qafqaz nümayəndə heyəti"nə bəyan edildi".[359]

Batumda və Tiflisdə cərəyan edən hadisələr haqqında məlumatlı olan sədrəzəm Tələt paşa Xəlil bəyə göndərdiyi 25 may tarixli teleqramında bildirirdi: "Bu günə qədər olan yazışmalarımızdan son şifrənizi Məclis-i Umumidə oxuduq və uzun-uzadı müzakirə etdik. Son ərz etdiyim şəkildə ittifaq hasil oldu. Yəni, dərhal ultimatum vermək və qəbul etmədikləri təkliflərimizi qüvvə ilə qəbul etdirmək.

[357] ATASE, BDH, K. 2919, D. 499, F. 3-1, 3-2; K. 2917, D. 493, F. 1-136, 1-137; BOA, HR.SYS. no. 2372/1, v. 75.

[358] Авалов З. Независимость Грузии в международной политике, с. 59-63.

[359] Kurat A.N. Türkiye ve Rusya. s. 476.

Əgər gürcülər ayrı və müstəqil bir hökumət təşkil edərlərsə, ayrıca müzakirə edərik. Şimali və Cənubi Qafqaz müsəlmanlarının da ayrıca müstəqil bir hökumət təşkil etməsi uyğundur, müstəqilliklərinin formatını və əlaqələrinin təyin edilməsini sonradan düşünərik. Gürcülərlə müsəlmanların erməni məsələsi həll edildikdən sonra birləşmələri imkanı vardır. Zat-ı dövlətləri indidən bu cəhətə çalışa bilərsiniz".[360] Elə həmin gün Tələt paşa tərəfindən Xəlil bəyə göndərilən növbəti teleqramda deyilirdi: "Zeyldir. Müfəssəl şifrə teleqrafnamələri diqqətlə tədqiq edildi. Gürcülərlə və müsəlmanlarla ayrı-ayrı dostluq müqavilələri bağlamaq daha üstün tutulur. Sonradan ordumuz intizamı təmin və hökuməti təşkil etmək üçün gedər. Və hökumət təşəkkül etdikdən sonra Dövlət-i Aliyyə ilə münasibətini təyin edərik".[361]

Osmanlı hökumətinin tələbləri əks olunan 1918-ci il 11 may tarixli ultimatumun verilməsindən iki həftədən artıq bir vaxt keçməsinə baxmayaraq, Cənubi Qafqaz heyətindən bu ultimatuma heç bir rəsmi cavab verilməmişdi. Ona görə də Osmanlı nümayəndə heyətinin rəhbəri Xəlil bəy 26 may 1918-ci il tarixində Cənubi Qafqaz heyətinə yeni və son ultimatumunu təqdim etdi. Ultimatumda deyilirdi: "Təəssüflə qeyd edirəm ki, Batum konfransının may ayının 11-də keçirilən ilk toplantısında Osmanlı imperator hökuməti adından Cənubi Qafqaz Federativ Respublikasının nümayəndə heyətinə təqdim etdiyim ultimatuma, iki həftədən artıq bir vaxt keçməsinə baxmayaraq, cavab almamışam. Zati-alilərinə məlum olduğu kimi, Qafqazın vəziyyəti çox kritik və qarışıqdır və çözülməyə möhtacdır. Bakı və ətrafında yüz minlərcə türk və müsəlman özlərinə inqilabçı deyən vicdansız quldurların qanlı pəncəsində inləyir. Bu zavallıları təhdid edən dözülməsi imkansız fəlakət gündən-günə artmaqdadır. Saysız mütəşəkkil quldur dəstələrin təcavüzünə məruz qalan Qafqazın digər bölgələrindəki türk və müsəlman xalqın vəziyyəti də heç cür ümidverici deyildir.

Rəis həzrətləri, qəbul edərsiniz ki, bu adı daşımağa layiq olan heç bir hökumət, qonşu olduğu bir ərazidə belə cinayətlərin cəza-

---

[360] BOA, HR.SYS, no. 2372/3, v. 77.
[361] BOA. HR.SYS. no. 2372/3. v. 75.

sız olaraq qalmasına dözə bilməz və yenə qəbul edərsiniz ki, Qafqazı məhv edən bu anarxiya münasibətilə Osmanlı imperator hökumətinin vəziyyəti çox nazikdir. Çünki bu anarxiyanın Osmanlı imperiyasının əhalisi ilə eyni irq və dinə mənsub bir əhalinin asayişi ilə əlaqəsi vardır. Digər tərəfdən, ümumi hərbin gərəyi olaraq Osmanlı imperator hökuməti öz ordusunu digər cəbhələrə Qafqaz yolu ilə göndərmək məcburiyyəti qarşısındadır. Bu da indiki qeyri-müəyyən vəziyyətə son qoymağı tələb edir..."[362] Bu ultimatumda Türkiyənin 11 may tarixli əsas tələbləri ilə yanaşı bir sıra yeni tələblər də yer almışdı və bunların qəbul edilib-edilməməsi ilə bağlı 72 saat ərzində cavab verilməsi tələb edilirdi. Ultimatum saat 20:00-da verilmişdi və bundan beş saat əvvəl Cənubi Qafqaz federasiyası artıq mövcud deyildi, dağılmışdı.[363] Seymin dağılması ilə elə həmin gün Gürcüstan[364], mayın 28-də Azərbaycan[365] və mayın 30-da Ermənistan[366] öz müstəqilliyini elan etdi. Bu səbəbdən Cənubi Qafqaz hökumətinin Türkiyə ilə başladığı Batum danışıqlarını yeni elan edilmiş milli respublikalar davam etdirməli oldular.

Cənubi Qafqaz federasiyasının dağılmasından sonra da Osmanlı hökumətinin tələblərində elə bir dəyişiklik olmadı, əksinə bu tələblər daha da sərtləşdi. Hələ Cənubi Qafqaz Seyminin dağılması ərəfəsində, mayın 24-də Osmanlı sədrəzəmi Tələt paşa Batum konfransındakı türk nümayəndə heyətinin rəhbəri Xəlil bəyə göndərdiyi teleqramında yazırdı: "...Ermənilərin bir hökumət halında təşəkkül etməsinə qətiyyən tərəfdar deyiləm. Kiçik bir erməni muxtariyyəti beş il sonra beş milyon əhalisi olan bir erməni dövləti halına gələcək və bütün Qafqaza hakim olaraq Şərqin Bolqarıstanına çevriləcəkdir. İran və Amerikada olan bütün ermənilər

---

[362] Документы и материалы по внешней политике Закавказья и Грузии. с. 309-310.
[363] Yenə orada, s. 331.
[364] Yenə orada, s. 339; Авалов З. Независимость Грузии в международной политике, с. 61.
[365] ARDA, f. 970, siy. 1, iş 1, v. 49-50.
[366] Hovannisian R.G. Armenia on the Road to Independence. p. 191.

orada toplanacaq, ingilis və fransızlardan hər cür yardım alaraq, gələcəkdə xristian gürcülərlə və çox asanlıqla əcəmlərlə birlikdə bizim əleyhimizə hərəkət edəcəklər. Bu səbəbdən mümkün olsa, "çibanı kökündən təmizləmək" ən xeyirli iş olacaqdır. Bu mümkün olmadığına görə, (Ermənistanın – V.Q.) çox zəif və yaşamayacaq şəkildə təşəkkül etməsi zəruridir..."[367] Göründüyü kimi, Tələt paşa erməni problemini birdəfəlik həll etmək istəyirdi.

Türkiyənin 26 may tarixli ultimatumundan sonra Batumdakı gürcü və erməni nümayəndələri Tiflisə qayıtdılar və may ayının son günlərində yeni təlimatnamələrlə yenidən Batuma döndülər. Azərbaycan nümayəndələri M.Ə.Rəsulzadə və M.H.Hacınski isə Tiflisə qayıtmaqdansa Batumda qalıb Türkiyə ilə bir sıra məsələlərlə bağlı danışıqlar aparmağı üstün tutdular. Türkiyə tərəfindən təqdim olunan ultimatumda Azərbaycan torpaqları ilə bağlı ərazi tələbləri də var idi. Bu ərazi tələblərinə Sürməli və Naxçıvan qəzaları (Ordubad istisna olmaqla), Şərur-Dərələyəz qəzasının Şərur hissəsi, İrəvan qəzasının Kəmərli, Uluxanlı və Vedibasar bölgələri və digər ərazilər daxil idi.[368] Bundan əlavə, türklər yeni yaranmış erməni dövləti üçün Qarsdan sonra siyasi mərkəz ola biləcək Aleksandropolu da tələb edirdilər ki, bu da öz növbəsində, Azərbaycanı yeni ərazi itkiləri faktı qarşısında qoymaq demək idi.

Bu dövrdə Bakı Sovet Rusiyasının əlində idi. 1918-ci ilin Mart soyqırımını törətməklə Bakıda hakimiyyəti ələ keçirən bolşevik-daşnak alyansı Azərbaycanın digər qəzalarında da türk-müsəlman əhalisinə qarşı bu soyqırım əməllərini davam etdirməkdə idilər. Bununla paralel olaraq, Azərbaycanın Qarabağ, Naxçıvan və Zəngəzur bölgələrində də erməni quldur dəstələrinin müsəlmanlara qarşı törətdiyi soyqırımlar, vəhşiliklər davam etməkdə idi. Çıxılmaz vəziyyətdə qalan müsəlman əhalisi erməni-bolşevik birləşmələrinin törətdiyi vəhşiliklərin qarşısını almaqda nicat yolunu Osmanlı hökumətinə kömək üçün müraciət etməkdə görürdü. Çünki Cənubi Qafqaz hökuməti bu qırğınların qarşısını almaqda

---

[367] BOA, HR.SYS, no. 2372/3, v. 73, s. 1-2.
[368] ATASE, BDH, K. 2919, D. 499, F. 3-1, 3-2; K. 2917, D. 493, F. 1-136, 1-137; BOA, HR.SYS, no. 2372/1, v. 75.

acizlik göstərirdi, daha dəqiq desək, bunda maraqlı deyildi. Seymdəki azərbaycanlı nümayəndələr də hələ Seymin dağılmasından xeyli əvvəl Azərbaycanda tüğyan edən anarxiyanın qarşısını almaq məqsədilə Osmanlı hökumətinə hərbi yardım üçün müraciət etmək qərarına gəlmişdilər. Mövcud şərtlər daxilində Osmanlı imperiyasından başqa hər hansı bir dövlətin Azərbaycana yardım göstərməsi real deyildi. Osmanlı yardımı olmadan Azərbaycandakı anarxiyanın qarşısını almaq, xüsusilə də Bakını Sovet Rusiyasının qoruduğu Şaumyan rejimindən xilas etmək qeyri-mümkün idi. Bu səbəbdən Azərbaycan bütün ümidini Osmanlı yardımına bağlamışdı və Batumdakı Azərbaycan nümayəndələri də Türkiyənin ərazi və digər tələblərini qəbul etməyə bir növ məhkum idilər. Aleksandropol türklər tərəfindən tutulduqdan sonra ermənilərə siyasi mərkəz olaraq İrəvanın verilməsi məsələsi gündəmə gəldi. Osmanlı hərbi dairələri İrəvanı güzəştə getmək istəməsələr də, ermənilər bu məsələ üzərində israrla dayanmışdılar. İndi türklər yeni yaranan erməni dövləti üçün siyasi mərkəz olaraq ya Aleksandropolu ermənilərə verməli və bu şəhərlə bağlı irəli sürdüyü tələbindən geri çəkilməli, ya da İrəvanı onlara verməli idilər. Bu iki seçim qarşısında Aleksandropoldan imtina etmək fikrini belə qəbul etməyən türklər ikinci varianta üstünlük verdilər.

Qeyd edək ki, bu dövrdə "erməni məsələsi" ilə bağlı Osmanlı siyasi dairələrində müəyyən fikir ayrılıqları var idi. Tələt və Ənvər paşalar "erməni məsələsi"ndə "çibanı kökündən təmizləməyi" ən xeyirli iş hesab edib, bölgədə erməni dövlətinin yaradılmasına imkan verməmək və bu mümkün olmadığı təqdirdə yaşamayacaq dərəcədə çox zəif bir Ermənistanın təşəkkül etməsini zəruri hesab etsələr də[369], Xəlil bəy və Vehib paşa kimi siyasilər ən azından beynəlxalq aləm qarşısında ermənilərə bir mövcudiyyət və müəyyən güzəştlər verilməsinin vacib olduğunu bildirirdilər.[370]

---

[369] BOA, HR.SYS, no. 2372/3, v. 73, s. 1-2; ATASE, BDH, K. 2919, D. 499, F. 3-31.

[370] BOA, HR.SYS, no. 2371/6, v. 88-90; ATASE, BDH, K. 2919, D. 499, F. 3-26.

Onu da qeyd etmək lazımdır ki, Tələt və Ənvər paşaların mövcud vəziyyətdə erməni dövlətinin yaradılmasına imkan verməmək və bu məsələdə "çibanı kökündən təmizləmək" istəyinə Azərbaycan nümayəndələri heç də müsbət yanaşmırdılar. Onlar öz mövqeyini əsaslandıraraq bildirirdilər ki, əgər bölgədə üç – gürcü, müsəlman və erməni kantonları yerinə yalnız iki – gürcü və müsəlman dövlətləri yaradılarsa, o zaman Cənubi Qafqazda və xüsusilə də ultimatumda tələb edilən, Osmanlı imperiyasına birləşdiriləcək ərazilərdə olan böyük erməni kütləsi Azərbaycana axışacaq. Bu da Azərbaycana faktiki olaraq daha böyük qırğınlar, müsibətlər və dağıntılar gətirəcək. Buna yol verməmək üçün kiçik bir ərazidə ermənilərin milli dövlətlərini yaratmaq və onları ora cəm etmək lazımdır. Bu məsələ ilə bağlı Azərbaycan nümayəndələri 1918-ci il mayın 23-də Batumdan Ənvər paşaya yazılı bir müraciət də göndərdilər. Müraciətdə deyilirdi: "Osmanlı hökumətinin ərazi tələbləri haqqındakı təklifi ilə Qafqaz konfederasiyası fikri məhv olur. Üç – gürcü, müsəlman və erməni – kanton əvəzinə yalnız iki – gürcü və müsəlman kantonları qalır. Çünki Axalkələk, Aleksandropol, Eçmiədzin, Sürməli sancaqları ilə İrəvan sancağının bir qisminin ilhaqı ilə Ermənistan kantonunun böyük bir qismi Türkiyəyə keçir. Adı çəkilən kantonun Cənubi Qafqaz daxilində qalan qismi o qədər məhdud və az bir şeydir ki, bu hüdud daxilində bir kanton təşkilindən qətiyyən bəhs oluna bilməz. Sayca ermənilər Cənubi Qafqazda çox olsalar da, onlar kiçik hissələr şəklində müsəlman ərazisinə səpilmiş bir halda olub, bu ayrı-ayrı parçalardan bir erməni kantonu biçmək nə coğrafiyaca mümkün, nə də felən təsəvvür olunur, müsəlman əhali belə bir təklifi dinləmək belə istəməz. İki kantonlu birləşmiş Qafqaz hökumətinə gəlincə, buna da gürcülər qətiyyən razı deyillər. Onlar işin belə müşkül bir şəklə müncər olacağı ilə hasil olacaq daxili anarxiyanı tam dərk edərək, özlərini sudan çıxarmaq üçün istinad olunacağını təxmin etdikləri yanğında iştirak etməmək, ermənilərlə əlaqəni pisləşdirməmək və eyni zamanda ərazilərini bir sel kimi gələcək erməni qaçqınlarına qarşı müdafiə etmək üçün öz istiqlallarını elan etməklə Qafqaz birliyindən çıxıb müstəqil bir siyasət yeritməyə qərar vermişlər. İş

bu dərəcəyə gəlincə, təbiidir ki, biz də Şimali Qafqaz ilə birlikdə Qafqaz müsəlmanlarının istiqlalını elan etməliyik. Fəqət indiki halda məsələnin belə bir şəkil alması müvafiqdirmi?

Bizə elə gəlir ki, Trabzonda ortaya qoyulan, Batumda bir daha bəyan edilən mülahizələrlə çox da müvafiq olmaz. Görəsən, Türkiyə, kiçik qardaşı olan Azərbaycan və ümumiyyətlə böyük türk siyasətindən ötrü hansı yol daha müvafiqdir? Öz daxilində intiqam hissi ilə yaşayan, daim fürsət axtaran və ilk imkan tapan kimi arxamızdan xəncərlə vurmaq zehniyyətində qalan bədxah erməni milli arzusu və hər zaman türk siyasəti əleyhinə xarici müdaxilələrə çalışıb, intriqalara vasitə olacaq bir milyon yarımlıq erməni kütləsi saxlamaq, yoxsa türk toplumları ilə əhatə olunmuş, hərbi-strateji cəhətdən zərərsiz və milli amalı təmin olunmuş kiçik bir erməni kantonu? Milli siyasətimiz nöqteyi-nəzərindən bizcə, ikinci yol daha münasib görünür. Doğrudur ki, Türkiyədə həyata keçirdikləri ocaqsız yanğınlar, xaincəsinə qaldırdıqları üsyanlar, indinin özündə də Qafqazda törətdikləri ağır cinayətlər ermənilərdən bəhs edərkən qeyz və kin hislərindən kənar soyuq bir halda bəhs etmək mümkün deyil. Fəqət bunu da bilirik ki, digər böyük dövlətlər kimi Böyük Türkiyə dövləti də yürütdüyü siyasətini hissiyat üzərində qurmur. Biz də erməni kantonu təsisindən bəhs etdikdə məqsədimiz erməniləri müdafiə etmək deyil, öz siyasətimiz, ümumi türk siyasəti nöqteyi-nəzərindən baxır və məsələni bu siyasət dairəsində həll etmək istəyirik".[371] Müraciətnamənin sonuna Azərbaycanın Batum sülh konfransındakı nümayəndələri olan M.H.Hacınski və M.Ə.Rəsulzadədən başqa Qazı Əhməd bəy (Xanbaba), A.Səfikürdski, Ə.C.Pepinov, M.Y.Cəfərov, F.X.Xoyski, N.Yusifbəyli və X.Xasməmmədov imza atmışdılar. Bu müraciətnamənin göndərilməsindən bir gün əvvəl – mayın 22-də Ə.Hüseynzadə və Ə.Ağaoğlu da Tələt paşaya və Ənvər paşaya bir müraciətnamə göndərmişdilər. Bu müraciətnamədə Ə.Hüseynzadə və Ə.Ağaoğlu Osmanlı hökumətinin tələb etdiyi ərazilərin əhalisinin əksəriyyəti erməni olduğu halda, erməni dövlətinin təşəkkülü

[371] BOA. HR.SYS. no. 2398/4. v. 12, s. 1-4.

üçün nəzərdə tutulan yerlərin bir çox qəzalarında əhalinin əksəriyyətinin müsəlmanlar olduğu və bu şəkildə erməni dövlətinin təşəkkül edə bilməyəcəyi, Osmanlı imperiyası tərəfindən işğal olunacaq ərazidə yaşayan ermənilərin də orada qalmayaraq Azərbaycan ərazisinə doğru axışmağa başlayacağı kimi arqumentlərində Seymin müsəlman fraksiyasının üzvləri ilə həmfikir olduqlarını qeyd etsələr də, problemin həlli üçün çıxış yolu kimi təklif edirdilər ki, heç bir halda erməni dövlətinin yaradılmasına imkan verilməsin və müsəlmanların üstünlüyü şəraitində Qafqaz konfederasiyası yaradılsın.[372]

Bütün bunlara baxmayaraq, Osmanlı hökuməti Batum konfransında irəli sürdüyü ərazi tələbləri üzərində israrla durmuşdu və heç bir güzəştə getmək fikrində deyildi. Xəlil bəyin Aleksandropolu ermənilərə güzəştə getmək üçün göstərdiyi bütün cəhdlər uğursuzluqla nəticələndi. Belə olan təqdirdə Xəlil bəy üçüncü bir yol seçdi ki, bu da Türkiyənin ermənilərdən aldığı torpaqların əvəzində azərbaycanlılara məxsus ərazilərin bir qismini onlardan alıb ermənilərə verməkdən ibarət idi. Bu təklif ilk əvvəl ermənilər tərəfindən irəli sürülmüşdü. Trabzon konfransı uğursuzluqla nəticələndikdən sonra Osmanlı hökumətinin tələbləri qarşısına silahla çıxmağın əsas tərəfdarı olan ermənilər indi daha da sərtləşən türk tələbləri qarşısında əlacsız bir vəziyyətə düşmüşdülər. Onlar "erməni məsələsi"nin beynəlxalq bir problem olduğunu önə çəkərək, Osmanlı hökumətinin ermənilərə ayırdığı ərazilərin erməni xalqının yaşaması üçün həddindən çox az olmasından şikayətlənir və bildirirdilər ki, Türkiyənin təklif etdiyi sərhədlər iki xalq arasında daimi bir düşmənçiliyə yol açacaqdır.[373] Erməni nümayəndələri sərt türk tələbləri qarşısında çıxış yolu kimi təklif edirdilər ki, heç olmasa Azərbaycan torpaqlarından müəyyən bir ərazi ermənilərə verilsin. Bunun qarşılığında ermənilərlə müsəlmanlar arasında olan düşmənçilik də aradan qalxacaq və ermənilər Bakıdakı müsəlman əhalinin təhlükəsizliyini təmin etməyi öz üzərlərinə

[372] BOA, HR.SYS, no. 2398/4, v. 19.
[373] Hovannisian R.G. Armenia on the Road to Independence, p. 195-196.

götürəcəklər.[374] Xəlil bəy bu məsələ ilə əlaqədar M.Ə.Rəsulzadə və M.H.Hacınski ilə bir sıra danışıqlar apardı və nəticədə Osmanlı yardımına böyük ehtiyac duyan Azərbaycan nümayəndələrinin razılığını ala bildi.[375] Xəlil bəy dərhal bu barədə İstanbula məlumat verdi, amma adı keçən təklifin guya Azərbaycan nümayəndələrindən ona gəldiyini önə çəkdi və bunu xüsusi vurğuladı. O, Tələt paşaya göndərdiyi 26 may tarixli teleqramında yazırdı: "...Müsəlman nümayəndələr bu gün səhər yanıma gəldilər. Bakıdakı vəziyyətlə bağlı çox qayğılıdırlar. Zira, bu şəhər ermənilərin əlindədir. Bunun üçün bizə tərk ediləcək ərazinin qarşı tərəfində ermənilərə onları qismən təmin edəcək bir kanton ayırmaq istədilər. Sonradan daşnaksütyunların xaricində olub da bu gün Tiflisdə əhəmiyyət kəsb edən nümayəndələr, bir erməni firqəsinin rəisi gəldi. O da bu şəkildə yekunun tərəfdarı göründü. Bizə əvvəlcə verilən təlimatlara istinad edərək Osmanlı hökumətinin belə bir kantonun ayrılmasına qarşı olmadığını bildirdim. Bunun üçün bir neçə gün müddət istədi. Və ultimatum veriləcəksə bunun heç olmasa üç gün müddət ilə verilməsini rica etdi. Belə bir razılıq əldə edilib gerçəkləşərsə əgər, adı keçən (erməni nümayəndəsi – V.Q.) İstanbula bir heyət göndərilərək Hökumət-i Səniyyəyə sədaqət ərz ediləcəyini də əlavə edərək, bir az da bizim tərəfə lütf və xoş münasibət göstərilməsini rica etdi. Ermənilər tərəfinə bu şəkildə göstəriləcək təzahürün Avropa və Amerikada yaradacağı təsir çox yaxşı olacaqdır".[376]

Lakin Ənvər paşa çox sərt bir şəkildə bu təklifə qarşı çıxdı. O, 27 may 1918-ci il tarixində Vehib paşaya göndərdiyi teleqramında yazırdı: "Xəlil bəyin teleqramından anlaşıldığına görə, ermənilər bizim onlardan aldığımız ərazilərin qarşılığında Cənubi Qafqaz müsəlmanlarına aid ərazidən bir qisim almaq istəyirlərmiş və müsəlmanlar da buna razılıq verəcəklərmiş. Məncə bu tamamilə yanlışdır. Əgər bu gün Qafqazda beş-altı yüz min əhalisi olan və kafi miqdarda əraziyə malik kiçik bir Ermənistan təşəkkül edərsə, gələcəkdə əmrləri Amerikadan alaraq, o tərəfdən gələn ermənilərlə

[374] ATASE. BDH. K. 2919, D. 499, F. 3-26.
[375] BOA, HR.SYS, no. 2371/6, v. 82.
[376] BOA. HR.SYS. no. 2371/6. v. 82-83.

bu hökumət milyonlarla əhaliyə sahib olacaqdır. Və bizim üçün şərqdə bir Bolqarıstan daha yaranar ki, bu da bizim üçün Rusiyadan daha zərərli bir düşmən olar. Çünki ermənilərin bütün mənafe və əməlləri bizim məmləkətimizdədir. Dolayısıyla, bu təhlükəni indidən ortadan qaldırmaq üçün ermənilərin kiçik bir hökumət halında belə təşəkkül etməməsini və müsəlmanlarla gürcülər arasında, bizim qüvvələrimizin yardımı və təsirinin ən çox olduğu bu dövrdə bölüşdürülməsini, müsəlmanların ermənilərə heç bir haqq və ərazi verməmələrini təmin etməyi və bununla yanaşı bu gün ermənilərin əlində olan müsəlmanların yaşadıqları İrəvan kimi məntəqənin belə müsəlmanlar tərəfindən işğal edilərək, bu surətlə müsəlmanlar yaşayan yerlərin ermənilərin əlindən qurtarılmasına xüsusilə cəhd göstərilməsini üstün tuturam. Mənafeyimizə ən çox uyğun olan bu şəkil gerçəkləşməzsə, onda ermənilərə də bir mövcudiyyət verilməsi qaçılmaz olar. Belə olan təqdirdə, ermənilərin gələcəkdə vücud bularaq yaşamayacaq surətdə olduqca çox zəif bir halda buraxılmalarına çalışmaq lazımdır. Həm hökumətimizin, həm də Qafqazdakı müsəlmanların indiki və gələcəkdəki mənafeləri ancaq bu surətlə təhlükədən qurtarıla bilər..."[377]

Buradan da açıq-aydın göründüyü kimi, Ənvər paşa da Tələt paşa ilə eyni mövqedən çıxış edərək, Qafqazda erməni dövlətinin yaranmasına imkan verməmək, ermənilərin yaşadığı əraziləri Azərbaycanla Gürcüstan arasında bölüşdürmək və müsəlmanların məskunlaşdığı əraziləri ermənilərdən təmizləmək istəyirdi. Bu mümkün olmadığı təqdirdə, Ənvər paşa yaranacaq erməni dövlətinin yaşamayacaq dərəcədə olduqca zəif bir şəkildə təşkil edilməsini vacib sayırdı və qətiyyətlə İrəvanın ermənilərə verilməsinə qarşı çıxırdı.

Amma Xəlil bəy Azərbaycan nümayəndələri ilə eyni mövqedən çıxış edərək bildirirdi ki, kiçik bir ərazidə də olursa olsun, erməni dövləti yaradılmalıdır və bölgədə səpələnmiş halda olan ermənilər bu dövlətdə yerləşdirilməlidir, həmçinin Aleksandropol da ermənilərə güzəştə gedilməlidir. O, Tələt paşaya göndərdiyi 28

[377] ATASE. BDH. K. 2919, D. 499, F. 3-31.

may 1918-ci il tarixli şifrəli teleqramında yazırdı: "...Vehib paşa həzrətləri Gümrüdə beş min evdən yalnız iki yüz evin müsəlman olduğunu və Aleksandropol sancağında iki yüz əlli min erməni yaşadığını və bizə ilhaqdan sonra necə idarə edilə biləcəyində çaşqın olduğunu söylədi. Yüzdə səksən beşi erməni olan Axalkələk qəzasıyla və digər yerlərlə bərabər olduqca dağlıq və sərb bir məmləkətdə dörd yüz minə yaxın ermənini özümüzə birləşdiririk. Allah sonunu xeyirli etsin. Rus ermənilərinin bizimkilərin tərbiyəçisi və müəllimi olduğunu da nəzəri-diqqətə alıram. Hərhalda çox xətalı bir yolu təqib etməkdə olduğumuzda israr edirəm. Ermənilərin Bolqarıstana bənzədilməsi fərqli müqayisədir. Bolqarıstan Avropada və İstanbul yolunun üzərindədir. Böyük Slavyan ailəsinin kiçik bir parçası və böyük bir siyasət pişdarıdır və bizi İstanbula doğru sıxışdıraraq arxasını böyük xristian dövlətlərinə istinad etdirmişdir. Asiyada və böyük türk dövlət və millətlərin əhatəsində qalacaq olan ermənilərin qonşularına tabe olmaqdan başqa çarəsi yoxdur. Bugünkü yarımçıq tədbir həm bizi, həm də Qafqazı yandıracaqdır və bəlkə məsələni daha da çətinliyə yuvarlayacaqdır".[378]

Tələt və Ənvər paşalardan fərqli olaraq, Vehib paşa da mövcud reallığı dəyərləndirən Xəlil bəylə eyni mövqedən çıxış edirdi. O, Ənvər paşanın teleqramına 29 may 1918-ci il tarixində verdiyi cavabda "verilən əmrləri yerinə yetirmək üçün çalışdıqlarını" bildirməklə yanaşı onu da qeyd edirdi ki, "erməniləri büsbütün qeyri-mövcud edə bilmərik. Hər halda onlara bir vücud vermək zərurət və məcburiyyətindəyik".[379] Batumdakı Osmanlı heyətinin mövqeyinə görə yaradılacaq erməni dövləti Eçmiədzin, İrəvan və Yeni Bəyazid qəzalarından ibarət olmalı idi.

Bu durum qarşısında Ənvər paşa Batuma göndərdiyi 29 may tarixli təlimatında Osmanlı imperiyasının mərkəzi Gəncə olan hökumətlə (Azərbaycanla) birbaşa sərhədinin olmasının vacibliyini bildirirdi.[380] Ənvər paşanın mövqeyinə görə, Qarakilsənin şima-

---

[378] BOA. HR.SYS. no. 2371/6. v. 89-90.
[379] ATASE, BDH, K. 2919, D. 499, F. 3-26.
[380] ATASE. BDH. K. 2930, D. 553, F. 4.

lından da Osmanlı imperiyasının Azərbaycanla birbaşa sərhədi olmalı idi. Belə olan təqdirdə Osmanlı imperiyasının bir tərəfdən Naxçıvandan, digər tərəfdən də Qarakilsədən Azərbaycanla sərhədi olurdu.[381] Ermənistanın isə Gürcüstanla birbaşa əlaqəsi kəsilirdi və o, Osmanlı imperiyası ilə Azərbaycan arasında bir ada şəklində qalırdı.

Nəticə etibarilə, baş komandan vəkili və hərbi nazir Ənvər paşanın bütün xəbərdarlıqlarına baxmayaraq, Xəlil bəyin rəhbərlik etdiyi Batumdakı Osmanlı heyəti Azərbaycan torpaqları hesabına ermənilərin lehinə bir sıra ərazi güzəştlərinə gedərək, İrəvan şəhəri mərkəz olmaqla Aleksandropol, Eçmiədzin və İrəvan qəzalarının Osmanlı imperiyasına keçən hissələri istisna olmaqla, yerdə qalan ərazilərindən və Yeni Bəyazid qəzasından ibarət bir Ermənistan dövlətinin qurulmasını təsdiqlədi.[382] 4 iyun 1918-ci il tarixində imzalanmış Batum müqavilələrinin şərtlərinə görə Ermənistan Respublikası Cənubi Qafqazda cəmi 9 min km$^2$ ərazisi olan bir dövlət oldu. Ermənilər onlara ayrılan ərazinin azlığından yenidən şikayətləndikdə, Vehib paşa bildirdi ki, ermənilərə daha çox ərazinin qalması üçün Ermənistan daxilindəki bütün müsəlmanları böyük məmnuniyyətlə Türkiyəyə köçürə bilərik.[383]

Batumdakı Azərbaycan və erməni nümayəndələri arasında da ərazi-sərhəd məsələləri ilə bağlı danışıqlar aparıldı və razılıq əldə edildi ki, Azərbaycan tərəfi "Aleksandropol quberniyası" hüdudlarında erməni dövlətinin yaradılmasına razılaşır, bunun qarşılığında ermənilər Yelizavetpol quberniyasının bir hissəsinə, konkret olaraq Qarabağın dağlıq hissəsinə olan iddialarından imtina edirlər.[384] Erməni dövlətinin Azərbaycanla olan şərq sərhədinin Göyçə gölünə dayanması da qərarlaşdırıldı.

[381] BOA. HR. SYS, no. 2399/1, v. 14.
[382] BOA, HR.SYS, no. 2372/3, v. 94; no. 2372/1, v. 68, 69, 75.
[383] Ermeni Komitelerinin İhtilal Hareketleri ve Besledikleri Emeller. Hazırlayan: İsmet Parmaksızoğlu. Ankara: DSİ Basım ve Foto-Film İşletme Müdürlüğü, 1981, s. 133
[384] BOA. HR.SYS. no. 2372/3. v. 94; ARPİSSA, f. 276, siy. 9, iş 1, v. 47.

Azərbaycan Milli Şurasının 1918-ci il mayın 29-da Həsən bəy Ağayevin sədrliyi ilə keçirilən iclasında İrəvanın Ermənistana güzəştə gedilməsi məsələsi müzakirə olundu. Baş nazir F.X.Xoyski Ermənistanla Azərbaycan arasında sərhəd məsələləri barədə Şuranın üzvləri ilə Ermənistan Milli Şurasının üzvləri arasında aparılmış danışıqlar haqqında məlumat verdi. Fətəli Xan öz məruzəsində ermənilərin özlərinin siyasi mərkəzlərini yaratmaq üçün Aleksandropol türklər tərəfindən tutulduqdan sonra İrəvanın Ermənistana güzəştə gedilməsinin qaçılmaz olduğunu bəyan etdi. Daha sonra bu məsələ ilə bağlı X.Xasməmmədov, M.Y.Cəfərov, Ə.Şeyxülislamov və M.Məhərrəmov çıxış edərək İrəvanın ermənilərə güzəştə gedilməsinin tarixi zərurət, lakin bizim üçün qaçılmaz acı bir həqiqət olduğunu qeyd etdilər. Nəticədə bu məsələ ilə bağlı səsvermədə iştirak edən 20 nəfər Milli Şura üzvündən 16 nəfəri "İrəvanın ermənilərə güzəştə gedilməsi" təklifinin lehinə, 1 nəfəri əleyhinə səs verdi, 3 nəfər isə bitərəf qaldı.[385] Bununla da İrəvanın Ermənistana güzəştə gedilməsi məsələsi ermənilərin xeyrinə həll edilmiş oldu.

Beləliklə, Osmanlı imperiyası Azərbaycan torpaqlarından ibarət kiçik bir ərazidə öz nəzarəti altında olacaq bir erməni dövləti yaratdı və İstanbul hökuməti onu de-fakto tanıyan ilk dövlət oldu. Bununla da Osmanlı hökuməti bir tərəfdən "erməni məsələsi" ilə bağlı beynəlxalq aləmdə ona qarşı olan "qınağ"ı aradan qaldırmış olur, digər tərəfdən də İngiltərə, Fransa və Rusiya kimi dövlətlərin Şərqi Anadoluda yaratmaq istədikləri erməni dövlətini Cənubi Qafqazda yaratmaqla problemi bir növ özündən uzaqlaşdırmış olurdu.

Batum danışıqları 1918-ci il iyunun 4-də Osmanlı imperiyası ilə Azərbaycan Cümhuriyyəti arasında "Dostluq", Osmanlı imperiyası ilə Gürcüstan və Ermənistan respublikaları arasında isə "Sülh və Dostluq" müqavilələrinin imzalanması ilə nəticələndi.

"Səltənət-i Səniyyə-i Osmaniyyə ilə Azərbaycan Hökumət-i Cümhuriyyəsi arasında Dostluq Müqaviləsi"ni Osmanlı hökuməti

---

[385] ARDA. f. 970, siy. 1. iş 1, v. 51.

adından ədliyyə naziri və Dövlət Şurasının sədri Xəlil bəy Menteşə və Osmanlı Orduları Qafqaz Cəbhəsinin komandanı Ferik Mehmed Vehib paşa, Azərbaycan Cümhuriyyəti hökuməti adından xarici işlər naziri Məhəmməd Həsən Hacınski və Milli Şuranın sədri Məhəmməd Əmin Rəsulzadə imzaladılar. Müqavilə 11 maddə, iki əlavə və bir keçici (müvəqqəti) əlavədən ibarət idi.[386]

Müqavilənin birinci maddəsinə görə, Osmanlı hökuməti ilə Azərbaycan Cümhuriyyəti hökuməti arasında daimi sülh və möhkəm dostluq bərqərar olacaqdı.

İkinci maddədə Osmanlı imperiyası ilə Azərbaycan, Gürcüstan və Ermənistan respublikaları arasında sərhəd xətti müəyyən edilirdi. Bu maddə Osmanlı imperiyasının Batumda Gürcüstan və Ermənistan respublikaları ilə imzaladığı müqavilələrin ikinci maddələri ilə eyniyyət təşkil edirdi və Türkiyənin bütövlükdə Cənubi Qafqaz ilə sərhədini təsbit edirdi. Bu maddəyə görə, Qars, Ordəhan və Batum vilayətlərindən əlavə Tiflis quberniyasının Abastuman və Askueri istisna olmaqla, Axıska və Axalkələk qəzaları, İrəvan quberniyasının Aleksandropol qəzasının mərkəzi şəhəri də daxil olmaqla qəzanın qərb hissəsi, Sürməli qəzası tamamilə, Eçmiədzin qəzasının Sərdarabad hissəsi, İrəvan qəzasının Kəmərli, Uluxanlı və Vedibasar bölgələri, Şərur-Dərələyəz qəzasının Şərur hissəsi və Ordubad istisna olmaqla Naxçıvan qəzası Osmanlı imperiyasına keçirdi. Osmanlı-Ermənistan sərhədi İrəvanın lap yaxınlığından keçirdi. Aleksandropol-Culfa dəmir yolu da tamamilə Osmanlı imperiyasının nəzarətinə keçirdi. Batum müqavilələri ilə təsbit edilən Osmanlı-Cənubi Qafqaz sərhəd xətti nəinki 1877-1878-ci illər Rusiya-Osmanlı müharibəsinə qədərki türk-rus sərhədini, hətta 1828-1829-cu illər rus-türk müharibəsinə qədərki sərhəd xəttini də aşırdı. Onu da qeyd edək ki, Batum müqavilələrində təsbit edilən sərhəd xətti hələ may ayının 5-də Ənvər paşa tərəfindən Batumdakı türk heyətinə göndərilmişdi və Xəlil bəy tərəfindən bu sərhəd xəttinə cüzi dəyişikliklər edilməklə Cənubi Qafqaz respublikalarına qəbul etdirildi.

[386] BOA, HR.SYS, no. 2373/4, v. 3, s. 1-3; ARPİİSSA, f. 277, siy. 2, iş 9, v. 51-52; ARDA. f. 894. sıy. 2. iş 88, v. 1-3.

Osmanlı imperiyası ilə Azərbaycan Cümhuriyyəti arasında imzalanan müqavilənin üçüncü maddəsində qeyd edilirdi ki, Azərbaycan və Ermənistan respublikaları hökumətləri arasında sərhədin müəyyən edilməsinə dair imzalanan protokol barədə Osmanlı hökumətinə məlumat veriləcək və həmin protokol bu müqavilənin bir hissəsini təşkil edəcəkdir.

Azərbaycan üçün ən önəmli olan dördüncü maddədə göstərilirdi ki, Azərbaycan Cümhuriyyəti hökuməti tərəfindən tələb edildiyi təqdirdə Osmanlı hökuməti ölkədə qayda-qanunu və daxili asayişi təmin etmək və möhkəmləndirmək üçün Azərbaycana zəruri hərbi yardım göstərməyi öz öhdəsinə götürür.

Beşinci maddəyə görə, Azərbaycan Cümhuriyyəti hökuməti öz sərhədləri daxilində heç bir quldur dəstənin formalaşmasına və silahlanmasına imkan verməməyi və bura sığınacaq bütün quldurları da tərksilah etməyi və onları dağıtmağı öz üzərinə götürürdü.

Altıncı maddəyə görə, tərəflər dəmir yolu daşınmalarında azaldılmış tariflər müəyyənləşdirmək və tətbiq etməklə bir-birinə hər cür şərait yaratmalı idilər.

Yeddinci maddəyə görə, Osmanlı imperiyası ilə Azərbaycan Cümhuriyyəti hökuməti iqtisadi və hüquqi münasibətlərini tənzimləmək üçün konsul konvensiyası, ticarət müqaviləsi və digər aktlar bağlamalı idilər.

Səkkizinci maddəyə görə, sazişə girən tərəflərin birinin ərazisindəki əhali və ya şəxsləri sərhədin digər tərəfində qalmış mal və mülkünə sahib olmağa, istifadə edə bilənlərin bunlardan istifadəsinə, onlardan faydalanmağa və yaxud birinə verməyə, onları özləri və yaxud vəkilləri vasitəsilə satmağa haqları olacaqdı. Heç kim, ümumi mənfəət xaricində, təzminat ödənmədən qeyd olunan bu daşınmaz əmlakdan məhrum edilməməli idi. Əhali və onların qeyd olunan vəkilləri sərhədin digər tərəfində təsdiq olunmuş yol vəsiqəsini göstərdikdən sonra, onların sərhədi keçməsinə heç bir manеə törədilməməli idi.

Doqquzuncu maddəyə görə, Azərbaycanın beynəlxalq poçt-teleqraf ittifaqına girməsinə qədər iki ölkə arasında poçt-teleqraf münasibətləri bu müqavilənin təsdiqnamələrinin mübadiləsindən

etibarən beynəlxalq ittifaqın poçt-teleqraf konvensiyalarına, sazişlərinə və nizamnaməsinə uyğun olaraq təsis edilməli idi.

Onuncu maddəyə görə, Brest-Litovskda Osmanlı imperiyası və onun müttəfiqləri ilə Rusiya arasında imzalanan müqavilələrin indiki müqaviləyə zidd olmayan şərtləri Türkiyə ilə Azərbaycan arasında qüvvədə qalacaqdı.

On birinci maddəyə görə, bu müqavilə ratifikasiya edilməli, təsdiqnamələr bir ay və yaxud mümkün olduğu qədər daha tez bir müddətdə İstanbulda mübadilə edilməli idi.[387]

Eyni şəxslər elə həmin tarixdə "Dostluq Müqaviləsi"nə iki əlavə və bir keçici (müvəqqəti) əlavə müqavilə də imzaladılar.

Birinci əlavə müqavilə 9 maddədən ibarət idi və iki ölkə arasında ticarət və sərbəst gediş-gəliş əlaqələrinin qurulmasına aid idi. Bu müqavilə ilə tərəflər dərhal ticarət əlaqələrinə girməyi və bunun üçün lazımi şərait yaratmağı, sərbəst tranzitə icazə verməyi və iki ölkə arasında ticarətdə aşağı gömrük rüsumları tətbiq etməyi öhdələrinə götürürdülər. Müqavilə müharibənin sonunadək (belə nəzərdə tutulmuşdu ki, 31 dekabr 1919-cu ilədək) qüvvədə olmalı idi.[388]

"Sərhədə yaxın yerlərdə ticarətə xüsusi icazə" adlanan ikinci əlavə müqavilə 3 maddədən ibarət idi. Bu müqaviləyə görə, hər iki tərəfdən sərhəd xəttindən 15 kilometrə qədər aralıqda yerləşən sərhədboyu ərazi daxilində lazımi tələbatı ödəmək məqsədi ilə əhalinin gündəlik ticarəti üçün bir sıra imtiyazlar tətbiq edilirdi. Sərhəd rayonlarında ticarət edənlər (qatarla olan keçidlər istisna olmaqla) gömrük rüsumlarından, o cümlədən digər vergi və rüsumlardan azad edilirdilər. Sərhəd ərazilərin sakinləri yerli icra orqanları tərəfindən verilmiş və gömrük orqanları tərəfindən təsdiq edilmiş sərhədi keçmək icazəsi verən sənədlər (pasavanlar) vasitəsilə digər tərəfin ərazisinə sərbəst şəkildə keçə bilərdilər. Bu pasavanlar on beş gün müddətində qüvvədə olmalı idi.[389]

---

[387] BOA, HR.SYS, no. 2373/4, v. 3, s. 1-3; ARPİİSSA, f. 277, siy. 2, iş 9, v. 51-52; ARDA, f. 894, siy. 2, iş 88, v. 1-3.
[388] BOA, HR.SYS, no. 2373/4, v. 5; ARPİİSSA, f. 277, siy. 2, iş 9, v. 53.
[389] BOA, HR.SYS, no. 2373/4, v. 2; ARPİİSSA, f. 277, siy. 2, iş 9, v. 56.

Keçici (müvəqqəti) əlavə müqavilə müharibənin doğurduğu bir sıra hərbi məsələləri həll etmək məqsədilə bağlanmışdı. Müqavilə 6 maddədən ibarət idi.

Birinci maddəyə görə, Azərbaycan Cümhuriyyəti hökuməti Osmanlı imperiyası və ya onun müttəfiqləri ilə müharibə vəziyyətində olan dövlətlərin və onların müttəfiqlərinin əsgər və zabitlərini öz ərazisindən çıxarmağı və müharibə davam etdiyi müddətdə bu kimilərini yenidən hərbi və hökumət qulluğuna qəbul etməməyi öz üzərinə götürürdü.

Yeddi bənddən ibarət olan ikinci maddəyə görə, Azərbaycan Cümhuriyyəti hökuməti öz sərhədləri daxilində Osmanlı ordusunun hər cür hərbi yüklər, əsgəri birliklər, əşya və hərbi ləvazimat, ərzaq və cəbbəxana və s. daşımasına icazə verirdi. Bu məqsədlə Osmanlı ordusu tərəfindən təyin olunacaq bir komissiya Azərbaycan Cümhuriyyəti hökuməti tərəfindən yaradılacaq komissiya ilə hərbi yüklərin daşınması məsələlərini müştərək həll etməli idi. Komissiyalar bu müqavilənin imzalanmasından bir həftə sonra hələlik Gəncədə fəaliyyətə başlamalı idi. Azərbaycan hökuməti dəmir yollarının vəziyyətinə dair bütün məlumatları təqdim etməli, həmçinin yolları lazımi vəziyyətdə saxlamalı, dağıntıları və ziyanları tez bərpa etməli idi. Azərbaycan hökuməti öz silahlı qüvvələri ilə dəmir yollarını hər hansı mümkün hücum və dağıntılardan qorumalı idi. Əgər Azərbaycan hökuməti dəmir yollarını öz gücü ilə qoruya bilməzdisə, onda əsgəri qoruma Osmanlı ordusu tərəfindən həyata keçiriləcəkdi. Osmanlı ordusu mümkün olduğu qədər Azərbaycan dəmir yollarında nəqliyyat problemi yaratmamağa çalışacaqdı.

Üçüncü maddəyə görə, Azərbaycan Cümhuriyyəti hökuməti Osmanlı imperiyası tərəfindən tələb edildiyi təqdirdə Bakı limanındakı müəssisələri, Xəzər dənizində olan ona aid gəmiləri və digər nəqliyyat vasitələrini hərbi məqsədlərlə istifadə etmək üçün Osmanlı hökumətinin əmrinə verməyi öz üzərinə götürürdü.

Dördüncü maddəyə görə, Osmanlı hökuməti ikinci və üçüncü maddələrdə əldə etdiyi hüquqlardan onunla müttəfiq olan dövlətlərin ordularına da istifadə etdirə bilərdi.

Beşinci maddəyə görə, Osmanlı hökuməti Azərbaycan Cümhuriyyətinin bütün yollarından hərbi məqsədlər üçün istifadə edə bilərdi.

Altıncı maddəyə görə, bu müqavilə tezliklə təsdiq edilməli və təsdiqnamələr bir ay və ya mümkün olan daha tez bir zamanda İstanbulda mübadilə edilməli idi.[390]

Qeyd edək ki, Azərbaycan Cümhuriyyəti (1918-1920) dövrünün tədqiqatçılarından olan C.Həsənov və M.Qasımov səhvən bu əlavə müqavilənin iki maddədən ibarət olduğunu və bunun 1918-ci il iyun ayının 14-də imzalandığını iddia edirlər.[391] Lakin apardığımız araşdırmaların nəticələri göstərdi ki, bu müqavilə iki deyil, altı maddədən ibarətdir və iyunun 4-də Batum müqavilələri çərçivəsində "Müvəqqəti əlavə müqavilə" adı ilə imzalanmışdır.[392]

Osmanlı imperiyası ilə Azərbaycan, Gürcüstan və Ermənistan respublikaları arasında imzalanmış 4 iyun 1918-ci il tarixli Batum müqavilələrinə əlavə olaraq, elə həmin gün Türkiyəyə bir sıra imtiyazlar verən daha iki saziş (itilafnamə) də bağlandı. Birinci saziş Bakı ilə Batum arasında neft axınının davamlılığını təmin etməklə bağlı idi və Osmanlı imperiyası ilə Azərbaycan və Gürcüstan respublikaları arasında imzalandı. Sazişə görə Bakı ilə Batum arasında neft məcraları (neft boru xətləri) hal-hazırkı vəziyyətlərində qorunmalı idi. Neftin daimi olaraq axması üçün tərəflərin hər biri öz ərazisindəki neft boru xəttini mütəmadi mühafizə etməyi təəhhüd edirdi. Neftin nəqli üçün münasib bir vergi müəyyənləşdirilməli və bu vergi sazişdə iştirak edən tərəflər arasında hər bir ölkənin ərazisindən keçən boru xəttinin uzunluğuna uyğun olaraq bölüşdürülməli idi. Sazişin sonunda o da qeyd edilirdi ki, "bu maddələrə və hökmlərə aid təfərrüat, yuxarıda qeyd olunan hökumətlərin təyin etdikləri nümayəndələrdən təşkil olunacaq bir komissi-

[390] BOA, HR.SYS, no. 2373/4, v. 1; ARPİİSSA, f. 277, siy. 2, iş 9, v. 57-58.

[391] Həsənov C. Azərbaycan beynəlxalq münasibətlər sistemində, s. 96; Qasımov M. Birinci dünya müharibəsi illərində böyük dövlətlərin Azərbaycan siyasəti. II h., s. 167.

[392] BOA. HR.SYS. no. 2373/4. v. 1; ARPİİSSA. f. 277, siy. 2. iş 9. v. 57-58.

ya tərəfindən qərarlaşdırılacaqdır".[393] Sazişi Türkiyə tərəfdən Xəlil bəy Menteşə və Mehmed Vehib paşa, Azərbaycan tərəfdən M.H.Hacınski və M.Ə.Rəsulzadə, Gürcüstan tərəfdən N.Ramişvili, Q.Qvazava, İ.Odişelidze və Q.Rçxiladze imzaladılar. Bu saziş Azərbaycan neftinin dünya bazarına çıxmasını təmin edirdi və Osmanlı hökuməti də bunda maraqlı idi.

İkinci saziş Cənubi Qafqaz dəmir yollarına aid idi və dörd dövlət – Osmanlı imperiyası, Azərbaycan, Gürcüstan və Ermənistan respublikaları arasında imzalandı. Sazişi Türkiyə, Azərbaycan və Gürcüstan tərəfdən yuxarıda qeyd olunan birinci sazişə imza atan nümayəndələr və Ermənistan tərəfdən A.Xatisov, M.Papacanov və R.Kaçaznuni imzaladılar. Sazişdə qeyd edilirdi ki, "əvvəllər Rusiya dövlətinin mülkiyyəti olan Cənubi Qafqaz dəmir yol nəqliyyat vasitələrinin hamısı müqavilə imzalayan tərəflərin ərazi hüdudlarına uyğun olaraq dörd tərəf arasında bölüşdürüləcək".[394]

C.Həsənov 1918-ci il iyun ayının 14-də Batumda Azərbaycanla Türkiyə arasında "Dostluq" müqaviləsinə əlavə olaraq daha bir sazişin imzalandığını iddia edir və qeyd edir ki, "bu saziş əsasında 4 iyun müqaviləsinin Almaniya və Avstriya-Macarıstana da aid olduğu bildirilir, Türkiyə Azərbaycanın istiqlaliyyətinin öz müttəfiqləri tərəfindən tanınacağı barədə üzərinə təəhhüdlər götürürdü".[395*] Qeyd edək ki, Batum danışıqlarının gedişi və imzalanan müqavilələrlə bağlı Azərbaycan və Türkiyə arxivlərində apardığımız araşdırmalar zamanı bu məsələ ilə əlaqədar hər hansı bir qeydə və ya sənədə rast gəlmədik və belə bir sazişin imzalanmadı-

---

[393] BOA, HR.HMŞ.İŞO, no. 123/74, v. 1-2; no. 106/8, v. 106-107; HR.SYS, no. 2375/8, v. 7; ATASE, BDH, K. 3195, D. 90, F. 27-1; ARPİİSSA. f. 277, siy. 2, iş 9. v. 65; Документы и материалы по внешней политике Закавказья и Грузии, с. 364.

[394] BOA, HR.HMŞ.İŞO, no. 124/19, v. 1, 7; HR.SYS, no. 2375/8, v. 8; ATASE, BDH, K. 3195, D. 90, F. 27-2, ARPİİSSA. f. 277, siy. 2, iş 9. v. 63; Документы и материалы по внешней политике Закавказья и Грузии, с. 365.

[395] Həsənov C. Azərbaycan beynəlxalq münasibətlər sistemində, s. 96.

* M.Qasımov da eyni iddia ilə çıxış edir (Qasımov M. Birinci dünya müharibəsi illərində böyük dövlətlərin Azərbaycan siyasəti. II h., s. 167).

ğı qənaətinə gəldik. Əslində Batum müqavilələrinin imzalanmasından az sonra Osmanlı hökuməti açıq-aydın bəyan etdi ki, "Qafqaz hökumətləri ilə sülh bağlamaq qətiyyən onların istiqlallarını tanımaq demək deyildir. Qafqaz hökumətlərinin istiqlallarını tanımağa nə hüquqi, nə də feli imkan yoxdur".[396] Ola bilər ki, Batumdakı Osmanlı nümayəndələri belə bir öhdəliyi öz üzərlərinə götürsünlər. Amma bu da gerçəkliyə uyğun deyil. Gerçək olan isə odur ki, Batum müqavilələrində bu müqavilələrin ratifikasiyası üçün ən geci bir ay müddət nəzərdə tutulsa da, Osmanlı hökuməti bu müqavilələrin ratifikasiyası ilə bağlı hüquqi prosedurları yerinə yetirmədi. Batum müqaviləsi birtərəfli olaraq yalnız Azərbaycan Cümhuriyyəti tərəfindən Milli Şuranın 17 iyun 1918-ci il tarixində Gəncədə keçirilən iclasında ratifikasiya edilib, iyulun 6-da ratifikasiya sənədləri Azərbaycan hökuməti tərəfindən Osmanlı Xarici İşlər Nazirliyinə təqdim edildi.[397] Osmanlı hökuməti tərəfindən ratifikasiya edilməyən bu müqavilə hüquqi cəhətdən qüvvəyə minməmişdi. Bab-ı Ali Hüquq Müşavirliyi tərəfindən Tabiyət Müdiriyyətinə göndərilən 14 avqust 1918-ci il tarixli məlumatda açıq-aydın qeyd edilirdi ki, "Azərbaycan Cümhuriyyəti  hökuməti ilə imzalanan müqavilənin qeyd edilən hökumətin Milli Şurası tərəfindən təsdiq edilmiş olduğu Milli Şura sədri M.Ə.Rəsulzadənin imzası olan qərarnamə surətindən aydınlaşsa da, bu müqavilənin təsdiqnamələri indiyədək mübadilə edilmədiyindən Hökumət-i Səniyyəcə Azərbaycan hökuməti hələ ki rəsmən tanınmış deyildir... Ancaq əhalisinin mənşəyi nəzərə alınaraq, bunlara qarşı rus təbəələrindən daha isti münasibət göstərilməsi müvafiqdir".[398] Göründüyü kimi, burada mürəkkəb və bir sıra ziddiyyətlərin olduğu bir hal hökm sürür. Osmanlı hökuməti tərəfindən ratifikasiya edilməyən və təsdiqnamələri mübadilə edilməyən bir müqavilə necə olur ki, fel.ən icra olunur? Osmanlı hökuməti mətnini özü tərtib

[396] BOA, HR.SYS, no. 2373/1, v. 35.
[397] ARPİİSSA, f. 277, siy. 2, iş 8, v. 23; Memmetzade M.B. Devletler Arası Münasebetlere Dair Vesikalar // Azerbaycan Yurt Bilgisi. Temmuz-Ağustos 1934, no. 31-32, s. 261.
[398] BOA. HR.HMŞ.İŞO, no. 107/7, v. 16; no. 124/13. v. 17.

etdiyi bir müqaviləni ratifikasiya etməkdən nə üçün yayınmışdır? Yoxsa bu müqaviləyə sığınaraq Osmanlı hərbi dairələri Azərbaycana müdaxilənin beynəlxalq aləmdə "təcavüz və işğal" kimi dəyərləndirilməməsini istəyirdilər? Burada iki faktor üzərində dayanmaq olar. Birincisi, Almaniya faktorudur ki, almanlar Osmanlı imperiyasının Qafqaza doğru genişlənməsindən və neftlə zəngin olan Azərbaycanda təkbaşına müstəsna imtiyazlar qazanmasından məmnun olmamışdılar. Ona görə də, Almaniya iyunun 7-də Osmanlı imperiyasının Cənubi Qafqaz respublikaları ilə imzaladığı müqavilələri, 28 sentyabr 1916-ci il tarixli Almaniya-Osmanlı müqaviləsinin üçüncü maddəsinə istinadən tanımayacağını bəyan etmişdi.[399] Bu maddəyə görə, "tərəflər qarşılıqlı olaraq ümumi düşmən dövlətlər ilə təkbaşına müqavilə imzalamamağı təəhhüd edirdilər".[400] Buna görə, Osmanlı hökumətinin təkbaşına imzaladığı müqavilələr Almaniya tərəfindən tanınmadığı təqdirdə etibarsız sayılırdı. Qafqazla bağlı Almaniya və Osmanlı dövlətləri arasında olan fikir ayrılıqları artıq bu dövrdə əməlli-başlı ziddiyyətlərə çevrilmişdi və iki dövlət arasında münasibətlər kəsilmə həddinə çatmışdı. Bu səbəbdən dünya müharibəsinin davam etdiyi bir dövrdə Almaniya kimi müttəfiqini itirməkdən çəkinən Osmanlı hökumətinin siyasi manevr edərək Batum müqavilələrini ratifikasiya etməkdən yayındığını ehtimal etmək olar. Amma bu reallığa o qədər də uyğun görünmür. Çünki Almaniya istinad etdiyi 28 sentyabr 1916-ci il tarixli müqavilənin üçüncü maddəsini özü Osmanlı hökumətindən əvvəl pozaraq 1918-ci il mayın 28-də Gürcüstanla birtərəfli qaydada bir sıra müqavilələr imzalamışdı. Bu səbəbdən Almaniyanın etirazları qarşısına tutarlı arqumentlərlə çıxmaq üçün türklərin əlində kifayət qədər əsaslar var idi.

İkincisi, Ənvər paşa faktorudur ki, Osmanlı-Azərbaycan münasibətləri araşdırılan zaman bu faktor diqqət mərkəzində saxla-

---

[399] Bihl W. Die Kaukasus Politik der Mittelmächte, T. II, p. 77; Zürrer W. Kaukasien 1918-1921, p. 85; Jaschke G. Der Turanismus der Jungturken, p. 36-37.
[400] Yılmaz V. Inci Dünya Harbi`nde Türk-Alman İttifakı ve Askeri Yardımlar, s. 152.

nılmalıdır. Ənvər paşanın turançı siyasətinin qarşısına Sarıqamış əməliyyatı ilə sədd çəkilsə də, 1917-ci il Oktyabr çevrilişindən sonra Rusiyanın müharibədən çıxması və ölkədə gedən vətəndaş müharibəsi ilə əlaqədar anarxiyanın hökm sürməsi, habelə Qafqazda cərəyan edən siyasi və hərbi proseslər bu siyasətin gerçəkləşməsi yolunda böyük ümidlər yaratmışdı. Orta Asiyanı da Osmanlı bayrağı altında birləşdirmək istəyən Ənvər paşa Azərbaycana Turan yolunda bir körpü kimi baxırdı. Cənubi Qafqaz federasiyasının parçalanması və milli respublikaların yaranması dövründə beynəlxalq vəziyyət, o cümlədən Azərbaycandakı siyasi şərait (Azərbaycan milli azadlıq hərəkatının liderləri Osmanlı yardımına böyük ehtiyac duysalar da, Azərbaycanın Osmanlı imperiyasına birləşdirilməsinin qəti əleyhinə idilər və milli dövlətçiliyi hər şeydən üstün tuturdular) bölgənin Türkiyəyə ilhaq edilməsi üçün qətiyyən əlverişli deyildi. Bu səbəbdən İstanbul hökuməti ilkin mərhələdə Azərbaycanın Osmanlı imperiyası ilə sıx ittifaqda və onun himayəsində olmasını qəbul edirdi. Batum müqavilələrinin ayrı-ayrılıqda diqqətlə araşdırılması zamanı belə bir nəticəyə gəlmək olur ki, burada Osmanlı imperiyasının himayəsində olan bir Azərbaycanın yalnız de-fakto olaraq tanınmasından söhbət gedirdi.

Beləliklə, 1918-ci il may ayının 11-dən iyunun 4-nə qədər davam edən Batum konfransının Azərbaycan üçün aşağıdakı nəticələri oldu:

Birincisi, Osmanlı hökumətinin Trabzon konfransından fərqli olaraq, Batumda daha da sərtləşən tələbləri qarşısında vahid fikrə gələ bilməyən Cənubi Qafqaz sülh nümayəndə heyəti, o cümlədən Seym fraksiyaları arasında onsuz da mövcud olan fikir ayrılıqları və ziddiyyətlər daha da dərinləşdi və nəticədə 1918-ci il mayın 26-da Cənubi Qafqaz federasiyası dağıldı. Gürcüstanın müstəqilliyi elan olunandan iki gün sonra – 1918-ci il mayın 28-də Azərbaycan Milli Şurası tərəfindən də Azərbaycanın müstəqilliyi elan edildi. Azərbaycan Cümhuriyyətinin yaranması ilə XIX əsrin əvvəllərində itirilmiş milli dövlətçilik bərpa edildi.

İkincisi, Trabzon konfransında Osmanlı hökumətinin Brest-Litovsk sülhü ilə bağlı tələblərini qəbul etməyən və nəticədə mü-

haribəyə rəvac verən erməni və gürcülərdən fərqli olaraq Azərbaycan nümayəndələrinin sülh tərəfdarı olmalarına və sonadək Türkiyə ilə müharibəyə qarşı mübarizə aparmalarına baxmayaraq, sonda Ermənistan və Gürcüstanla paralel olaraq Azərbaycan da ərazi itkilərinə məruz qaldı. Azərbaycan tərəfi Brest-Litovsk müqaviləsinin Qafqazla bağlı şərtlərini qəbul etməklə yanaşı, Tiflis quberniyasının Abastuman və Askueri istisna olmaqla Axıska və Axalkələk qəzalarının, İrəvan quberniyasının Aleksandropol qəzasının qərb hissəsinin, Eçmiədzin qəzasının Sərdarabad hissəsinin, Sürməli qəzasının tamamilə, Şərur-Dərələyəz qəzasının Şərur hissəsinin, Ordubad istisna olmaqla Naxçıvan qəzasının və İrəvan qəzasının Kəmərli, Uluxanlı və Vedibasar bölgələrinin Türkiyəyə keçdiyini təsdiq etdi, habelə tarixi Azərbaycan torpağı olan İrəvan bölgəsində İrəvan şəhəri mərkəz olmaqla erməni dövlətinin yaradılmasını qəbul etməli oldu.

Üçüncüsü, Osmanlı imperiyası ilə Azərbaycan Cümhuriyyəti arasında imzalanan Batum müqavilələri ilə Türkiyəyə Azərbaycanda geniş fəaliyyət sərbəstliyi və müstəsna hüquqlar verildi. Azərbaycanın təbii sərvətlərindən və bütün kommunikasiya vasitələrindən istifadə etmək hüququ alan Osmanlı hökuməti tələb etdiyi təqdirdə, Azərbaycan hökuməti Bakı limanındakı müəssisələri, Xəzər dənizində olan ona aid gəmiləri və digər nəqliyyat vasitələrini hərbi məqsədlərlə istifadə etmək üçün ona verməli idi. Bu, Osmanlı hökumətinin turançı siyasətinin təkcə Azərbaycan və Qafqazla məhdudlaşmayıb, eyni zamanda, Orta Asiyaya da yönəldiyini göstərirdi.

Dördüncüsü, Batum müqavilələri ilə Azərbaycan Cümhuriyyəti hökuməti ölkəyə Osmanlı hərbi yardımını təmin etdi. Azərbaycan hökuməti tərəfindən tələb edildiyi təqdirdə Osmanlı hökuməti ölkədə qayda-qanunu və daxili asayişi təmin etmək və möhkəmləndirmək üçün Azərbaycana zəruri hərbi yardım göstərməyi öz üzərinə götürdü. Onu da qeyd etmək lazımdır ki, Osmanlı hərbi yardımı olmadan yeni doğulmuş Azərbaycan Cümhuriyyəti hökumətinin öz qüvvəsi ilə erməni-bolşevik birləşmələri tərəfindən ölkədə yaradılan anarxiyanın qarşısını alması və Sovet Rusiyasının

bütün vasitələrlə qoruduğu Bakıdakı Şaumyan rejimini ləğv etməsi müşkül məsələ idi, daha doğrusu, mümkün deyildi.

Batum konfransı başa çatdıqdan sonra erməni quldur dəstələri bu müqaviləni tanımadıqlarını bəyan edib türklərə qarşı silahlı mübarizələrini davam etdirsələr də, bunun elə bir əhəmiyyəti olmadı. Osmanlı imperiyası Batum müqavilələri ilə əldə etdiyi ərazilərə yiyələndi. 1918-ci il iyulun 20-də Osmanlı qoşunları erməni quldur dəstələrinin müqavimətini qıraraq Naxçıvana girdi və beləliklə Naxçıvanda türk bayrağı dalğalanmağa başladı.[401] 11-ci alay komandanı Sürəyya bəy Naxçıvan məhəlli hökumət rəisi təyin edildi. Bir qədər sonra onu Əli Şəfik bəy əvəz etdi.[402] 1918-ci il avqustun 15-də Osmanlı sultanı VI Mehmed Vahidəddin tərəfindən "Elviye-i Səlasə" əhalisinə yayımlanan bir bəyannamə ilə bu torpaqlar rəsmən ilhaq edildi. Sentyabrın 14-də bölgədə idarəçilik orqanlarının qurulması haqqında qərarnamə qəbul edildi. Bu qərarnaməyə görə, Qars, Ərdəhan, Batum və ətraf ərazilərdə (Batum müqavilələrinə görə Osmanlı imperiyasına keçən ərazilərdə) Batum və Qars livalarından ibarət mürəkkəb Batum vilayəti təşkil edildi. Naxçıvan da Qars livası tərkibində qəza olaraq Batum vilayətinə daxil oldu.

Osmanlı imperiyası Batum konfransında əldə etdiyi ərazilərə yiyələnsə də, türk ordusu qarşısında hələ daha böyük vəzifə – Bakını almaq vəzifəsi dururdu.

[401] Atnur I.E. Osmanlı Yönetiminden Sovyet Yönetimine Kadar Nahçıvan, s. 52.
[402] Yenə orada, s. 54-55; Əliyev M.B. Qanlı günlərimiz (1918-1920, Naxçıvan). Bakı: Azərnəşr, 1993, s. 72-75.

## § 2. Osmanlı-Azərbaycan münasibətlərində ilhaq məsələsi

1917-ci il Oktyabr çevrilişindən sonra bütün keçmiş rus imperiyası ərazisində olduğu kimi Cənubi Qafqaz bölgəsində də anarxiya tüğyan edirdi. Mövcud şəraitdə müsəlmanlara qarşı erməni-bolşevik təcavüzünün genişlənməsi Azərbaycanın siyasi qüvvələrində müsəlman əhalinin təhlükəsizliyini qorumaq məqsədilə Osmanlı imperiyasının hərtərəfli yardımına üz tutmaq meylini gücləndirdi. Faktiki olaraq Azərbaycan xalqı təklənmişdi və mövcud olan erməni-bolşevik təhlükəsi ilə təklikdə mübarizə aparmaq mümkün deyildi. Bu obyektiv həqiqəti lazımınca qiymətləndirən Cənubi Qafqazın müsəlman əhalisinin nümayəndələri hələ 1917-ci ilin noyabrında Mosulda yerləşən 6-cı türk ordusunun qərargahına gəlmiş və türk hərbçilərindən quduzlaşan daşnak qüvvələrinə qarşı mübarizədə yardım göstərilməsini xahiş etmişdilər.[403] Bir qədər sonra isə 6-cı türk ordusundan bir əsgəri heyət Gəncəyə gələrək vəziyyəti yerində tədqiq etmişdi.

Bu arada müharibədə ruslara əsir düşmüş bir avstriyalı zabit əsirlikdən qaçaraq türk ordu hissələri tərəfinə keçmiş və Mosula gələrək 1917-ci il dekabrın 29-da 6-cı ordu komandanı Xəlil paşa ilə görüşmüşdü. Avstriyalı zabitin verdiyi məlumatlar Xəlil paşanı çox maraqlandırmış və onda belə bir qənaət hasil olmuşdu ki, Qafqaza doğru uğurlu yürüş həyata keçirmək üçün əlverişli bir şərait yaranmışdır. Çünki bu bölgədə Rusiyanın gücü çox zəifləmiş və bütövlükdə ölkə daxilində mövcud olan anarxiya çoxdan düşünülən planların həyata keçmə ehtimalını xeyli artırmışdı. Bu məlumatın doğruluğunu Ənvər paşaya çatdırmaq üçün Xəlil paşa əsirlikdən qaçan avstriyalı zabitin özünü onun yanına göndərdi. Zabitin verdiyi məlumatlar Ənvər paşanın özündə də əməli addımlar atılması vaxtının çatdığına yəqinlik yaratdı. Bir qədər sonra Ənvər paşa Xəlil paşaya göndərdiyi teleqramda avstriyalı zabitlə görüşü

[403] Süleymanov M. Qafqaz İslam Ordusu və Azərbaycan, s. 71.

barədə yazırdı: "Görüşdüyüm avstriyalı yarbayın Bakının durumu haqqında verdiyi məlumatdan anlaşıldığına görə Azərbaycan xalqının düşmənə qarşı təşkilatlanmaya və savaşmağa istəkli olduğu, ancaq onları təşkilatlandıracaq və idarə edəcək bir liderin olmaması səbəbi ilə hərəkətə keçə bilmədiklərı qənaətinə vardım".[404] 1918-ci il fevralın 16-da Xəlil paşaya göndərdiyi bu teleqramında Ənvər paşa Azərbaycan və Qafqazla bağlı planlarının artıq həyata keçirilməsi mərhələsinin başlandığını bildirirdi. Onun əmrinə görə Cənubi Qafqaz, Dağıstan, Türküstan və Rusiyadakı digər müsəlman xalqlara onların ehtiyac duyduqları yardım və dəstəyin verilməsi üçün mərkəzi Tehranda olan bir təşkilat yaradılmalı və adı çəkilən yerlərə bacarıqlı türk zabitləri göndərilməli idi. Ənvər paşanın fikrincə, onun qardaşı yarbay Nuru bəy Tehrandakı mərkəzin rəhbəri olmalı, yarbay Şövkət bəy Dağıstana və Xəlil paşanın münasib bildiyi başqa zabitlər isə Qafqazın digər bölgələrinə göndərilməli idi.[405]

Ənvər paşa Qafqazdan Orta Asiyaya qədər olan əraziləri ələ keçirərək böyük türk birliyi olan "Turan"ı gerçəkləşdirmək istəyirdi. Qafqaz "Turan"a gedən yolda ilk addım olmaq etibarilə xüsusi əhəmiyyət kəsb edirdi. Sarıqamış əməliyyatı ilə bu planın gerçəkləşməsinin qarşısına sədd çəkilsə də, 1917-ci ilin Oktyabr çevrilişi Osmanlı siyasi dairələrində yeni ümidlər yaratmışdı. Osmanlı hökumətində, həmçinin İttihad və Tərəqqi partiyasının Mərkəzi Komitəsində gedən müzakirələrin nəticəsində ilk hədəf kimi Azərbaycan və bütövlükdə Qafqazda Türkiyənin lehinə fəaliyyət göstərəcək bir təşkilatın qurulması qərara alındı. Bu məqsədlə Osmanlı xüsusi xidmət orqanı olan Təşkilat-ı Mahsusanın nümayəndəsi Həsən Ruşeni bəy 1917-ci ilin dekabrında gizli yolla Bakıya göndərildi. Ruşeni bəy təkcə Azərbaycanda deyil, Şimali Qafqaz və Türküstanda da Türkiyə lehinə aparılacaq fəaliyyətləri idarə et-

[404] Budak M. Nuri Paşa'nın Kafkas İslam Ordusu Hakkındaki Raporu // Kafkas Araştırmaları. İstanbul, 1998, Sayı: 4, s. 68.
[405] Yüceer N. Birinci Dünya Savaşı`nda Osmanlı Ordusu`nun Azerbaycan ve Dağıstan Harekatı, s. 42.

məli idi.[406] Ruşeni bəy "Türkiyə nümayəndəsi" adı ilə Bakıda dərhal fəaliyyətə başladı və eyni zamanda Mehmed Emin Əfəndini də təşkilat qurmaq üçün Türküstana göndərdi. Mehmed Emin bəy Daşkəndə gələn kimi Türküstan millətçiləri ilə əlaqə yaratdı və dərhal təşkilat qurmağa başladı. Bunun nəticəsi olaraq, türküstanlılardan bir qrup milli təşkilatlarını qurmaq və Türküstanda idarəçiliyi ələ almaq üçün Türkiyədən yardım istəmək məqsədilə Abidcan Mahmud Əfəndi adlı bir nümayəndəni Bakıya, Ruşeni bəyin yanına göndərdi.[407]

Ruşeni bəy tərəfindən Türküstan nümayəndəsi Abidcan bəyə xitabən yazılan məktubdan anlaşıldığına görə, Osmanlı hökumətinin Türküstanda tətbiq etmək istədiyi siyasət və fəaliyyət aşağıdakı kimi planlaşdırılmışdı: Ruşeni bəy Türküstan nümayəndəsi Abidcan bəy ilə birlikdə Türküstana Türkiyə nümayəndəsi olaraq sabiq Bayburt kaymakamı Yusif Ziya bəyi və bir neçə türk zabiti göndərməli idi. Onlar Türküstana (Daşkəndə) gələn kimi "Türküstan İttihad və Tərəqqi Firqəsi"ni quracaqdılar və bu bölgənin Türkiyəyə bağlanması üçün dərhal fəaliyyətə başlayacaqdılar. Bu məqsədlə türküstanlı nümayəndələrdən bir heyət təşkil edilərək Türküstanın Osmanlı imperiyasına ilhaq edilməsini xahiş etmək üçün İstanbula göndərilməli idi.[408] Yusif Ziya bəy 20 türk zabiti ilə Türküstana göndərilsə də, Sovet Rusiyasının 1918-ci ilin fevralında Türküstana müdaxilə edərək "Kokand faciəsi"ni törətməsi və bölgədə möhkəmlənməsi səbəbindən Ruşeni bəyin bu planı uğursuzluğa düçar oldu.

Ruşeni bəy Türküstanla bağlı fəaliyyətində uğur qazana bilməsə də, onun Azərbaycan və bütövlükdə Qafqazdakı fəaliyyəti uğurlu oldu. Genişlənən erməni-bolşevik təcavüzündən əziyyət çəkən Cənubi Qafqaz müsəlmanları bu təcavüz qarşısında yeganə çıxış yolunu Osmanlı hökumətindən yardım istəməkdə görürdülər. Azərbaycan milli azadlıq hərəkatının liderlərinin böyük əksəriyyə-

---

406 Kurat A.N. Türkiye ve Rusya, s. 511-512; Swietochowski T. Müslüman Cemaatten Ulusal Kimliğe Rus Azerbaycanı. s. 163.
407 Kurat A.N. Türkiye ve Rusya, s. 512.
408 Yenə orada. s. 513.

ti belə hesab edirdilər ki, Osmanlı türkləri dil və din birliyi ilə bağlı olduqları Azərbaycan xalqına yardım etməklə onu erməni-bolşevik təcavüzündən xilas edəcək və Azərbaycanın öz müstəqilliyini əldə etməsində ona yardımçı olacaqlar. Ruşeni bəy isə Azərbaycanın xilasının yeganə yolunu onun Osmanlı imperiyasına birləşdirilməsində görürdü və xalq kütlələri arasında bu istiqamətdə təbliğat aparırdı. Ruşeni 1918-ci il yanvarın 30-da "Qafqaz İttihad və Tərəqqi Partiyası"nı yaratdı. İsa bəy Aşurbəyli bu partiyanın sədri, Ruşeni bəy də baş katibi oldu.[409] Özünü Türkiyə İttihad və Tərəqqi partiyasının Qafqaz Şöbəsi elan edən Qafqaz İttihad və Tərəqqi partiyası da, təbii olaraq, yarandığı ilk gündən Türkiyə yardımına münasibətdə Azərbaycanın Osmanlı imperiyasına birləşdirilməsinə tərəfdar çıxdı və öz fəaliyyətini bu istiqamətdə qurdu. Bu partiya özünə çoxlu tərəfdar toplayaraq Azərbaycanın ictimai-siyasi həyatına təsir edə biləcək bir qüvvə halına gəldi. Qafqaz İttihad və Tərəqqi partiyasının Mərkəzi Ümumisi 1918-ci il martın 28-də böyük bir bəyanat verib Osmanlı hökumətinə müraciətlə çıxış etdi. Qafqazın bütün müsəlmanlarının iradəsini ifadə etdiyini bildirən partiya bəyanatında qeyd edilirdi ki, bütün Şimali və Cənubi Qafqaz ana vətənimiz olan Türkiyəyə ilhaq olunmalıdır.[410] Bəyanat müəllifləri öz ilhaqçı fikirlərini bolşevik Rusiyası liderlərinin "hər bir millətin öz müqəddəratını təyin etmək" barəsindəki rəsmi sənədlərinə istinad edərək əsaslandırırdılar. Onlara görə, bolşevik hökuməti rəhbərləri tərəfindən öz müqəddəratını müəyyənləşdirmək zəmanəti alan Qafqazın 6 milyonluq müsəlman əhalisi Türkiyəni Qafqaza çağırır və bütün Qafqazın ana vətənləri olan Türkiyəyə birləşdirilməsini tələb edirdilər. Bəyanatda bildirilirdi ki, indi qalib kürsüsündə oturan Türkiyə tarixin ona bəxş etdiyi haqlara istinad edərək dərhal Qafqazı almalı və onu çağıran qardaşlarını azad etməlidir. Bəyanatda Osmanlı ordusunu Azərbaycana dəvət edənlər həmçinin, bununla erməni məsələsinin birdəfəlik həll olunmasına və ermənilərin bir millət kimi dünya xəritəsindən silinməsinə əminliklərini bildirirdilər. Onların fikrin-

---

[409] ATASE, BDH, K. 3818, D. 2, F. 1;1-19.
[410] ATASE. BDH. K. 3818, D. 2. F. 1-12, 1-13.

cə, bu vəzifəni yerinə yetirmək üçün Qafqaza göndəriləcək bir-iki güclü türk firqəsinə bir həftə vaxt kifayət edərdi. Bəyanatda o da bildirilirdi ki, silahı və sursatı ilə gələn türk firqələrinin Qafqazda olduğu vaxt onların iaşəsini, maliyyə vəsaitini, ləvazimatını yerli əhali bir il müddətində özü təmin edə bilər və hətta Türkiyədəki hərbi qüvvələrə də müəyyən qədər köməklik göstərə bilər.[411]

Bu bəyanatı Qafqaz İttihad və Tərəqqi partiyasının sədri İsa bəy Aşurbəyli, baş katib Həsən Ruşeni bəy, müfəttiş Cahangir Qayıbzadə, müfəttiş Kalar Mahmudbəyzadə, xəzinədar Sadıq Hüseynzadə, üzvlərdən Ağa Aşurov, Rüstəm xan Xoyski, Məhəmməd Qayıbzadə və Əbdüləli bəy Əmircanzadə (Əmircanov) imzalamışdılar.[412]

Azərbaycan milli azadlıq hərəkatının liderləri də 1918-ci ilin əvvəllərindən etibarən Osmanlı hərbi yardımının əldə edilməsi istiqamətində əməli addımlar atmağa başlamışdılar. 1918-ci ilin yanvarında Gəncədə keçirilən Müsəlman Milli Komitəsinin iclasında Azərbaycanın müxtəlif bölgələrindən gələn nümayəndələr bu məsələni geniş müzakirə etdilər. Yığıncaqda çıxış edən Nəsib bəy Yusifbəyli mövcud vəziyyəti şərh edərək aşağıdakıları söylədi. "Xalqın qüvvəsi ilə görülən işlər xalqın gözünün önündə cərəyan etmişdir. Bütün hərəkətimiz zəfərlə nəticələnmişdir. Ancaq bu qəhrəmanca hərəkətlər nəticəni əldə etməkdən çox uzaqdır. Bir kərə Azərbaycan mərkəzi Bakı düşməndən təmizlənməlidir. Çünki başsız bədən olmaz və yaşamaz. Bizim xalq qüvvələrimiz bunun üçün kifayət deyildir. Böyük bir yardıma ehtiyac vardır və bu yardımı da bizə bircə Osmanlı imperiyası edə bilər. İndi qərar qəbul edib, Osmanlı imperiyasına səlahiyyətli bir heyət göndərək. Türkiyədən yardım istəyək".[413]

N.Yusifbəylinin bu sözləri sürəkli alqışlarla qarşılandı. Bu təşəbbüsün müsbət olacağına bütün toplantı iştirakçıları inanırdılar. Osmanlı imperiyasına səlahiyyətli heyət göndərilməsi üçün Milli

411 ATASE, BDH, K. 3818, D. 2, F. 1-17.
412 ATASE, BDH, K. 3818, D. 2, F. 1-19.
413 Şeyxzamanlı N, Azərbaycan istiqlal mücadiləsi xatirələri, s. 57; Tuğaç H, Bir Neslin Dramı. İstanbul: Çağdaş Yayınları, 1975, s. 196.

Komitəyə tam səlahiyyət verildi. Milli azadlıq hərəkatının fəallarından olan Nağı bəy Şeyxzamanlı Azərbaycan xalqının istəyini Osmanlı rəhbərlərinə çatdırmaq üçün səlahiyyətli nümayəndə təyin edildi.

Onu da qeyd edək ki, Gəncədə keçirilən Müsəlman Milli Komitəsinin bu toplantısında ittihadçıları təmsil edən Xudadat bəy Rəfibəyli öz çıxışında ittihadçıların mövqeyini bir daha təkrarladı: "Türk ordusu gəlsin, padşah istəsə Azərbaycana muxtariyyət verər, istəsə Azərbaycanı ilhaq edər. Özü bilər".[414]

N.Şeyxzamanlını İstanbula yola salan zaman ona verdiyi tövsiyələr N.Yusifbəylinin Osmanlı imperiyası ilə Azərbaycan arasında qurulacaq əlaqələrin mahiyyətinə münasibətini açıqlayır: "Nağı, sən İstiqlal Komitəsinin üzvüsən. Bütün vəziyyəti Osmanlı dövlətinə anlat, de ki, xalqımız müstəqil yaşamağa əzm etmişdir, bu yolda hər cür fədakarlıq göstərmişdir. Azərbaycanın dörddə üçü bu gün rusların hakimiyyətindən qurtarmış vəziyyətdədir. Onlar bizim ehtiyacımız olan hərbi qüvvələri ilə kömək etsinlər. Bizə qardaş əli uzatsınlar, əlimizdən tutsunlar, istiqlalımızı elan etməyimizə kömək etsinlər. Ancaq bizi özlərinə ilhaq etmək istərlərsə, onda gəlməsinlər. Biz öz yağımıza qovrulub, başımıza çarə taparıq".[415]

N.Şeyxzamanlı ilə birlikdə Gəncədən İstanbula yollanan (rus əsirliyindən qaçan) türk zabiti Hüsaməddin Tuğaç öz xatirələrində "Osmanlı imperiyasına yardım üçün müraciət etmək" təklifinin N.Yusifbəyliyə onun tərəfindən edildiyini yazır və qeyd edir ki, "Nəsib bəy düşünərək bildirdi ki, "Azərbaycana bir türk ordusunun gəlməsi mümkündür və lazımdır da. Ancaq qorxduğumuz bir şey var, türklər bizi İstanbuldan idarə etməyə qalxmasınlar. Bizim ədəmi-mərkəziyyət əsasında qurulmuş proqramımız var. Ona uymaq gərəkir". Nəsib bəyin bu sözü mənə bir az qəribə gəldi, soruşdum: "Siz bu ədəmi-mərkəziyyət prinsipini rus idarəsinə qarşı irəli sürmüş olursunuz. Türklər gəlincə, onların ruslardan bir fərqi olmayacaqmı? Bu ədəmi-mərkəziyyətə nə lüzum var?"

---

[414] Tuğaç H. Bir Neslin Dramı, s. 195-196.
[415] Şeyxzamanlı N. Azərbaycan istiqlal mücadiləsi xatirələri, s. 59.

Nəsib bəy gülər üzlə mənə cavab verdi: "Azərbaycanın sosial quruluşu bambaşqadır. Bakı bir sənaye və fəhlə mərkəzidir. Sultan rejimi buradakı əhvala uyğun gəlməz. Biz xalqın hər sinif və təbəqəsinin bərabərliyi üzərində dayanan bir hökumət qurmaq fikrindəyik. Çarlıq dövrünün aristokratik və feodal idarəsinə son qoyacağıq. Milli və demokratik bir idarə istəyirik. Halbuki Osmanlı padşahlığının idarəsi də rejim etibarilə çarlıq idarəsindən fərqlənmir. Əlbəttə ki, bu mövzu irq məfhumundan ayrılır. Əlbəttə ki, Osmanlı türkləri Azərbaycan türklərinin böyük qardaşıdır. Ancaq Bakı İstanbuldan idarə oluna bilməz. Bunun üçün Müsavat partiyasının ədəmi-mərkəziyyət prinsipi Osmanlı idarəsinə qarşı da var olmalıdır..." Nəsib bəy gülərək bu xalq sözünü də əlavə etdi: "Mənim gözüm səndən su içmir!". Nəsib bəyi dinlədikdən sonra ona haqq qazandırdım".[416] Buradan da açıq-aydın görünür ki, Azərbaycanın milli azadlıq hərəkatının liderləri ölkədə hökm sürən gərgin vəziyyətə baxmayaraq milli istiqlaliyyəti hər şeydən uca tutmuş, Azərbaycanın ehtiyac duyduğu yardım müqabilində onun Osmanlı imperiyasına ilhaq olunmasına qarşı sərt mövqe nümayiş etdirmişdilər.

1918-ci ilin yanvarında Gəncədən yola düşən N.Şeyxzamanlı səfərinin məxfiliyini təmin etmək üçün təhlükəsizlik tədbirlərinə əməl etmək məcburiyyətində qaldığından İstanbula yalnız mart ayının əvvəlində çatdı. Jurnalist Ömər Faiq Nemanzadənin müşayiəti ilə Nağı bəy baş nazir Tələt paşa ilə görüşdü. Bu görüşdə həmçinin, baş komandan vəkili və hərbi nazir Ənvər paşa və ədliyyə naziri Xəlil bəy də iştirak edirdilər. Nağı bəy Müsəlman Milli Komitəsinin və eyni zamanda, bütün Azərbaycan xalqının arzu və istəklərini Osmanlı hökumət rəhbərlərinə çatdırdı: "Əziz paşalarım, Azərbaycan xalqı yüz ildən çoxdur ki, rus idarəsinin zülmü altında əziyyət çəkirdi... Müstəqil yaşamağı əzm etmiş millətimizin böyük bir nöqsanı vardır. Xalqımızın vaxtilə hərbi təlim və tərbiyədən məhrum olunması və rus çarı Birinci Pyotrun göstərişinə əsasən İran və Türkiyənin rus himayəsi və təsiri altına düşmə-

[416] Tuğaç H. Bir Neslin Dramı, s. 194-195.

yincə Qafqazdan (Qafqaz müsəlmanlarından – V.Q.) əsgər alınmamasını əmr etməsi bu çatışmazlığı yaratmışdır. Azərbaycan xalqı sizdən kömək gözləyir. Millətimiz müstəqil olmaq niyyətindədir. Siz qardaş əlinizi bizə uzadın, bizə yardım edin. Müstəqil olaq. Siz bizi çəkib öz tərəfinizə yıxmayın, ayaqda qalarıq (bu zaman Tələt paşa salondakılara dönərək dedi: "Görün ilhaqı nə gözəl türkcə anladır"). Bizə böyük hərbi qüvvə göndərməyin. Bizə hərbi təlimçilər və serjant korpusu göndərin. Bizdə qısa bir vaxt ərzində hərbi qüvvə yaratmağın imkanı vardır. Türk olduğumuz üçün lazım olan qüvvə qanımızda mövcuddur. Xalqımızın milli qüvvəsinə güvənərək qısa bir müddət ərzində rusları torpağımızdan təmizləyib ata bilərik".[417] Söhbətin gedişində məlum oldu ki, bu qəbuldan bir gün əvvəl Tələt paşanın hökumət kabinəsində Azərbaycana yardım məsələsi müzakirə olunmuşdu.

N.Şeyxzamanlı yazırdı ki, Tələt, Ənvər və Camal paşalardan başqa digər Osmanlı rəsmiləri türk ordusunun Qafqaza göndərilməsini müdafiə etmirdilər.[418] Amma bir qədər sonra, türk ordusunun Qafqaza girməsinə ehtiyatla yanaşan və bunun Rusiya ilə yeni müharibə təhlükəsi törədəcəyindən çəkinənlərdən biri – Vehib paşa müsəlmanlara qarşı erməni-bolşevik təcavüzü özünün son həddinə çatdığı zaman mövqeyində dəyişiklik edərək, 1918-ci ilin aprel ayında bildirirdi ki, "mən hesab edirəm Bakını tutmaq və müsəlmanları xilas etmək üçün türk ordusunun göndərilməsi zəruridir".[419]

Eyni zamanda 1-ci Qafqaz Kolordusunun komandanı Kazım Qarabəkir paşa da ermənilər üzərinə hücum əməliyyatına davam edərkən, 1918-ci ilin aprelində Naxçıvandan onun yanına yardım üçün gələn bir heyətə "hər cür yardım göstəriləcəyini, ancaq səbr etmək lazım olduğunu" bildirmişdi. O, həmçinin bu barədə naxçıvanlılara bir məktub da göndərmişdi.[420]

---

[417] Şeyxzamanlı N. Azərbaycan istiqlal mücadiləsi xatirələri, s. 68-69.
[418] Yenə orada, s. 71.
[419] Həsənov C. Azərbaycan beynəlxalq münasibətlər sistemində, s. 74.
[420] Erat M. Kazım Karabekir'in Nahçıvan ve Çevresindeki Faaliyetleri (1918) // Kafkas Araştırmaları, İstanbul, 1998, Sayı: 4, s. 52.

Qeyd etdiyimiz kimi, N.Şeyxzamanlının Tələt paşa ilə görüşündən bir gün əvvəl Osmanlı hökumətində Azərbaycana yardım göstərilməsi məsələsi müzakirə olunmuş və nəticədə türk ordularının Qafqaza göndərilməsi qərara alınmışdı. Tələt paşa ilə görüşündən bir gün sonra Ənvər paşa tərəfindən qəbul edilən Nağı bəy bu barədə yazırdı: "Paşa sonra mənə qərar qəbul etdiyini, Qafqaz İslam Ordusunun yaradılmasına başlanmasını və bir əlavə rütbə ilə zabit qeyd ediləcəyi üçün komissiya təşkil olunduğunu anlatdı".[421]

Qafqaz İslam Ordusu komandanlığına Ənvər paşanın qardaşı yarbay Nuru bəy təyin edildi. Belə bir rütbə ilə bir neçə diviziyadan ibarət olacaq bir orduya komandanlıq etməsi Nuru bəylə ona tabe olacaq zabitlər arasında bir rütbə uyğunsuzluğu yarada bilərdi. Bu uyğunsuzluğu aradan qaldırmaq üçün ona sultan Mehmed tərəfindən feriqlik (general-leytenant) rütbəsi və bütün Qafqaz İslam Ordusuna komandanlıq vəkaləti verildi. Bir qədər sonra padşah tərəfindən verilən fərmanla Nuru paşa həm də padşah yavəri elan edildi və Qafqazda ona padşahın siyasətinin təmsilçisi səlahiyyəti verildi.[422]

İstanbulda təşkil edilən komissiya tərəfindən Qafqaz İslam Ordusunun qərargahı üçün 20 nəfərədək zabit seçildi. Komissiya işini bitirən kimi Nuru paşa təyyarə ilə Mosula yola düşdü. Onun seçdiyi zabit heyəti isə quru yolla hərəkətə başladı və 1918-ci il mart ayının 25-də Mosula çatdı. Nuru paşa burada 6-cı ordu komandanlığından Qafqazdakı mövcud vəziyyətin öyrənilməsi üçün bölgəyə göndərilmiş zabit Müzəffər bəyin qayıtdığını eşitdi və onunla görüşdü. Azərbaycandakı vəziyyət haqqında Müzəffər bəydən xəbər tutan Nuru paşa səfərini sürətləndirməyə çalışdı. Ancaq Mosulda da o, bir sıra təşkilati işlərlə məşğul olmalı idi. Hər şeydən əvvəl isə Qafqaz İslam Ordusunun təşkili üçün zəruri olan kadrları seçməli idi. Bu məqsəd üçün Mosulda 6-cı ordudan 149 zabit və məmur, 488 gizir və əsgər seçildi. Bütün bu şəxslər 1918-ci il aprelin əvvəllərində Azərbaycana yola salındılar. Seçi-

421 Şeyxzamanlı N. Azərbaycan istiqlal mücadiləsi xatirələri, s. 70-71.
422 Süleymanov M. Qafqaz İslam Ordusu və Azərbaycan, s. 103.

ləcək digər zabitlər və hərbçilər isə sonradan Azərbaycana yola salınmalı idilər.[423]

1918-ci il aprelin 5-də Ənvər paşa Qafqaz İslam Ordusunun təşkili və onun vəzifələrinə aid Təlimatnaməni təsdiq etdi. Aprelin 8-də Nuru paşa Mosuldan yola düşdü. Nuru paşanın zabit heyəti çətin yol şəraiti ilə irəliləyərək Rəvandüzdən keçib aprelin 26-da Pesvaya, aprelin 29-da Savucbulağa və mayın 9-da Təbrizə çatdı, mayın 12-də Savucbulağ-Təbriz-Alacücə yolu ilə Təbrizdən hərəkət edərək mayın 20-də Araz çayını keçdi və Şimali Azərbaycan ərazisinə daxil oldu. Mayın 24-də Yevlaxda Nuru paşanın böyük qarşılanma mərasimi oldu. 1918-ci il mayın 25-də Gəncəyə daxil olan Nuru paşanı erməni-bolşevik təhlükəsi ilə üz-üzə qalan Azərbaycan xalqı "göydən enmiş xilaskar bir mələk kimi" qarşıladı.[424] Nuru paşa Gəncəyə gələn kimi Qafqaz İslam Ordusunun qarşısında dayanan vəzifələrin həlli üçün dərhal əməli fəaliyyətə başladı.

Qeyd edək ki, Osmanlı siyasi dairələrində Azərbaycan və bütövlükdə Qafqaza münasibətdə yeridiləcək siyasətlə bağlı bir sıra fikir ayrılıqları və ziddiyyətlər var idi. Rusiyadakı 1917-ci il Oktyabr çevrilişindən sonra yaranan Cənubi Qafqaz Komissarlığına münasibətdə Osmanlı hakim dairələri ilk əvvəl bu qurumu tanımamaq siyasəti yeritdilər. Çünki komissarlıq Avropa cəbhəsində qəbul edilən qərarları əsas kimi tanımayacağını, ancaq Rusiya Respublikasının Mərkəz dövlətləri ilə bağlayacağı ümumi sülh Müəssislər Məclisi tərəfindən təsdiq edildikdən sonra onun hökmlərinin Qafqaz cəbhəsi üçün də məcburi icra ediləcəyini bəyan etmişdi.[425] Bu zaman Osmanlı hökumətində narahatçılıq doğuran əsas məsələ rus işğalı altında olan Şərqi Anadolu vilayətlərinin boşaldılması məsələsi idi. Mərkəz dövlətləri ilə Sovet Rusiyası arasında Brest-Litovskda başlanan sülh danışıqlarında türk tərəfi işğal altında olan ərazilərin boşaldılmasını sovet hökumətinə qəbul etdirməyə çalışırdı və bu istiqamətdə gərgin iş aparırdı. Şərqi Anadolunun boşaldılmasını Sovet Rusiyasına qəbul etdirdikdən

[423] Süleymanov M. Qafqaz İslam Ordusu və Azərbaycan, s. 104.
[424] Rəsulzadə M.Ə. Azərbaycan Cümhuriyyəti, s. 39.
[425] ATASE. BDH. K. 2921, D. 510, F. 1-8.

sonra bölgədə yeni yaranan Cənubi Qafqaz Komissarlığının sovetləri tanımaması Osmanlı hökumətini çətin vəziyyətdə qoya bilərdi və İstanbul hökuməti bu məsələni əlavə olaraq komissarlıqla da həll etməli olacaqdı. Buna görə də Ənvər paşa Vehib paşaya göndərdiyi teleqramlarında Rusiya Qafqaz Orduları baş komandanlığının Qafqaz hökuməti və ya digər bir hökumətin adından hərəkət etdiyini tanımamağı əmr edirdi.[126]

Lakin bir qədər sonra, Osmanlı hökuməti Cənubi Qafqaz Komissarlığı haqqında ətraflı məlumat topladıqdan sonra, öz mövqeyini dəyişərək Türkiyə ilə Rusiya arasında Qafqazda bufer rolunu oynayacaq bir dövlətin yaranmasını Osmanlı imperiyasının maraqlarına uyğun bildi və Tiflis hökumətinin "müstəqilliyi"ni tanımaqla Rusiyanın Qafqaza hakim olmasının qarşısını almağa çalışdı. Qeyd etdiyimiz kimi, Osmanlı hakim dairələri bufer rolunu oynayacaq bu dövləti  gürcü və ermənilərin üstünlük təşkil etdikləri Cənubi Qafqaz Komissarlığı timsalında deyil, Qafqaz müsəlmanlarının bir "İslam dövləti" kimi görmək istəyirdilər.[127] Lakin Şərqi Anadolunun bir hissəsi rus işğalı altında olduğundan türklər Qafqazdan uzaq düşmüşdülər və bölgədə baş verən hadisələrin gedişinə təsir etmək iqtidarında deyildilər. Bu səbəbdən Osmanlı hökuməti reallıqla barışıb Cənubi Qafqaz Komissarlığı ilə əlaqə yaratmaq və onun "müstəqilliyi"ni tanımaq qərarına gəldi. İstanbul hökuməti eyni zamanda, komissarlığı Brest-Litovsk konfransına dəvət etdi və onun Almaniya və Sovet Rusiyası tərəfindən tanınması üçün yardımçı olacağını vəd etdi.[128]

1918-ci ilin fevralında Cənubi Qafqaz Seymi yarandıqdan sonra Osmanlı imperiyasının Seymə münasibətdə yeritdiyi siyasətin əsas aspektləri isə ondan ibarət idi ki, İstanbul hökuməti birinci növbədə Brest-Litovsk sülhünün müəyyən etdiyi sərhədi (Qars, Ərdəhan və Batumun Osmanlı imperiyasına verilməsini) Seymə qəbul etdirmək istəyir, paralel olaraq Şimali Qafqazı da bu quru-

---

[126] ATASE, BDH, K. 340, D. 1366, F. 1-10.
[127] ATASE, BDH, K. 2914, D. 475, F. 4-17;4-19.
[128] ATASE, BDH, K. 340, D. 1366, F. 1-48; K. 2906, D. 438, F. 7-6.

ma daxil etməyə cəhd edir və bununla da Qafqaz hökumətində müsəlman çoxluğuna nail olmağa çalışırdı.

Osmanlı maraqlarına görə, Şimali Qafqazın Seymə birləşdirilməsi ilə Seymdə müsəlman çoxluğuna nail olunduğu təqdirdə Osmanlı imperiyasının təhlükəsizliyi nöqteyi-nəzərindən bu qurum Türkiyə ilə Rusiya arasında bufer dövlət rolunu oynaya bilərdi. Belə bir halda Qafqaz hökuməti tam olaraq Osmanlı imperiyasının nəzarətində olacaqdı. Onu da qeyd edək ki, Osmanlı hakim dairələrinin əksəriyyəti azərbaycanlı, gürcü və ermənilərdən ibarət olan Cənubi Qafqaz Seymini mütəşəkkil və təbii bir birlik kimi qəbul etmirdilər və bu qurumun çox yaşamayacağı qənaətində idilər.

Trabzon danışıqları kəsildikdən az sonra Osmanlı imperiyasının siyasətini müəyyən edən əsas simalardan biri olan Ənvər paşa Trabzon və Batuma səfər etdi. O, Trabzonda olarkən Azərbaycan nümayəndələri ilə görüşdü. Azərbaycan nümayəndələri Cənubi Qafqazın siyasi quruluşu, xüsusilə də Osmanlı imperiyası ilə Azərbaycan arasında qurulacaq münasibətlərin mahiyyəti barədə Ənvər paşanın mövqeyini öyrənmək istədilər. Ənvər paşa bildirdi ki, "müsəlman qəzaları olan Axıska və Axalkələk əsrlərlə birləşməyə can atdığı Türkiyəyə verilməlidir. Azərbaycan, Gürcüstan və Ermənistan isə ümumi Seym və Türkiyə ilə sıx ittifaqda federasiya, yaxud konfederasiya yaratmalıdırlar. Əgər vahid Cənubi Qafqaz federasiyası yaratmaq mümkün olmazsa, onda Türkiyə ilə ümumi sərhədi olan Azərbaycan Osmanlı imperiyası ilə daha sıx, hətta Avstriya-Macarıstan formasında ittifaqa girə bilər".[429] Lakin bu ideya ilə bağlı Seymin müsəlman fraksiyasının fəaliyyəti göstərdi ki, Azərbaycanın siyasi xadimləri Osmanlı imperiyası ilə sıx əlaqədə olan müstəqil Azərbaycan dövləti yaratmağı üstün tuturdular, onlar Azərbaycanı Türkiyənin Macarıstanına çevirmək fikrindən uzaq idilər.

Cənubi Qafqaz Seyminin yarandığı ilk gündən belə Seymə daxil olan fraksiyalar arasında birlik yox idi. Trabzon və Batum

---

[429] ARDA, f. 970, siy. 1, iş 1, v. 30-33; Zaqafqaziya Seyminin Müsəlman fraksiyası və Azərbaycan Milli Şurası iclaslarının protokolları, s. 98-99.

konfranslarında Osmanlı hökumətinin tələbləri qarşısında Seym fraksiyaları arasında onsuz da mövcud olan fikir ayrılıqları və ziddiyyətlər özünün ən yüksək mərhələsinə çatdı. Cənubi Qafqazın müstəqilliyinin elan edilməsi də Seymin fəaliyyətində elə bir ciddi dəyişiklik yaratmadı və bununla da Seymin parçalanması labüd oldu. Bir qədər əvvəl Cənubi Qafqaz federasiyasının qurulmasını dəstəkləməsinə baxmayaraq, burada müsəlmanların elə bir həlledici rol oynamadığını görən və eyni zamanda bu istəyinin təmin edilməsi üçün Şimali Qafqazın bu federasiyaya daxil edilməsinə nail ola bilməyən Osmanlı hökuməti də Cənubi Qafqaz Respublikasının parçalanmasının vacib olduğu qənaətinə gəldi. Artıq bu dövrdə Osmanlı hökuməti Qafqazda xristianlara qarşı müsəlmanları qorumaq və "öz təhlükəsizliyi baxımından" bölgədə uyğun bildiyi bir "İslam dövləti" qurmaq xəttini götürdü. Amma "İslam dövləti" qurulacaq bölgələrdə müsəlmanlara qarşı davam edən erməni-bolşevik təcavüzü və bu təcavüzdən əziyyət çəkən yerli müsəlman əhalisi nümayəndələrinin, eyni zamanda milli-azadlıq hərəkatı liderlərinin yeganə çıxış yolu kimi Osmanlı hökumətinə yardım üçün müraciət etmələri Osmanlı siyasi dairələrində ilhaqçı meyllərin güclənməsi və "Turançılığ"ın önə keçməsi ilə müşayiət olundu. 1918-ci ilin yanvarında yaradılmış Qafqaz İttihad və Tərəqqi partiyası da bu işdə az rol oynamadı. Bu partiya avam xalq kütlələri arasında "Azərbaycanın xilasının yeganə yolu onun Osmanlı imperiyası ilə birləşməsi olduğu" istiqamətində geniş təbliğat aparırdı. Nəticədə Qafqaz İttihad və Tərəqqi partiyasının təşkilatçılığı ilə Azərbaycanın ayrı-ayrı bölgələrindən Osmanlı hökumətinə "Azərbaycanın ilhaq edilməsi" ilə bağlı müraciətlər göndərildi.[430] Bir sözlə, Azərbaycanın Osmanlı imperiyasına ilhaq edilməsi ilə bağlı İstanbula göndərilən müraciətlərin kökündə elə Osmanlı hökumətinin öz turançı siyasəti dayanırdı.

1918-ci ilin martında bolşevik-daşnak alyansı tərəfindən Bakıda müsəlmanların kütləvi qırğını törədildi. Bakıda başlanmış bu qırğınlar aprel ayında Azərbaycanın bölgələrində də davam etdiri-

[430] ATASE, BDH, K. 3818, D. 2, F. 1;1-19; K. 1854, D. 120, F. 1-73, 1-74; BOA. HR.SYS, no. 2398/4, v. 1-7; no. 2373/1, v. 57-69.

lirdi. Seymin müsəlman fraksiyasının təzyiqləri qarşısında Cənubi Qafqaz hökuməti 1918-ci il aprelin 20-də Seym sədrinin müavini S.Tiqranyan və Seymin üzvü İ.Heydərovu Seymin adından Bakı Soveti ilə danışıqlar aparmaq üçün Bakıya göndərdi. Bakıya çatandan dərhal sonra İ.Heydərov bolşeviklər tərəfindən həbs edildi. S.Tiqranyan isə S.Şaumyanla sövdələşməyə girib, onunla separat danışıqlar apardı. O, mayın 3-də Tiflisə qayıtdıqdan sonra Seymdə çıxış edərək hökumətdən Bakıdakı hakimiyyətə qarşı yönəldilmiş hərbi əməliyyatları dayandırmağı və iğtişaşların dinc yolla həll edilməsi üçün tədbirlər görməyi tələb etdi.[431] Artıq "Bakı məsələsi"nin Cənubi Qafqaz Seyminin gücü ilə həll etmək cəhdlərinin əbəs olduğunu görən Seymin müsəlman fraksiyası yeganə çıxış yolunu Osmanlı qoşunlarının ölkəyə çağırılmasında gördü. M.Ə.Rəsulzadə bu barədə yazır: "Bu surətlə həyat təbiyyəsini təhdid edən bir təhlükəyə qarşı hakimiyyətini qəbul eyləmiş Tiflis hökumətindən laqeydlik görən Azərbaycan əfkari-ümumiyyəsində pək təbii olaraq bir iman doğyordu. Bu müşkül vəziyyətdən milləti qurtaracaq yeganə bir çarə vardı: Türkiyə!

Ümidlər həp oraya mətuf idi. "O qardaş millət gələcək, bizi düşmən əlindən qurtaracaq!" Xəlqin bundan başqa bir ümidi qalmamışdı".[432]

Seymin müsəlman fraksiyasının Batum konfransı ərəfəsində keçirilən iclasında N.Yusifbəyli ölkədə hökm sürən gərgin vəziyyəti təhlil edərək qeyd edirdi: "Yalnız Azərbaycanı deyil, bütün Zaqafqaziyanı istila edən böyük, dəhşətli anarxiyanı biz öz qüvvəmiz ilə yatıra bilmərik. Şərq tərəfdən bolşeviklərin bizim əsrlik düşmənimizlə birləşərək hücum etməsi vəziyyəti daha da kəskinləşdirərək türk millətinə çox böyük müsibət və fəlakət gətirir. Vəziyyət belə ikən, bizə xarici bir qüvvənin müdaxiləsini istəməkdən başqa çarə qalmır. İstiqlalımızın qızğın tərəfdarı olmaqla bərabər, mən bu məsələ haqqında birinci danışmaq məcburiyyətindəyəm. Fəlakətin üzünə cəsarətli baxaraq cərəyan edən hadisələri göz önünə almaq və ona görə hərəkət etmək gərəkir... Biz sevinməli-

[431] ARDA, f. 894, siy. 10, iş 144, v. 9, 10.
[432] Rəsulzadə M.Ə. Azərbaycan Cümhuriyyəti, s. 37-38.

yik ki, xoşbəxtlikdən müdaxilə edəcək qüvvə bizimlə dost və qardaş olan Türkiyədir. Bəlkə bu bizim qonşularımızın bir o qədər də xoşuna gəlməyəcək, lakin başqa çarəmiz yoxdur. Müdhiş anarxiya qarşısında onlar da bizim kimi gücsüzdürlər... Kiminsə xatirinə xəstə yatağında yata bilmərik. Bizim heyətin Batuma gedərək Şərqi Zaqafqaziya türkləri adından Osmanlı dövlətindən yardım istəməsinin zamanı gəlmişdir... Fəqət bununla bərabər Azərbaycanın istiqlal idarəsini də heç vaxt unutmamalıyıq".[433]

1918-ci il may ayının əvvəllərində bolşevik-erməni təcavüzü ilə əlaqədar vəziyyət o qədər ağırlaşmışdı ki, Azərbaycanın ayrı-ayrı yerlərindən nümayəndələr Batuma gedib Türkiyədən kömək istəmək qərarına gəlmişdilər. Mayın 13-də Yelizavetpol quberniyasının qəzalarından gələn nümayəndələrlə Seymin müsəlman fraksiyasının birgə iclası oldu. İclasda göstərildi ki, Seym üzvləri M.Ə.Rəsulzadə və M.H.Hacınski Batumda bütün Azərbaycan xalqının mənafeyini müdafiə etdiyi halda ayrı-ayrı nümayəndələrin Batuma getməsinə ehtiyac yoxdur. Nümayəndələrin təkidindən sonra qərara alındı ki, Türkiyə tərəfindən yardım almağı sürətləndirmək üçün M.Y.Cəfərov, N.Yusifbəyli və X.Xasməmmədov Batuma və İstanbula ezam olunsunlar.[434] Bu qərarın qəbul olunmasına baxmayaraq yenə də Azərbaycanın müxtəlif ictimai-siyasi qüvvələrinin və ayrı-ayı bölgələrin nümayəndələri Batuma yol-landılar. Onlar türk nümayəndə heyəti ilə görüşərək Osmanlı höku-mətinin Azərbaycana hərbi yardımının sürətləndirilməsi və Azərbaycanın Türkiyəyə ilhaq olunmasının "vacibliyi" ilə bağlı öz mövqelərini bildirdilər. N.Şeyxzamanlı Əhməd Rəfiqin "Qafqaz yolları" əsərinə istinadən bu barədə yazırdı: "Onlar Osmanlılarla müzakirələrdə iştirak etmək üçün Batuma gələn gəncəli, bakılı, tiflisli, qarabağlı müsəlmanlardır. Hamısının da simasında əzab və narahatlıq əlamətləri görünür... Məqsədləri "Qafqaz istiqlalı" deyil, osmanlılar ilə qəti surətdə birləşmək, ilhaq..."[435] N.Şeyxzamanlı yazırdı ki, "ilhaqçılarla mübarizə etmək mənə çox çətin olmuşdur.

[433] Məmmədzadə M.B. Milli Azərbaycan hərəkatı, s. 93-94.
[434] ARDA, f. 970, siy. 1, iş 1, v. 39-40.
[435] Şeyxzamanlı N. Azərbaycan istiqlal mücadiləsi xatirələri, s. 78.

Ruslar ilə mücadiləmizdə bu qədər əziyyət çəkməmişdim".[436] N.Yusifbəyli də ilhaqçıların Batumdakı hərəkətləri və onlara qarşı mübarizə aparmağın çətinliyinə toxunaraq göstərirdi ki, "anarxiya vaxtı xalqdan çəkmədiyim əzabı indi burada çəkirəm".[437]

Azərbaycan milli istiqlal mübarizəsinin liderlərinin fəaliyyətinə etinasız və şübhə ilə yanaşan ilhaqçıları neytrallaşdırmaq məqsədilə N.Şeyxzamanlı Batum konfransındakı Osmanlı nümayəndə heyətinin sədri Xəlil bəylə görüşdü. O, Xəlil bəyi bir daha inandırmaq istəyirdi ki, Azərbaycana göndəriləcək hərbi yardımın məqsədi Azərbaycanı Osmanlı imperiyasına ilhaq etmək deyil, Azərbaycanın müstəqilliyinin qazanılmasına və onun qorunub saxlanılmasına kömək etmək olmalıdır. Görüşdə razılıq əldə edildi ki, Xəlil bəy ilhaqçılardan bir qrupu qəbul etsin və Azərbaycanın müstəqil yaşamasının əhəmiyyətini onlara anlatsın. Ertəsi gün Xəlil bəy N.Şeyxzamanlının müşayiəti ilə ilhaqçılardan on nəfərdən ibarət bir heyəti qəbul etdi. Azərbaycanın Osmanlı imperiyasına ilhaq olunmasını tələb edən heyətin hər bir üzvü bu məsələ ilə bağlı yüzlərlə insanın imzası olan müraciətnamələrini Xəlil bəyə təqdim etdilər və bildirdilər: "Möhtərəm bəyimiz, xalqımız istiqlal istəmir, biz də istəmirik. Osmanlı imperiyasının bir hissəsi olmaq istəyirik".[438] N.Şeyxzamanlı yazırdı ki, Xəlil bəy gözəl danışmağı ilə onları inandıra bildi. Onlara son söz olaraq dedi: "Biz süngümüz ilə Qafqaza daxil olduq. Siz bizə ilhaq olunmaq istəməsəydiniz də biz sizi süngü ilə ilhaq edərdik. Ancaq buna imkan yoxdur. Bizim birləşməyimizi nə düşmən, nə də dost dövlətlər qəbul edər. Biz sizə yardım edirik və edəcəyik. İstiqlalı əldə edib müstəqil yaşamanız üçün nə qədər lazım olsa əsgər göndərəcəyik, hərtərəfli kömək edəcəyik. Öz vətənimiz kimi sizin vətəninizi də qoruyacağıq. Evlərinizə qayıdın və qurulacaq istiqlaliyyəti müdafiə edin".[439]

---

[436] Şeyxzamanlı N. Azərbaycan istiqlal mücadiləsi xatirələri, s. 79.
[437] Yenə orada, s. 79.
[438] ATASE, BDH, K. 2919, D. 499, F. 3-27; Şeyxzamanlı N. Azərbaycan istiqlal mücadiləsi xatirələri, s. 80.
[439] Şeyxzamanlı N. Azərbaycan istiqlal mücadiləsi xatirələri, s. 80.

Osmanlı imperiyasının Batum konfransındakı hərbi nümayəndəsi Vehib paşa isə bu məsələyə əks mövqedən yanaşırdı. O, Azərbaycanın Türkiyəyə ilhaq edilməsini tələb edən nümayəndələrin müraciətləri ilə bağlı 29 may 1918-ci il tarixində İstanbula, Baş Komandanlıq Vəkalətinə göndərdiyi teleqramında ilhaqçıların Batumdakı hərəkətləri haqqında dolğun məlumat verir və Cənubi Qafqaz bölgəsindəki müsəlmanların Osmanlı imperiyasına ilhaq edilməsinin vacib olduğunu bildirirdi.[440]

Qeyd etmək lazımdır ki, bu dövrdə Osmanlı siyasi dairələrində Azərbaycanın Türkiyənin himayəsi altında müstəqil dövlət kimi mövcud olması və ya Türkiyəyə ilhaq edilməsi məsələsinə münasibətdə qeyri-ardıcıl və tərəddüdlü bir mövqe hökm sürürdü. Buna səbəb konkret olaraq Almaniyanın Osmanlı hökumətinin Qafqaz siyasətini dəstəkləməməsi idi. Məhz bu səbəbdən idi ki, Osmanlı hökumətində əsas simalardan biri olan Xəlil bəy və onun kimi cərəyan edən hadisələri obyektiv, məntiqi qanunauyğunluqla dərk edən siyasilər hazırkı vəziyyətdə Azərbaycanın Osmanlı imperiyasına ilhaq edilməsini məqbul saymırdılar. Xəlil bəy 1918-ci il mayın 28-də Batumdan Tələt paşaya göndərdiyi şifrəli teleqramında yazırdı: "...İstər Cənubi Qafqaz, istərsə də Şimali Qafqaz hökumətlərinin hər şeydən öncə beynəlxalq vəziyyətləri aydınlaşdırılmalı və təsis edilməlidir. Yəni Rusiya ilə Brest müqaviləsi ilə yenidən təyin edilən əlaqələrini kəsməlidir. Digər dövlətlərdən əvvəl ilk olaraq müttəfiqlərimizə bunların istiqlalları tanıdılmalıdır. Bunun üçün konfederasiya şəkli qorunub saxlanılmalıdır. Çünki bu şəkildə yalnız konfederasiyanın istiqlalını tanımaq onun tərkib hissələri olan federal hökumətlərin də istiqlallarını tanımaq deməkdir. Əks halda hər birinin ayrı-ayrılıqda Rusiyaya tanıdılması lazımdır ki, bu da təbii olaraq çətin olar. Rusiyaya tanıtdırmaq üçün tələsmək lazımdır, əvvəlcə izah etmişdim. Biz müttəfiqlərimizlə, heç olmasa Almaniya ilə bərabər istiqlallarını tanıdıqdan sonra özümüz ordumuzla bunlara yardım edərək bolşeviklərdən Şimali və Cənubi Qafqazı qurtarıb və daxili qüvvələrini təşkil və

---

[440] ATASE. BDH. K. 2919, D. 499, F. 3-27:3-29.

tənzim edərsək, Rusiya da istər hüquqi, istərsə də feli olaraq fakt qarşısında qalar və bu faktı da məcburi olaraq qəbul edər. Ümumi sülhdən əvvəl bu cəhəti təmin etmək qayəmizə varmaq üçün ilk səhifədir. Buna yetişmək üçün ilhaq və ittifaq kimi Qafqaza sahib çıxma fikrimizi ortaya atmamaq ağıllı tədbir olar. Asayişi təmin etmək üçün Şimali və Cənubi Qafqaz müsəlmanlarının içinə ordumuz girdikdən sonra buraların qaynaqlarından ilhaq və ittifaqdan bəhs etmədən dilədiyimiz kimi istifadə edə bilərik. Hələlik bu da məqsədi təmin edər. Qafqazdakı xristian millətlərlə bərabər konfederasiya şəklində müsəlmanların da beynəlxalq vəziyyətlərini təsis etmədən və aydınlaşdırmadan indidən sahib çıxma arzumuzu ortaya qoysaq, Qafqaz məsələsinin həllinin nəticəsizliyə düçar olacağına şəkk-şübhə yoxdur. İstanbulda ikən bu xüsusda müttəfiq olduğumuz halda indi hansı mülahizələrə görə tələskənlik edilir. Lütfən məni düzgün qəbul edin. Bu mərhələdə müvəffəqiyyət əl vermədikdən sonra gələcək siyasətimiz haqqındakı düşüncənin də tətbiqinə başlayarıq. Qafqaz ilə dövlətin irtibatı ya ittihad və ya himayə şəklində olmalıdır. Bu iki şəklin də bir çox müxtəlif şəkilləri vardır. Mən şəxsi olaraq ittihada başlanmasını uyğun görürəm. Yəni, padşahımız əfəndimiz həzrətləri bütün Türkiyənin hökmdarı və Qafqazın sultanı olmalı, bu sifətlə hər iki məmləkətin or-dularının komandanı və siyasətinin ortaq hakimi olmalıdır. Bu şəkil və irtibata xristian hökumətlərin də müsbət yanaşacağına ümid edirəm. Müsbət yanaşmadıqları halda müsəlman hökumətlər konfederasiyadan ayrılarlar və bizimlə istədikləri kimi münasibət qurarlar. Bu məmləkətlərin idarəsinə iştirakdan hər halda çəkinməliyik qənaətindəyəm. Sırf türk olan Cənubi Qafqazın bunu can və könüldən arzulamış olduğuna və Şimali (Qafqaz – V.Q.) müsəlmanlarını da ilhaq edəcəyinə qənaətim vardır. İlhaq və ya sahib çıxmaya doğru tələskənlik etsək məhrumiyyətə düçar olacağımıza təkrarən nəzəri diqqətinizi cəlb edirəm..."[441]

Bundan iki gün sonra, mayın 30-da Tələt paşa Xəlil bəyə göndərdiyi teleqramında A.Çxenkelinin geri qayıdıb-qayıtmadığını

[441] BOA. HR.SYS. no. 2371/6. v. 88-89.

soruşur və ardınca yazırdı: "Müsəlman nümayəndələr istiqlaliyyət üçün təşəbbüs etdilərmi? Vəziyyət haqqında bir qədər məlumat verməyinizi xahiş edirəm".[442] Elə həmin gün Xəlil bəy tərəfindən İstanbula göndərilən cavab teleqramında bildirilirdi: "Çxenkeli özü qayıtmadı. Fəqət baş vəkil Ramişvili yoldadır, gəlmək üzrədir. Müsəlman nümayəndələr indi istiqlal elanı bəyannamələrini mənə gətirdilər, gördüm, bir məktub ilə göndərəcəklər. Xariciyyə Nəzarətimizdən də ("İstiqlal Bəyannaməsi"nin – V.Q.) digər dövlətlərə təbliğinə vasitəçi olmağı rica edirlər. Mən də alan kimi göndərəcəyəm... Gürcülərin ayrıca istiqlal elan etmələri Almaniyanın qəti tövsiyyəsi ilə olduğunu zənn edirəm. Belə olduğu halda digərlərinin istiqlalları Rusiya tərəfindən təsdiq edilmədən gürcülərin istiqlalının qəbul edilmiş olması mümkündür. Berlində vəziyyəti öyrənərək Cənubi və Şimali Qafqaz hökumətlərinin hər ikisinin də Rusiya tərəfindən qəbulunun təmin edilməsi məqsədəuyğundur. Ultimatum şərtləri hamısı tərəfindən qəbul edilmiş olduğuna nəzərən bir-iki günə yüksək səviyyədə müzakirələrin yekunlaşacağına böyük ümid vardır..."[443] Xəlil bəyin Tələt paşaya göndərdiyi bu teleqramlardan da göründüyü kimi, o, ilk əvvəl məsələnin hüquqi tərəflərinə diqqəti çəkir və Azərbaycanla Şimali Qafqazın, bu mümkün olmadığı təqdirdə heç olmasa Azərbaycanın istiqlaliyyətinin Almaniya və Rusiya tərəfindən tanınmasına nail olmaq istəyirdi. Onun mövqeyinə görə, bundan sonra Türkiyə, iki ölkə arasında ilkin olaraq ilhaq və ittifaqdan bəhs etmədən qurulacaq formal münasibətlər fonunda Azərbaycanın sərvətlərindən istədiyi kimi istifadə edə bilərdi. İlhaq məsələsi isə hələlik sonraya saxlanılmalı idi.

Lakin Ənvər paşa başda olmaqla turançı əhval-ruhiyyəli dairələr öz məqsədlərindən qətiyyən geri çəkilmək fikrində deyildilər. Ənvər paşa Azərbaycanın gələcəyini Osmanlı imperiyasının tərkibində görürdü. Onun Azərbaycana münasibətdə tutduğu mövqe belə idi: "Azərbaycanda müstəqil bir hökumət qurulmalıdır. Amma bunun başına keçəcək olan rəis, daha doğrusu, bu idarə ke-

---

442 BOA, HR.SYS, no. 2372/3, v. 96; no. 2398/5, v. 142.
443 BOA. HR.SYS. no. 2372/3, v. 91-92; no. 2398/5, v. 143.

çici olmalıdır. Azərbaycana təyin ediləcək hökmdar Xəlil paşa ilə Ənvər paşa arasında sirr olaraq qalmalıdır. Bu, bəlkə bir Osmanlı şahzadəsi, bəlkə də Ənvər paşa xanədanından biri, məsələn, Nuru paşa ola bilər".[444] 1918-ci ilin iyun ayında Gəncədə Qafqaz İslam Ordusunun komandanı Nuru paşa ilə Azərbaycan hökuməti arasında böhranın yaranması əslində Ənvər paşanın bu mövqeyinin bir ifadəsi idi.

Tiflisdəki 18 günlük fəaliyyətindən sonra Azərbaycan Milli Şurası və hökuməti 1918-ci il iyunun 16-da Gəncəyə köçdü. Bu zaman Azərbaycanın Osmanlı imperiyasına ilhaq olunmasını tələb edən ittihadçılar Nuru paşanın ətrafına toplaşaraq Milli Şura və hökumətə qarşı çıxdılar. Nuru paşanın Azərbaycanın daxili işlərinə qarışaraq, ölkənin Osmanlı imperiyasına ilhaq edilməsini tələb edən bu mürtəce qüvvələri dəstəkləyib F.X.Xoyskinin rəhbərlik etdiyi Azərbaycan hökumətinə etimadsızlıq göstərməsi siyasi böhranla nəticələndi. Nuru paşa açıq-aydın bildirirdi ki, o, solçulardan və müsavatçılardan daha çox panislamist dairələrə rəğbət bəsləyir. O, hökumətin və Milli Şuranın tamamilə buraxılmasını, onun hüquqlarının öz arzusu ilə təşkil edəcəyi hökumətə verilməsini istəyirdi və bildirirdi ki, əks təqdirdə türklər hökuməti dəstəkləməyəcəklər. M.B.Məmmədzadə yazırdı ki, "təşkil olunacaq bu "hökumət" isə rus çarizminin sabiq qapı qulları və şeyxülislamdan ibarət olacaqdı".[445]

Yaranmış böhranı aradan qaldırmaq üçün Milli Şuranın sədri M.Ə.Rəsulzadə, baş nazir F.X.Xoyski və xarici işlər naziri M.H.Hacınskidən ibarət bir heyət Nuru paşa ilə görüşüb danışıq aparmaq istədi. Lakin Nuru paşa "özünün əsgər olduğunu, siyasətdən başı çıxmadığını, ordunun siyasi müşaviri Əhməd bəy Ağaoğlu ilə görüşüb danışıq aparmağın lazım olduğunu" bildirərək Milli Şura üzvlərini qəbul etməkdən imtina etdi.[446] Milli Şuraya qarşı hörmətsizlik aktı olan bu hərəkət böhranı daha da dərinləşdirdi.

---

[444] Aydemir Ş.S. Makedonya'dan Ortaasya'ya Enver Paşa, s. 367.

[445] Məmmədzadə M.B. Milli Azərbaycan hərəkatı, s. 99.

[446] ARDA, f, 970, siy. 1, iş 1, v. 48; Məmmədzadə M.B, Milli Azərbaycan hərəkatı, s. 99; Baykara H. Azərbaycan istiqlal mübarizəsi tarixi, s. 240.

Faktiki olaraq Azərbaycanın istiqlaliyyətinin taleyi məsələsi qarşıya çıxmışdı. Nuru paşa tərəfindən qəbul edilməyən Milli Şura üzvlərinin ciddi təkidindən sonra onun siyasi müşaviri Ə.Ağaoğlu ilə görüşmək mümkün oldu. Nuru paşa Milli Şura üzvləri ilə görüşmək istəmədiyini "siyasətə qoşulmaq arzusunda olmaması" ilə əlaqələndirsə də, əslində siyasi müşaviri vasitəsilə Milli Şura nümayəndələrinə onun tələbləri ilə razılaşmaqdan başqa digər bir çıxış yolunun olmadığını bildirdi. Müzakirələr zamanı Ə.Ağaoğlu Milli Şura nümayəndələrinə bildirdi ki: "Xalq sizi istəmir. Komandanlıq da sizin işinizə qarışmaq istəmir. Öz qüvvənizə güvənirsinizsə, məclisinizi açın, hökumətinizi qurun. Xalq sizə qarşı üsyan etsə, türk əsgəri qarışmaz, çünki əsgər buraya qardaşlarını düşməndən qurtarmaq üçün gəlib, əhaliyə güllə atmaq üçün yox".[447] M.Y.Cəfərov çox haqlı olaraq soruşurdu: "Əhməd bəylə nümayəndələrimiz arasında keçən danışıqlardan mən belə anlayıram ki, indiki hökumətlə camaat arasında bir münaqişə çıxsa, türk əsgərləri tamamilə bitərəf qalacaqlar. Fəqət anlamıram ki, bu bitərəf qüvvə yenidən təşəkkül edəcək hökumətə hansı məntiqlə öz himayəsini təmin edəcək ümidini verir?"[448] Əhməd bəy böhrandan çıxış yolu kimi bildirdi ki, "siz Milli Şuranı bağlayın, hökumətdən əl çəkin. Nuru paşa istədiyi adamlardan bir Azərbaycan hökuməti qurar".[449] Lakin Azərbaycan nümayəndələri buna qəti etiraz etdilər və bildirdilər ki, belə bir addım Azərbaycanı beynəlxalq münasibətlər baxımından işğal faktı qarşısında qoyacaqdır. Həqiqətən də Milli Şura xaricində Nuru paşanın öz arzusu ilə bir hökumət təşkil etməsi ilə yeni hüquqi vəziyyət yaranırdı. Yəni Azərbaycan müstəqil bir dövlət olmaqdan çıxaraq Türkiyənin bir hissəsi şəklinə girirdi. Halbuki Osmanlı ordusu "Azərbaycan hökumətinin 4 iyun 1918-ci il tarixli Batum müqaviləsinin dördüncü maddəsinə

---

[447] Məmmədzadə M.B. Milli Azərbaycan hərəkatı, s. 99; Swietochowski T. Müslüman Cemaatten Ulusal Kimliğe Rus Azerbaycanı, s 179.
[448] Məmmədzadə M.B. Milli Azərbaycan hərəkatı, s. 100.
[449] Yenə orada, s. 99; Baykara H. Azərbaycan istiqlal mübarizəsi tarixi, s. 240; Swietochowski T. Müslüman Cemaatten Ulusal Kimliğe Rus Azerbaycanı, s. 179-180.

istinadən yardım üçün Türkiyəyə etdiyi müraciətə əsasən" Gəncəyə gəlmişdi və Azərbaycan hökumətinin sərəncamında olub, onun əmrlərinə tabe olmalı idi. Brest-Litovsk müqaviləsi ilə Azərbaycanı Rusiyanın bir hissəsi kimi qəbul etmiş Osmanlı imperiyası buraya başqa cür gələ də bilməzdi. Əks təqdirdə Brest-Litovsk müqaviləsini pozmuş olurdu. Sovet Rusiyası onsuz da Türkiyənin bu müdaxiləsinə etiraz edirdi. Eyni zamanda Osmanlı imperiyasının müttəfiqi olan Almaniya da İstanbul hökumətinin Azərbaycan siyasətini dəstəkləmirdi. Almanlar türk hərbi qüvvələrinin Brest-Litovsk müqaviləsi ilə müəyyən edilən sərhədin şərqinə keçməsini "Rusiya tərəfindən yarana biləcək müharibə təhlükəsi" ilə əlaqələndirirdilər və qətiyyətlə buna qarşı çıxırdılar. Əslində Azərbaycan nümayəndələrinin Batum müqaviləsinə istinadən hərbi yardım üçün Osmanlı hökumətinə müraciət etmələri sadəcə hüquqi prosedurları tamamlamaq məqsədi daşıyırdı və bu, türk qoşunlarının Azərbaycana müdaxiləsinin beynəlxalq aləm qarşısında "işğal" faktı kimi dəyərləndirilməməsi üçün Osmanlı hakim dairələri tərəfindən atılmış bir addım idi. Digər tərəfdən Batum müqaviləsi hələ ratifikasiya edilməmişdi. Burada sual ortaya çıxır, necə olur ki, ratifikasiya edilməyən və hüquqi qüvvəyə minməyən bir müqavilə felən icra olunur? Yuxarıda da qeyd etdiyimiz kimi, Osmanlı hakim dairələri bu rəsmi müraciətdən xeyli əvvəl – 1918-ci ilin fevralında Azərbaycana hərbi qüvvə göndərmək barədə qərar qəbul etmişdilər. Nuru paşa da öz dəstəsi ilə mart ayında Azərbaycana doğru hərəkətə başlamışdı və o, 1918-ci il mayın 25-də Gəncəyə daxil olub burada öz qərargahını yaratmışdı. Qeyd edək ki, bu zaman hələ Azərbaycanın müstəqilliyi elan edilməmişdi. Bundan başqa, hələ Batum müqaviləsi imzalanmamış, 2 iyun 1918-ci il tarixində Vehib paşa Ənvər paşaya yazırdı ki, "Bakı və ətrafının bolşeviklərdən təmizlənməsi üçün lazımi hərbi qüvvələri bölgəyə göndərdim və ehtiyac olarsa, bu qüvvələri daha da gücləndirəcəyəm".[450]

---

[450] ATASE. BDH. K. 2922, D. 512, F. 27.

"İyun böhranı" zamanı Nuru paşa, o cümlədən onun siyasi müşaviri, turançılıq siyasətinin memarlarından biri olan Ə.Ağaoğlu Azərbaycanın Osmanlı imperiyasına ilhaq edilməsini tələb edən ilhaqçılardan ibarət bir hökumət kabinəsi formalaşdırmaq istəyirdilər. Məcburiyyət qarşısında qalan Milli Şura üzvləri türk komandanlığı qarşısında belə bir tələblə çıxış etdilər ki, əgər siz bizim hökuməti qəbul etməsəniz, onda biz Avropa dövlətlərinin paytaxtlarına teleqramlar vurub bildirəcəyik ki, "biz türkləri bura dəvət etməmişik, onlar gəlib bizi işğal ediblər". Sonda Azərbaycan Milli Şurasının kəskin müqaviməti nəticəsində türk komandanlığı yeni hökumət kabinəsinin Milli Şura tərəfindən təşkil olunmasına, Milli Şuranın isə bütün səlahiyyətini yeni təşkil olunmuş hökumətə verib özünü buraxmasına razılıq verdi.[451] Bu qərarla razılaşmayan Sosialist bloku və hümmətçilər Milli Şuranın tərkibindən çıxdıqlarını bəyan etdilər. 1918-ci il iyunun 17-də axşam Milli Şuranın qalan üzvlərinin iştirakı ilə keçirilmiş iclasda Müsavat partiyası, bitərəflər və ittihadçılardan ibarət yeni kabinetin tərkibi təsdiq edildi.[452] F.X.Xoyskinin rəhbərlik etdiyi on iki nəfərdən ibarət olan ikinci hökumət kabinəsinə köhnə hökumətin altı üzvü və altı yeni nazir daxil oldu. Yeni təşkil olunan hökumətdə nazir portfelləri aşağıdakı qaydada bölüşdürüldü: Nazirlər Şurasının sədri və ədliyyə naziri – Fətəli Xan Xoyski, xarici işlər naziri – Məhəmməd Həsən Hacınski, daxili işlər naziri – Behbud ağa Cavanşir, yollar naziri – Xudadat bəy Məlik-Aslanov, maliyyə naziri – Əbdüləli bəy Əmircanov, əkinçilik naziri – Xosrov Paşa bəy Sultanov, xalq maarifi və dini etiqad naziri – Nəsib bəy Yusifbəyli, ticarət və sənaye naziri – Ağa Aşurov, səhiyyə və sosial himayəçilik naziri – Xudadat bəy Rəfibəyli. Hökumət kabinəsinə daxil edilmiş Əlimərdan bəy Topçubaşov, Xəlil bəy Xasməmmədov və Musa Rəfiyev portfelsiz nazir oldular. Müvəqqəti olaraq poçt və teleqraf nazirliyinə rəhbərlik etmək X.Məlik-Aslanova, ərzaq na-

451 ARDA, f. 970, siy. 1, iş 3, v. 12.
452 Azərbaycan Cümhuriyyəti Hökümətinin qanun və binagüzarlıq məcmuəsi. 1919, № 1, s. 8, 9; Zaqafqaziya Seyminin Müsəlman fraksiyası və Azərbaycan Milli Şurası iclaslarının protokolları. s. 153-155.

zirliyinə rəhbərlik etmək A.Aşurova, nəzarət nazirliyinə rəhbərlik etmək isə M.H Hacınskiyə tapşırıldı.

Azərbaycan Milli Şurasının 17 iyun tarixli iclasında türk hərbi komandanlığının hərəkətləri qarşısında çaşqın vəziyyətə düşən Milli Şura üzvləri vəziyyətin gərginliyinə baxmayaraq, geri çəkilmək niyyətində olmadıqlarını bir daha bəyan etdilər və müstəqil Azərbaycan dövlətinin varlığını qoruyub saxlamaq istiqamətində daha bir addım atıb Osmanlı imperiyası ilə Azərbaycan Cümhuriyyəti arasında imzalanmış 4 iyun 1918-ci il tarixli Batum müqaviləsini ratifikasiya etdilər. Müqavilədə ratifikasiya üçün bir ay vaxt nəzərdə tutulmuşdu. Azərbaycan tərəfi də üzərinə götürdüyü öhdəliklərə əməl edib müqaviləni vaxtında ratifikasiya etdi və təsdiqnamələr M.Ə.Rəsulzadə tərəfindən iyulun 6-da Osmanlı Xarici İşlər Nazirliyinə təqdim edildi.[453] Amma turançı siyasətə aludə olan Osmanlı hökuməti mətnini özü tərtib etdiyi bu müqaviləni ratifikasiya etmədi. Bab-ı Ali Hüquq Müşavirliyindən Tabiyət Müdiriyyətinə göndərilən 14 avqust 1918-ci il tarixli məlumatda bildirilirdi ki, "Azərbaycan Cümhuriyyəti hökuməti ilə imzalanan müqavilənin qeyd edilən hökumətin Milli Şurası tərəfindən təsdiq edilmiş olduğu Milli Şura rəisi M.Ə.Rəsulzadənin imzası olan qərarnamə surətindən aydınlaşsa da, bu müqavilənin təsdiqnamələri indiyədək mübadilə edilmədiyindən Hökumət-i Səniyyəcə Azərbaycan hökuməti hələ ki rəsmən tanınmış deyildir".[454] Bundan əlavə, hələ Azərbaycanın müstəqilliyi elan edildikdən iki gün sonra, mayın 30-da Azərbaycan Cümhuriyyətinin yaranması barədə məlumatı dünya dövlətlərinə çatdırmaq üçün Nazirlər Şurasının sədri F.X.Xoyski tərəfindən teleqram imzalandı.[455] İstanbul, Berlin, Vyana, Paris, London, Roma, Vaşinqton, Sofiya, Buxarest, Tehran, Madrid, Haaqa, Moskva, Stokholm, Kiyev, Xristaniya (Oslo) və Kopenhagenə göndərilməsi nəzərdə tutulan teleqramın Tiflisdən göndərilməsində çətinliklər olduğuna görə F.X.Xoyski bu teleqramın rus və fransız dillərində olan mətnlərini bu zaman

[453] ARPİİSSA, f. 277, siy. 2, iş 8, v. 23.
[454] BOA, HR.HMŞ.İŞO, no. 107/7, v. 16; no. 124/13, v. 17.
[455] ARDA, f. 970, siy. 1, iş 4, v. 5; BOA, HR.SYS, no. 2398/7, v. 55.

Batumda olan xarici işlər naziri M.H.Hacınskiyə göndərdi və ona tapşırdı ki, bunu İstanbula çatdırın və oradan radio vasitəsilə yayın, həmçinin bu teleqramın çatdırılması haqqında məlumatı və xüsusi olaraq Türkiyə rəsmi dairələrinin bu hadisəyə münasibətini öyrənib teleqramla bizə bildirin.[456] M.H.Hacınski Azərbaycanın "İstiqlal" teleqramını Xəlil bəy vasitəsilə İstanbula göndərib bunun radio vasitəsilə göstərilən ünvanlara çatdırılmasını xahiş etsə də[457], iyun ayının sonlarında M.Ə.Rəsulzadənin İstanbula gəlməsindən sonra məlum oldu ki, adı keçən teleqram İstanbuldan heç bir yerə göndərilməmiş və Azərbaycanın istiqlalının elan edilməsi ilə bağlı türk mətbuatında da hər hansı bir məlumat dərc olunmamışdır.[458]

İyun böhranı zamanı, F.X.Xoyskinin rəhbərlik etdiyi ikinci hökumət kabinəsinin yaradılmasından bir gün sonra, iyunun 18-də hələ hökumət nazirləri arasında vəzifə bölgüsü aparılmadan keçirilmiş iclasda təcili olaraq Mərkəz dövlətlərinin İstanbulda olan nümayəndələri ilə danışıqlar aparmaq adı ilə M.Ə.Rəsulzadənin sədrliyi ilə X.Xasməmmədov və A.Səfikürdskidən ibarət nümayəndə heyətinin Türkiyəyə göndərilməsi barədə qərar qəbul olundu.[459] Bu heyətin İstanbulda keçirilməsi nəzərdə tutulan çox önəmli bir konfransa göndərilməsinə baxmayaraq, heyət üzvləri elə bir sürətlə Gəncəni tərk etməli oldular ki, lazımi xəritə və sənədləri, hətta Azərbaycanın "İstiqlal Bəyannaməsi"ni belə özləri ilə götürməyə macal tapmadılar. Nümayəndə heyəti iyunun 24-də İstanbula çatdıqdan sonra məlum oldu ki, konfransın nə zaman keçiriləcəyi hələ bəlli deyil.[460] "Azərbaycanın istiqlalı" məsələsində Nuru paşaya qarşı çox sərt bir mövqe nümayiş etdirən M.Ə.Rəsulzadə, X.Xasməmmədov və A.Səfikürdskinin təcili surətdə "konfransa getmək" adı altında Azərbaycandan uzaqlaşdırılaraq İstanbula göndərilmələri bir növ Nuru paşanın bu şəxslərdən "canını

456 ARDA, f. 970, siy. 1, iş 4, v. 1-2.
457 BOA. HR.SYS, no. 2398/7, v. 55.
458 ARPİİSSA, f. 277, siy. 2, iş 7, v. 47a, 17, 17a, 37a.
459 ARDA, f. 970, siy. 1, iş 138, v. 3-5.
460 ARPİİSSA, f. 277, siy. 2, iş 7, v. 46-49.

qurtarması" demək idi. Onu da qeyd etmək yerinə düşər ki, Osmanlı qoşunları 1918-ci il iyunun 18-də Təbrizə girəndə Cənubi Azərbaycanda istiqlalçılara qarşı daha sərt tədbirlər həyata keçirdilər. Azərbaycan Demokrat Partiyasının radikal qanadı, o cümlədən Şeyx Məhəmməd Xiyabani Qarsa sürgün edildi, Demokrat partiyasının fəaliyyəti qadağan edildi, İttihad meylli və Osmanlı tərəfdarı olan "İttihad-i İslam" cəmiyyətindən başqa bütün siyasi təşkilatlar bağlanıldı.[461] Qacar şahzadələrindən Məcid əl-Səltənə Cənubi Azərbaycana vali təyin edildi.[462]

Bundan əlavə, Tiflisdə yaradılmış ilk Azərbaycan hökumətində hərbi nazir vəzifəsi olduğu halda, "İyun böhranı" zamanı Gəncədə yaradılmış ikinci kabinetdə bu vəzifənin yoxa çıxması və türk orduları Azərbaycandan gedənə qədər Cümhuriyyət hökumətində bu vəzifənin olmaması, Nuru paşanın bütün hərbi işləri öz əlində cəmləməsi, Azərbaycan hərbi hissələrinin nisbi muxtariyyətinə belə qısqanclıqla yanaşılıb, 13 avqust 1918-ci il tarixində Nuru paşanın əmri ilə Azərbaycan milli korpusunun ləğv edilib 5-ci və 15-ci türk firqələri arasında bölüşdürülərək Qafqaz İslam Ordusu içərisində əridilməsi[463], 1918-ci il iyunun 21-də Azərbaycan Cümhuriyyətinin dövlət bayrağının Türkiyə bayrağı ilə eyni rəngdə təsdiq olunması və fərqin yalnız qırmızı fondakı ay və ulduzun beş guşə deyil, səkkiz guşə olması (1918-ci il noyabrın 9-da bu bayraq səthində ağ aypara və səkkizguşəli ulduz təsvir olunan, bərabər endə mavi, qırmızı və yaşıl zolaqlar rəngində bayraqla əvəz edildi[464]) və s. faktlar Osmanlı hökumətinin Azərbaycanın müstəqilliyini qəbul etmək istəməməsi, buna müvəqqəti bir hal kimi baxması və turançı siyasətini həyata keçirərək bölgənin Türkiyəyə ilhaq edilməsinə çalışdığını göstərən tutarlı dəlillərdir. Dövrün arxiv sənədlərinin, xüsusilə də Ənvər paşanın yazışmalarının araşdı-

---

[461] Swietochowski T. Müslüman Cemaatten Ulusal Kimliğe Rus Azerbaycanı, s. 180.

[462] Azerbaycan Maddesi // İslam Ansiklopedisi. C. II. İstanbul: Maarif Matbaası. 1942, s. 117.

[463] Baykara H. Azərbaycan istiqlal mübarizəsi tarixi, s. 241.

[464] ARDA. f. 894, siy. 1. iş 25, v. 142.

nılması belə bir nəticəyə gəlməyə imkan verir ki, Azərbaycan Cümhuriyyətinin yaranmasından sonrakı ilk aylarda mövcud beynəlxalq şərait, xüsusilə də Almaniyanın kəskin olaraq Osmanlı hökumətinin Azərbaycan siyasətinə qarşı çıxması, habelə Azərbaycan milli azadlıq hərəkatı liderlərinin sərt mövqeyi Azərbaycanın Türkiyəyə ilhaq edilməsi üçün qətiyyən əlverişli deyildi. Bu səbəbdən Osmanlı hakim dairələri ilhaq məsələsini bir qədər sonraya – Bakının da türk qoşunlarının nəzarətinə keçməsindən sonraya saxlamışdılar. Bu zaman bölgənin real sahibinə çevriləcək Osmanlı imperiyası Bakı neftindən Almaniyaya müəyyən pay verməklə onu bitərəfləşdirə və ilhaqın əleyhinə çıxan milli qüvvələri asanlıqla zərərsizləşdirə biləcəkdi. Lakin 1918-ci ilin sentyabrında dünya müharibəsində üstünlüyün tam olaraq Antantanın tərəfinə keçməsi Osmanlı hakim dairələrinin planları qarşısına sədd çəkdi.

M.Ə.Rəsulzadə 1918-ci il iyunun 17-də yaranmış siyasi böhranı qiymətləndirərək deyirdi: "...Azərbaycanın müvəqqəti paytaxtı olan Gəncədə naqis də olsa, milli hakimiyyəti təmsil edən bir müəssisənin bu şəkildə meydandan çəkilmək məcburiyyətində qalması, heç şübhəsiz, demokratiyanın bir geriləməsi və mürtəce qüvvələrin müvəffəqiyyəti idi. Bu geri çəkilmə ağ və pak qüvvələrə müqabil qara və napak qüvvələri gücləndirəcəkdi... Bu hallar bizdə Rusiya inqilabının məqsədlərinin iflasa uğramasına dair bir təsəvvür yaratmaqda idi..."[465] Bir il sonra M.Ə.Rəsulzadə bu hadisəni xatırlayaraq yazırdı: "Bizə deyirlər ki, türkləri tənqid etmək olmaz, çünki onlar bura bizi idarə etməyə yox, bir əsgər kimi xalqı müdafiə etməyə gəlmişdilər. Bu doğrudur. Lakin o da doğrudur ki, bizim öz içərimizdən elə bəylər və ağalar var idi ki, onlar burada İstanbulun ağalıq etməsini tələb edirdilər".[466] "İyun böhranı" nəticəsində M.Ə.Rəsulzadənin rəhbərlik etdiyi Milli Şura müvəqqəti olaraq öz fəaliyyətini dayandırmağa məcbur olsa da, onun tutduğu prinsipial mövqe Azərbaycan istiqlaliyyətinin başı üzərini

[465] ARDA, f. 970, siy. 1, iş 3, v. 13; Rəsulzadə M.Ə. Azərbaycan Cümhuriyyəti. s. 40-41.
[466] Həsənli C. Azərbaycan Xalq Cümhuriyyətinin Xarici Siyasəti (1918-1920). Bakı: "Garisma" MMC. 2009. s. 108.

alınmış ölüm təhlükəsinin sovuşmasında müstəsna rol oynadı. Azərbaycan milli azadlıq hərəkatının liderləri ölkənin xilası və istiqlalı üçün kəskin ehtiyac duyduqları hərbi yardım barədə Osmanlı hökumətinə təkidlə müraciət etsələr də, bu qüvvələr özünün milli demokratik mövqeyinə daim sadiq qalmış, Azərbaycanın müstəqilliyini hər şeydən uca tutmuş və türk birliyinə sadəcə mədəni doktrina mahiyyəti vermişdilər.

1918-ci il iyunun 17-də F.X.Xoyskinin sədrliyi ilə təşkil edilmiş ikinci hökumət kabinəsinin qarşısında duran əsas məsələ Bakının azad edilməsi məsələsi idi. Bununla belə, Azərbaycan hökuməti ilə türk hərbi komandanlığı arasındakı münasibətlərdə bir gərginlik hökm sürürdü. Real hərbi qüvvəyə malik olan Nuru paşa ölkədə baş verən bütün hadisələri öz nəzarətində saxlayırdı. Müxtəlif məntəqələrdə yerləşən türk qarnizonlarının rəisləri bir çox hallarda Azərbaycan məmurları ilə hesablaşmır və öz bildikləri kimi hərəkət edirdilər. Gəncə qubernatoru hökumətə məruzəsində bildirirdi ki, həmin zabitlər vəzifəli şəxslərin sərəncamlarına müdaxilə edir və hətta onları özləri təyin edirdilər. Şuşa qəza rəisinin 1918-ci ilin sentyabrında Xarici İşlər Nazirliyinə göndərdiyi teleqramında Şuşanın hərbi komendantının "bütün hakimiyyəti öz əlinə alaraq heç kimi tanımaq istəməməsindən" şikayətlənirdi.[467]

Qafqaz İslam Ordusu komandanlığının bu cür hərəkətləri mütəmadi olaraq Azərbaycan hökumətinin etirazları ilə müşayiət olunurdu. Baş nazir F.X.Xoyski bu zaman İstanbulda olan M.Ə.Rəsulzadəyə yazdığı 23 avqust 1918-ci il tarixli məktubun şifrəli qismində bu məsələyə toxunaraq qeyd edirdi: "Türkiyə ilə münasibətləri qəti və birdəfəlik olaraq yoluna qoymaq lazımdır. Nuru paşanın siyasəti bizim daxili işlərimizə getdikcə daha çox qarışmağa yönəlmişdir. İstanbulun siyasətini ehtiyatla öyrənmək və istiqlalımızın qorunması üçün lazımi tədbirləri görmək lazımdır".[468]

F.X.Xoyski bundan bir həftə sonra, avqustun 31-də M.Ə.Rəsulzadəyə göndərdiyi növbəti məktubunda yenidən bu məsələyə

---

[467] Azərbaycan Cümhuriyyəti (1918-1920). Məsul red. N.Ağamalıyeva. Bakı: Elm, 1998, s. 113-114.
[468] ARPİİSSA. f. 277. siy. 2, iş 7. v. 22-22a.

diqqəti çəkərək yazırdı: "Bakı məsələsi hələ çözülməmişdir. Əlimərdan bəy təfsilatını sizə bildirəcəkdir. Ən önəmlisi isə, Türkiyə ilə münasibətləri qəti olaraq aydınlaşdırmaq lazımdır. Əks təqdirdə bütün işlər bərbad olmaqda və idarəçilikdə ikihakimiyyətlilik ortaya çıxmaqdadır. Təklif budur ki, bütün idarəçilik Azərbaycan hökumətinin əlində cəmləşməlidir, türk hərbi hissələri isə özünün bütün arzu və tələblərini hökumətə yönəltməli və onun vasitəsilə həyata keçirməlidir və hazırda olduğu kimi, bilavasitə idarəetmə işlərinə qarışmamalıdır".[469]

Bu zaman qarşıda əsas vəzifə kimi Bakının azad edilməsi məsələsi durduğundan M.Ə.Rəsulzadənin rəhbərlik etdiyi İstanbuldakı Azərbaycan nümayəndə heyəti türk hakim dairələri qarşısında Osmanlı-Azərbaycan münasibətlərinin qəti və konkret olaraq birdəfəlik aydınlaşdırılması məsələsini qabartmağı lazım bilmirdi. Bu obyektiv həqiqəti düzgün qiymətləndirən Azərbaycan hökuməti yenə də öz amalına sadiq qalaraq Qafqaz İslam Ordusu komandanlığının Azərbaycanın daxili işlərinə kobud müdaxilələrini, ölkədə ikihakimiyyətliliyin yaranmasını dövlət suverenliyi üçün ciddi təhlükə kimi qiymətləndirdi və bu məsələ ilə bağlı İstanbuldakı heyətin fəaliyyətinin səmərəsizliyini gördükdə 1918-ci il avqustun 20-də Əlimərdan bəy Topçubaşovu fövqəladə səfir olaraq İstanbula göndərdi.[470] Əslində səfir göndərilən ölkənin hökumətindən bu səfirin qəbul edilib-edilməyəcəyi öyrənildikdən sonra diplomatik nümayəndə göndərilir. Azərbaycan hökumətinin bu diplomatik proseduru belə həyata keçirmədən Ə.Topçubaşovu İstanbula göndərməsi Azərbaycandakı vəziyyətin nə dərəcədə gərgin olmasından xəbər verirdi. Ə.Topçubaşov sentyabrın sonlarında İstanbula gəlsə də, artıq bu zaman Türkiyə məğlubiyyət ərəfəsindəki böhran içərisində olduğundan və ay yarım ərzində ölkədə üç hökumət kabinəsi dəyişildiyindən Osmanlı imperiyası ilə Azərbaycan arasında sabit münasibətlər bərqərar etmək mümkün olmadı.

---

469 ARPİİSSA, f. 277, siy. 2, iş 7, v. 23-23a.
470 ARDA. f. 970, siy. 1. iş 138. v. 2: BOA. HR.SYS. no. 2457/60. v. 1-2.

Azərbaycan hökumətinin sədri yaranmış vəziyyətlə bağlı Nuru paşaya etdiyi müraciətində də Azərbaycan qəzalarında ikihakimiyyətlilik müşahidə olunduğunu, "son zamanlar Osmanlı imperiyasının hərbi qulluqçularının Azərbaycanın daxili idarəetmə işlərinə qarışması və hökumət orqanları ilə tamamilə hesablaşmaması" hallarının getdikcə artdığını diqqət mərkəzinə çəkir və bundan narahatlığını bildirirdi.[471]

Bununla belə, Bakı hələ düşmən əlində olduğu üçün Azərbaycan hökuməti bir çox hallarda türk hərbi komandanlığının hərəkətlərinə müəyyən mənada göz yummağa məcbur olurdu. F.X.Xoyski 1918-ci il dekabrın 7-də Azərbaycan Parlamentinin açılışında bu məsələyə toxunaraq qeyd edirdi: "Sərhədlərimizi qorumaq, daxili anarxiyanı ləğv etmək üçün bizim dəvətimizlə ölkəmizin hüdudlarına daxil olmuş türk komandanlığı şəraitə uyğun olaraq bizim daxili işlərimizə qarışırdı. Biz bir tərəfdən hüquqlarımızın toxunulmazlığını qorumaq istəyimizdən, digər tərəfdən türk komandanlığına ehtiyacımız olduğundan incə manevr etməyə məcbur idik ki, xarici təcavüzdən özümüzü qoruya bilək və böyük qurbanlar bahasına bizim fiziki varlığımızı xilas etmiş tərəfi özümüzdən incitməyək".[472]

Dünya müharibəsində artıq Almaniya-Osmanlı blokunun məğlubiyyətinin qaçılmaz olduğu bir dönəmdə də "Azərbaycana hökmdar seçilməsi" məsələsi Ənvər paşanın diqqət mərkəzində idi. O, bu məsələ ilə bağlı Nuru paşaya göndərdiyi 6 oktyabr 1918-ci il tarixli teleqramında yazırdı: "Bakıya köçən Azərbaycan hökuməti, təbii yaxın zamanda Milli Məclisini toplayacaqdır. Bu məclisdə hökumətə veriləcək şəkil müzakirə olunaraq, müzakirə nəticəsində Azərbaycanın bir hökmdarın (padşahın) rəyasəti altında idarə olunmasına qərar verilməsi məqsədəuyğundur. Bu qərar alındıqdan sonra, hökmdar seçilməsi məsələsi sonra həll olunar. Hökumətin idarəsi, indiki kimi bir baş vəkilə, məsul nazirlərə verilə bilər. Bunu münasib surətdə təmin edin".[473]

---

[471] ARDA. f. 894, siy. 10. iş 47. v. 1.
[472] Azərbaycan qəzeti, 10 dekabr 1918-ci il.
[473] Aydemir Ş.S. Makedonya'dan Ortaasya'ya Enver Paşa. s. 428.

Artıq dünya müharibəsinin sonlarında hərbi-siyasi vəziyyətin kəskin dəyişməsi ilə əlaqədar Ənvər paşa Qafqazla bağlı siyasətində müəyyən dəyişikliklər etdi. O, Qafqaz İslam Ordusu komandanlığına göndərdiyi 13 və 16-17 oktyabr 1918-ci il tarixli teleqramlarında Azərbaycanla Şimali Qafqazın birləşərək "Şərqi Qafqaz Hökuməti" adlı bir İslam hökuməti vücuda gətirmələrini və yaxud bu dövlətlərin konfederasiya şəklində birləşmələrini və Antanta dövlətləri tərəfindən müstəqilliklərinin tanınması şərti ilə bolşeviklərə qarşı mübarizədə onlarla birlikdə hərəkət etmələrinin vacib olduğunu bildirirdi.[474] Türk tarixçisi A.N.Kurat yazırdı ki, "Türkiyənin təşviqi ilə Azərbaycan və Dağıstanın bir federasiya halında birləşməsindən sonra Cənubi Azərbaycan da bu federasiyaya daxil ediləcəkdi və bu surətlə əhalisi 10 milyonu aşan böyük bir türk-müsəlman dövləti meydana gəlmiş olacaqdı. Dolayısıyla Ənvər və Tələt paşaların turançı siyasəti müsbət səmərə vermiş olacaqdı".[475]

Bu dövrdə Böyük Britaniya Xarici İşlər Nazirliyinin Kəşfiyyat Bölməsi Orta Şərq Şöbəsinin müşaviri Arnold Toynbi nazirliyə göndərdiyi raportunda yazırdı ki, Ənvər paşa çox güman ki, müharibənin sonlarında Qafqazın şərqinə (Azərbaycana) çəkiləcək və burada Tripolidə italyanlara qarşı gerçəkləşdirdiyi partizan müharibəsini tətbiq edəcəkdir. Toynbiyə görə, Ənvər paşanın bu planının bir neçə mərhələsi var idi. Azərbaycanın müstəqilliyinin İngiltərə tərəfindən tanınmasını təmin etmək burada ilk mərhələ idi. Toynbi ayrıca onu da qeyd edirdi ki, türklər bir qədər əvvəl Cənubi Azərbaycan valisi olan İran vəliəhdinə Osmanlı himayəsində olacaq birləşmiş Azərbaycanın idarəçiliyini də təklif etmişdilər.[476]

Ənvər paşanın bu dövrə aid digər məktub və teleqramlarından da anlaşılır ki, artıq o, bu aralar Azərbaycanın müstəqilliyinin İn-

---

[474] Halil Paşa. İttihat ve Terakki'den Cumhuriyet'e Bitmeyen Savaş, s. 249-250, 247-248.

[475] Kurat A.N. Türkiye ve Rusya, s. 542.

[476] Çağlayan K.T. I Dünya Savaşı Sonunda Enver Paşanın Kafkasya'daki Planları ve İngiltere // Atatürk Araştırma Merkezi Dergisi, Temmuz 1998, C. XIV, Sayı: 41, s. 516.

giltərə tərəfindən tanınması üçün cəhdlər etmişdi.[477] O, Osmanlı imperiyasının İsveçrədəki səfiri Fuad Səlim bəyə göndərdiyi 22 oktyabr 1918-ci il tarixli teleqramında da Azərbaycanın Antanta dövlətləri tərəfindən tanınması üçün çalışmağı tövsiyə edirdi.[478]

Onu da qeyd edək ki, Azərbaycanın müstəqilliyinin İngiltərə tərəfindən tanınmasına çalışdığı bu zaman Ənvər paşa faktiki olaraq artıq hakimiyyətdə deyildi. Müharibənin sonu yaxınlaşdığından "barışığ"ın yeni bir kabinə tərəfindən imzalanmasının vacibliyini dərk edən Tələt paşa hökuməti 1918-ci il oktyabrın 8-də öz istefasını sultan VI Mehmed Vahidəddinə təqdim etdi.[479] Oktyabrın 14-də Türkiyənin siyasətini ABŞ prezidenti V.Vilsonun "14 maddəsi"nə uyğunlaşdırmağa çalışan Əhməd İzzət paşa kabineti yaradıldı. Oktyabrın 30-da da Türkiyə Mudros barışığının ağır şərtlərinə imza atmağa məcbur oldu. Mudros barışığının on birinci maddəsinə görə, Türkiyə orduları tezliklə Cənubi Azərbaycanı və Cənubi Qafqazı tərk etməli idilər. Barışığın on beşinci maddəsində isə göstərilirdi ki, "Türkiyə müttəfiqlər tərəfindən Bakının işğal edilməsinə heç bir etiraz etməməli idi".[480] Azərbaycanın İstanbuldakı səlahiyyətli nümayəndəsi Ə.Topçubaşov barışığın bu maddəsi ilə bağlı türk tərəfinə öz etirazını bildirsə də[481], bu elə bir ciddi reaksiya doğurmadı. Türkiyə Xarici İşlər Nazirliyi cavab notasında bildirdi ki, "Antanta ilə barışıq şərtlərini yerinə yetirərkən sultan hökuməti ingilis qoşunlarının Bakını tutması ilə bağlı yarana biləcək münaqişədən kənarda qalmaq istəyir".[482]

Ənvər paşa Xəlil və Nuru paşalara göndərdiyi 23 və 26 oktyabr 1918-ci il tarixli teleqramlarında isə yaranmış vəziyyətlə əlaqədar olaraq Azərbaycana yerləşmək və buradan yeni cümhu-

---

[477] Aydemir Ş.S. Makedonya'dan Ortaasya'ya Enver Paşa. s. 438-443; Haley Ch.D. Son Savaşçı Enver Paşa, s. 109-110.
[478] Aydemir Ş.S. Makedonya'dan Ortaasya'ya Enver Paşa, s. 440, 442; Budak M. Nuri Paşa'nın Kafkas İslam Ordusu Hakkındaki Raporu. s. 95.
[479] Kurat A.N. Türkiye ve Rusya, s. 574.
[480] BOA, HR.SYS, no. 2397/6, v. 21; Türk İstiklal Harbi I. Mondros Mütarekesi ve Tatbikatı. Ankara: Genelkurmay Basımevi, 1962. s. 42-43.
[481] ARDA, f. 970, siy. 1, iş 68, v. 2-3; f. 894, siy. 10, iş 151, v. 4.
[482] ARDA, f. 970, siy. 1, iş 68, v. 14.

riyyətin təşəkkülünü təmin etmək istədiyini bildirirdi.[483] Türkiyə milli azadlıq hərəkatının fəallarından olan Əli Fuad Cəbəsoy öz xatirələrində Moskvadakı görüşlərin birində Ənvər paşaya ünvanladığı "Məğlubiyyətə doğru gedərkən məmləkətin gələcəyi haqqında nə düşünürdünüz" sualına onun verdiyi cavabı belə nəql edir: "Bir məğlubiyyət fəlakətindən sonra nə düşmənlərimizin mərhəmətinə və nə də bizdən sonra təşəkkül edəcək hökumətlərin sədaqətlə çalışaraq müharibədən minimum zərərlə çıxacağımıza inanırdım. Qafqazlardakı ordularımızın gücünə güvənərək mərkəzi Bakı olmaqla müvəqqəti bir hökumət təşkil edəcəkdim. Düşmənlərimizin edəcəkləri təzyiq və bizə təklif edəcəkləri sülh şərtlərinin ağırlığı dərəcəsinə görə ana vətəni öz qüvvələrimlə xilas etməyə çalışacaqdım. Fəqət İstanbuldan bir alman torpedosu ilə Şimali Qafqaz sahilinə çıxdıqdan sonra xəstələnərək bir kənddə uzun müddət qalmağa məcbur oldum. Bu əsnada məndən ümidini kəsən komandanlar İstanbul hökumətinin əmrinə tabe olaraq qismən Ərzurum və qismən də İstanbula dönmüşdülər. Ayağa qalxdığım zaman təsəvvürlərimi tətbiq edə biləcək bir qüvvə ortada yox idi. Çarəsiz qalaraq Almaniyaya döndüm və bildiyiniz şərtlər daxilində Rusiyaya getdim".[484]

Həqiqətən də, müharibənin sonlarına yaxın Ənvər paşa Qafqaz cəbhəsində olan 9-cu ordunu qüvvətləndirmiş, onu hər cür silah və sursatla təchiz etmiş və bundan özünün yuxarıda qeyd etdiyi məqsədləri üçün istifadə etməyi planlaşdırmışdı. Ənvər paşa Azərbaycan və Dağıstana da yetərincə silah göndərmişdi və o, bu ərazilərdə təşkil ediləcək qüvvələrin dəstəyi ilə ingilislərə qarşı müqavimət göstərmək, daha sonra Ermənistanı əzərək Şərqi Anadoluya keçmək və burada Türkiyənin milli haqlarını müdafiə etmək məqsədilə uzun və çətin bir partizan müharibəsinə başlamaq niyyətində idi.[485] Ənvər paşa Xəlil paşaya göndərdiyi 8 oktyabr 1918-ci il tarixli teleqramında bu niyyətlərini həyata keçirmək

[483] Aydemir Ş.S. Makedonya'dan Ortaasya'ya Enver Paşa, s. 446.
[484] Cebesoy A.F. Milli Mücadele Hatıraları. İstanbul: "Vatan" Neşriyatı, 1953, s. 42-43.
[485] Kurat A.N. Türkiye ve Rusya, s. 582.

məqsədilə Azərbaycana gəlmək istədiyini bildirirdi.[486] Lakin Xəlil paşa oktyabrın 10-da göndərdiyi cavab teleqramında, buna lüzum görmədiyini və hazırkı vəziyyətdə Azərbaycanda yalnız Nuru paşanın çalışmasının məqbul olduğunu yazırdı.[487] Buna baxmayaraq, Ənvər paşa Qafqaza gəlib burada təşkil ediləcək qüvvələrlə müqavimət hərəkatını davam etdirməkdə qərarlı idi.[488] Amma özünün də qeyd etdiyi kimi, o, uzun müddət xəstə yatması və bu dönəmdə türk qoşunlarının Qafqazı tərk etməsi səbəbindən sağaldıqdan sonra bölgədə məqsədlərini həyata keçirmək üçün elə bir qüvvə görməmiş və Berlinə getməyə məcbur olmuşdu. Berlində Tələt paşa ilə birlikdə təkrar fəaliyyətə başlayan Ənvər paşa yenidən "bütün İslam aləmini ingilislərə qarşı ayağa qaldırmaq" düşüncəsinə gəldi, bu yolda bolşeviklərlə anlaşma yolunu tutdu və bu niyyətlə 1920-ci ilin avqustunda Moskvaya gedərək sovet hökuməti ilə əlaqələr qurdu.

Onu da qeyd etmək lazımdır ki, Osmanlı hakim dairələrinin bir qisminin turançı siyasətə aludə olub Azərbaycanın müstəqilliyini tanımaq istəməməsi, Nuru paşanın Azərbaycan hökumətinə etinasızlıq göstərərək ölkənin daxili işlərinə kobud müdaxilələri və bununla bağlı cümhuriyyət hökuməti ilə Osmanlı siyasiləri arasında qarşılıqlı inamsızlığın olmasına baxmayaraq, Azərbaycan hökuməti və xalqı Osmanlı imperiyasının yardımlarını heç bir zaman unutmamış və türk əsgərlərinin azərbaycanlıların erməni-bolşevik zülmündən xilası yolundakı xidmətlərini həmişə minnətdarlıqla xatırlamışdır. 1919-cu il sentyabrın 15-də Azərbaycan hökuməti Çəmbərəkənd qəbiristanlığında (indiki Şəhidlər Xiyabanı) Azərbaycanda şəhid olmuş türk əsgərlərinin şərəfinə xatirə abidəsinin özül daşını qoydu. Özülqoyma mərasimində Azərbaycan hökumətinin və parlamentinin üzvləri iştirak etdilər. Bu mərasimdən əvvəl parlamentin xüsusi bir iclası oldu və bu iclasda Bakı şəhərinin azad edilməsi uğrunda döyüşlərdə şəhid olmuş türk əsgərlərinin xatirəsi bir dəqiqəlik sükutla yad edildi. Parlamentin sədr

---

486 Aydemir Ş.S. Makedonya'dan Ortaasya'ya Enver Paşa. s. 446.
487 Yenə orada, s. 443-445.
488 Kurat A.N. Türkiye ve Rusya. s. 583.

müavini Həsən bəy Ağayev Bakının azad edilməsinin ildönümü münasibəti ilə söylədiyi nitqində bildirirdi: "...Bu günkü bayramın nə qədər şərəfli, nə qədər tarixi olduğunu hər kəs düşünür və anlar... Bu gün düz bir ildir ki, Azərbaycanın milli mərkəzi hesab olunan Bakı düşmənlər əlindən, zalimlər əlindən xilas olmuşdur... Türklər ən müqəddəs hesab etdiyimiz paytaxtımız olan Bakını alıb bizə vermişdirlər... Qan bahasilə türklük və islamlıq uğrunda şəhid vermişlər. Vətənimizi xilas edən türk şəhidlərini yad etməklə bərabər onu da əlavə edirəm ki, biz azəri türkləri böyük qardaşımız olan türklərin bu canfəşanlığını heç bir vaxt unutmayacağız və müşkilat ilə qan bahasiylə alınmış və bizə bəxş olunmuş istiqlalımızı müdafiə etməyi əhd edib hər şeydən müqəddəs tutaraq əqsaimuradımıza nail olacağız..."[489]

Azərbaycan xalqı burulğanlı sovet hakimiyyəti illərində də türk əsgərinin xalqın xilası yolundakı bu əvəzedilməz xidmətlərini unutmadı və həmişə ehtiramla yad etdi. Sovet imperiyasının çökməsi ilə Azərbaycan yenidən öz müstəqilliyinə qovuşduqdan sonra, cümhuriyyət dövründə olduğu kimi, yenə də Azərbaycan xalqı və hökuməti türk əsgərinin xalqımızın xilası yolundakı xidmətlərinə layiqli qiymət verdi və Azərbaycanda şəhid olmuş türk əsgərlərinin şərəfinə Şəhidlər Xiyabanında xatirə abidəsi ucaltdı.

## § 3. Azərbaycanda Osmanlı-Rusiya qarşıdurması

Osmanlı imperiyası Brest-Litovsk sülhü ilə Qafqazda 1877-1878-ci illər müharibəsinə qədərki türk-rus sərhədini, Batum sülhü ilə isə 1829-cu ilə qədərki sərhəd xəttini bərpa etsə və hətta bu xətti aşmış olsa da, türk qoşunlarının Qafqaz istiqamətində irəliləyişi dayanmadı, əksinə daha intensiv xarakter aldı. Buna səbəb Qafqazda, xüsusilə də Azərbaycanda cərəyan edən hadisələr idi.

[489] Azərbaycan Xalq Cümhuriyyəti (1918-1920). Parlament (Stenoqrafik hesabatlar). II c., s. 76.

Türk irəli hərəkatını lüzumlu edən digər amil isə Bakının zəngin neft mənbələri idi. Bakının alınmasından sonra Şərq Orduları Qrupunun komandanı Xəlil paşanın Gümrüdən Ənvər paşaya göndərdiyi 15 oktyabr 1918-ci il tarixli şifrəli teleqramında bu xüsus açıq şəkildə gözə çarpır. Teleqramda deyilirdi: "Bu gün Bakıdakı anbarlarda toplanmış olan neft və mazutun bugünkü qiymətlərə görə dəyəri yüz milyonlarla lirə təşkil edir. Tanrının bir lütfü olaraq əldə etdiyimiz bu qaynaq bütün maliyyə sıxıntımızı qarşılayacaq mahiyyətdədir. Ancaq Tiflis nümayəndəmiz Əbdülkərim paşadan aldığım bir teleqrafda dost və qonşu hökumətlərin bir xəzinə üzərində eyni haqq iddiasında olduqları, hətta bu arada Azərbaycanı heç hesaba almadıqları anlaşılmaqdadır. Bütün bu işlərin almanların fırıldaqlarından başqa bir şey olmadığını diqqətinizə çatdırıram. Əski Osmanlı sərhədləri xaricində ən kiçik mənfəətimizi həsəd gözləriylə görən almanların bu son günlərdə istər İranda, istərsə də Qafqazda bizə qarşı etdiyi hərəkət bir müttəfiqin dostuna qarşı etməsi lazım olan hərəkətdən başqa hər şeyə bənzəyir. Bakı uğrunda apardığımız iki-üç müharibədə üç minə yaxın can itirdik. Bunun üçün də Bakı sərvətinin ən böyük hissəsindən fətih haqqı olaraq bizim və Azərbaycanın istifadə etməsi lazımdır..."[490]

Ənvər paşanı müharibənin axırlarında Qafqaz hərəkatına sövq edən səbəblərdən biri də cənub cəbhələrində itirilən böyük torpaqların əvəzinə Osmanlı imperiyasını Qafqazda türk rayonlarına doğru genişləndirmək və nüfuz qazanmaq idi. Bununla həm türk rayonları azad ediləcək, həm də Osmanlı imperiyası məğlub olduğu yerlərdə itirdiyi qüdrət və nüfuzunu buralarda qazana biləcəkdi.[491]

Osmanlı hökumətinin turançı siyasəti baxımından da Bakı şəhəri bir açar rolunu oynamaqda idi. Türklər Bakını almaqla Türk dünyasına da yol açmış olacaqdılar. Rusiya əsarətindən qurtulmaq istəyən Şimali Qafqaz, Kazan və Türküstan türklərinin liderləri də

---

[490] Aydemir Ş.S. Makedonya'dan Ortaasya'ya Enver Paşa. s. 425-426.
[491] Yüceer N. Birinci Dünya Savaşı'nda Osmanlı Ordusu'nun Azerbaycan ve Dağıstan Harekatı. s. 44.

Bakının tezliklə türk birlikləri tərəfindən tutulmasını arzulayırdılar. Hətta Kazan türklərinin "Milli İdarə" rəisi Sədri Maksudi bəy 1918-ci il mayın 10-da Osmanlı imperiyasının Moskvadakı səfiri Qalib Kamali bəylə görüşərkən Türküstanın birinci qapısı olan Bakının tezliklə tutulmasının əhəmiyyətindən danışmış, səfir də bunu dərhal İstanbula bildirmişdi.[492]

Hələ 1918-ci ilin aprelində Qafqaz cəbhəsinin komandanı Mehmed Vehib paşa Bakını tutmaq və müsəlmanları xilas etmək üçün qoşunlar göndərməyi labüd saydığını bildirmişdi. Qeyd edək ki, Osmanlı hökumətinin bu niyyəti onun müttəfiqi olan Almaniyanı heç də qane etmirdi. Lakin o, istər-istəməz Osmanlı imperiyasının regiondakı mövqeyi ilə hesablaşmalı oldu. Bunu Almaniyanın baş qərargah rəisi general-feldmarşal Paul von Hindenburqun belə bir sanballı fikri də təsdiqləyir: "Türkiyə sıfırdır, lakin Dardaneli qoruyan, Kut-ül Amarəni ələ keçirən, Misirə yürüş edən, Ermənistana rus hücumunu dayandıran, türk imperiyası sərhədlərində duran yüz minlərlə düşmən qüvvələrini – seçmə qoşunları yayındıran özünəməxsus və bizim üçün çox qiymətli sıfırdır".[493]

Qafqazda baş verən hadisələr və türk qoşunlarının bölgəyə doğru hərəkəti Moskva hökuməti tərəfindən diqqətlə izlənilir və narahatlıqla qarşılanırdı. 1918-ci il mayın 15-də Gümrünün türklər tərəfindən tutulması xəbəri Moskvaya çatan kimi RSFSR Xalq Xarici İşlər Komissarlığı türk irəli hərəkatını dayandırmaq məqsədilə Moskvadakı türk səfirliyi nəzdində hərəkətə keçdi. 28 may 1918-ci il tarixində Qalib Kamali bəyə G.Çiçerinin imzaladığı nota təqdim edildi. Notada sovet hökumətinin Brest-Litovsk müqaviləsi ilə Qars, Ərdəhan və Batum vilayətləri kimi Rusiya üçün çox önəmli böyük bir ərazinin Türkiyəyə güzəştə getməsi vurğulanır və "bundan sonra Osmanlı imperiyasına heç bir ərazinin verilməyəcəyi" bildirildikdən sonra qeyd edilirdi ki, "hal-hazırda türk qüvvələrinin Aleksandropolu aldıqları və Bakı istiqamətində irəli-

[492] Kurat A.N. Türkiye ve Rusya. s. 527.
[493] Musayev İ. Azərbaycanın Naxçıvan və Zəngəzur bölgələrində siyasi vəziyyət və xarici dövlətlərin siyasəti. s. 58-59.

lədikləri öyrənildiyindən sovet hökuməti kifayət qədər ağır olan Brest-Litovsk sülhünün şərtlərinin bu şəkildə pozulmasına qəti etiraz edir və bu hərəkatın dayandırılmasını tələb edir".[494] Sovet hökuməti bu surətlə 1918-ci il may ayının sonlarından Bakı məsələsini ortaya atmış olur və bununla bağlı öz narahatlığını bildirirdi. Bu dövrdə sovet hökumətinin Qafqazda hərbi qüvvələri məhdud olduğundan o ancaq diplomatik vasitələrə əl atırdı. Qalib Kamali bəy G.Çiçerinə göndərdiyi cavab notasında türk qüvvələrinin belə bir hərəkatından heç bir xəbəri olmadığını anlatmağa çalışdı. Həqiqətən də Moskvadakı türk səfirliyinə türk ordularının irəli hərəkatı ilə bağlı hər hansı bir məlumat göndərilməmişdi və səfirin baş verənlərdən xəbəri yox idi.

Osmanlı imperiyası ilə Azərbaycan Cümhuriyyəti arasında imzalanmış 4 iyun 1918-ci il tarixli Batum müqaviləsinin dördüncü maddəsinə görə, Osmanlı hökuməti ehtiyac olduğu təqdirdə Azərbaycana hərbi yardım göstərməyi öz üzərinə götürmüşdü. Batumdakı Azərbaycan nümayəndələri – M.H.Hacınski və M.Ə.Rəsulzadə hələ müqavilə imzalanmadan, iyunun 1-də mətni hazır olan bu müqavilənin dördüncü maddəsinə istinadən rəsmən Osmanlı hökumətindən hərbi yardım istədilər.[495] Azərbaycan nümayəndələrinin hərbi yardımla bağlı müraciətini iyunun 2-də Baş Komandanlıq Vəkalətinə göndərən Vehib paşa eyni zamanda Ənvər paşaya yazırdı ki, Bakı və ətrafının bolşeviklərdən təmizlənməsi üçün lazımi hərbi qüvvələri bölgəyə göndərdim və ehtiyac olarsa bu qüvvələri daha da gücləndirəcəyəm.[496] Əslində, Osmanlı siyasi dairələri bu rəsmi müraciətdən xeyli əvvəl Azərbaycana hərbi qüvvə göndərmək barədə qərar qəbul etmişdilər. Azərbaycan nümayəndələrinin Batum müqaviləsinə istinadən hərbi yardım üçün Osmanlı hökumətinə müraciət etmələri sadəcə hüquqi prosedurları tamamlamaq məqsədi daşıyırdı. Digər tərəfdən, onu da qeyd edək ki, bu müqavilə hələ imzalanmamış və ratifikasiya edilməmişdi.

[494] Kurat A.N. Türkiye ve Rusya. s. 529-530.
[495] BOA, HR.SYS, no. 2398/7, v. 62, 63.
[496] ATASE. BDH. K. 2922, D. 512, F. 27.

Almaniya Osmanlı hərbi qüvvələrinin Brest-Litovsk müqaviləsi ilə müəyyən edilmiş sərhədin şərqinə keçməsini istəmədiyinə görə Azərbaycanda həyata keçiriləcək bir hərəkata qarşı çıxacağından Osmanlı siyasi dairələri qurulacaq ordunun zahirən Azərbaycan xalqından təşkil edilmiş bir qüvvə kimi təqdim edilməsinə xüsusi diqqət yetirirdilər. Qurulan orduya "Qafqaz İslam Ordusu" adının verilməsi məhz Almaniyanı şübhələndirməmək üçün atılmış bir addım idi. Ənvər paşanın mövqeyinə görə belə olan təqdirdə Almaniyanın müqavimətini aradan götürmək olardı.

1918-ci ilin iyun ayının əvvəllərindən başlayaraq türk qoşunları Gəncə istiqamətində hərəkət etməyə başladılar. Türk qoşunlarının bir qismi Qars və Aleksandropoldan keçib Qarakilsə-Dilican-Qazax və Ağstafa vasitəsilə, digər hissəsi isə Cənubi Azərbaycan-Qarabağ istiqamətindən hərəkət edirdi. Osmanlı ordusunun ən yaxşı diviziyalarından olan Mürsəl bəyin başçılıq etdiyi 5-ci diviziya 9-15 iyun tarixlərində Gəncəyə daxil oldu.

Ənvər paşa iyunun 5-də Batuma gəldi. Batumda ordu hissələri yenidən qruplaşdırıldı. 1918-ci il iyunun 7-də və 9-da Ənvər paşanın verdiyi əmrlərlə 3-cü, 6-cı və 9-cu ordulardan ibarət Şərq Orduları Qrupu yaradıldı. Qrupun rəhbəri Vehib paşa oldu. Türk və Azərbaycan hərbi hissələrindən yaradılmış Qafqaz İslam Ordusunun komandanı vəzifəsinə isə Ənvər paşanın qardaşı Nuru paşa təyin olunmuşdu. Nuru paşa hələ may ayının 25-də Gəncəyə daxil olub burada öz qərargahını qurmuşdu.[497] Şərq Orduları Qrupu komandanlığından 1918-ci il iyunun 29-da istefa verən Vehib paşanın yerinə Ənvər paşanın əmisi Xəlil paşa təyin olundu. Şərq Orduları Qrupuna bağlı olan Qafqaz İslam Ordusunun qarşısında duran əsas vəzifə Bakını almaq idi. 1918-ci il iyunun 2-də türk hərbi komandanlığı Azərbaycanda hərbi əməliyyatlara başlamaq haqqında əmr verdi.[498]

---

[497] ARPİİSSA. f. 276, siy. 3, iş 117, v. 4.

[498] ATASE. BDH, K. 2922, D. 512, F. 27; Swietochowski T. Rusiya və Azərbaycan: sərhədyanı bölgə keçid dövründə. Bakı: Xəzər Universitesi, 2000, s. 98.

Türk qoşunlarının Gəncə istiqamətində hərəkəti Sovet Rusiyasını bərk narahat edirdi. V.İ.Lenin hələ may ayının 24-də S.Şaumyana göndərdiyi teleqramında yazırdı: "Bakının beynəlxalq vəziyyəti çətindir. Buna görə də məsləhət görərdim ki, Jordaniya ilə ittifaqa girməyə cəhd edin".[499] Bu direktivə uyğun olaraq Bakı XKS adından S.Şaumyan 1918-ci il iyun ayının 6-da Gürcüstana, N.Jordaniyaya müraciət edib guya Cənubi Qafqazın istiqlaliyyətini Türkiyə hücumlarından müdafiə etməkdə sovet hakimiyyətinə yardım göstərməyi təklif etdi. Məktubda göstərilirdi ki, Gürcüstan hökuməti Türkiyə qoşunlarını öz ərazisindən Azərbaycana buraxmasa RSFSR XKS-nin hakimiyyəti Cənubi Qafqazda bərqərar edildikdən sonra Gürcüstana muxtariyyət veriləcəkdir. Bu məsələ ilə bağlı öz növbəsində Almaniya da Gürcüstana təzyiq göstərirdi və bütün bu amillərlə bağlı Gürcüstan hökuməti Türkiyə qoşunlarını öz ərazisindən Azərbaycana buraxmamaqda maraqlı idi. Ona görə də iyun ayının 10-da Borçalı istiqamətindən Azərbaycana doğru hərəkət edən türk qoşunları alman-gürcü qoşunları ilə üz-üzə dayandı. Böyük müharibənin bütün çətinliklərində müttəfiq olan Almaniya və Türkiyə Cənubi Qafqaz siyasətində bir-birinə qarşı durmalı olmuşdu. Çox da böyük olmayan hərbi əməliyyat nəticəsində Türkiyə ordusu general Kress von Kressenşteynin başçılıq etdiyi alman-gürcü dəstələrini geri oturtdu və xeyli sayda əsir aldı. Bu hadisə ilə bağlı iyun ayının 11-də Almaniya Baş qərargahı öz teleqramında Türkiyədə və Yaxın Şərqdə olan hərbi hissələrini çıxaracağı ilə Osmanlı hökumətini hədələyir və hərbi əsirləri buraxmağı tələb edirdi. Hərbi əsirlər azad edilsə də, alman-gürcü qoşunları türk ordusunun Gəncəyə, son nəticədə isə Bakıya hərəkətinin qarşısını ala bilmədi. Lakin bu hadisə hələ Tiflisdə olan Azərbaycan hökumətinə münasibəti dəyişdirdi və Gürcüstan hökumətinin tələbi ilə Azərbaycan hökuməti və Milli Şura iyun ayının 16-da Gəncəyə köçdü.[500]

1918-ci il iyun ayının 24-də Şərq Orduları Qrupunun komandanı Vehib paşa Nuru paşaya göndərdiyi teleqramında bildirirdi

[499] V.İ.Lenin Azərbaycan haqqında, s. 126.
[500] Həsənov C. Azərbaycan beynəlxalq münasibətlər sistemində, s. 95.

ki, Azərbaycan ərazisində Osmanlı ordusundan başqa digər bir ordu ola bilməz. Vehib paşa alman-gürcü qüvvələrini nəzərdə tutaraq qeyd edirdi ki, əgər bu tələblə kimsə razılaşmasa, onda onları məhv edin.[501]

Azərbaycan Cümhuriyyətinin yaranması və Osmanlı ordu hissələrinin Azərbaycana yeridilməsi bütün Cənubi Qafqazı sovetlərin bayrağı altına keçirmək və ələlxüsus da Bakını vətəndaş müharibəsi aparan Sovet Rusiyası üçün qorumaq istəyən S.Şaumyanı ciddi təşvişə salmışdı. Sovet Rusiyasının yardımına güvənən Bakı XKS mümkün saydığı bütün vasitələrlə Azərbaycan milli hökumətinə qarşı mübarizə elan etdi. 1918-ci il iyunun 6-da Bakı Kommunasının ordu və donanma işləri üzrə komissarı Q.Korqanov Gəncə üzərinə yürüş haqqında əmr verdi. Burada əsas məqsəd türk hərbi hissələri toplanana qədər Azərbaycan istiqlaliyyətinin beşiyi olan Gəncəni dağıtmaq idi.[502]

Kommuna qoşunlarının möhkəmləndirilməsi üçün Rusiya tərəfindən göndərilən hərbi yardımların ardı-arası kəsilmirdi. 1918-ci il iyunun ilk günlərində Rusiyadan 12 ədəd dörd düyməlik top, onun ekipajı və təchizatı yüklənmiş qatar Bakıya yola salındı. Tula silah zavodundan isə xeyli sayda pulemyot, tüfəng və patron göndərildi. İyunun sonlarında Ter-Qabrielyan Rusiyadan Bakıya 4 ədəd zirehli avtomobil, 13 ədəd təyyarə və çoxlu sayda silah, sursat, təchizat gətirdi.[503] Kommuna qoşunlarının sayı 18 minə çatdırıldı, bunun da 60-70 faizini ermənilər təşkil edirdi.[504]

Bütün bunlara baxmayaraq, Qafqaz İslam Ordusu ilə Kommuna qoşunları arasında 1918-ci il iyunun 27-si ilə iyulun 1-i arasındakı dörd günlük Göyçay döyüşü cəbhənin taleyini həll etdi. Göyçay döyüşü ilə Kommuna qoşunlarının Gəncə üzərinə hücumunun qarşısı alındı və Qafqaz İslam Ordusu Bakı istiqamətində

---

501 ATASE, BDH, K. 3827, D. 38, F. 2.
502 Həsənov C. Azərbaycan beynəlxalq münasibətlər sistemində, s. 106.
503 Süleymanov M. Qafqaz İslam Ordusu və Azərbaycan, s. 188-189.
504 Дарабади П.Г. Военные проблемы политической истории Азербайджана в начале XX века. Баку: Элм, 1991, с. 114.

hərəkətə başladı. İyulun 20-də strateji məntəqə olan Şamaxını tutan İslam Ordusu artıq ayın axırlarında Bakı ətrafına gəlib çıxdı.

Sovet Rusiyasının Almaniya vasitəsilə işə qarışması Qafqaz İslam Ordusunun Bakıya daxil olmasını xeyli yubandırdı. Kommuna qüvvələri vasitəsilə Qafqaz İslam Ordusunun qarşısını ala bilməyəcəyini nəzərə alan Sovet Rusiyası 1918-ci ilin iyununda Almaniya ilə danışıqlara girib diplomatik yolla Bakını əldə saxlamaq istəyirdi. Qərb cəbhəsində və ümumilikdə müharibənin gedişindəki vəziyyət Almaniyanın Bakıya marağını xeyli artırmışdı. İyun ayında İstanbul konfransına gəlmiş nümayəndələrlə danışıqlar əsnasında Almaniya Rusiya vasitəsilə Bakı neftinə nail olmağı müəyyənləşdirmişdi. Öz müttəfiqi Türkiyənin və Azərbaycan hökumətinin ona neft verəcəyinə ümidini itirən Almaniya əlverişli vəziyyətdən istifadə etmək qərarına gəldi. Hələ Rusiya ilə danışıqlar başlamazdan əvvəl, iyun ayının ortalarında Tiflisdə olan Almaniya nümayəndələri Bakıya hücum edən Türkiyə-Azərbaycan hərbi hissələri içərisinə kiçik alman hərbi dəstəsinin də daxil edilməsini təklif etdilər, lakin Azərbaycan hökuməti almanların bu təklifinə qəti surətdə etiraz etdi.[505] Buna baxmayaraq, Gürcüstandakı alman hərbi missiyasının rəhbəri general Kress bir alman batalyonunu İslam Ordusunun sərəncamına vermək üçün yola çıxartdı. Bu batalyonu geri döndərmək Türkiyə ilə Almaniya arasında onsuz da soyuq olan münasibətləri daha da pisləşdirə bilərdi. Buna görə də türk orduları tərəfindən bu batalyonun keçəcəyi Gürcüstan-Azərbaycan sərhədindəki dəmir yolu körpüsü partladılaraq və teleqraf xətləri kəsilərək, bu plan ustalıqla həyata keçirildi və alman batalyonunun Bakının alınmasında iştirak etməsinin qarşısı alındı.[506] Bu hərəkət Almaniyanın Rusiya ilə danışıqlara başlamaq fikrini daha da reallaşdırdı və onun Bakı uğrunda fəal diplomatik mübarizəsi Sovet Rusiyasının Berlindəki səfiri Adolf İoffenin bu məsələyə qarışması ilə başlandı. İslam Ordusu Bakı istiqamətində

[505] Həsənov C. Azərbaycan beynəlxalq münasibətlər sistemində, s. 108.
[506] Halil Paşa. İttihat ve Terakki'den Cumhuriyet'e Bitmeyen Savaş, s. 223-224; Yüceer N. Birinci Dünya Savaşı'nda Osmanlı Ordusu'nun Azerbaycan ve Dağıstan Harekatı, s. 59.

hərəkətə başladıqda, A.İoffe Brest-Litovsk müqaviləsinin şərtlərini pozduqlarına görə, almanlara etiraz notası verdi və tələb etdi ki, onlar Osmanlı ordusunu dayandırmaq üçün işə müdaxilə etsinlər. Hələ iyun ayının əvvəllərində A.İoffe Almaniyanın xarici işlər naziri Rixard von Külmanla apardığı danışıqlarda bəyan etmişdi ki, əgər türklər Qafqazdakı irəli hərəkatına davam edib Bakı üzərinə hücum edərlərsə, Rusiya buna türklərə qarşı müharibə elan etməklə cavab verəcəkdir.[507] Almaniya Azərbaycanda cərəyan edən hadisələrin ona dəxli olmadığını bildirsə də, edilən təklifdən faydalanmaq qərarına gəldi və Sovet Rusiyasının Almaniyaya neft verəcəyi təqdirdə Türkiyənin hücumunu dayandırmaq üçün işə qarışacağını bildirdi. İyunun axırlarında Berlində aparılan alman-sovet danışıqlarında ilkin razılıq əldə edildi. Almaniyanın öz üzərinə götürdüyü öhdəlik qarşılığında Rusiya da Bakı neftinin bir hissəsini ona verməyə razı oldu. Berlində aparılan alman-rus danışıqlarının nəticələri barədə V.İ.Lenin iyunun 30-da İ.Stalinə göndərdiyi məxfi teleqramında yazırdı: "Bu gün, iyunun 30-da Berlindən İoffedən xəbər gəlmişdir ki, Külman İoffe ilə ilkin danışıq aparmışdır. Bu danışıqlardan bəlli olduğuna görə, almanlar razıdırlar ki, türkləri Brest müqaviləsində göstərilən sərhəddə hərbi əməliyyatı dayandırmağa məcbur etsinlər, bizim üçün dürüst demarkasiya xətti müəyyənləşdirsinlər. Söz verirlər ki, türkləri Bakıya qoymasınlar, özləri də neft istəyirlər. İoffe cavab vermişdir ki, biz Brest sülhünə ciddi əməl edəcəyik, lakin almaq xatirinə vermək prinsipinə tamamilə razıyıq. Bu xəbərə ciddi diqqət yetirin və çalışıb onu Şaumyana tez çatdırın, zira Bakını əldə saxlamaq üçün indi ən ciddi imkanlar vardır. Neftin bir qismini, əlbəttə, verərik".[508]

Bundan bir həftə sonra, 1918-ci il iyulun 7-də gecə saat 1-də V.İ.Lenin Saritsına, İ.Stalinə göndərdiyi teleqramında Bakı nefti ilə bağlı alman-rus danışıqlarından məmnunluğunu bir daha dilə gətirir və bunun S.Şaumyana çatdırılmasını istəyirdi. Teleqramda deyilirdi: "...Bakı haqqında ən mühüm cəhət odur ki, siz Şaumyanla daim əlaqə saxlayasınız və Şaumyan Berlindəki səfir İoffe-

[507] Baumgart W. Deutsche Ostpolitik 1918, p. 184.
[508] V.İ.Lenin Azərbaycan haqqında, s. 131.

yə almanların etdikləri belə bir təklifdən xəbərdar olsun ki, əgər biz neftin bir hissəsinin almanlara verilməsini təmin etsək, onlar türklərin Bakıya hücumunu dayandırmağa razı olarlar. Əlbəttə, biz razı olarıq".[509]

İ.Stalin iyulun 8-də bu barədə S.Şaumyana müvafiq məktub göndərdi. Məktubda Bakı ilə bağlı gedən alman-rus danışıqları barədə aşağıdakılar yer almışdı:

"1. Bizim Cənubi Qafqaz məsələsi ilə bağlı ümumi siyasətimiz belədir ki, Gürcüstan, Ermənistan və Azərbaycan məsələlərinin Rusiyanın daxili işi olduğunu Almaniyaya qəbul etdirək. Onların həllində almanlar iştirak etməməlidirlər. Məhz buna görə də biz Gürcüstanın Almaniyanın diqtəsi ilə əldə edilmiş müstəqilliyini tanımırıq;

2. Ola bilsin ki, biz Gürcüstan məsələsində almanlara güzəştə getdik. Ancaq biz bu güzəştə yalnız Almaniyanın Azərbaycan və Ermənistan probleminə qarışmayacağına təminat verəcəyi təqdirdə gedəcəyik;

3. Almanlar Bakının bizdə qalmasına razılaşaraq istəyirlər ki, əvəzində onlara bir qədər neft ayıraq. Biz bu "istəyi" əlbəttə ki, yerinə yetirə bilərik;

4. Sizin uğurlarınız bizi sevindirir. Ancaq biz istərdik ki, siz almanlarla münasibətlərin mürəkkəbləşməsinə yol verməmək üçün Yelizavetpoldan o tərəfə keçməyəsiniz, daha doğrusu, müstəqilliyi Almaniya tərəfindən tanınmış Gürcüstanın hüdudlarına daxil olmayasınız..."[510]

Almaniya hökuməti Rusiya qarşısında götürdüyü öhdəlikləri yerinə yetirmək üçün Türkiyəyə qarşı təzyiqlərini daha da gücləndirirdi. Almanlar hər vasitə ilə Qafqaz İslam Ordusunun Bakıya doğru hərəkətini dayandırmağa cəhd göstərirdilər. Əks təqdirdə onlar Osmanlı hökumətini türk ordusunda çalışan alman zabitləri-

---

[509] Документы внешней политики СССР. Т. 1, с. 381; Azərbaycanda sosialist inqilabının qələbəsi uğrunda bolşeviklərin mübarizəsi, s. 523; V.İ.Lenin Azərbaycan haqqında, s. 132.

[510] Azərbaycanda sosialist inqilabının qələbəsi uğrunda bolşeviklərin mübarizəsi, s. 526; Документы по истории гражданской войны в СССР, с. 289-290.

ni geri çağıracaqları ilə hədələyirdilər. Onu da qeyd edək ki, almanlar Qafqaz İslam Ordusunun Bakını ala biləcəyinə o qədər də inanmırdılar, bununla belə, hərbi əməliyyatların gedişində neft mədənlərinin məhv edilə biləcəyindən də narahat olurdular. 1918-ci il iyul ayının əvvəllərində Almaniyanın İstanbuldakı konsulunun təqdim etdiyi hesabatda bolşeviklərin Bakını möhkəm mühafizə etdiyi göstərilir və onun alınmasının qeyri-mümkün olduğu qeyd edilirdi. Bu mülahizələrə əsaslanan konsul Sovet Rusiyası ilə "Bakı məsələsi" ilə bağlı danışıqlar aparmağı təklif edərək yazırdı: "Əgər biz bolşeviklərlə sazişə gələ bilsək, onda Bakının neft mədənləri və neft ehtiyatları bütövlükdə əlimizə salamat keçəcək. Əgər bunun əksinə olaraq, bolşeviklər şəhəri tərk etməyə məcbur olsalar, mədənləri yandıracaqlar və onda nə biz, nə də türklər neft ehtiyatlarından istifadə edə biləcəyik. Onlarsız isə Qafqaz dəmir yollarının istismarı tezliklə dayanacaq".[511]

1918-ci ilin iyun ayında Mərkəz dövlətləri ilə Cənubi Qafqaz respublikaları arasında keçiriləcək konfransda iştirak etmək üçün İstanbula gedən Azərbaycan nümayəndə heyətinin rəhbəri M.Ə.Rəsulzadə xarici işlər naziri M.H.Hacınskiyə göndərdiyi 19 iyul 1918-ci il tarixli məktubunda konfrans ərəfəsində "Bakı məsələsi" ilə bağlı yaranan beynəlxalq gərginliyi səciyyələndirərək yazırdı: "...Almanların Bakıya hücum əleyhinə olmalarının dəlili bu imiş ki, Bakıya hərb yolu ilə gedilərsə, bolşeviklər neft mədənlərini və neft ehtiyatlarını yandırarlar. Halbuki, neft müharibə edən müttəfiqlərə su kimi lazımdır. Bunun üçündür ki, almanlar Bakı məsələsini başqa cür, sülh yolu ilə həll etmək istəyirlər... Məlumunuz olsun ki, neft məsələsi Azərbaycan-Almaniya məsələsindən çox Türkiyə-Almaniya məsələsidir. Batum müqaviləsinə görə neft artığı Türkiyənindir. Görünür ki, türklər neftə vəsadət edib almanlardan istifadə etmək istəyirlərmiş..."[512]

Almaniyanın İstanbuldakı səfiri Bernstorf M.Ə.Rəsulzadə ilə görüşündə Qafqaz İslam Ordusu tərəfindən Bakıya hücum edildiyi təqdirdə bolşeviklərin şəhəri dağıdıb, neft mədənlərini məhv edə-

[511] Пипия Г.В. Политика Германии в Закавказье в 1918 г., с. 58-59.
[512] ARPİİSSA. f. 277. siy. 2, iş 7. v. 46.

cəklərindən narahat olduğunu bildirirdi.[513] Qeyd edək ki, həqiqətən də V.İ.Lenin neft ehtiyatlarının türklərin əlinə keçməsinə yol verməmək üçün S.Şaumyana göstəriş vermişdi ki, əgər Bakı əldən verilərsə, iri neft müəssisələri məhv edilsin. 1918-ci il iyunun 23-də S.Şaumyan V.İ.Leninə yazırdı ki, "hərgah Bakını qoruyub saxlamaq mümkün olmazsa... onda biz sizin resepti həyata keçirərik".[514]

Qafqaz İslam Ordusu tərkibinə bir alman batalyonunun daxil edilməsi təklifinə rədd cavabı verildikdən sonra Almaniya Rusiya ilə danışıqlara xüsusi əhəmiyyət verməyə başladı. Bununla paralel Almaniyanın Türkiyəyə qarşı istiqamətlənmiş təzyiqləri elə bir xarakter aldı ki, Ənvər paşa artıq Qafqaz İslam Ordusunun Bakıya doğru hərəkətini açıq şəkildə müdafiə edə bilmirdi. Onun bütün yazışmaları almanların nəzarəti altında olduğu üçün özünün rəsmi əmrlərində Bakıya doğru hücumun dayandırılmasını tələb edirdi. Həqiqətdə isə o, belə bir mövqedən uzaq idi və Qafqaz İslam Ordusunun fəaliyyəti ilə bağlı zəruri göstərişləri gizli yolla Nuru paşaya çatdırırdı. Məsələn, Göyçay döyüşlərindən sonra Qafqaz İslam Ordusunu gücləndirmək üçün Ənvər paşa Azərbaycana əlavə qoşun hissələri göndərmək barədə əmr verdi. Bu əmr gizli şəkildə müvafiq orqanlara çatdırıldı. Həmin əmrdə bildirilirdi ki, "38-ci piyada alayı, bir dağ topçu taborunu Qazax şossesi ilə Nuru paşaya göndərdim".[515] Əmrin rəsmi şəkildə yayılmış variantında isə Qafqaz İslam Ordusuna heç bir kömək göstərilməyəcəyi və bütünlüklə Bakı üzərinə hücumun dayandırılması fikirləri ifadə olunmuşdu. İyul ayının 1-də Ənvər paşa tərəfindən imzalanmış həmin əmrdə deyilirdi: "Sizə qüvvə göndərmək qabil deyildir. Vəzifəniz Bakı üzərinə getmək olmayıb, birliklərinizi toplayaraq bolşeviklərin Gəncə üzərinə hücumunun qarşısını almaq olduğunu bir daha təkrar edirəm".[516] Eyni məzmunlu bir teleqram da Şərq Orduları

[513] ARPİİSSA, f. 277, siy. 2, iş 7, v. 46a.
[514] İbrahimov Z. V.İ.Lenin və Azərbaycanda sosialist inqilabının qələbəsi, s. 255.
[515] Süleymanov M. Qafqaz İslam Ordusu və Azərbaycan, s. 215.
[516] Yenə orada, s. 215.

Qrupu komandanlığına göndərildi. Almanların diqqətinin yayındırılmasına xidmət edən bu teleqramda deyilirdi: "İcazəm olmadan Nuru paşaya heç bir qüvvə göndərməmənizi, Nuru paşa üçün yola çıxarılan birlikləri geri almanızı rica edirəm. Əvvəlcə bildirildiyi kimi, Nuru paşa qüvvələrini toplu halında saxlayaraq yalnız bolşeviklərin irəliləməsinə mane olmaqla yetinməlidir".[517]

Ənvər paşanın Şərq Orduları Qrupu komandanlığına göndərdiyi başqa bir teleqramda da Bakıya doğru hücumun dayandırılması "zərurətindən" söhbət açılırdı: "Bakı üzərinə irəliləmənin Bakının neft mənbələrinin bolşeviklər tərəfindən məhv edilməsi təhlükəsini doğuracağından ümumi hərbin mənafeyi baxımından dərhal bundan qaçınmaq lazımdır. Bu səbəbdən 5-ci Qafqaz diviziyasının mənim icazəm olmadan qətiyyən Bakı istiqamətində hücum etməməsini əmr edirəm".[518] Amma xüsusi olaraq gizli qeydiyyatla göndərilən əmrlərdə isə, Qafqaz İslam Ordusunun ehtiyacı olan əsgər, silah və hərbi sursatın dərhal göndərilməsi, ordunun hər cür hazırlıqlarını həyata keçirərək Bakıya qarşı təcili hücuma keçib şəhərin almanların müdaxiləsinə fürsət verilmədən zəbt edilməsi tələb olunurdu. Ənvər paşa hətta hərəkata mane ola bilmə təşəbbüsündə ola bilən alman dəstələri ilə döyüşə girilə biləcəyini də bildirməkdə idi.[519] Almaniyanın təzyiqləri nə qədər güclü olsa belə, Qafqaz İslam Ordusunun Bakı istiqamətində hərəkətini dayandırmaq gücündə deyildi. Osmanlı hərbi komandanlığı bir tərəfdən bu təzyiqlərin aradan qaldırılmasına səy göstərir, digər tərəfdən də İslam Ordusunun qarşısında duran vəzifələrin həlli üçün qüvvələrin möhkəmləndirilməsi ilə məşğul olurdu.

Onu da qeyd etmək lazımdır ki, Bakının alınması perspektivləri reallaşdıqca Osmanlı hökuməti Azərbaycandan daha böyük imtiyazlar almaq məqsədilə onunla bir sıra müqavilələr imzaladı. 1918-ci il iyulun 14-də Gəncədə Osmanlı imperiyasının Hərbi Də-

---

[517] Süleymanov M. Qafqaz İslam Ordusu və Azərbaycan, s. 215.
[518] Yenə orada, s. 215-216; Birinci Dünya Harbinde Türk Harbi. Kafkas Cephesi. 3. Ordu Harekatı. C. II, s. 563.
[519] Yüceer N. Birinci Dünya Savaşı'nda Osmanlı Ordusu'nun Azerbaycan ve Dağıstan Harekatı, s. 65.

mir Yolları və Limanlar Baş İdarəsinin rəisi İsmayıl Hakkı paşa və Azərbaycan Cümhuriyyətinin ticarət və sənaye naziri Ağa Aşurov beş maddədən ibarət müqavilə imzaladılar.[520] Müqavilənin birinci maddəsinə görə, Azərbaycan hökuməti Osmanlı hökumətinin dəmir yolları, dəniz nəqliyyatı və digər ehtiyacları üçün lazım olan neft və neft məhsullarını Bakı neft mənbələrindən təmin etməyi təəhhüd edirdi. İkinci maddəyə görə, Bakı şəhəri və onun neft rayonları Azərbaycan hökumətinin tabeliyinə keçdiyi gündən birinci maddə qüvvəyə minirdi. Üçüncü maddəyə görə, neft və neft məhsullarının qiyməti və texniki şərtləri Osmanlı imperiyası ilə Azərbaycan Cümhuriyyəti arasında 4 iyun 1918-ci il tarixində Batumda imzalanmış müqaviləyə uyğun olaraq xüsusi qarışıq komissiya tərəfindən işlənib hazırlanmalı idi. Dördüncü maddəyə görə, Azərbaycan hökuməti tərəfindən Osmanlı hökumətinə birinci maddədə verilməsi nəzərdə tutulan yanacağın əvəzində Hərbi Dəmir Yolları və Limanlar Baş İdarəsi nağd pul olaraq 500 min Osmanlı lirəsini imkan daxilində tez bir zamanda İstanbuldan gətirib avans olaraq Azərbaycan hökumətinə verməyi təəhhüd edirdi. Beşinci maddədə bu müqavilənin imzalanma yeri və tarixi göstərilir, müqaviləni imzalayanların adları qeyd olunurdu.[521]

1918-ci il 14 iyul tarixində bir tərəfdən İsmayıl Hakkı paşa, digər tərəfdən Azərbaycan Cümhuriyyətinin rabitə və yollar naziri X.Məlik-Aslanov və xarici işlər naziri M.H.Hacınski yeddi maddədən ibarət digər bir müqavilə də imzaladılar.[522] Müqavilənin birinci maddəsinə görə, Azərbaycan dəmir yollarının işlədilməsi 5 il müddətinə Osmanlı imperiyasının Hərbi Dəmir Yolları və Limanlar Baş İdarəsinin sərəncamına verilirdi. İkinci maddəyə görə, Azərbaycan hökuməti Respublika dəmir yollarının bütün daşınar və daşınmaz əmlakını və materiallarını Osmanlı imperiyasının Hərbi Dəmir Yolları və Limanlar Baş İdarəsinin sərəncamına verirdi. Üçüncü maddəyə görə, dəmir yollarının işlədilməsini Dəmir Yolları və Limanlar İdarəsi özü təşkil edəcəyi idarə və münasib

[520] ARPİİSSA, f. 277, siy. 2, iş 9, v. 25.
[521] ARPİİSSA, f. 277, siy. 2, iş 9, v. 25.
[522] ARPİİSSA, f. 277, siy. 2, iş 9, v. 30.

bilib təyin edəcəyi məmurlar ilə təmin etməli və bütün işlətmə məsrəfləri Dəmir Yolları İdarəsinə aid olmalı idi. Dördüncü maddəyə görə, dəmir yollarının işlədilməsindən əldə ediləcək gəlirdən Dəmir Yolları İdarəsi illik məsrəfləri ödədikdən sonra yerdə qalan məbləğin 75 faizi Azərbaycan hökumətinə verilməli idi. Beşinci maddəyə görə, bu müqavilənin şərtləri Osmanlı hökuməti tərəfindən təsdiq və qəbul edildikdən və bu barədə Azərbaycan hökumətinə məlumat verildiyi tarixdən qüvvəyə minər və lazımi qulluqçular Gəncəyə gəldikdən sonra tətbiq ediləcəkdi. Təslim ediləcək materialların və ümumi xəttin qeyd və təsbiti isə tərəflərdən təyin olunan bir heyət tərəfindən tədricən icra edilərək tamamlanacaqdı. Altıncı maddəyə görə, adı çəkilən heyətlərin təyin edilməsi üçün Osmanlı məmurları Gəncəyə gəldikdə işə başlayıb heyəti təyin etdiklərini Azərbaycan hökumətinə bildirməli və Azərbaycan hökuməti də qərarlaşacaq şərait dairəsində təslim edəcək heyəti təyin və məmur edərək dərhal işə başlatmalı idi. Yeddinci maddədə bu müqavilənin imzalanma yeri və tarixi göstərilir, müqaviləni imzalayanların adları qeyd olunurdu.[523]

Qafqaz İslam Ordusunun Bakı istiqamətində irəli hərəkatını davam etdirməsi Sovet Rusiyası ilə Almaniya arasında diplomatik danışıqların fəallaşmasına səbəb oldu. 1918-ci il iyulun 20-də Şamaxıda Bakı XKS-nin bolşevik-daşnak qoşunları ağır məğlubiyyətə uğradıldıqdan sonra RSFSR xalq xarici işlər komissarı G.Çiçerin iyulun 25-də Almaniyanın Rusiyadakı diplomatik nümayəndəsi Kurt Riezlerə nota verdi. Notada "Brest müqaviləsi şərtlərinin pozulmasına və sovet hökumətinə sədaqəti sarsılmaz olan Bakı ərazisinə qarşı yönəlmiş türk hücumuna" Rusiyanın etirazı bildirilir və Almaniyanın bu hücumun qarşısını almağa səy göstərməsi xahiş edilirdi.[524] Elə həmin gün Rusiyanın Almaniyadakı səfiri A.İoffeyə də eyni məzmunlu teleqram göndərən G.Çiçerin "Bakı üçün yaranan ciddi təhlükə"dən söz açır və türk qoşunlarının Bakı üzərinə hücumunu dayandırmaq üçün Almaniyanın fəallaşmasını

[523] ARPİİSSA, f. 277, siy. 2, iş 9, v. 30.
[524] Документы внешней политики СССР. Т. 1, с. 410.

istəyirdi.[525] Sovet Rusiyasının istəkləri Almaniya tərəfindən öyrənildikdən sonra A.İoffeyə verilən cavaba görə Rusiyanın narahatçılığına elə bir əsas yox idi. Bakı neftində marağı olan Almaniya hökuməti Azərbaycanda türk qoşunlarının fəaliyyəti ilə bağlı məsələni öz nəzarəti altına aldığını və buna görə də türk qoşunlarının Bakıya doğru irəliləməsinin dayandırılacağına da təminat verildiyini bildirirdi.

Osmanlı siyasi dairələri Almaniyanın Brest müqaviləsinin şərtlərindən kənara çıxmamaq, türk qoşunlarını Azərbaycandan geri çəkmək tələblərinə üzdə razı olduqlarını bildirsələr də, əslində yuxarıda da qeyd edildiyi kimi, Bakının alınmasını çox tezliklə reallaşdırmağa çalışırdılar. Bakı uğrunda gedən döyüşləri ardıcıl olaraq izləyən Rusiya rəhbərləri iyul ayının sonlarında yenidən öz narahatlıqlarını Berlin hökumətinə çatdırdılar. RSFSR xalq xarici işlər komissarı G.Çiçerin iyulun 29-da A.İoffeyə göndərdiyi teleqramda bildirirdi ki, Bakıda sovet hakimiyyətinin xilas edilməsinin yeganə yolu oradakı türk qüvvələrinin geri çəkilməsidir.[526] Bu məsələ ilə bağlı A.İoffe Almaniya Xarici İşlər Nazirliyinin nümayəndəsi Herr Buşe ilə görüşdü və Rusiyanın Bakı ilə bağlı narahatçılığını onun nəzərinə çatdırdı. Herr Buşe özündən əvvəl xarici işlər naziri Paul von Hintzenin də bəyan etdiyi kimi, bu narahatçılığın əbəs olduğunu, Sovet Xarici İşlər Komissarlığına gələn xəbərlərin – türk qoşunlarının Bakıya doğru irəliləməsinin qətiyyən doğru olmadığını bildirdi. Onun sözlərinə görə, həm İstanbuldan, həm də Tiflisdən alınan məlumatlar türklərin almanların tələbləri ilə razılaşmasından, türk qoşunlarının irəli hərəkət etməyəcəklərindən və Bakıya girməyəcəklərindən xəbər verir. Almanlar A.İoffeyə onu da bildirdilər ki, əgər Sovet Rusiyasının dedikləri doğru çıxarsa, türklər verdikləri sözə əməl etməzlərsə, onda onları buna məcbur edəcəklər.[527]

A.İoffe Berlindən Moskvaya göndərdiyi 1 avqust 1918-ci il tarixli məlumatında Almaniya Xarici İşlər Nazirliyində ona deyi-

[525] Документы внешней политики СССР. Т. 1, с. 410.
[526] Kurat A.N. Türkiye ve Rusya, s. 545.
[527] Yenə orada. s. 545-546.

lənlərin doğruluğunu başqa kanallar vasitəsilə də yoxladığını qeyd edirdi. O yazırdı ki, az öncə alman qərargahından dönmüş Almaniyanın Xarici İşlər Nazirliyinin şöbə müdiri İ.Kriege İstanbuldakı alman səfiri Bernstorfun 30 iyul tarixli teleqramını mənə göndərmişdi. Bu teleqramda "səfirin Bakı haqqında əldə etdiyi məlumatlarla bağlı Ənvər paşa və sədrəzəm Tələt paşadan başqa xarici işlər naziri Nəsimi bəy ilə də görüşdüyü" və onların hər üçünün Nuru paşaya Bakı üzərinə hücumu dayandırmaq barədə qəti bir əmr göndərildiyi haqqında təminat verdikləri təsdiq edilirdi.[528]

İstanbuldakı alman səfirinə görə, türklərin Bakı üzərinə hücum edəcəkləri ilə bağlı gələn xəbərlər əsassızdır. Onun Osmanlı rəsmilərinə istinadən verdiyi məlumatlara əsasən bu, olsa-olsa Nuru paşanın özbaşına və Azərbaycan könüllüləri ilə həyata keçirmək istədiyi bir təşəbbüs ola bilərdi.

Göründüyü kimi, Ənvər paşanın Bakıya hücum əməliyyatını gizlətmə cəhdləri almanların diqqətini həqiqətən də müəyyən qədər yayındıra bilmişdi. Lakin iyulun axırlarında hərbi əməliyyatların yenidən fəallaşması, Qafqaz İslam Ordusunun Bakı ətrafına gəlib çıxması alman-rus sövdələşməsini daha da reallaşdırdı. Türk qoşunlarının Azərbaycandakı uğurlu hərbi əməliyyatlarından qorxuya düşən Almaniya Baş qərargahı avqustun əvvəllərində məsələyə açıq müdaxilə etməyə başladı. Avqustun 4-də general Lüdendorf Ənvər paşaya bildirirdi ki, Azərbaycanda hərbi əməliyyatlar dayandırılmasa, Osmanlı baş komandanlığında olan alman zabitləri geri çağırılacaqdır. O yazırdı: "Mən dözə bilmərəm ki, Türkiyə hakimiyyət dairələrinin sülh müqaviləsi (Brest-Litovsk sülhü nəzərdə tutulur – V.Q.) şərtlərinə zidd hərəkətləri Rusiya ilə yeni müharibə təhlükəsi törətsin".[529] Bununla paralel olaraq Almaniya hökuməti Qafqazda olan hərbi qüvvələrini də artırırdı. 1918-ci il avqustun 4-də Ənzəlidəki ingilis hərbi hissələrinin bir dəstəsi Bakıya girdikdən sonra general Lüdendorfun əmri ilə Ukraynadan Qara dəniz vasitəsilə Gürcüstandakı alman hərbi missiyasının rəh-

---

[528] Kural A.N. Türkiye ve Rusya. s. 546.

[529] Swietochowski T. Müslüman Cemaatten Ulusal Kimliğe Rus Azerbaycanı, s. 182.

bəri general Kressin sərəncamına bir süvari və bir piyada briqadası göndərildi. 1918-ci il avqustun 20-nə olan məlumata görə, Almaniyanın Gürcüstanda 214 zabiti və 5050 əsgəri var idi.[530] Almanlar mümkün saydıqları bütün vasitələrlə türklərin təkbaşına Bakıya doğru hücumunu dayandırmağa çalışırdılar.

Bakının itirilməsi ilə heç cür barışa bilməyən Sovet Rusiyası Almaniya ilə paralel olaraq Osmanlı imperiyasına qarşı da diplomatik-siyasi təzyiqlərini gücləndirdi. 1918-ci il avqustun 8-də RSFSR xalq xarici işlər komissarı G.Çiçerin Moskvadakı Osmanlı səfiri Qalib Kamali bəylə görüşərək Bakıya türk hücumunun dayandırılmasını tələb etdi. Həmin görüşdə tərəflər bir-birlərini Brest-Litovsk müqaviləsinin şərtlərini pozmaqda günahlandırdılar. G.Çiçerin türk qoşunlarının Bakıya doğru irəliləməsini səfirin diqqətinə çatdıraraq bildirdi ki, Türkiyə bununla artıq Brest-Litovsk müqaviləsinin müddəalarını pozmuşdur və Rusiyanın ərazilərinə girmişdir. Qalib Kamali bəy isə, G.Çiçerinin diqqətini belə bir məsələyə yönəltdi ki, Brest-Litovsk müqaviləsini Türkiyə deyil, Rusiya pozmaqdadır və ola bilsin ki, Çiçerinin baş verənlər barədə ətraflı məlumatı yoxdur. Türk səfirinin fikrincə, Osmanlı qoşunlarının Azərbaycana girməkdə məqsədi heç də bu ərazini tutmaq deyil, buradakı erməni silahlı dəstələri ilə mübarizə aparmaq, Azərbaycan əhalisini, burada olan Osmanlı təbəəsi və əsirlərini bu quldur dəstələrindən qorumaqdır. Türk səfirinin bu iddiası ancaq qismən doğru idi. G.Çiçerinlə türk səfirinin görüşü çox soyuq şəkildə başa çatdı.[531]

Qalib Kamali bəyə görə, Rusiyada daxili vəziyyət çox qarışıq olduğundan bu şərtlər altında müqavilə şərtlərinin tətbiqinə imkan yoxdur. Belə bir vəziyyətdə özünün Rusiyada qalmasına lüzum və ehtiyac görməyən Qalib Kamali bəy alman səfiri Mirbaxın sui-qəsd nəticəsində öldürülməsindən (6 iyul 1918) sonra Moskvada təhlükəsizliyinin təmin edilməsinin çətin olduğunu əsas gətirərək avqustun 9-da Moskvanı tərk etdi. Bununla da, 1918-ci il avqus-

---

[530] Qasımov M. Birinci dünya müharibəsi illərində böyük dövlətlərin Azərbaycan siyasəti, II h., s. 190, 192.

[531] Kurat A.N. Türkiye ve Rusya. s. 547.

tun 9-da İstanbulla Moskva arasında birbaşa diplomatik münasibətlər kəsildi. Bundan sonra Sovet Rusiyası Almaniyaya qarşı diplomatik təzyiqlərini daha da gücləndirdi.

1918-ci il avqustun ortalarında Bakıdan Moskvaya gedən bir bolşevikin verdiyi geniş məlumatdan sonra Rusiya rəhbərliyi anladı ki, son günlərdə Bakı ətrafında nisbi sakitliyin yaranması türk qoşunlarının Bakı üzərinə hücumdan imtina etməsi ilə deyil, əksinə, qəti hücuma hazırlıq işlərinin görülməsi ilə bağlı imiş. G.Çiçerin avqustun 18-də A.İoffeyə teleqram göndərərək, onu mövcud vəziyyətdən xəbərdar etdi. G.Çiçerin teleqramında bildirirdi ki, Almaniya Bakı ətrafında nələrin baş verdiyinə görə ya Sovet Rusiyasını aldadır, ya da ola bilsin ki, orada cərəyan edən hadisələrdən ümumiyyətlə, xəbəri yoxdur. Teleqramda, həmçinin Bakı ətrafında döyüşlərin baş verməsi, Bakının qeyd-şərtsiz təslim edilməsi ilə bağlı türk komandirləri tərəfindən buradakı hakimiyyət orqanlarına məktubların göndərilməsi də A.İoffenin diqqətinə çatdırıldı.[532]

1918-ci il avqustun 19-da RSFSR-in Berlindəki səfiri A.İoffe Almaniya Xarici İşlər Nazirliyinə yeni bir nota verdi. Notada "Almaniya hökumətinin təminatlarına zidd olaraq türk qoşunlarının tərkibində alman təlimatçılarının iştirak etdiyi" iddia edilir və türklərin nailiyyətləri bu təlimatçıların köməkləri ilə əlaqələndirilirdi. Sonda Almaniya hökumətindən Bakı ilə bağlı verdiyi təminatlara əməl edilməsi və türk qoşunlarının Bakı üzərinə hücumunu dayandırmaq tələb edilirdi.[533] Elə həmin gün RSFSR xalq xarici işlər komissarı G.Çiçerin Almaniyanın Moskvadakı baş konsulu Herr Hauşildə nota təqdim etdi. Notada türk ordularının şəhərin ətrafında döyüşlər apardığı, iyulun 30-da Şövkət paşanın şəhəri təslim etmək barədə çağırışları yer almışdı. G.Çiçerin bildirirdi ki, "Brest sülh müqaviləsinin biabırcasına pozulmasına, Almaniya və Türkiyə hökumətləri tərəfindən verilmiş çoxsaylı təminatlara qarşı qəti etiraz bildirərək, xahiş edirik, Siz Almaniya hökumətinə bir daha bildirəsiniz ki, Bakının türklər tərəfindən tutulması böyük fa-

---

[532] Kurat A.N. Türkiye ve Rusya, s. 547.
[533] Документы внешней политики СССР. Т. 1, с. 430-431.

ciə olacaq və böyük həcmdə sərvətlərin dağılmasına səbəb olacaqdır. Yenə də ümid edirik ki, Almaniya hökuməti bu faciənin baş verməsinə yol verməyəcəkdir. Xüsusən də, ona diqqəti yönəldirik ki, Bakı nefti bütün Rusiyanın xalq təsərrüfatı üçün böyük əhəmiyyət kəsb edir. Ona görə də Rusiya, ona əhəmiyyətli olan ölkələrlə iqtisadi münasibətlərə girməyə çalışır".[534]

Berlində və Moskvada rus-alman danışıqlarının davam etdiyi müddətdə Bakı XKS-nin cəbhədəki uğursuzluqları Bakıda vəziyyəti daha da kəskinləşdirdi. Böhranlı günlərdə Bakını necə müdafiə etmək, yaxud kimə təslim etmək məsələsi gündəmdə dururdu. Nəticədə İranda olan çar polkovniki Lazar Biçeraxovun yardımından istifadə etmək haqqında qərar qəbul edildi. Biçeraxovun 1500 nəfərlik dəstəsi Xəzər dənizi vasitəsilə 1918-ci il iyulun 5-də Ələtə çıxarıldı. İyulun 7-də o, Bakı müdafiə xəttinin sağ cinahının komandanlığını qəbul etdi. Lakin cəbhədə vəziyyət ağırlaşdığından Biçeraxov vuruşmadı və iyulun 29-da öz dəstəsini cəbhə xəttindən çıxarıb şimala, Petrovsk istiqamətinə çəkildi. Bu oyuna daxil olanda Biçeraxovun özünün də hesablamaları var idi. O, daşnaklarla və Erməni Milli Şurası ilə ittifaqda Tiflisi də işğal edib Cənubi Qafqazda hərbi diktatura yaratmaq fikrində idi.[535] Lakin Biçeraxovun sərəncamında olan hərbi qüvvələrin həddindən çox az olması və müharibə edən böyük dövlətlərin Cənubi Qafqazda, xüsusilə də Azərbaycanda maraqlarının toqquşması onun bu planının gerçəkləşməsinə imkan vermirdi.

Qafqaz İslam Ordusunun Bakıya hücumunun qarşısını almaq üçün bolşeviklər hətta düşmənləri olduqları ingilislərlə də əlbir hərəkət etməyə çalışırdılar. Bolşeviklərin Ənzəlidəki komitəsinin sədri Çelyabin ingilislərin Bakıdakı sovet hökumətinə silah və avtomobillərlə kömək göstərmələrini İranda olan Britaniya hərbi missiyasının rəhbəri general Lionel Denstervildən xahiş etmişdi. Bu köməyin əvəzində ingilislərə yağ və benzin verilməli idi. Çelyabin ingilis ordu və hərbi təlimatçıları vasitəsilə kömək haqqında eşitmək belə istəmirdi. Əldə olunmuş razılığa görə, general

[534] Документы внешней политики СССР, Т. 1, с. 428-429.
[535] Həsənov C. Azərbaycan beynəlxalq münasibətlər sistemində, s. 110, 111.

Denstervil Bakı Sovetindən 50.000 funt-sterlinq dəyərində benzin aldı, əvəzində bolşeviklərə 10 ford avtomobili verməli idi. Lakin Bakıdakı sovet hökuməti devrildiyindən bolşeviklərin avtomobil almaq arzusu həyata keçmədi.[536]

Bakı Sovetinin 1918-ci il iyulun 16-da keçirilən fövqəladə iclasında eser-menşevik-daşnak bloku türk hücumlarının qarşısını almaq üçün ingilislərin Bakıya dəvət olunması ilə bağlı qətnamə qəbul etməyə cəhd etdi. Lakin bolşeviklər qətiyyətlə bunu rədd edərək belə bir qətnamənin qəbul olunmasına imkan vermədilər.

Türkiyə-Azərbaycan hərbi qüvvələrinin hücumları qarşısında böhranlı günlərini yaşayan Bakı XKS Sovet Rusiyasına müraciət edib, əsgəri qüvvələr göndərilməsini sürətləndirməyi xahiş etdi. Sovet Rusiyası özünün hərbi vəziyyətinin çətin olmasına baxmayaraq, Bakı XKS-ni də yaddan çıxarmırdı, mümkün olduğu qədər ona hərbi yardımlar göstərməkdə davam edirdi. İyul ayında Petrovun komandanlığı ilə bir hərbi dəstə Ukrayna cəbhəsindən götürülüb Bakıya göndərildi. Bu qoşun bir eskadron süvaridən, bir bölük dənizçilərdən və topxanadan ibarət idi. Bundan əlavə 4 topdan və 170 nəfərlik komandadan ibarət bir süvari batareyası və bir dəstə matros da Bakıya gəldi. Həştərxandan Bakıya 8 yelkənli gəmi ilə hərbi yüklər gətirildi.[537] Bütün bunlara baxmayaraq Bakı Soveti Qafqaz İslam Ordusunun hücumları qarşısında tab gətirə bilmədi.

Bakıda son dərəcə gərginləşmiş siyasi şəraitdə 1918-ci il iyul ayının 25-də Bakı Sovetinin fövqəladə iclası çağırıldı. İclasda menşeviklər, eserlər və daşnaklar türk qoşunlarının hücumunun qarşısını almaq üçün ingilis qoşunlarının çağırılması məsələsini yenidən qaldırdılar. Məruzə ilə çıxış edən S.Şaumyan ingilis qoşunlarının çağırılması təklifinə qəti etiraz etdi və bu barədə Mərkəzi sovet hökumətindən alınmış teleqramın V ümum-Rusiya Sovetlər qurultayı tərəfindən təsdiq edilmiş mətnini oxudu. İ.Stalinin imzaladığı həmin teleqramda deyilirdi: "Ümum-Rusiya MİK və XKS adından mən bütün Bakı Sovetindən, ordu və donanmadan bütün Rusiya fəhlə və kəndlilərinin iradəsinə tamamilə tabe olma-

[536] Денстервиль Л. Британский империализм в Баку и Персии, с. 148-149.
[537] Azərbaycan tarixi. 3 cilddə. III c., I h., s. 161-162.

ğı tələb edirəm. V Sovetlər qurultayının qərarına əsasən mən Bakı Xalq Komissarları Sovetindən hökmən müstəqil beynəlxalq siyasət yeritməyi və yadelli kapital agentlərinə qarşı qəti mübarizə aparmağı, hətta müvafiq komissiyaların üzvlərini həbs etməkdən çəkinməməyi tələb edirəm".[538] Buna baxmayaraq, eser-menşevik-daşnak bloku tərəfindən S.Şaumyan başda olmaqla Bakı XKS-nin siyasəti kəskin tənqid edildi və Şaumyanın təklifi rədd edildi. Nəticədə bolşeviklərin kəskin etirazlarına baxmayaraq, ingilis qoşunlarının Bakıya dəvət edilməsi və Sovetdə təmsil olunan bütün partiyaların nümayəndələrinin iştirakı ilə şəhərdə yeni koalisiyon hökumətin təşkili barəsində eser-menşevik-daşnak blokunun qətnaməsi səs çoxluğu ilə (236 səsə qarşı 259 səslə) qəbul edildi.[539] Bununla da bolşeviklər Bakıda hakimiyyətdən əl çəkmək məcburiyyətində qaldılar. İyulun 26-da S.Şaumyan Moskvaya V.İ.Leninə göndərdiyi teleqramında Bakı Sovetində qəbul olunan qətnamə haqqında məlumat verir və "Bakını Rusiya üçün xilas etməkdən ötrü" tezliklə qoşun hissələrinin göndərilməsini tələb edirdi. V.İ.Lenin S.Şaumyanın teleqramına göndərdiyi cavabda yazırdı ki, "qoşun göndərmək üçün tədbirlər görəcəyik, lakin qəti vəd edə bilmirik".[540]

1918-ci il iyulun 30-da Bakı Kommunası ordusunun qərargah rəisi daşnak Avetisov S.Şaumyana bildirdi ki, ordu artıq müqavimət göstərə bilmir və ağ bayraq qaldırıb türklərlə danışığa getmək lazımdır. İngilislərlə gizli danışıqlar aparan daşnaklar vəziyyətin çıxılmaz olduğunu görüb qərar qəbul etdilər ki, şəhərdəki İsveç konsulunun vasitəçiliyi ilə türk ordusunun qərargahına sülh nümayəndəliyi göndərsinlər. İsveç və Danimarka konsulları vasitəçilik missiyasına razılıq versələr də, iyulun 31-də vəziyyət dəyişdi və danışıqlar baş tutmadı.[541] İyulun 30-da Bakı Xalq Komissarları Sovetinə gələn Erməni Milli Şurasının rəhbərləri bolşeviklərdən

---

[538] Şaumyan S. Seçilmiş əsərləri. II c., s. 412-413.
[539] Шаумян Сур. Бакинская Коммуна. Баку: Красный Восток, 1927, с. 50.
[540] V.İ.Lenin Azərbaycan haqqında, s. 138.
[541] Yusifzadə S. Birinci dünya müharibəsinin sonunda ingilis işğalı və Bakının azad edilməsi // Tarix və onun problemləri. 1999, № 2, s. 118.

hakimiyyəti təhvil verməyi tələb etdilər. Ertəsi gün bolşeviklər sonuncu cəhd etdilər. İngilislərin dəvət edilməsi əleyhinə bolşeviklərin qətnaməsi 10 min nəfərin iştirak etdiyi mitinqdə cəmisi iki səs aldı.[542] Beləliklə, 1918-ci il iyulun 31-də Bakı XKS öz səlahiyyətlərindən əl çəkmək məcburiyyətində qaldı.

Bakıda hakimiyyət sağ eser-menşevik-daşnak blokunun əlinə keçdi və həmin blok avqustun 1-də ingilis konsulu Mak-Donelin yaxından iştirakı ilə "Sentrokaspi və Sovetin Müvəqqəti İcraiyyə Komitəsinin Rəyasət Heyətinin Diktaturası" adlı mürtəce hökumət təşkil etdi. Yeni hökumət Lenin rejiminə qarşı qoyulan demokratik Rusiya barəsində özünün loyallığını bəyan etdi.[543] Eser və daşnak partiyalarının Bakının xristian əhalisinə müraciəti elan edildi. Müraciətdə deyilirdi: "Siz türklərə qarşı tək deyilsiniz. Bu günlərdə müttəfiqlərin çox ciddi yardımını alacaqsınız".[544] Elə həmin gün Sentrokaspi diktaturasının fövqəladə iclası çağırıldı və nəyin bahasına olursa-olsun Bakını Rusiya üçün qoruyub saxlamaq haqqında qərar qəbul edildi.

Bolşeviklərin gecə ikən Bakıdan qaçmaq planı baş tutmadı. Sentrokaspi diktaturasının gəmiləri onları geri qayıtmağa məcbur etdi. Lakin sahilə çıxanda bolşeviklərin silahlı qüvvələri çox olduğundan sentrokaspiçilər onları tərksilah etməyə cəhd göstərmədilər. Eyni zamanda bu dəstə şəhərə də buraxılmadı və limanın yaxınlığında saxlanıldı. Bu zaman Qafqaz İslam Ordusu Bakını azad etmək üçün hücum əməliyyatına başladı. Avqustun 2-3-də Qafqaz İslam Ordusunun bölmələri bəzi istiqamətlərdən şəhərə daxil oldular. Vəziyyət gərginləşəndə bir-birinə düşmən münasibət bəsləyən, limanda mühasirədə saxlanılan bolşeviklər və sentrokaspiçilər ümumi düşmən hesab etdikləri türk qoşunlarına qarşı birgə vuruşdular. S.Şaumyanın göstərişi ilə vaxtilə Rusiyadan bolşeviklərin köməyinə gəlmiş Petrov öz dəstəsi ilə Qurd Ağzı istiqamətində

---

[542] Шаумян Сур. Бакинская Коммуна, с. 51.
[543] Swietochowski T. Müslüman Cemaatten Ulusal Kimliğe Rus Azerbaycanı, s. 186.
[544] Yusifzadə S. Birinci dünya müharibəsinin sonunda ingilis işğalı və Bakının azad edilməsi, s. 118.

türk ordusuna qarşı döyüşə girdi. Bolşeviklərin və sentrokaspiçilərin birgə müqaviməti nəticəsində Qafqaz İslam Ordusu həmin günlərdə Bakıya girə bilmədi. Sentrokaspi hökuməti adından daşnak Arakelyan bolşevik Petrova göstərdiyi xidmətə görə təşəkkür elan etdi.[545]

Rusiya Bakıda sovet hakimiyyətini xilas etmək üçün əlindən gələni əsirgəmir, özünün vəziyyətinin ağır olmasına baxmayaraq, Bakıya hərbi qüvvə göndərməyi yenə də davam etdirirdi. 1918-ci il avqustun 12-də V.İ.Lenin Saratov və Saritsın hərbi komissarlarına göndərdiyi teleqramında yazırdı: "Lenin adına polk Bakıya gedir. Sürətlə irəliləməsi üçün təcili tədbirlər görün. Hər cür ləngimə üçün ciddi məsuliyyət daşıyacaqsınız. Onun nə vaxt gəlib getməsi haqqında Xalq Hərbi Komissarlığının operativ şöbəsinə təcili xəbər verin".[546] Lakin həmin polk ilə digər döyüşçü dəstələri və hərbi ləvazimat Bakıya aparılarkən Həştərxanda baş vermiş antibolşevik qiyamların yatırılması üçün ləngidildiyindən Bakı komissarlarının yardımına çata bilmədi. Aydın oldu ki, yaranmış şəraitdə ən yaxın zamanda Sovet Rusiyasından real kömək göstərilməsi və Bakıda sovet hakimiyyətinin bərpa olunması qeyri-mümkündür.

İngilislərin Bakıya dəvət edilməsindən sonra, 1918-ci il avqustun 12-də S.Şaumyan, Q.Petrov, V.Poluxin və P.Caparidze Bakının "müdaxiləçilər tərəfindən işğalı" təhlükəsi ilə bağlı verdikləri bəyannamədə bildirirdilər ki, "Rusiya sovet hakimiyyətinin siyasi və hərbi nümayəndələri bu andan etibarən Bakıda qala bilməzlər, onlar Bakını tərk etməyə məcburdurlar".[547] Bakı komissarları sovet qoşun hissələri ilə birlikdə avqustun 14-də 17 gəmiyə minərək Xəzər dənizi ilə Həştərxana yollandılar. Lakin bu gəmilər Sentrokaspi diktaturasının keşikçi gəmiləri tərəfindən Nargin

---

[545] Yusifzadə S. Birinci dünya müharibəsinin sonunda ingilis işğalı və Bakının azad edilməsi, s. 118.

[546] V.İ.Lenin Azərbaycan haqqında, s. 146.

[547] Azərbaycanda sosialist inqilabının qələbəsi uğrunda bolşeviklərin mübarizəsi, s. 601-602.

adasında saxlanıldı və bütün gəmidəkilər həbs edilərək şəhər həbsxanasına salındı.

Bakı XKS süqut etdikdən sonra yaranan Sentrokaspi hökumətinin ilk addımı Ənzəlidə dayanmış ingilis ordusunu Bakıya dəvət etmək oldu. Sentrokaspi hökuməti bolşevikləri və şəhərdə olan kiçik sayda almanları həbs edib yardım üçün Britaniya qüvvələrinə müraciət etdi. Avqustun 4-də polkovnik Stoksun başçılıq etdiyi 240 nəfərdən ibarət ilk ingilis dəstəsi Bakıya gəldi. Az sonra, avqustun 9-17-si arası üç batalyon, bir səhra artilleriya batareyası və bir neçə zirehli maşından ibarət olan ingilis hərbi qüvvələri Bakıya daxil oldular. Onların sayı min nəfərdən bir qədər çox idi. Avqustun 17-də general Denstervil Bakıya daxil olduqda türklərin hücumundan bərk qorxuya düşən ermənilər onu böyük sevinclə qarşıladılar. Lakin Britaniya yardımının təəccüb doğuracaq qədər az olması şəhərin xristian əhalisini hiddətləndirdi. Halbuki Bakıya yardıma gələn ingilis ordusunun sayının 20 min olması barədə təbliğat aparılırdı.

M.Y.Mehdizadə general Densterviliin ekspedisiyasını Bakı nefti uğrunda gedən beynəlxalq mübarizə ilə əlaqələndirərək yazırdı: "Denstervilin komandasında olan ingilis əsgərləri 40 avtomobil vasitəsilə hərəkət edərək çox böyük sürətlə Ənzəliyə gəldilər və oradan Bakı petrol mədənlərini işğal etdilər... Bu işğalın mənası tədqiq etdiyimiz mövzu nöqteyi-nəzərindən belə idi: İngilis arslanı əcələ ilə gəlirdi. Bakı petrol ocaqlarına qonmaq istəyən alman qartalına yol vermək istəmirdi".[548]

Böyük Britaniyanın baş naziri Devid Lloyd Corc yazırdı: "Əgər almanlar Bakıya soxulsaydılar və bu rayonun tükənməz neft ehtiyatlarını ələ keçirsəydilər, müharibə sonsuzadək davam edərdi".[549]

İngilis əsgərləri Bakıya çıxarıldıqdan sonra türk hərbi komandanlığı şəhərə almanlarla birgə hücum barədə düşünməyə başladı. Buna səbəb bir tərəfdən Almaniyanın türklərin Bakı uğrunda apardıqları hərbi əməliyyatları dəstəkləməməsi və buna qarşı çıxması

---

[548] Mehdizadə M. Beynəlmiləl siyasətdə petrol, s. 10-11.
[549] Джордж Л. Правда о мирных договорах. Т. 1, с. 275.

idisə, digər tərəfdən Bakıya böyük miqdarda ingilis qoşunlarının gəlməsi haqqında yayılan və Osmanlı hərbi komandanlığına da çatan məlumatlar idi. 1918-ci il avqustun 17-də Ənvər paşa general Lüdendorfa müraciət edib, Bakıya birgə hücum haqqında təklif etdi.[550] Lakin bu dövrdə Bakı ilə bağlı Berlində aparılan alman-rus danışıqları intensivləşdiyindən və bu məsələdə artıq razılıq əldə olunduğundan alman hərbi komandanlığı Ənvər paşanın təklifinə cavab verməyə tələsmirdi. Öz növbəsində, böyük miqdarda ingilis qoşunlarının Bakıya gəlməsi haqqında yayılan məlumatların doğru olmadığını aydınlaşdıran Osmanlı hərbi komandanlığı da Almaniyanın verəcəyi cavabı gözləmədən Qafqaz İslam Ordusuna şəhəri azad etmək üçün son hərbi əməliyyatlara başlamaq əmrini verdi.

1918-ci ilin avqustunda məlum oldu ki, ingilislərin bu qüvvəsi ilə Bakını türk hücumlarından qorumaq mümkün deyil. Bunu hətta Britaniya ordusunun ali komandanlıq dairələrində də yəqin etmişdilər. Belə ki, Hərbi Nazirliyin general Denstervilin adına göndərdiyi 6 iyul 1918-ci il tarixli teleqramına əsasən tapşırıq verilmişdi ki, əgər türklərin Bakını tutmaq təhlükəsi yaranarsa, onda neft kəmərini, neft anbarlarını və neft avadanlıqlarını dağıtmalı, ancaq neft buruqlarına dəyməməli, çünki burada ingilis neft şirkətlərinin uzunmüddətli maraqları qalmaqdadır.[551]

Sentrokaspi diktaturası ilə ingilislərin arasındakı münasibətlər lap əvvəldən qarşılıqlı ittiham və inamsızlıq əsasında qurulmuşdu. Sentrokaspiçilər Britaniya yardımının azlığından məyus olub narazılıq edir, ingilislər isə hər şeyi ordudakı intizamsızlığın və yerli əsgərlərin düşkünləşməsinin üzərinə atırdılar. Bakını əldə saxlamaq üçün heç bir real imkanın olmadığını görən general Denstervil ingilis əsgərlərini sentyabrın 1-dən etibarən şəhərdən aparmağı qərara aldı. Lakin Sentrokaspi hökuməti limanı tərk edəcək hər bir gəmini atəşə tutacağı ilə hədələdi. Çarəsiz qalan general Denster-

---

[550] Jaschke G. Der Turanismus der Jungturken, s. 49.
[551] Əliyev N. Antantanın, Üçlər İttifaqı ölkələrinin və Sovet Rusiyasının Xəzər bölgəsində geostrateji rəqabəti və Azərbaycan // Tarix və onun problemləri, 2003, № 2, s. 75.

vil Bakıya türklərin sonuncu hücumunu gözləməkdən başqa çıxış yolu tapmadığını etiraf etməli oldu.[552]

General Denstervil avqustun 31-də Sentrokaspi rəhbərlərinə göndərdiyi məktubunda qeyd edirdi ki, şəhərin müdafiəsinin uzadılması, vaxtı və insanların həyatını boş yerə qurban vermək deməkdir. Onun gəldiyi qənaətə görə, yaranmış vəziyyətdə dünyada heç bir qüvvə Bakını türklərdən xilas edə bilməz.[553]

Qafqaz İslam Ordusunun apardığı uğurlu hərbi əməliyyatları ilə 1918-ci ilin avqustunda gəlib Bakının astanasına çıxması Berlində aparılan alman-rus danışıqlarının intensivləşməsinə səbəb oldu. Dağılmış rus iqtisadiyyatını bərpa etmək üçün neft Bakısını türklərin hücumlarından qoruyub öz nəzarətində saxlamaq Sovet Rusiyasına nə dərəcədə böyük əhəmiyyət kəsb edirdisə, Almaniya üçün də davam edən müharibənin ehtiyaclarını ödəmək məqsədilə Bakı neftindən istifadə etmək eyni əhəmiyyəti daşıyırdı. Almaniya hökuməti və ali hərbi komandanlığı nümayəndələrinin 1918-ci il iyulun 23-də Spa şəhərində keçirilən birgə müşavirəsində neft məsələsi ciddi müzakirə olundu. Ordunun neftə olan tələbatından danışan general E.Lüdendorf bildirdi ki, müharibə aparmaq üçün bizə təcili olaraq Bakıdan neft almaq lazımdır. Almaniyanın hərbi dəniz naziri vitse-admiral Qebbinqhaus da öz çıxışında xüsusi olaraq qeyd etdi ki, "sualtı müharibə neftdən asılıdır. Vəziyyət çox ağırdır. Sualtı qayıqlar və aviasiyanın neftə tələbatı daim artır. Bizə qeyd-şərtsiz Bakıdan neft almaq lazımdır".[554] Bu müşavirədə qəbul olunan yekun sənəddə isə deyilirdi: "...Türklərin Bakıya doğru irəliləməsinin qarşısını almaq lazımdır. Bakının neft ehtiyatlarının istismarı bizim üçün həyati əhəmiyyətli məsələdir. Buna görə də rus hökuməti ilə Bakı barəsində razılıq əldə edilməli, Bakının onlarda qalmasına zəmanət vermək zərurəti yarandıqda isə

[552] Swietochowski T. Müslüman Cemaatten Ulusal Kimliğe Rus Azerbaycanı, s. 187.

[553] Денстервиль Л. Британский империализм в Баку и Персии, с. 235-236.

[554] Советско-германские отношения от переговоров в Брест-Литовске до подписания Рапалльского договора. Сборник документов. Ред. коллегия: С.Дернберг и др. Т. 1. 1917-1918 гг. Москва: Политиздат, 1968, с. 572-573.

Bakıya alman qoşunları göndərilməlidir. Əlahəzrət Kayzer bunu sürətləndirməyi əmr edir".[555]

Almaniyanın hakim dairələrində, xüsusilə də alman hərbi komandanlığı ilə Xarici İşlər Nazirliyi arasında Bakı məsələsinə münasibətdə müəyyən fikir ayrılıqları var idi. Lakin 1918-ci il avqustun 14-də general E.Lüdendorf xarici işlər naziri P.Hintze ilə Spada bir araya gələrək Bakı məsələsində ümumi razılığa gələ bildilər. Bu razılığa görə:

1. Bakı Rusiyanın nəzarətində qalmalı idi;

2. Əldə olan bütün vasitələrdən istifadə edilərək İstanbula kömür və digər malların göndərilməsi dayandırılmalı və Tiflis üzərindən Bakıya gedən dəmir yolları türklər üçün bağlanmalı, bununla da türklərin Bakıya girməsinin qarşısı alınmalı idi;

3. Rusiya ilə Almaniyanın Bakı neftindən yararlanmasını təmin edəcək bir müqavilənin imzalanmasına nail olunmalı idi.[556]

Onu da qeyd edək ki, general Lüdendorf bundan bir qədər əvvəl "Bakının Rusiya, Almaniya və Türkiyənin birgə nəzarətinə verilməsi"ni təklif etmişdi. Amma onun bu təklifi Berlində Brest-Litovsk müqaviləsinə əlavə olaraq hazırlanmaqda olan alman-rus müqaviləsinə zidd olduğundan Hintze tərəfindən qəbul edilməmişdi.[557]

Bakı nefti ilə bağlı Berlində aparılan alman-rus danışıqlarında razılıq əldə edilsə də və artıq 1918-ci il avqustun 10-da ayın 27-də imzalanacaq əlavə müqavilənin layihəsi hazırlansa da[558], almanlar təbii olaraq Osmanlı hökumətinə bu barədə heç bir məlumat verməmişdilər. Lakin avqustun 14-də Berlindəki Osmanlı hərbi attaşesi A.İoffe ilə apardığı müzakirələr barədə Ənvər paşaya məlumat verir və qeyd edirdi ki, rus səfirinin bildirdiyinə görə, alman-

---

[555] Советско-германские отношения от переговоров в Брест-Литовске до подписания Рапалльского договора, с. 577.

[556] Baumgart W. Deutsche Ostpolitik 1918, p. 200; Bihl W. Die Kaukasus Politik der Mittelmächte. T. II, p. 103.

[557] Bihl W. Die Kaukasus Politik der Mittelmächte. T. II, p. 102.

[558] Yenə orada. s. 101.

lar türklərin Bakıya girmələrinə qəti imkan verməyəcəklərinə dair ruslara yazılı olaraq zəmanət veriblər.[559]

Bu arada Ənvər paşa Almaniyanın Bakı məsələsində tutduğu mövqe ilə bağlı Qafqaz İslam Ordusunun komandanı Nuru paşaya məlumat verirdi. O, Nuru paşaya göndərdiyi 10 avqust 1918-ci il tarixli teleqramında yazırdı: "Qafqazın vəziyyəti haqqında Almaniya hökuməti ilə aramızda cərəyan edən müzakirələr hələ ki, qəti nəticəyə gəlmədi. Almanlar Brest-Litovsk müqaviləsinin mühafizəsini, rus hökuməti ilə yaranan sülhün pozulmasına meydan verilməməsini irəli sürürlər. Bununla yanaşı, Azərbaycanı bir hökumət-i İslamiyə olaraq tanıyırıq və nəhayət bu hökumətin bizimlə olan əlaqəsinin səviyyəsini təyin edərik. Almanlar Bakı şəhərini azərbaycanlılara buraxmaq təəhhüdü altına girmək istəməzlərsə də, təşəkkül edəcək Azərbaycan hökumətinin Bakısız yaşaya bilməyəcəyini iddia və bu nöqtədə israr edirik. Bununla bərabər, almanlara bəzi iqtisadi güzəştlər verilməsinə qarşı deyilik və Ukrayna məsələsi haqqında əldə edilən ittifaq şəklində Qafqaz üçün də bir ittifaq bağlanmasını Ukraynada tətbiqinə başlanıldığı zaman Qafqazda tətbiq edəcəyik..."[560]

1918-ci il iyulun 31-də bolşeviklər Bakıda hakimiyyətdən uzaqlaşdırılmışdılar və onların yerinə ingilis meylli Sentrokaspi diktaturası iqtidara gəlmişdi. Bu dövrdə Berlində Bakı ilə bağlı alman-rus danışıqlarının getməsinə baxmayaraq, Moskva hökuməti almanlara mənfi təsir edəcək deyə, Bakıdakı uğursuzluqlarını Almaniyadan gizli saxlamağa çalışırdı. Almanlar Bakıdakı bolşevik hökumətinin süqutundan yalnız iki həftə sonra bu hadisələr haqqında xəbər tuta bilmişdilər. Amma bolşeviklər bu dövrdə də, türklərin Brest-Litovsk müqaviləsinə əlavə olaraq hazırlanmaqda olan gizli alman-rus müqaviləsinin on dördüncü maddəsində (bu haqda irəlidə ətraflı danışılacaq) nəzərdə tutulan demarkasiya xəttinin gerisinə çəkilməsini almanlardan israrla tələb edirdilər. Almanlar bolşeviklərin bu israrlı tələblərinə cavab verilməzsə, ruslardan əldə etdikləri böyük güzəşt və imtiyazların təhlükəyə düşə

[559] Bayur Y.H. Türk İnkılabı Tarihi. C. III, K. IV, s. 227.

[560] Yenə orada. s. 225.

biləcəyindən ehtiyat edirdilər və buna görə də Almaniyanın xarici işlər naziri P.Hintze "Bakının alınması üçün birgə türk-alman hərbi əməliyyatlarının keçirilməsi" fikrini ortaya atdı.[561] Digər tərəfdən də, avqustun sonlarına doğru Qafqaz İslam Ordusunun Bakını ala bilmə ehtimalı ciddiləşdiyindən alman siyasi və hərbi dairələrində "birgə türk-alman hərbi əməliyyatları" fikri yenidən gündəmə gəlmişdi. General Lüdendorf Almaniya Xarici İşlər Nazirliyindən "ingilislərin Bakıdan çıxarılması məqsədilə" birgə türk-alman hərbi əməliyyatının keçirilməsi üçün Rusiyanın razılığını almağı tələb edirdi. Buna görə də, P.Hintze avqustun 20-də A.İoffe ilə apardığı müzakirələrdə ingilislərin türk və alman birgə orduları tərəfindən Bakıdan çıxarılması üçün Rusiyanın razılığını almağa çalışırdı. Lakin A.İoffe qəti olaraq türklərin Bakı əməliyyatında iştirakına qarşı çıxdı və bildirdi ki, bu, hazırlanmaqda olan əlavə alman-rus müqaviləsinə ziddir.[562] Belə olan təqdirdə növbəti müzakirədə P.Hintze yeni bir imtiyaz təklifi ilə çıxış etdi. Bu təklifə görə, ingilislərin Bakıdan çıxarılması üçün birgə türk-alman hərbi əməliyyatı keçiriləcək, amma Bakıya yalnız alman qoşunları girəcək, türk qoşunları isə şəhərin kənarında qalacaqdı. Bununla bərabər, almanlar türk qoşunlarının Brest müqaviləsinə əlavə olaraq hazırlanmaqda olan alman-rus müqaviləsinin on dördüncü maddəsində nəzərdə tutulmuş demarkasiya xəttinin gerisinə çəkilməsi üçün də çalışacaqdılar. Bakı rus sivil idarəsində qalacaqdı.[563] Yalnız alman qoşunları tərəfindən Bakının alınmasına razılıq verən A.İoffe bildirdi ki, alman işğalında olan Bakıda bolşeviklər iqtidarda olmalı və ingilis təhlükəsi buradan uzaqlaşdırıldıqdan sonra almanlar şəhəri boşaltmalıdırlar. A.İoffenin bu istəyini qəbul edən P.Hintze əvvəlki müzakirələrdə özü tərəfindən də irəli sürülən general Lüdendorfun yuxarıda qeyd etdiyimiz tələbini (türk-alman birgə orduları tərəfindən Bakının alınması) rədd etdi və öz fikrini

[561] Zürrer W. Kaukasien 1918-1921, p. 107-108; Baumgart W. Deutsche Ostpolitik 1918, p. 202.
[562] Baumgart W. Deutsche Ostpolitik 1918, p. 201.
[563] Bihl W. Die Kaukasus Politik der Mittelmächte, T. II, p. 105; Baumgart W. Deutsche Ostpolitik 1918, p. 201.

onunla əsaslandırdı ki, bu tələb hazırlanmaqda olan alman-rus əlavə müqaviləsini pozacaqdır. P.Hintze həmçinin onu da bəyan etdi ki, əgər general Lüdendorf öz tələbində israr edərsə, istefaya getməli olacaqdır.[564] P.Hintzenin bu tələbindən sonra general Lüdendorf da Rusiya ilə imzalanacaq əlavə müqaviləni dəstəklədiyini bildirdi və avqustun 22-də İstanbula, Osmanlı ordusunun baş qərargah rəisi general Sektə teleqram vuraraq türk ordusunun qeyd edilən əlavə müqavilənin on dördüncü maddəsində nəzərdə tutulan demarkasiya xəttini keçməməsi üçün Ənvər paşaya təsir göstərməyi istədi və eyni zamanda, Tiflisdə olan general Kressə Bakını almaq üçün Qafqazda olan bütün alman birliklərinin hazır vəziyyətə gətirilməsi əmrini verdi.[565] Bununla da, P.Hintzedən sonra general Lüdendorf da Türkiyəyə qarşı bolşevik kartından istifadə edilməsi və Almaniyanın Bakıdakı maraqlarının Rusiya vasitəsilə qoruna biləcəyi qənaətinə gəldi.

1918-ci il avqustun 22-də P.Hintze bildirirdi ki, əgər türklər öz ordularını Bakı ətrafından geri çəksələr və neft mədənləri zərər görməyəcəksə, o halda onlar da Bakı neftindən pay alacaqlar.[566] General Lüdendorf da Ənvər paşaya göndərdiyi teleqramlarında türk ordularının Bakıya hücumunu dayandırmağa çalışır və əvəzində neft vəd edirdi.[567] Bütün bunların geniş planları olan Ənvər paşa tərəfindən qəbul edilməsi mümkün deyildi və o, öz mövqeyini artıq açıq şəkildə bildirməkdən də çəkinmirdi.

Bu dövrdə Bakı ilə bağlı Almaniyanı narahat edən əsas məsələ ingilis qoşunlarının şəhərdən çıxarılması məsələsi idi. Almanlar 1918-ci il avqustun sonlarına doğru Sovet Rusiyasının Bakıya türk hücumunu dayandırmaqla bağlı tələblərinə ilk əvvəl bir şərtlə razılıq verirdilər ki, Moskva hökuməti ingilisləri Bakıdan çıxartsın. Bunu V.İ.Leninin avqustun 23-də Daşkəndə – F.İ.Kolesova vurduğu teleqram da təsdiq edir. Teleqramda deyilirdi: "...İngilislər

---

[564] Baumgart W. Deutsche Ostpolitik 1918, p. 201; Bihl W. Die Kaukasus Politik der Mittelmächte. T. II, p. 102.
[565] Baumgart W. Deutsche Ostpolitik 1918, p. 201-202.
[566] Bihl W. Die Kaukasus Politik der Mittelmächte. T. II, p. 106.
[567] Yenə orada. s. 105.

Bakıya girmişlər və orada vəziyyət qeyri-sabitdir. Almanlar Bakıya hücum etməmək üçün təminat verməyə razıdırlar, bu şərtlə ki, biz ingilisləri oradan qovaq..."[568] Lakin az sonra məlum oldu ki, mövcud vəziyyətdə Sovet Rusiyası ingilisləri Bakıdan çıxartmaq iqtidarında deyildir. Belə olan təqdirdə almanlar türk-alman qoşunlarının birgə əməliyyatı ilə ingilisləri Bakıdan çıxartmaq təklifini irəli sürüb türklərin şəhərə daxil olmayacaqlarına söz verdilərsə də, Sovet Rusiyası qətiyyətlə türklərin bu əməliyyatda iştirakına qarşı çıxdı. Son anda əldə olunmuş razılığa görə, almanlar Bakını ingilislərdən alıb rus idarəçiliyinə verməyi öz öhdələrinə götürdülər.

Nəhayət, 1918-ci ilin iyunundan başlayaraq Berlində davam edən alman-rus danışıqları avqustun 27-də Almaniya ilə Sovet Rusiyası arasında Brest müqaviləsinə əlavə müqavilənin imzalanması ilə nəticələndi.[569] Bir çox müəlliflər 27 avqust müqaviləsini Bakı barəsində müqavilə adlandırsalar da, bu müqavilə Almaniya ilə Rusiya arasındakı münasibətlərin böyük bir kompleksinə aid idi. Səkkiz fəsildən və 17 maddədən ibarət olan müqavilənin altıncı fəsli Qafqaza aid idi. Müqavilənin dördüncü maddəsinə görə, Almaniya Rusiya dövləti və onun ayrı-ayrı vilayətləri arasındakı münasibətlərə qarışmayacaq və buna görə də o, bu vilayətlərdə müstəqil dövlət qurumlarının təşkilini nə dəstəkləyəcək, nə də buna çalışacaqdı. On üçüncü maddəyə görə, Rusiya, Almaniyanın Gürcüstanı müstəqil dövlət kimi tanımasına öz razılığını bildirirdi. Müqavilənin on dördüncü maddəsi isə bilavasitə Azərbaycana aid idi. Burada göstərilirdi: "Almaniya Qafqazda Gürcüstanın hüdudlarından kənarda gedən hərbi əməliyyatlarda hər hansı üçüncü bir dövləti dəstəkləməyəcəkdir. O təsir göstərəcəkdir ki, Qafqazda üçüncü dövlətin hərbi qüvvələri Kür çayının mənsəbindən Petropavlovsk kəndinə qədər, Şamaxı qəzasının sərhədləri boyunca Əyrioba kəndinə qədər, Bakı, Şamaxı və Quba qəzalarının sərhədəri boyunca Bakı qəzasının şimal sərhədlərində dənizə qədər olan

---

[568] Azərbaycanda sosialist inqilabının qələbəsi uğrunda bolşeviklərin mübarizəsi, s. 603-604; V.İ.Lenin Azərbaycan haqqında, s. 147.

[569] Документы внешней политики СССР. Т. 1, с. 437-445.

ərazilərə keçməsin. Rusiya da Bakı vilayətində neft və neft məhsullarının çıxarılmasını bütün imkanları daxilində artıracaqdır, hər ay çıxarılan neftin dörddə bir hissəsini, lakin yaxın vaxtlarda razılaşdırılacaq müəyyən miqdardan az olmamaq şərtilə Almaniyaya verəcəkdir".[570] Müqaviləni Rusiya tərəfindən Berlindəki rus səfiri Adolf İoffe, Almaniya tərəfindən isə, Xarici İşlər Nazirliyinin stats-sekretarı, imperatorun məxfi müşaviri, istefada olan kontr-admiral Paul von Hintze və Xarici İşlər Nazirliyində rəis, imperatorun gizli müşaviri İohanes Kriege imzaladılar. Müqavilənin Qafqaza aid olan hissəsi ilk növbədə, Azərbaycanın ərazi bütövlüyünə qarşı yönəlmişdi. Öz müttəfiqlərindən gizli olaraq Sovet Rusiyası ilə razılığa gələn Almaniya Avstriya-Macarıstanın mənafeyini nəzərə almamış, Osmanlı imperiyasına qarşı isə əslində xəyanət etmişdi. Müqavilədə adı çəkilməyən həmin üçüncü dövlət Türkiyə idi ki, o, müəyyənləşdirilmiş demarkasiya xəttini Azərbaycan hərbi hissələri ilə birlikdə artıq keçmişdi.[571]

Brest müqaviləsinə əlavə olaraq 27 avqust tarixli alman-rus müqaviləsinin imzalanması Rusiyanın maraqlarına tam cavab verdiyindən rus diplomatiyası tərəfindən yüksək qiymətləndirildi. G.Çiçerin 1918-ci il sentyabrın 2-də ümum-Rusiya Mərkəzi İcraiyyə Komitəsinin iclasında bu müqaviləni səciyyələndirərək deyirdi ki, müqavilə bizə böyük imkanlar, xüsusən də ərazilərimizin azad edilməsində geniş imkanlar açmışdır və bu müqavilələr vəziyyətimizi xeyli yaxşılaşdıracaqdır. G.Çiçerin bildirirdi ki, Qafqazda üçüncü dövlət dedikdə, Türkiyə nəzərdə tutulmuşdur. Rus diplomatiyası 27 avqust tarixli əlavə müqaviləyə Qafqazda Türkiyənin əleyhinə Rusiyanın mövqelərinin möhkəmləndirilməsi kimi baxırdı.[572]

---

[570] Документы внешней политики СССР. Т. 1. с. 443-444; Советско-германские отношения от переговоров в Брест-Литовске до подписания Рапалльского договора, с. 612; Bihl W. Die Kaukasus Politik der Mittelmächte. T. II, p. 101.

[571] Həsənov C. Azərbaycan beynəlxalq münasibətlər sistemində, s. 119-120.

[572] Советско-германское отношения от переговоров в Брест-Литовске до подписания Рапалльского договора, с. 644.

27 avqust tarixli alman-rus müqaviləsinin imzalanmasından bir gün sonra İstanbuldakı alman səfiri Bernstorf bu barədə Osmanlı rəsmilərinə məlumat verdi. Bu xəbər İstanbulda böyük bir gərginlik yaratdı. 27 avqust müqaviləsi İttihad və Tərəqqi partiyasının Baş Məclisində, həmçinin Osmanlı Parlamentində geniş müzakirələrə yol açdı. Osmanlı sədrəzəmi Tələt paşa Almaniya hökumətindən bu müqaviləni ratifikasiya etməməyi istədi. Eyni zamanda, Osmanlı hökuməti yaranmış gərginliklə bağlı danışıqlar aparmaq üçün Tələt paşanın 1918-ci il sentyabrın 3-də Berlinə getməsi haqqında qərar qəbul etdi.

Bu arada İstanbulda olan M.Ə.Rəsulzadənin rəhbərlik etdiyi Azərbaycan nümayəndə heyəti 27 avqust müqaviləsi haqqında məlumat alan kimi buna öz kəskin etirazını bildirdi və mətbuatda bu məsələ ilə bağlı sərt bəyanatlarla çıxış etdi. M.Ə.Rəsulzadə mətbuata verdiyi açıqlamalarında alman-rus sövdələşməsinə sərt bir şəkildə etirazını bildirərək, Bakının milli, tarixi, coğrafi, irfani, ictimai və siyasi tellərlə Azərbaycana bağlı olmasını isbat edir və 27 avqust müqaviləsinin təkcə Azərbaycan üçün deyil, regionda böyük maraqları olan Osmanlı imperiyası üçün də təhlükəli olduğunu bəyan edirdi.[573] Osmanlı siyasi dairələrinin həyati əhəmiyyət kəsb edən bu məsələyə ciddi bir şəkildə yanaşacağına ümid edən M.Ə.Rəsulzadə incə bir üslubda İstanbul hökumətinin indiyə qədər Azərbaycanın müstəqilliyinin tanınması ilə bağlı hüquqi prosedurları həyata keçirmədiyini dilə gətirməkdən də çəkinmirdi. O, "İkdam" qəzetinə verdiyi müsahibəsində "Azərbaycanın istiqlalı Almaniya, Rusiya və hətta Osmanlı imperiyası tərəfindən tanınmasa da, Azərbaycan hökumətinin öz müstəqilliyini sonadək müdafiə edəcəyini" bəyan etdi.[574]

27 avqust tarixli alman-rus müqaviləsinin imzalanmasından sonra Berlindəki Osmanlı səfiri Mehmed Rıfat paşa Almaniyanın xarici işlər naziri P.Hintze ilə görüşərək bu məsələ ilə bağlı öz etirazını bildirdi. Hintze Türkiyəni öz üzərinə götürdüyü müqavilə öhdəliklərinə əməl etməməkdə günahlandırdıqda, Rıfat paşa Al-

[573] İkdam, 2 Eylül 1334, no. 7745; Yeni Gün, 28 Eylül 1334, no. 24

[574] İkdam, 2 Eylül 1334, no. 7745.

maniyanın faktiki mövcud vəziyyətlə barışmasının vacib olduğunu bildirdi. Rıfat paşanın Almaniyanın 27 avqust müqaviləsini təsdiq etməmək tələbi isə Hintze tərəfindən nəzakətlə rədd edildi.[575]

27 avqust müqaviləsi Osmanlı-Almaniya münasibətlərini kritik bir həddə gətirsə də, bu müqaviləni imzalayan tərəflərin öz üzərinə götürdüyü öhdəlikləri yerinə yetirməsi mümkün deyildi və burada bir sıra ziddiyyətlər var idi. Rusiya Bakıda çıxarılan neftin dörddə birini Almaniyaya verməyi vəd edirdi. Halbuki 31 iyul 1918-ci il tarixindən etibarən Bakı Sovet Rusiyasının nəzarətindən çıxmışdı və Rusiyanın özü belə Bakıdan neft ala bilmirdi. Bu da o demək idi ki, Rusiya artıq özünün sahib olmadığı Bakı neftindən Almaniyaya pay verməyi öhdəsinə götürmüşdü. Alman tarixçisi V.Baumgart yazır ki, Almaniya Xarici İşlər Nazirliyi "rusların özlərinin belə Bakıdan neft ala bilmədiyi" haqda xəbəri bu müqavilənin imzalanmasından sonra, avqustun 30-da Rusiya hökumətinin yayımladığı radioqramdan və sentyabrın əvvəllərindən Petroqrad mətbuatında bu haqda gedən yazılardan öyrənə bilmişdi.[576] Qeyd edək ki, Baumgartın bu iddiası həqiqətə uyğun deyil. Çünki ingilislərin Bakıda olması haqqında məlumatlar 27 avqust müqaviləsinin imzalanmasından xeyli əvvəl alman rəsmi dairələrinə məlum idi və P.Hintze avqustun 20-də A.İoffe ilə apardığı müzakirələrdə ingilislərin türk-alman birgə orduları tərəfindən Bakıdan çıxarılmasına Rusiyanın razılığını almağa çalışmışdı.[577] Belə olan təqdirdə, Almaniya rəsmi dairələrinin ingilis nəzarətində olan Bakıdan Sovet Rusiyasının hələ də neft almaqda davam etdiyinə sadəlövhcəsinə inanması gərəkir ki, bu da öz növbəsində obyektiv gerçəkliyə uyğun deyildir. Yenə bu müqaviləyə görə, almanlar ingilisləri Bakıdan çıxardıb şəhəri bolşevik idarəçiliyinə verməyi öz öhdələrinə götürmüşdülər. Almaniyanın Gürcüstandakı hərbi missiyasının rəhbəri general Kress isə 2 sentyabr 1918-ci il tarixində Tiflisdən Berlinə göndərdiyi raportunda yazırdı ki, rusların israrla tələb etdikləri "türk hərbi qüvvələrinin iştirakı olmadan Bakının

[575] Zürrer W. Kaukasien 1918-1921, p. 114.
[576] Baumgart W. Deutsche Ostpolitik 1918, p. 203.
[577] Bihl W. Die Kaukasus Politik der Mittelmächte. T. II, p. 105.

alınması" bölgədə hökm sürən mövcud vəziyyətə görə qeyri-mümkündür. Sentyabrın əvvəllərindən etibarən alman rəsmi dairələri belə bir qənaətə gəldilər ki, Sovet Rusiyasının Bakıda cərəyan edən hadisələrə təsir etmək imkanları sıfıra bərabərdir. Ona görə də Almaniya artıq sentyabrın əvvəllərindən başlayaraq Bakıda olan maraqlarını Sovet Rusiyası vasitəsilə deyil, yenidən Osmanlı imperiyası vasitəsilə təmin etmək qərarına gəldi. İndi Almaniya Baş qərargahı Bakının azad olunmasına öz "töhfəsini" vermək istəyirdi. General Hindenburq Bakının ingilislərdən azad edilməsində iştirak etmək üçün iki alman briqadasının Cənubi Qafqaza göndərilməsi barədə Osmanlı hökumətinə məlumat verdi.[578] Eyni zamanda general Lüdendorf da sentyabrın 13-də general Kressə əmr verdi ki, Bakı üzərinə hücuma hazırlaşmaq və bu barədə raport vermək lazımdır.[579] Almaniya baş komandanlığı "Bakının alınması" əməliyyatını sentyabrın ikinci yarısı – oktyabrın əvvəllərinə planlaşdırmışdı və bu əməliyyatla Bakıya sahib olmaqla yanaşı, Xəzər dənizinə nəzarəti də öz əlinə almağı nəzərdə tutmuşdu.[580]

Bu arada Ənvər paşa bir tərəfdən Qafqaz İslam Ordusu tərəfindən Bakının alınmasına Almaniyanın dəstəyini təmin etməyə çalışır, digər tərəfdən də Xəlil və Nuru paşalara gizli təlimatlar göndərərək, əldə olan bütün vasitələrdən istifadə edib Gürcüstanda olan general Kressin komandanlığındakı alman qoşunlarının Bakı istiqamətində irəliləməsinin qarşısını almağı və bununla da almanların "Bakı əməliyyatı"nda iştirakına yol verməməyi təkidlə tələb edirdi. Məlum olduğu kimi, Bakıda ingilislərin elə bir böyük qüvvəsi yox idi, Türkiyə və Azərbaycan hərbi hissələrindən ibarət Qafqaz İslam Ordusu bu işin öhdəsindən gələ bilərdi. Alman hərbi hissələrinin müdaxiləsi isə yeni bir ağır vəziyyət yarada bilərdi. Sentrokaspiçilərdən və ingilislərdən təmizlənən Bakı neft mədən-

578 Həsənov C. Azərbaycan beynəlxalq münasibətlər sistemində, s. 124.
579 Baumgart W. Deutsche Ostpolitik 1918, p. 204.
580 Yenə orada. s. 204.

ləri Almaniyanın nəzarəti altına düşə bilərdi. Ona görə də türklər bu köməkdən imtina etdilər.[581]

Sentyabrın 10-da Bakının azad edilməsinə rəhbərliyi bilavasitə öz üzərinə götürən Nuru paşa sentyabrın 13-də Bakı üzərinə həlledici hücuma başlamaq barədə döyüş əmrini imzaladı. Bakıdakı Sentrokaspi ordusuna general Dokuçayev, ingilis qoşunlarına isə polkovnik Keyvort rəhbərlik edirdi. Müdafiə işlərinə ümumi nəzarət isə Sentrokaspi diktaturasının hərbi naziri Baqratuni ilə ingilis generalı Denstervil tərəfindən həyata keçirilirdi.[582] Sentyabrın 13-dən 14-nə keçən gecə saat 4-də Bakını azad etmək üçün son həlledici hücum başlandı. Səhər saat 9-da guya Biçeraxovun iki paraxod ordu göndərməsi haqqında yayılan şayiələr sentrokaspiçilərdə şəhəri müdafiə etmək üçün müəyyən ümid yaratsa da, az sonra məlum oldu ki, bu gəmilər Bakıdan daşıdığı adamları boşaldıb, yenidən qayıdırlar.

Hava bərk küləkli olduğu üçün, ingilislərə və diktaturaya məxsus təyyarələr heç olmasa psixoloji təsir yaratmaq üçün belə havaya qalxa bilmədi. General Denstervil təcili olaraq öz əsgərlərini səngərdən çıxartdı və limana gətirdi. Densterwildən acıqlı olan Sentrokaspi diktaturasının rəhbərləri Bakı dəniz artilleriyası tərəfindən onun gəmilərinə atəş açılacağı ilə hədələsələr də, artıq gec idi. Axşam saat 11-də ingilislər 70 zabit və 800 əsgərlə Bakını tərk edib Ənzəliyə yola düşdülər. Bakı döyüşlərində onlar 180 nəfər əsgər və zabit itirdilər.[583] Bu uğursuzluğa görə general Denstervil London tərəfindən vəzifədən uzaqlaşdırıldı, ordusu isə buraxıldı.

Sentyabrın 15-də cəbhədən qaçan diktatura ordusunun bir hissəsi "hərbi nazir" Baqratuni başda olmaqla Ənzəliyə yola düşdü. Elə həmin gün Azərbaycan ordusu Bakıya daxil oldu. Beləliklə,

---

[581] Həsənli C. Azərbaycan Xalq Cümhuriyyətinin Xarici Siyasəti. s. 158; Swietochowski T. Müslüman Cemaatten Ulusal Kimliğe Rus Azerbaycanı, s. 187.

[582] Süleymanov M. Qafqaz İslam Ordusu və Azərbaycan, s. 337-338.

[583] Yusifzadə S. Birinci dünya müharibəsinin sonunda ingilis işğalı və Bakının azad edilməsi, s. 120-121.

1918-ci il sentyabrın 15-də Bakı azad edildi və Azərbaycan hökuməti öz təbii paytaxtına yiyələndi. Beynəlxalq müstəvidə baxıldıqda isə, Türkiyə, Rusiya, Almaniya və İngiltərə arasında neft Bakısı uğrunda gedən gərgin və kompromissiz mübarizə Türkiyənin qələbəsi ilə başa çatdı.

Hələ Qafqaz İslam Ordusunun hücumu gedişində Denstervil Qafqazdakı fransız hərbi missiyasının bu vaxt Bakıda olan nümayəndəsi Şardinyi ilə türklərin əlinə keçməzdən əvvəl şəhərin neft mədənlərinin məhv edilməsini təşkil etmək fikrində idilər və bu barədə müzakirələr aparmışdılar.[584] Bakını tərk edən zaman sentrokaspiçilər də Bakı neft mədənlərini dağıtmaq barədə Mesopotamiyadakı ingilis ordusunun komandanı general Marşaldan əmr almışdılar. Lakin onlar elə sürətlə Bakını tərk etməli oldular ki, bu əmri icra etməyə vaxt qalmadı.[585]

Sentyabrın 17-də Azərbaycan hökuməti, bir gün sonra isə şəhərin ətrafında dayanmış türk qoşunları Bakıya daxil oldu. T.Svyatoçovski Osmanlı qoşunlarının Bakı küçələri ilə zəfər yürüşünü "Turan yolundakı ümidlərin zirvə nöqtəsi" adlandırırdı.[586] Bakının azad edilməsindən sonra Qafqaz İslam Ordusunun qarşısında duran əsas vəzifə Qarabağdakı erməni quldur dəstələrini tərksilah edib Azərbaycanla Osmanlı imperiyası arasında birbaşa əlaqə yaratmaq və həmçinin "Dağıstan əməliyyatı"nı həyata keçirmək oldu.

Bakının qurtuluşu ilə bağlı M.Ə.Rəsulzadə yazırdı: "Altı ay tamam xuni-cigər yeyən əhvali-islamiyyəsinin üzü gülüyor. Qurban bayramı kimi məsud bir gündə Bakı təkrar kəndi sahiblərinin əlinə keçiyor... Qafası məşhur Kiyotin məngənəsində bulunan bir adamın xilası nasıl bir həyati-novin isə, Bakının istirdadı dəxi o nisbətdə ecazkar bir vəqiə idi".[587]

---

[584] Денстервиль Л. Британский империализм в Баку и Персии, с. 228-229.
[585] Həsənli C. Azərbaycan Xalq Cümhuriyyətinin Xarici Siyasəti, s. 162.
[586] Swietochowski T. Müslüman Cemaatten Ulusal Kimliğe Rus Azerbaycanı, s. 188.
[587] Rəsulzadə M.Ə. Azərbaycan Cümhuriyyəti, s. 42-43.

Bakının azad edilməsi ilə bağlı təşkil olunan izdihamlı mitinqdə baş nazir F.X.Xoyski baş vermiş hadisələri qiymətləndirərək deyirdi: "Bizim də yaşamaq, azad yaşamaq haqqımız var. Nə zirehli maşın, hidroplan, kanonerka, tikanlı məftil, mina və texniki qurğular, nə ingilislər və onların əlaltıları, nə də ümumiyyətlə, hər hansı bir qüvvə tarixin təbii gedişini dayandıra bilmədi, onların 50 minlik orduya və texnikaya malik olmasına baxmayaraq, kiçik qüvvənin həmləsinə tab gətirməyərək Bakını tərk etmələri öz rifahı və səadətini başqasının fəlakəti və bədbəxtliyi üzərində qurmağa çalışanlar üçün ibrət dərsi olmalıdır".[588]

Bakının azad edilməsi eyni zamanda Osmanlı siyasi dairələrinin, xüsusilə də Ənvər paşanın böyük sevincinə səbəb oldu. Ənvər paşa bu münasibətlə Xəlil paşaya, surətini isə Nuru paşaya göndərdiyi teleqramında yazırdı: "Böyük Turan imperatorluğunun Xəzər sahilindəki zəngin bir qonaq yeri olan Bakı şəhərinin zəbti xəbərini böyük bir sevinc və xoşbəxtlik hissi ilə qarşılayıram. Türk və İslam tarixi sizin bu xidmətinizi unutmayacaqdır. Qazilərimizin gözündən öpər, şəhidlərimizə fatihələr ithaf edərim".[589]

Birinci dünya müharibəsi illərində Türkiyə iqtisadiyyatı ağır vəziyyətdə idi. Onun neft və neft məhsullarına böyük ehtiyacı olduğu üçün Türkiyə hökuməti Bakı neft mədənlərinə çox böyük maraq göstərirdi. Bakı azad edildikdən sonra buradakı türk qoşunları komandanlığının ilk sərəncamlarından biri onun bütün mədən işçilərinin dərhal işə çıxması haqqında əmri oldu. İstanbul hökumətinin maliyyə müşaviri Həmid bəy M.Ə.Rəsulzadə ilə söhbətində mədənlərin satılması və icarəyə verilməsinə qadağa qoyan və əvvəllər baş vermiş bu cür sövdələşmələri qüvvədən düşmüş elan edən qanun qəbul olunmasını təklif etdi.[590]

Türk hərbi komandanlığı tərəfindən neft məhsullarının daşınması üçün Bakı-Batum ağ neft kəmərinin təmiri üçün təcili tədbir-

---

[588] Азербайджан. 19 сентября 1918.
[589] Yüceer N. Birinci Dünya Savaşı'nda Osmanlı Ordusu'nun Azerbaycan ve Dağıstan Harekatı, s. 127-128.
[590] Azərbaycan tarixi. 7 cilddə. V c., s. 335.

lər görülürdü. Eyni zamanda, Bakıdan Batuma Türkiyə və Almaniya üçün hər gün ən azı 23 sistern neft daşınırdı.[591]

Azərbaycandan neft gətirilməsi Türkiyə iqtisadiyyatının vəziyyətini bir qədər yüngülləşdirməyə kömək etdi. Türk tarixçisi Əhməd Rəfiqin qeyd etdiyi kimi, o günlər neftlə doldurulmuş gəmilər bir-birinin ardınca Batumdan İstanbula yola düşürdü. Bakıdan yetərincə neft və ağ neft gətirilməsi nəticəsində İstanbulda onların qiyməti 10 dəfə azaldı.[592]

Beləliklə, Osmanlı imperiyası ilə Rusiya arasında neft Bakısına və bütövlükdə Azərbaycana sahib olmaq uğrunda gedən gərgin mübarizə Türkiyənin qələbəsi ilə başa çatdı. Bakı uğrunda mübarizədə özünəməxsus çəkisi olan Almaniya və İngiltərə mövcud şərtlər daxilində Türkiyənin bu uğuru ilə barışmalı oldular. Sovet hökuməti isə Rusiya iqtisadiyyatı üçün həyat mənbəyi saydığı neft Bakısının itirilməsi faktı ilə heç cür barışa bilmədi. Rusiyanın Berlindəki səfiri A.İoffe türk qoşunları Bakıya girdikdən dərhal sonra Almaniya hökumətinə nota təqdim edərək, buna öz etirazını və 27 avqust tarixli alman-rus müqaviləsinin pozulduğunu bildirdi.[593] Bu arada Osmanlı sədrəzəmi Tələt paşa da "Bakı məsələsi" ilə bağlı Almaniya ilə Türkiyə arasında yaranmış gərginliyə aydınlıq gətirmək üçün Berlinə gəlmişdi. Artıq indi "Bakı" və bütövlükdə "Azərbaycan məsələsi" bir qədər kənarda, Berlində aparılan türk-alman-rus danışıqlarında öz həllini tapmalı idi.

---

[591] Maksvell N. Azərbaycan Demokratik hökumətinin siyasətində neft məsələsi, s. 40.

[592] Azərbaycan tarixi, 7 cilddə. V c., s. 335.

[593] Bihl W. Die Kaukasus Politik der Mittelmächte. T. II, p. 122.

## § 4. Berlin danışıqlarında Azərbaycan məsələsi

Osmanlı imperiyasının Almaniyanın etirazlarına baxmayaraq, Cənubi Qafqazda həyata keçirdiyi fəal hərbi əməliyyatları və "Bakı məsələsi"ndə israrlı mövqeyi, buna cavab olaraq Almaniyanın Sovet Rusiyası ilə separat danışıqlara gedib 27 avqust 1918-ci il tarixli gizli alman-rus əlavə müqaviləsini imzalaması, həmçinin Türkiyənin müharibənin əvvəllərində Bolqarıstana güzəştə getməyə məcbur olduğu Gümülcünə bölgəsini geri qaytarmaq istəyi ilə bağlı yaranan türk-alman anlaşılmazlığı bütövlükdə Almaniya-Osmanlı münasibətlərində böyük bir gərginlik yaratmışdı. Osmanlı hökuməti yaranmış gərginliklə bağlı danışıqlar aparmaq üçün sədrəzəm Mehmed Tələt paşanın sentyabrın 3-də Berlinə getməsi haqqında qərar qəbul etdi. 1918-ci il sentyabrın 5-də Dördlər İttifaqı ölkələri nümayəndələrinin Vyanada keçirilən konfransında iştirak edən Tələt paşa səhərisi gün buradan Berlinə gəldi və dərhal alman rəsmiləri ilə danışıqlara başladı.

Sentyabrın 7-də Almaniya kansleri Georq von Hertlinq və xarici işlər naziri Paul von Hintze ilə görüşən Tələt paşa Almaniyanı Türkiyəni xəbərdar etmədən Rusiya ilə Qafqaz barəsində gizli müqavilə bağlamaqda ittiham etdi. Buna cavab olaraq Hintze də Türkiyəni "Bakıya hücum etməyəcəyi ilə bağlı Almaniyaya verdiyi vədi" pozmaqda günahlandırdı.[594] Bu minvalla Berlin danışıqları ilk əvvəl qarşılıqlı ittihamlarla başladı.

Berlin danışıqlarında Osmanlı hökuməti üçün xüsusi əhəmiyyət daşıyan iki məsələ var idi. 1. Azərbaycan və bütövlükdə Qafqazla bağlı yaranan türk-alman ziddiyyətlərinin aradan qaldırılması və bölgədəki vəziyyətin nizamlanması; 2. Gümülcünə bölgəsinin geri qaytarılması. Vaxtilə Bolqarıstanın müharibəyə qatılması üçün Almaniyanın israrı nəticəsində Osmanlı hökuməti əhalisinin bir hissəsi türklərdən ibarət olan Meriç çayının cənubundakı Gümülcünə bölgəsini Bolqarıstana güzəştə getməyə məcbur olmuş-

[594] BOA. HR.SYS. no. 2374/1. v. 9.

du. Rumıniyanın məğlubiyyəti nəticəsində bağlanmış sülh müqaviləsinə görə, Dobrucanın Bolqarıstana verilməsi ilə əlaqədar İstanbul hökuməti Gümülcünəni geri qaytarmağa çalışırdı. Bolqarların isə buna müsbət yanaşmaması ixtilaf yaratmışdı. Gümülcünənin geri qaytarılması məsələsi Osmanlı imperiyasında bir hökumət böhranı doğuracaq mahiyyətdə idi. Bu məsələ hətta hökumətdə qarşıdurma vəziyyəti yaratmış və Tələt paşa ilə Ənvər paşanın istefası tələbləri səslənməyə başlamışdı. Buna görə də Tələt paşa Gümülcünə məsələsində almanların dəstəyini almaq və onların vasitəsilə Bolqarıstana təsir göstərmək istəyirdi. Bununla yanaşı, Gümülcünə bölgəsinin geri qaytarılması məsələsinin Osmanlı hökuməti üçün nə dərəcədə böyük əhəmiyyət kəsb etməsinə baxmayaraq, Tələt paşa Osmanlı imperiyasının Qafqaz və Türküstan siyasətinin Almaniya tərəfindən dəstəklənəcəyi təqdirdə, İstanbul hökumətinin Bolqarıstana torpaq güzəştə getməyə hazır olduğunu bildirdi. Almaniyanın xarici işlər naziri Hintze isə bildirdi ki, Türkiyə Bolqarıstana güzəştə getdiyi ərazilərin müqabilində almanların dəstəyi ilə artıq Qars, Ərdəhan və Batumu əldə etmişdir.[595]

Sentyabrın 10-da Tələt paşa Osmanlı imperiyasının Qafqaz siyasəti ilə bağlı Almaniya Xarici İşlər Nazirliyinə bir memorandum təqdim etdi. Memorandumda aşağıdakı maddələr yer almışdı: 1. Brest-Litovsk müqaviləsindən sonra rus qoşunları işğal etdikləri ərazilərdən və Qars, Ərdəhan və Batum vilayətlərindən tamamilə çıxarılmışdır; 2. Rus qoşunlarının çıxarılmasından sonra bu vilayətlərdə rus silahları ilə təchiz olunmuş erməni quldur dəstələri qalmışdılar. Osmanlı hökuməti Cənubi Qafqazda azərbaycanlılar, gürcülər və ermənilərdən ibarət bir federal respublikanın mövcudluğunu təsbit etmişdir; 3. Osmanlı imperiyası işğal altındakı vilayətlərini erməni quldur dəstələrindən təmizləmək yolu ilə geri almağa məcbur olmuş və Cənubi Qafqaz Respublikasına Rusiya ilə müharibə vəziyyətinə son qoyulduğunu və Brest-Litovsk müqaviləsi ilə Qars, Ərdəhan və Batumun Türkiyəyə verildiyini bildirsə də, respublikanın bunu rədd etməsi ilə əlaqədar türk qoşunları bu

---

[595] Zürrer W. Kaukasien 1918-1921. p. 119.

üç vilayəti silah gücünə əldə etmək məcburiyyətində qalmışdır; 4. Hərbi əməliyyatlarla paralel gedən Batum danışıqları əsnasında Cənubi Qafqaz ilə Türkiyə arasındakı sərhəd xətti bəzi yerlərdə dəyişikliyə uğramış və bu barədə Almaniya baş komandanlığının razılığı alınmışdır; 5. Osmanlı imperiyası nə Azərbaycanda, nə Şimali Qafqazda, nə də Cənubi Qafqazın hər hansı bir yerində ərazi ilhaq etmək arzusunda deyildir və Türkiyə ilə Cənubi Qafqazın hər üç respublikası arasında ərazi-sərhəd məsələləri artıq həll edilmişdir; 6. Rusiyanın Osmanlı imperiyasına qarşı daimi düşmən fəaliyyəti və Türkiyənin tərəqqi yoluna girməsini əngəlləmək üçün hər cür vasitələrdən istifadə etdiyi nəzərə alınarsa, İstanbul hökuməti Qafqazda qüvvətli və müstəqil bir dövlətin qurulmasını özü üçün həyati bir məsələ hesab edir; 7. Osmanlı imperiyası belə hesab edir ki, bu amacın gerçəkləşməsi üçün Şimali və Cənubi Qafqaz müsəlmanlarının vahid bir dövlət halında birləşmələri vacibdir; 8. Bakı məsələsinə gəlincə: Bu əyalətin əhalisinin 85 faizi müsəlmandır və Bakı coğrafi cəhətdən yerləşməsi etibarilə Azərbaycan dövlətindən başqasına aid ola bilməz; 9. Digər tərəfdən Bakısız güclü həyat qabiliyyətli, qüvvətli bir Azərbaycan dövlətinin qurulması da mümkün deyildir.[596]

Tələt paşa bunları bildirdikdən sonra alman hökumətindən aşağıdakı maddələrin qəbul və təsdiq edilməsini istədi: 1. Bakını da öz tərkibinə alan Azərbaycan Respublikası ilə Gürcüstan və Ermənistan respublikalarının müstəqil dövlətlər kimi Almaniya tərəfindən tanınması; 2. Sərhədləri ayrıca təsbit ediləcək Şimali Qafqaz Respublikasının müstəqil bir dövlət kimi Almaniya tərəfindən tanınması; 3. Türkiyə bu müharibə dövründə müttəfiqlərinə mühüm xidmətlər göstərmiş və bunu etməkdə davam edəcəkdir. Bir çox düşmən qüvvələrini öz üzərinə çəkməklə, Türkiyə malik olduğu insan qaynaqlarının hamısından faydalanmışdır və hazırda bu ehtiyatın tükənməkdə olduğunu qətiyyətlə müşahidə etməkdədir. Bu səbəbdən istər Türkiyənin, istərsə də müttəfiqlərin mənafeyi naminə Qafqazdakı və Türküstandakı geniş insan kütləsindən isti-

[596] BOA. HR.SYS. no. 2374/1. v. 12-13.

fadə etmək nəzərdə tutulmuşdur. İstanbul hökuməti Türküstanın siyasi və hərbi baxımdan təşkilatlandırılması işində Almaniya hökumətinin geniş və məhsuldar yardımını istəyir və türk hö-kumətinin bu ölkədə yuxarıda qeyd edilən məqsədlərinin həyata keçirilməsi yolunda ona tam sərbəstlik verilməsini arzu edir. Türküstanda təşkil ediləcək qüvvələrdən (Tələt paşaya görə, Türküstandakı 14 milyon müsəlman əhalisini təşkilatlandırmaq nəzərdə tutulmuşdu) Hindistan istiqamətində istifadə etməklə İngiltərə üçün ciddi təhlükə yaratmaq mümkün olacaqdır.[597]

Tələt paşa Türküstanı hədəf göstərməklə "Türkiyənin əsas hədəfinin Bakı olmadığı" görüntüsünü yaratmaq istəyirdi. Lakin Almaniya hökuməti ilk öncə Tələt paşanın önə sürdüyü istəklərdən heç birini məqbul saymadı və hətta Sovet Rusiyasının Berlindəki səfiri A.İoffenin türk memorandumu ilə bağlı fikirlərini öyrənmək yolunu tutdu. Almaniya Xarici İşlər Nazirliyində rəis, imperatorun gizli müşaviri İ.Kriege sentyabrın 11-də A.İoffe ilə görüşərək bu barədə sovet tərəfinin fikrini öyrənmək məqsədi ilə türk memorandumunu ona təqdim etdi. A.İoffe bu memoranduma öz münasibətini bildirərək qeyd etdi ki, "Cənubi Qafqaz Respublikası" adlanan dövlət nə Sovet Rusiyası, nə də başqa bir dövlət tərəfindən tanınmamışdır və bu bölgə əvvəllər olduğu kimi, indi də Rusiyanın ərazisi hesab edilməkdədir. Türkiyənin Cənubi Qafqazdakı hökumətlərlə imzaladığı müqavilələri Sovet Rusiyası tanımır. Bununla yanaşı, sovet hökuməti Türkiyə ilə Rusiya arasında bir Qafqaz dövlətinin yaradılmasını məmnuniyyətlə qəbul edir, amma belə bir dövlətin yaradılması üçün Şimali və Cənubi Qafqaz müsəlmanlarının bir araya gətirilərək vahid dövlət halında birləşməsini rədd edir və burada müstəqil gürcü, erməni və Azərbaycan dövlətlərindən ibarət bufer dövlətlərin yaradılmasını daha məqbul hesab edir.[598]

Qeyd edək ki, A.İoffenin mülahizələrində bir çox ziddiyyətlər mövcud idi. Əgər sovet hökuməti Türkiyə ilə Rusiya arasında gürcü, erməni və Azərbaycan dövlətlərindən ibarət bufer dövlətlərin

[597] BOA, HR.SYS, no. 2374/1, v. 13-14.
[598] Kurat A.N. Türkiye ve Rusya. s. 521-522.

yaradılmasını həqiqətən də məqbul hesab edirdisə, faktiki olaraq bu dövlətlər artıq mövcud idi və sovet tərəfinin də mövcud reallıqla barışması lazım gəlirdi. Amma Sovet Rusiyası iddia edirdi ki, "xalqların öz müqəddəratını təyin etmək" hüququ yalnız sovet hökuməti ilə həmin xalqlar arasında razılığa əsasən həll oluna bilər və bu məsələdə hər hansı bir kənardan müdaxilə yolverilməzdir. Əslində bu məsələ İ.V.Stalinin bəyan etdiyi kimi, ancaq "xalqın sosializmi seçməsi" şərti ilə həyata keçirilə bilərdi və bu halda da Cənubi Qafqaz respublikalarının yalnız formal müstəqilliyindən söhbət gedə bilərdi, necə ki, bir qədər sonra biz bunun şahidi olacağıq.

Almaniya hökuməti Tələt paşanın memorandumuna sovet tərəfinin münasibətini öyrəndikdən sonra sentyabrın 12-də sədrəzəmə cavab verdi. Bu cavabdan anlaşıldığına görə, Almaniya ancaq Sovet Rusiyasının qəbul etdiyi əsasları dəstəkləyəcəkdi. Berlin hökuməti bildirirdi ki, Azərbaycan və Ermənistanın tanınmasına əsas verəcək heç bir beynəlxalq hüquq normaları olmadığından, Almaniya bunları tanıyacaq durumda deyildir. Sovet hökumətinin bəyan etdiyi "xalqların öz müqəddəratını təyin etmək və hətta ayrılmaq" hüququ yalnız sovet hökuməti ilə bu millətlər arasında qarşılıqlı razılaşma yolu ilə həll edilə bilər və hər hansı bir dövlət buna qarışa bilməz. Bu prinsipə Dördlər İttifaqı tərəfindən indiyə qədər riayət edilmişdir. Bunu əsas götürən Almaniya hökuməti Azərbaycan, Ermənistan və Şimali Qafqazın müstəqil dövlət kimi tanınmasının qeyri-mümkünlüyünü bildirirdi. Bir sözlə, Almaniya Rusiyanın razılığı olmadan Azərbaycanın müstəqilliyini tanımaq istəmirdi. Bununla belə, Almaniya hökuməti bildirirdi ki, əgər bu məsələdə beynəlxalq hüquq normalarının tətbiqini mümkün edəcək şərtlər yaranarsa, onda Almaniya Bakı şəhərinin də daxil olduğu Azərbaycan Respublikasının müstəqilliyini tanımağa hər an hazır olacaqdır. Bunun üçün isə hər şeydən əvvəl türk qoşunlarının 27 avqust tarixli alman-rus əlavə müqaviləsində təsbit edilən demarkasiya xəttinin gerisinə çəkilməsi şərt kimi irəli sürü-

lürdü.[599] Almanlar Türkiyənin tələblərindən yalnız birini – Türküstanda İngiltərəyə qarşı cəbhə açmağı məmnunluqla qarşıladılar və bu məsələdə birlikdə hərəkət etməyi və yardım göstərməyi vəd etdilər. Bütövlükdə Almaniyanın mövqeyi Türkiyəni qətiyyən qane etmirdi. Lakin Türkiyə bu zaman Almaniyaya təsir etmək iqtidarında deyildi. Bununla belə, Tələt paşa alman rəsmiləri ilə müzakirələri davam etdirirdi.

Berlində gərgin müzakirələrin getdiyi bu arada Tələt paşa İstanbuldan sevindirici bir teleqram aldı. Teleqramda deyilirdi: "Allahın yardımı ilə Bakı şəhəri 30 saatlıq şiddətli müharibədən sonra 15.09.1334 (1918) tarixində saat doqquz radələrində zəbt edilmişdir..."[600] Qafqaz İslam Ordusu tərəfindən Bakının alınması faktı alman rəsmilərinin türklərə qarşı sərt mövqeyinin yumşalmasına səbəb oldu. Sentyabrın 18-də Tələt paşa alman rəsmilərinə yeni anlaşma mətni təqdim etdi. Tələt paşa burada Türkiyənin artıq Qafqazda nail olduğu faktiki üstünlüyünü qoruyub saxlamağa çalışır və bunun üçün Almaniyaya bir sıra iqtisadi güzəştlər (məsələn: Rusiya 27 avqust müqaviləsi ilə Bakıda çıxarılan neftin dörddə bir hissəsini Almaniyaya vəd etdiyi halda, Türkiyə bölgədəki bütün yeraltı sərvətlərin heç bir tərəfin üstünlüyü olmadan, bərabər şəkildə Türkiyə ilə Almaniya arasında bölüşdürüləcəyini təklif edirdi və s.) etməklə onun vasitəsilə Qafqaz respublikalarının müstəqilliyinin Rusiya tərəfindən tanınmasına nail olmaq istəyirdi. Bakının türklər tərəfindən alınması Sovet Rusiyası tərəfindən sərt bir şəkildə böyük etirazla qarşılandı. Berlindəki rus səfiri A.İoffe 27 avqust tarixli alman-rus əlavə müqaviləsinin artıq qüvvədən düşdüyünü bəyan etdi. Bununla paralel olaraq sovet hökuməti Osmanlı imperiyası ilə Rusiya arasında imzalanan Brest-Litovsk müqaviləsini qəbul etməyəcəyini bildirirdi. Bütün bunlar qarşısında Almaniya hökuməti yeganə çıxış yolunu Türkiyə ilə uzlaşmaqda gördü.

Tələt paşanın alman rəsmiləri ilə apardığı gərgin müzakirələrin nəticəsi olaraq, 1918-ci il sentyabrın 23-də Osmanlı və Alma-

---

[599] BOA, HR.SYS, no. 2397/6, v. 31, s. 1-4.

[600] Aydemir Ş.S. Makedonya'dan Ortaasya'ya Enver Paşa. s. 425.

niya hökumətləri arasında 7 maddədən ibarət gizli "Osmanlı-Alman protokolu" imzalandı.[601] Sənədi Türkiyə tərəfindən sədrəzəm Tələt paşa, Almaniya tərəfindən isə xarici işlər naziri Paul von Hintze imzaladı. Tərkibində Cənubi Qafqazdan başqa Şimali Qafqaz, Türküstan və İrana aid maddələrin də olduğu "Osmanlı-Alman protokolu"nun əsas obyekti Azərbaycan idi. Bu protokola görə:

1. Osmanlı hökuməti Qafqaz Azərbaycanı, Gürcüstan və Ermənistan respublikalarını indidən müstəqil bir dövlət kimi tanımaq arzusunda olduğunu bəyan edirdi. Almaniya hökuməti isə yalnız Gürcüstanı tanımağa hazır olduğunu bildirir və bu qərarını Azərbaycan və Ermənistana konsullar göndərərək oralarda faktiki olaraq mövcud olan hökumətlərlə münasibət qurmadan öncə icra etməyəcəyini bəyan edirdi.

Qafqaz respublikalarının Osmanlı hökuməti tərəfindən tanınmasından dolayı Türkiyə ilə Rusiya arasında yaranan gərginliyi aradan qaldırmaq və bu iki ölkə arasında münasibətləri normallaşdırmaq üçün Almaniya hökuməti əlindən gələn hər şeyi etməyi öz üzərinə götürürdü.

Osmanlı hökuməti Azərbaycan və Ermənistandakı əsgəri birliklərini geri çəkməyi təəhhüd edirdi. Bunun qarşılığında Almaniya hökuməti Azərbaycan və Ermənistan respublikalarının Rusiya tərəfindən tanınması üçün səy göstərməli idi.

2. Osmanlı hökuməti Şimali Qafqaz və Türküstanda müstəqil dövlətlərin təşkilinə çalışmaq, bu dövlətlər ilə ittifaq qurmaq və bu dövlətlərin əsgəri potensialını təşkil edib müttəfiqlərin mənafeyi naminə istifadə etmək niyyətində olduğunu bildirirdi. Almaniya hökuməti Osmanlı hökumətinin bu təşəbbüsünə yardım edə bilməyəcəyini təəssüf hissi ilə qeyd etməklə bərabər bu məsələdə etiraz və müxalif mövqe də göstərməyəcəyini öz üzərinə götürürdü.

3. Osmanlı hökuməti ilə Almaniya hökuməti müharibə davam etdiyi müddətdə müttəfiqlərin Qafqaz məmləkətlərinin bütün iqtisadi mənbələrindən bərabər şəkildə istifadə edəcəkləri ilə bağlı ra-

[601] BOA. HR.SYS. no. 2303/14, v. 1, s. 1-2.

zılığa gəlirdilər və bunun təmin edilməsi üçün hər iki dövlət müxtəlif Qafqaz hökumətləri nəzdində nüfuz edəcəkdi. Osmanlı hökuməti müharibə davam etdiyi müddətdə xüsusi hüquqlar qorunmaq şərti ilə Bakı neft yataqlarının, neft sənayesinin, Tiflis-Bakı dəmir yolunun və Bakı-Batum neft kəmərinin idarəsinin Almaniya hökumətinə verilməsi üçün Azərbaycan Respublikasına təsir etməyi və öz ərazisində olan qisimlər (Bakı neftinin daşınması ilə bağlı kommunikasiya vasitələri nəzərdə tutulur) üçün də əlindən gələn hər şeyi icra etməyi təəhhüd edirdi. Almaniya hökuməti də öz üzərinə götürürdü ki, o, Bakıda mənafeyi olan ölkələr arasında qərarlaşdırılacaq bir ədalətli nisbət dairəsində digər iki müttəfiqi ilə bərabər Osmanlı hökumətinin, həmçinin Rusiya və digər Qafqaz hökumətlərinin də Bakıda istehsal olunacaq neftdən istifadəsini təmin edəcəkdir.

4. Almaniya hökuməti Krım və bütün Rusiya müsəlmanlarının milli, dini və mədəni haqlarının mühafizəsinin Osmanlı hökuməti üçün xüsusi əhəmiyyət kəsb etdiyini təsdiq edirdi. Həmçinin, Krım yarımadasının gələcək siyasi quruluşuna xələl gətirmədən, Almaniya hökuməti əlindən gəldiyi qədər bu məmləkətdə mövcud olan hazırkı vəziyyətin (müsəlman bir baş nazir ilə qarışıq bir kabinə) mühafizə edilməsi xüsusunda Osmanlı hökuməti ilə həmfikir olduğunu bəyan edirdi.

5. Almaniya hökuməti Qara dənizdəki rus donanması məsələsinin Osmanlı hökuməti üçün xüsusi əhəmiyyət daşıdığını qəbul edirdi. Bu məsələnin qəti həlli zamanı Almaniya hökuməti bütün vasitələrlə Osmanlı donanmasının gücləndirilməsinə çalışacağını təəhhüd edirdi.

6. Osmanlı hökuməti Azərbaycan ərazisində yaşayan alman kolonistlərinə keçmiş rus imperiyasının digər ərazilərində onlara veriləcək hüquqların eynisini təmin etmək üçün Azərbaycan hökuməti nəzdində bütün güc və iqtidarını sərf etməyi öz üzərinə götürürdü.

7. Almaniya hökuməti ilə Osmanlı hökuməti Brest müqaviləsinin yeddinci maddəsinə uyğun olaraq, İranın ərazi bütövlüyü və suverenliyinin qorunması xüsusunda tamamilə həmfikir olduqları-

nı bəyan edirdilər. Osmanlı hökuməti öz üzərinə götürürdü ki, ingilislərə qarşı aparılan əməliyyat başa çatandan dərhal sonra öz qoşunlarını İran ərazisindən çıxaracaq və hərbi işğal dövründə də Almaniya ilə İran arasında əlaqəni bütün vasitələrlə asanlaşdıracaqdır.[602]

Osmanlı hökuməti 23 sentyabr 1918-ci il tarixli "Osmanlı-Alman protokolu"nu imzalamaqla Batum müqaviləsi ilə əldə etdiyi imtiyazların bir qismini Almaniya ilə paylaşmalı olsa da, Bakının Azərbaycana aid olmasını almanlara qəbul etdirə bildi. Osmanlı hökumətinin Qafqaz respublikalarının müstəqilliyini tanımaq istəyinə qarşı Almaniya hökuməti sadəcə Gürcüstanın müstəqilliyini tanımağa hazır olduğunu bildirirdi. Bununla belə, almanlar öz üzərinə öhdəlik götürürdülər ki, Azərbaycan və Ermənistanın müstəqilliyinin Rusiya tərəfindən tanınmasına səy göstərəcəklər. Almaniya Rusiyanın razılığı olmadan Azərbaycan və Ermənistanın müstəqilliyini tanımaq istəmirdi. Almaniyanın Osmanlı qoşunlarını Cənubi Qafqazdan çıxartmaq istəyi isə onun bölgədə Türkiyənin mövqeyinin güclənməsindən və türklərin təkbaşına Bakıya sahib olmasından narahat olması ilə bağlı idi. Osmanlı hökuməti öz qoşunlarını Cənubi Qafqazdan çıxaracağını üzərinə götürsə də, Tələt paşa bu fikirdə idi ki, Batum müqaviləsindən sonra olduğu kimi, bundan sonra da Qafqaz İslam Ordusu və ya Azərbaycan ordusu adı altında türk qoşunları bölgədə öz missiyalarını həyata keçirəcəklər.

Türkiyə ilə Almaniya Qafqazın təbii sərvətlərindən birlikdə bərabər şəkildə yararlanmaq razılığına gəldilər. Amma Almaniyanın müharibə ehtiyacları ilə bağlı Bakı məsələsində israrlı mövqeyi Türkiyənin güzəştə getməsinə səbəb oldu. Türkiyə Bakı neft sənayesinin və neftlə bağlı kommunikasiya vasitələrinin idarəçiliyini müharibənin sonunadək Almaniyaya verir və Azərbaycan hökumətini bu məsələdə razı salmağı öz öhdəsinə götürürdü.

23 sentyabr 1918-ci il tarixli "Osmanlı-Alman protokolu"nun maddələri 27 avqust tarixli alman-rus əlavə müqaviləsinin maddə-

[602] BOA. HR.SYS. no. 2303/14, v. 1, s. 1-2.

ləri ilə ziddiyyət təşkil edirdi. Bu da öz növbəsində, Almaniyanın 27 avqust müqaviləsindən rəsmi və ya qeyri-rəsmi şəkildə imtina etməsi demək idi.

Tələt paşa Berlində alman rəsmiləri ilə Azərbaycanla bağlı gərgin danışıqlar apardığı bir vaxtda Qafqaz İslam Ordusu tərəfindən sentyabrın 15-də Bakı şəhəri azad edildi. Bakının türklər tərəfindən alınması xəbəri sovet hakim dairələrinə çatan kimi RSFSR xalq xarici işlər komissarı G.Çiçerin dərhal hərəkətə keçdi və sentyabrın 19-da Berlindəki rus səfiri A.İoffeyə Bakı ətrafında baş verənlər haqqında uzun-uzadı bir teleqram göndərdi. Teleqramda Bakının alınması zamanı türk əsgərləri tərəfindən həyata keçirilən "görünməmiş dəhşətlər"dən bəhs olunur və almanların diqqətinin bu məsələyə yönəldilməsi istənilirdi. G.Çiçerin həmçinin bildirirdi ki, "Bakının türklər tərəfindən zəbti Türkiyənin Brest-Litovsk müqaviləsini kobud bir şəkildə pozması" deməkdir və buna görə də, "sovet hökuməti bundan sonra özünü Türkiyə ilə sülh şəraitində hesab edə bilməz".[603] Qeyd edək ki, Brest-Litovsk müqaviləsi ilə Osmanlı imperiyası və Sovet Rusiyası arasında sülh elan edilsə və diplomatik münasibətlər qurulsa da, bu iki ölkə arasındakı münasibətlərdə sülhdən danışmaq qeyri-mümkündür. 1918-ci il avqustun 9-da Osmanlı imperiyasının Rusiyadakı səfiri Qalib Kamali bəyin Moskvanı tərk etməsindən sonra faktiki olaraq bu iki ölkə arasında birbaşa diplomatik münasibətlər kəsilmişdi və yalnız hər iki ölkənin Berlindəki səfirləri vasitəsilə əlaqələr mövcud idi. Bu halda da Sovet Rusiyası Türkiyəyə aid məsələlərlə bağlı Türkiyədən çox Almaniyaya müraciət etməyi üstün tuturdu.

Bakının alınmasından sonra sovet hökumətində narahatlıq doğuran məsələlərdən biri də Almaniyanın yarımrəsmi "Norddeutsche Allgemeine Zeitung", "Lokal Anzeiger" və başqa qəzetlərində "Bakının türk qoşunları tərəfindən alınması" ilə bağlı məmnunluq ifadə edən məqalələrin dərc olunması idi. 1918-ci il sentyabrın 21-də G.Çiçerin Almaniyanın Moskvadakı baş konsulu Herr Hauşildə nota verərək alman qəzetlərində çıxan yazılarla bağlı öz eti-

603 Kurat A.N. Türkiye ve Rusya. s. 549-550.

razını bildirdi və türk qoşunlarının 27 avqust tarixli alman-rus müqaviləsində nəzərdə tutulmuş demarkasiya xəttini keçib Bakını almasında Almaniyanı verdiyi vədləri yerinə yetirməməkdə təqsirləndirdi.[604] Elə həmin gün Berlindəki rus səfiri A.İoffe də Almaniya Xarici İşlər Nazirliyinə eyni məzmunlu bir nota verdi.[605]

Bakının türk orduları tərəfindən alınmasından sonra sovet hökuməti Osmanlı imperiyası ilə münasibətlərini kəsmək qərarına gəldiyini Almaniyaya bildirdi və eyni zamanda, sentyabrın 20-də bu barədə İstanbul hökumətinə nota verdi. Notada "Brest-Litovsk müqaviləsində Qars, Ərdəhan və Batum vilayətləri üçün nəzərdə tutulmuş referendumun Türkiyə tərəfindən birtərəfli və zorakı qaydada həyata keçirildiyi və bunun üçün də Sovet Rusiyası tərəfindən bu referendumun nəticələrinin tanınmadığı" vurğulandıqdan sonra türk ordularının hərbi əməliyyatları davam etdirib "Rusiya Respublikasının çox mühüm şəhərlərindən biri" hesab edilən Bakını tutması Sovet Rusiyasının ərazisinə təcavüz kimi qiymətləndirilir və buna kəskin etiraz edilirdi. Notada deyilirdi: "...Sovet hökumətinin bütün etirazlarına baxmayaraq, Osmanlı hökuməti ötən yarım il ərzində fasiləsiz olaraq Brest-Litovsk müqaviləsini pozmuşdur. Nəhayət, indi o, Rusiya Respublikasının çox mühüm şəhərlərindən birini tutmuş və dəhşətli dağıntıya məruz qoymuşdur. Osmanlı hökuməti bununla göstərdi ki, Rusiya ilə Türkiyə arasında Brest-Litovsk müqaviləsi artıq mövcud deyildir. Rusiya Sovet Federativ Sosialist Respublikası hökuməti etiraf etməyə məcburdur ki, Osmanlı hökumətinin hərəkətləri Rusiya ilə Türkiyə arasında sülh münasibətləri quran Brest-Litovsk müqaviləsini bu iki dövlət arasında faktiki olaraq ləğv edir".[606]

Sovet Rusiyasının Osmanlı hökumətinə ünvanladığı bu nota sentyabrın 21-də "İzvestiya" qəzetində çap edildi və radio ilə oxundu. Osmanlı imperiyasının Moskvada, Rusiyanın da İstanbulda səfiri olmadığı üçün sovet hökuməti notanı Rusiyanın Almani-

[604] Документы внешней политики СССР. Т. 1, с. 492-493.
[605] Yenə orada, s. 494-497.
[606] BOA, HR.SYS, no, 2374/2, v, 2; Документы внешней политики СССР. Т. 1, с. 490-492.

yadakı səfirinə göndərdi. A.İoffe Berlindəki türk səfiri vasitəsilə bu notanı Osmanlı hökumətinə çatdırmalı idi.

Qeyd etdiyimiz kimi, bu zaman Osmanlı sədrəzəmi Tələt paşa ilə xarici işlər naziri Əhməd Nəsimi bəy Berlində idilər və alman rəsmiləri ilə Azərbaycanla bağlı danışıqlar aparırdılar. Bakının azad edilməsinə Sovet Rusiyasının kəskin müqavimətini görən və eyni zamanda, G.Çiçerinin 20 sentyabr tarixli notası haqda məlumat alan Osmanlı rəsmiləri qərara aldılar ki, Berlindəki rus səfiri ilə görüşüb "Bakı məsələsi"ni müzakirə etsinlər. Rusiya Xalq Xarici İşlər Komissarlığı da A.İoffeyə tapşırmışdı ki, "Bakının türklər tərəfindən sovet dairələrinə təslim edilməsini təmin etmək üçün" Berlində danışıqlara başlasın.[607] A.İoffe Tələt paşa və Ə.Nəsimi bəylə danışıqlar apara bilməsi üçün Xarici İşlər Komissarlığından 20 sentyabr tarixli notanın Berlindəki Osmanlı səfirliyinə rəsmən təqdim olunmasının yubadılmasını istədi və bu barədə G.Çiçerinin razılığını aldı. Bu səbəbdən notanın Osmanlı səfirliyinə rəsmən təqdim olunması oktyabrın 3-nə qədər uzadıldı. Tələt paşa da bu nota haqqında alman rəsmilərindən və notanın fransız dilində yayımlanan radio versiyasından xəbər tuta bilmişdi. Bir sözlə, 20 sentyabr tarixli nota türklərə hələ rəsmən təqdim edilməmişdi.

Sovet hökumətinin 20 sentyabr tarixli notası ilə Rusiya ilə Türkiyə arasında diplomatik münasibətlərin kəsildiyini və Brest-Litovsk müqaviləsinin Türkiyəyə aid hissəsinin qüvvədən düşdüyünü bildirməsindən dərhal sonra A.İoffe Almaniyanın xarici işlər naziri Hintze ilə görüşdü və vəziyyət haqqında ona məlumat verdi. A.İoffe bu münasibətlə Sovet Rusiyasının Türkiyəyə müharibə elan etməsinin vacibliyini də dilə gətirdi.[608]

1918-ci il sentyabrın 20-də Tələt paşa Berlindəki rus səfiri A.İoffe ilə görüşüb danışıqlar apardı. Tələt paşanın mövqeyinə görə, "Bakı məsələsi" yalnız sülh yolu ilə, danışıqlar vasitəsilə həll edilməli idi. A.İoffenin Türkiyənin Brest-Litovsk müqaviləsini pozması ilə bağlı iddiasına cavab olaraq Tələt paşa bildirdi ki,

[607] Kurat A.N. Türkiye ve Rusya, s. 525.
[608] Yenə orada. s. 553-554.

Türkiyənin Rusiya ərazisini qətiyyən ilhaq etmək niyyəti yoxdur. Tələt paşa Bakının alınmasında türk ordularının iştirakını inkar etdi, Nuru paşanın isə rəsmi bir şəxs olmadığını və heç bir rəsmi vəzifə daşımadığını bildirdi. Tərəflərin hər birinin öz mövqeyində israrla durması nəticəsində uzun-uzadı davam edən bu danışıqlarda heç bir nəticə hasil olmadı və danışıqların davam etdirilməsi qərara alındı.

Sentyabrın 22-də Tələt paşa A.İoffe ilə yenidən görüşərək danışıqları davam etdirdilər. A.İoffe yenə də Türkiyənin mütəmadi olaraq Brest-Litovsk müqaviləsini pozduğunu anlatmağa çalışdı və bir çox misallar gətirdi. Məsələn: "Türkiyə sovet hökuməti tərəfindən tanınmayan Cənubi Qafqaz Respublikasını tanımış və onunla yeni sərhəd xətti təsbit etmişdir; Türk orduları Rusiya ərazisinə girərək, rus əsgərləri ilə vuruşmuşlar. Bunların hər biri müharibəyə səbəb ola biləcək mahiyyətdə idi, lakin sovet hökuməti bunlara səbr edirdi. Bakının türklər tərəfindən işğalı isə artıq sovet hökumətinin səbrini tükəndirmişdir".[609] A.İoffe həmçinin iddia edirdi ki, guya "Qafqaz müsəlmanları Türkiyənin təzyiqi altında Rusiyadan ayrılaraq öz dövlətlərini yaratmışlar". Müsəlman kəndlilərinin bəylərin və varlıların zülmündən əzab çəkməyinə proletar Rusiyasının dözməyəcəyini bəyan edən A.İoffe Qafqaz müsəlmanlarının şiə, türklərin isə sünnü olduqlarını önə çəkir, müsəlman şiə kəndlilərinin sünnü Osmanlı ağalarını istəmədiyini iddia edirdi. Müsəlmanlar arasında məzhəbçiliyin qızışdırılmasının Rusiyanın ənənəvi siyasəti olduğunu yaxşı bilən Tələt paşa rus səfirinin bu əsassız iddialarını rədd edərək bildirdi ki, "bax mən türkəm və şiəyəm".[610]

Uzun danışıqlardan sonra Tələt paşa "Türkiyənin Qafqaz işlərinə heç bir şəkildə qarışmayacağına dair rəsmi yazılı bir zəmanət verməyə hazır olduğunu" bildirdi. Osmanlı sədrəzəmi onu da bəyan etdi ki, "Türkiyənin Rusiya hesabına heç bir ərazi ilhaq etmək niyyəti yoxdur və Qafqazda olan türk qoşunları dərhal geri çəkilə-

---

[609] Kurat A.N. Türkiye ve Rusya. s. 554.
[610] ARDA, f. 894, siy. 10, iş 150, v. 1-1a; Топчибашев А.А. Дипломатические беседы в Стамбуле. с. 9.

cəkdir".[611] Tələt paşanın belə bir mövqeyi onunla izah olunmalıdır ki, sədrəzəm artıq Qafqaz məsələsində Almaniya ilə razılığa gələ bilmişdi və bu razılıq sentyabrın 23-də imzalanan "Osmanlı-Alman protokolu" ilə təsbit edildi. Almaniya Azərbaycanın müstəqilliyinin Sovet Rusiyası tərəfindən tanınmasına səy göstərəcəyi ilə bağlı öz üzərinə öhdəlik götürmüşdü. Ona görə də Tələt paşa A.İoffe ilə aparılan danışıqlarda nəyin bahasına olursa-olsun, Azərbaycanın müstəqilliyinin sovet hökuməti tərəfindən tanınması üçün maksimum dərəcədə səy göstərirdi. A.İoffe də öz növbəsində, buna cavab olaraq qəti şəkildə bəyan edirdi ki, sovet hökuməti tərəfindən Azərbaycanın müstəqilliyi tanındığı təqdirdə belə, Rusiya iqtisadiyyatı üçün böyük əhəmiyyət kəsb edən neft Bakısı azərbaycanlılara verilməyəcəkdir.[612]

Tələt paşa türk qoşunlarının Qafqazdan çıxarılacağını bildirsə də, onun bu təklifi rus səfirini tam qane etmədi. A.İoffe türk qoşunları ilə bərabər Azərbaycan ordusunun və bütün hərbi ləvazimatın Bakıdan çıxarılmasını istədi. "Türkiyənin Rusiya ilə sülh şəraitində yaşamaq arzusunda olduğunu və Bakı məsələsini danışıqlar yolu ilə həll etmək istədiyini" bəyan edən Tələt paşa rus səfirinin bu istəyini də qəbul etdi.[613]

A.İoffe Osmanlı sədrəzəmi ilə apardığı danışıqlar və edilən təkliflər haqqında dərhal Moskvaya məlumat verdi. Lakin RSFSR xalq xarici işlər komissarı G.Çiçerin Tələt paşanın bu təklifləri ilə qane olmadı. O, A.İoffeyə göndərdiyi cavab teleqramında "20 sentyabr tarixli notanın nəşr edilməsinə və radioteleqrafla yayımlanmasına baxmayaraq, danışıqları davam etdirə bilmək üçün bu notanın türklərə rəsmən təqdim edilməsinin gecikdirilməsinin vacib olduğunu" bildirdikdən sonra qeyd edirdi ki, Tələt paşanın təklifləri sovet hökuməti üçün məqbul sayıla bilər, amma Türkiyə qarşısında "Bakının sovet hakimiyyət orqanlarına təhvil verilməsi" barəsində əlavə şərtin qoyulması vacibdir. Çünki bu olmaz-

---

611 Kurat A.N. Türkiye ve Rusya. s. 554, 555.
612 Bayur Y.H. Türk İnkılabı Tarihi. C. III, K. IV, s. 246.
613 Kurat A.N. Türkiye ve Rusya. s. 555.

sa, türk qoşunlarının "Azərbaycan ordusu" adı altında öz yerlərində qalacaqları heç bir şübhə doğurmur.[614]

Sentyabrın 24-də Tələt paşa yenidən A.İoffe ilə görüşdü. A.İoffe Bakının türk qoşunları tərəfindən dərhal boşaldılıb sovet hakimiyyət orqanlarına təhvil verilməsini və işğal zamanı dəymiş ziyanın Türkiyə tərəfindən ödənilməsini tələb etdi. Sovet səfirinin qalib dövlətin nümayəndəsi kimi irəli sürdüyü bu haqsız tələblərə cavab olaraq Tələt paşa açıq şəkildə bəyan etdi ki, Türkiyə hər hansı bir ərazini Sovet Rusiyasına təhvil verməyəcəkdir, çünki bizim Qafqazdakı millətlərin daxili işlərinə qarışmaq niyyətimiz yoxdur.[615] Sovet Rusiyasının "Bakının sovet hakimiyyət orqanlarına təhvil verilməsi" və "işğal zamanı dəymiş ziyanın Türkiyə tərəfindən ödənilməsi" kimi tələbləri mövcud reallığa görə çox məntiqsiz idi. Ona görə də Tələt paşa qəti şəkildə bu tələblərə qarşı çıxdı. Amma A.İoffe yenə də öz tələblərində israr edirdi. Buna cavab olaraq Tələt paşa bildirdi ki, Sovet Rusiyası tərəfindən Axıska və Axalkələk bölgələri də Türkiyə ərazisi kimi qəbul edildiyi təqdirdə, o, türk qoşunlarını və mülki personalı Brest-Litovsk müqaviləsində təsbit edilən xəttə qədər geri çəkməyə hazırdır və bundan artıq heç bir güzəştə gedə bilməyəcəkdir. Hərbi vəziyyətin ağır olması və ölkədəki həyəcanlar Tələt paşanın sentyabrın 24-də Berlini tərk edib İstanbula hərəkət etməsinə səbəb oldu. Türk-sovet danışıqlarının Berlindəki Osmanlı səfiri Rifat paşa ilə A.İoffe arasında davam etdirilməsi qərara alındı.

Bu arada A.İoffe Tələt paşa ilə apardığı danışıqlar haqqında G.Çiçerinə teleqram göndərərək yazırdı ki, Türkiyə aşağıdakı maddələri qəbul etdiyi təqdirdə Sovet Rusiyası ilə razılığa gələ biləcəkdir:

1. Türklər bütün nizami və qeyri-nizami qoşun hissələrini, hərbi ləvazimatı və mülki şəxslərini Brest-Litovskda müəyyən olunmuş sərhəd xəttinin gerisinə çəkəcəklər;

2. Dəymiş zərər və ziyanın ödənilməsi üçün beynəlxalq komissiya yaradılacaqdır;

[614] Kurat A.N. Türkiye ve Rusya, s. 555.
[615] Yenə orada. s. 555.

3. Şərtlərin yerinə yetirilməsi ilə bağlı Almaniyanın zəmanəti alınacaqdır. Sovet Rusiyasının Bakı və bütün Cənubi Qafqazı tam ələ keçirməsinədək alman qoşunları müəyyən məntəqələrdə yerləşdiriləcək və türklərin öz öhdəliklərini yerinə yetirəcəklərinə nəzarət edəcəklər.[616]

A.İoffe bu teleqramda onu da bir daha qeyd edirdi ki, 20 sentyabr tarixli notanın türklərə rəsmən təqdim edilməsinin gecikdirilməsi vacibdir və danışıqları davam etdirmək lazımdır. G.Çiçerin isə A.İoffeyə göndərdiyi cavab teleqramında bildirirdi ki, sovet hökuməti öz tələbləri ilə bağlı türklərdən sentyabrın 30-na qədər qəti cavab gözləyir və əgər bu müddət ərzində cavab gəlməzsə, Rusiya-Türkiyə münasibətləri kəsilmiş sayılacaqdır.[617] A.İoffe dərhal bu barədə Rıfat paşaya məlumat verdi və təcili cavab gözlədiyini bildirdi.

Tələt paşa sentyabrın sonlarında İstanbula gəlib çıxdıqdan sonra Bakı məsələsi Osmanlı hökumət kabinəsinin toplantısında müzakirə edildi, lakin qəti bir qərara gəlinmədi. Buna görə də Tələt paşanın A.İoffeyə vəd etdiyi cavab gecikdi. Rıfat paşa A.İoffedən qəti cavab üçün müddətin oktyabrın 2-nə qədər uzadılmasını istədi. A.İoffe həmçinin Almaniya vasitəsilə də Türkiyəyə təzyiqlərini davam etdirirdi. Bu arada Almaniyanın İstanbuldakı səfiri Bernstorf Bakı məsələsi ilə bağlı Tələt paşa və Ənvər paşa ilə görüşüb "türk qoşunlarının geri çəkiləcəyini və Rıfat paşaya təfərrüatlı bir təlimatnamənin göndərilmək üzrə olduğunu" öyrəndi və bu barədə Berlinə məlumat verdi. Almaniya Xarici İşlər Nazirliyi də bunları dərhal A.İoffeyə bildirdi. A.İoffe də öz növbəsində G.Çiçerini bu barədə məlumatlandırdı.

Oktyabrın 1-də Rıfat paşa A.İoffeyə bildirdi ki, Cənubi Qafqazdakı türk qoşunları artıq geri çəkilməyə başlamışlar. Qeyd edək ki, həqiqətən də bu tarixdə Bolqarıstan cəbhəsində vəziyyətin ağır olması ilə əlaqədar Osmanlı hökuməti Trakiyanı qorumaq məqsədilə digər cəbhələrindən, o cümlədən Qafqaz cəbhəsindən bəzi hərbi birliklərini geri çağırmışdı. Amma o da həqiqətdir ki,

---

[616] Kurat A.N. Türkiye ve Rusya, s. 556.
[617] Yenə orada. s. 556-557.

türk ordusu bu günlərdə Bakıdan Dağıstana doğru irəliləməkdə idi.

Oktyabrın 3-də A.İoffe Berlindəki Osmanlı səfirinə nota verdi.[618] Bu notada sovet hökuməti Türkiyənin öz qoşunlarını Brest müqaviləsində təsbit edilən hüdudlara çəkməsini, türk qoşunları tərəfindən boşaldılan ərazilərin Sovet Rusiyasına verilməsini, Brest müqaviləsinin şərtlərinin pozulması nəticəsində türk qoşunlarının Rusiyaya vurduğu ziyanı müəyyən etmək üçün xüsusi beynəlxalq komissiyanın yaradılmasını, hər iki ölkənin Almaniya imperator hökumətinə müraciət edərək, bu öhdəliklərin yerinə yetirilməsində təminatçı olmağını xahiş etməkdən ibarət olan tələblərini bir daha irəli sürdü. Notada daha sonra deyilirdi: "Bu gün mənə məlumat verdilər ki, Osmanlı hökuməti öz qoşunlarına Brest müqaviləsinin müəyyənləşdirdiyi sərhədə qədər çəkilmələrini əmr etmişdir və artıq bu çəkiliş başlanmışdır. Mənim "bu, qoyulmuş tələblərimin Türkiyə tərəfindən qəbul olunması deməkdirmi ki, türk qeyri-nizami qoşunları da çəkilir və qalan tələblər də qəbul olunurmu" kimi suallarıma Osmanlı hökuməti tərəfindən təlimatın olmamasına əsaslanan əlahəzrət (Rıfat paşa nəzərdə tutulur – V.Q.) cavab verməl imkanında deyildir".[619]

Hazırkı vəziyyətdə sovet hökumətinin mövqeyi belə idi: Osmanlı hökumətinin Azərbaycan, Gürcüstan və Ermənistan dediyi dövlətlərlə Batumda imzaladığı müqavilələrə görə, gürcülərə aid bir sıra mühüm ərazilər Türkiyəyə ilhaq edilmişdir. Halbuki sovet hökuməti ilə aparılan müzakirələrə görə (Tələt paşa ilə Berlində aparılan müzakirələr nəzərdə tutulur) Türkiyə Batum müqaviləsini deyil, Brest-Litovsk müqaviləsini tətbiq etməlidir. Artıq müharibənin sonunun yaxınlaşdığını hiss edən Sovet Rusiyası Türkiyənin çətin vəziyyətə düşməsindən istifadə edərək diplomatik təşəbbüsü ələ alıb, Batum müqavilələri ilə Türkiyəyə keçən ərazilərin də qaytarılmasını tələb edirdi.

[618] BOA, HR.SYS, no. 2374/2, v. 7-8; Документы внешней политики СССР. T. 1, c. 509-510.
[619] BOA, HR.SYS, no. 2374/2, v. 7-8; Документы внешней политики СССР. T. 1, c. 509-510.

A.İoffe Rıfat paşaya təqdim etdiyi notanın sonunda onu da qeyd edirdi ki, "Əlahəzrət baş vəzirin arzusu ilə tərəfimdən aparılan danışıqları artıq kəsilmiş hesab edirəm və öz hökumətimin tapşırıqlarını yerinə yetirərək, Siz Əlahəzrətə fəhlə-kəndli hökumətinin Osmanlı hökumətinə ünvanlandırdığı notanı (20 sentyabr 1918-ci il tarixli notanı – V.Q.) göndərirəm".[620]

Rıfat paşanın İstanbuldan gözlədiyi təlimat oktyabrın 5-də Berlinə göndərildi. Bu təlimata görə, Rıfat paşa ilə A.İoffe arasında aşağıdakı maddələrdən ibarət protokol imzalanmalı idi:

"1. Türk nizami orduları və qeyri-nizami birlikləri təlimatçılar və məmurlarla birlikdə dərhal Qafqazdan çıxarılacaqlar. Ancaq Brest-Litovsk müqaviləsinin dördüncü maddəsinin üçüncü paraqrafında adı keçən ərazi (Qars, Ərdəhan və Batum vilayətləri nəzərdə tutulur – V.Q.) bura daxil deyildir. Bütün əsgərlərin və hərbi ləvazimatın bölgədən çıxarılması prosesi bu protokolun imzalanmasından sonra dörd həftə ərzində tamamlanacaqdır;

2. Qafqazdakı Osmanlı hərbi hərəkatından dolayı Rusiya hökumətinin Türkiyədən tələb etməkdə özünü haqlı zənn etdiyi təzminat istəkləri sonradan imzalanacaq daha müfəssəl bir müqavilə üzrə təşkil ediləcək qarışıq komissiya tərəfindən tədqiq olunacaqdır;

3. Rusiya və Türkiyə hökumətləri birinci və ikinci maddələrdəki öhdəliklərin yerinə yetirilməsi və türk əsgərlərinin Xəzər dənizi istiqamətindən ingilislərdən qorunması məsələlərində Almaniya hökumətinə zəmanət vermək xahişi ilə müraciət edəcəklər".[621]

Rıfat paşa bu protokol layihəsini elə həmin gün A.İoffeyə təqdim etdi. A.İoffe də bu layihə haqqında dərhal G.Çiçerinə məlumat verdi. Amma xalq xarici işlər komissarı bu layihə ilə qane olmadı. G.Çiçerin Bakı və bütün Cənubi Qafqazın türk qoşunları tərəfindən sovet hakimiyyət orqanlarına təslim edilməsində israr edirdi. Tələt paşa isə Bakını və digər əraziləri Sovet Rusiyasına

[620] BOA, HR.SYS, no. 2374/2, v. 8; Документы внешней политики СССР. Т. I, c. 510.

[621] BOA, HR.SYS, no. 2374/2, v. 9, 33-39, 43.

deyil, milli Azərbaycan hökumətinə təslim etmək istəyirdi. Protokol layihəsində də türklərin Bakını Sovet Rusiyasına təslim etmələri haqqında heç bir qeyd yox idi. Belə olan halda sovet hökuməti Berlindəki səlahiyyətli nümayəndəsinə türk protokolunu imzalamamaq göstərişini verdi. Oktyabrın 7-də V.İ.Lenin və Y.Sverdlovun imzası ilə A.İoffeyə belə bir teleqram göndərildi: "Bakını hakimiyyət orqanlarımıza vermək barəsindəki təklif qəbul edilməyincə, Türkiyə protokolunu imzalamağa razı deyilik, çünki bu maddə olmadan güman etməyə tam əsas vardır ki, Bakını Antantaya təslim etmək barəsində Antanta ilə gizli saziş bağlanmışdır".[622] Əslində belə bir saziş yox idi və Rusiyanın bu "narahatçılığı" həqiqətə uyğun deyildi. Bundan əlavə, sovet hökuməti türk qoşunlarının nəinki Brest-Litovskda müəyyən edilmiş sərhədlərədək geri çəkilməsini, hətta bu müqavilə ilə Türkiyəyə verilən Qars, Ərdəhan və Batum vilayətlərindən də çıxarılmasını tələb edirdi. Bu səbəbdən Sovet Rusiyası Türkiyənin təklif etdiyi protokolu qəbul etmədi və bu, layihə olaraq da qaldı. Sovet hökuməti Türkiyə ilə diplomatik münasibətlərini kəsmək qərarını qətiləşdirdi.

Sovet Rusiyasının Türkiyəyə verdiyi 3 oktyabr 1918-ci il tarixli və bununla birlikdə göndərilən 20 sentyabr tarixli notalarına Osmanlı Xarici İşlər Nazirliyi tərəfindən oktyabrın 6-da cavab verildi. Əhməd Nəsimi bəyin imzaladığı bu nota Berlindəki rus səfiri A.İoffe vasitəsilə Rusiya Xalq Xarici İşlər Komissarlığına göndərildi. Notada bildirilirdi ki, Brest-Litovsk müqaviləsinə görə Rusiya işğal altında olan Şərqi Anadolu vilayətlərini boşaldıb Türkiyəyə təhvil verməyi və bu ərazilərdə olan silahlı quldur dəstələrini tərksilah etməyi öz üzərinə götürdüyü halda, geri çəkilən rus orduları Türkiyəyə qarşı erməni quldur dəstələrini silahlandırdılar və bu vəziyyət qarşısında İstanbul hökuməti bu əraziləri silah yolu ilə geri qaytarmaq məcburiyyətində qaldı. Bundan sonra Türkiyə Brest-Litovsk sülh müqaviləsini tanımaq istəməyən Cənubi Qafqaz federasiyası ilə qarşılaşmış və nəticədə Qars, Ərdəhan və Ba-

[622] Документы внешней политики СССР. Т. 1, с. 513; V.İ.Lenin Azərbaycan haqqında, s. 151.

tum vilayətlərini də müharibə nəticəsində əldə etmişdir. Brest müqaviləsinə uyğun olaraq keçirilmiş referendumun nəticələrinə görə bu ərazilər Osmanlı imperiyasına ilhaq edilmişdir. Osmanlı hökuməti sovet hökumətinin keçirilən referendumla bağlı iddialarını qəbul etmir, çünki bu iddiaların heç biri həqiqətə uyğun deyildir.[623]

Əhməd Nəsimi bəy onu da qeyd edirdi ki, əgər Sovet Rusiyası keçmiş imperiya ərazisində yaşayan xalqlara münasibətdə elan etdiyi "xalqların öz müqəddəratını təyin etmək" hüququnda səmimidirsə, onda bu hüququ Qafqaz xalqlarına da aid etsin. Digər tərəfdən, sovet hökuməti bu hüququn erməni məsələsində Türkiyəyə qarşı tətbiqini müvafiq bildiyi halda, Türkiyə də özünü müdafiə etmək məqsədilə Qafqaz dövlətlərinə münasibətdə yeritdiyi siyasətdə haqlıdır.[624]

Bakı məsələsinə gəldikdə isə, notada qeyd edilirdi ki, ingilislərin Bakıdan çıxarılması müharibə nöqteyi-nəzərindən Osmanlı imperiyası üçün hərbi zərurət idi. Osmanlı əsgərləri tərəfindən Bakıdakı əhaliyə qarşı törədilən zülm və talanlarla bağlı sovet iddialarına gəldikdə isə, bunlar tamamilə əsassızdır. Qafqazdakı türk hərbi əməliyyatları yalnız silahlı quldur dəstələrinə və ingilislərə qarşı idi. Notanın sonunda "Osmanlı imperiyasının Sovet Rusiyası ilə daim dostluq şəraitində yaşamaq istədiyi və heç bir zaman Brest-Litovsk müqaviləsinə zidd hərəkət etmədiyi" vurğulanır və "türk hərbi əməliyyatlarının ancaq Türkiyənin mövcudiyyətini təhlükəyə salan silahlı erməni quldur dəstələrinə və ingilislərə qarşı yönəldiyi" bildirildikdən sonra qeyd edilirdi ki, "bu məqsədlər əldə edildikdən (təhlükə sovuşduqdan) sonra Osmanlı hökuməti öz qoşunlarına hərbi ləvazimatları ilə birlikdə Brest-Litovskda təsbit edilən sərhəd xəttinə çəkilmək əmri vermiş və çəkiliş dərhal başlanmışdır".[625]

Qeyd edək ki, Əhməd Nəsimi bəyin bu notasının əvvəlki qismi (silahlı erməni quldur dəstələrinə qarşı hərbi əməliyyat məcbu-

[623] Kurat A.N. Türkiye ve Rusya. s. 693-694.
[624] Yenə orada, s. 695.
[625] Yenə orada. s. 561, 695.

riyyəti, referendum və s.) doğru idi, amma "Bakının alınması" ilə bağlı olan hissədə Osmanlı imperiyasının əsas məqsədlərinin ört-basdır edilməsinə cəhd edilmişdi. Nota ümumiyyətlə çox yumşaq bir üslubda yazılmış və Osmanlı imperiyasının Rusiya ilə anlaşmaq istəməsinin bir ifadəsi idi. Bu nota artıq çökməkdə olan bir dövlətin, yaxın günlərdə istefasını verəcək bir hökumətin xarici işlər nazirinin qələmindən çıxmış və Qafqazla bağlı müqavilələrin artıq heç bir hökmü qalmayacağı anlaşıldığı bir zamandakı siyasətin ifadəsi idi. Bu nota, eyni zamanda Osmanlı imperiya hökumətinin Sovet Rusiyasına göndərdiyi son diplomatik sənəd idi.

RSFSR xalq xarici işlər komissarı G.Çiçerin oktyabrın 10-da Osmanlı hökumətinə yeni bir nota ilə müraciət etdi.[626] Bu notada Nəsimi bəyin Çiçerinə göndərdiyi 6 oktyabr tarixli notasında irəli sürülən müddəalar təkzib edilir və əvvəlki sovet tələbləri bir daha təkrarlanırdı. G.Çiçerin Brest-Litovsk müqaviləsində Qars, Ərdəhan və Batum vilayətlərinin əhalisinin öz gələcək talelərini qonşu dövlətlərlə, xüsusilə Türkiyə ilə (ancaq Türkiyə ilə tək yox) razılıq əsasında həll etməsinin əks olunduğunu vurğulayır və bu vilayətlərdə Türkiyə tərəfindən birtərəfli qaydada və "zorakı" şəkildə keçirilən referendumun nəticələrinin sovet hökuməti tərəfindən tanınmadığını bəyan edirdi. Notada ilk növbədə Bakının və müstəqilliyi Almaniya tərəfindən tanınan Gürcüstanı çıxmaq şərti ilə Cənubi Qafqazın yerdə qalan bütün ərazisinin sovet hakimiyyət orqanlarına verilməsi, habelə türk hücumları nəticəsində dəymiş zərər və ziyanın ödənilməsi tələb edilirdi.[627] Sovet Rusiyasının mövqeyinə görə, Qars, Ərdəhan və Batum vilayətlərində keçirilən referendumun nəticələri sovet hökuməti tərəfindən tanınmadığı üçün Türkiyə 1914-cü il sərhədlərinə çəkilməli idi və bundan sonra iki ölkə arasında dostluq münasibətlərini bərpa etmək mümkün olacaqdı. Belə əsassız iddialara görə Berlində aparılan türk-rus danışıqları uğursuzluqla nəticələndi və iki ölkə arasında yalnız Berlindəki səfirləri vasitəsilə mövcud olan diplomatik münasibətlər

[626] Документы внешней политики СССР, Т. I, с. 514-516.
[627] Yenə orada. s. 514-516.

də kəsildi. G.Çiçerinin 10 oktyabr 1918-ci il tarixli notası da cavabsız qaldı.

Göründüyü kimi, Tələt paşanın Almaniya səfəri (6-24 sentyabr 1918) ilə Berlində başlanan türk-alman-rus danışıqlarının mərkəzində "Azərbaycan məsələsi" dururdu. Osmanlı diplomatiyası bu danışıqların birinci mərhələsində böyük güzəştlərə gedərək, Azərbaycan və bütövlükdə Qafqaz məsələsində Almaniya ilə razılığa gələ və bu razılığı 23 sentyabr 1918-ci il tarixli "Osmanlı-Alman protokolu" ilə təsbit edə bildisə də, türk-rus danışıqlarında müvəffəqiyyət əldə etmək mümkün olmadı. Osmanlı hökuməti Azərbaycanın müstəqilliyi Sovet Rusiyası tərəfindən tanındığı təqdirdə, öz qoşunlarını Cənubi Qafqazdan çıxarmağa hazır olduğunu bildirsə də, bölgəyə öz ərazisi kimi baxan və xüsusilə də neft Bakısını heç kimə güzəştə getmək istəməyən sovet hökuməti qeyri-konstruktiv mövqe tutdu və onun bu mövqeyi Osmanlı-Rusiya münasibətlərinin kəsilməsi ilə nəticələndi. Sovet Rusiyasının belə bir mövqe tutmasında dünya müharibəsində Almaniya-Osmanlı blokunun məğlubiyyətinin artıq göz qabağında olması mühüm oynadı.

1918-ci il oktyabrın 5-də Osmanlı hökuməti sülh bağlamaq xahişi ilə ABŞ prezidenti V.Vilsona rəsmən müraciət etdi. Oktyabrın 8-də Tələt paşa hökuməti istefa verdi, oktyabrın 14-də Əhməd İzzət paşanın rəhbərliyi ilə yeni hökumət yaradıldı. Əhməd İzzət paşanın sədrliyi ilə keçirilən kabinə iclasında türk qoşunlarının Qafqazdan tamamilə çıxarılması haqqında qərar qəbul edildi. Oktyabrın 21-də Əhməd İzzət paşa türk qoşunlarının Qafqazdan çıxarılıb Brest-Litovsk sülhü ilə müəyyən olunmuş sərhədin gerisinə çəkilməsi barədə əmr verdi.[628]

1918-ci il oktyabrın 30-da Osmanlı hökuməti Mudros barışığını imzalamalı oldu. Mudros barışığının on birinci maddəsinə görə Türkiyə ordusu tezliklə Cənubi Azərbaycanı və Cənubi Qafqazı tərk etməli idi. Azərbaycanda olan Osmanlı qoşunlarına bir həftədən gec olmayaraq Bakıdan və bir aydan gec olmayaraq Azərbay-

[628] BOA. BEO, no. 4539/340383, v. 1-2.

candan çıxmaq barədə ultimatum verdilər. Barışığın on beşinci maddəsinə görə Batum müqaviləsi ilə Türkiyənin nəzarəti altına keçən Cənubi Qafqaz dəmir yolu Müttəfiqlərin nəzarətinə verilirdi. Müttəfiqlər Batumu tutmaq hüququna malik idilər və nəhayət, Türkiyə Müttəfiqlər tərəfindən Bakının işğal edilməsinə heç bir etiraz etməməli idi.[629] Mudros barışığından sonra Azərbaycan ingilis qoşunlarının nəzarəti altına düşdü.

Sovet Rusiyası da öz növbəsində, Almaniya təslim aktını imzalayan kimi, Brest-Litovsk müqaviləsinin qüvvədən düşdüyünü bəyan etdi. Bununla da Sovet Rusiyasının Azərbaycan siyasətində yeni mərhələnin başlanğıcı qoyuldu. Osmanlı imperiyası isə müharibədə məğlub olması səbəbi ilə ingilislərin nəzarəti altına düşdü. Artıq Osmanlı imperiyası dərin sosial-iqtisadi və siyasi böhran keçirirdi və İstanbul hökumətinin qarşısında duran əsas məsələ Türkiyənin varlığını qoruyub saxlamaqdan ibarət idi. Bu səbəbdən Osmanlı imperiyası Azərbaycanda və bütövlükdə Qafqaz bölgəsində gedən siyasi və hərbi proseslərə təsir etmək imkanında deyildi.

Amma bir qədər sonra, Azərbaycan xalqının uzun illərdən bəri apardığı milli azadlıq mübarizəsinin məntiqi yekunu kimi, dünyada gedən fəal siyasi və hərbi proseslərin təsiri nəticəsində yaranan və Osmanlı imperiyasına arxalanan Azərbaycan Cümhuriyyətinin digər mühüm amillərlə yanaşı, Türkiyə milli azadlıq hərəkatının liderləri ilə Sovet Rusiyasının yaxınlaşması zəminində süqutu labüd olacaqdır.

[629] BOA. HR.SYS. no. 2397/6. v. 21.

# III FƏSİL
# TÜRKİYƏ-RUSİYA ƏMƏKDAŞLIĞI VƏ AZƏRBAYCAN

## § 1. Anadolu hərəkatı və Azərbaycan

Birinci dünya müharibəsi vaxtilə üç qitədə geniş ərazilərə malik olan Osmanlı imperiyası üçün faciəvi sonluqla nəticələndi. Hakimiyyətdə Ənvər-Tələt-Camal üçlüyünü əvəz etmiş Əhməd İzzət paşa hökuməti 1918-ci il oktyabrın 30-da Egey dənizindəki Lemnos adasında olan Mudros limanında Antanta dövlətləri ilə barışıq imzalamağa məcbur oldu. Barışığın əsas şərtlərinə görə, Osmanlı imperiyası ordusunu buraxmalı, hərbi gəmilərini, dəmir yollarını, poçt-teleqraf vasitələrini Antantaya təhvil verməli, Qafqaz, Hicaz, Asir, Yəmən, Suriya və İraqda olan Osmanlı orduları ən yaxın müttəfiq komandanlığına təslim edilməli idi. Müttəfiqlər Batumu tutmaq hüququna malik idi və Osmanlı hökuməti müttəfiqlər tərəfindən Bakının işğalına heç bir etiraz etməməli idi. Antanta dövlətləri vəziyyət bunu diqtə etdiyi təqdirdə, boğazları və ermənilərin nisbətən kompakt yaşadıqları Anadolunun altı şərq vilayətinin hər hansı bir hissəsini işğal etmək hüququ alırdı.[630] Mudros barışığı ilə Osmanlı imperiyası Antanta dövlətlərinə təslim oldu. Bununla da Antanta dövlətləri Osmanlı imperiyasını parçalamaqla bağlı müharibənin əvvəllərindəki planlarını reallaşdırmaq məqsədilə ölkənin işğalına başladılar.

---

[630] Türk İstiklal Harbi I. Mondros Mütarekesi ve Tatbikatı, s. 41-44.

Azərbaycanın İstanbuldakı diplomatik nümayəndəsi Ə.Topçubaşov barışığın Azərbaycanla əlaqədar maddələri ilə bağlı türk tərəfinə öz etirazını bildirsə də[631], bu elə bir ciddi reaksiya doğurmadı.[632] Dəyişən beynəlxalq vəziyyətlə əlaqədar Azərbaycanın müstəqilliyinin tanınması məsələsinin artıq Osmanlı imperiyası ilə deyil, müttəfiq dövlətləri ilə aparılacaq danışıqlarla bağlı olduğunu çox gözəl anlayan Ə.Topçubaşov Azərbaycan hökumətindən Avropaya getmək üçün təlimatnamə göndərilməsini israrla tələb edirdi, əks təqdirdə, İstanbulda qalmasına elə bir lüzum görmürdü.[633] Qeyd edilən təlimatnamənin göndərilməsi gecikdiyi üçün Ə.Topçubaşov aydın fəaliyyət proqramı almaqdan ötrü nümayəndəliyin katibi Mustafa bəy Vəkilovu 1918-ci il dekabrın 19-da Bakıya göndərdi.[634] Ə.Topçubaşov bu arada özü də boş durmayaraq Osmanlı hökumət üzvləri və İstanbula gələn müttəfiq dövlətlərin nümayəndələri ilə bir sıra görüşlər keçirdi. O, 1918-ci il noyabrın 3-də Osmanlı dövləti tərəfindən Mudros danışıqlarını aparmış Rauf bəylə, noyabrın 4-də Osmanlı imperiyasının xarici işlər nazirinin müavini Rəşad Hikmət bəylə, noyabrın 5-də xarici işlər naziri Nəbi bəylə, noyabrın 8-də maliyyə naziri Hüseyn Cavid bəylə, noyabrın 15-də Ukrayna nümayəndəsi Sukovçinlə, noyabrın 16-da və 18-də Osmanlı imperiyasının yeni xarici işlər naziri Mustafa Rəşad paşa ilə, yenə həmin gün yeni sədrəzəm Əhməd Tevfik paşa və İstanbulda olan İran diplomatik nümayəndəsi Mirzə Mahmud xanla, noyabrın 19-da ingilis nümayəndəsi Tampl ilə, noyabrın 25-də Osmanlı imperiyasının yeni maliyyə naziri Əbdürrəhman bəylə, hərbi naziri Abdulla paşa ilə, dekabrın 7-də Rusiya nümayəndəsi P.N.Milyukovla, dekabrın 23-də Amerika diplomatik nümayəndəsi Braunla, dekabrın 30-da İstanbuldakı İsveç səfiri S.Anşarsveldlə, dekabrın 31-də İtaliya nümayəndəsi qraf Sforts

---

631 ARDA. f. 970, siy. 1. iş 68, v. 1-5.

632 ARDA, f. 970, siy. 1, iş 68, v. 14.

633 Азербайджанская Демократическая Республика (1918-1920). Внешняя политика, с. 167.

634 BOA, DH.EUM.SSM, no. 62/73, v. 1, 2; Азербайджанская Демократическая Республика (1918-1920). Внешняя политика. с. 168.

ilə, yanvarın 6-da ABŞ təmsilçisi Mister Naesk ilə, elə həmin gün Rusiyanın ağqvardiyaçı Kolçak və Denikin hökumətlərinin nümayəndəsi kimi Paris sülh konfransına gedən S.D.Sazonovla, yanvarın 9-da İran səfiri Əliqulu xanla görüşüb danışıqlar apardı. Bu danışıqlarda müharibənin qurtarması ilə bağlı dünyada yaranmış yeni şərait və Azərbaycanın vəziyyəti məsələləri müzakirə edildi.[635]

Ə.Topçubaşov eyni zamanda Osmanlı hökuməti tərəfindən Azərbaycanın müstəqilliyinin hüquqi cəhətdən tanınması istiqamətində də iş aparır və Bakıya Osmanlı siyasi nümayəndəsinin göndərilməsinə çalışırdı. O, 1918-ci il noyabrın 4-də Osmanlı Xarici İşlər Nazirliyinə göndərdiyi müraciətnaməsində Bakıya Osmanlı siyasi nümayəndəsinin tezliklə göndərilməsini təkidlə xahiş edirdi.[636] Əlimərdan bəyin bu müraciətnaməsinə Osmanlı xarici işlər naziri belə bir dərkənar qoymuşdu: "Azərbaycanda hazırda bir əsgəri nümayəndəmiz vardır, lazım olarsa, bir siyasi nümayəndə də təyin ediləcəyini şifahi olaraq təbliğ edin".[637] Ə.Topçubaşov 1919-cu il fevralın 24-də Osmanlı xarici işlər naziri Mustafa Rəşad paşa ilə apardığı danışıqlarda da bu məsələnin tezliklə həll edilməsini rica etdi. Amma Mustafa Rəşad paşa mövcud vəziyyətdə hər şeyin Antanta dövlətlərinin nəzarətində olduğunu əsas gətirərək, onların icazəsi olmadan Azərbaycana siyasi nümayəndə göndərilməsinin mümkün olmadığını bildirdi.[638]

Osmanlı hökuməti ingilislərin nəzarəti altında fəaliyyət göstərdiyindən 1918-ci ilin sonlarından etibarən Azərbaycan nümayəndəsinin Osmanlı rəsmi məqamları ilə görüşməsi belə artıq çətinləşdi. Çünki Osmanlı siyasiləri ingilislərin etirazına səbəb ola biləcək hər hansı bir hərəkətdən çəkinirdilər. Ə.Topçubaşov 1918-ci ilin oktyabrında sultan VI Mehmed Vahidəddinlə görüşmək istəyi ilə bağlı Osmanlı Xarici İşlər Nazirliyinə müraciət etsə də, tez-tez baş verən hökumət dəyişikliyi ilə əlaqədar bu istək Xarici

[635] Топчибашев А.А. Дипломатические беседы в Стамбуле, с. 33-114.
[636] BOA. HR.SYS, no. 2303/11, v. 8.
[637] BOA. HR.SYS, no. 2303/11, v. 8a.
[638] Азербайджанская Демократическая Республика (1918-1920). Внешняя политика, с. 169.

İşlər Nazirliyi tərəfindən yalnız 1919-cu il yanvarın 2-də Sədrəzəmliyə bildirildi.[639] Sədrəzəm müstəşarından Xarici İşlər Nazirliyinə göndərilən 9 yanvar 1919-cu il tarixli cavabda isə bildirilirdi ki, hal-hazırda Azərbaycanın rəsmən tanınmamasından dolayı təmsilçisinin rəsmi qəbulu uyğun deyildir, fəqət Ə.Topçubaşovun sabiq Duma üzvü olması nəzərə alınaraq o, padşah tərəfindən qəbul edilə bilər.[640] Qeyd edək ki, Antanta dövlətləri ilk əvvəl çar Rusiyasının sərhədləri daxilində qurulan milli respublikaları tanımaq istəmir və Rusiyanı yenidən birləşdirməyə çalışan sabiq çar generalları olan Kolçak və Denikin rejimlərini özlərinə uyğun bilib, onları dəstəkləyirdilər. Bu səbəbdən Osmanlı hökuməti də Antanta dövlətlərinin etirazlarına səbəb olmasın deyə, Azərbaycan nümayəndəsini təmsil etdiyi hökumətin adına deyil, devrilmiş bir hökumətin nümayəndəsi olaraq qəbul edilməsini uyğun gördü. Nəhayət, 1919-cu il yanvarın 10-da Ə.Topçubaşov sultan VI Mehmed Vahidəddin tərəfindən qəbul edildi. On beş dəqiqə çəkən bu qəbul emosiyalı söhbətlərlə yekunlaşdı.[641] Bu görüş və bütövlükdə Osmanlı siyasiləri ilə apardığı danışıqlar haqqında Azərbaycan hökumətinə göndərdiyi məlumatında Ə.Topçubaşov Osmanlı-Azərbaycan münasibətlərini dəyərləndirir və burada yalnız emosiyalılığın ön plana çıxdığını, münasibətlərin qarşılıqlı simpatiyadan o yana getmədiyini xüsusi olaraq qeyd edirdi.[642]

Osmanlı hökumətinin siyasi dəstəyinin artıq elə bir ciddi əhəmiyyət kəsb etmədiyini anlayan Ə.Topçubaşov digər Qafqaz respublikaları ilə bərabər hərəkət etməklə Azərbaycanın mənafelərinin qoruna biləcəyi qənaətinə gəldi və bunun üçün Azərbaycan hökumətindən qonşu hökumətlərlə (Gürcüstan və Ermənistan hö-

639 BOA, İ.DUİT, no. 12/29, v. 2; HR.MTV, no. 639/1, v. 1.
640 BOA, İ.DUİT, no. 12/29, v. 1; HR.MTV, no. 639/1, v. 2.
641 Топчибашев А.А. Дипломатические беседы в Стамбуле, с. 139-140.
642 Азербайджанская Демократическая Республика (1918-1920). Внешняя политика, с. 172.

kumətləri ilə) anlaşaraq vahid bir heyətin Paris sülh konfransına göndərilməsini istədi.[643]

Bu arada Azərbaycandakı siyasi vəziyyət müsbətə doğru dəyişdi və ingilis komandanlığı Azərbaycan parlamentinin açılışına icazə verdi. 1918-ci il dekabrın 7-də Azərbaycan parlamentinin ilk iclasında Ə.Topçubaşov parlamentin sədri seçildi. Dekabrın 28-də müttəfiqlərin Bakıdakı nümayəndəsi general-mayor V.M.Tomson F.X.Xoyskinin rəhbərlik etdiyi Azərbaycan hökumətini bütün Azərbaycan ərazisində yeganə qanuni hakimiyyət olaraq tanıdığını rəsmən bəyan etdi.[644] Elə həmin gün Azərbaycan hökuməti Paris sülh konfransına gedəcək nümayəndə heyətini seçdi və Ə.Topçubaşovu bu heyətə rəhbər təyin etdi. Amma Azərbaycan nümayəndə heyətinin Parisə getməsi böyük çətinliklərlə qarşılaşdı, heyət uzun müddət İstanbulda qalıb gözləməli oldu. Nəhayət, 1919-cu il aprelin 22-də Azərbaycan nümayəndə heyətinə Parisə getmək üçün viza verildi, İstanbuldan dərhal hərəkət edən heyət mayın 7-də Parisə çatdı və Azərbaycanın müstəqilliyinin tanınması istiqamətində gərgin işə başladı.

Qeyd edək ki, Ə.Topçubaşov Parisə yola düşmək ərəfəsində Azərbaycan hökuməti adından Osmanlı Xarici İşlər Nazirliyinə yazılı şəkildə yenidən müraciət edərək, Bakıya Osmanlı siyasi nümayəndəsinin göndərilməsini istədi.[645] Lakin Osmanlı hökuməti müttəfiq dövlətlərin Azərbaycanla bağlı mövqeyinin tam müəyyənləşmədiyini əsas gətirərək, bu məsələdə tələsməməyi lazım bildi. Bütövlükdə, bu dövrdə İstanbul hökuməti ingilislərin nəzarətində olduğundan "İtilaf və Hürriyyət" iqtidarı Azərbaycana münasibətdə soyuq davranır, ingilislərin xoşuna gəlməyəcək hər hansı bir hərəkət etmək istəmirdi.

1919-cu ilin əvvəlində Osmanlı imperiyasında hakimiyyətə ingilispərəst "İtilaf və Hürriyyət" partiyası gəldikdən sonra, sultan

---

[643] ARDA, f. 894, siy. 10, iş 66, v. 13-15.

[644] Азербайджанская Демократическая Республика (1918-1920). Внешняя политика, с. 115; Rəsulzadə M.Ə. Azərbaycan Cümhuriyyəti, s. 48.

[645] Азербайджанская Демократическая Республика (1918-1920). Внешняя политика, с. 207.

VI Mehmed Vahidəddinin kürəkəni Damad Fərid paşa sədrəzəm təyin edildi. Osmanlı parlamenti sülh müqaviləsi imzalananadək buraxıldı. Osmanlı imperiyası faktiki olaraq parçalanıb və qalib dövlətlər arasında bölüşdürülmüşdü. Antantanın donanması boğazları işğal etmişdi. İngilislər Mosulu və İskəndərunu (sonralar İskəndərunun işğalını fransızlar həyata keçirdilər), fransızlar Suriyanın şimalında geniş sərhəd zolağını, italyanlar isə cənub-qərbi Anadolunu və Konyaya qədər olan əraziləri işğal etdilər. 1919-cu il mayın 15-də Antantanın razılığı ilə yunan qoşunları İzmirə daxil oldular. İstanbul Antanta dövlətlərinin tam nəzarətində idi. Sultan və hökumət Antanta dövlətlərinin əlində bir alət olmuş, aciz və çaşqın bir vəziyyətdə asayiş və xilas olma yolunu axtarırdılar. Anadolunun bütün şəhərlərində əcnəbi zabitlər dolaşır və Antanta dövlətlərinin təmsilçiləri sifəti ilə direktivlər verirdilər.

İzmirin yunanlar tərəfindən işğalı ilə Qərbi Anadoluda ilk cəbhələr yarandı. Hökumətin və sultanın baş vermiş işğal aktlarını susmaqla qarşılaması türk xalqının qəzəbinə səbəb oldu. Hər tərəfdə kortəbii surətdə anti-əcnəbi üsyanlar başlandı. Dağınıq halda baş verən bu üsyanları geniş anti-imperialist hərəkata çevirmək vəzifəsini başda Mustafa Kamal paşa olmaqla vətənpərvər hərbçi ziyalılar təbəqəsi öz üzərinə götürdü. İstanbul hökumətinin təyinatı ilə 9-cu orduya müfəttiş təyin olunan M.Kamal paşa 1919-cu il mayın 19-da Samsuna gəldikdən sonra bir daha geri dönməyərək Anadoluda Milli Qurtuluş Savaşının təşkilinə başladı. Bu zaman artıq Anadolunun müxtəlif yerlərində düşmənə qarşı durmaq və azadlıq üçün yollar axtarmaq məqsədilə müxtəlif təşkilatlar, cəmiyyətlər yaranıb fəaliyyət göstərirdi. M.Kamal paşa ilk növbədə, Amasiyada cəbhə komandirlərinin gizli müşavirəsini keçirməyi qərara aldı. Müşavirədə qəbul edilən və 22 iyun 1919-cu il tarixində M.Kamal paşanın imzası ilə bütün hərbi və mülki obyektlərə göndərilən məxfi məlumatda vətənin bütövlüyünün təhlükə altında olması və mübarizənin təşkili üçün tezliklə Sivasda milli konqresin keçirilməsinin zəruriliyi vurğulanırdı.[646] İlk hazırlıq

[646] Qocatürk U. Atatürk. Bakı: Elm. 1991, s. 36.

konqresi 1919-cu ilin 23 iyul – 7 avqust tarixləri arasında Ərzurumda toplandı. Yalnız Bitlis, Ərzurum, Sivas və Trabzon vilayətlərindən toplanmış 56 nümayəndənin iştirak etdiyi Şərq vilayətlərinin hüquqlarının müdafiəsi cəmiyyətinin konqresi ölkənin parçalanmasının qəbuledilməz olduğunu özündə əks etdirən manifest və qətnamə qəbul etməklə yanaşı, M.Kamal paşa başda olmaqla 9 nəfərdən ibarət Heyət-i Təmsiliyyə seçdi.[647]

Anadolu və Rumelinin hüquqlarının müdafiə cəmiyyətlərinin ümum-türk konqresi 1919-cu ilin 4-12 sentyabrında Sivasda keçirildi. Sivas konqresində cəmi 38 nümayəndə iştirak etsə də, onlar daha çox vilayəti təmsil edirdilər. Sivas konqresi Ərzurum konqresinin qərarlarını təsdiq etməklə yanaşı, belə bir tarixi qərar qəbul etdi ki, Mudros barışığının müəyyən etdiyi sərhədlər daxilində mövcud olan torpaqlar vahid və bölünməzdir və Osmanlı dövlətindən alına bilməz.[648] Sivas konqresi başda M.Kamal paşa olmaqla yeni Heyət-i Təmsiliyyə seçdi. Bu orqan İstanbul və işğal edilmiş ərazilərdən başqa ölkədə bütün hakimiyyəti öz əlində topladı. Sivas konqresi Fərid paşanın istefasını həyata keçirəcəyi təqdirdə sultan hökumətinə loyal münasibət bəsləyəcəyini bildirdi. Sultan da öz növbəsində, güzəştə gedərək 1919-cu il sentyabrın 30-da Damad Fərid paşa hökumətini istefaya göndərdi, oktyabrın 2-də isə Əli Rıza paşanın yeni hökuməti quruldu.[649] Lakin bir qədər sonra milli hərəkatın dərinləşdiyini görən sultan onu beşiyində boğmaq üçün yeni sədrəzəmin məsləhəti ilə nümayəndələr palatasına yeni seçkilər keçirərək müttəfiqlərlə sülh bağlamaq qərarına gəldi.

1920-ci il yanvarın 12-də İstanbulda Osmanlı parlamenti açıldı. Parlament yanvarın 28-də Ərzurum və Sivas konqreslərinin qərarlarını "Milli And" halında qəbul və elan etdi. Bu parlament özünü "doğrultmadığından" ingilislərin diqtəsi ilə sultan onu bu-

---

647 Baykara T. Türk İnkılap Tarihi ve Atatürk İlkeleri. İstanbul: İQ Yayınları, 2006, s. 114; Avcı C., Kara A. Bağımsızlığa Giden Yol. Türk İnkılabının Tarihi. İstanbul: İQ Yayınları, 2007, s. 174-175.

648 Karabekir K, İstiklal Harbimiz, C. I, s. 236-238,

649 Baykara T. Türk İnkılap Tarihi ve Atatürk İlkeleri, s. 116.

raxmaq və repressiyalara əl atmaq qərarına gəldi. 1920-ci il martın 16-da ingilis qoşunları İstanbulu işğal etdilər. Paytaxtda hərbi vəziyyət elan edildi, parlament buraxıldı, bütün dövlət idarələri ingilislərin nəzarətinə keçdi. İngilispərəst Fərid paşa yenidən hakimiyyətə gətirildi. Ölkənin ali ruhanisi Anadolu hərəkatını qiyam, M.Kamalı isə cani elan etdi və onun ölümü haqqında fitva verdi.[650]

M.Kamal paşa İstanbulun işğalından sonra valiliklərə və korpus komandanlıqlarına təlimat göndərərək, Ankarada toplanacaq fövqəladə səlahiyyətə malik bir məclisə yeni təmsilçilər seçilməsini tövsiyyə etdi. Nəhayət, 23 aprel 1920-ci il tarixində ölkənin hər yerindən gələn nümayəndələrin iştirakı ilə Ankarada Türkiyə Böyük Millət Məclisi (TBMM) açıldı. M.Kamal paşa bu Məclisə və onun hökumətinə sədr seçildi. TBMM özünü ölkədə yeganə qanuni hakimiyyət elan etdi.[651] İstanbul hökuməti Ankarada gedən proseslərlə bağlı bərk narahat olduğundan, bu hərəkatı beşiyində boğmaq üçün bölgəyə "Xilafət Ordusu"nu göndərsə də, bu addım uğursuzluqla nəticələndi və istənilən nəticəni vermədi. Faktiki olaraq M.Kamal paşanın 1919-cu il mayın 19-da Samsuna gəlməsi və Milli Qurtuluş Savaşına başlaması ilə Türkiyədə ikihakimiyyətlilik yaranmış oldu.

1919-cu ilin ortalarından başlayaraq Türkiyədə ikihakimiyyətliliyin yaranması Azərbaycan Cümhuriyyəti hökumətinin Türkiyəyə münasibətdə yeritdiyi siyasətində bir sıra çətinliklərin yaranması ilə müşayiət olunurdu. Azərbaycan hökuməti İstanbul hökuməti ilə rəsmi münasibətlərini davam etdirməklə yanaşı, M.Kamal paşanın rəhbərlik etdiyi Heyət-i Təmsiliyyə ilə də dolayı yolla əlaqələr qurur və bu minvalla Türkiyə milli azadlıq hərəkatına öz dəstəyini verirdi. Heyət-i Təmsiliyyə də ilk əvvəl Azərbaycanın müstəqilliyini dəstəkləyən bir siyasət yürüdürdü. Bu, Türkiyəyə qarşı genişlənməkdə olan erməni iddiaları ilə bağlı olub Qafqazda Ermənistana qarşı Azərbaycan hökumətinə yardım edilməsi zəru-

[650] Baykara T. Türk İnkılap Tarihi ve Atatürk İlkeleri, s. 123.
[651] Avcı C., Kara A. Bağımsızlığa Giden Yol, s. 189-190.

rətindən irəli gəlirdi.[652] Anadolu milli azadlıq hərəkatı tərəfindən verilən bu dəstəyə Azərbaycan hökuməti də laqeyd qalmayıb Oltuya nümayəndə göndərərək ermənilərə qarşı Heyət-i Təmsiliyyə ilə ortaq hərəkət edilməsinə çalışdı.

Anadolunun işğalına başlamış italyan və yunanlara, həmçinin onları hərtərəfli dəstəkləyən və kömək edən ingilis və fransızlara qarşı milli azadlıq hərəkatını uğurla aparmaq üçün Heyət-i Təmsiliyyənin imkanları məhdud olduğundan M.Kamal paşa böyük miqdarda maliyyə və hərbi yardımlara ehtiyac duyurdu. Türk milli azadlıq hərəkatına bu yardımı təmin edə biləcək iki ölkə var idi: Türkiyə ilə dost və qardaş olan Azərbaycan və imperializmə qarşı mübarizəni özünün əsas vəzifəsi elan edən və bununla da dünya sosialist inqilabına çalışan Sovet Rusiyası. Türkiyə ilə Azərbaycanı dostluq və qardaşlıq telləri bağlayırdısa, Türkiyə ilə Sovet Rusiyasını hər iki ölkənin Antantaya qarşı aparmaqda olduqları mübarizə və beynəlxalq aləmdə təklənmələri yaxınlaşdırırdı. Amma Azərbaycan Cümhuriyyətinin mənafelərinin Sovet Rusiyası ilə toqquşması, xüsusilə də Rusiyanın Azərbaycanın suverenliyinə qarşı düşmən mövqe tutması bu iki ölkənin eyni zamanda birlikdə Türkiyəyə yardım göstərməsini qeyri-mümkün edirdi. Faktiki olaraq Rusiyaya münasibət baxımından Azərbaycanla yeni Türkiyənin mənafeyi bir-birinə zidd idi.

Mustafa Kamal paşa, Kazım Qarabəkir paşa və Rauf Orbay Ərzurum konqresi günlərində bolşeviklərlə əlaqə yaradılması məsələsinin K.Qarabəkir paşa tərəfindən həyata keçirilməsinə qərar verdilər. Bu qərar üzrə hərəkət edən 15-ci kolordu komandanı K.Qarabəkir paşa Azərbaycandakı vəziyyəti öyrənmək və bolşeviklərlə əlaqə yaratmaq məqsədilə Ömər Lütfi bəylə Fuad Sabit bəyi Bakıya göndərdi.[653] Bu şəxslər Bakıya gələrək bu zaman Azərbaycanın baş naziri olan Nəsib bəy Yusifbəyli ilə görüşdülər

---

[652] Atatürk M.K. Nutuk. C. III. Ankara: Türk Tarih Kurumu, 1989, s. 1583; Yalçın H.C. İttihatçı Liderlerin Gizli Mektupları (Bir Devri Aydınlatan Tarihi Mektuplar). Hazırlayan: O.S.Kocahanoğlu. İstanbul: Temel Yayınları, 2002, s. 212.

[653] Karabekir K. İstiklal Harbimiz. C. I. s. 80.

və Anadoluya yardım üçün müraciət etdilər. 1919-cu il sentyabrın 2-də Ərzuruma dönən Ö.Lütfi bəy K.Qarabəkir paşaya aşağıdakı məlumatı verdi: "Qafqaza bolşevik qoşunları hələlik girməyib, amma bolşevik cərəyanları və təşkilatları vardır. Fəqət gizli. Bakıda Azərbaycan Müsavat hökuməti ingilislərin əlindədir. Bizə qarşı laqeyddirlər. Bizi ölmüş zənn edirlər və maliyyə yardımına yanaşmırlar. Bolşevizmin yaxında məhv olacağına inanırlar. Gürcü menşevik hökuməti də ingilislərin əlindədir. Bakıda və Tiflisdə böyük ingilis qoşunları görünmür. İngilislərin bütün Qafqazı boşaldacağı şayiələri də var. Bolşevik ruslarla əlaqə yaratmağa məmur edilmiş doktor Fuad bəy Moskvaya getmişdir".[654]

F.Sabit bəy isə Azərbaycanın hökumət rəhbərləri ilə görüşü və Anadoluya yardım etməklə bağlı müraciətinə Azərbaycan tərəfinin cavabını və özünün gəldiyi qənaətləri şifrələyərək Rauf bəyə göndərdi. Rauf bəy bu şifrəni aça bilməyib onu 19 oktyabr 1919-cu il tarixində K.Qarabəkir paşaya göndərdi. Şifrədə deyilirdi: "...Azərbaycan hökuməti istiqraz verməyə razıdır. Nümayəndələr gələcəkdir. Kabinə böhranı baş verdiyi üçün bu məsələ gecikmişdir...

Azərbaycan hökuməti sülh konfransında ingilislərə ümidvar olduğu üçün ehtiyat və təmkinlə hərəkət edir. Sülh konfransının məqsədi Cənubi Qafqaz konfederasiyasını yaratmaqdır. Hökumət buna tərəfdardır. Bu baxımdan açıqdan-açığa bizə yardım etmək və lazım gəldikdə düşmənçilik fikrində olmadığını anladım.

Baş nazir Nəsib bəy Rauf bəyin buraya (Azərbaycana – V.Q.) gəlməsinin müvafiq olacağını söylədi. Nə qədər silah və sursat lazım olduğunu və hansı vasitələrlə göndəriləcəyini soruşur..."[655]

F.Sabit bəyin yuxarıdakı şifrəsindən də göründüyü kimi, Azərbaycan hökuməti Türkiyə milli azadlıq hərəkatı ilə əlaqələr qurmaq və ona yardım etmək istəyirdi. Buna baxmayaraq, Azərbaycan hökumətinə qarşı mənfi münasibətdə olan K.Qarabəkir paşa Azərbaycanın yardım etmək istəyini belə nəzərə almadan Amasiyaya, 5-ci firqə komandanlığına göndərdiyi 21 oktyabr 1919-cu

[654] Karabekir K, İstiklal Harbimiz, C. I, s. 183.
[655] Yenə orada. s. 395-396.

il tarixli teleqramında Müsavat hökumətini "bol para vədi ilə" türk zabitlərini Azərbaycana cəlb və cəzb etməkdə ittiham etdi və bu kimi hərəkətlərə qarşı sərt tədbirlər görəcəyini vurğuladı.[656]

F.Sabit bəy də öz növbəsində Azərbaycan hökumətinin Anadoluya yardım etmək istədiyini və buna imkanı və gücü olduğunu öyrəndikdən bir qədər sonra Moskvada və Bakıda olan türk kommunistləri ilə razılığa gələrək bu yardımın gerçəkləşməsinə belə mane oldu. Çünki F.Sabit bəy "Hümmət" partiyası vasitəsilə bu zaman Bakıda gizli fəaliyyət göstərən rus bolşevikləri ilə artıq əlaqə qurmuşdu.[657] Bir qədər sonra Bakıda yaradılacaq Türk Kommunist Firqəsinin vəkili olan F.Sabit bəyin imzaladığı, 15-ci korpus komandanlığı vasitəsilə Heyət-i Təmsiliyyəyə çatdırılmasını istədiyi bir raportda Bakıda sovet Moskvası ilə razılaşa biləcək sollardan ibarət bir hökuməti hakimiyyət başına gətirməkdən söz açılır və bildirilirdi ki, biz buradakı fəaliyyətimizdə həmin məqsədə can atmaqdayıq.[658]

Bir sıra türk tarixçilərinin[659] Azərbaycan Cümhuriyyəti hökumətini Anadolu hərəkatına yardım göstərməməkdə və Türkiyəyə laqeyd davranmaqda ittiham etmələri həqiqətə uyğun deyildir. Real həqiqət isə odur ki, Azərbaycan hökuməti çətin beynəlxalq vəziyyətdə öz müstəqilliyinin tanınması uğrunda gərgin mübarizə aparmasına baxmayaraq, Anadolu hərəkatına həm mənəvi, həm də maddi yardımlar göstərmişdir. 1920-ci ilin martında Azərbaycan Nazirlər Şurasının sədri N.Yusifbəyli öz şəxsi vəkili Məmmədəli Əhmədzadə vasitəsilə Heyət-i Təmsiliyyəyə ümumi dəyəri 1,4 milyon fransız frankı olan 12 petrol poliçesi (çek, veksel) göndərmişdi. Lakin bir sıra siyasi səbəblər üzündən bu yardım Ankaraya

---

[656] Karabekir K. İstiklal Harbimiz. C. I, s. 396.
[657] Aslan Y. Türkiye Komünist Fırkası'nın Kuruluşu ve Mustafa Suphi, s. 79-80.
[658] Baykara H. Azərbaycan istiqlal mübarizəsi tarixi, s. 270.
[659] Erel Ş. Azerbaycan Politikacılarının Yanlışları. İstanbul: Baha Matbaası, 1968, s. 42-43; Sonyel S. Türk Kurtuluş Savaşı ve Dış Politika. C. I, s. 179-182; Gürün K. Türk-Sovyet İlişkileri, s. 19-23; Aslan B. Türkiye-Azerbaycan İlişkileri ve İbrahim Ebilov, s. 28-31; Perinçek M. Atatürk'ün Sovyetler'le Görüşmeleri. s. 22-23 və s.

vaxtında çatmamışdı. Bu gecikmə ilə bağlı Azərbaycan hökumətinin ünvanına bir sıra yersiz ittihamlar irəli sürülmüşdür. Azərbaycan milli hökumətinin göndərdiyi poliçelərdən 8-nin və 19 min türk lirəsinin yalnız 1920-ci ilin oktyabrında Ankaraya çatdığı TBMM hökumətinin xarici işlər vəkilinin açıqladığı məlumatdan anlaşılır.[660] Bunu Nağı bəy Şeyxzamanlı da öz xatirələrində təsdiqləyərək yazırdı: "1920-ci il mart ayının axırlarında Nəsib bəyin evində qonaq idim. Müxtəlif məsələlər barədə söhbət edirdik. Söhbətimiz Anadolu istiqlal savaşından düşdü. Nəsib bəy dedi: "Gec də olsa, az da olsa, Türkiyəyə bir miqdar valyuta hazırlayıb yeznəm Pişnamazzadənin bacısı oğlu Əhmədzadə Məmmədəli ilə göndərdim". Miqdarını soruşmadım. O da açıqlamadı. 1961-ci ildə Əhmədzadə Məmmədəli ilə Tehranda görüşdüm. Yardım məsələsi haqqında soruşdum, amma o, heç bir məlumat vermədi. Mən də çox soruşmadım. Əldə etdiyim məlumata görə Əhmədzadə Nəsib bəyin verdiyi pulları İstanbula göndərmişdir. O vaxt İstanbul ingilis və fransızların işğalı altında idi. Heç cür Ankaraya gedib pulu lazım olan yerə çatdıra bilməmişdi. O vaxt 27 aprel 1920-ci ildə Azərbaycanı Moskvanın əmri ilə Qızıl Ordu işğal edir. 1920-ci ilin mayında Azərbaycan Cümhuriyyətinin dövlət xadimlərinin Gürcüstana keçmələri öyrənilir. Əhmədzadə əlindəki pullardan min ingilis funtunu İtaliya bankının vasitəsilə İstanbuldan Tiflisə Nəsib bəyin adına göndərir. Halbuki Nəsib bəy Tiflisə gələrkən yolda naməlum şəxslər tərəfindən öldürülmüşdü. Min ingilis funtunu Nəsib bəyin dostları Gürcüstandakı səfirimiz vəkili Pərviz bəyin vasitəsilə alırlar. Əhmədzadə sonra Nəsib bəyin öldürülmüş olduğunu öyrənir. 1920-ci ilin oktyabr ayında Ankara hökumətinə 19 min türk kağız lirəsi və bir milyon fransız frankı verildiyi əldə etdiyim məlumatdan və əlimdə olan qəbzdən anlaşılır".[661]

[660] Keskin M. Milli Mücadele'de Azerbaycan Cumhuriyeti'nin Kuva-yi Milliye İçin Nakdi Yardım Göndermesi // Türk Yurdu, Kasım 1988, C. IX, No. 22, s. 20-22.
[661] Şeyxzamanlı N. Azərbaycan istiqlal mücadiləsi xatirələri, s. 114; Məmmədzadə M.B. Milli Azərbaycan hərəkatı. s. 129.

Azərbaycanın İstanbuldakı sabiq konsulu Məhəmməd Haşim bəy TBMM hökuməti Xariciyyə Vəkalətinin İstanbuldakı nümayəndəsi Adnan bəyə etdiyi 11 fevral 1923-cü il tarixli müraciətində Azərbaycan hökumətinin Anadolu hərəkatına göndərdiyi 1,4 milyon frank yardımın Ankaraya göndərilməsi ilə bağlı yazırdı: "Milli hökumət adına sabiq Azərbaycan hökuməti rəisi tərəfindən göndərilən 1,4 milyon frankı tam şəkildə qoruyaraq Damad Fərid zamanı kimi müdhiş bir dövrdə Ankaraya göndərdim. Sonradan bu məbləğin 14 min lirə kəsrlə təslim edildiyini öyrənərək uzun mücadilələr nəticəsində bu məbləğin də Hilal-i Əhmər vasitəsilə Ankaraya Mustafa Kamal paşa həzrətlərinin adına göndərilməsinə nail oldum".[662] M.Haşim bəyin bu müraciətindən də anlaşılır ki, göndərilən 1,4 milyon frank tam şəkildə Ankaraya çatdırılmışdır.

Türk tarixçisi Şerafettin Erel Azərbaycan Cümhuriyyətinə qarşı iftiralarla dolu "Azərbaycan Politikacılarının Yanlışları" əsərində bu yardımın azlığından şikayətlənərək yazırdı: "...Yardım miqdarı 19 min türk kağız lirəsi və bir milyon fransız frankıdır. Bu sənədi gördükdən sonra üzülməmək olmur. Çünki mindən artıq şəhid verərək və milyonlarla pul sərf edərək Azərbaycanı düşmən əlindən qurtarıb, ona istiqlal qazandıran vəfakar Türkiyəyə Azərbaycan hökumətinin etdiyi yardım bundan ibarətdirsə, üzülməkdə əlbəttə haqlıyıq..."[663] Azərbaycan xalqının xilasında və Bakının azad edilməsində türk ordusunun xidmətlərini yüksək qiymətləndirməklə bərabər, Ş.Erelin iddiası ilə bağlı qeyd etməliyik ki, "müsəlmanların xilas edilməsi" türk qoşunlarının Qafqazdakı hərbi əməliyyatlarını həyata keçirmək üçün bir bayraq rolunu oynadığı halda, Azərbaycanın ilhaq edilməsi Türkiyənin əsas məqsədlərindən idi. Azərbaycan Cümhuriyyətinin süqutundan sonra Anadoluya keçməyə məcbur olan Azərbaycan ordusunun əsgər və zabitləri də Türkiyə milli azadlıq müharibəsində mərdliklə vuruşmuşlar. Onlardan bir çoxu qəhrəmanlıqla şəhid olmuş, bəziləri isə türk ordusunda general rütbəsinədək ucalmışlar. Bu, türk əsgərinin 1918-ci ildə göstərdiyi qardaşlıq köməyinə Azərbaycanın verdiyi

[662] BOA, HR.İM, no. 60/3.
[663] Erel Ş. Azerbaycan Politikacılarının Yanlışları, s. 42.

qarşılıq idi. Amma Ş.Erel kimi tarixçilər nədənsə bunları unudurlar. Yardım məsələsinə gəldikdə isə, qeyd olunmalıdır ki, bu dövrdə ingilislərin nəzarətində olan İstanbuldakı sultan hökuməti Azərbaycan nümayəndəsi Ə.Topçubaşovu Rusiya nümayəndəsi kimi qəbul etməyə məhkum olduğu kimi[664], dünya müharibəsinin qalibi olan İngiltərə vasitəsilə Azərbaycanın müstəqilliyinin beynəlxalq arenada tanınmasına çalışan Bakı hökuməti də ingilisləri qıcıqlandırmamaq üçün Anadolu hərəkatına açıq formada və böyük miqdarda hərbi və maliyyə yardımları göstərə bilmirdi və bunları gizli şəkildə etməyə məcbur idi. Halbuki, bu dövrdə Azərbaycan hökumətinin Anadoluya yardım etmək fikrində olduğunu ingilis hökuməti gizli agentləri vasitəsilə öyrənmişdi. Admiral Robecton Lord Kerzona belə bir şifrə göndərmişdi: "Azərbaycan hökuməti ilə Türkiyə millətçiləri həmfikirdirlər. Azərbaycana silah vermək lazım deyil".[665]

İngilis əsirliyindən qaçan Nuru paşa da 1919-cu ilin sentyabrında Bakıya gələrək, burada yarımrəsmi "Türkiyə Xalqının Təmsilçiliyi"ni qurdu və Anadolu hərəkatı üçün dəstək və maliyyə yardımı təmin etməyə çalışdı.[666] Bu təşkilatın bütün məsrəfləri Azərbaycan hökuməti tərəfindən ödənilirdi. Lakin Nuru paşa Azərbaycanın idarəçiliyindəki bəzi önəmli məqamlara türkiyəli ittihadçıları gizlicə yerləşdirməyə başladı və bununla da iqtidarı ələ keçirməyə çalışdı.[667] Türk millətçiləri də bu təşkilatın üzvləri vasitəsilə Azərbaycan hökuməti ilə qeyri-rəsmi əlaqələr qurdular. Nəticədə 1919-cu ilin dekabrında Azərbaycan hökuməti Anadolu hərəkatına maliyyə yardımı göndərdi.[668] Lakin bu da Bakıdakı türklərin Azərbaycan Cümhuriyyətinin süqutuna yönəlmiş fəaliyyətini dayandıra bilmədi.

---

[664] BOA. İ.DUİT, no. 12/29, v. 1. 2; HR.MTV. no. 639/1. v. 1. 2.
[665] Baykara H. Azərbaycan istiqlal mübarizəsi tarixi, s. 271.
[666] Swietochowski T. Müslüman Cemaatten Ulusal Kimliğe Rus Azerbaycanı, s. 213.
[667] Sonyel S. Türk Kurtuluş Savaşı ve Dış Politika. C. I. s. 180.
[668] Swietochowski T. Müslüman Cemaatten Ulusal Kimliğe Rus Azerbaycanı, s. 215.

Azərbaycan Cümhuriyyəti hökuməti özünün ən kritik durumunda belə, Anadolu hərəkatına yardımlarını əsirgəmədi. 1920-ci il 23 mart tarixində Azərbaycan hökumətinin təşəbbüsü ilə Anadolu hərəkatına yardım kampaniyasına başlanıldı. Qısa vaxt ərzində Bakı İstiqraz Bankına 3 min funt-sterlinq pul toplandı və kampaniya bitəndən sonra toplanan ümumi miqdarın Anadoluya göndərilməsi planlaşdırıldı.[669] Lakin bolşevik işğalı ilə əlaqədar bu iş sona çatmadı.

F.X.Xoyskinin qardaşı Rüstəm Xan Xoyskinin bildirdiyinə görə, Azərbaycan hökuməti Anadolu hərəkatına yardımı, Ermənistan vasitəsilə mümkün olmadığı üçün, İran vasitəsilə həyata keçirməyi planlaşdırırdı.[670] M.Kamal və K.Qarabəkir paşalar tərəfindən Ö.Lütfi bəy ilə birlikdə Bakıya göndərilən F.Sabit bəyin raportundan da anlaşılır ki, Azərbaycan hökuməti Anadolu hərəkatına maliyyə və hərbi yardım göstərməyə hazır olduğunu bildirmiş və baş nazir N.Yusifbəyli Anadoluya göstəriləcək yardım üçün danışıqlar aparmaq məqsədilə Heyət-i Təmsiliyyənin üzvü kimi Rauf bəyin Bakıya gəlməsinin müvafiq olduğunu söyləmişdi.[671] Lakin Türkiyə milli azadlıq hərəkatının liderləri Azərbaycanın yardım etmək istəyinə qətiyyən yanaşmadılar və buna heç bir reaksiya vermədilər. Çünki artıq bu arada M.Kamal paşa Rusiya bolşevik hökumətinin nümayəndələri ilə bir sıra görüşlər keçirmiş, eyni zamanda F.Sabit bəy də Bakıdakı "Hümmət" partiyası vasitəsilə Rusiya Kommunist (bolşeviklər) Partiyasının (RK(b)P) Qafqaz Komitəsinin nümayəndələri ilə əlaqələr qurmuş və nəticədə hər iki istiqamətdən aparılmış danışıqlarda Sovet Rusiyasının Anadolu hərəkatına hər cür hərbi və maliyyə yardımları göstərməyə hazır olduğu bəlli olmuşdu. Belə bir vəziyyətdə göstəriləcək bolşevik yardımlarının qarşılığı olaraq Azərbaycanın sovetləşdirilərək Rusiyanın nəzarətinə verilməsini qəbul edən və bunun tez-

[669] BOA, HR.İM, no. 89/65, v. 1, 2; Ernetin S.K. Anadolu'da ve Azerbaycan'da Türklere Uygulanan Bitmeyen Soykırım. İstanbul: Töre Yayınları, 2003, s. 301-302.

[670] Baykara H. Azərbaycan istiqlal mübarizəsi tarixi, s. 272.

[671] Karabekir K. İstiklal Harbimiz. C. I. s. 395-396.

liklə həyata keçirilməsi üçün cidd-cəhdlə çalışan Anadolu hərəkatının Azərbaycan milli hökumətinin yardım etmək istəyinə müsbət yanaşmaması təbii idi. Çünki Rusiyanı 1914-cü il sərhədlərində bərpa etməyə çalışan sovet hökumətinin Anadolu hərəkatının Azərbaycan Cümhuriyyəti hökuməti ilə əməkdaşlıq etməsini duyması Anadoluya vəd edilən bolşevik yardımlarını təhlükəyə sala bilərdi. Məhz bu səbəbdən Anadolu hərəkatı Azərbaycan hökumətinin Türkiyəyə yardım etmək istəyinə etinasız yanaşdı, F.Sabit bəy kimi şəxslər isə bolşeviklərlə razılığa gəldikləri üçün hətta bu yardımın gerçəkləşməsinə belə mane oldular.[672]

Qeyd etdiyimiz kimi, Azərbaycan hökuməti Paris sülh konfransında ölkənin müstəqilliyinin tanınması üçün ingilislərin dəstəyini qazanmağa çalışırdı. Bu səbəbdən hökumət Anadolu hərəkatı ilə münasibətlərində müəyyən mənada ehtiyatlı davranmağa və türklərə yardımlarını açıq-aydın deyil, gizli şəkildə etməyə məcbur idi. Bununla belə, ingilislər Azərbaycan hökumətinə o qədər də güvənmirdilər, Çünki Azərbaycanın M.Kamal paşa ilə anlaşdığına dair xəbərlər yayılırdı. Robecton tərəfindən İngiltərənin xarici işlər naziri Lord Kerzona göndərilən şifrədə Azərbaycan hökumətinin Türkiyə millətçiləri ilə həmfikir olmasından bəhs edilir və Azərbaycana silah göndərilməsinə ehtiyac olmadığı vurğulanırdı.[673]

İngilis kəşfiyyatı Ə.Topçubaşovdan sonra Azərbaycanın İstanbuldakı diplomatik nümayəndəsi olan Yusif Vəzirovun M.Kamal paşanın nümayəndəsi ilə görüşdüyü haqda məlumat əldə etmişdi. Bu görüşdə Y.Vəzirovun millətçilərdən birinə irq və din baxımından qardaş olan türklərlə azərbaycanlıların bir-birlərini dəstəkləmələrinin vacib olduğunu vurğuladığı və Türkiyə ilə Azərbaycan arasında imzalanacaq bir razılığın bu iki ölkə arasındakı qardaşlığın ilk sağlam təzahürü olacağını önə sürdüyü bildirilirdi.[674] Bundan bir qədər sonra Azərbaycanla İstanbul hökuməti və ya türk millətçiləri arasında saziş imzalandığına dair Böyük

---

672 Baykara H. Azərbaycan istiqlal mübarizəsi tarixi, s. 270.
673 Yenə orada, s. 271.
674 Sonyel S. Türk Kurtuluş Savaşı ve Dış Politika. C. 1. s. 181.

Britaniya Xarici İşlər Nazirliyinə məlumat daxil oldu. Bu məlumatı Bakıdakı İran təmsilçisindən duyan İraqdakı ingilis ali komissarı S.P.Koks göndərmişdi. Bunun ardınca İstanbuldakı ingilis ali komissarı admiral S.J.Robek də bunu təsdiqləyəcək aşağıdakı məlumatı Böyük Britaniya Xarici İşlər Nazirliyinə göndərdi:

"Sazişin 29 noyabr 1919-cu ildə Osmanlı hərbi naziri Cevat paşa ilə Azərbaycanın hərbi təmsilçisi Kərimov tərəfindən imzalanmış olduğu güman edilir. Bir il müddətinə müdafiə məqsədi ilə imzalanan bu sazişə görə, tərəflərdən birinin müstəqilliyi və ya ərazi bütövlüyü qonşu bir dövlət tərəfindən təhdid edilərsə, digəri yardıma gedəcək; Türkiyə Azərbaycana əsgər göndərəcək".[675]

İngilis hərbi və siyasi dairələri belə bir sazişin həqiqətən də imzalandığına inanırdılar və bununla bağlı heyrətlərini gizlətmirdilər. Amma bunun türk millətçiləri ilə Azərbaycan hakimiyyəti, ya da müxalifət nümayəndələri arasında imzalana biləcəyini də ehtimal edirdilər.

Türk tarixçisi S.Sonyel yazırdı ki, "general Kərimov türk millətçiləri ilə sıx təmas halında olduğuna inanılan Azərbaycandakı müxalif İttihad partiyasının nümayəndəsi idi. Dolayısıyla bu gizli sazişi Azərbaycan hökuməti bağlaya bilməzdi. Hər halda türk millətçiləri ilə Azərbaycandakı müxalifət nümayəndələri arasında bir sıra sözləşmələr olmalı idi".[676]

Azərbaycanla Anadolu arasında yaxınlaşma daha çox erməniləri narahat etdiyindən, onlar Avropa siyasi dairələrinə belə bir fikir təlqin edirdilər ki, guya Türkiyə ilə Azərbaycan arasında gizli bir hərbi saziş mövcuddur. Çox ehtimal ki, ermənilərin səyi nəticəsində İngiltərənin "Tayms" qəzeti 1920-ci il mart ayının 20-də Azərbaycanla Türkiyə arasında guya gizli hərbi sazişin olduğu barədə məlumat çap etdi.[677] Bu şayiələrin yayılmasında əsas məqsədlərdən biri Azərbaycanı müttəfiqlərin yardımından məhrum etmək idi. Ə.Topçubaşov Parisdə müttəfiq dövlətlərin səlahiyyətli nümayəndələrinə nota təqdim edərək bu şayiələri qətiyyətlə rədd

[675] Sonyel S. Türk Kurtuluş Savaşı ve Dış Politika. C. 1. s. 181.
[676] Yenə orada, s. 181.
[677] Həsənov C. Azərbaycan beynəlxalq münasibətlər sistemində, s. 343.

etdi. O, 1919-cu ilin dekabrında Londonda olduğu zaman da, Kərimov soyadında bir nəfərin heç bir şəkildə Azərbaycan hökumətini təmsil etmədiyi kimi Azərbaycan ordusunda da belə bir şəxsin olmadığını açıq bir şəkildə bəyan etdi.[678]

Əslində bu əsassız iddiaları Azərbaycanın İstanbuldakı diplomatik nümayəndəsi Y.Vəzirovun Osmanlı xarici işlər naziri ilə görüşündən sonra erməni qəzetləri irəli sürmüşdülər.[679] Y.Vəzirov da öz növbəsində bu iddiaları təkzib edərək bəyan edirdi ki, Osmanlı hökuməti tərəfindən Azərbaycanın müstəqilliyi indiyə qədər rəsmən tanınmadığından bu iki ölkə arasında hər hansı bir sazişdən söhbət gedə bilməz.[680]

Bütün bunlara baxmayaraq, İngiltərə xarici işlər naziri Lord Kerzon yenə də Azərbaycan hökumətindən şübhələnirdi. Ona görə də bu arada Bakıya səfər etməkdə olan ingilislərin Tiflisdəki təmsilçisi O.Uordropa bildirilirdi ki, Azərbaycan hökumətindən "türklərlə aralarında imzalandığı söylənilən gizli sazişi rəsmən təkzib etməsi"ni istəsin. O.Uordropun istəyi üzrə Azərbaycan hökuməti 18 fevral 1920-ci il tarixində belə bir sazişin imzalanmadığı ilə bağlı rəsmi təkzib verdi.

Trabzondakı ingilis və fransız nümayəndələri Krouford və Le Piye 7 fevral 1920-ci il tarixində Trabzon vali vəkili ilə görüşüb, İstanbulda fransızca nəşr olunan "Bosfor" qəzetinə istinadən "Azərbaycan və Gürcüstandan Trabzona iki nümayəndə heyətinin gələrək vilayət valisi ilə görüşüb danışıqlar apardıqlarını" bildirdilər və bu məsələ ilə bağlı izahat tələb etdilər. Vali vəkili Emin bəy bu məlumatı qəti şəkildə təkzib etdi və bunun qəzet müxbirinin xəyal məhsulu olan yalandan başqa bir şey olmadığını bəyan etdi.[681] Osmanlı xarici işlər naziri də İstanbuldakı ingilis ali komissarlığının nümayəndəsi A.Ryanla görüşərkən, belə bir sazişin varlığını rəsmən təkzib etdi.[682]

---

678 Yeni Gün, 3 Nisan 1920, no. 371.
679 Türk Dünyası, 30 Ekim 1919.
680 Yeni Gün, 2 Kasım 1919, no. 226.
681 BOA, DH.ŞFR, no. 658/81, v. 1-5
682 Sonyel S. Türk Kurtuluş Savaşı ve Dış Politika. C. 1. s. 182.

Anadolu hərəkatı ilə də Azərbaycan hökuməti arasında belə bir saziş ola bilməzdi. Çünki Anadolu hərəkatı Azərbaycan hökumətinin "ingilismeyilli" siyasətindən qətiyyən məmnun deyildi və bu hökuməti devirmək üçün müxalifət partiyalarına əlindən gələn yardımlarını edirdi. Belə bir halda Anadolu hərəkatı ilə Azərbaycan hökuməti arasında hər hansı bir sazişin imzalanmasından söhbət gedə bilməzdi. Olsa-olsa, belə bir saziş mövcud vəziyyətdə Anadolu hərəkatı ilə Azərbaycan müxalifəti arasında imzalana bilərdi. Lakin bunu da təsdiqləyəcək elə bir sənədə rast gəlmədik.

Qeyd etdiyimiz kimi, Azərbaycan hökuməti Anadolu hərəkatına yardım etmək istəyində olmuşdu və bunu M.Kamal paşanın nümayəndələrinə bildirmişdi. Bununla belə, dünya müharibəsinin qalibi olan Antanta dövlətlərinə qarşı milli azadlıq müharibəsi aparan M.Kamal hərəkatına Azərbaycan hökumətinin açıq-aydın dəstək verməsi və yardım göstərməsi Azərbaycanın öz suverenliyi üçün təhlükə doğururdu. O da qeyd olunmalıdır ki, Azərbaycan xalqına qarşı erməni-bolşevik bandaları tərəfindən həyata keçirilən milli qırğınların dayandırılmasında və xalqın xilasında böyük qurbanlar bahasına danılmaz xidmətlər göstərmiş Osmanlı dövləti hələ mövcud idi. Azərbaycan hökuməti də İstanbul hökuməti ilə rəsmi münasibətlərini davam etdirirdi. M.Kamal hərəkatının isə nə ilə nəticələnəcəyi hələ bəlli deyildi. Sultan hökuməti Anadolu hərəkatını qiyam, M.Kamalı isə cani elan etmişdi. Belə bir vəziyyətdə vaxtilə Azərbaycana yardım göstərmiş Osmanlı dövlətinin (Sultan hökumətinin) özünə qarşı qiyam elan etdiyi bir hərəkata Azərbaycan Cümhuriyyəti hökumətinin açıq-aydın dəstək və yardım göstərməsi xəyanət kimi qiymətləndirilə bilərdi.

Lakin Azərbaycan hökuməti Türkiyənin xilasını qarşısına məqsəd qoymuş Anadolu hərəkatına, gizli yolla da olsa, dəstək verir və yardımlar edirdi. Fəqət Anadolu hərəkatının liderləri bütün bunları diqqətə almırdılar. Anadolu hərəkatının ehtiyac duyduğu böyük miqdarda hərbi və maliyyə yardımlarını yuxarıda göstərdiyimiz səbəblər üzündən Azərbaycan hökuməti tam təmin edə bilməsə də, bolşeviklərin vədləri M.Kamal paşa üçün daha ümidverici idi. Buna görə də Anadolu hərəkatı Azərbaycanın yardım

etmək istəyini cavabsız qoyaraq bolşevik Rusiyası ilə anlaşmaq yolunu tutdu. Bunun üçün isə "ingilis siyasətinin tərəfdarı və bolşevik əleyhdarı olan" Azərbaycan milli hökumətini çox qısa bir zaman ərzində yıxmaq və bolşeviklərlə razılığa gələ biləcək bir hökuməti hakimiyyət başına gətirmək lazım idi.

## § 2. Rusiya-Azərbaycan münasibətləri və 1920-ci ilin aprel istilası

Azərbaycan Cümhuriyyətinin yarandığı ilk gündən başlayaraq Sovet Rusiyası bu cümhuriyyəti tanımamaq siyasəti yeritməklə bərabər əlində olan bütün vasitələrlə ona qarşı mübarizə aparmağa başladı. Çünki Sovet Rusiyası yarandığı ilk gündən başlayaraq "vahid və bölünməz Rusiya" prinsipindən çıxış edirdi. Lakin 1918-ci ilin yayında Sovet Rusiyasının Cənubi Qafqazda gedən siyasi və hərbi proseslərə təsir etmək imkanı həddindən çox məhdud olduğundan, bolşeviklər bu dövrdə bütün diqqətini Bakıya yönəldib heç olmasa sovet hökuməti üçün həyati əhəmiyyət daşıyan bu şəhəri öz əllərində saxlamağa cəhd etdilər, lakin bu cəhd də uğursuzluğa düçar oldu, nəticə etibarilə Türkiyə və Azərbaycan hərbi hissələrindən təşkil olunmuş Qafqaz İslam Ordusu sentyabrın 15-də Bakıya yiyələndi. Bakının azad olunmasını "özünün ərazi bütövlüyünə qəsd" kimi qiymətləndirən Moskva hökuməti 1918-ci il sentyabr ayının ikinci yarısında Berlində aparılan rus-alman və rus-türk danışıqlarında Türkiyənin öz qoşunlarını Brest-Litovsk sülhünün müəyyən etdiyi sərhədlərə çəkməsini və Bakını sovet hakimiyyət orqanlarına təhvil verməsini tələb etdi. Lakin bu tələb türk diplomatiyası tərəfindən rədd edildi. Belə olduqda, artıq dünya müharibəsinin yekunlaşmaq üzrə olduğunu görən Sovet Rusiyası Brest sülhünün Türkiyəyə aid hissəsinin qüvvədən düşdüyünü bəyan etdi və Osmanlı imperiyası ilə diplomatik münasibətlərini kəsdi. Az sonra, 1918-ci il noyabrın əvvəlində Avstriya-Macarıstan və Almaniya da təslim aktını imzalayan kimi Sovet Rusiyası

Brest-Litovsk müqaviləsinin qüvvədən düşdüyünü bəyan etdi. Bu da o demək idi ki, sovet hökuməti Rusiyanı köhnə imperiya sərhədlərində bərpa edəcəkdir. Lakin bu dövrdə sovet hökumətinin başı daxildə vətəndaş müharibəsinə qarışdığından o, milli ucqarlarda, o cümlədən Azərbaycanda gedən proseslərə fəal müdaxilə edə bilmirdi. Bununla belə, Moskva hökuməti bu arada Bakıdakı kommunistləri təşkilatlandırmaqla məşğul olur və Azərbaycan milli hökumətinə qarşı təzyiqlərini davam etdirirdi.

Azərbaycan Cümhuriyyəti hökuməti isə öz növbəsində, bir tərəfdən Sovet Rusiyasının ölkənin suverenliyinə qarşı yönəlmiş hərəkətlərini zərərsizləşdirməyə çalışır, digər tərəfdən də onunla normal qonşuluq münasibətləri qurmağa səy göstərirdi. M.Ə.Rəsulzadə parlamentin açılışındakı (07.XII.1918) nitqində Azərbaycan hökumətinin Rusiyaya münasibətini belə şərh edirdi: "...Bilirsiniz ki, bizim Rusiya camaatına qarşı heç ədavətimiz və nifrətimiz yoxdur. Bezar olduğumuz Rusiya, çarizm Rusiyası, Rusiya istibdadıdır. Rusiyaya nifrətimiz Rusiya istibdadı altında inləyən Rusiya camaatına nifrət demək deyildir. Bizcə, mənfur olan Rusiya, millətləri əzən və hüquqlarını verməyən rəsmi Rusiyadır. Hər bir millət müstəqil və hürr olmalı, hürr olduqdan sonra digər millətlər ilə ürəyi istədiyi kimi əqdi-ittifaq etməlidir... Biz Rusiya camaatının düçar olduğu fəlakətdən qurtulmasını ürəklə istəyirik. Biz Rusiya hökumətinin həqiqi rus demokratiyası əlinə keçməsi tərəfdarıyıq. Çünki Qafqaz dağlarının şimalında təşəkkül edən müstəbid və təcavüzkar bir hökumətə biz laqeyd qala bilmərik. Biz Rusiyanın səadətini istəyirik, Rusiya camaatını sevirik, fəqət, öz istiqalalımızı da əziz tuturuq. Cəbr ilə qəbul etdirilən bir şeydə səadət olmaz. Çünki səadət və hürriyyət istiqlaldır. İştə bunun üçün əfəndilər, müstəqil Azərbaycanı təmsil edən o üç boyalı bayrağı Şurayi-Milli qaldırmış, türk hürriyyəti, islam mədəniyyəti və müasir Avropa iqtidarı – əhrarınəsini təmsil edən bu üç boyalı bayraq daima başlarımızın üstündə ehtizaz edəcəkdir. Bir dəfə qaldırılmış bayraq bir daha enməyəcəkdir..."[683]

---

683 Azərbaycan Xalq Cümhuriyyəti (1918-1920). Parlament (Stenoqrafik hesabatlar). 1 c., s. 34-35.

Azərbaycan hökuməti Sovet Rusiyası tərəfindən rəsmən tanınmasa da, onunla iqtisadi-ticarət əlaqələri qurmağa çalışırdı. Azərbaycan hökumətinin sədri N.Yusifbəyli 1919-cu ilin yazında Sovet Rusiyası ilə iqtisadi-ticarət əlaqələrini bərpa etməyə cəhd göstərdi. Lakin Rusiyada hökm sürən vətəndaş müharibəsi və anarxiya, həmçinin Rusiyanın Azərbaycanın müstəqilliyini həzm edə bilməməsi səbəbindən iki ölkə arasında iqtisadi münasibətlər qurmaq mümkün olmadı.

Sovet Rusiyası isə gələcəkdə ölkənin işğalını həyata keçirmək üçün Azərbaycanda özünə siyasi dayaq yaratmaqla məşğul idi və bunun üçün ideoloji-təbliğati işlərini gücləndirirdi. Nəticədə, hazırlanmış plana uyğun olaraq "Hümmət" partiyası iki yerə parçalandı: Sosial-demokrat fəhlə partiyası "Hümmət" istiqlal prinsipini qəbul edərək, açıq fəaliyyət göstərməkdə davam edir, onun nümayəndələri parlamentin işində iştirak edir, hətta hökumətdə nazir vəzifəsi belə tuturdular; ikinci qrup – bolşevik "Hümmət" isə silahlı üsyan yolunu seçdi. Yerli bolşeviklər Həştərxanda (sonra isə Moskvada) olan Azərbaycan kommunist mühacirəti ilə sıx əlaqə saxlayır, onların yardımı ilə asılı olduqları RK(b)P ilə münasibətləri nizamlamağa çalışırdılar. Moskvada və Bakıda olan bolşeviklərin səyi ilə RK(b)P Siyasi Bürosu 1919-cu il iyulun 19-da "Hümmət" partiyasının vilayət komitəsi hüququnda muxtar kommunist partiyası kimi və Azərbaycanın müstəqil sovet respublikası kimi tanınması haqqında müəmmalı qərar qəbul etdi.[684] Lakin RK(b)P-nin Qafqaz Komitəsi "Hümmət"in partiya adlandırılmasına razılıq vermədi. Bir qədər sonra Mirzə Davud Hüseynov bu məsələ ilə bağlı qeyd edirdi: "Biz deyirdik ki, keçmiş "Hümmət"i biz Rusiya Kommunist Partiyasının təşkilatı adlandırsaq, bununla biz tək müsavatçılar deyil, həm də "Hümmət"in kənara atdığımız sağ cinahının əlinə böyük təxribat silahı vermiş olarıq... Biz göstərirdik ki, müsavatçılar elə indi də bizi xalqı satmaqda, Rusiyanın casusları olmaqda ittiham edirlər; onlar deyirlər ki, biz hümmətçilər ruslara satılmışıq, yenidən rusları gətirmək üçün öz milli haki-

[684] Nəsibzadə N. Bölünmüş Azərbaycan, bütöv Azərbaycan. s. 107.

miyyətimizi devirmək istəyirik... Qeyd etmək lazımdır ki, lap əvvəldən Azərbaycan Kommunist Partiyası haqqında ideyanın meydana çıxmasından başlayaraq, hümmətçilər və bizə qoşulmuş eserlər belə bir fikirdə idilər ki, söhbət yalnız formal partiyadan gedir, faktiki olaraq bu, RK(b)P-nin təşkilatı olacaq və həm RK(b)P Mərkəzi Komitəsinin, həm də Qafqaz Diyar Komitəsinin bütün direktivlərini yerinə yetirəcək. Lakin Tiflis bürosundan olan yoldaşlar heç eşitmək belə istəmirdilər".[685]

1919-cu il 2-9 dekabr tarixində keçirilmiş RK(b)P-nin VIII ümum-Rusiya konfransının qərarına əsasən milli təşkilatlar buraxılmalı, RK(b)P-nin yerli təşkilatları ilə ərazi şöbələri hüququnda bir təşkilat şəklində birləşməli idilər.[686] RK(b)P-nin Bakı Komitəsinin başçısı Anastas Mikoyanın təşəbbüsü ilə təbliğat işini yoluna qoymaq məqsədi ilə 1919-cu ilin mayında "Sovet Azərbaycanı uğrunda" (bəzi sənədlərdə "Müstəqil Sovet Azərbaycanı") şüarı irəli sürüldü. RK(b)P Qafqaz Diyar Komitəsinin II plenumunda qərara alındı ki, Azərbaycan, Gürcüstan və Ermənistanda sovet respublikaları yaradılacaq, onlar əvvəl Qafqaz federasiyasında birləşəcək, daha sonra ümum-Rusiya federasiyasına daxil olacaqlar. Beləliklə, sözdə müstəqil sayılacaq Azərbaycan Rusiyaya bağlı sovet respublikasına çevrilməli, Azərbaycan kommunist təşkilatı da RK(b)P-nin yerli təşkilatı statusuna malik olmalı idi. Bu, dövrün əsas şüarı olan dünya sosialist inqilabı şüarının tələblərindən doğur, dağılmış Rusiya imperiyasının keçmiş müstəmləkələrinin yenidən Rusiya tərkibinə qatılması məqsədinə uyğun gəlirdi. Azərbaycanda, xüsusən Azərbaycandan kənarda olan bolşeviklər nəinki Azərbaycanın, hətta bütün Şərqin bolşevikləşməsini özlərinin amalı hesab edirdilər. Bu amalda Azərbaycan istiqlalına yer yox idi.[687]

---

[685] Караев А.Г. Из недавнего прошлого. Баку: Бак. Рабочий, 1923, с. 241; Nəsibzadə N. Azərbaycanın xarici siyasəti, s. 240-241.

[686] Swietochowski T. Müslüman Cemaatten Ulusal Kimliğe Rus Azerbaycanı, s. 229-230.

[687] Nəsibzadə N. Azərbaycanın xarici siyasəti, s. 241, 242.

Sovet Rusiyası 1919-cu ildə Azərbaycana hər hansı bir hərbi müdaxilə etmək iqtidarında deyildi. Bununla belə, sovet rəhbərliyi müxtəlif yollarla Azərbaycan Cümhuriyyəti hökumətinə qarşı təzyiqlərini davam etdirirdi. Bu işdə Azərbaycan əhalisinə təsir etmək imkanlarına malik olan Nəriman Nərimanov və digər azərbaycanlı bolşeviklərin "xidmətləri"ndən istifadə edilirdi. Bolşevik ideyalarına coşğun aludə olub "dünya sosialist inqilabı" mövqeyində duran və nəinki Azərbaycanın, habelə bütün Şərqin sovetləşməsini özünün amalı sayan N.Nərimanov Sovet Rusiyasının Azərbaycan milli hökumətinə yönələn siyasi-ideoloji təzyiqlərini açıq-aydın dəstəkləyirdi. O, 16 iyul 1919-cu il tarixində Azərbaycan Cümhuriyyətinin baş naziri N.Yusifbəyliyə göndərdiyi məktubunda yazırdı: "Kolçak darmadağın edildi. Tezliklə Denikinin də axırına çıxacaqlar. Sovet Rusiyasının qüdrətli qolları tamamilə açılacaqdır. Əgər siz əvvəlki kimi kar və korsunuzsa, əgər indi, xüsusən Versal sülhündən sonra dünya miqyasında nələr olduğunu görmür və eşitmirsinizsə, onda Sovet Rusiyası sizin üçün bir o qədər qorxulu deyildir... Bütün siyasətiniz üçün Cənubi Qafqaz müsəlman fəhlə və kəndlilərinin məhkəməsi qarşısında cavab verməli olacağınız müdhiş saat yaxınlaşır... Onda sizdən soruşacaqlar: bəs bilmirdinizmi ki, Azərbaycan və Bakı şəhəri Sovet Rusiyası barəsində xüsusi mövqe tuturdu? Sovet Rusiyasının Ermənistan və Gürcüstanla əlaqəsi xüsusi rol oynamır, amma Bakı Sovet Rusiyasının həyatıdır. Siz qabaqcıl müsəlmanlar isə daim bu ciddi məsələ ilə oynayaraq rus fəhlələrinə və kəndlilərinə son dərəcə nankorluq etdiniz... Mərd-mərdanə deyin: biz Rusiya inqilabının xarakterini anlamamışıq, biz dağıdıcı imperialist müharibəsinin bütün nəticələrini nəzərə ala bilməmişik, biz meydandan çəkilirik, Azərbaycanda qoy sovet hakimiyyəti olsun! Mən əminəm ki, bununla siz rus proletariatı qarşısında təqsirinizi yüngülləşdirmiş olacaqsınız".[688]

1919-cu ilin axırları üçün Rusiyadakı vətəndaş müharibəsinin sonu görünməyə və burada qalib çıxacaq tərəf aydınlaşmağa baş-

---

[688] Нариманов Н. Избранные произведения. В трех томах. Т. 2. Баку: Азернешр. 1989. с. 202-206.

ladı. Vəziyyət Sovet Rusiyasının xeyrinə dəyişdi. Qeyd edək ki, bu vəziyyət Denikini də özünün Qafqaz siyasətinə yenidən baxmağa məcbur etdi. Nəticədə Azərbaycanın istiqlalı Denikin tərəfindən gec də olsa, tanındı (11.II.1920). Denikin hətta Azərbaycan və Gürcüstan ilə bolşeviklərə qarşı hərbi əməkdaşlığa da səy (Kovalyovun missiyası) göstərdi.[689] Lakin artıq gec idi. Bu gecikmiş addım Denikinin özünün iflasının səbəblərindən biri idi.

Bolşevik ordularının Denikin könüllülərini sıxışdırıb cənuba doğru irəliləməsi ilə Sovet Rusiyasının Azərbaycanın daxili işlərinə müdaxiləsi gücləndi. V.İ.Lenin tərəfindən Sovet Rusiyasına "hücum edən on dörd dövlət"in siyahısına salınan Azərbaycan onun təcavüzünün başlıca hədəfi kimi seçildi. Lakin sovet hökuməti ilk əvvəl diplomatik gedişlər edərək Azərbaycanı Rusiyadaxili hərbi qarşıdurmaya qatmağa çalışdı. 1920-ci il yanvarın 2-də RSFSR xalq xarici işlər komissarı G.Çiçerin radioteleqrafla Azərbaycan hökumətinə nota verdi. Nota Azərbaycan xalqına və hökumətinə müraciət ruhunda idi. Burada Yudeniç və Kolçakı məhv etdikdən sonra rus Qızıl Ordusunun Denikinə qarşı apardığı uğurlu mübarizədən bəhs olunur və Denikinə qarşı hərbi ittifaq bağlamaq təklif edilirdi. G.Çiçerin notanın sonunu xəbərdarlıq ruhunda bitirirdi: "Biz Azərbaycanı və Azərbaycan xalqını nə qədər ki, gec deyil, Denikinə qarşı mübarizəyə başlamağa çağırırıq. Azərbaycan dövlətinin və onun zəhmətkeş siniflərinin maraqlarının düzgün başa düşülməsi Azərbaycanı bizim təklifimizə razılıq verməyə məcbur etməlidir".[690]

G.Çiçerinin notası yanvarın 6-da Azərbaycan Dövlət Müdafiə Komitəsində müzakirə edildi və nəticədə aşağıdakı qərar qəbul olundu:

1. Xarici işlər nazirinə tapşırılsın: Sovet Rusiyasının təklifi barədə Gürcüstanla məsləhətləşdikdən sonra Sovet Rusiyasına cavab verilsin ki, Azərbaycan Cümhuriyyəti azad və müstəqil dövlət

---

[689] Musayev İ. Azərbaycanın xarici siyasəti, s. 209.
[690] ARDA, f. 894, siy. 10, iş 106, v. 1, 3; f. 897, siy. 1, iş 86, v. 1; f. 970, siy. 1, iş 112, v. 5; iş 157, v. 44.

kimi Sovet Rusiyası ilə qarşılıqlı münasibətlər yaratmaq üçün danışıqlara girməyə hazırdır.

2. Antanta ölkələri ilə münasibətlərlə bağlı Böyük Britaniyanın son günlərin siyasi şəraitinə münasibətini aydınlaşdırmalı və İngiltərənin nüfuzundan respublikanın mənafeyinə uyğun istifadə edilməlidir.[691]

Sovet Rusiyası Azərbaycanı Denikinlə qeyri-bərabər mübarizəyə cəlb etməklə onu zəiflətmək, son nəticədə isə Azərbaycanın istiqlalına son qoymaq niyyətində idi. Bunu düzgün qiymətləndirən Azərbaycanın xarici işlər naziri F.X.Xoyski G.Çiçerinə göndərdiyi 14 yanvar 1920-ci il tarixli cavab notasında bildirdi ki, Denikin məsələsi Rusiyanın daxili işidir və Azərbaycan suveren dövlət kimi başqa dövlətin daxili işinə qarışa bilməz. Notada deyilirdi: "Azərbaycan xalqı böyük tarixi hadisələrin gedişində böyük qurbanlar və əziyyətlər bahasına azadlıq və müstəqilliyə nail oldu, öz dövlət quruluşunu demokratik respublika əsasında qurdu. Xalqın öz müqəddəratını təyin etməsi əsasında yaranan Azərbaycan Cümhuriyyəti dönmədən o nöqteyi-nəzər üzərində durur ki, hər bir xalq öz taleyi və həyatını özünün istədiyi kimi müəyyən etmək hüququna malikdir. Təyini-müqəddəratdan sonra Azərbaycan hökuməti heç vaxt başqalarına daxili işlərinə qarışmaq imkanı vermədi və öz növbəsində başqa xalqların daxili işlərinə qarışmamaq prinsipini müdafiə edir.

Bu sarsılmaz prinsipdən çıxış edən Azərbaycan hökuməti öz daxili həyatının qurulması işində rus xalqının mübarizəsinə müdaxiləni yolverilməz hesab edir. Azərbaycan Cümhuriyyəti gələcəkdə bitərəf dövlət olmasına baxmayaraq, öz azadlığının və müstəqilliyinin hər cür xarici qəsdlərdən müdafiə edilməsində yekdildir. Buna görə də Azərbaycan hökuməti Denikinlə, onun həmişə Azərbaycan xalqının müstəqilliyinə qəsd etdiyinə görə qızğın mübarizə aparırdı və bu mübarizənin müvəffəqiyyətli olması məqsədilə qonşu gürcü hökuməti ilə hərbi müdafiə paktı bağladı.

[691] ARDA. f. 970, siy. 1. iş 112. v. 8.

Azərbaycan hökuməti tərəfindən qəbul edilmiş yuxarıda qeyd edilən xarici siyasətin istiqaməti ona Azərbaycan və digər xalqlar arasında mehriban münasibətlərin qurulmasına göstəriş verir, buna əsasən Azərbaycan Cümhuriyyəti hökuməti danışıqlar yolu ilə hər iki dövlətin müstəqilliyi prinsiplərindən irəli gələn rus və Azərbaycan xalqları arasında mehriban qonşuluq münasibətləri yaratmağa hazırdır".[692]

Göründüyü kimi, F.X.Xoyski iki ölkə arasında mehriban qonşuluq münasibətləri yaratmaq üçün haqlı olaraq Sovet Rusiyasının Azərbaycanın müstəqilliyini tanımasını bir şərt kimi irəli sürürdü. Lakin Sovet Rusiyası bunu əsla qəbul etmək istəmirdi. RK(b)P MK Siyasi Bürosunun 1920-ci il yanvarın 17-də keçirilən iclasında Azərbaycanla sülh danışıqları aparıla biləcəyi haqqında xalq xarici işlər komissarı G.Çiçerinin məruzəsi dinlənildikdən sonra Siyasi Büro bu məsələ barəsində V.I.Lenin tərəfindən təklif olunan qərar layihəsini qəbul etdi. Burada deyilirdi: "Xalq Xarici İşlər Komissarlığına tapşırılsın ki, Azərbaycan hökuməti barəsində çox böyük təmkinlilik və etimadsızlıq siyasəti yeritsin, çünki o, Denikinə qarşı birgə hərbi əməliyyat aparmaq təklifimizdən imtina etmişdir... Xalq Xarici İşlər Komissarlığı Azərbaycan hökumətinin bu cür davranışına qəti protest etməlidir".[693]

Sovet Rusiyasının belə mövqeyi iki dövlət arasındakı gərginliyin daha da artmasına gətirib çıxartdı. RSFSR xalq xarici işlər komissarı G.Çiçerin yanvarın 23-də Azərbaycan hökumətinə ikinci notanı göndərdi. Bu nota ilə RSFSR hökuməti Azərbaycanın istiqlalının Paris sülh konfransında tanınmasına (11.I.1920) elə bir əhəmiyyət vermədiyini göstərdi. Notada F.X.Xoyskinin G.Çiçerinin birinci notasına verdiyi 14 yanvar tarixli cavab təhlil edilir və Azərbaycan hökumətinin "Rusiyanın daxili işlərinə qarışmamaq" prinsipi "Denikinə qarşı mübarizədən imtina etmək" kimi qiymətləndirilirdi.[694]

---

[692] ARDA, f. 970, siy. 1, iş 112, v. 7; iş 157, v. 42; Азербайджан, 14 января 1920, № 9.
[693] V.İ.Lenin Azərbaycan haqqında, s. 160.
[694] ARDA, f. 894, siy. 10, iş 106, v. 7-8.

Əvvəlkinə nisbətən daha təcavüzkar səciyyə daşıyan bu nota-ya Azərbaycanın xarici işlər naziri F.X Xoyski 5 fevral 1920-ci il tarixində cavab verdi. F.X.Xoyski G.Çiçerinin notasının çox nəzakətsiz tonda olmasını qeyd edərək Azərbaycanın mövqeyini bir daha təkrarladı: "Rusiyanın xalq xarici işlər komissarı Çiçerinin gətirdiyi faktların bir neçəsi ümumiyyətlə yoxdur, bir neçəsini isə o, düzgün şərh etməmişdir. Bunu da sovet hökumətinin Azərbaycanda baş verən hadisələr haqqında tam məlumata malik olmaması ilə izah etmək olar. Azərbaycan hökuməti Rusiyada gedən mübarizəyə neytral münasibətini bildirsə də, general Prjevalskini öz qərargahı ilə birgə Bakıdan qovmuş və nəinki Azərbaycan ərazisindəki rus zabitlərinin Denikin ordusuna daxil olmasına imkan verməmiş, hətta general Prjevalskinin rus zabitlərinin Petrovska çağırışı haqqında qəzetlərdə elan verməsini qadağan etmişdir. Azərbaycan hökuməti heç vaxt Dağıstan və Şimali Qafqaz dağlılarının general Denikinlə öz azadlıqları və istiqlaliyyətləri uğrunda apardıqları mübarizəyə qarşı bir addım da atmamış, əksinə, bütün mümkün vasitələrdən istifadə edərək, dağlıların mübarizəsinə kömək göstərmiş və göstərir, hər vasitə ilə Denikin ordularının onların ərazisindən çıxarılmasına nail olmağa çalışır. Çiçerinin Azərbaycan hökumətinin Könüllü Ordunun komandanlığı ilə qarşılıqlı münasibətləri haqqındakı nöqteyi-nəzərinin də heç bir əsası yoxdur. Çünki Denikin ideologiyası və onun əsl məqsədi Azərbaycan hökumətinə yaxşı bəllidir.

Azərbaycan hökuməti dərin təəssüf hissi ilə qeyd edir ki, xalq xarici işlər komissarı Çiçerinin heç bir radioteleqramında aydın və qəti şəkildə sovet hökumətinin Azərbaycanın istiqlaliyyətini tanımaq fikri ifadə edilmir, baxmayaraq, sovet hökuməti Polşa, Finlandiya, Estoniya və s. dövlətlərə öz münasibətini açıq bildirib... Bu və ya digər hər hansı bir məsələ haqqında danışıqlar, yalnız sovet hökumətinin Azərbaycanın suverenliyini və istiqlaliyyətini qeyd-şərtsiz tanıdığı halda aparıla bilər".[695]

---

[695] ARDA, f. 894, siy. 10, iş 106, v. 9-10; f. 970, siy. 1, iş 157, v. 88; Азербайджан, 11 февраля 1920. № 26.

Sovet Rusiyası "Denikinə qarşı mübarizədən imtina etməyi" bəhanə edib müxtəlif yollarla Azərbaycana təzyiqlərini gücləndirirdi. XI Qızıl Ordu cənuba doğru irəlilədikcə bu təzyiqlər daha kəskin xarakter alır və Azərbaycan əleyhinə həm Rusiyada, həm də ölkə daxilində təbliğat kompaniyası qızışdırılırdı. 1920-ci il fevralın 2-də VII çağırış ümum-Rusiya Mərkəzi İcraiyyə Komitəsinin (ÜRMİK) birinci sessiyasında ÜRMİK və XKS-nin işi haqqında məruzəsində V.İ.Lenin qeyd edirdi ki, "biz Denikin əleyhinə saziş bağlamağı Gürcüstana və Azərbaycana təklif etmişik. Onlar başqa dövlətlərin işlərinə qarışmadıqlarını bəhanə edərək, boyun qaçırdılar. Görək Gürcüstanın və Azərbaycanın fəhlə və kəndliləri buna necə baxacaqlar".[696]

F.X.Xoyskinin "Azərbaycan Cümhuriyyəti hökumətinin rus və Azərbaycan xalqları arasında hər iki dövlətin suverenliyi prinsipinə əsaslanan mehriban qonşuluq münasibətlərinin yaradılmasına hazır olduğunu" bildirən cavab notasını almış RSFSR Xalq Xarici İşlər Komissarlığı "Azərbaycan hökumətinin tanınması" məsələsinə münasibət barədə RK(b)P Qafqaz Diyar Komitəsi və RK(b)P Bakı Komitəsinin fikrini öyrənmək üçün sorğu göndərdi. Qafqaz Diyar Komitəsi komissarlığın sorğusuna müsbət cavab verdi, yəni Azərbaycan hökumətini tanımağı məqsədəuyğun hesab etdiyini bildirdi. 1920-ci ilin fevralın 11-də S.Kirov teleqramında göstərirdi. "Məlumat verirəm ki, Qafqaz Diyar Komitəsi Azərbaycanın müstəqilliyini tanımağı zəruri hesab edir".[697]

1920-ci il fevralın 11-12-də Azərbaycandakı kommunist təşkilatlarının birinci qurultayı keçirildi. V.İ.Leninin fəxri sədr seçildiyi bu qurultayda RK(b)P Bakı Komitəsi, bolşevik "Hümmət" və iranlı fəhlələrin kommunist təşkilatı olan "Ədalət" Azərbaycan Kommunist (bolşeviklər) Partiyası (AK(b)P) adı altında vahid təşkilatda birləşdirildi. Qurultay Azərbaycan Kommunist Partiyasını RK(b)P-nin yerli təşkilatı elan etdi. Qurultayın qətnaməsində deyilirdi ki, "Azərbaycan Kommunist Partiyası ümum-Qafqaz diyar

[696] V.İ.Lenin Azərbaycan haqqında, s. 163.
[697] Nəsibzadə N. Azərbaycanın xarici siyasəti, s. 243-244.

kommunist təşkilatının bir hissəsidir və kommunistlərin Qafqaz Diyar Komitəsini özünün ali rəhbər orqanı hesab edir".[698]

Qurultay silahlı üsyan yolu ilə Azərbaycan milli hökumətini devirməyi kommunist təşkilatlarının əsas vəzifəsi elan etdi və dövlət çevrilişinə hazırlıq xətti götürdü. Bu xəttə uyğun olaraq fevralın 17-də yenicə yaranmış AK(b)P Mərkəzi Komitəsi G.Çiçerinin təkrar sorğusunu müzakirə edərək, Azərbaycanın müstəqilliyinin tanınmasına heç bir ehtiyac olmadığı haqda qərar qəbul etdi. Bu qərar onunla əsaslandırılırdı ki, guya "Azərbaycanın fəhlə-kəndli kütlələri ölkənin müstəqilliyinin tanınmasının əleyhinədirlər".[699]

Bu zaman Moskvada Azərbaycanın müstəqilliyi məsələsinə münasibətdə kəskin mübarizə gedirdi. Bir tərəfdən Xundadzenin başçılığı ilə gürcü menşevik diplomatik heyəti Leninə və sovet hökumətinə təsir edərək, onları Gürcüstan və Azərbaycanın müstəqilliyini tanımağa sövq etməyə çalışır, digər tərəfdən Qafqaz bolşevikləri, xüsusən də Moskvada olan hümmətçilər Azərbaycan və Gürcüstanın müstəqilliyinin tanınmasına qarşı kəskin mübarizə aparırdılar. Bu mübarizə son nəticədə ikincilərin qələbəsi ilə bitdi: Sovet hökuməti Azərbaycan hökuməti ilə müzakirələrə başlamaqdan və Azərbaycanın müstəqilliyini tanımaqdan imtina etdi.[700]

RSFSR xalq xarici işlər komissarı G.Çiçerin fevralın 20-də Azərbaycan hökumətinə göndərdiyi üçüncü notasında F.X.Xoyskinin "Azərbaycanın istiqlaliyyətinin tanınması" ilə bağlı tələbinə cavab olaraq bildirdi ki, "Azərbaycanın istiqlaliyyətinin tanınması yalnız Sovet Rusiyası ilə Azərbaycan arasında qarşılıqlı münasibətlərlə bağlı bir çox məsələləri əhatə edən mürəkkəb danışıqlar nəticəsində mümkün ola bilər".[701]

F.X.Xoyski G.Çiçerinin bu notasına 7 mart 1920-ci il tarixində cavab verdi. Notada deyilirdi: "Əgər "xalqların öz müqəddəratını təyin etmək" hüququ sovet hökuməti üçün qəti bir prinsip ol-

[698] Azərbaycan tarixi. 3 cilddə. III c., I h., s. 230-231.
[699] Nəsibzadə N. Bölünmüş Azərbaycan. bütöv Azərbaycan. s. 111.
[700] Nəsibzadə N. Azərbaycanın xarici siyasəti, s. 244-245.
[701] ARDA. f. 970, siy. 1. iş 157. v. 53, 60; f. 894, siy. 10, iş 106, v. 9-10.

saydı, onda yəqin ki, bu prinsip müxtəlif məsələlər, mürəkkəb və uzun sürən danışıqlardan asılı olmazdı. Çünki bu danışıqlar müxtəlif nəticə verə bilər. Millətin müstəqil yaşamaq prinsipi danışıqlardan asılı olmamalı, bu və ya digər ekvivalent almağa xidmət etməməlidir. Əks halda, o, prinsip xarakterini itirir və imperialist dövlətlərin tez-tez istifadə etdikləri vasitələrə çevrilir. Azərbaycan hökuməti iki dəfə bildirib və indi də bildirir ki, Rusiya və Azərbaycan xalqları arasında hər iki tərəfin suverenliyi əsasında sovet hökuməti ilə mehriban qonşuluq münasibətləri yaratmaq üçün danışıqlara başlamağa hazırdır. Lakin hələ indiyədək sovet hökuməti tərəfindən Azərbaycanın arzusuna heç bir cavab verilməmişdir. Ona görə də Azərbaycan hökuməti müəyyən konkret cavab gözləyir. Yuxarıdakı şərtlər əsasında sovet hökuməti Azərbaycan hökuməti ilə danışıqlara başlamaq istəyir, ya yox?"[702]

G.Çiçerin F.X.Xoyskinin bu notasını cavabsız qoydu. Çünki Azərbaycanın xarici işlər nazirinin gətirdiyi tutarlı arqumentlərin qabağına qoymaq üçün Çiçerinin əlində elə bir arqument qalmamışdı. Onun əvvəlki arqumentləri də çox cılız və məntiqsiz idi. Sovet hökuməti Azərbaycanın suverenliyini tanımaq istəmirdi. "Xalqların öz müqəddəratını təyin etmək" hüququnun elan edilməsi sadəcə təbliğati xarakter daşıyırdı və sovet hökumətinin milli ucqarlar haqqında yeritdiyi siyasəti ört-basdır etmək üçün atılmış bir addım idi. Bolşeviklər Rusiyanı 1914-cü il hüdudlarında bərpa etməyi qarşılarına məqsəd qoymuşdular.

Sovet Rusiyası "silahlı üsyan yolu ilə Azərbaycan milli hökumətini devirməyi" özünün başlıca vəzifəsi elan etmiş AK(b)P-yə istənilən qədər silah və pul göndərirdi. Hələ 1919-cu ilin sonunda RK(b)P MK-nın göstərişi ilə Həştərxandan Bakıya qayıqla qırx puddan artıq silah, döyüş sursatı gətirilmişdi. Bu silah-sursatı gətirən Kamonun (S.A.Petrosyanın) 40 nəfərlik dəstəsi Bakıdakı bolşeviklərin silahlandırılmasına yaxından kömək göstərmiş, Bakıda silah əldə edilməsi işində, Qara şəhərdə və başqa yerlərdə gizli silah anbarları və bazalarının təşkilində fəal iştirak etmişdi. 1920-ci

[702] ARDA, f. 970, siy. 1, iş 157, v. 57; f. 894, siy. 10, iş 106, v. 13-14; Азербайджан, 9 марта 1920. № 48.

ilin fevralında Sovet Rusiyasından cəbhə xətti vasitəsilə Bakı bolşeviklərinə silahlanmaq üçün 15 milyon rubl pul göndərilmişdi. Krasnovodsk bolşeviklər tərəfindən tutulduqdan sonra Bakı bolşeviklərinin silahla təchiz edilməsi işi xeyli asanlaşdı. 1920-ci ilin martında Türküstandan Bakıya üç yelkənli qayıqla müxtəlif silahlar gətirildi. Bunun ardınca mart ayı ərzində və aprelin əvvəllərində Türküstan cəbhəsi Hərbi İnqilab Şurası Bakı bolşeviklərinə 3500-dən artıq tüfəng, 17 pulemyot və çoxlu başqa hərbi sursat göndərdi. Bunların hamısını Bakı bolşevikləri almışdılar.[703] Sovet Rusiyası tərəfindən yetərincə silahlandırılan Bakı bolşevikləri 1920-ci ilin martında dövlət çevrilişinə cəhd etdilər.[704] Lakin bu cəhd uğursuzluqla nəticələndi. Öz qüvvəsi ilə Azərbaycanda hakimiyyəti ələ ala bilməyən Bakıdakı yerli və rus bolşevikləri XI Qızıl Ordunun gəlişini gözləməli oldular. RK(b)P Qafqaz Diyar Komitəsi və AK(b)P MK-sı qərara aldılar ki, XI Qızıl Ordu Port-Petrovskiyə yaxınlaşarkən və Qızıl Donanma Xəzər dənizinə çıxıb əməliyyata başlarkən öz qüvvələri ilə Azərbaycanda çevriliş etsinlər, sonra isə Qızıl Ordunu köməyə çağırsınlar. Lakin bolşeviklər XI Qızıl Ordu Azərbaycanın sərhədini keçib Bakıya doğru irəliləyənədək, öz qüvvəsinə güvənib çevrilişə cəhd etməyə cürət etmədilər.

Birinci dünya müharibəsi və Oktyabr çevrilişindən sonra başlanan vətəndaş müharibəsi Rusiya iqtisadiyyatını fəlakətli dərəcədə dağıtmışdı. Dağılmış təsərrüfatı bərpa etmək üçün Bakı nefti Sovet Rusiyası üçün həyati bir əhəmiyyət kəsb edirdi. Bir sıra obyektiv və subyektiv səbəblər üzündən Azərbaycanın işğalının yubanması dağılmış Rusiya iqtisadiyyatının tamamilə iflic vəziyyətə düşməsinə gətirib çıxaracaqdı. Buna görə də V.İ.Lenin 1920-ci il martın 17-də Qafqaz cəbhəsinin Hərbi İnqilab Şurasına, İ.Smilqaya və Q.Orconokidzeyə göndərdiyi şifrəli teleqramında yazırdı: "Bakını almaq bizə olduqca və olduqca zəruridir. Bütün səyinizi buna verin, həm də bəyanatlarda son dərəcə diplomatik olmaq və

---

[703] Токаржевский Е.А. Из истории иностранной интервенции и гражданской войны в Азербайджане, с. 257.
[704] ARDA. f. 894, siy. 10. iş 139, v. 1-6; iş 188, v. 1-1a.

möhkəm yerli sovet hakimiyyəti hazırlandığını tamamilə yəqin etmək lazımdır.. Qüvvələr yeridilməsi haqqında baş komandanla şərtləşin".[705]

XI Qızıl Ordunun durmadan cənuba doğru irəliləməsi Azərbaycan hökumətinin daxilində böhranın yaranması ilə müşayiət olunurdu. Bu, Azərbaycan hökumətinin ümid etdiyi Qərbin hərbi yardımının gəlib çıxmaması ilə bağlı idi. Qərb dövlətləri isə öz növbəsində, Sovet Rusiyasına qarşı yeritdikləri siyasətdə dəyişiklik edərək, 1920-ci il yanvarın 16-da Rusiyaya qarşı iqtisadi blokadanı dayandırmaq və onunla ticarətə icazə vermək haqqında qərar qəbul etdilər. Yaranmış böhranlı vəziyyətdə Sovet Rusiyasına münasibət məsələsində Azərbaycan hökumətində iki xətt mövcud idi. Daxili işlər naziri M.H.Hacınski (o, Parisdən 1919-cu ilin dekabrında qayıtmışdı) başda olmaqla bir qrup belə hesab edirdi ki, Sovet Rusiyasına geniş güzəştlər verməklə Azərbaycanın istiqlaliyyətini tanıtdırmaq mümkün olar, başqa sözlə, bu qrup xarici orientasiyanı Rusiya istiqamətinə dəyişdirməyi təklif edirdi.[706] Bu qrupdan fərqli olaraq F.X.Xoyskinin rəhbərlik etdiyi digər qrup çıxış yolunu ölkədə güclü rejim yaratmaq və təcavüzə qarşı əldə silah müqavimətdə görürdü. Bu məqsədlə F.X.Xoyski öz tərəfdarlarını evində toplayıb, çıxış yolunun konkret proqramını təklif etdi:

1. M.H.Hacınskini daxili işlər naziri vəzifəsindən kənarlaşdırmaq və onun yerinə kommunistlərlə mübarizəyə hazır olan adam təyin etmək;

2. M.H.Hacınski ilə birlikdə sosialist nazirlər hökumətdən gedəcəyi halda onları başqaları ilə əvəz etmək;

3. Parlamenti buraxmaq və ölkəni müdafiə məqsədilə hökumətə fövqəladə səlahiyyətlər vermək;

4. Yaxın 6 ayda Azərbaycan Müəssislər Məclisinə seçkilər keçirmək.[707]

---

[705] V.İ.Lenin Azərbaycan haqqında, s. 164.
[706] ARDA, f. 894, siy. 10, iş 98, v. 25-26.
[707] ARDA, f. 894, siy. 10, iş 98, v. 18-19; iş 107, v. 5.

Sovet Rusiyasına münasibət məsələsi Azərbaycanın siyasi partiyaları arasında əsas ziddiyyət nöqtəsinə çevrildi. Denikin təhlükəsinə münasibətdə mövcud olan birlik bolşevik Rusiyası ilə bağlı məsələdə artıq yox idi. Sosialistlər və ittihadçılar Sovet Rusiyasının tələblərinə müsbət cavab verməyi tələb edirdilər.

Hələ 1919-cu ilin dekabrında Müsavat partiyası beşinci hökumət kabinəsini təşkil edərkən ittihadçıların müqavimətini neytrallaşdırmaq üçün onlara koalisiya təklif etdi. Lakin İttihad partiyası hökumətə daxil olmaq üçün üç şərt irəli sürdü: 1. Bütün müsəlman partiyalarının koalisiyasına riayət olunsun; 2. Daxili işlər naziri vəzifəsi M.H.Hacınskiyə verilsin; 3. Dövlət nəzarəti vəzifəsi İttihad partiyasının nümayəndəsinə verilsin. İttihad partiyasının simasında parlamentin sağ hissəsini özünə tərəf çəkmək istəyən Müsavat partiyası bu tələbləri qəbul etdi. Lakin İttihad partiyası bundan sui-istifadə etdi. Dövlət nəzarəti vəzifəsini ələ keçirən “İttihad” bununla da hökumətdə öz gələcək fəaliyyətinin əsas istiqamətini – dövlət strukturlarındakı qanunsuzluqlarla mübarizə aparmaq adı altında “Müsavat”ın əleyhinə kampaniyaçılıq istiqamətində müəyyənləşdirdi.[708]

İttihad partiyasının mətbuat orqanı olan “İttihad” qəzetində İslamın – “təkcə dini təlim deyil, həm də müsəlmanların siyasi və ictimai həyatının çıxış nöqtəsi olan” bu etiqadın sosializmlə birliyinin mümkünlüyü haqqında məqalələr dərc olunurdu.[709] “İttihad” bolşevizmin Qərb imperializminə qarşı mübarizədə müsəlman dünyasına göstərdiyi köməyi onun ateist xarakterindəki günahı yuyub təmizləyən əvəz sayaraq kommunistlərlə ittifaqa çağırır, rus sovet ordusunun Antantaya qarşı mübarizə aparan Türkiyə ilə birləşməsi üçün onun Azərbaycana buraxılmasını tələb edirdi.[710] “İttihad”ın bu fəaliyyəti Azərbaycan xalqının dövlət müstəqilliyinə qarşı çevrilmiş siyasət – Azərbaycan Cümhuriyyətinin varlığına qəsd idi və yalnız hökumət böhranı deyil, həm də bütün dövlət

[708] Azərbaycan tarixi. 7 cilddə. V c., s. 505.
[709] Swietochowski T. Müslüman Cemaatten Ulusal Kimliğe Rus Azerbaycanı, s. 232.
[710] ARDA. f. 894, siy. 10. iş 98. v. 18.

hakimiyyəti böhranını dərinləşdirirdi. M.B.Məmmədzadə ittihadçıların kommunistlərlə iş birliyini şərh edərək yazırdı: ""Quran"a əsaslanan şəriətçilərlə "Kapital"a səcdə edən marksistlər iki qəlbdə bir can kimi idilər".[711]

Sovet Rusiyasına münasibətdə sərt xəttin tərəfdarı olan xarici işlər naziri F.X.Xoyski qrupu ilə güzəştçilik siyasəti tərəfdarı olan M.H.Hacınski qrupu arasında ixtilaflar dərinləşdi. F.X.Xoyski qrupunun fəaliyyəti nəticəsində M.H.Hacınski 1920-ci il fevralın 18-də daxili işlər naziri vəzifəsindən uzaqlaşdırıldı, lakin o, hökumətdə ticarət, sənaye və ərzaq naziri kimi qala bildi. Daxili işlər naziri vəzifəsinə Müsavat partiyasının gənc üzvü 23 yaşlı Mustafa bəy Vəkilov təyin olundu.

M.H.Hacınski qrupunun bu məğlubiyyətinə baxmayaraq, onlar yenə də öz güzəştçilik mövqeyini təbliğ edirdilər. Bunun nəticəsi olaraq 1920-ci ilin mart ayında olan bir sıra partiyaların nümayəndələrindən ibarət konfransda Hacınski platforması qəbul edildi.[712]

1920-ci il martın ortalarında müsavatçılar və bitərəflər fraksiyasının birgə iclasında Rusiyaya münasibət məsələsi tam kəskinliyi ilə qoyuldu. M.H.Hacınski öz baxışlarını şərh etdi. F.X.Xoyski başda olmaqla digər qrup M.H.Hacınskinin məruzəsini mənfi qarşıladı. F.X.Xoyski qeyd edirdi ki, "heç bir rus partiyası, heç bir Rusiya hökuməti heç vaxt Cənubi Qafqaz respublikalarının müstəqilliyini tanımayacaq və yalnız Qafqaz xalqlarının güclü ordusu və əldə silah öz müstəqilliyini qorumaq əzmi olduğu zaman Qırmızı Moskva bizimlə hesablaşacaq və bizim sərhədlərimizi keçməyəcəkdir".[713] Buna görə də sərt xəttin tərəfdarları respublikanı müdafiə etmək üçün bütün zəruri tədbirləri görməyə və ölkəni kommunist ünsürlərindən və onlara rəğbət bəsləyənlərdən təmizləməyə çağırırdılar. Bu tədbirləri həyata keçirmək üçün onlar hökumətə fövqəladə səlahiyyətlər verməyi və vaxt itirmədən qonşu

[711] Məmmədzadə M.B. Milli Azərbaycan hərəkatı, s. 142-143.
[712] Nəsibzadə N. Azərbaycan Demokratik Respublikası, s. 36.
[713] Azərbaycan tarixi. 7 cilddə. V c., s. 511.

respublikaları Qafqazın birgə müdafiəsinə çağırmağı təklif etdilər. Lakin sərt kurs tərəfdarlarının təklifləri qəbul edilmədi.[714]

Azərbaycan hökumətində daxili siyasi mübarizənin davam etdiyi və dərinləşdiyi bir zamanda Sovet Rusiyası tərəfindən edilən təzyiqlər gündən-günə güclənirdi. Moskvanın göstərişi ilə Azərbaycandakı kommunistlər xalqı qanuni hökumətə qarşı təhrik etməklə yanaşı, Azərbaycan partiyaları (İttihad, menşevik Hümmət, Əhrar, Müstəqil Demokratlar qrupu) arasında da təfriqə salır, onları, eləcə də "Müsavat"ın bəzi səbatsız üzvlərini, türk kommunistləri və ittihadçılarını ələ alır, ölkədə siyasi böhran yaratmağa çalışırdılar.[715] Buna görə də yeni daxili işlər naziri təyin olunmuş Mustafa bəy Vəkilov və onun müavini Şəfi bəy Rüstəmbəyli antidövlət elementlərinə qarşı fəal mübarizəyə başladılar. Bolşeviklər arasında həbslər keçirildi, fəhlə klubları və ən irticaçı, ciddi müxalifət mövqeyində duran qəzetlər ("Edinaya Rossiya", "Novıy mir" və s.) bağlandı. Lakin bu tədbirlər digər parlament fraksiyalarının kəskin narazılığına səbəb oldu. Xüsusilə də, İttihad partiyası yeni təyinata öz kəskin narazılığını bildirərək M.H.Hacınskinin daxili işlər naziri postuna qaytarılmasını tələb edirdi. Yaranmış vəziyyətdə İttihad, Əhrar və Sosialist partiyaları öz nümayəndələrini hökumətdən geri çağırmaq barədə qərar qəbul etdilər. Onlar yeni hökumətin təşkil olunmasını tələb edirdilər. Azərbaycanın müstəqilliyi tərəfdarlarının ölkədəki bütün siyasi qüvvələri sovet təhlükəsinə qarşı vahid platforma ətrafında birləşdirmək cəhdi istənilən nəticəni vermədi.

Xaricdən və daxildən təzyiqlərin artdığı bir şəraitdə Bakıda hökumət böhranı baş verdi. Qeyd etdiyimiz kimi, mart ayında keçirilmiş konfransda F.X.Xoyski və onun tərəfdarlarının kəskin müxalifətinə baxmayaraq, M.H.Hacınski qrupunun siyasi xətti, yəni Rusiyaya orientasiya cəhdi qalib gəldi. Konfransın qərarları ilə razı olmayan Nazirlər Şurasının sədri N.Yusifbəyli 1920-ci il martın 30-da istefa verdi. Lakin hökumətin istefası da vəziyyəti dəyişdirmədi. Yaranmış vəziyyətdə üç çıxış yolu görünürdü: 1)

---

[714] Azərbaycan tarixi, 7 cilddə, V c., s. 511.

[715] Nəsibzadə N. Bölünmüş Azərbaycan, bütöv Azərbaycan, s. 112.

hökumət yalnız Müsavat partiyasının üzvlərindən təşkil olunur; 2) birgə yaradılmış platforma əsasında bütün siyasi fraksiyaların koalisiyası yaradılır; 3) Müsavat partiyası hakimiyyətdən gedir və digər partiyalar hökumət təşkil edir. Lakin bu variantlar da icra hakimiyyətinin sabitliyinə təminat vermirdi. "Müsavat"ı siyasi səhnədən uzaqlaşdırmağa çalışan "İttihad" üçüncü varianta nail olmağa çalışır, əks halda hökumətdə iştirakdan imtina edəcəyi ilə hədələyirdi.[716]

Təkpartiyalı hökumət mövcud şəraitdə qeyri-mümkün idi. Çünki ən böyük fraksiyada – müsavatçılar və bitərəflər fraksiyasında da parçalanma baş vermişdi. Parçalanmanı aradan qaldırmaq və yaradılan kabinetdə liderliyini saxlamaq üçün hakim partiya yeni hökumətin təşkilini M.H.Hacınskiyə tapşırdı və ona bütün parlament fraksiyaları ilə danışıqlarda hərəkət sərbəstliyi verdi.[717] Lakin M.H.Hacınski müxtəlif bəhanələrlə yeni hökumətin təşkil edilməsini yubadır, bolşeviklərlə birlikdə koalisiyon hökumət yaratmaq üçün onları hökumətə daxil olmağa çağırırdı. Son anda bolşeviklər hökumətə daxil olmaqdan imtina etdilər.[718] Belə olan təqdirdə M.H.Hacınski öz əqidəsini dəyişərək, özü Kommunist Partiyasına daxil oldu və aprelin 22-də Azərbaycan Parlamentində etdiyi çıxışında hökumətin təşkili üçün ona verilmiş səlahiyyətlərdən imtina etdiyini bildirdi.[719]

1920-ci il martın 30-da N.Yusifbəylinin rəhbərlik etdiyi hökumət kabinəsi istefa versə də, yeni hökumət yaradılana qədər köhnə kabinet hələlik öz fəaliyyətini davam etdirirdi. Aprel ayının əvvəllərində XI Qızıl Ordu Denikin ordusunun qalıqlarını darmadağın edərək (Denikin 4 aprel 1920-ci il tarixində istefa verdi və bununla da "Könüllü Ordu" dağıldı) cənuba doğru irəliləməyə başladı və aprelin ortalarında Dağıstanı ələ keçirib Azərbaycanın

[716] Azərbaycan tarixi. 7 cilddə. V c., s. 513-514.
[717] Yenə orada, s. 514.
[718] ARDA, f. 970, siy. 1, iş 224, v. 5.
[719] Караев А.Г. Из недавнего прошлого, с. 115-116; Kazemzadeh F. The Struggle for Transcaucasia, p. 282; Swietochowski T. Müslüman Cemaatten Ulusal Kimliğe Rus Azerbaycanı, s. 239.

sərhədlərinə çatdı. Bu vəziyyət haqlı olaraq Azərbaycan hökumətinin ciddi narahatçılığına səbəb oldu. Aprelin 15-də F.X.Xoyski G.Çiçerinə sonuncu notasını göndərdi. Notada deyilirdi: "Dağıstan denikinçilərdən təmizləndikdən sonra Azərbaycan xalqı bu ümiddə idi ki, şimaldan təhlükə qurtarmışdır, o, qardaş dağlı xalqları və xalqların təyini-müqəddəratını elan etmiş rus xalqı ilə dostcasına yaşayacaqdır. Bununla belə, Azərbaycan Cümhuriyyətinin sərhədləri yaxınlığında, Dərbənd rayonu və Dağıstanın hüdudlarında sovet hökumətinin silahlı qüvvələrinin toplanması müşahidə edilir. Azərbaycan hökuməti sovet hökumətinin fikrindən xəbərsizdir, ona görə xahiş edir ki, yuxarıda göstərilən rayonlarda ordunun toplanmasının səbəbləri haqqında məlumat verilsin..."[720] Sonda F.X.Xoyski "rus və Azərbaycan xalqları arasında mehriban qonşuluq münasibətlərinin yaradılması üçün danışıqlara başlamağı" təkid edir və bu təklifin qəbul edildiyi təqdirdə danışıqların başlanması üçün yerin və vaxtın təyin edilməsi ilə bağlı cavab gözlədiyini bildirirdi.[721] Lakin bu nota cavabsız qaldı. Çünki Sovet Rusiyası Azərbaycanla münasibətlərini hərbi müstəvidə həll etməklə bağlı artıq qərar qəbul etmişdi.

Qeyd edək ki, bu dövrdə bir tərəfdən XI Qızıl Ordu Azərbaycanı işğal etməyə hazırlaşır, digər tərəfdən də Sovet Rusiyasının nümayəndələri Azərbaycan hökuməti ilə ticarət-iqtisadi münasibətlər sahəsində danışıqlar aparırdılar.[722] Martın 30-da Sovet Rusiyası – Azərbaycan birgə komissiyasının iclasında ticarət müqaviləsi imzalandı. Sentrosoyuzun Bakıdakı nümayəndəsi S.İ.Selavri Moskvaya göndərdiyi teleqramda bu müqavilə barəsində məlumat verir və gələcək işləri üçün təlimat göndərilməsini xahiş edirdi. Aprelin 17-də RSFSR xalq xarici işlər komissarının müavini L.Karaxan Azərbaycanla ticarət-iqtisadi əlaqələrin yaranmasına prinsipial razılığını bildirən teleqram göndərdi. Aprel ayında ticarət əlaqələrinin genişləndirilməsi sahəsində danışıqlar gedirdi.

[720] ARDA, f. 894, siy. 10, iş 149, v. 73; f. 970, siy. 1, iş 157, v. 66; Азербайджан. 20 апреля 1920, № 77.
[721] ARDA, f. 894, siy. 10, iş 149, v. 73; f. 970, siy. 1, iş 157, v. 66.
[722] Rəsulzadə M.Ə. Azərbaycan Cümhuriyyəti, s. 65.

Neftin qiyməti ilə bağlı danışıqlar aprelin 27-dək çəkdi.[723] Bütün bunlar RSFSR hökumətinin taktiki gedişləri idi və bolşeviklərin əsl məqsədlərinin gizlədilməsinə və vaxt qazanmağa xidmət edirdi.

Yaxınlaşan "bolşevik təhlükəsi"nin bütün ciddiliyini başa düşən F.X.Xoyski özünün gürcü həmkarı E.Gegeçkoriyə hələ 1919-cu il iyunun 16-da Gürcüstanla Azərbaycan arasında general Denikinə qarşı yönəlmiş birgə müdafiə paktının şərtlərini reallaşdırmaq üçün zəruri tədbirlər görməyi təklif etdi. Lakin Azərbaycanla hərbi əlaqələrin belə konkretləşdirilməsi artıq o dövrdə Gürcüstan hökumətinin mənafeyinə uyğun gəlmirdi. Həmin dövrdə Gürcüstan nümayəndəsi Q.Uraqadze Moskvada öz hökuməti adından G.Çiçerinlə Gürcüstanın Sovet Rusiyası tərəfindən tanınması barədə danışıqlar aparırdı.[724] Bu səbəbdən F.X.Xoyskinin bolşevik təhlükəsinə qarşı Azərbaycan və Gürcüstanın birgə müdafiəsini təşkil etmək cəhdi heç bir nəticə vermədi. 1920-ci il aprel ayının əvvəllərində Tiflisdə keçirilən Cənubi Qafqaz respublikalarının konfransında da Azərbaycanın konfederasiya yaratmaq və onun sərhədlərini birgə müdafiə etmək haqqında təklifi Gürcüstan və Ermənistanın biganəliyi və yaxınlaşmaqda olan bolşevizm təhlükəsini düzgün qiymətləndirməmələri ucbatından nəticəsiz qaldı.

RSFSR hökuməti Azərbaycanı işğal etməyə hazırlaşarkən ermənilərin xidmətlərindən də istifadə etdi. M.B.Məmmədzadə bu məsələ ilə bağlı yazırdı: "Denikin Şimali Qafqaz respublikasını qanına qəltan etdikdən sonra, Qara dəniz sahillərində Gürcüstana, Xəzər sahillərində Azərbaycana yürüş etdiyi, Xəzər dənizində Azərbaycan bayrağı altında gəmilərin üzməsinə icazə verməyəcəyini bildirdiyi bir zamanda Ermənistan ordusu özünü Denikin ordusunun tərkib hissəsi elan edirdi. Qara imperialist Denikin ortadan qalxınca, Ermənistan qızıl imperialistlərlə anlaşdı və bu imperialist qüvvələrə arxalanaraq öz tarixi qonşularının əsarəti bahası-

[723] Swietochowski T. Müslüman Cemaatten Ulusal Kimliğe Rus Azerbaycanı, s. 239-240.
[724] Azərbaycan tarixi. 7 cilddə. V c., s. 516.

na özünə səadət qurmaq kimi xam xəyala qapıldı".[725] 1920-ci ilin əvvəllərində erməni nümayəndələri Pirumov və Zaxaryan Moskvaya gedib, müəyyən ərazi güzəştləri müqabilində Azərbaycan Cümhuriyyəti hökumətinin devrilməsi işində öz hökumətlərinin yardımlarını təklif etdilər.[726] Bu cür sövdələşmələr nəticəsində Rusiya ilə ermənilərin Azərbaycan dövlətçiliyinə qarşı növbəti qəsdi təşkil olundu. XI Qızıl Ordu hissələri Azərbaycan sərhədinə yaxınlaşan ərəfədə, 1920-ci il martın 20-də Qarabağda ermənilərin qiyamı baş verdi və Ermənistan Respublikası Azərbaycana qarşı hərbi əməliyyatlara başladı. Azərbaycan hökuməti baş vermiş erməni qiyamını yatırmaq üçün general Həbib Səlimovun komandanlığı altında böyük bir ordu hissəsini (30 minlik ümumi ordunun 20 minini) Qarabağa göndərdi. Azərbaycan hökuməti Antanta ölkələrinin xəbərdarlıq notasına ("əsas təhlükə şimaldan gəlir") əhəmiyyət verməyərək, Samur çayı istiqamətindəki olub-qalan qoşun hissələrini də ölkənin qərbinə yeritdi, ölkənin şimal sərhədi isə təcavüzə açıq qaldı. Nəticədə erməni qiyamı yatırıldı və Ermənistan hökuməti aprelin 26-da barışıq xahişi ilə çıxış etdi.[727] Lakin artıq gec idi, iş işdən keçmişdi. Qızıl Ordu Samur çayını keçib sürətlə Bakıya doğru irəliləyirdi.

Qarabağ hadisələri Azərbaycan Parlamentində müzakirə olunarkən kommunist deputat Əliheydər Qarayev[*] deyirdi: "Qarabağda zühur edən bu hadisə müttəfiqlərin bizi boğmaq üçün sarıdığı zəncirlərdən bir halqadır. Bu halqanı Azərbaycan öz qüvvəsi ilə parçalaya bilməz. Buraxın Şərq millətlərinin hüququnu müdafiə edən Qızıl Ordu gəlsin, Qarabağ üsyanını yatırsın, daha sonra

[725] Məmmədzadə M.B. Milli Azərbaycan hərəkatı, s. 134.

[726] Rəsulzadə M.Ə. Azərbaycan Cümhuriyyəti, s. 65.

[727] Nəsibzadə N. Azərbaycanın xarici siyasəti, s. 139.

[*] Ə.Qarayev bolşeviklərin əlində oyuncağa çevrilən milli satqınlardan biri idi. O, 1920-ci il yanvar ayının əvvəllərində Bakıda keçirilən mitinqdə açıq-aydın bəyan edirdi ki, "Denikini əzmək üçün Azərbaycan fəhlələri Rusiya fəhlələri ilə əl-ələ verərək, lazım gəlsə, lap Azərbaycanın meyidinin üzərindən keçib moskvalı yoldaşlarına kömək edəcəklər". (Буниятов З. Сборник документов "За семью печатями", Баку: Şərq-Qərb, 1992. с. 15-16).

Anadoluya köməyə getsin".[728] M.Ə.Rəsulzadə yazırdı ki, "Ə.Qarayev bu sözləri söyləyərkən parlamentin qonaqlara məxsus lojasında duran türkiyəli qardaşlarımızdan məsul birisini görürdüm ki, ciddi surətdə təsdiq və təqdir əlamətləri göstərirdi".[729]

Azərbaycan Parlamentinin 1920-ci il aprelin 1-də keçirilən iclasında Ə.Qarayev və onunla eyni məsləkə qulluq edən digərlərinin Qarabağda qalxmış erməni qiyamını yatırmaq üçün Qızıl Ordunu köməyə çağırmaq təkliflərinə cavab olaraq M.Ə.Rəsulzadə üzünü onlara tutub deyirdi: "Əfəndilər, üsyan çıxaranın adı Əliheydərmi olsun, Vartazarmı olsun, ikisi də düşməndir... Bizə deyirlər ki, ermənilərlə mübarizə edə bilmirsiniz, bu mübarizəni Azərbaycan davam etdirə bilməz. Qarabağ düşmənlərini susdurmaq üçün Sovet Rusiyasının qırmızı ordularını bura gətirməlisiniz... Bunu deyən Azərbaycan xalqının nümayəndəsidir və yaxud parlaman üzvü sifətiylə guya bizimlə Azərbaycan müqəddəratı məsələsində şərik görünən Rusiya vəkilidir? Öz içərimizdən bizə ultimatum verir, bizi qırmızı Rusiyanın orduları ilə təhdid edir? Budurmu vətənpərvərlik? Eləmi danışar bir cümhuriyyət üzvü? Beləmi sözlər söylər bir xalq nümayəndəsi?... Mən burada hər halda bir Azərbaycan parlamanı üzvü deyil, bir Rusiya vəkilinin, bir Rusiya agentinin sözünü eşidirəm... Nə üçün siz belə ümid edirsiniz ki, Azərbaycan xalqı bir düşmən ilə mübarizə edə bilmək üçün öz hüququnu ikinci bir üsyan hazırlamaqda əli olan Qarayevlərə təslim etməli imiş? Qarabağ düşmənlərini bəyənmirlər. Onlarla mübarizə etmək üçün buradakı üsyançılara təslim olmağı təklif edirlər. Bunun üçün nəzərə alınmır ki, Qarabağda üsyan qaldıran Vartazarlar həmin düşmənlərin başındadırlar ki, siz də onda iştirak edirsiniz. Əgər siz məni təmin etsəniz ki, idarə işləri əlinizə keçdiyi təqdirdə burada Azərbaycan türk hökuməti təşkil edəcəksiniz, əgər bilsəm ki, Azərbaycan hökuməti adı ilə Rusiya Sovetinin bir şöbəsini açmayacaqsınız, o vaxt sizinlə danışa bilərdik. Bu sözlər əvəzində bizi qane edəcək dəlillər göstərə bilsəniz, biz hər vaxt sizinlə danışardıq, fəqət siz həqiqi bir istiqlalçı deyil, digər bir üs-

[728] Rəsulzadə M.Ə. Azərbaycan Cümhuriyyəti, s. 65.
[729] Yenə orada, s. 65.

yan hazırlayan bir sui-qəsdçisiniz... Əgər siz məni inandırsanız ki, o böyük şüarlara əməl olunacaq, bu millətin hüququna riayət ediləcək, o halda mən sizinlə danışardım. Fəqət haqq və hüquqdan danışmaq əvəzinə bizi təhdid edirsiniz ki, hökuməti bizə verməsəniz, böyük Rusiya və onun böyük qırmızı ordusu var, onlar gəlib sizi qıracaqlar..."[730]

1920-ci ilin martında G.Çiçerin V.İ.Leninə məktubunda yazırdı: "Azərbaycana zorakılıq aktı beynəlxalq münasibətlərdə dostlarımızı bizə qarşı qoyar... Bizi imperialist hesab etmələrinə yol verməməliyik".[731] Lakin belə məsləhətlərə qulaq asmaq Mərkəzə sərfəli deyildi. Çünki Bakıdakı bolşeviklərin çevriliş cəhdi nəticə verməmişdi. Sovet Rusiyası isə Azərbaycanı işğal etməkdə qərarlı idi və V.İ.Lenin martın 17-də Qafqaz cəbhəsinin Hərbi İnqilab Şurasına göndərdiyi şifrəli teleqramında "Bakını almaq haqqında" göstəriş vermişdi.[732] Buna görə də bolşeviklər Azərbaycana qarşı hərbi əməliyyata başlamaq üçün səylə bəhanə axtarırdılar. Rusiyada olduğu kimi, Azərbaycan əhalisi arasında da böyük təbliğat işi aparılırdı. Lakin Rusiyada cənub sərhədlərinin müdafiəsinin zəruriliyindən və sovet hökumətini qurmaqda Azərbaycan xalqına köməkdən söhbət gedirdisə, öz azadlıqları və müstəqillikləri uğrunda mübarizə aparan türklərə qarşı azərbaycanlıların qardaşlıq hisslərindən istifadə edərək Azərbaycanda da deyirdilər ki, rus ordusu durmadan Türkiyəyə, Mustafa Kamala köməyə gedir.[733] Öz növbəsində Sovet Rusiyasının yardımlarına ehtiyac duyan Anadolu hərəkatı liderlərinin bu yardımları Türkiyə üçün təmin etmək məqsədilə Bakıya və Moskvaya göndərdiyi nümayəndələr, həmçinin Azərbaycanda olan türk hərbçiləri bolşeviklərin əlində bir alətə çevrilərək "ingilispərəst" Azərbaycan hökumətini devirməkdə bolşeviklərə yaxından kömək etdilər. Məhz Azərbaycandakı Türkiyə nümayəndələrinin birbaşa iştirakı və fəal yardımı ilə

[730] Azərbaycan Xalq Cümhuriyyəti (1918-1920). Parlament (Stenoqrafik hesabatlar). II c., s. 883-884.
[731] Rəfiyev B. Aysberqin sualtı hissəsi. Bakı: Azərnəşr, 1995, s. 8.
[732] V.İ.Lenin Azərbaycan haqqında, s. 164.
[733] Rafiyev B. Aysberqin sualtı hissəsi, s. 8-9.

Sovet Rusiyası 1920-ci ilin aprelində Azərbaycanın istilasını həyata keçirə bildi.*

1920-ci il aprelin ortalarında S.Kvantalianinin başçılığı ilə AK(b)P-nin nümayəndələri Petrovsk şəhərinə gedərək gələcək silahlı üsyanla XI Qızıl Ordunun hərəkətini uzlaşdırmaq barədə Orconokidze ilə danışmış, silahlı üsyanın başlanmasından 24 saat sonra XI Ordunun Azərbaycan sərhədini keçməsi planlaşdırılmışdı.[734] S.Kvantaliani aprelin 22-də Bakıya qayıtdı. Elə həmin gün RK(b)P Qafqaz Diyar Komitəsinin Bakı Bürosunun AK(b)P MK və Bakı Komitəsi ilə birgə müşavirəsi keçirildi. XI Qızıl Ordunun Bakıya gəlmiş nümayəndələrinin də iştirak etdiyi bu müşavirədə birgə əməliyyat planı təfsilatı ilə müzakirə edildi və qərara alındı ki, aprelin 27-də Azərbaycan hökumətinə hakimiyyəti təslim etmək haqqında ultimatum verilsin və dərhal silahlı üsyana başlanılsın, eyni zamanda, XI Qızıl Ordu da həmin gün Azərbaycan sərhədini keçsin.[735]

Qızıl Ordunun komandanlığı məlumat almışdı ki, Azərbaycan Cümhuriyyətinin 30 minlik ordusunun 20 mini ölkənin qərbində erməni daşnakları ilə vuruşur, Dağıstan sərhədində ən çoxu 3 min, Bakının özündə isə cəmi 2 min əsgər və zabit vardır.[736] Yerdə qalan qoşun hissələri də bütün ölkə ərazisinə səpələnmiş halda idi. Qafqaz cəbhəsi komandanlığının XI Ordu komandanlığına və Volqa-Xəzər donanmasına göndərdiyi 1920-ci il 21 aprel tarixli 490 nömrəli direktivdə göstərilirdi ki, Azərbaycanın əsas qüvvəsi ölkənin qərb sərhədində məşğuldur. Ona görə də XI Orduya və Volqa-Xəzər donanmasına Tuxaçevski, Orconokidze və Zaxarovun imzası ilə göndərilən direktivdə əmr edilirdi ki, aprel ayının 27-də Azərbaycan sərhədini keçib, sürətli hücumla beş gün ərzində Yalama-Bakı əməliyyatını yerinə yetirsinlər və Bakı quberniyasının ərazisini tutsunlar. Aprelin 23-də bu əmrə əlavə və dəyi-

* Bu haqda növbəti yarımfəsildə ətraflı bəhs olunacaq.
[734] Swietochowski T. Müslüman Cemaatten Ulusal Kimliğe Rus Azerbaycanı, s. 238-239.
[735] Azərbaycan tarixi, 3 clddə, III c., I h., s. 238.
[736] Yenə orada. s. 238.

şikliklər edildi və 5969/s saylı yeni bir direktiv göndərildi: "XI Ordunun son vəzifəsi Bakı quberniyasını deyil, bütün Azərbaycan ərazisini tutmaqdır".[737]

1920-ci il aprelin 27-si saat 12-də başda Həmid Sultanov olmaqla kommunistlərin nümayəndə heyəti AK(b)P MK, RK(b)P Qafqaz Diyar Komitəsinin Bakı Bürosu və Mərkəzi Fəhlə Konfransı adından hakimiyyətin təhvil verilməsi barədə Azərbaycan parlamentinə ultimatum verdi.[738] Bolşeviklər "12 saat ərzində hakimiyyətin təslim edilməyəcəyi təqdirdə" Bakı proletariatının amansız mübarizəyə başlayacağını bildirirdilər. Martın axırlarında ermənilərin Qarabağda yenidən qırğın törətmələri, Bakıda bolşeviklərin ifrat dərəcədə radikallaşması, 1918-ci ildəki hərbi və digər yardımlarla Osmanlılara hörmətin, sevginin daha da artması zəminində Xəlil paşa başda olmaqla Azərbaycandakı Anadolu nümayəndələrinin bolşeviklərlə iş birliyinə girməsi və XI Ordunun Bakıya girmədən Ermənistandan keçərək Anadoluya köməyə getməsi, lakin Müsavat hökumətinin bu işə əngəl törətməsi barədə yayılan söz-söhbətlərlə vəziyyətin xeyli gərginləşdirildiyi bir şəraitdə ultimatum məsələsinin ortaya çıxması, arxasınca isə XI Ordunun sərhədi keçməsi barədə Xaçmazdan teleqram alınması hakimiyyət dairələrində əməlli-başlı çaşqınlıq yaratdı. Vəziyyətdən çıxış yolu kimi müdafiə naziri general S.Mehmandarova geniş səlahiyyətlər verməklə ölkənin müdafiəsini təşkil etmək tövsiyə olundusa da, nazir milli ordu hissələrinin əsasən Qarabağda döyüşdüyünü və ümumiyyətlə yaranmış şəraitdə müqavimətin müsbət bir nəticə verəcəyinə inanmadığını bildirdi.[739] F.X.Xoyski və Ş.Rüstəmbəyli başda olmaqla işğalçı rus ordusuna qarşı silahlı

---

[737] Интернациональная помощь XI Армии в борьбе за победу Советской власти в Азербайджане. Документы и материалы. 1920-1921 гг. Баку: Азернешр. 1989, с. 19.

[738] Rəsulzadə M.Ə. Azərbaycan Cümhuriyyəti, s. 66; Azərbaycan tarixi. 3 cilddə, III c., I h., s. 239; Swietochowski T. Müslüman Cemaatten Ulusal Kimliğe Rus Azerbaycanı, s. 240.

[739] İbrahimli X. Azərbaycan siyasi mühacirəti (1920-1991). Bakı: Elm, 1996, s. 26-27; Swietochowski T. Müslüman Cemaatten Ulusal Kimliğe Rus Azerbaycanı, s. 241.

müqavimət göstərilməsinin tərəfdarı olan bəzi nazirlər və parlamentin üzvləri hökumətin Gəncəyə köçürülməsini təklif etdilər.[740] Lakin dəmiryol vağzalını tutan türk zabit və əsgərləri hökumət üzvlərinin Bakını tərk etmək cəhdinin qarşısını aldılar.[741]

Aprelin 27-si səhər tezdən kommunistlərin silahlı dəstələri həm şəhər daxilində, həm də onun kənarlarında ən mühüm obyektləri: dəmiryol vağzalını, poçtu, teleqrafı, radiostansiyanı, polis məntəqələrini, iri neft mədənlərini, sənaye müəssisələrini, hərbi və ticarət limanını və s. yerləri ələ keçirməyə başladılar. Təxribatçı qruplar Bakı, şimal sərhədi və Gəncə arasında telefon və teleqraf əlaqələrini kəsdilər, bu da hökumətə əyalətlərdə yerləşən özünə sadiq hərbi hissələri vaxtında köməyə çağırmağa imkan vermədi.[742]

Bolşeviklər xalqı aldatmaq, əməllərinin əsl mahiyyətini gizlətmək üçün silahlı dəstələrinin bir çoxuna türkiyəli zabitləri komandir təyin etmişdilər. Azərbaycan ordusunda zirehli avtomobilləri idarə edən, donanmada xidmətdə olan türk zabitləri də bolşeviklərin tərəfinə keçdilər. Azərbaycan ordusunun könüllülərdən təşkil edilmiş və bütün zabit heyəti türk olan Bakıdakı "Yardım alayı" və 7-ci piyada alayı da Azərbaycan hökumətinə xəyanət edib bolşeviklərin tərəfinə keçdi. Donanmanın gəmiləri qırmızı bayraq qaldıraraq toplarını Azərbaycan hökumətinin binasına tuşladılar.[743]

Aprelin 27-də axşam hələ yaranmamış Azərbaycan Sovet hökuməti Qırmızı Donanmasının komandanı Çingiz İldırımın imzası ilə parlamentə yeni bir ultimatum verildi. Ultimatumda deyilirdi: "Azərbaycan Sovet Sosialist Respublikasının Qırmızı Donanması Sizə təklif edir ki, yubanmadan hakimiyyəti yoldaş Nəri-

[740] Swietochowski T. Müslüman Cemaatten Ulusal Kimliğe Rus Azerbaycanı, s. 241.

[741] Хейфец А.Н. Советская Россия и сопредельные страны Востока в годы гражданской войны, с. 108.

[742] Azərbaycan tarixi. 7 clddə. V c., s. 518.

[743] Rəsulzadə M.Ə. Azərbaycan Cümhuriyyəti, s. 66; Azərbaycan tarixi. 3 clddə. III c., I h., s. 241.

man Nərimanov başda olmaqla Azərbaycan fəhlə-kəndli hökumətinə verəsiniz. Bu halda Qırmızı Donanma milliyyətindən asılı olmayaraq, Bakının bütün əhalisi üçün sülh və sakitliyin qorunacağına təminat verir. Cavab bu sənəd alındıqdan sonra iki saat ərzində verilməlidir, əks təqdirdə atəş açılacaqdır".[744]

Belə bir vəziyyətdə aprelin 27-si axşam saat 20:45-də Azərbaycan Parlamenti özünün son iclasına toplandı. Gündəlikdə bir məsələ – bolşeviklərin hakimiyyəti təhvil vermək barəsində ultimatumu məsələsi dururdu. M.Ə.Rəsulzadənin təkidi ilə iclasın açıq keçirilməsi qərara alındı.[745]

M.H.Hacınski ultimatum mətnini oxudu və öz təslimçilik mövqeyini bir daha nümayiş etdirdi: "...Şimaldan heç bir qorxu yoxdur və orada yaşayanlar da Azərbaycan kəndliləri kimi kəndlilərdir və azərbaycanlı kəndlilərin razılığı və istəyi olmasa, heç kəs Azərbaycana soxula bilməz... Onların vəzifələri Azərbaycandan keçib Türkiyəni zalım imperialistlərdən azad etməkdir. Bu qüvvələr (XI Qızıl Ordu – V.Q.) Azərbaycana yalnız onun ərazisindən keçib Türkiyəyə getmək üçün daxil olurlar..."[746] Daha sonra çıxış edən müxtəlif parlament fraksiyalarının nümayəndələri: S.Ağamalıoğlu (Hümmət), A.Səfikürdski (Sosialist bloku), Q.Qarabəyov (İttihad) və A.Qardaşov (Əhrar) da M.H.Hacınskinin hakimiyyəti təhvil vermək təklifini müdafiə etdilər.[747]

Müsavat fraksiyası adından çıxış edən M.Ə.Rəsulzadə qeyd etdi ki: "Qardaşlar, qarşımızda bir ultimatum durur. Burada təslimdən bəhs edilir. Fəqət qardaşlar, təslim nə deməkdir? Kimə görə mövqeyimizi tərk edirik? Bizə deyirlər ki, hüdudlarımızdan keçən ordunun başında Nicati adında bir türk komandanı var. Rusiyadan gələn bu təcavüzkar ordu təxminən bilirəm ki, həyat və ölüm mübarizəsi aparan Türkiyəni xilas etmək üçün keçir.

Qardaşlar, Türkiyə Azərbaycanın xilaskarıdır. Millətimizin amalını uca eyləyən müqəddəs bir məmləkətdir. Onun xilasına ge-

[744] Həsənli C. Azərbaycan Xalq Cümhuriyyətinin Xarici Siyasəti, s. 499.
[745] Буниятов З. Сборник документов "за семью печатями", с. 3-4.
[746] Yenə orada, s. 4-5.
[747] Yenə orada, s. 5-9.

dən bir qüvvəni biz məmnuniyyətlə yola salarıq. Fəqət bir şərtlə ki, bu qüvvə bizim azadlığımızı, müstəqilliyimizi çeynəməsin. Halbuki qardaşlar, bizdən soruşmadan torpağımıza keçən hər hansı bir qüvvə dostumuz deyil, düşmənimizdir. Duyduğumuz bu təbliğat düşmən təbliğatıdır. Bizi aldadırlar. Yalandır, gələn rus ordusudur. Onun istədiyi 1914-cü il hüdudlarını almaqdır. Anadolunun imdadına getmək bəhanəsiylə yurdumuza girən işğal ordusu buradan bir daha çıxmaq istəməyəcəkdir. Rusiya ilə anlaşmaq üçün hökuməti mütləq bolşeviklərə təslim etmək ultimatumunu qəbul etməyə ehtiyac yoxdur. Bu ultimatumu kəmali-nifrətlə rədd edirik... İstiqlalımızı göz bəbəyi kimi müdafiəyə qərar verən bir məclisin dinlədiyi bir ultimatumu qəbul etməsi, hökuməti öz əli ilə dost cildinə girmiş düşmənə təslim etməsi deməkdir. Biz buraya millətin iradə və arzusu ilə gəldik, bizi buradan yalnız qüvvət və süngü çıxarmalıdır".[748] Bununla belə, vətəndaş müharibəsi təhlükəsini nəzərə alan Müsavat fraksiyası "Azərbaycanın müstəqilliyinin saxlanılacağı" şərti ilə kommunistlərin ultimatumunu qəbul etmək haqqında çoxluğun fikrinə qoşulmağa məcbur oldu.[749]

Nəhayət uzun müzakirələrdən sonra, axşam saat 23:25-də parlament hakimiyyətin Azərbaycan İnqilab Komitəsinə təslim edilməsi haqqında qərar qəbul etdi.[750] Parlament sədrinin müavini M.Y.Cəfərov və daxili işlər naziri M.Vəkilov tərəfindən imzalanmış qərarda göstərilirdi ki, hakimiyyət aşağıdakı şərtlərlə təslim edilir:

1. Rus ordusu Bakıya girmədən dəmir yolu ilə birbaşa Anadolunun imdadına gedəcək;

2. Azərbaycanın istiqlalı və ərazi bütövlüyü hər cür təcavüz və quyuddan (irticadan, ilhaqdan, köləlikdən – V.Q.) qorunacaq;

3. Azərbaycan Ordusu olduğu kimi qalıb, buraxılmayacaq;

4. Azərbaycanın siyasi partiyaları hürriyyət və sərbəstliyini mühafizə edəcək;

---

[748] Həsənli C. Azərbaycan Xalq Cümhuriyyətinin Xarici Siyasəti. s. 500.

[749] Буниятов З. Сборник документов "за семью печатями", с. 7.

[750] Yenə orada. s. 7-9; Rəsulzadə M.Ə. Azərbaycan Cümhuriyyəti. s. 66-67.

5. Keçmiş dövlət xadimləri, hökumət üzvləri və millət vəkillərindən heç bir kəs siyasi cinayətdə ittiham edilməyəcək;

6. Azad şəkildə toplanacaq Azərbaycan Şuraları hökumətin idarə şəklini təyin edəcək.[751]

Azərbaycan parlamentinin hakimiyyəti hansı şərtlərlə Azərbaycan İnqilab Komitəsinə verməsi bir həftə sonra "Kommunist" qəzetində təhriflə dərc edildi.* Sənədin bu bolşevik variantında XI Ordunun Anadoluya getməsi, siyasi partiyaların sərbəst fəaliyyəti barədə heç nə deyilmirdi. Lakin bu şərtlərin də heç birinə əməl edilmədi.

Aprelin 26-dan 27-nə keçən gecə saat 1-ə 5 dəqiqə işləmiş, yəni Azərbaycan parlamentinə ultimatum verilməsindən 12 saat əvvəl XI Qızıl Ordu Azərbaycan sərhədini keçib sürətlə Bakıya doğru irəliləməyə başladı. Aprelin 28-i səhərə yaxın saat 4-5 radələrində XI Ordunun ilk zirehli qatarı Biləcəriyə daxil olub, oradan da dərhal şəhərə tərəf hərəkət etməyə başladı. Bununla da, heç bir rəsmi dəvət almadan Azərbaycana gəlmiş XI Qızıl Ordu bu müdaxilə ilə Azərbaycan Cümhuriyyətinin həyatına son qoydu və Azərbaycan yenidən Rusiya tərəfindən işğal olundu.

Aprelin 28-də Azərbaycan Müvəqqəti İnqilab Komitəsi Moskvaya, V.İ.Leninə radioteleqramla müraciət edib "Qızıl Ordu dəstələrini təxirəsalmadan göndərmək yolu ilə real hərbi kömək

---

[751] Rəsulzadə M.Ə. Azərbaycan Cümhuriyyəti, s. 66-67.

* "Kommunist" qəzetinin 6 may 1920-ci il tarixli nömrəsində hakimiyyətin aşağıdakı şərtlərlə təslim edildiyi bildirilirdi: "1. Sovet hakimiyyəti tərəfindən idarə edilən Azərbaycanın tam müstəqilliyi saxlanılır; 2. Azərbaycan Kommunist Partiyasının yaratdığı hökumət müvəqqəti orqan olacaq; 3. Azərbaycanın qəti idarəçilik forması hər hansı kənar təzyiqdən asılı olmayan Azərbaycan Fəhlə, Kəndli və Əsgər Deputatları Sovetinin timsalında Azərbaycanın ali qanunverici müəssisəsi tərəfindən müəyyən ediləcək; 4. Hökumət idarələrinin bütün qulluqçuları öz yerlərində qalacaqlar, yalnız məsul vəzifə tutan şəxslər dəyişdiriləcək. 5. Yeni yaranan müvəqqəti kommunist hökuməti, hökumət və parlament üzvlərinin həyat və əmlaklarının toxunulmazlığına təminat verir; 6. Hökumət, Qızıl Ordunun döyüşlə Bakı şəhərinə daxil olmasına yol verməmək üçün tədbirlər görəcək; 7. Yeni hökumət Azərbaycanın müstəqilliyinə son qoymaq məqsədi güdən bütün qüvvələrə qarşı qətiyyətli tədbirlərlə və əlində olan bütün vasitələrlə mübarizə aparacaq".

göstərməyi" xahiş etdi.[752] Bu işğal faktına don geyindirmək üçün atılmış bir addım idi. Halbuki XI Ordu aprelin 26-dan 27-nə keçən gecə Azərbaycan sərhədini keçmiş və aprelin 28-də Bakını işğal etmişdi. Ən maraqlısı odur ki, vurulan teleqramın altında birinci N.Nərimanovun imzası dururdu, halbuki o, bu zaman heç Bakıda deyildi, hələ mayın 16-da Bakıya gələcəkdi.

1920-ci il aprelin 29-da V.İ.Lenin şüşə-çini fəhlələrinin ümum-Rusiya qurultayında deyirdi: "...Dünən Bakıdan aldığımız bir xəbər göstərir ki, Sovet Rusiyasının vəziyyəti yaxşılaşmaqdadır; sənayemizin yanacaqsız qaldığı bizə məlumdur, indi isə xəbər almışıq ki, Bakı proletariatı hakimiyyəti öz əlinə almış və Azərbaycan hökumətini yıxmışdır. Bu o deməkdir ki, indi bizim bütün sənayemizi canlandıra biləcək bir iqtisadi bazamız vardır. Bakıda milyon pudlarla neft vardır, bu neft son zamanlara qədər satıla bilmirdi... Beləliklə, nəqliyyatımız və sənayemiz Bakı neft mədənlərindən çox böyük yardım alacaqdır".[753] V.İ.Lenin aprel işğalından 11 gün əvvəl, 1920-ci il aprel ayının 16-da A.Serebrovskini hələ olmayan Azərbaycan Neft Komitəsinin sədri təyin etmiş[754] və Bakı neftinin Rusiyaya daşınması sahəsində ona fövqəladə səlahiyyətlər vermişdi. Aprel işğalından dərhal sonra A.Serebrovski öz işinə başladı: aprel ayının 30-dan may ayının 16-na qədər Bakıdan Həştərxana 3,8 mln. pud mazut, 119,8 min pud neft, 260,4 min pud kerosin, 52,8 min pud maşın yağı, Petrovska 67,5 min pud mazut, 112,8 min pud neft, 283,6 min pud kerosin, 31,6 min pud maşın yağı, 3,3 min pud silindr yağı göndərildi.[755] "Bakinskiy raboçiy" qəzetinin 9 noyabr 1920-ci il tarixli nömrəsində "Təxirəsalınmaz məsələ" adlı məqalədə deyilirdi: "Moskvadan tapşırıq alınıb: naviqasiya bağlanana qədər 80 mln. pud neft aparılmalıdır. Daşınmanın əvvəlində məlum olub ki, tapşırıq artıqlaması ilə yerinə yetiriləcək, buna görə də 121 mln. puda qədər artırılmış proq-

---

[752] Azərbaycana xarici müdaxilə tarixindən, s. 194.
[753] V.İ.Lenin Azərbaycan haqqında, s. 168.
[754] Yenə orada, s. 167.
[755] Братья навеки. Документы и материалы об исторической дружбе русского и азербайджанского народов. Т. 1. Баку: Азернешр. 1987, с. 437.

ram verilib. Lakin Bakı proletariatı bu axırıncı proqramı da artıqlaması ilə yerinə yetirərək oktyabrın axırı üçün Sovet Rusiyasına artıq 145 mln. pud neft göndərmişdir... Gələn il biz Sovet Rusiyasına 250 mln. pud neft göndərməliyik".[756]

Müvəqqəti İnqilab Komitəsinin 1920-ci il aprelin 28-də keçirilən iclasında N.Nərimanov başda olmaqla (qiyabi olaraq, çünki o, Bakıya mayın 16-da gəldi) Azərbaycan Xalq Komissarları Soveti yaradıldı. Kommunist partiyasından başqa bütün siyasi partiyalar buraxıldı, onların fəaliyyəti qadağan edildi. Azərbaycanın milli dövlətçilik ideallının daşıyıcıları olan bütün qüvvələrə qarşı terror və həbslər həyata keçirilməyə başladı. Nəticədə, 1920-ci il aprelin 28-dən 1921-ci ilin avqustuna qədər Azərbaycanda 48 min adam qırmızı terrorun qurbanı oldu.[757]

Hələ 1920-ci il aprelin 2-də Qafqaz cəbhəsinin Hərbi İnqilab Şurasına, Orconokidzeyə göndərdiyi teleqramında "müsəlmanlara rəğbət göstərməyi, onların muxtariyyətini, müstəqilliyini və sairəni hər vasitə ilə, həm də təntənəli bir surətdə nümayiş etdirməyi"[758] göstəriş verən V.İ.Lenin aprel istilasından sonra qurulan Azərbaycan sovet sosialist hökumətinə göndərdiyi təbrik teleqramında da "müstəqil Azərbaycan Sovet Respublikası"ndan bəhs edirdi.[759] Lakin bu "müstəqillik" formallıqdan o yana getmirdi. Təsadüfi deyildi ki, V.İ.Leninin ən yaxın silahdaşlarından biri olan İ.Stalin XI Ordunun Azərbaycana təcavüz etdiyi gün yazdığı məktublarından birində göstərirdi: "Gələcək müstəqillik (Bakı tutulandan sonra) haqqındakı söhbətlər yoldaş Orconokidzenin konstruksiyasında yəqin ki, Bakını tutmaq faktını Azərbaycanın müstəqilliyi haqqında notalarla əlaqələndirmək cəhdidir. Mənə elə gəlir ki, gələcək (güman edilən) müstəqillik ciddi əməli əhəmiyyəti olmayan bir bəyannamədir".[760]

[756] Rəfiyev B. Aysberqin sualtı hissəsi, s. 10.
[757] İbrahimli X. Azərbaycan siyasi mühacirəti, s. 32.
[758] V.İ.Lenin Azərbaycan haqqında, s. 165.
[759] Yenə orada, s. 169.
[760] ARPİİSSA. f. 1. siy. 1, iş 2a. v. 4.

Azərbaycana verilən formal müstəqillik sadəcə taktiki mülahizələrlə bağlı idi. Çunki müstəqil olaraq mövcud olan Azərbaycan Cümhuriyyətini devirib, onun ərazisini Rusiyaya ilhaq etmək həm daxildə, həm də beynəlxalq müstəvidə sovet hökumətini işğal faktı qarşısında qoya bilərdi. Ona görə də bolşeviklər öz mövqelərini möhkəmləndirdikdən sonra Azərbaycana və işğal etdikləri digər ölkələrə verdikləri bu formal müstəqillikləri yavaş-yavaş aradan götürməyə başladılar. 1920-ci il sentyabrın 30-da RSFSR-lə hərbi-siyasi ittifaq bağlayan Azərbaycan, 1922-ci ilin martında Cənubi Qafqaz Sovet Sosialist Respublikaları İttifaqına, həmin ilin sonunda isə Cənubi Qafqaz federasiyası tərkibində Sovet Sosialist Respublikaları İttifaqına daxil edildi və bununla da Azərbaycanın formal müstəqilliyi də ləğv edildi. Azərbaycanı idarə edən AK(b)P RK(b)P-nin yerli təşkilatı hüququnda idi.

## § 3. Türkiyə-Rusiya yaxınlaşması və Azərbaycanın milli dövlətçilik problemi

Birinci dünya müharibəsi hələ başa çatmamış Berlində "Azərbaycan məsələsi" ilə bağlı aparılan türk-rus danışıqlarında tərəflərin razılığa gələ bilməməsi Osmanlı-Rusiya diplomatik münasibətlərinin kəsilməsi ilə nəticələndi. 1919-cu ilin may ayında Mustafa Kamal paşanın başçılığı ilə başlanan milli azadlıq hərəkatının dünya müharibəsinin qalibi olan böyük güclərə və onların əlaltılarına qarşı yönəlməsi isə yeni Türkiyəni Sovet Rusiyası ilə yaxınlaşdırdı. Bütün Qərb ölkələrinə, qalib Antantaya qarşı inqilabi mübarizəyə başlamış Türkiyə üçün Sovet Rusiyası ilə münasibətlər həyati əhəmiyyətə malik idi.[761] Dünya müharibəsindən Oktyabr çevrilişi ilə çıxan Rusiya əvvəllər müttəfiqi olduğu Antanta dövlətləri ilə düşmən münasibətdə idi. Antanta dövlətləri "Almaniya-

[761] Həsənli C. SSRİ-Türkiyə: soyuq müharibənin sınaq meydanı, Bakı: Adiloğlu, 2005, s. 7.

nın agenti" adlandırdıqları V.İ.Leninin yaratmış olduğu bolşevik hökumətini beşiyində boğmaq istəyir və bolşevik hökumətinin qurulmasına siyasi, iqtisadi, maliyyə və digər maraqlarını həyata keçirməkdə maneə kimi baxırdılar. Bolşevik hökumətinin əsas istəyi özünü tanıtmaq idi. Qərb dövlətlərinin "tanımamaq" siyasəti bolşevik Rusiyasına zərbə idi. Mövcud şəraitdə bolşevik Rusiyasına da müttəfiq lazım idi. Belə bir müttəfiq isə məlum səbəblərə görə Türkiyə ola bilərdi.[762] Digər tərəfdən, "dünya sosialist inqilabı"na çalışan Sovet Rusiyası Qərbdə sosialist inqilabının qələbəsinə ümidini itirdikdən sonra Şərqə üz çevirmişdi və Sovetlərin düşmənlərinə qarşı anti-imperialist müharibə aparan Türkiyəyə bolşevik eksperimentləri üçün əlverişli ölkə kimi baxırdı.

Anadolu hərəkatı böyük miqdarda hərbi və maliyyə yardımlarına ehtiyac duyurdu. O dövrdə Türkiyəyə belə bir yardım ancaq Şərqdən gələ bilərdi. Mövcud vəziyyətdə ingilislərin dəstəyi ilə ölkənin beynəlxalq aləmdə tanınmasına çalışan Azərbaycan hökumətinin Anadolu hərəkatına yetərincə yardım göstərə bilməməsi M.Kamal paşanı birmənalı olaraq Moskvaya yönəltdi. Faktiki olaraq Rusiyanın Azərbaycanın müstəqilliyinə qarşı düşmən mövqeyi Azərbaycan hökumətini müttəfiq dövlətlərə sığınmağa məcbur etmişdi. Belə bir vəziyyətdə Azərbaycan Türkiyəyə bolşevik yardımlarını təmin etməyə çalışan Anadolu hərəkatı qarşısında böyük bir maneəyə çevrilmişdi.

M.Kamal paşa milli azadlıq hərəkatına başladığı ilk günlərdən bu hərəkatı uğurla apara bilməsi üçün ölkəyə bolşevik yardımlarını təmin etməyə çalışmış və bu istiqamətdə bir sıra addımlar atmışdı. O, 1919-cu il may ayının 25-də Havzaya gəldikdən sonra burada bir sovet heyəti ilə görüşmüşdü. "Təşkilat-ı Mahsusa"nın son başqanı olmuş Hüsamettin Ertürk öz xatirələrində yazırdı ki, M.Kamalın Havzada görüşdüyü sovet heyətinə rus polkovniki Semyon Mixayloviç Budyonnı rəhbərlik edirdi.[763] Amma S.Yerasimos S.M.Budyonnının xatirələrinə istinad edərək qeyd

---

[762] Qasımov M. Xarici dövlətlər və Azərbaycan, s. 134.

[763] Ertürk H, İki Devrin Perde Arkası, Hatıraları Kaleme Alan: Samih Nafiz Tansu. İstanbul: Ararat Yayınevi. 1969, s. 344.

edirdi ki, o, bu dövrdə Volqaboyunda Saritsın ətrafında çarpışmaqda idi.[764] Həqiqətən də S.M.Budyonnı 1919-cu ildə Saritsın bölgəsində antibolşevik qüvvələrlə vuruşmuş və həmin ilin iyul ayında süvari alayın komandanı təyin edilmişdi.[765] Onun Türkiyəyə gedən sovet heyətində təmsil olunması və heyət sədri olması imkansız idi. S.M.Budyonnının öz xatirələrində də onun bu dövrdə Türkiyəyə getməsinə dair hər hansı bir qeyd yoxdur.[766] M.Kamal paşa ilə görüşən sovet nümayəndəsi S.M.Budyonnı deyil, çox ehtimal ki, Budu Mdivanidir. Ola bilsin ki, bu ad H.Ertürkün xatirələrində səhv getmişdir.

Havza danışıqlarında sovet nümayəndəsi M.Kamal paşaya bolşevik Rusiyasının hərbi və maliyyə yardımlarını vəd edir, bunun müqabilində Türkiyəni ümumi düşmən hesab edilən Antantaya qarşı mübarizəyə çağırırdı.[767] O, bolşeviklərin Türkiyədə sultanlıq və xilafətin ləğv edilməsini və kommunist rejiminin elan edilməsini istədiklərini bildirirdi. M.Kamal paşa cavabında bildirdi ki, sultanlıq zəif və yıxılmaq üzrə olduğu halda, xilafət güclü olduğu kimi, həm də İslam dünyasını nəzərə almaqla lazımlıdır, kommunizmi isə Türkiyədə elan etmək mümkün deyildir. M.Kamal paşa Türkiyənin Sovet Rusiyası ilə düşmənləri arasında bir barrikada rolunu oynamasına razı olduğunu bildirdi. Bu təklif bolşeviklər üçün Türkiyəni sovetləşdirmək qədər əhəmiyyətli idi.[768]

Havza danışıqlarının olduğu günlərdə M.Kamal paşanın köməkçilərindən olan Hüsrev bəy (Gerede) 7 iyun 1919-cu il tarixində Havzadan K.Qarabəkir paşaya xüsusi bir məktub göndərdi. Hüsrev bəy məktubunda, düşmənlərə qarşı mübarizəni uğurla aparmaq üçün ruslardan silah-sursat alınması, bu məqsədlə iki ölkə arasında birbaşa sərhədin vacibliyi məsələsinə toxunur və belə bir sərhədin ancaq bolşeviklərin Qafqazı işğal etməsi ilə təmin

[764] Yerasimos S. Türk-Sovyet İlişkileri. s. 108.
[765] Perinçek M. Atatürk'ün Sovyetler'le Görüşmeleri. s. 35.
[766] Буденный С.М. Пройденный путь. Воспоминания. Москва: Воениздат, 1965.
[767] Ertürk H. İki Devrin Perde Arkası. s. 344-345.
[768] Sonyel S. Türk Kurtuluş Savaşı ve Dış Politika. C. 1. s. 83-84.

edilə biləcəyini vurğulayırdı.[769] Göründüyü kimi, sovet nümayəndələri ilə Anadolu hərəkatı arasında ilk təmasların yarandığı günlərdən Qafqazın sovetləşdirilməsi məsələsi ortaya atılmışdı.

Rusiya nümayəndəsi ilə danışıqlar aparıldıqdan dərhal sonra Amasiyada cəbhə komandirlərinin gizli müşavirəsi keçirildi və burada bolşevizmin Anadolu üçün uyğun olub-olmayacağı müzakirə edildi.[770] H.Ertürkə görə, Havza danışıqlarında Rusiya nümayəndəsi Türkiyəyə sovet yardımlarını təmin etmək üçün sosializmin qəbul edilməsini də şərt qoymuşdu.[771] Qeyd edək ki, Türkiyə Cümhuriyyəti qurulduqdan bir qədər sonra M.Kamal paşa "bizə ruslar, "bizimlə görüşmək üçün kommunist olun, ya da olmaq məcburiyyətindəsiniz" demədilər" deyərək belə bir şərtin olmasını inkar etmişdir.[772] Lakin Amasiyadakı gizli müşavirədə "ölkənin parçalanması və türk millətinin ingilis boyunduruğu altına düşə bilməsi kimi uğursuz bir ehtimal qarşısında" bolşevizmin qəbulu belə mümkün hesab edildi və M.Kamal paşa K.Qarabəkir paşaya göndərdiyi 23 iyun 1919-cu il tarixli şifrəli məktubunda bu barədə məlumat verdi.[773] K.Qarabəkir paşa isə tələsməməyi, Antanta ilə bolşeviklər arasında bitərəf qalmağı məsləhət görürdü.[774] Türk tarixçisi K.Gürün yazırdı ki, K.Qarabəkir paşanın bəhs etdiyi bitərəflik Qafqazda bolşevik qüvvələri ilə ingilis işğal qüvvələri və ya Qafqaz dövlətləri arasında baş verə biləcək toqquşmada bitərəf qalmaqdır.[775]

Havza danışıqlarından bir qədər sonra yeni bir sovet nümayəndəsi Anadoluya gələrək Balıkəsirdə 61-ci diviziya komandanı albay Kazım Özalp bəylə görüşdü. Bu görüşdə sovet nümayəndəsi bildirdi ki, Anadolu hərəkatı öz mübarizəsini rus dostluğuna söykənərək davam etdirdiyi və kapitalist dünyaya qarşı ruslarla eyni

---

769 Karabekir K. İstiklal Harbimiz. C. I, s. 64-66.
770 Yenə orada, s. 60-61.
771 Ertürk H. İki Devrin Perde Arkası, s. 344-345; Gürün K. Türk-Sovyet İlişkileri, s. 9.
772 Topuz H. Devrim Yılları. İstanbul: Remzi Kitapevi, 2004, s. 120.
773 Karabekir K. İstiklal Harbimiz. C. I, s. 60-61.
774 Yenə orada, s. 54.
775 Gürün K. Türk-Sovyet İlişkileri, s. 10.

fikirdə olduğunu bəyan etdiyi təqdirdə Rusiya bu hərəkata silah, sursat, maliyyə və hətta Türküstandan əsgər yardımı göstərəcəkdir. Sovet nümayəndəsi Balıkəsiri tərk edən zaman gizli yolla Anadoluya silah və sursat göndərməyə çalışacağını da bildirdi.[776] K.Özalp öz xatirələrində yazırdı ki, bu sovet səlahiyyətli nümayəndəsi geri dönən zaman İstanbulda ingilislər tərəfindən tutularaq sürgün edildi.[777]

RK(b)P-nin Siyasi Bürosu 1919-cu il iyulun 9-da Türkiyəyə Yusifov soyadında bir şəxsi nümayəndə olaraq göndərməyə qərar vermişdi.[778] İstanbulda ingilislər tərəfindən tutulub sürgünə göndərilən əsir siyahılarında da Yusif Yusifovun adına rast gəlinir.[779] Ola bilsin ki, K.Özalpla Balıkəsirdə danışıqlar aparan sovet nümayəndəsi həmin bu türküstanlı Yusif Yusifovdur.

Qeyd edək ki, Sovet Rusiyasının nümayəndələri ilə ilk görüşlərin keçirildiyi bu dövrdə Anadolu hərəkatının liderləri arasında bolşeviklərə münasibətdə bir sıra fikir ayrılıqları var idi. Bir qrup Qafqaza doğru irəliləməkdə olan bolşevizmə qarşı müttəfiq dövlətlərin yardımına sığınmağı tələb etdiyi halda, digər bir qrup Anadolu torpaqlarını öz işğalları altında saxlayan müttəfiqləri ölkədən qovmaq üçün bolşeviklərlə yaxınlaşmağı tələb edirdi. Son nəticə etibarilə M.Kamal paşanın da tərəfdarı olduğu bolşeviklərlə yaxınlaşmağı tələb edənlər üstün gəldilər.

Ərzurum konqresi günlərində (23 iyul – 7 avqust 1919) M.Kamal paşa bolşeviklərlə əlaqələr qurulması məsələsinin 15-ci kolordu komandanı K.Qarabəkir paşa tərəfindən həyata keçirilməsinə qərar verdi. Bu qərar üzrə hərəkət edən K.Qarabəkir paşa Azərbaycandakı vəziyyəti öyrənmək və bolşeviklərlə əlaqə yaratmaq məqsədilə Ömər Lütfi bəylə Fuad Sabit bəyi Bakıya göndər-

---

[776] Selek S. Anadolu İhtilali. C. 2. İstanbul: Burçak Yayınları. 1966. s. 68; Özalp K. Milli Mücadele: 1919-1922. C. 1. Ankara: Türk Tarih Kurumu Yayınları, 1971, s. 74.

[777] Özalp K. Milli Mücadele, s. 74.

[778] Perinçek M. Atatürk'ün Sovyetler'le Görüşmeleri, s. 43.

[779] Jaeschke G. Kurtuluş Savaşı İle İlgili İngiliz Belgeleri. Ankara: Türk Tarih Kurumu Yayınları, 1991, s. 190.

di. F.Sabit bəy Bakıdan Moskvaya getməli idi.[780] F.Sabit bəy M.Kamal paşanın Sovet Rusiyası ilə əlaqələr qurmaq məqsədilə göndərdiyi ilk şəxsdir. M.Kamal paşanın bildirdiyinə görə, F.Sabit bəy şifahi təlimatla göndərilmişdi.[781] F.Sabit və Ö.Lütfi bəylər Bakıya gələrək ilk əvvəl bu zaman Azərbaycanın baş naziri olan N.Yusifbəyli ilə görüşdülər. N.Yusifbəyli Anadolu nümayəndələrinin yardım istəyinə müsbət cavab versə də[782], F.Sabit bəy bu yardımın gerçəkləşməsinə belə mane olub, Hümmət partiyası vasitəsilə bu zaman Bakıda gizli fəaliyyət göstərən rus bolşevikləri ilə əlaqələr qurdu və Azərbaycandakı "Müsavat" hökumətini devirib, yerində Sovet Rusiyası ilə əl-ələ verə biləcək sollardan ibarət bir qrupu hakimiyyət başına gətirmək üçün fəaliyyətə başladı.

F.Sabit bəy bolşeviklərlə əlaqə qurduqdan sonra Rauf bəyə göndərdiyi şifrədə yazırdı: "...Bolşeviklərlə görüşdüm. Bolşevizmin məmləkətimizdə təsisi üçün ictimai, iqtisadi heç bir əsas olmadığı kimi, xalqın irfan və ənənəsi də buna müxalif olduğundan heç bir ictimai islahat dəvətinə girişmədən nə surətdə yardım edəcəklərini sordum. Hər surətdə yardım edəcəklərini və indi yol olmadığından yalnız maliyyə yardımı mümkün olduğu və nə qədər ehtiyac olarsa, dərhal verəcəklərini təmin etdilər..."[783]

Bu arada ingilislər tərəfindən həbs edilən Xəlil paşa və Nuru paşa, biri İstanbulda, digəri isə Batumda olan həbsxanalardan eyni gün (8/9 avqust 1919) qaçırıldılar.[784] Bu hadisənin Karakol Cəmiyyətinin işi olduğu irəli sürülsə də[785], K.Qarabəkir paşa bu olayı ingilis siyasətinin bir oyunu kimi qiymətləndirir və yazırdı: "Bu hadisə göstərir ki, ingilislər Azərbaycan ordusunu gücləndirib, bolşeviklərlə müharibəyə hazırlayırlar".[786] K.Qarabəkir paşa onu

[780] Karabekir K. İstiklal Harbimiz. C. I, s. 80.
[781] ATASE, BDH, K. 586, D. 34, F. 56.
[782] Karabekir K. İstiklal Harbimiz. C. I. s. 395-396.
[783] Yenə orada. s. 395.
[784] BOA, DH.ŞFR, no. 641/67, v. 1-3.
[785] Yerasimos S. Türk-Sovyet İlişkileri. s. 111.
[786] Karabekir K. İstiklal Harbimiz. C. 1. s. 489; Karabekir K. İstiklal Harbimizde İttihat Terakki ve Enver Paşa. C. I. Hazırlayan: Orhan Hülagü. İstanbul: Emre Yayınları, 2001. s. 20.

da qeyd edirdi ki, Nuru paşa Batum həbsxanasından bir azərbaycanlı tərəfindən qaçırılmışdır.[787] Qeyd edək ki, Nuru paşa da sonralar hazırladığı "Qafqaz İslam Ordusu haqqında raport"unda Batum həbsxanasından azərbaycanlılar tərəfindən qaçırıldığını təsdiq edərək yazırdı. "...İngilislər məni Batuma apararaq 5 ay Ərdəhan qışlalarında, 1 ay da İvanovka hərbi hissəsində həbsdə saxladılar. Bu zaman məni qaçırmaq istəyən azərbaycanlı və batumlularla razılaşıb, silahlı mübarizə vasitəsilə qaça bildim. Mübarizə zamanı 1 zabit, 2 əsgər olmaqla 3 ingilis, bizdən də 1 batumlu öldü. Bir həftə Batumda gizləndikdən sonra Acarıstandan yola çıxıb, Artvin, Ardanuç və Oltu yolu ilə Ərzuruma gəldim. Kazım Qarabəkir paşa ilə görüşdükdən sonra Naxçıvan və Qarabağdan keçib Azərbaycana qayıtdım".[788]

Trabzon valisinin dəftərdar vəkili Emin bəyin Osmanlı Daxili İşlər Nazirliyinə göndərdiyi 12 avqust 1919-cu il tarixli şifrəli teleqramda isə, Nuru paşa Batum həbsxanasından qaçırılan zaman 2 ingilis zabitinin və 4 ingilis əsgərinin öldürüldüyü və ingilislərin Nuru paşanın axtarışı üçün təyyarə belə cəlb etsələr də, bir nəticə əldə edə bilmədikləri qeyd edilirdi.[789]

Sivas konqresi günlərində (4-11 sentyabr 1919), 1919-cu il sentyabrın 9-da Nuru paşa K.Qarabəkir paşaya müraciət edərək, Elviye-i Səlasəni qorumaq üçün burada bir cümhuriyyət yaratmaq fikrində olduğunu bildirdi.[790] Lakin K.Qarabəkir paşa Nuru paşanın bu fikrini məqbul saymadı və ona Azərbaycana gedib, oradan Anadolu hərəkatına yardım təmin etməyi məsləhət gördü.[791] Nuru paşa 1919-cu ilin sentyabrında Bakıya gələrək, burada yarımrəsmi "Türkiyə Xalqının Təmsilçiliyi"ni qurdu və Anadolu hərəkatı üçün dəstək və yardım təmin etməyə çalışdı. Nəticədə 1919-cu ilin dekabrında Azərbaycan hökuməti Anadolu hərəkatına maliyyə

---

787 Karabekir K. İstiklal Harbimizde İttihat Terakki ve Enver Paşa. s. 16.

788 ATASE, BDH, K. 3823, D. 22, F. 6-29, 6-30.

789 BOA, DH.ŞFR, no. 641/67, v. 1-3.

790 Karabekir K. İstiklal Harbimiz. C. I, s. 203-204.

791 Yenə orada. s. 204-205; Karabekir K. İstiklal Harbimizde İttihat Terakki ve Enver Paşa. s. 19.

yardımı göndərdi.[792] Anadolu hərəkatına yardım təmin etməli olan bu təşkilatın bütün məsrəflərinin Azərbaycan hökuməti tərəfindən ödənilməsinə baxmayaraq, Nuru paşa Azərbaycan iqtidarını ələ keçirməyə də cəhd etdi[793], lakin müvəffəq olmadı.

Xəlil paşa da həbsdə olduğu İstanbuldakı Bəkirağa bölüyündən qaçdıqdan bir müddət sonra, konqres günlərində Sivasa gəldi və burada M.Kamal paşa ilə görüşdü. Xəlil paşa Birinci dünya müharibəsinin sonlarında Qafqazda çalışdığından o, bu bölgəni və bolşevikləri yaxşı tanıyırdı. M.Kamal paşa Xəlil paşanın bu xüsusiyyətlərini nəzərə alaraq, həmçinin Anadolu hərəkatının bir ittihadçı hərəkatı olaraq tanınmasından çəkinərək[794], onu Sovet Rusiyası və Azərbaycan hökuməti ilə əlaqələr yaratmaq, onlardan silah və maliyyə yardımları təmin etmək, ələlxüsus da sovetlərlə Türkiyə arasında yolu açmaq vəzifələri ilə təlimatlandıraraq 1919-cu ilin sentyabrında Azərbaycana göndərdi.[795] Xəlil paşa öz xatirələrində M.Kamal paşanın ona verdiyi təlimatı və özünün verdiyi cavabı belə nəql edirdi: " – Bax, Xəlil paşa, sənə güvənirəm. Komandanlıqdakı ustalığını bilirəm. Sənin üçün iki şey düşünə bilirik, birincisi, İzmir cəbhəsi komandanlığı... İkincisi, paşa... Əldə silah az, pul yox, sursat durumu fəlakət... Şərqdə sənin adın böyükdür, İzmir cəbhəsində görə biləcəyin işdən daha önəmlisini orada görə bilərsən... Rusiya dəyişmişdir. Azərbaycan və İranla fərqli kombinasiyalar edə bilərik və inanıram ki, beləcə pul və təchizat təmini mümkün ola bilər. Şərqin yardımının önəmini bilirsən, orada bir nəfəs yolu açmaq məcburiyyətindəyik. Lazım olarsa, bu nəfəs yolundan Şərqə çəkilmək belə düşünülə bilər, bu nəfəs yolu bizim üçün önəmlidir...

– Ən qısa zamanda Şərqə doğru yola çıxacağam paşa... Sənin könlün rahat olsun... İnşallah pul da taparıq, silah da..."[796]

[792] Swietochowski T. Müslüman Cemaatten Ulusal Kimliğe Rus Azerbaycanı, s. 213, 215.
[793] Sonyel S. Türk Kurtuluş Savaşı ve Dış Politika. C. I, s. 180.
[794] Yerasimos S. Türk-Sovyet İlişkileri, s. 111.
[795] Aslan B.Türkiye-Azerbaycan İlişkileri ve İbrahim Ebilov, s. 44.
[796] Halil Paşa. İttihat ve Terakki'den Cumhuriyet'e Bitmeyen Savaş, s. 304.

Xəlil paşa Sivasdan Ərzuruma gəldi və burada K.Qarabəkir paşa ilə görüşdü. K.Qarabəkir paşa Xəlil paşaya aşağıdakı tövsiyələrini verdi: "Hal-hazırda Azərbaycanda Müsavat hökuməti hakimdir. Onlara bir neçə dəfə xəbər göndərməyimə baxmayaraq, Türkiyə ölmüşdür deyə, bizə yardım etmirlər. Halbuki tez-gec erməniləri əzərik. Bolşeviklərin də yaxın zamanlarda Qafqazı aşacaqlarına şübhə etməmək lazımdır. Bunun üçün Azərbaycan hökumətinin vaxt keçirmədən bolşeviklərlə əlaqə qurub anlaşması və Arpaçay boylarında türklərlə bolşeviklərin birləşməsinə mane olmaması zəruridir.[797] Bolşeviklərin Qafqaza enməsinə böyük maneə görmürəm. Bunlara qarşı ancaq Qafqaz millətləri durur. Erməni, gürcü və Azərbaycan hökumətləri həm bolşeviklərə qarşı cəbhədir, həm də bizim şərqimizi mühasirə etmişlər. Bolşeviklərin ilk çatacaqları cəbhənin Azərbaycan olacağı şübhəsizdir. Çünki Bakıya həm dənizdən, həm də qurudan hücum edilə bilər... Rusların Bakıya enmələri məncə labüddür. Çünki rusların bütün fabrik və paraxodları mazutla işləyir. Yəni Bakısız Rusiya yaşaya bilməz. Belə bir hərəkət qarşısında Müsavat hökuməti nə edə biləcəkdir... Nuru paşanın sizinlə eyni gecədə Batum həbsxanasından asanlıqla qaçırılması göstərir ki, ingilislər Azərbaycan ordusunu qüvvətləndirib bolşeviklərlə hərbə hazırlayırlar... Parisdə tanınmış bir Azərbaycan istiqlalını bolşeviklər tanımasa nə olacaq?... Bolşeviklərlə dostluq və hətta ittifaq bağlamaq zərurətindəyik, fəqət bolşevik olmaq sürətli inkişafımızın və Antantanın bizi tezliklə məhv etməsinin qarşısını alacaqdır... Azərbaycanda görüləcək iş həm bolşeviklərlə hərbə və həm də onların qeyd-şərtsiz Azərbaycanı işğal etməsinə mane olaraq, tezliklə onlarla Azərbaycan hökumətini anlaşdırmaq və bizə şərq yolunu sərbəst saxlamaq bizim ən böyük ehtiyacımızdır. Əgər bizi məhvedici hərəkətlər görsək, onda biz özümüz öz qüvvəmizlə bu yolu açmaq zərurətində qalarıq".[798]

K.Qarabəkir paşa Xəlil paşaya bu tövsiyələrini verdikdən sonra onu 23 sentyabr 1919-cu il tarixində naxçıvanlı Böyükxanla

---

[797] Karabekir K, İstiklal Harbimiz, C. I, s. 328.
[798] Karabekir K. İstiklal Harbimizde İttihat Terakki ve Enver Paşa. s. 20-21.

birlikdə çərkəz qiyafəsində Bakıya yola saldı.[799] Xəlil paşanın əsas vəzifəsi Sovet Rusiyası və Azərbaycanın Anadoluya yardımlarını təmin etmək və sovetlərlə Türkiyə arasındakı yolu açmaq idi. Xəlil paşa Azərbaycanla Anadolu arasında birbaşa əlaqə yaratmaq məqsədilə Naxçıvanda ermənilərə qarşı aparılan müqavimət hərəkatına da dəstək vermişdi.[800] Naxçıvandakı azərbaycanlı-erməni toqquşmalarına türklərin dəstək verməsi qərb mətbuatında belə bir şayiənin yayılması ilə nəticələndi ki, guya ermənilərə qarşı birgə hərəkət etmək barədə Azərbaycanla Anadolu hərəkatı arasında bir müqavilə imzalanmışdır. Bu dövrdə Paris sülh konfransında Azərbaycanın beynəlxalq aləmdə tanınmasına çalışan Ə.Topçubaşovun rəhbərlik etdiyi nümayəndə heyəti müttəfiqlərin dəstəyindən məhrum olmamaq üçün bu kimi şayiələri qətiyyətlə təkzib etmişdi.[801]

Xəlil paşa Bakıya gəldikdən sonra bir tərəfdən yardım məsələsi ilə bağlı Azərbaycan hökuməti ilə müzakirələr aparır, digər tərəfdən də Azərbaycan hökumətini devirmək üçün bolşeviklərin Qafqaz Komitəsi ilə danışıqlara başladı. K.Qarabəkir paşa yazırdı ki, Xəlil paşa Azərbaycana gedib burada müstəqil bir cümhuriyyət təşkil edəcəyini düşünürdü.[802]

Xəlil paşa bu dövrdə Azərbaycanda mövcud olan vəziyyəti xarakterizə edərək yazırdı: "Azərbaycan xalqı Türkiyə ilə bərabər olmaq istərkən, aydın sayılan qisim təkbaşına yaşamağı düşünməkdə və Türkiyə ilə birləşməkdən qorxu duymaqdaydı. Bir qisim aydınlar isə Türkiyə ilə deyil, İran Azərbaycanı ilə birləşərək böyük bir Azərbaycan dövləti qurmaq röyasında idilər... Bu arada K.Qarabəkir paşadan aşağıdakı şifrəni aldım: "Sizin, Ənvər və Nuru paşaların indi əsas vəzifəniz sovet idarəsini türk hüduduna

---

[799] Karabekir K. İstiklal Harbimiz. C. I. s. 328.
[800] Swietochowski T. Müslüman Cemaatten Ulusal Kimliğe Rus Azerbaycanı, s. 214.
[801] Swietochowski T. Atatürk və Transkafkasya // Tarih İncelemeleri Dergisi. XIII. Cumhuriyet'in 75 Yılına Armağan. Bornova-İzmir. Ege Üniversitesi Basımevi, 1998, s. 247.
[802] Karabekir K. İstiklal Harbimizde İttihat Terakki ve Enver Paşa. s. 17.

qədər çatdırmaq olmalıdır. Bu yolda çalışmaq lazımdır, əks təqdirdə hərəkət edilərsə, bu başqalarının durumuna yarayacaqdır..." Sovet hüdudunu Türkiyəyə qədər aparmaq açıqca Azərbaycanı ruslara təslim etmək demək idi. İstiqlalı və gələcəyi üçün əmək sərf etdiyimiz Azərbaycanı, rəngi nə olursa olsun, rusların idarəsi altına verməyi bir vətən parçası saydığım Azərbaycana xəyanət sayardım. Bu mənim və digər türk paşalarının fiziki və mənəvi intiharından başqa bir şey olmazdı, üstəlik Anadoluda istiqlal üçün döyüşülürkən... Nə yazıq ki, ruslara istədikləri petrolu istədikləri qədər verməyərək, zorla almağa sövq edən, daha doğrusu, bu səbəbin yaradılmasına səbəb olan Bakı hökuməti bir təhriklə rus ordularını Bakı üzərinə yürüməyə və Azərbaycanı işğala sövq edəcəkdir..."[803] Burada Xəlil paşanın hələ də ittihadçı düşüncəsində olduğu açıq-aydın görünür. Lakin Xəlil paşa Azərbaycanın "sovetləşdirilməsi" məsələsinin əsl mahiyyətini açıqlayır və buna öz obyektiv qiymətini verir. Qeyd edək ki, Birinci dünya müharibəsinin son mərhələsində Qafqazda qurulan Azərbaycan adlı bir dövləti bolşeviklərə qarşı dəstəkləyən Türkiyə indi öz mənafeyi naminə bu dövləti bolşeviklərlə iş birliyinə girməyə və bolşevikləşməyə sövq edirdi. M.Kamal və K.Qarabəkir paşalar Türkiyə üçün uyğun görmədikləri bolşevizmi öz milli mənafeləri naminə Azərbaycana rəva görürdülər.

Birinci dünya müharibəsinin son günlərində Ənvər paşa da yaranmış gərgin vəziyyətlə əlaqədar olaraq Azərbaycana yerləşmək və buradan yeni Türkiyə Cümhuriyyətinin təşəkkülünü təmin etmək üçün mübarizəyə başlamaq istəyirdi. O, belə bir qərara gəldiyini Xəlil və Nuru paşalara göndərdiyi 23 və 26 oktyabr 1918-ci il tarixli teleqramlarında açıqlamışdı.[804] Müharibənin sonlarına yaxın Ənvər paşa Qafqaz cəbhəsində olan 9-cu ordunu qüvvətləndirmiş, onu hər cür silah-sursatla təchiz etmiş və bundan özünün məqsədləri üçün istifadə etməyi planlaşdırmışdı. Ənvər paşa Azərbaycanda təşkil edəcəyi qüvvələrin dəstəyi ilə ingilislərə qarşı müqavimət göstərmək, daha sonra Ermənistanı əzərək Ana-do-

[803] Halil Paşa. İttihat ve Terakki'den Cumhuriyet'e Bitmeyen Savaş, s. 323-324.
[804] Aydemir Ş.S. Makedonya'dan Ortaasya'ya Enver Paşa. s. 446.

luya keçmək və burada Türkiyənin milli haqlarını müdafiə etmək məqsədilə uzun və çətin bir partizan müharibəsinə başlamaq niyyətində idi. Lakin o, İstanbuldan bir alman torpedosu ilə Şimali Qafqaz sahilinə çıxdıqdan sonra xəstələnərək uzun müddət xəstə yatağında yatmış və bu dönəmdə türk qoşunlarının Qafqazı tərk etməsi səbəbindən, sağaldıqdan sonra bölgədə öz məqsədlərini həyata keçirmək üçün elə bir qüvvə görməmiş və Berlinə getməyə məcbur olmuşdu.[805] Berlində Tələt paşa ilə birlikdə təkrar fəaliyyətə başlayan Ənvər paşa yenidən "bütün İslam aləmini ingilislərə qarşı ayağa qaldırmaq" düşüncəsinə gəlmiş, bu yolda bolşeviklərlə anlaşma yolunu tutmuş və bu niyyətlə 1920-ci ilin avqustunda Moskvaya gedərək sovet hökuməti ilə əlaqələr qurmuşdu.

Ənvər paşa tərəfindən qurulmuş "Təşkilat-ı Mahsusa" 1918-ci ilin oktyabr ayında rəsmən dağıdıldı. Lakin Ənvər paşa hələ İstanbulu tərk etməmiş "Təşkilat-ı Mahsusa"nın yeni bir ad altında – "Ümum Alem-i İslam İxtilal Təşkilatı" adı ilə öz fəaliyyətini davam etdirməsini tövsiyə etmişdi.[806] Ənvər paşa özü, yuxarıda qeyd edildiyi kimi, bu dövrdə Qafqaza gəlib buradan milli müqavimət hərəkatına başlamaq niyyətində idi.

Ənvər və Tələt paşaların İstanbulu tərk etmələri ərəfəsində Ənvər paşanın göstərişi ilə Kara Vasıf, Kara Kamal və Baha Sait bəylər tərəfindən 1918-ci il oktyabrın 20-də "Karakol Cəmiyyəti" adlı bir təşkilat yaradıldı.[807] Bu təşkilatın əsas məqsədi təqib olunan ittihadçıları qorumaq, onları ölkənin işğal altında olmayan bölgələrinə göndərmək və burada bir müqavimət hərəkatı təşkil etmək idi.[808] Karakol Cəmiyyəti özünü Anadoluda milli müqavi-

---

[805] Cebesoy A.F. Milli Mücadele Hatıraları. s. 42-43.

[806] Aslan B. Yeni Belgeler İşığında Karakol Cemiyeti, Uşak Konqresi ve Karakol Cemiyeti'nin Bolşeviklerle Yaptığı Anlaşma // Atatürk Dergisi, Ocak, 2004, IV/1, s. 44-45.

[807] Aslan B. Yeni Belgeler İşığında Karakol Cemiyeti, s. 32-33.

[808] Yenə orada, s. 33, 34; Zürcher E.J. Milli Mücadelede İttihatçılık. Çeviren: Nüzhet Salihoğlu. İstanbul: Bağlam Yayınları, 2003, s. 126; Haley Ch.D. Son Savaşçı Enver Paşa, s. 114-115; Aydın M. Milli Mücadele Dönemi'nde TBMM Hükümeti Tarafından İstanbul'da Kurulan Gizli Gruplar ve Faaliyetleri. İstanbul: Boğaziçi Yayınları. 1992. s. 24-25.

mət hərəkatını təşkil edən və aparan bir təşkilat kimi göstərməyə çalışırdı. Bu təşkilat Anadoludakı milli müqavimət hərəkatını silahla təmin etməkdə də önəmli rol oynamışdı.

Karakol Cəmiyyəti bolşeviklərlə əlaqələr qurulmasına da xüsusi önəm verirdi və ölkəyə bolşevik yardımlarını təmin edib milli müqavimət hərəkatını Qafqazdan dəstəkləmək istəyirdi. Gizli olaraq İstanbulda fəaliyyət göstərən Karakol Cəmiyyəti bu aralarda müxtəlif yollarla Osmanlı paytaxtına gəlmiş bolşeviklərlə əlaqələr qurmuşdu. Cəmiyyətin qurucularından olan Kara Vasıf bəy Əli Fuad paşa vasitəsilə M.Kamal paşaya göndərdiyi raportunda bolşeviklərlə qurduğu əlaqələr haqqında məlumat verirdi. 1919-cu il iyul ayının əvvəllərində göndərilən bu raportda deyilirdi: "Rus bolşevikləri Krımda bir Şərq İşləri Şöbəsi qurmuşlar, bizə buraya bir adam yollamışlar, bu şəxs bizdən iki nümayəndə istəyir. Təklifi xilafət və müsəlman dünyasında bilinən şeylərdir. Bu nümayəndə Türkiyədə demokratik bir hökumət idarəsinin təşkilini, fəhlə və kəndlinin bu idarədə iştirakını, böyük sərmayə, imtiyazlı şirkətlər və bankların milliləşdirilməsini istəyir və belə olan təqdirdə türklərə Krımdan nağd qızıl və gümüş olaraq maliyyə yardımlarının göstəriləcəyini, hərbi yardımın da təmin ediləcəyini, ingilis və fransızların ölkəmizdən qovulmasında yardımçı olacaqlarını bildirmişdir. Biz nümayəndə göndərərik, şərtlərimiz təxminən eyni şeylərdir. Fəqət nümayəndəmiz imzaya səlahiyyətli olmayıb, qərarlarını bizə yazacaq, alacağı məzuniyyət üzərinə imza edəcəkdir. Bu da sizin təqdir və qəbulunuza görə olacaqdır..."[809]

Göründüyü kimi, Vasıf bəy 1919-cu ilin iyul ayında Krımdan gələn bolşeviklərin Şərq İşləri Şöbəsinin nümayəndəsi ilə görüşdüyünü və onun müqavilə imzalamaq üçün iki türk nümayəndəsinin Rusiyaya göndərilməsini istədiyini bildirir və bunun M.Kamal paşanın təqdir və qəbuluna görə olacağını xüsusi vurğulayırdı. Vasıf bəyin bu raportu Əli Fuad paşa tərəfindən 8 iyul 1919-cu il tarixində M.Kamal paşaya göndərildi. Bu raportu aldıqdan sonra M.Kamal paşa Ərzurumda K.Qarabəkir paşa və Rauf bəylə məslə-

---

[809] Cebesoy A.F. Milli Mücadele Hatıraları, s. 94-95; Karabekir K. İstiklal Harbimiz. C. I, s. 79.

hətləşərək, bolşeviklərlə əlaqələr qurulması məsələsinin K.Qarabəkir paşa tərəfindən həyata keçirilməsinə qərar verdi.[810] Lakin bu qərar barəsində Kara Vasıf bəyə heç bir məlumat verilmədi.[811] Karakol Cəmiyyəti də öz növbəsində, müstəqil qərar qəbul edərək, bolşeviklərlə danışıqlar aparmaq üçün öz nümayəndəsi Baha Sait bəyi Bakıya göndərdi.[812] B.Sait bəy Karakol Cəmiyyətinin qurucularından biri, həmçinin bu cəmiyyətin Mərkəzi Komitəsinin üzvü idi. Cəmiyyət tərəfindən B.Sait bəyə bolşeviklərlə danışıqlar aparmaq üçün hər cür səlahiyyətə malik olduğuna dair bir sənəd də verilmişdi.[813] B.Sait bəy 1919-cu ilin noyabrında Bakıya gəldi və dərhal bolşeviklərlə danışıqlara başladı. B.Sait bəy bolşeviklərlə apardığı danışıqlarda özünü "Karakol Cəmiyyəti və Uşak Konqresi İcra Heyəti"nin nümayəndəsi kimi təqdim edir və bu konqresi bütün Türkiyəni təmsil edən bir konqres olaraq gös-tərirdi.[814] Onun bolşeviklərə təqdim etdiyi sənədlərə görə, Uşak konqresi 22 avqust 1919-cu il tarixində toplanmış, bu konqresdə Türkiyənin əksər vilayətlərinin nümayəndələri iştirak etmiş və burada müvafiq qərarlar qəbul olunmuşdur.[815] Bununla B.Sait bəy özünün Türkiyədəki milli müqavimət hərəkatının təmsilçisi olduğunu bildirmək istəmişdir.

B.Sait bəyin RK(b)P-nin Qafqaz Komitəsinin nümayəndələri ilə apardığı danışıqların nəticəsi olaraq, 1919-cu ilin noyabrında bir müqavilə mətni hazırlandı. Bu müqavilə mətni 11 yanvar 1920-ci il tarixində imzalanacaq müqavilənin mətni ilə eynidir. Sadəcə müqavilə mətninə qoyulan tarixlər fərqlidir. Burada müqavilənin RSFSR Xalq Komissarları Soveti Rusiya Kommunist Partiyasının Qafqaz Diyar Komitəsinin nümayəndəsi ilə Karakol Cəmiyyəti və Uşak Konqresi İcra Heyəti timsalında Türkiyə İnqilabi Hərəkatını təmsil edən Müvəqqəti hökumətin Qafqazdakı təmsil-

[810] Karabekir K. İstiklal Harbimiz. C. I. s. 79-80.
[811] Gürün K. Türk-Sovyet İlişkileri, s. 12.
[812] Yerasimos S. Türk-Sovyet İlişkileri, s. 113.
[813] ARDA. f. 894, siy. 10. iş 145, v. 3.
[814] ARDA, f. 894, siy. 10, iş 145, v. 2-10.
[815] ARDA. f. 894, siy. 10. iş 145, v. 2, 4, 8.

çisi Baha Sait arasında 1919-cu ilin noyabrında Bakıda imzalandığı qeyd edilirdi.[816] Müqavilənin noyabr ayının hansı günü imzalandığı göstərilməmiş və gün yeri boş qalmışdır. Həmçinin imzalar da atılmamışdır.[817] Rus dilində əl yazısı ilə qələmə alınan bu müqavilə mətni 1920-ci il yanvarın 11-də imzalanacaq müqavilənin ilkin layihəsi ola bilər və yaxud, ola bilsin ki, bu müqavilə layihəsində razılığa gələn tərəflər bunun bir müddət gizli saxlanılması barəsində razılığa gəliblər.

Bu müqavilə mətni daha düzgün bir hala gətirilərək, Azərbaycanın istiqlaliyyətinin Versal Ali Şurası tərəfindən tanındığı gün – 11 yanvar 1920-ci il tarixində imzalandı. Müqaviləni Rusiya hökuməti adından Şalva Eliava, Karakol Cəmiyyəti timsalında Türkiyə Müvəqqəti İnqilabi hökuməti adından Baha Sait bəy imzaladılar. "Bütün müsəlman ölkələrini Qərbi Avropa imperialistlərinin boyunduruğundan xilas etməyi" başlıca ortaq məqsəd elan edən bu müqaviləyə görə, Sovet Rusiyası Türkiyə İnqilabi Təşkilatına silah, sursat, maliyyə və s. yardımlar göstərməyi öz üzərinə götürür, Karakol Cəmiyyəti isə, Türkiyədə sovet idarə formasının qurulmasına çalışacağını vəd edir, Denikin, Kolçak və sovet hökumətinin digər düşmənlərinə qarşı mübarizədə sovetlərə kömək göstərilməsini öz üzərinə götürür, Batum, İran, Əfqanıstan və Hindistanda əhalini İngiltərəyə qarşı ayağa qaldırmağı təəhhüd edirdi.

On beş maddədən ibarət olan bu müqavilənin Azərbaycanla bağlı maddələrini olduğu kimi veririk:

"Maddə 11. Rusiya Sovet Respublikası və Türkiyə İnqilabi hökumətinin İngiltərə və Rusiya imperialistlərinə qarşı Qafqazda başlayacağı ortaq hərəkət, Avropa imperialistlərinin əmr və nüfuzu altında bu müqavilənin qarşısında duran məqsədlərə qarşı hərəkət edən və bu gün müqaviləni imzalayan tərəfləri bir-birindən ayıran Gürcüstan, Ermənistan və Azərbaycanın hazırkı hökumətləri tərəfindən əngəllənd iyinə görə, Türkiyə Müvəqqəti İnqilabi hökumətini təmsil edən Uşak Konqresi İcra Heyəti və Karakol İnqilabi Cəmiyyəti yuxarıda qeyd edilən üç hökumətə qarşı bu mü-

[816] ARDA, f. 894, siy. 10, iş 145, v. 11.

[817] ARDA, f. 894, siy. 10, iş 145, v. 13.

qavilləni imzalayan tərəflərlə birlikdə hərəkət edəcək hökumətlərə, bu xüsusda (RK(b)P-nin – V.Q.) Qafqaz Diyar Komitəsinə yardım etməyi öz üzərinə götürür. Azərbaycanda hökumət çevrilişini gerçəkləşdirmək üçün Türkiyə Müvəqqəti İnqilabi hökuməti Azərbaycanın türk əhalisinin irqi təmayülündən və azərbaycanlılar arasında tanınan türk millətçilərinin nüfuzundan və şəxsiyyətlərindən istifadə etməyi təəhhüd edir. Azərbaycan inqilabi hökumətinin quruluş şəkli Azərbaycanın fəhlə və kəndli konqresinin sərbəst şəkildə verəcəyi qərar çərçivəsində olacağından müqaviləni imzalayan tərəflər konqresin qərarlarına qarşı çıxmamağı təəhhüd edirlər.

Maddə 12. Gürcüstan, Ermənistan, Azərbaycan və Şimali Qafqaz kimi bütün Qafqaz hökumətlərinin istiqlalları müqaviləni imzalayan tərəflərcə qəbul edilmiş olduğundan, bunların bir-birindən ayrı bir şəkildə müstəqil olmaları və ya Qafqaz Birliyinə qatılmaq yolu ilə və yaxud federasiya şəklində böyük dövlətlərdən birinə qatılmaq şəklində hökumət qurmaları xüsusunda onların tamamilə sərbəst olacaqlarını və bu məsələyə heç bir şəkildə qarışmayacaqlarını müqaviləni imzalayan tərəflər qəbul və təəhhüd edirlər.

Maddə 13. Bu müqavilənin iki nüsxəsi öncə, bir tərəfdən Rusiya Sovet Respublikasının Qafqazdakı nümayəndələri, yəni Rusiya Kommunist (bolşeviklər) Partiyasının Diyar Komitəsi və digər tərəfdən də Karakol İnqilabi Cəmiyyətinin və Uşak Konqresi İcra Heyətinin nümayəndəsi tərəfindən imza ediləcəkdir. Bu surətlə imzalanmış nüsxələrdən biri Karakol İnqilabi Cəmiyyəti və Uşak Konqresinin Mərkəzi Komitəsi tərəfindən, digəri isə RSFSR Xalq Xarici İşlər Komissarlığının rəisi və Mərkəzi İcraiyyə Komitəsinin sədri tərəfindən təsdiq edildikdən sonra imzalanmış müqavilə mətnləri mübadilə ediləcəkdir.

Maddə 14. Bu müqavilə on üçüncü maddədə göstərilən şəkildə imza edildikdən sonra qüvvəyə minəcəkdir. Müqaviləni imzalayan tərəflərin Qafqazdakı nümayəndələri öz imzalarını atdıqdan

sonra bu müqavilənin tətbiqinə başlayacaqlar və öz hökumətlərinin təsdiqini gözləmədən ortaq hərəkətə keçəcəklər".[818]

Göründüyü kimi, Karakol Cəmiyyətinin təmsilçisi Türkiyə milli azadlıq hərəkatı üçün Sovet Rusiyasının yardımlarını təmin etməkdən ötrü Azərbaycanın sovetləşdirilməsini qəbul edir və bu yolda Azərbaycanda dövlət çevrilişini həyata keçirmək üçün azərbaycanlılar arasında tanınan türk millətçilərinin nüfuzundan və şəxsiyyətlərindən istifadə etməyi öz üzərinə götürürdü. Bir tərəfdən müqavilənin on üç və on dördüncü maddələrində bu müqavilənin ratifikasiya edildikdən sonra qüvvəyə minəcəyi qeyd edilir, digər tərəfdən eyni zamanda, on dördüncü maddədə göstərilirdi ki, tərəflər imzalarını atdıqdan sonra öz hökumətlərinin təsdiqini gözləmədən bu müqavilənin tətbiqinə başlayacaqlar. Görünür, Azərbaycan Cümhuriyyətinin paytaxtında oturub öz mənafeləri naminə onun faciəsinə imza atan tərəflər çox tələsirlərmiş. Bu müqavilənin imzalanmasından dərhal sonra Bakıda olan Anadolu hərəkatının təmsilçiləri ilə bolşeviklər Azərbaycan milli hökumətini devirmək üçün birgə fəaliyyətə başladılar.

Sovet Rusiyasının 11 yanvar 1920-ci il tarixli müqaviləni imzalaması bir növ bolşeviklərin Versal Ali Şurası tərəfindən Azərbaycanın istiqlaliyyətinin tanınmasına qarşı bir cavab tədbiri idi. Digər tərəfdən Sovet Rusiyası bu müqavilədən Böyük Britaniyaya qarşı təzyiq vasitəsi kimi istifadə etdi. Moskva hökuməti bildirirdi ki, Böyük Britaniya "rus işinə" qarışmayacağı təqdirdə Sovet Rusiyası RK(b)P Qafqaz Diyar Komitəsinin Türkiyə ilə bağladığı müqavilədən imtina edəcəkdir. RSFSR xalq xarici işlər komissarı G.Çiçerin RK(b)P Qafqaz Diyar Komitəsinə – Ş.Eliavanın adına göndərdiyi 29 fevral 1920-ci il tarixli direktivində yazırdı: "Biz gənc türklərlə nə müdafiə, nə də hücum haqda ittifaq bağlamırıq. Aydındır ki, bu, İngiltərə ilə saziş məsələsində bizim əl-qolumuzu bağlayır. Biz türk imperializmini şirniklәndirmək fikrində deyilik. Nuru paşa kimi qatı imperialist türk hərbçilərini Qafqazın müsəlman vilayətlərinə buraxmaq olmaz. Yarımkommunizm kimi təq-

[818] ARDA, f. 894, siy. 10, iş 145, v. 11-14; Karabekir K. İstiklal Harbimiz. C. II, s. 702-704; Yerasimos S. Türk-Sovyet İlişkileri. s. 134-136.

dım edilən panislamizm əksinqilabi qüvvə kimi bizim üçün təhlükəlidir. Bu gün olmasa da, sabah biz ona qarşı mübarizə aparmalı olacağıq. Gənc türklərlə ittifaqa girmək haqda müqavilə bağlamaq çox böyük səhv olardı. Bu ittifaq gələcəkdə qeyri-müəyyən razılaşmalarla əvəz edilməlidir".[819]

Bu arada Sovet Rusiyasının nümayəndələri ilə ingilislər arasında danışıqlar başlandı. İngilis siyasi dairələrində Sovet Rusiyasına münasibət baxımından fikir ayrılıqları var idi. Baş nazir Lloyd Corc qəti olaraq Rusiya ilə qarşı-qarşıya gəlməyin əleyhinə idi. O, Londona gəlmiş sovet xarici ticarət komissarı Leonid Krasinlə apardığı danışıqlarda açıq surətdə bəyan etdi ki, kral hökuməti Qafqaz işlərinə qarışmır. Bununla da, Sovet Rusiyası Azərbaycanın işğalına beynəlxalq təminat almış oldu.

B.Sait bəyin imzaladığı 11 yanvar 1920-ci il tarixli müqavilənin mətni rus polkovniki İlyaçev vasitəsilə İstanbula, Karakol Cəmiyyətinə göndərildi. Karakol Cəmiyyətinin sədri Kara Vasıf bəy İlyaçevə bildirdi ki, bu müqavilə Heyət-i Təmsiliyyə tərəfindən imzalandıqdan sonra cəmiyyət tərəfindən möhürlənərək mübadilə ediləcəkdir.[820] Vasıf bəy bu müqaviləni təsdiq etdirmək üçün Heyət-i Təmsiliyyə rəisi M.Kamal paşaya göndərdi.[821] Lakin M.Kamal paşa, o cümlədən K.Qarabəkir paşa bu olaya çox sərt bir reaksiya verdilər. Çünki B.Sait bəy bu müqavilədə Anadoludakı hərəkatı təşkil və ona liderlik edən bir təşkilat kimi Karakol Cəmiyyəti və Uşak Konqresini göstərmiş və bir sıra təəhhüdlər altına girmişdi. M.Kamal paşanın əsas narahatçılığı bu müqavilədə olan hər hansı bir maddə ilə bağlı olmaqdan daha çox Anadolu hərəkatında baş verə biləcək parçalanma və xüsusilə də bu hərəkatda liderlik məsələsi ilə əlaqədar idi. M.Kamal və K.Qarabəkir paşalar bu narahatçılıqdan dolayı Karakol Cəmiyyətinin müstəqil hərəkət edərək bolşeviklərlə danışıqlar aparıb müqavilə imzalamasına eti-

---

[819] ARDA, f. 894, siy. 10, iş 145, v. 15.
[820] Karabekir K. İstiklal Harbimiz. C. I, s. 564-565; Gürün K. Türk-Sovyet İlişkileri. s. 27.
[821] Perinçek M. Atatürk'ün Sovyetler'le Görüşmeleri, s. 49; Aslan B. Yeni Belgeler Işığında Karakol Cemiyeti. s. 48.

raz etsələr də, Anadolu hərəkatı ilə Sovet Rusiyası arasında qurulmaqda olan münasibətlərdə mühüm mərhələ olan bu müqavilədən də imtina etmək istəmirdilər. Çünki B.Sait bəyin imzaladığı bu müqavilədə Anadolu hərəkatı liderlərinin Sovet Rusiyası ilə qurulacaq münasibətlərdə əsas götürdüyü təməl prinsiplər öz əksini tapmışdı. Belə ki, Anadolu hərəkatının bu dövrdə böyük ehtiyac duyduğu silah, sursat və maliyyə yardımlarının təmin edilməsi, ələlxüsus da Azərbaycanın sovetləşdirilərək bolşevik idarəçiliyinə verilməsi yolu ilə "Qafqaz səddi"nin aradan qaldırılması, bununla da Sovet Rusiyası ilə Anadolu arasında birbaşa əlaqənin təmin edilməsi, "ingilismeyilli" Müsavat hökumətinin devrilməsi ilə Anadolu hərəkatı üçün Şərqdən gələ biləcək hər hansı bir təhlükə qorxusunun aradan qaldırılması kimi M.Kamal və K.Qarabəkir paşaların Qafqaz və Rusiyaya münasibətdə əsas götürdükləri hədəflər burada öz həllini tapırdı. Buna görə də M.Kamal və K.Qarabəkir paşalar Kara Vasıf və Baha Sait bəyləri narazı salmamaq və Karakol Cəmiyyətinin bolşeviklərlə imzaladığı müqavilədən yararlanmaq yolunu tutdular.[822] B.Sait bəy 1921-ci ildə Azərbaycandan Anadoluya qayıtdıqdan sonra da TBMM hökuməti tərəfindən yunan hücumları ilə bağlı əhalinin panikaya düşməməsi üçün təbliğati iş aparmaq məqsədilə təşkil edilən "İrşad" heyətlərində vəzifə aldı.[823]

B.Sait bəy 1920-ci il yanvarın 11-də bolşeviklərlə müqavilə imzaladıqdan sonra da hələ bir müddət Azərbaycanda qaldı. Lakin o, bu dövrdə artıq Karakol Cəmiyyəti və Uşak Konqresinin təmsilçisi kimi müstəqil deyil, M.Kamal paşanın Anadoluya sovet yardımlarını təmin etmək məqsədilə Bakıya göndərdiyi Xəlil paşa və F.Sabit bəylə birgə fəaliyyət göstərdi.

Ümumiyyətlə, 1919-cu ilin sonu – 1920-ci ilin əvvəllərində Anadolu hərəkatı ilə bolşeviklər arasında əlaqələr qurmaq və Türkiyəyə sovet yardımlarını təmin etmək məqsədilə Bakıda fəaliyyət göstərən türk nümayəndələrini iki qrupa bölmək olar. Birinci qrup Xəlil paşanın ətrafında toplaşan Kiçik Tələt, Baha Sait, Komiser

[822] Karabekir K. İstiklal Harbimiz. C. I, s. 565.
[823] Gürün K. Türk-Sovyet İlişkileri, s. 30.

Tahsin, bəzi zabitlər və müharibə əsirlərindən ibarət idi və daha çox ittihadmeyilli idi. İkinci qrup isə, M.Kamal və K.Qarabəkir paşalar tərəfindən bolşeviklərlə əlaqələr yaratmaq məqsədilə Bakıya göndərilən Fuad Sabit bəyin ətrafında toplaşan yüzbaşı Yaqub, ehtiyat zabitlərindən Süleyman Nuri və bir neçə zabit və müharibə əsirlərindən ibarət idi.[824] Dünya müharibəsinin qalibi olan dövlətlərə qarşı ölüm-dirim savaşı aparan Anadolu hərəkatına sovet yardımlarını təmin etməklə bağlı eyni məqsəd uğrunda mübarizə aparan bu qruplar birlikdə fəaliyyət göstərmək qərarına gəldilər və hər iki qrupun 1920-ci ilin əvvəllərində birgə keçirdiyi toplantıda bolşeviklərlə birlikdə çalışmaq barədə qərar qəbul edildi və ilk etapdakı hədəf də aşağıdakı kimi müəyyən edildi: "İngilis siyasətinin atəşli tərəfdarı olan Azərbaycanın hazırkı hökumətini ən qısa bir zamanda yıxmaq və bolşeviklərlə razılığa gələ biləcək bir hökuməti hakimiyyət başına gətirmək".[825] Bu məqsədə çatmaq üçün dərhal fəaliyyətə başlamaq qərarına gəlindi və bunun üçün hər iki qrupun nümayəndələrindən ibarət bir təşkilat quruldu. Azərbaycandakı yerli və rus bolşevikləri ilə paralel şəkildə fəaliyyət göstərən bu təşkilata "Türk Kommunist Firqəsi" adı verildi. Xəlil paşa, Fuad Sabit, Süleyman, qərargah zabiti Mustafa, Baha Sait, yüzbaşı Yaqub, Kiçik Tələt, Salih Zəki, Süleyman Nuri, Hilmi və digərlərinin[*] daxil olduğu bu firqədə hərəkat, nəşriyyat və təbliğat şöbələri yaradıldı. Hərəkat şöbəsi qərargah zabiti Mustafa, Baha Sait, Süleyman, yüzbaşı Yaqub və üç rus bolşevikindən ibarət idi. Təbliğat şöbəsinə sabiq Zor valisi Salih Zəki bəy rəhbərlik edirdi. Nəşriyyat şöbəsinin şefi isə Fuad Sabit bəy seçildi və bu şöbənin bir qəzet nəşr etdirməsi planlaşdırıldı.[826] Türk Kommunist

---

[824] Karabekir K. İstiklal Harbimiz. C. II, s. 680.

[825] Yenə orada, s. 680; Tevetoğlu F. Türkiye'de Sosyalist ve Komünist Faaliyetler. 1910-1960. Ankara: Ayyıldız Matbaası. 1967. s. 277.

[*] Türk tarixçisi K.Gürün yazırdı ki, Mustafa Sübhi də Türk Kommunist Firqəsini quranlar arasında olmuşdur (Gürün K. Türk-Sovyet İlişkileri, s. 30). Qeyd edək ki, Mustafa Sübhi bu zaman Bakıda deyildi. O, təşkilatı (Türkiyə Kommunist Təşkilatı) ilə 1920-ci ilin mayında Bakıya gəlmişdir (Aslan B. Türkiye-Azerbaycan İlişkileri ve İbrahim Ebilov, s. 67-68).

[826] Karabekir K. İstiklal Harbimiz. C. II, s. 680-681.

Firqəsinin nəşriyyat şöbəsi bir müddət sonra Bakıda "Yeni Yol" adlı bir qəzet nəşr etdirməyə başladı.[827]

Göründüyü kimi, Türk Kommunist Firqəsində yer alan əsas simalar M.Kamal və K.Qarabəkir paşalar tərəfindən bolşeviklərlə əlaqə qurmaq məqsədilə Qafqaza göndərilən şəxslər idi. Türk Kommunist Firqəsi qurulan kimi təşkilat dərhal Anadolu hərəkatının liderləri ilə yazışmalara başladı və öz fəaliyyətini M.Kamal və K.Qarabəkir paşaların verdiyi direktivlər əsasında qurdu. Bu da öz növbəsində Anadoluya sovet yardımlarını təmin etmək müqabilində Azərbaycan Cümhuriyyəti hökumətinin devrilməsinə və Azərbaycanın bolşevikləşdirilməsinə yönələn, nəticə etibarilə də buna nail olan bir fəaliyyət idi.

Əsas məqsədi Anadoluya sovet yardımlarını təmin etmək olan Türk Kommunist Firqəsi bu yardımların ancaq Azərbaycandan Zəngəzur-Naxçıvan yolu ilə gerçəkləşə biləcəyini çox yaxşı anlayırdı və bu məsələ ilə bağlı Anadoludan da lazımi təlimatlar almışdı. Türk Kommunist Firqəsi öz qarşısına qoyduğu məqsədə çatmaq yolunda iki əngəl görürdü: Birincisi, ermənilər, ikincisi isə, "ingilis tərəfdarı olan" Azərbaycan hökuməti. Buna görə də firqə bir tərəfdən Azərbaycan ordusunun ermənilərə qarşı hücum əməliyyatlarına başlamasına çalışır, digər tərəfdən də Azərbaycanın sovetləşdirilməsi istiqamətində öz fəaliyyətini davam etdirirdi.[828]

1919-cu ilin sonlarından başlayaraq Qafqaz və bütövlükdə Rusiya ilə bağlı beynəlxalq müstəvidə gedən müzakirələrdə bir canlanma yaranmışdı. Bu, sovet hökumətinə qarşı mübarizə aparan keçmiş çar generallarının bolşeviklər qarşısında dalbadal geriləmələri ilə bağlı idi. Üstəlik Şimali Qafqazda cənuba doğru geriləməkdə olan Denikin ordularına qarşı başlayan üsyanlar gərgin bir vəziyyət yaratmışdı. Belə bir vəziyyətdə Bakı neftinin sovetlərin əlinə keçməsinə yol verməK istəməyən, bolşevizmin İran və İraqa doğru cənub istiqamətində yayılmasının qarşısını almaq və

[827] Aslan B. Türkiye-Azerbaycan İlişkileri ve İbrahim Ebilov, s. 49.

[828] Yerasimos S. Milliyetler ve Sınırlar. Balkanlar, Kafkasya ve Ortadoğu, s. 327.

bolşeviklərlə Anadolu hərəkatının birləşməsini önləmək istəyən müttəfiq dövlətlərinin əlində yeganə bir yol qalmışdı: Bolşeviklərə qarşı Azərbaycan, Gürcüstan və Ermənistandan ibarət bir "Qafqaz səddi" yaratmaq. Faktiki olaraq müttəfiqlərin Qafqazda hərbi qüvvəsi yox idi. İngilis qoşunları 1919-cu ilin avqustunda Qafqazdan çıxarılmışdı. Yalnız Batumda az miqdarda ingilis əsgəri qalmışdı. Bolşevizmin cənuba enməsinə qarşı bütün ümidlər Denikinə bağlanmışdı. Lakin 1919-cu ilin sonlarında bu ümidin özünü doğrultmadığı aydınlaşdı.

İngiltərənin və digər müttəfiqlərin külli miqdarda pul buraxdığı, hərbi sursatla kömək etdiyi və diplomatik yolla müdafiə etdiyi Denikin könüllüləri 1919-cu il oktyabrın 20-də Oryoldan, az sonra Voronejdən, noyabrın 12-də Novoxoperskdən çıxmağa məcbur oldular. 1919-cu ilin axırlarında məlum oldu ki, "ağların" silahlı qüvvəsi ilə Rusiyanı kommunistlərin əsarətindən qurtarmaq işi demək olar ki, uduzulmuşdur. Yudeniçin Petroqradı almaq cəhdi baş tutmamış, Kolçak Sibirin dərinliklərinə qədər geri oturdulmuş, Denikin isə bir-birinin ardınca şəhərləri təslim edərək cənuba doğru geri çəkilirdi. Lakin uzun müddət Denikin təhlükəsi altında olan Azərbaycan və Gürcüstan üçün indi Denikin ordusunun məğlubiyyəti yeni – daha qorxulu bir vəziyyət yaradırdı, onlar bolşeviklərin simasında daha güclü bir düşmənlə üz-üzə qalmalı olurdular.

1919-cu ilin noyabr ayının axırlarında Böyük Britaniyanın baş naziri Lloyd Corc Parisdə ABŞ dövlət katibinin müavini F.Polkla danışıq aparan zaman Amerika tərəfinə açıq şəkildə bildirdi ki, Kolçak və Denikinə kömək etməyin heç bir əhəmiyyəti yoxdur, onların məğlubiyyəti göz qabağındadır və onlara göndərilən bütün silah və hərbi sursat isə Qızıl Ordu tərəfindən ələ keçirilir. Danışıqlar zamanı Lloyd Corc F.Polka bildirdi ki, vahid bolşevik Rusiyası Avropa üçün böyük təhlükəyə çevriləcəkdir. Ona görə də o, bu fikirdədir ki, "Gürcüstan, Azərbaycan, Ukrayna, Bes-

sarabiya, Baltik əyalətləri və Finlandiya, ola bilsin ki, Sibirin müstəqilliyi tanınmalıdır".[829]

Antanta dövlətləri baş nazirlərinin 1919-cu ilin dekabr ayında Londonda keçirilən görüşündə Cənubi Qafqaz respublikaları haqqında məsələ ümum-rus məsələsi fonunda müzakirə edildi. Böyük dövlətlərin başçıları rus generallarının uğursuzluqlarına təəssüflənir, Böyük Britaniyanın mövqeyinə keçməkdə tərəddüd edir, lakin necə hərəkət edəcəklərini də dəqiq bilmirdilər. Onlar bu fikirdə idilər ki, general Denikinlə Azərbaycan və Gürcüstanı barışdırsınlar və onların birgə müdafiəsini təşkil etsinlər. Lakin Azərbaycan və Gürcüstan Denikinlə bir blokda iştirak etməkdən imtina etdilər. Öz növbəsində Denikin də bu dövlətlərin danışıqlarda xarici dövlət kimi iştirak etmələrinin yolverilməz olduğunu göstərdi.[830] Denikin də Rusiyanı 1914-cü il sərhədlərində bərpa etməyə çalışırdı. O, özünü Tiflisdə rəsmən təmsil edən general Baratova göndərdiyi 2 iyul 1919-cu il tarixli gizli təlimatnaməsində yazırdı: "Bütün Cənubi Qafqazın 1914-cü il sərhədləri daxilində Rusiya dövlətinin ayrılmaz bir parçası olduğunu nəzərə almaq lazım gəldiyindən bu yerlərin vahid Rusiya hakimiyyəti altında olacaq dövlətə sakit bir tərzdə qaytarılmasını təmin etmək vəzifəsi sizin üzərinizə düşür".[831]

1920-ci il yanvar ayının ilk günlərində Böyük Britaniyanın Cənubi Qafqazdakı ali komissarı Oliver Uordrop demək olar ki, hər gün müttəfiqlərə və İngiltərə hökumətinə teleqramlar göndərib məlumat verirdi ki, Denikin ordusu cənuba doğru geri çəkilir, bolşevik qüvvələri onu təqib edir. O.Uordrop təklif edirdi ki, təcili şəkildə Cənubi Qafqaz respublikalarını, eyni zamanda Dağıstan Respublikasını onların mövqelərini möhkəmləndirmək üçün de-fakto tanımaq lazımdır. O yazırdı: "Əgər İngiltərə fəal hərəkət etməsə, Qafqaz respublikaları məcburdurlar ki, bolşeviklərlə sazişə girsinlər".[832] O.Uordrop bu minvalla "Qafqaz səddi yaratmaq"

---

[829] Həsənov C. Azərbaycan beynəlxalq münasibətlər sistemində, s. 307, 311.
[830] Yenə orada, s. 313.
[831] Məmmədzadə M.B. Milli Azərbaycan hərəkatı, s. 134.
[832] Yerasimos S. Türk-Sovyet İlişkileri. s. 115-116, 137-138.

planının həyata keçirilməsinə çalışırdı və bunu vəziyyətdən yeganə çıxış yolu kimi görürdü. 1920-ci il yanvarın 2-də RSFSR xalq xarici işlər komissarı G.Çiçerin Azərbaycan və Gürcüstan hökumətlərinə nota ilə müraciət edərək Denikinə qarşı birgə mübarizə aparmaq üçün hərbi saziş bağlamağı təklif etdi.[833] G.Çiçerinin notasını alan kimi Azərbaycan və Gürcüstan hökumətləri dərhal O.Uordropa müraciət edərək, bolşeviklərə qarşı mübarizə aparmaq üçün yardım istədilər. O.Uordrop da bütün bunları Londona bildirdi və "Qafqaz səddi yaratmaq"la bağlı təklifini bir daha dilə gətirdi.[834] G.Çiçerinin notası səmimi niyyətlərdən uzaq olsa da, Azərbaycan və Gürcüstanın istiqlalı məsələsinə Paris sülh konfransının öz münasibətini bildirməsini sürətləndirdi.

1920-ci il yanvarın 10-da Böyük Britaniyanın təşəbbüsü ilə Paris sülh konfransı Ali Şurasının sessiyası çağırıldı. Sessiyada İngiltərə, Fransa və İtaliyanın hökumət başçıları və xarici işlər nazirləri, ABŞ və Yaponiyanın isə sülh konfransındakı nümayəndələri və Parisdəki səfirləri iştirak edirdi. Ke d'Orsedə keçirilən sessiyada Cənubi Qafqaz respublikalarının məsələsi çox geniş və ətraflı müzakirə edildi. Qafqazdakı vəziyyət haqqında ətraflı məlumat verən Britaniya baş naziri bildirdi ki, bolşeviklər Xəzər boyunca hərəkət edirlər, əgər onlar Denikini əzsələr və Xəzər dənizini ələ keçirsələr, ola bilsin ki, türklər onlarla birləşsinlər. Belə olduqda Qafqaz dövlətləri çıxılmaz vəziyyətdə qalacaqlar. Buna görə də Lloyd Corc təklif edirdi ki, bu dövlətlərə silah və hərbi sursat göndərmək üçün ağıllı bir yol fikirləşmək lazımdır.[835] Ali Şuranın iclası günorta Lloyd Corc və Jorj Klemansonun iştirakı olmadan xarici işlər nazirləri səviyyəsində davam etdirildi və burada İngiltərənin xarici işlər naziri Lord Kerzonun təklifi ilə Qafqaz respublikalarına münasibət probleminin siyasi tərəflərinə aid müzakirə aparıldı. Kerzon öz çıxışında bildirdi ki, Lloyd Corc Ali Şuranın iclasında Azərbaycan və Gürcüstanın müstəqilliyinin tanınması

[833] ARDA, f. 894, siy. 10, iş 106, v. 1, 3; f. 897, siy. 1, iş 86, v. 1; f. 970, siy. 1, iş 112, v. 5; iş 157, v. 44.
[834] Yerasimos S. Türk-Sovyet İlişkileri, s. 116.
[835] Azərbaycan tarixi. 7 cilddə. V c., s. 439-440.

məsələsini qoymaq fikrindədir. Ermənistan məsələsi isə Türkiyə məsələsi ilə birlikdə həll ediləcəkdir. Xarici işlər nazirləri belə bir yekdil qərara gəldilər ki, Azərbaycan və Gürcüstan üçün üç tərəfdən təhlükə yaranmışdır. Birincisi, bolşevik Rusiyasının qoşunları cənuba doğru hərəkət edir, ikincisi, geri çəkilən Denikin ordusu bu respublikalara soxula bilər, üçüncüsü, kamalçılar Rusiya ilə razılıq əsasında bu respublikalara müdaxilə edə bilər. Vəziyyət böhranlı olduğu üçün Azərbaycan və Gürcüstan hökumətləri Antanta dövlətlərinə yardım üçün müraciət etmişdilər. Kerzon həmin müraciətlər barədə məlumat verib təklif etdi ki, yubanmadan Azərbaycan və Gürcüstanı de-fakto tanımaq lazımdır. Bir gün sonra yanvarın 11-də Müttəfiqlərin Ali Şurası Kerzonun təklifi üzrə bu məzmunda bir qərar qəbul etdi: "Müttəfiq və birlik ölkələri Azərbaycan və Gürcüstan hökumətlərini birlikdə de-fakto səviyyəsində tanıyırlar".[836] ABŞ və Yaponiya nümayəndələri bildirdilər ki, Azərbaycan və Gürcüstanın tanınması aktına qoşulmaq üçün onlar öz hökumətlərinin rəyini öyrənməlidirlər. Az sonra – fevralın 7-də Yaponiya Ali Şuranın 11 yanvar tarixli qərarına qoşuldu. ABŞ isə rəsmi surətdə bundan imtina etdi.[837]

Yanvarın 19-da Paris sülh konfransının Ali Şurasının hökumət başçılarının iştirakı ilə keçirilən iclasında marşal Ferdinand Foş Müttəfiqlərin hərbi ekspertlər şurasının məruzəsi ilə çıxış etdi. Burada Cənubi Qafqaz respublikalarına hansı formada yardım göstərilməsi məsələsi kəskin mübahisələrə səbəb oldu. Hərbi ekspertlərə başçılıq edən marşal Foş Cənubi Qafqaza bir neçə diviziya göndərməyi zəruri hesab edirdi. Feldmarşal Vilson Ferdinand Foşu müdafiə edərək əlavə etdi ki, Britaniya donanması Xəzər dənizində təşəbbüsü ələ almasa, Cənubi Qafqazı saxlamaq mümkün olmayacaq. Vilsonun qənaətinə görə, menşevik və müsavatçılara silah vermək, bu silahları bolşeviklərə hədiyyə etmək deməkdir. Hərbi nazir Çörçill Henri Vilsonla razılaşdı və bildirdi ki, İngiltərə Xəzər dənizində ağalıq etməsə, Qafqaza göndərilən bü-

[836] BOA, HR.SYS, no. 2463/61, v. 1; Həsənov C. Azərbaycan beynəlxalq münasibətlər sistemində, s. 319-320.

[837] Həsənov C. Azərbaycan beynəlxalq münasibətlər sistemində, s. 320.

tün silahlar bolşeviklərin əlinə keçəcəkdir. Lakin Lloyd Corc hərbi ekspertlərin təklifinə qəti şəkildə etiraz edib bildirdi ki, hərbçilər siyasətdən baş çıxara bilmirlər. "Əgər ordu göndərmədən Cənubi Qafqazı saxlamaq mümkün deyilsə və göndərilən silahlar itiriləcəksə, deməli, məntiqə əsasən, köməkdən imtina etmək lazımdır". Lloyd Corc marşal Foşa müraciət edərək soruşdu: "Hərbçilərin qərarını məhz bu məzmunda başa düşmək olarmı?" Marşal Foş isə haqlı olaraq hesab edirdi ki, yalnız qoşun göndərməklə Qafqazı bolşevik təcavüzündən xilas etmək olar. Nəhayət, uzun müzakirələrdən sonra iclasa yekun vuran Lloyd Corc Cənubi Qafqaz respublikalarına təcili şəkildə silah, hərbi sursat və geyim göndərilməsi ilə yardım göstərilməsini vacib hesab etdi. Azərbaycan və Gürcüstana ordu göndərmək məsələsinə gəldikdə isə, o etiraf etdi ki, bu mümkün deyildir.[838] Lloyd Corcun belə bir mövqeyə gəlməsində Böyük Britaniyanın əmək naziri Sir Robert Hornenin Parisə göndərdiyi 18 yanvar 1920-ci il tarixli raport da mühüm rol oynadı. Raportda qeyd edilirdi ki, hazırda İngiltərənin iqtisadi və sosial vəziyyəti çox pisdir, sindikatları böyük tətillər gözləyir. Belə bir vəziyyətdə uzaq hərbi səfərlərə əsgər xərcləmək olmaz.[839] Nəticədə Parisdəki müttəfiqlər qərar qəbul etdilər ki, Qafqaza ordu göndərilməsin, yalnız silah və hərbi sursat göndərib oradakı "canlı qüvvələrdən" istifadə edilsin.[840]

Qeyd edək ki, Paris sülh konfransında Azərbaycanın müstəqilliyinin de-fakto tanınması İstanbul mətbuatında çox böyük sevinclə qarşılandı, qəzetlərdə Azərbaycanın ünvanına bir sıra təbriklər nəşr edildi.[841] "Yeni Gün" qəzeti bu hadisəni "Türklük aləmində məsud bir hadisə" kimi dəyərləndirdi[842], "Təsvir-i Efkar" qəzeti isə Türklük aləminin matəm içində olduğu bu vahiməli za-

838 Həsənov C. Azərbaycan beynəlxalq münasibətlər sistemində, s. 323-324.
839 Yerasimos S. Türk-Sovyet İlişkileri, s. 118.
840 BOA. BEO, no. 4553/341401. v. 7.
841 Yeni Gün, 18 Ocak 1920, no. 303; Yeni Gün, 29 Ocak 1920, no. 314; Yeni Gün, 31 Ocak 1920, no. 316; Tasvir-i Efkar, 19 Ocak 1920, no. 2963; İkdam, 19 Ocak 1920, no. 8239; İkdam, 31 Ocak 1920, no. 8251; İleri, 19 Ocak 1920, no. 730; İleri, 31 Ocak 1920, no. 742; Alemdar, 27 Ocak 1920, no. 406.
842 Yeni Gün. 18 Ocak 1920, no. 303.

manda bir türk hökumətinin yenidən təşəkkül etməsi və təsdiq edilməsi ilə təsəlli tapdıqlarını bildirdi [843] "İkdam" qəzeti də Azərbaycanın çarizm dövründən istiqlala qədər milli mücadilə dövrünə nəzər saldı, türklərin irq, din və dil qardaşlarının qanları və həyatları bahasına əldə etdikləri o qiymətli istiqlalın əbədiyyətə qədər yaşamasını arzu etdi.[844]

Osmanlı Məclisi-Məbusanının 22 yanvar 1920-ci il tarixli iclasında Azərbaycan Cümhuriyyətinin müstəqilliyinin Paris sülh konfransında de-fakto səviyyəsində rəsmən tanınması məsələsi müzakirə edildi və bu münasibətlə Azərbaycan Milli Məclisinə təb-rik göndərilməsi haqqında qərar qəbul olundu. Təbrik məktubu fevralın 2-də Azərbaycan Cümhuriyyətinin İstanbuldakı nümayəndəliyinə təqdim edildi.[845]

Azərbaycanın müstəqilliyinin tanınması münasibəti ilə 30 yanvar 1920-ci il tarixində İstanbul Universitetinin konfrans salonunda bir mərasim də təşkil edildi. Konfrans salonunda Osmanlı və Azərbaycan bayraqları asılmış və nümayəndələr üzərində "Yaşa istiqlal" sözləri yazılmış döş nişanları taxmışdılar. Burada Halide Edip Adıvar, Yusif Akçura, Ruşen Əşrəf və digər türk aydınları ilə Bakıdan gələn qonaqlar Türkiyə-Azərbaycan dostluğu və qardaşlığı ilə bağlı nitqlər söylədilər.[846]

M.Kamal paşa isə, Azərbaycanın müstəqilliyinin Versal Ali Şurası tərəfindən tanınmasına açıq bir şəkildə mənfi reaksiya göstərdi və bu addımı Antanta dövlətlərinin Türkiyə ilə bolşevik Rusiyasının birləşməsinə imkan verməmək və bununla da Anadolu hərəkatını boğmaq planı kimi qiymətləndirdi.[847]

Qeyd etmək lazımdır ki, bu dövrdə müttəfiq dövlətlər bolşevizmdən müdafiə olunmaqda Polşaya xüsusi əhəmiyyət verirdilər. Yeni dövlətlərin birgə müdafiə olunmasından əlavə, Polşa bolşe-

[843] Tasvir-i Efkar, 19 Ocak 1920, no. 2963.
[844] İkdam, 19 Ocak 1920, no. 8239.
[845] BOA, HR.MTV, no. 639/1, v. 1-2.
[846] İleri, 31 Ocak 1920, no. 742; İkdam, 31 Ocak 1920, no. 8251.
[847] Karabekir K, İstiklal Harbimiz, C. I, s. 513; Swietochowski T. Atatürk ve Transkafkasya, s. 247.

vizmin Avropaya yayılması yolunda güclü sipərə çevrilməli idi. Məhz bu məqsədlə də ABŞ və Avropa dövlətləri Polşanı siyasi, iqtisadi və hərbi cəhətdən qüvvətləndirmək üçün ona hərtərəfli yardım göstərirdilər. 1920-ci ilin yanvarından başlayaraq Polşa xarici işlər naziri Stanislav Patek Parisdə və Londonda ölkənin müdafiə qabiliyyətini möhkəmləndirmək üçün danışıqlar aparırdı. Hətta belə bir fikir yayılmışdı ki, 1920-ci ilin yazında Böyük Britaniya Sovet Rusiyasını Qafqaz üzərinə hücumdan yayındırmaq üçün Polşanı onun üzərinə hücuma təhrik edir. Müttəfiq dövlətlər həmçinin bolşeviklərə qarşı Polşanın rəhbərliyi ilə "Kiçik Antanta" blokunun yaradılmasına da çalışırdılar. Polşanın Bakıya gəlmiş diplomatik nümayəndəsi Ostrovski yeni dövlətlərin müdafiə blokunun yaradılmasını təkcə Sovet Rusiyasından deyil, ağqvardiyaçı generallardan da müdafiə olunmaq üçün zəruri hesab edirdi. Layihəyə görə, bloka Polşa, Finlandiya, Estoniya, Latviya, Litva, Gürcüstan və Azərbaycan daxil olmalı idi. Rumıniyanın da bu bloka cəlb edilməsi nəzərdə tutulmuşdu.[848] "Kiçik Antanta" blokunun gerçəkləşdirilməsi məqsədilə 25 yanvar 1920-ci il tarixində qeyd edilən ölkələrin nümayəndələrinin iştirakı ilə Varşavada bir konfrans da təşkil edilmişdi.[849]

Bu dövrdə bolşevizmə qarşı təşkil edilməkdə olan "Kiçik Antanta" blokuna Osmanlı dövlətinin də daxil ediləcəyi ilə bağlı söz-söhbətlər gəzməkdə idi.[850] Bu arada İstanbulda olan Hüseyn Rauf bəy M.Kamal paşaya göndərdiyi şifrəli teleqramında yazırdı ki, ingilislərlə açıq danışıb, Türkiyənin müstəqilliyini tanımaları şərtilə türklərin Qafqazdakı vəziyyətə təsir edə biləcəyinin onlara bildirilməsi vacibdir.[851] Bütövlükdə bu dövrdə Türkiyə milli azadlıq hərəkatında bolşevizmə və Antantaya münasibət baxımından iki alternativ meyil var idi: 1. Qafqaza doğru irəliləməkdə olan bolşeviklərə qarşı Antanta dövlətlərinin yardımına sığınmaq, 2. Anadolu torpaqlarını işğalları altında saxlayan Antanta dövlətlərini ölkə-

[848] Həsənov C. Azərbaycan beynəlxalq münasibətlər sistemində, s. 336.
[849] Alemdar, 27 Ocak 1920, no. 406.
[850] Tasvir-i Efkar, 19 Ocak 1920, no. 2963.
[851] Sonyel S. Türk Kurtuluş Savaşı ve Dış Politika, C. 1. s. 175.

dən çıxarmaq üçün bolşeviklərlə yaxınlaşmaq. M.Kamal paşanın özü isə, Anadoluda hələ gözü olmayan bolşeviklərlə anlaşmağı üstün tuturdu.[852]

Antantanın Türkiyə milli azadlıq hərəkatına yanaşmaması, həmçinin ingilislərin bolşevizmə qarşı yaratmaqda olduqları "Qafqaz səddi" üçün əsgər göndərməyəcəkləri tam aydınlaşanda Anadolu hərəkatının liderləri birmənalı olaraq bolşeviklərlə anlaşma yolunu tutdular. M.Kamal paşa bu məsələ ilə bağlı son qərarını K.Qarabəkir paşaya göndərdiyi 6 fevral 1920-ci il tarixli şifrəli teleqramında bildirdi. Burada deyilirdi: "...Bolşeviklər müvəffəqiyyət əldə edib Qafqaza hakim olduqları və bizimlə əlaqə yaratdıqları zaman Avropanın vəziyyəti çətinləşəcəkdir... Türkiyə Qafqazın bolşeviklər tərəfindən istilasını asanlaşdırıb onunla birlikdə hərəkətə keçərsə, Qərbdən Şərqə doğru Anadolu, İraq, İran, Əfqanıstan və Hindistan qapılarını müdhiş bir surətdə açmış olacaqdır. Bu açıq qapıları qapatmaq üçün müttəfiqlər bir hücum əməliyyatını həyata keçirəcək qüvvələri sürətlə tədarük edə bilməzlər. Lazımi hərəkət bazalarına da təbiətən malik deyildirlər. Belə bir hərəkət ancaq Batumdan düşünülə bilər. Bu halda Qafqaz ilə Xəzər dənizinin arasını tıxamaq üçün Batumdan 400 km-dən çox uzaqlaşmaq lazım gələr. Bu hal qarşısında Antanta dövlətləri bolşeviklərlə türklərin arasını Qafqaz millətləri (dövlətləri – V.Q.) vasitəsilə kəsmək planını ortaya atmışlar. Azərbaycan, Ermənistan, Gürcüstan, bəlkə də Şimali Qafqaz hökumətlərinin istiqlallarını təsdiq edərək onları (bolşevizmə qarşı mübarizəyə – V.Q.) cəlb etdilər. İndi bolşeviklərlə vuruşmalarını təşkil etmək üçün onları hər surətlə təşviq və təkviyə (gücləndirmək – V.Q.) etməkdədirlər... Əgər bu plan müvəffəqiyyət qazanarsa və Qafqaz millətlərinin bizə qarşı qəti bir sədd yaratması ilə məmləkətimiz mühasirə vəziyyətində qalarsa, artıq Türkiyə üçün müqavimət göstərmək imkanı qalmır... Buna görə də Qafqaz səddinin yaradılmasını Türkiyənin qəti olaraq məhv edilməsi planı sayaraq, Antanta dövlətləri tərəfindən bu səddin təşkil edilməsinə yol verməmək üçün ən son va-

---

[852] Sonyel S. Türk Kurtuluş Savaşı ve Dış Politika, C. I. s. 173-174.

sitələrə əl atmaq və bu uğurda hər cür təhlükələri də göz önünə almaq məcburiyyətindəyik... Bu planın açıqlanması bizim üzərimizə düşən vəzifə və tədbirləri də göstərməkdədir. Bu tədbirlər aşağıdakılardır: Şərq cəbhəsində rəsmi və ya qeyri-rəsmi səfərbərlik edərək, Qafqaz səddini arxadan yıxacaq fəaliyyətə başlamaq, yeni Qafqaz hökumətləri ilə və xüsusilə də Azərbaycan və Dağıstan kimi müsəlman hökumətləri ilə təcili əlaqəyə girərək, Antantanın planına qarşı onların qərarlarını və vəziyyətlərini öyrənmək. Qafqaz millətləri bizə sədd olmağa qərar verdikləri halda, (onlar üzərinə – V.Q.) birlikdə hücum əməliyyatımızı gerçəkləşdirmək üçün bolşeviklərlə anlaşmaq, daxildə isə milli təşkilatı son dərəcə genişləndirib, qüvvətləndirməyimiz lazımdır. Ən mühüm vəzifə isə Antantanın zaman qazanmasına imkan verməməkdir... Bunu ancaq vəziyyəti bu şəkildə mühakimə edən və qəti qərar sahibi olan bir hökumət edə bilər..."[853]

Azərbaycanın bolşevizmə qarşı apardığı mübarizəsini bir zaman dəstəkləyən Türkiyə indi öz qurtuluşu naminə onun bolşeviklərlə anlaşmasını və bolşevikləşməsini istəyirdi. Türkiyənin bolşevikləşməsini ölkənin milli maraqları üçün haqlı olaraq təhlükəli hesab edən M.Kamal və K.Qarabəkir paşaların dost və qardaş bir ölkə olan Azərbaycanın bolşevikləşməsini istəmələri özü-özlüyündə bir ziddiyyət təşkil edirdi. Anadolu hərəkatının liderlərini belə ziddiyyətli addımlar atmağa sürükləyən əsas amil Türkiyənin ölüm-dirim mübarizəsində olması və öz varlığını qorumaq üçün istənilən addımı atmağa məcbur və məhkum olması ilə bağlı idi. Türkiyənin mövqeyi belə olduğu təqdirdə, müstəqil və bolşevikləşməmiş bir ölkə olaraq yaşayan və yaşamaq əzmində olan Azərbaycanın Anadolu hərəkatının istəklərini qəbul etməsini və dəstəkləməsini gözləmək də hər halda haqlı deyildir. Yenə də, Azərbaycanın belə bir niyyətdə olan Anadolu hərəkatına "yardım etməməsi"ni, sadəcə "Türkiyəni ölmüş saydığı"[854] şəklində izah et-

[853] Karabekir K. İstiklal Harbimiz. C. I, s. 512-514.
[854] Yenə orada, s. 328; Sonyel S. Türk Kurtuluş Savaşı ve Dış Politika. C. I, s. 180; Erel Ş. Azerbaycan Politikacılarının Yanlışları, s. 41-42.

mək də doğru deyildir və bu cür münasibət obyektiv həqiqətlərin təhrif və ört-basdır edilməsinə xidmət edir.

M.Kamal paşanın 15-ci kolordu komandanlığına göndərdiyi, yuxarıda qeyd etdiyimiz 6 fevral 1920-ci il tarixli şifrəli teleqrama verdiyi cavabdan görünür ki, K.Qarabəkir paşa bir qədər fərqli mövqedə idi. O, bolşeviklərin Qafqazı və Azərbaycanı ələ keçirərək Anadolu ilə birbaşa əlaqə yaratmalarından öncə bölgədə hərbi əməliyyatlara başlamağı Türkiyə üçün təhlükəli hesab edirdi.[855]

1920-ci ilin fevral ayında bolşeviklərin Qafqaz istiqamətində fəal hərəkətə keçib Denikin qüvvələrini dalbadal məğlubiyyətə uğratmaları və cənub istiqamətində irəliləmələri K.Qarabəkir paşanı xeyli ümidləndirdi və onun fəal hərəkətə keçməsinə səbəb oldu. O, Heyət-i Təmsiliyyə adına M.Kamal paşaya göndərdiyi 8 mart 1920-ci il tarixli raportunda yazırdı: "...Görməyimiz lazım olan ən mühüm iş indidən heç bir təəhhüd altına girməmək şərtilə bolşeviklərin bir an əvvəl Qafqazları cənuba doğru aşmasını təmin etmək üçün onları bir xilaskar kimi gözləyən milyonlarla xalq (kütləri – V.Q.) olduğunu bolşeviklərə anlatmaqdır..."[856] M.Kamal paşa K.Qarabəkir paşaya göndərdiyi 11-12 mart 1920-ci il tarixli cavab teleqramında bolşeviklərlə əlaqə qurmaq və danışıqlar aparmaq üçün xüsusi bir heyətin göndərilməsini təklif etdi.[857] Elə həmin gün K.Qarabəkir paşa Türk Kommunist Firqəsinin liderlərindən olan F.Sabit bəyin Bakıdan yazdığı 7 mart 1920-ci il tarixli məktubu aldı.[858] F.Sabit bəy Azərbaycan hökumətinə qarşı iftiralarla dolu olan bu məktubunda iki gün əvvəl Dağıstandan Bakıya döndüyünü qeyd etdikdən sonra vəziyyətin çox böhranlı olduğunu, Azərbaycan hökumətinin tamamilə ingilismeyilli siyasət yürütdüyünü və ingilislərin də məqsədinin Gürcüstan, Ermənistan və Azərbaycandan ibarət təşkil ediləcək bir blokla bolşevizmin cənuba doğru genişlənməsinin qarşısını almaqdan ibarət olduğunu bildirir və daha sonra yazırdı: "...Azərbaycan bir tərəfdən ingilisme-

[855] Karabekir K. İstiklal Harbimiz. C. I, s. 515.
[856] Yenə orada, s. 573-574.
[857] Yenə orada, s. 574-575.
[858] Yenə orada, s. 577.

yilli siyasət yürüdür, bir tərəfdən də Zəngəzur ermənilər müsəlman kəndlərini dağıdıb, Qars, Şüregel ətrafında qırğınları davam etməkdədirlər. Azərbaycan hökuməti bütün bunlara qarşı erməniləri konfransa çağırmaqdan başqa bir iş görə bilmir. Elviye-i Səlasənin öz himayəsi altında Cənubi Qafqaz konfederasiyasına girməsi şərtini qəbul etdiyini irəli sürən Azərbaycan hökuməti bu gün Batumun Gürcüstana ilhaqını qəbul edir. Və bütün bunlar Azərbaycanı idarə edən Müsavat partiyasının ingilislərdən əmr almaqda olduğunu göstərir. İngilislər Şimali Qafqazı da bolşeviklərə qarşı hərəkətə təhrik edirlər. Və Azərbaycan hökuməti indiyə qədər Şimali Qafqaza şərtsiz göstərməkdə olduğu köməyi indi bolşeviklərlə birgə çalışmamaq və sovet əsasını qəbul etməmək şərtilə edir. Azərbaycanın bu məsələdə etdiyi təklifini Nura paşa qəbul etdi. Mən Qafqaz türklüyünü gürcü və erməni imperializmindən qurtarmaq üçün sovet əsasının qəbulunu lazım görürəm... İngilislər İran ilə Azərbaycanın konfederasiyasını belə yaratmaq istəyirlər. İran onların əllərində olduğundan Azərbaycanı da ələ almağa çalışırlar. Qarşıda (Azərbaycanda – V.Q.) bir böhran olacaqdır. Ya ingilismeyilli, ya da bolşevikmeyilli bir kabinənin iqtidara keçəcəyi gözlənilir... Bolşeviklər köhnə xətalarını düzəldəcək bir yol tutmağa başlayıblar... Göndərdikləri bəyannamələrdə Qafqazda Dağıstan, Azərbaycan və Gürcüstanın da istiqlalını tanıyacaqlarını bildirirlər..."[859]

F.Sabit bəyin bu məktubunu aldıqdan sonra "bolşevik hərəkatının Qafqazı aşması mənfəətimizədir" deyən K.Qarabəkir paşa Xəlil və Nuru paşalara göndərdiyi 12 mart 1920-ci il tarixli şifrəli teleqramında Azərbaycan hökumətinin ingilis siyasətinə uymayıb bolşeviklərlə anlaşmasını tövsiyə edir və bildirirdi ki, əks təqdirdə bolşeviklər Azərbaycanı dağıdıb məhv edəcəklər.[860] K.Qarabəkir paşa elə həmin gün eyni zamanda M.Kamal paşanın 11-12 mart 1920-ci il tarixli teleqramına da cavab yazaraq, Bakı ilə mütəmadi əlaqə saxladığını və ətraflı məlumat aldığını qeyd edir və bildirirdi ki, bolşeviklərlə danışıq aparmaq üçün xüsusi bir heyətin göndə-

[859] Karabekir K, İstiklal Harbimiz. C. I, s. 577-578.
[860] Yenə orada. s. 580-581.

rilməsinə lüzum yoxdur, paşanın Bakıya hər nə tövsiyəsi olarsa, Ərzurum vasitəsilə göndərə bilər.[861]

1920-ci il martın 16-da Antanta dövlətlərinin İstanbulu rəsmən işğal etmələri Türkiyə milli azadlıq hərəkatının liderləri ilə rus bolşeviklərini bir-birinə daha bir addım yaxınlaşdırdı. İstanbulun işğal edilməsi xəbəri yayılan kimi Ankara ilə Ərzurum arasında yazışmalar daha intensiv xarakter aldı. M.Kamal paşa martın 16-da Ərzuruma göndərdiyi teleqramında "Şərqə hücum haqqında fikrin tətbiqi" ilə bağlı 15-ci kolordu komandanlığının fikrini öyrənmək istədikdə[862] K.Qarabəkir paşa elə həmin gün göndərdiyi cavab teleqramında bildirdi ki, "İstanbuldakı vəziyyət tam aydınlaşmadığından, bolşevik ordularının da hələ Qafqaz dağlarına gəlmədiyi və onlarla əlaqə yaradılmadığından, həmçinin bölgədə qar çox olduğundan aprel ayının əvvəllərinə qədər hər hansı bir hücum əməliyyatının gerçəkləşdirilməsi müşkül məsələdir, lakin indi başlanğıc olaraq Batumda bolşevizmin elanı ilə onun Elviye-i Səlasə, Gürcüstan və Azərbaycanda yayılmasına yardımçı ola bilərik".[863] M.Kamal paşa bu teleqrama dərhal göndərdiyi cavab teleqramında qeyd edirdi ki, "Batum və ətrafında bolşevizmin elanı ilə bağlı yüksək görüşlərinizə tamamilə şərikəm".[864]

Ankaranın göstərişləri üzrə hərəkət edən K.Qarabəkir paşa martın 17-də Azərbaycanda olan Xəlil və Nuru paşalara göndərdiyi məktubunda İstanbul hadisələri haqqında məlumat verdikdən sonra qeyd edirdi ki, "bolşevizmin Türkiyənin sərhədlərinə qədər gəlib çatması üçün Qafqazın bolşeviklər tərəfindən dərhal istilası və hətta bolşeviklərin kiçik bir qüvvə ilə Azərbaycana gələrək, azərbaycanlılarla birlikdə türk sərhədlərinə doğru hərəkəti Türkiyənin məqsədlərinə xidmət edəcəkdir. Azərbaycan, Dağıstan və Gürcüstanda bolşevizmin hakim olmasını təmin etmək çox münasibdir. Hərəkata başlanacağı zaman Naxçıvana bir hərbi dəstə və

[861] Karabekir K. İstiklal Harbimiz. C. I, s. 579-580.
[862] Yenə orada, s. 594.
[863] Yenə orada, s. 594.
[864] Yenə orada, s. 595.

telsiz teleqraf stansiyası göndəriləcəkdir".[865] K.Qarabəkir paşa daha sonra bu məktubunda Bakıdan telsiz teleqrafla Naxçıvanla əlaqə saxlanılmasını və Naxçıvan hərəkatına Azərbaycan hərbi qüvvələrinin də Qarabağ istiqamətindən yardım göstərməsini müvafiq bilir, Gəncə ilə Ərzurum arasında təyyarə əlaqəsi yaradılmasının uyğun olub-olmadığını, həmçinin Azərbaycan hökumətinin təyyarəsi olub-olmadığını soruşur və bütün bunlara təcili cavab verilməsini istəyirdi.[866]

K.Qarabəkir paşanın Xəlil və Nuru paşalara yazdığı bu məktubunu Azərbaycana gətirən kuryer İbrahim Əfəndi aprelin 10-da Trabzona qayıtdı və özü ilə bölgəyə dair yeni məlumatlar və Bakıdakı Türk Kommunist Firqəsinin məktublarını gətirdi. Bu məktublarda bolşeviklərin Qafqaz istiqamətində hərəkəti və bununla bağlı Azərbaycanda yaranmış böhranlı vəziyyət, "ingilismeyilli" Azərbaycan hökumətinin türk zabitlərinin ordunu öz əllərinə almalarından çəkinərək yeni gələn türk zabitlərini orduya qəbul etməməsi, hökumətin Azərbaycana zühur edəcək bolşevizmin 1918-ci ilin martında olduğu kimi yenə də müsəlmanları qırğına məruz qoyacağını bəyan etməsi və s. məsələlər haqqında ətraflı məlumat verilir və qeyd edilirdi ki, bolşeviklərlə onların bir şöbəsi kimi iş birliyinə girən Türk Kommunist Firqəsi ilk etapdakı hədəfinin "ingilis siyasətinin atəşli tərəfdarı olan Azərbaycanın hazırkı Müsavat hökumətini ən qısa zamanda yıxmaq və bolşeviklərlə razılığa gələ biləcək bir hökuməti hakimiyyət başına gətirmək" olduğunu müəyyənləşdirmişdir.[867] Türk Kommunist Firqəsinin Heyət-i Təmsiliyyəyə ünvanladığı məktubunda K.Qarabəkir paşanın sorğusu ilə bağlı o da qeyd edilirdi ki, "Azərbaycanın fəaliyyət göstərə biləcək təyyarəsi yoxdur. Türkiyədən təyyarə göndərilməsi münasibdir və bu təyyarə Gəncə yaxınlığında Kürdəmir məntəqəsində yerə enə bilər".[868]

---

[865] Karabekir K. İstiklal Harbimiz. C. I, s. 598-599.
[866] Yenə orada, s. 599.
[867] Karabekir K, İstiklal Harbimiz. C. II, s. 680-686.
[868] Yenə orada. s. 685.

Karakol Cəmiyyəti tərəfindən Qafqaza göndərilən və Bakıdakı Türk Kommunist Firqəsinin qurucularından olan B.Sait bəy də firqə məktublarını Anadoluya aparan kuryer İbrahim Əfəndi ilə "Mustafa Kamal paşaya çatdırılmasını" istədiyi xüsusi bir şifrəli məktub göndərdi. 8 aprel 1920-ci il tarixli bu məktubu Batumdan 7-ci alay komandanı Rıza bəy aprelin 11-də K.Qarabəkir paşaya çatdırdı.[869] Məktubda deyilirdi: "...Mustafa Kamal paşaya bildirin. Moskvaya göndəriləcək nümayəndə heyətini göndərsin. Təcilidir və lazımdır. Oradan göndəriləcək münasib adam tapa bilməsələr, burada Kiçik Tələt ilə mən varam. Qırmızı Ordunun bütün Qafqaz işləri hələlik mənim müqəddəratıma bağlanmış haldadır. Xəlil paşa Qarabağda ermənilərə qarşı hərəkət edən qüvvələri tənzim ilə məşğuldur. Nuru paşa bir axmaq, xain kimi ümumi milli vəziyyəti sarsıdacaq uşaqlıq edərək Azərbaycan hökuməti və ingilis tərəfdarı oldu... Bu gün Denikinin Xəzər Dəniz Donanmasının Azərbaycanla birləşdiyi gündür. Bunun təhlükəsi qaçılmazdır. Türkiyəyə kömək edə biləcək Rusiya bunu bir az da gecikdirəcəkdir. Admiral Sergeyev, Azərbaycan hökuməti və ermənilər çətinliklə vəziyyətə nəzarət edirlər... Artıq burada Xəlil və digər paşalar yoxdur. Xəlilin də daxil olduğu ümumi təşkilat vardır. Onun vasitəsi də mənəm. Bütün əlaqə Türk Kommunist Firqəsi adına olacaqdır... Azərbaycanın dörd təyyarəsi, dörd də bəhriyə təyyarəsi oldu. Mümkünsə, bir-iki təyyarəçi zabiti ən tez vasitə ilə göndərin. Təyyarəçi Əhməd Nüzhət oradadırsa, ona söyləyin gəlsin... Moskvanın Qafqaz vəkili yanında komissar olmaq şərtilə ümum-Qafqaz Komitəsi məni hələlik baş komandan mövqeyində saxlayır. Yəni bütün bu işləri nəzərdə tutulduğu kimi mən görürəm. Bir türk zabiti hərbiyə dairəsi rəisi, bir türk qərargah zabiti hərəkət şöbəsi rəisi, bir qızıl polkovnik də mənim qərargah rəisim təyin edilmişdir. Yəni icraiyyə qüvvəsinin yarısı türk, yarısı da şimal nümayəndələridir. Təchizat, səfərbərlik və sair təşkilat bütövlükdə rusların əlindədir... İqtisadi yardım üçün bir həftəyə qədər səbr etmək lazımdır. İstənildiyi qədər yardım ediləcəkdir..."[870] Burada, Azər-

[869] Karabekir K, İstiklal Harbimiz. C. II, s. 688.
[870] Yenə orada. s. 688-690.

baycanı işğal etmək üçün bolşeviklərin qurduğu planın nə cür ustalıqla həyata keçirilməkdə olduğu və Türk Kommunist Firqəsinin nümayəndələrinin bu yolda bir alətə çevrildiyi açıq-aydın görünür. Bizcə, əlavə şərhə ehtiyac yoxdur.

Türk Kommunist Firqəsi, o cümlədən B.Sait bəy tərəfindən göndərilən bütün bu məlumatlar K.Qarabəkir paşa tərəfindən 13 aprel 1920-ci il tarixində M.Kamal paşaya göndərildi. K.Qarabəkir paşa bolşeviklərlə görüşüb hərtərəfli danışıqlar aparmaq üçün Ankaradan xüsusi bir heyətin göndərilməsini vacib hesab edərək bu məsələ üzərində dayanır və eyni zamanda indiki halda hələlik Anadolu hərəkatı ilə bolşeviklər arasında vasitəçi kimi Türk Kommunist Firqəsinin qəbul edilməsini uyğun bilirdi.[871] M.Kamal paşa bunu məqbul hesab etdikdən sonra qəti şəkildə Anadolu hərəkatı ilə bolşeviklər arasında vasitəçi olaraq Türk Kommunist Firqəsi qəbul edildi. TBMM-in yaranmasından sonra da Türkiyə hökuməti hələ bir müddət Azərbaycan və rus bolşeviklərinə yönələn istəklərini Türk Kommunist Firqəsi vasitəsilə gerçəkləşdirdi.

Bu arada Qarabağda olan Xəlil paşa da K.Qarabəkir paşaya bir məktub göndərdi. Xəlil paşanın aprel ayının ilk həftəsində yazmış olduğu bu məktubu K.Qarabəkir paşaya Naxçıvandakı türk hərbi missiyasının rəhbəri yüzbaşı Xəlil bəy 17 aprel 1920-ci il tarixində çatdırdı. Xəlil paşa məktubunda bildirirdi ki, "Azərbaycan hökuməti ingilis tərəfdarı və hətta ingilis oyuncağı olan bir hökumətdir. . Bolşeviklərin hücum edəcəyi təqdirdə bu hökumət iki saat müqavimət göstərə bilsə belə, yenə də bolşeviklərlə vuruşmaq istəyir. Ordu tamamilə hökumətə müxalif və bolşeviklərin lehinədir... Türkiyə ordusu Şərq istiqamətində hərəkata başlayan kimi Azərbaycandakı hökumət süqut edib, qızıl bayraq qaldırılacaqdır..."[872] Bu zaman Xəlil paşa Azərbaycan ordusu ilə Qarabağ-Zəngəzur-Naxçıvan-Bəyazid yolunu ermənilərdən təmizləyib Azərbaycanla Anadolu arasında birbaşa əlaqəni təmin etmək uğrunda çalışırdı. Xəlil paşanın məktubunu alan K.Qarabəkir paşa Azərbaycanla bağlı planlaşdırılan işlərin normal getdiyindən

[871] Karabekir K, İstiklal Harbimiz, C. II, s. 693-698.
[872] Yenə orada. s. 725.

məmnun oldu. Bununla belə, indi onu başqa bir məsələ narahat etməyə başladı; "Türkiyə ilə Sovet Rusiyası arasında hər hansı bir hərbi müqavilə olmadığından, Qafqazı istila edən bolşevik orduları türk orduları ilə Elviye-i Səlasədə üz-üzə gəldikdə hansısa anlaşılmazlıqlar və xoşagəlməz hadisələr baş verə bilər". Çünki Sovet Rusiyası 1914-cü il sərhədlərini hədəf götürmüşdü. Bu halda Türkiyə Brest-Litovsk sülhü ilə əldə etdiyi Qars, Ərdəhan və Batum vilayətlərinin itirilməsi təhlükəsi ilə qarşılaşırdı. Qafqazı istila edən bolşevik orduları Elviye-i Səlasəyə girdikdə türk ordusu buna silahlı müqavimət göstərməli və ya Türkiyə 1914-cü il sərhədləri ilə barışmalı idi. Bu hadisələrin baş verməməsi üçün K.Qarabəkir paşa bolşeviklərlə danışıq aparmaq məqsədilə bir türk heyətinin təcili Bakıya göndərilməsini lazım bildi.[873]

Anadolu hərəkatı ilə bolşeviklər arasında vasitəçi olaraq Türk Kommunist Firqəsi qəbul edilsə də, K.Qarabəkir paşa M.Kamal paşaya göndərdiyi 18 aprel 1920-ci il tarixli teleqramında sovetlərlə danışıqlar aparmaq üçün xüsusi bir heyətin göndərilməsi məsələsini yenidən qabardır və bu işin sürətləndirilməsini istəyirdi. Fikrini də onunla əsaslandırırdı ki, Qafqazda olan türk nümayəndələrinin sovetlərlə apardıqları danışıqlar qənaətbəxş deyildir, çünki lokal hərəkət nöqteyi-nəzərindən bir hərbi plan belə tərtib edilmədiyindən türk və rus orduları Elviye-i Səlasədə qarşı-qarşıya gəldikdə bəzi anlaşılmazlıqlar yarana bilər. Buna görə də, K.Qarabəkir paşa bildirirdi ki, "Heyət-i Təmsiliyyənin sovetlərlə danışıqlar aparmaq üçün göndərəcəyi heyət gecikdiyindən, yalnız hərbi məsələlərlə bağlı danışıqlar aparmaq üçün Trabzondakı alay komandanı tanınmış minbaşı Əli Rıza bəyi digər bir zabitlə birlikdə dərhal Bakıya göndərməyi uyğun görürəm. Ondan sonra böyük heyət böyük və ümumi planlar ətrafında müzakirəyə təşəbbüs göstərər".[874] K.Qarabəkir paşa Bakıya göndəriləcək hərbi nümayəndə heyətinə aşağıdakı təlimatın da veriləcəyini bildirirdi:

"1. İmperialist hökumətlər əleyhinə hərəkatı və onların nəzarəti və əsarəti altında olan məzlum insanların xilasını qarşısına

---

[873] Karabekir K, İstiklal Harbimiz, C. II, s. 708.

[874] Yenə orada. s. 708.

məqsəd qoyan bolşeviklərlə birlikdə çalışmağı və hərəkət etməyi qəbul edirik.

2. Bolşevik qüvvələri Gürcüstan üzərinə hərbi yürüş edib və yaxud yürüdəcəyi siyasət, göstərəcəyi təsir və nüfuzla Gürcüstanın da tamamilə bolşevik idarəsini qəbul etməsini və bolşevik ittifaqına daxil olmasını və buradakı ingilis qüvvələrini çıxartmaqla onların əleyhinə hərəkata başlamasını təmin edərsə, Türkiyə hökuməti də imperialist erməni hökuməti üzərinə hücum etməyi və Azərbaycan hökumətinə bolşevik əsaslarını və amalını tamamilə qəbul etdirməyi və bu hökuməti bolşevik dövlətlər qrupuna daxil etməyi təəhhüd edir. Buna görə Azərbaycan üzərinə rus bolşevik hərbi hərəkatının icrasına lüzum görmürük.

3. Türkiyə orduları hazırda erməni hökumətinin idarəsi altında olan ərazini işğal etdikdən sonra böyük əksəriyyəti müsəlman olan bu bölgədə qüvvətli hərbi təşkilat quracaq və idarə üsulunu tənzim və təsis edəcəkdir.

4. Bundan sonra bolşevik əsasları və proqramına görə imperialist hökumətlər əleyhinə hərəkatın təmin edilməsi üçün Türkiyə bolşevik hökumətindən pul, ərzaq və silah-sursat xüsusunda maksimum yardım tələb və rica edər.

5. Bundan başqa digər məsələlərə aid müzakirə və müqavilə Heyət-i Təmsiliyyə tərəfindən göndəriləcək nümayəndə heyəti tərəfindən imzalanacaqdır".[875]

Bu arada 20-ci kolordu komandanı Əli Fuad paşa Bursadan K.Qarabəkir paşaya göndərdiyi 22 aprel 1920-ci il tarixli teleqramında bildirirdi ki, ingilislər ruslarla anlaşmağa çalışırlar, türk-rus iş birliyini əngəlləyə biləcək bir rus-ingilis anlaşmasına yol verməmək üçün Rusiyaya təcili bir heyət göndərib sovetlərlə anlaşmağımız lazımdır.[876] K.Qarabəkir paşa bu teleqrama göndərdiyi cavabında "bolşeviklərin ingilislərlə uzlaşmasına imkan görmədiyini" bildirir[877], lakin Ankaraya göndərdiyi teleqramlarında sovetlərlə danışıqlar aparmaq üçün bir heyət göndərilməsini təkidlə tə-

[875] Karabekir K. İstiklal Harbimiz. C. II, s. 708-709.
[876] Yenə orada, s. 730.
[877] Yenə orada. s. 731.

ləb edirdi.[878] O, Heyət-i Təmsiliyyəyə göndərdiyi 23 aprel 1920-ci il tarixli teleqramında yazırdı: "Azərbaycan hökumətini ən təhlükəli zamanlarında bir çox qan bahasına qurtaran və ona mövcudiyyət verən Osmanlı hökuməti və Anadolu qardaşları hər tərəfdə düşmənlərlə çırpışarkən, düşmənlərimiz əleyhinə çətin bir hərbə girən bolşevik ordularının önünə Azərbaycanın bir sədd olması və ya bitərəf qalıb laqeydlik göstərməsi bütün İslam aləminin etirazına səbəb olacaq və azərbaycanlılar əbədiyyən lənətlənəcəklər... Bu gün Anadolunun xilası üçün bolşevik orduları ilə əl-ələ verərək hərəkət etməkdən başqa bir çarəmiz qalmamışdır. Türkü və İslamı əbədiyyən yaşatmaq bu fürsəti itirməməklə mümkün olacaqdır. Allah və İslam qarşısında Azərbaycanın şərəfli bir iş görəcəyi və yaxud 350 milyon müsəlmanın həyat və namusunu boynuna alacağı dəqiqələri yaşayırıq. Buna görə bolşeviklərlə ittifaqda hərəkət etməyinizi və bu surətlə onların Anadolu türkləri ilə birləşməsinə çalışmağınızı ümid edirəm və gözləyirəm..."[879] Bütün bunları bildirdikdən sonra K.Qarabəkir paşa teleqramın sonunda Bakıya göndəriləcək heyətlə bağlı istəyini bir daha dilə gətirərək yazırdı: "18 və 22 aprel 1920-ci il tarixlərində Bakıya göndərilməsini ərz etdiyim heyətin bir an əvvəl göndərilməsi lüzumunu bir daha ərz edirəm".[880]

K.Qarabəkir paşa aprelin 26-da M.Kamal paşaya göndərdiyi növbəti teleqramında isə, bolşeviklərin Azərbaycan sərhədinə gəldiyini, kolordusunun hazır vəziyyətdə gözlədiyini qeyd edir və bildirirdi ki, Böyük Millət Məclisi Bakıya göndəriləcək heyətlə bağlı bir qərar qəbul etməyibsə, Anadolunun qurtuluşu naminə bu son fürsəti qaçırmamaq üçün mənə hərəkət sərbəstliyi verin.[881] Elə həmin gün M.Kamal paşa K.Qarabəkir paşanın istədiyi cavabı Ərzuruma göndərdi.[882] Bu cavabı olduğu kimi, aşağıda veririk:

[878] Karabekir K. İstiklal Harbimiz. C. II, s. 729, 732, 746.
[879] Yenə orada, s. 732.
[880] Yenə orada, s. 732.
[881] Yenə orada, s. 746.
[882] Yenə orada, s. 747.

"Bakıya göndəriləcək hərbi heyətə veriləcək ali təlimatlarında düzəldilən maddələr aşağıda ərz olunur:

1. İmperialist hökumətlər əleyhinə hərəkatı və onların nəzarəti və əsarəti altında olan məzlum insanların xilasını qarşısına məqsəd qoyan bolşevik ruslarla iş və hərəkət birliyini qəbul edirik.

2. Bolşevik qüvvələri Gürcüstan üzərinə hərbi yürüş edib və yaxud yürüdəcəyi siyasət, göstərəcəyi təsir və nüfuzla Gürcüstanın da bolşevik ittifaqına daxil olmasını və daxilindəki ingilis qüvvələrini çıxartmaqla onların əleyhinə hərəkata başlamasını təmin edərsə, Türkiyə hökuməti də imperialist erməni hökuməti üzərinə hücum etməyi və Azərbaycan hökumətini də bolşevik dövlətlər zümrəsinə daxil etməyi təəhhüd edir.

3. Əvvəla milli torpaqlarımızı işğalları altında saxlayan imperialist qüvvələri qovmaq və sonra da imperializm əleyhinə aparılacaq ortaq mübarizəmiz üçün daxili qüvvələrimizi təşkil etmək üçün indidən ilk taksit (avans-kredit) olaraq beş milyon qızılın və qərarlaşdırılacaq miqdarda silah-sursat və digər hərbi-texniki vasitələr, səhiyyə ləvazimatları və yalnız şərqdə hərəkata keçəcək qüvvələr üçün ərzağın Rusiya Sovet Respublikası tərəfindən təmin edilməsi lazımdır. Maliyyə sıxıntımız yüksək məlumları olduğundan, İstanbul ilə əlaqənin kəsilməsindən dolayı İstanbuldan pul gətirilməsi də mümkün olmadığından, vilayətlərin yerli gəlirləri ilə idarələrinin təmin edilməsi mümkün deyildir. Göndəriləcək heyətin Azərbaycan hökuməti nəzdində lazımi təşəbbüs göstərərək mühüm olan yardımın, hətta istiqrazın təmin edilməsinə də çalışması münasibdir əfəndim.

Böyük Millət Məclisi rəisi Mustafa Kamal".[883]

K.Qarabəkir paşa sərlövhəsi olmayan bu teleqramın əvvəlinə M.Kamal paşanın razılığı ilə[884] "Türkiyə Böyük Millət Məclisinin Moskva hökumətinə birinci təklifnaməsidir" cümləsini, sonuna da (son iki cümlə ixtisar olunmaqla) "təmin edilməsi lazımdır" yerinə "təmin edilməsi xahiş olunur" ifadəsini, bunun ardınca nəzakət

---

[883] Türk İnkılap Tarihi Enstitüsü (TİTE) Arşivi, 132/19543, s. 13; Karabekir K. İstiklal Harbimiz. C. II, s. 747-748.

[884] Karabekir K. İstiklal Harbimiz. C. II, s. 748.

cümləsini (Yüksək ehtiram və səmimi hisslərimizin qəbul edilməsini xahiş edirik) əlavə edib[885] və tarix qoyub (Ankara, 26 aprel 1920), dərhal bu teleqramın Bakıya göndərilməsi üçün hərəkətə keçdi. K.Qarabəkir paşa eyni zamanda, 28 aprel tarixində Türk Kommunist Firqəsinə də bir məktub yazıb, bu barədə məlumat verdi.[886] Hər iki məktubu Əli Rıza bəy Bakıya çatdırmalı idi. Lakin aprelin 28-də Azərbaycanın sovetləşdirilməsindən dolayı ingilislərin Batum yolunu kəsməsi səbəbi ilə Əli Rıza bəy Bakıya gedə bilmədi. Buna görə də K.Qarabəkir paşa M.Kamal paşanın "təklifnaməsi"nin ikinci bir nüsxəsini hazırladı, Türk Kommunist Firqəsinə də mayın 5-də yeni bir məktub yazdı və bunları Bəyaziddəki 11-ci alayın zabitləri – Kamil və Cəlal Əfəndi vasitəsilə Naxçıvan yolu ilə Bakıya göndərdi.[887] "Təklifnamə"nin digər bir nüsxəsi isə mayın 8-də kuryer İbrahim Əfəndi ilə Trabzondan Novorossiysk yolu ilə Moskvaya göndərildi.

K.Qarabəkir paşa M.Kamal paşanın məktubunu həm Bakıya, həm də Moskvaya aparan kuryerlərə verdiyi təlimatda göndərilən sənədin çox mühüm olduğunu, düşmənin əlinə keçməsinə heç bir halda imkan verilməməsini xüsusi olaraq vurğulayır və çox təhlükəli vəziyyət yarandığı təqdirdə sənədin məhv edilməsini əmr edirdi. Bununla belə, ingilis xüsusi xidmət orqanları hər iki kanal vasitəsilə sovetlərə göndərilən təklifdən xəbərdar olmuşdular.[888]

May ayının son günlərində Moskvaya çatan İbrahim Əfəndi M.Kamal paşanın məktubunu şəxsən Moskva hökumətinə çatdırdı.[889] RSFSR xalq xarici işlər komissarı G.Çiçerin dərhal məktubu V.İ.Leninə təqdim etdi və hər ikisi birlikdə bu məktubu müzakirə etdikdən sonra 3 iyun 1920-ci il tarixində M.Kamal paşaya

---

[885] TİTE Arşivi, 132/19543, s. 13.
[886] Karabekir K. İstiklal Harbimiz. C. II, s. 751.
[887] Yerasimos S. Türk-Sovyet İlişkileri, s. 149.
[888] Atnur İ.E. Osmanlı Yönetiminden Sovyet Yönetimine Kadar Nahçıvan, s. 338.
[889] Karabekir K. İstiklal Harbimiz. C. II, s. 785; Yerasimos S. Türk-Sovyet İlişkileri, s. 149-150.

sovet hökuməti adından cavab məktubu göndərildi.[890] Bu cavab məktubunu kuryer İbrahim Əfəndi iyunun 15-də Trabzona çatdırdı.[891]

Kamil və Cəlal bəylər də iyunun 5-də Bakıya çatdılar. Lakin onların M.Kamal paşanın məktubunu kimə təqdim etdiyi və hansı cavabla geri göndərildiyi bilinmir. Çünki onlar geri qayıdan zaman Şuşada öldürülmüşdülər.[892]

Qeyd etdiyimiz kimi, M.Kamal paşanın sovet hökumətinə göndərdiyi məktub Anadolu hərəkatı liderlərinin direktivləri əsasında bolşeviklərlə iş birliyinə girib Azərbaycan milli hökumətini devirməyi öz qarşısına məqsəd qoyan Bakıdakı Türk Kommunist Firqəsinin bolşeviklərlə anlaşması nəticəsində Azərbaycanı istila edib Anadolu istiqamətində hərəkət edəcək sovet ordularının Elviye-i Səlasədə türk orduları ilə qarşılaşacaqları zaman hər hansı bir xoşagəlməz hadisələrin baş verməsini qabaqlamaq zərurətindən meydana gəlmişdi və K.Qarabəkir paşanın təklifləri əsasında hazırlanıb göndərilmişdi. Məktub Moskvaya bir qədər geç çatdı, lakin bu o qədər də önəmli deyildi. Çünki məktubun göndərilməsindən hələ xeyli əvvəl Anadolu hərəkatı ilə bolşeviklər arasında vasitəçilik etmək məqsədilə Bakıda Türk Kommunist Firqəsi qurulmuşdu və bu firqə elə M.Kamal paşanın məktubunda irəli sürülən məsələlərin həlli ilə məşğul idi. Onu da qeyd edək ki, M.Kamal paşanın bu məktubunun "türk-rus işbirliyi zəminində Cənubi Qafqazın sovetləşdirilməsini" nəzərdə tutan ikinci maddəsi B.Sait bəyin 1920-ci il yanvarın 11-də Bakıda bolşeviklərlə imzaladığı müqavilənin on birinci maddəsində də təsbit olunmuşdu.

İnqilabi Türkiyənin Qərb imperialistlərinə qarşı aparılan müharibədə bolşeviklərlə eyni mövqeyə gəlməsi və sovetlərdən yar-

---

[890] Документы внешней политики СССР. Т. II. Москва: Госполитиздат, 1958, с. 554. Karabekir K. İstiklal Harbimiz. C. II. s. 875-876; Yerasimos S. Türk-Sovyet İlişkileri, s. 238-239; Sofiyev M. Güney Qafqaz respublikaları Sovet-Türkiyə əlaqələrində (1922-1936). Bakı: Çaşıoğlu, 2000, s. 19.

[891] Karabekir K. İstiklal Harbimiz. C. II, s. 785.

[892] Atnur İ.E. Osmanlı Yönetiminden Sovyet Yönetimine Kadar Nahçıvan, s. 339.

dım istəməsi Moskvanın Azərbaycanla bağlı siyasətini həyata keçirmək üçün ona böyük imkanlar yaratdı. Bolşeviklərin Bakıdakı inqilab təşəbbüslərinin baş tutmaması onları Azərbaycandakı türk nüfuzundan istifadə etməyə sövq etdi. Sovet Rusiyası Azərbaycandakı türk zabitləri vasitəsilə Ermənistanla müharibə aparmaqla məşğul olan milli hökuməti yıxacaq, burada istədiyi hökuməti quracaq və bu hökumətin dəvəti ilə gəlib Azərbaycana yerləşəcəkdi. Bunun üçün ictimai rəyi aldadacaq şüarlar da hazırlanmışdı: "Türkiyə ölüm-dirim mübarizəsindədir, Qızıl Ordu Türkiyənin köməyinə getmək istəyir, Müsavat hökuməti isə buraxmır".[893]

1920-ci ilin aprel hadisələrində şəxsən iştirak etmiş bir türk zabiti tərəfindən yazılmış 1 avqust 1920-ci il tarixli raportda deyilirdi: "Trabzondan keçərkən firqə komandanlığı vasitəsilə Anadolu Heyət-i Təmsiliyyəsinin məmləkətin xilası üçün bolşeviklərlə əməkdaşlığa qərar verdiyi anlaşıldığından Azərbaycana varid olduğumuz andan etibarən Qafqaz Mərkəzi Komitəsi (Rusiya Kommunist Partiyasının Qafqaz Diyar Komitəsi) ilə birgə fəaliyyətə başlanılmışdı. Ştabs-kapitan Mustafa Şövqi bəy komitənin inqilab hərəkatı şöbəsinə, yüzbaşı Ehsan bəy stansiya və stansiya ətrafının komendantlığına, baş leytenant Bahəddin Əfəndi Çornıqorod fabriklər məntəqəsi komendantlığına, baş leytenant Vəhbi Əfəndi Tağıyev fabriki komendantlığına komitənin əmri ilə təyin olunmuşdular. Yüzbaşı Rifat bəy inqilabdan çox əvvəl Denikin ordusuna qarşı bolşeviklərlə bərabər Dağıstan-Dərbənd cəbhəsi müfəttişliyinə və inqilab gecəsi stansiyanın işğalına məmur edilmiş, inqilab günü isə vilayət və vilayət ətrafının komendantlığına, hələ də Bakıda olan artilleriya baş leytenantı Nurəddin, pulemyot baş leytenantı Fəxri, piyada baş leytenantı İbrahim Ədhəm və Rəşad əfəndilər də komitənin əmri altında vəzifələrini icra etmişlər".[894]

Qafqaz Komitəsinin Anadolu nümayəndələrinin iştirakı ilə birgə keçirilən ikinci iclasında tərəfdarları çox az olan kommunizm fikrinə qarşı göstərilən şiddətli nifrətə, düşmənçiliyə türk nü-

[893] Rəsulzadə M.Ə. Azərbaycan Cümhuriyyəti, s. 63; Məmmədzadə M.B. Milli Azərbaycan hərəkatı, s. 134.
[894] Məmmədzadə M.B. Milli Azərbaycan hərəkatı, s. 135-136.

fuzu ilə qarşı çıxmaq, nəticədə əsas şəxslərin həbsinə və qətlinə, bütün hərbi, əsgəri mərkəz və müəssisələrin tutulmasına və işğalına məmur ediləcək qüvvələrin və fabrik fəhlələrinin başında türk zabitlərinin durması qəbul edildi. Üçüncü iclasda isə, Qızıl Ordunun Azərbaycanın sərhədlərinə yaxınlaşması anına qədər iqtidara keçəcəyi söylənilən M.H.Hacınski ilə məsələ müzakirə yolu ilə həll olunmazdısa, o zaman Xəlil paşanın Qızıl Ordu komandanlığını öz üzərinə götürməsi və onun Qızıl Ordu komandanı sifəti ilə Ermənistan üzərindən keçərək Türkiyəyə köməyə getmək istəyən Qızıl Orduya Azərbaycandan keçməyə icazə verilməsi haqqında Müsavat hökumətinə nota verməsi və sərhədi bu minvalla pozduqdan sonra hazır plan gərəyincə daxildə Müsavat hökumətinin devrilməsi qərara alındı.[895]

Xəlil paşanın komandanlığının Moskva tərəfindən qəbul edilib-edilməyəcəyini öyrənmək üçün nüfuzlu bir kuryerlə bu məsələ Qızıl Ordu qərargahına bildirildi. Bir müddət sonra buna rədd cavabı verildiyi halda, vəziyyət Xəlil paşa və yoldaşlarından gizlədildi.[896]

Xəlil paşa "Qızıl Ordunun komandanlığı" məsələsi ilə bağlı öz xatirələrində yazırdı: "Bir gün Kommunist Təşkilatı (Türk Kommunist Firqəsi – V.Q.) liderlərindən qərargah zabiti minbaşı Baha Sait yanıma gəldi və gizli olaraq görüşmək istədiyini bildirdi. Ondan çəkinmədən danışmasını istədim, bir girişə lüzum görmədən bunları söylədi: Paşam, Şimali Qafqazda toplaşan Qızıl Ordu bir düşmən kimi deyil, bir dost olaraq Azərbaycana gələcəkdir. Bunun da ən böyük dəlili budur ki, siz şəxsən Şimali Qafqaza gedərsiniz, bu ordunun komandanlığı sizə həvalə ediləcəkdir. Bu ən yüksək mərkəzin aldığı qərar cümləsindəndir".[897]

Əslində, Qafqaz Komitəsinin 1920-ci ilin aprelində Xəlil paşanın Qızıl Ordunun komandanlığını öz üzərinə götürməsi ilə bağlı qəbul etdiyi qərarın heç bir hüquqi əsası yox idi və bu bolşeviklərin əsl məqsədlərini ört-basdır etmək üçün atılmış bir addım idi.

---

[895] Məmmədzadə M.B. Milli Azərbaycan hərəkatı, s. 136.
[896] Yenə orada, s. 136.
[897] Halil Paşa. İttihat ve Terakki'den Cumhuriyet'e Bitmeyen Savaş, s. 320.

Halbuki Bakıdakı Türk Kommunist Firqəsinin liderlərindən olan B.Sait bəy M.Kamal paşaya göndərdiyi 8 aprel 1920-ci il tarixli məktubunda "Qafqaz Komitəsi tərəfindən özümün Qızıl Ordunun baş komandanlığına təyin olunduğunu" yazırdı.[898] Bütün bunlar Azərbaycanı işğal etmək üçün tərtib edilən bolşevik planının nə cür ustalıqla həyata keçirildiyini göstərir.

Qızıl Ordunu qarşılamaq üçün Dağıstana hərəkət edən Xəlil paşa hələ yolda ikən, XI Ordu 26 aprel axşamı Azərbaycan sərhədini keçərək Bakı üzərinə yürüşə başlamışdı. Daxili çevrilişlə bir iş görmək mümkün olmadığı üçün Qızıl Ordu əvvəlcədən planlaşdırıldığı şəkildə Azərbaycanı sadəcə olaraq işğal edəcəkdi.

Xəlil paşa və onunla birlikdə Bakıdan hərəkət edən rus polkovniki Skaçkov XI Qızıl Ordunun komandanı M.K.Levandovski ilə görüşdülər. Burada Skaçkov Xəlil paşanın Qızıl Ordu komandanlığını öz öhdəsinə alması barədə Qafqaz Komitəsinin qərarını Levandovskiyə bildirdi. Levandovski isə ona Moskva tərəfindən belə bir əmr verilmədiyini, ordusu ilə köhnə Rusiya-Osmanlı sərhədinə qədər irəliləyəcəyini və Xəlil paşanın Moskvaya getməsinin çox münasib olacağını bəyan etdi.[899] Xəlil paşa da tabe olmaq məcburiyyətində qaldı.

Bütün bunlara baxmayaraq, bolşeviklərin əlində sadəcə bir alət olduğunu dərk etməyən və ya Anadolu hərəkatına bolşevik yardımlarını təmin etmək üçün istənilən güzəştə getməyə hazır olan Xəlil paşa bir tərəfdən Azərbaycandakı müxalifət partiyalarını birləşməyə və Müsavat hökumətini devirməyə çağırır[900], digər tərəfdən də Azərbaycanı işğal etmək üçün gələn və Bakı istiqamətində irəliləməkdə olan XI Qızıl Ordunun maneəsiz irəliləməsini təmin etmək məqsədilə Türk Kommunist Firqəsi adından Azərbaycan xalqına xitabən bəyannamə yayımlayırdı. Bəyannamədə deyilirdi: "Qızıl Ordu Azərbaycan ordusu tərəfindən müqavimət görmədən Samur, Xaçmaz, Çarki stansiyalarını keçərək irəli hərə-

[898] Karabekir K. İstiklal Harbimiz. C. II, s. 688-690.
[899] Məmmədzadə M.B. Milli Azərbaycan hərəkatı, s. 140; Halil Paşa. İttihat ve Terakki'den Cumhuriyet'e Bitmeyen Savaş, s. 325-326
[900] Məmmədzadə M.B. Milli Azərbaycan hərəkatı, s. 142.

katına davam etməkdədir. Qan tökülməmişdir. Digər yerlərdə müqavimət göstərmək qan tökülməsinə səbəb olar. Əsasən, Azərbaycanda müstəqil xalq cümhuriyyəti hökmran olacaqdır. Təlaş və narahatlığa əsas yoxdur, hər tərəfdə sakit oturmaq lazımdır. Müsəlman düşməni olan Antanta müsəlmanlarla Sovet Rusiya Qızıl Orduları arasında qan tökülməsini istəyir. İngilislərin nə qədər müsəlman düşməni olduqlarını İstanbul və İzmirin qanlı hadisələri göstərir".[901]

Bu arada Bakıda cərəyan edən hadisələrin şahidi olmuş leytenant Refet K.Qarabəkir paşaya təqdim etdiyi raportunda yazırdı: "Azərbaycan əhalisinin Türkiyəyə, türklərə ehtiramı böyükdür. Bütün nəzərləri Anadoluya, Millət Məclisinədir. Hətta bolşeviklərin bu qədər asanlıqla və qeyd-şərtsiz Azərbaycana girmələrinə bu hissiyyatın çox böyük dəxli olmuşdur. Xəlil paşanın Azərbaycan sərhədinə yaxınlaşan bolşevikləri dəstəklədiyini görən xalq sərhədləri bolşeviklərə açmışdır".[902] Bu dövrdə Azərbaycan ordusunun böyük əksəriyyəti Qarabağda ermənilərə qarşı başlanmış əməliyyata səfərbər edildiyindən ölkənin şimal sərhədlərində çox az sayda hərbi qüvvə var idi. Bununla belə, Rusiya əsarətinin nə olduğunu çox yaxşı bilən və bu əsarətin onlara qarşı törətdiyi ağlasığmaz cinayət və vəhşilikləri unutmayan yerli əhali ibtidai formalarda olsa da belə, XI Qızıl Orduya müqavimət göstərir, onun hərəkatına müxtəlif maneələr yaradırdı. Lakin "XI Ordunun başında Xəlil paşanın dayandığını, komanda heyəti türk zabitlərindən ibarət olan, həmçinin içərisində Rusiyadakı türk əsirlərindən və Volqaboyu türklərindən ibarət alaylar olan bu ordunun Anadoluya köməyə getdiyini" bilən əhali müqaviməti dayandırdı və XI Ordunun irəliləyişinə köməklik göstərməyə başladı.[903]

M.Ə.Rəsulzadə yazırdı: "...Bakıda bulunan Osmanlı türklərindən bir qisim məsul zəvat ağzından işaə olunuyordu ki: "Gələn Qızıl Ordu komandanı Nicati bəy namında bir türkdür. Bu ordu-

---

[901] Kahraman S.S. İstiklal Mücadelesi ve Enver Paşa (Trabzon ve Kars Hatıraları). İzmit: Selülöz Yayınları, 1949. s. 130-131.
[902] ATASE, BDH, K. 586, D. 34, F. 90-1.
[903] ATASE. BDH. K. 586. D. 34. F. 90-1.

nun qitaəti miyanında türk üsərai-hərbindən mütəşəkkil alaylar var. Bir çox qitaət dəxi Volqaboyu türklərindən ibarətdir. Bu ordu həyat-məmat mübarizəsi içində bulunan Anadolunun müavinətinə qoşyor. Bu qüvvətə qarşı göstəriləcək müqavimət Türkiyənin xilasını əngəl edəcək bir vaqə ola bilər ki, böyük türklük və islamlıq nöqteyi-nəzərindən bir xəyanətdir". Bütün bu şərtlərin ertəsi günü yırtılacağı mühəqqəq idi. Söylənən sözlərin dəxi bir siyasi xüdədən başqa bir şey olmadığı aşkar idi".[904]

Rusiyanın əsl məqsədinin nə olduğunu çox gözəl anlayan M.Ə.Rəsulzadə bolşeviklərin əlində bir alətə çevrilən Xəlil paşa və digər Anadolu nümayəndələrinə müraciət edərək deyirdi: "Etməyin, bizi öz halımıza buraxın. Yüz ildən bəri əsarəti altında olduğumuz rusları biz daha yaxşı tanıyırıq. Onlar hiylə ilə gələr, sonra bizi əzərlər".[905]

Lakin Xəlil paşa və digər Anadolu nümayəndələri M.Ə.Rəsulzadənin bu müraciətlərinə qətiyyən məhəl qoymadılar, XI Qızıl Ordu tərəfindən Azərbaycanın işğal edilməsində bolşeviklərlə birlikdə hərəkət etdilər.[906] Azərbaycan ordusunda zirehli avtomobilləri idarə edən, donanmada xidmətdə olan türk zabitləri də bolşeviklərin tərəfinə keçdilər. Azərbaycan könüllülərindən təşkil edilmiş və bütün zabit heyəti türk olan Bakıdakı "Yardım Alayı" (hansı ki, bu alay parlament və digər hökumət binalarının mühafizəsi ilə məşğul idi) və 7-ci piyada alay da Azərbaycan hökumətinə xəyanət edib bolşeviklərin tərəfinə keçdilər.[907] Bakıdakı türk hərbçilərinin köməyi ilə şəhərin bir çox mühüm obyektləri, o cümlədən dəmiryol vağzalı tutuldu, Bakının hərbi qubernatoru, general-mayor M.G.Tlexas həbs edildi. Dəmiryol vağzalını öz nəzarəti altına alan türk hərbçiləri hökumətin Bakını tərk etmək cəhdinin qarşısını aldılar.[908] Bu xidmət S.Kirov və Q.Orconokidze tərəfin-

---

[904] Rəsulzadə M.Ə. Azərbaycan Cümhuriyyəti, s. 67.
[905] Məmmədzadə M.B. Milli Azərbaycan hərəkatı, s. 137.
[906] ARDA, f. 894, siy. 10, iş 98, v. 18.
[907] Rəsulzadə M.Ə. Azərbaycan Cümhuriyyəti, s. 66.
[908] Хейфец А.Н. Советская Россия и сопредельные страны Востока в годы гражданской войны, с. 108.

dən Leninə göndərilən 4 may 1920-ci il tarixli məlumatda yüksək qiymətləndirildi: "Türk əsgərləri və zabitləri Bakıda inqilabın xeyrinə olduqca fəal rol oynadılar ki, onların dəstəsi Müsavat hökümətinin Bakıdan qaçmaq imkanının qarşısını aldı".[909]

Qeyd edək ki, hələ 1920-ci il yanvarın 19-da Müttəfiq dövlətlərin hökumət başçılarının iştirakı ilə keçirilən Paris sülh konfransının Ali Şurasının iclasında bolşevizmlə mübarizə üçün Cənubi Qafqaz respublikalarına yardım məsələsi müzakirə ediləndə Lord Kerzon Azərbaycan nümayəndələrinə belə bir sual vermişdi: "Məndə olan məlumata görə Azərbaycan əsgərlərinin bir hissəsi türklərdir. Türk əsgərlərinin olması gədəcəkdə bolşeviklərə qarşı döyüşə mane olmazmı?" Azərbaycan nümayəndəsi Məmməd Məhərrəmov bu sualı cavablandıraraq demişdi: "Azərbaycan Rusiya tərəfindən işğal edildiyindən əhalinin böyük bir hissəsi kömək üçün Türkiyəyə müraciət etdi. Onda türk ordusu Qafqazı azad etdi, bu ordunun zabitlərinin müəyyən hissəsi keçmiş Azərbaycan və Dağıstan sakinləri idi. Türklər Qafqazı tərk etdikdən sonra Azərbaycanda qalan türk zabitlərinin sayı 50 nəfərdən artıq deyildir, onlar qafqazlıdırlar və biz əminik ki, onlar da bütün xalq kimi bizim azadlığımız uğrunda bolşeviklərə qarşı vuruşacaqlar".[910] Amma zaman göstərdi ki, M.Məhərrəmov və onun kimi düşünən digər aydınlar yanılmışlar.

1920-ci ilin aprel hadisələrində iştirak etmiş türk zabitinin yuxarıda qeyd etdiyimiz 1 avqust 1920-ci il tarixli raportunda deyilirdi: "...Bolşeviklərin əhali üzərində heç bir təsiri və nüfuzu olmadığından Bakı şəhəri daxil olmaq üzrə çox həyəcanlı bir halda ayaqlanan xalqı sakitləşdirmək üçün iqtidar mövqeyinə gələn İnqilab Komitəsi Qızıl Ordunun Anadoluya köməyə gedəcəyini, türklərlə bolşeviklərin müttəfiq olduğunu, komissarların tamamilə müsəlman olduğunu, Bakı vali və komendantlığına Osmanlı zabitlərindən Rıfat bəyin təyin edildiyini və Bakıya gələn Qızıl Ordunun bir neçə gün qonaq qaldıqdan sonra Ermənistan üzərinə yürü-

[909] Великий Октябрь и народы Востока. Сборник. 1917-1957. Отв. ред. и введ. А.А.Губера. Москва: Изд. Вост. лит., 1957, с. 56.

[910] Həsənli C. Azərbaycan Xalq Cümhuriyyətinin Xarici Siyasəti. s. 445.

yəcəyini əhaliyə çatdırmış, Osmanlı zabitləri və müəllimləri avtomobillərlə küçə-küçə dolaşaraq əhaliyə eyni nəqarəti təkrar etməklə camaatı təskin etməyə çalışmış və müvəffəq olmuşdular".[911] Bu küçə-küçə dolaşanların əllərində Osmanlı bayraqları olduğu da unudulmasın.[912]

Bu məlumatı M.Ə.Rəsulzadə də təsdiqləyərək yazırdı: "Nisanın 28-dən etibarən üç rəngli Azərbaycan bayrağı qismən Qızıl sovet və qismi-əzəmi də Osmanlı bayrağına əvəz edilmişdi. Milis başında, yardım alayında, şəhər komendantlığında və digər məsuliyyətli məqamlarda bulunan türk (Osmanlı) nam və imzası ilə çıxan əmri-yovmilər, bəyannamə və elanlar gözə çarpıyordu. Öylə bir təsir hasil oluyordu ki, ixtilalı yapan təcavüzkar rus ordusu deyil, Osmanlı türkləridir. "Müsavat" hökuməti devrilmiş, yerinə Türkiyə hökuməti qurulmuşdur. Avtomobillərdə şəhərin müxtəlif səmtlərinə qoşan Osmanlı zabitanı həqiqətən bu zəhabı təqviyə edəcək bir mahiyyətdə idi. Daha ziyadəsi ixtilalın əqdində Türk komissarlığı namilə təşəkkül edən müəssisə namına nəşr olunan bəyannamələrlə türk kommunistləri tərəfindən nəşr olunan "Yeni dünya" qəzetəsi bu "Əmri-xeyr"in kəndi təşəbbüsləri ilə vuqu bulunduğunu yazdıqdan sonra "ingilisçi Müsavatı devirməklə iki məqsəd təqib edildiyini" izah ediyorlardı: 1. Azərbaycanın xilası; 2. Həyatı üçün mübariz bulunan Türkiyəyə ixtilalçı Rusiyanın müavinətini təmin. "Türk mürəxxəsliyi"nin bəyanına görə, birinci məqsəd hasil olmuş, ikinci məqsədin hüsulu üçün də Xəlil paşa Moskvaya ezam edilmişdi. Filhəqiqə iki gün əvvəl Xəlil paşa Bakıdan Moskvaya mütəvəccihən əzimət eyləmişdir".[913] Anadolu nümayəndələrinin birbaşa iştirakı və fəal yardımı ilə 1920-ci ilin Aprel istilası artıq gerçəkləşdiyindən, Xəlil paşanın öz dili ilə desək, "artıq onların Azərbaycanda görəcəkləri elə bir iş qalmamışdı, Azərbaycan özünün ən bədbəxt gününü yaşayırdı".[914] Buna görə də, Türk Kommunist Firqəsinin məşhur simalarından olan Xəlil

[911] Məmmədzadə M.B. Milli Azərbaycan hərəkatı, s. 146.
[912] Yenə orada, s. 146.
[913] Rəsulzadə M.Ə. Azərbaycan Cümhuriyyəti, s. 68.
[914] Halil Paşa. İttihat ve Terakki'den Cumhuriyet'e Bitmeyen Savaş, s. 327.

paşa və F.Sabit bəy Azərbaycanın sovetləşdirilməsi müqabilində Anadoluya vəd edilən sovet yardımlarını gerçəkləşdirmək üçün K.Qarabəkir paşanın təlimatı üzrə Moskvaya getdilər[915] və burada Anadolu hərəkatı adına Sovet Rusiyası liderləri ilə apardıqları danışıqlar nəticəsində Türkiyəyə lazımi sovet yardımlarını təmin etdilər.[*]

---

[915] ATASE, BDH, K. 586, D. 34, F. 87-2.

[*] İlk Sovet maliyyə yardımı – 6 sandıq qızıl (400 kq = 516800 qızıl rubl) 8 sentyabr 1920-ci il tarixində Türkiyəyə çatdı. Şərq Cəbhəsinin komandanlığında Rusiya nümayəndəsinin iştirakı ilə bu sandıqlardan 3-ü açılaraq çəkildi və 200,035 kq olduğu təsbit edildi, yerdə qalan 3 sandıq isə açılmadan Ankaraya göndərildi. Bunun ardınca 1920-ci il oktyabrın 9-da 1 mln., dekabrın 1-də 50 min, dekabrın 17-də isə 1,5 mln. qızıl rubl məbləğində sovet maliyyə yardımı Türkiyəyə gətirildi. Bu yardımlar sonrakı illərdə də davam etdirildi. TBMM hökuməti Sovet Rusiyasından 1921-ci il aprelin 28-də 4 mln., may ayında 5,8 mln., 1922-ci il yanvarın 7-də 1,1 mln., aprelin 26-da 3,5 mln. qızıl rubl yardım aldı (Türk İstiklal Harbi. C. VII. İdari Faaliyetler. 15 Mayıs 1919 - 2 Kasım 1923. Ankara: Genelkurmay Basımevi, 1975, s. 166-174).

Bütövlükdə 1920-1922-ci illərdə Sovet Rusiyası Türkiyəyə 17.466.800 qızıl rubl məbləğində maliyyə yardımı göstərdi. O zamankı kursla 1 qızıl rubl 0,59 türk lirəsinə bərabər tutulurdu. Bu halda RSFSR-in Türkiyəyə göndərdiyi maliyyə yardımı 10.305.412 türk lirəsinə bərabər idi. Göndərilən maliyyə yardımlarının qızıl 10 rublluqlardan ibarət olduğunu və 1 qızıl 10 rublun çəkisinin də 8,6 qram qızıl olduğunu nəzərə alsaq, bu hesabla Sovet Rusiyasının Türkiyəyə etdiyi maliyyə yardımı 15021,4 kq qızıl idi.

Bununla paralel olaraq, Azərbaycan SSR hökuməti də Türkiyəyə 1920-ci ilin noyabrında 100 min Osmanlı qızılı / təqribən = 507000 türk lirəsi və ya 859322 qızıl rubl/, 1921-ci il aprelin 1-də 1 mln. qızıl rubl məbləğində maliyyə yardımı göstərdi (ARDA. f. 28. siy. 1. iş 25. v. 73; ARPİİSSA. f. 609. siy. 1. iş 25. v. 181; Türk İstiklal Harbi. C. VII. İdari Faaliyetler, s. 168). Anadoluya 100 vaqondan artıq neft və neft məhsulları göndərdi (İkdam, 2 Mayıs 1921. no. 8669; İkdam, 27 Mart, 1922, no. 8990; Документы внешней политики СССР. Т. IV. Москва: Госполитиздат, 1960 с. 17-18; Багиров Ю.А. Из истории советско-турецких отношений, с. 124-125).

Bundan başqa, Buxara Respublikası da 1920-ci ildə Ankara hökumətinə göndərilmək üçün Sovet Rusiyası bankına 100 mln. qızıl rubl məbləğində pul köçürmüşdü. Lakin bu pul Türkiyəyə verilmədi (Türk İstiklal Harbi. C. VII. İdari Faaliyetler, s. 172-173).

Sovet Rusiyası maliyyə yardımları ilə paralel olaraq Türkiyəyə hərbi sahədə də böyük yardım etdi. Moskva hökuməti Anadoluya 1920-ci ildə 6000 tü-

Aprel istilası zamanı Bakıdakı türk zabitləri və Türk Kommunist Firqəsinin nümayəndələri küçələrə və məscidlərə toplaşan xalqın həyəcanını "gələn ordunun bir neçə gün qonaq qaldıqdan sonra" Anadoluya gedəcəyini vəd etməklə sakitləşdirə bildilər. Halbuki həmin gün – 28 apreldə Azərbaycan İnqilab Komitəsi Moskvaya belə bir teleqram vurmuşdu: "İnqilabçı Bakı proletariatı və zəhmətkeş Azərbaycan kəndlisinin iradəsilə hakimiyyəti əlinə almış Müstəqil Azərbaycan Sovet Respublikasının Hərbi İnqilab Komitəsi sabiq "Müsavat" hökumətini xalqın və ölkənin düşməni elan edərək, Antanta ilə və Sovet Rusiyasının digər düşmənləri ilə əlaqələri kəsir.

İnqilab düşmənlərinin içəridəki və xaricdəki birləşmiş quldurlarının hücumlarının qarşısını öz qüvvəmizlə ala bilmədiyimiz üçün, Azərbaycan Hərbi İnqilab Komitəsi Rusiya Sovet Respublikasına dünya imperializmi ilə birlikdə çarpışmaq üçün qardaşlıq ittifaqı təklif edir və dərhal Qızıl Ordunu göndərmək surətilə inqilabi kömək göstərməyi xahiş edir"[916] Bununla da hələ iki gün əvvəl ölkəyə soxulmuş XI işğalçı rus Qızıl Ordusu rəsmən Azərbaycana dəvət edilmiş oldu.

---

fəng, 5 mln.-dan çox patron, 17600 top mərmisi. 1921-ci ildə 33275 tüfəng, 57.985.000 patron, 327 pulemyot, 54 top, 129479 mərmi, 2 dəniz qırıcı gəmisi və s. hərbi yardım göndərdi (Документы внешней политики СССР. Т. III. Москва: Госполитиздат, 1960 с. 675). Bütövlükdə, 1920-1922-ci illər ərzində Sovet Rusiyasından Türkiyəyə 43703 tüfəng, 327 pulemyot, 94 top, 53938 sandıq silah-sursat (63 mln. patron, 177661 top mərmisi, 4000 əl bombası, 4000 şarapnel mərmisi, 20000 əleyhqaz və s.) və s. hərbi yardımlar göndərdi (Документы внешней политики СССР. Т. III, s. 675; Türk İstiklal Harbi. C. VII. İdari Faaliyetler. s. 112-114; Türk Silahlı Kuvvetleri Tarihi. TBMM Hükümeti Dönemi: 23 Nisan 1920 – 29 Ekim 1923. C. IV, K. I. Ankara: Genelkurmay Yayınları, 1984, s. 237-292; Oran B. Türk Dış Politikası. 1919-1980: Kurtuluş Savaşından Bugüne Olgular, Belgeler. Yorumlar. C. I. İstanbul: İletişim Yayınları, 2002. s. 162).

Onu da qeyd edək ki, Sovet Rusiyası tərəfindən Türkiyəyə edilən maliyyə və hərbi yardımların tam həcmini müəyyən etmək mümkün olmadı. Yuxarıda göstərilən rəqəmlər mənbələri qarşılaşdırdığımız zaman əldə etdiyimiz nəticələrdir.

[916] Azərbaycana xarici müdaxilə tarixindən, s. 194.

Bakıdakı Türk Kommunist Firqəsi Azərbaycan xalqını bolşevik rejiminə isindirmək üçün əhali arasında təbliğati işini sonrakı günlərdə də davam etdirdi və 3 may 1920-ci il tarixində "Türkiyə kommunist bolşevikləri tərəfindən Azərbaycan xalqına" başlığı ilə bir bəyannamə yayımlayaraq, Azərbaycan xalqını yeni idarəyə – bolşevik rejiminə dəstək olmağa çağırdı.[917]

Bakının Qızıl Ordu tərəfindən işğalından bir neçə gün sonra ordudakı türk "komandanlar" ruslarla əvəz edildi. Lakin iş bununla bitmədi. XI Ordunun Bakını işğal etməsində iştirak edən türk zabitlərinin bir hissəsi həbs edildi, digərləri isə ölkədən çıxarıldı. Bu siyasət hələ 1918-ci ildə Moskvada qurulan Türkiyə Kommunist Təşkilatının sədri Mustafa Sübhinin 1920-ci ilin mayında təşkilatı ilə bərabər Azərbaycana gəlməsindən sonra daha şiddətli bir şəkil aldı.[918] Bu zaman bolşevik planının mahiyyəti Anadolu nümayəndələri üçün gerçək oldu, baxmayaraq ki, "Müsavat" hökuməti bunları türklərə dəfələrlə bildirmişdi. Artıq gec idi, Azərbaycan güdaza getmişdi, geriyə yol yox idi. İndi heç olmasa, Anadoluya vəd edilən sovet yardımlarını təmin etmək lazım idi.

Rus sovet ordusunun Türkiyənin yardımı ilə Azərbaycanı işğal etməsini M.Kamal paşa da etiraf edirdi. O, 1920-ci il avqustun 14-də TBMM-də demişdi: "...Bolşevik Cümhuriyyəti, həm özlərinin yaşamaları və varlıqlarının önəmini artırmaq, həm də Antanta dövlətlərinin zülm pəncəsindən qurtulduqları təqdirdə, ən qüdrətli yardımçı və tərəfdar olacaq millətimizin birlik və bərabərlik əlini tutmaq üçün bizə kömək etdi... Etdikləri yardım X və XI ordularını açıqdan-açığa Qafqaza, Şərq cəbhəsinə parçalamaq oldu. Bu ordular bizim istiqamətimiz, təsirimiz və xidmətimiz sayəsində asanlıqla Şimali Qafqazı keçib Azərbaycana gəldilər".[919]

Türk tarixçilərindən Aclan Sayılqan, Doğan Avcıoğlu, Salahi Sonyel, Selahettin Tansel, Kamuran Gürün, Betül Aslan və digərləri də öz əsərlərində XI Qızıl Ordunun türk-rus işbirliyi zəminin-

---

[917] Коммунист, 3 мая 1920.
[918] Rəsulzadə M.Ə. Azərbaycan Cümhuriyyəti, s. 69.
[919] Baykara H. Azərbaycan istiqlal mübarizəsi tarixi, s. 265.

də, türklərin fəal yardımı ilə Azərbaycanı işğal etməsini təsdiqləyirlər.[920]

Sovet Rusiyası ilə danışıqlar aparmaq üçün 1921-ci ildə Moskvaya gedən türk nümayəndə heyətinə daxil olan Rıza Nur "Həyat və Xatirələrim" əsərində bu məsələ ilə bağlı yazırdı: "Azərbaycanlılar bir şeydən acı-acı şikayət edirlər. Bunu söylərkən adətən ağlayırlar. Hər kimlə görüşdümsə, bunu söylədi: bizi siz vücuda gətirdiniz, sonra da siz boğazladınız. İzah edirlər: Vaxtilə türk ordusu gəldi, bizə istiqlal verdi. Sonra Xəlil paşa bizi "Türkiyə belə istəyir, ruslar keçib Türkiyəyə yardım edəcəklər" deyə aldadıb müdafiə etdirmədən rusları buraya soxdu. Ordumuz vardı, müdafiə olunardıq. Etdirmədi. Budur, yenidən Rusiya boyunduruğuna düşdük.

Bu faciəli bir şey. Bir böyük milli xəyanət! Dəhşətli bir tarixi cinayət! Bunu bilmirdim. Məni dəhşət bürüdü. Əvvəla, bir türk millətinin həyatına qəsd edilmiş, onların təbirincə boğazlanmış, ikincisi, bunu edən türkiyəli bir türk və Türkiyə adına etmişdir. Bizə nə pis ləkə. Bəlkə də azərbaycanlılar müdafiədə müvəffəq olmayıb, ruslara məğlub olardılar. Yenə vətənləri istila altına girərdi. Fəqət hərb edib vəzifələrini icra edərdilər. Bəlkə də müvəffəq olub, istiqlallarını müdafiə edərdilər..."[921]

Beləliklə, türk-rus iş birliyi zəminində, Anadolu nümayəndələrinin birbaşa iştirakı və fəal yardımı ilə Azərbaycan Cümhuriyyətinin 1920-ci il 27 aprel faciəsi həyata keçirildi. Ölkə Rusiya tərəfindən yenidən işğal edilərək sovetləşdirildi, Azərbaycanın milli dövlətçiliyi itirildi. Düzdür, Azərbaycan Cümhuriyyətinin süqutunun bir sıra digər daxili və xarici səbəbləri (hökumətin həddindən

---

[920] Sayılqan A. Solun 94 Yılı. 1871-1965: Başlangıçtan Günümüze Türkiye'de Sosyalist-Komünist Hareketler. Ankara: Mars Yayınları, 1968, s. 98, 148-153; Avcıoğlu D. Milli Kurtuluş Tarihi (1838-1965). C. II. İstanbul. İstanbul Matbaası. 1974, s. 451; Sonyel S. Türk Kurtuluş Savaşı ve Dış Politika. C. I. s. 182; C. II, s. 59-60; Tansel S. Mondros'tan Mudanya'ya Kadar. C. III. İstanbul: Milli Eğitim Bakanlığı Yayınları, 1991, s. 251; Gürün K. Türk-Sovyet İlişkileri, s. 20-23; Aslan B. Türkiye-Azerbaycan İlişkileri ve İbrahim Ebilov, s. 43-55.

[921] Nur R. Hayat ve Hatıratım. C. III, İstanbul: Altındağ Yayınları, 1968, s. 750-751.

çox demokratik yönümlü olması, hökumət böhranı, Qarabağ konflikti, ölkədəki yerli və rus kommunistlərinin mövcud demokratik şəraitdən yararlanaraq dövlətin suverenliyinə qarşı yönələn fəaliyyəti, M.H.Hacınski kimi hökumətdə təmsil olunan bəzi şəxslərin satqınlığı və pozuculuq fəaliyyəti, Avropa müttəfiqlərinin Sovet Rusiyasına qarşı iqtisadi embarqonu aradan qaldırmaları və Qafqaz respublikaları üçün yaranmış bolşevizm təhlükəsinə qarşı fəal hərbi yardım göstərməmələri və s.) də var idi. Lakin Türkiyə-Rusiya yaxınlaşması və iş birliyi Azərbaycan Cümhuriyyətinin süqutunda həlledici və müstəsna bir rol oynadı. Bu inkar edilə bilməz.

O da həqiqətdir ki, Türkiyənin Rusiya ilə yaxınlaşması Anadolu hərəkatının bolşeviklərlə hər hansı bir ideoloji birliyindən deyil, zamanın tələblərindən dolayı Avropa işğalçılarına qarşı aparılan milli azadlıq müharibəsində bolşeviklərdən dəstək və yardım almaq, son nəticədə isə Türkiyəni xilas etmək zərurətindən qaynaqlanırdı.

## § 4. Moskva və Qars konfranslarında Azərbaycanın ərazi bütövlüyü və suverenliyi məsələsi

1920-ci il mayın 3-də qurulan Türkiyə Böyük Millət Məclisi hökuməti Mustafa Kamal paşanın Sovet Rusiyasına göndərdiyi 26 aprel tarixli məktubun cavabını gözləmədən, mayın 5-də Ankarada keçirilən Nazirlər Şurasının ilk toplantısında RSFSR hökuməti ilə rəsmi danışıqlar aparmaq üçün Moskvaya bir heyətin göndərilməsinə qərar verdi və elə buradaca yeni hökumətdə xarici işlər naziri olan Bəkir Sami (Kunduh) bəy və iqtisadiyyat naziri Yusif Kamal (Tengirşek) bəydən ibarət bir heyət təşkil edildi. Sonradan rus dilini bilən Lazistan məbusu Osman bəy də bu heyətə daxil

edildi.[922] Bu arada K.Qarabəkir paşa Moskvaya göndəriləcək heyətin gecikməsindən çox narahat idi. O, mayın 5-6-da M.Kamal paşaya göndərdiyi teleqramlarında sözü gedən heyətin tezliklə göndərilməsini təkidlə tələb edir və bildirirdi ki, "ermənilər böyük bir təlaş içərisindədirlər və bolşeviklərlə anlaşmaq məqsədilə onların yanına bir nümayəndə heyəti göndərdiklərinə dair məlumat alınmışdır. Dərhal hərəkətə keçmək lazımdır. İtiriləcək hər bir gün belə bizim üçün çox zərərli olacaqdır".[923]

Ankara ilə Ərzurum arasında yazışmalar davam edərkən, Moskvaya gedəcək heyət 11 may 1920-ci il tarixində Ankaradan yola düşdü. Bəkir Sami bəyin rəhbərlik etdiyi heyət Ərzuruma gəldikdən sonra K.Qarabəkir paşa əsgəri nümayəndə olaraq İbrahim Tali (Öngörən) bəylə Seyfi (Düzgörən) bəyi də bu heyətə qoşdu.[924] Bəkir Sami bəyin dəniz yolunu istəməməsi səbəbindən, heyət Bəyazid və Naxçıvan üzərindən hərəkət etməyə qərar verdi və bu yolla Makuya qədər gedib çıxa bildi. Amma bu yolun təhlükəli olması heyəti geri qayıtmağa məcbur etdi. Nəticədə, türk nümayəndə heyəti 11 iyul 1920-ci il tarixində Qara dəniz yolu ilə Rusiyaya yola düşməli oldu və iyulun 19-da Moskvaya çatdı.[925]

Qeyd edək ki, bu arada bir sıra Anadolu nümayəndələri artıq Moskvada idilər. 1920-ci il mayın 16-da Xəlil paşa ilə Fuad Sabit bəy, mayın 27-də Ənvər paşa və digər ittihadçılarla birlikdə Almaniyada olan Camal paşa, Bahəddin Şakir və Bədri bəylər, may ayının son günlərində isə, M.Kamal paşanın 26 aprel tarixli məktubunu gətirən İbrahim bəy Moskvaya gəlmişdilər. Başda Xəlil paşa olmaqla ittihadçı liderlər sovet rəsmi dairələri ilə görüşüb Türkiyə üçün müəyyən maliyyə və hərbi yardımı təmin etmişdilər. İbrahim bəy də M.Kamal paşanın məktubuna G.Çiçerinin 3 iyun

[922] Tengirşek Y.K. Vatan Hizmetinde. İstanbul: Bahar Matbaası, 1967, s. 145-146.
[923] Karabekir K. İstiklal Harbimiz. C. II, s. 786-790.
[924] Tengirşek Y.K. Vatan Hizmetinde. s. 148
[925] Yenə orada. s. 151.

1920-ci il tarixli cavab məktubunu alaraq Anadoluya yollanmışdı.[926]

Bəkir Sami bəyin rəhbərlik etdiyi TBMM nümayəndə heyətinin 1920-ci il iyulun 19-da Moskvaya gəlməsinə baxmayaraq, avqustun 13-nə qədər sovet tərəfi türk heyəti ilə rəsmi danışıqlara başlamadı. Doğrudur, iyulun 24-də G.Çiçerin müavini L.Karaxan ilə türk nümayəndə heyətini F.Sabit bəylə birlikdə qəbul etdi, həmin gün axşam və avqustun 4-də L.Karaxan heyətlə yenidən görüşdü, amma bu görüşlər rəsmi xarakter daşımırdı. Sovet Rusiyası Ermənistanla münasibətlərini tam aydınlaşdırmadan türk heyəti ilə rəsmi danışıqlar aparmaq istəmirdi.

RSFSR xalq xarici işlər komissarı G.Çiçerin iyulun 19-da İrəvana göndərdiyi teleqramında Anadoluda səfərbərlik elan edilməsindən bəhs edir və bildirirdi ki, onları bu müharibədən ancaq Sovet Rusiyasının da qatılacağı ümumi bir sülh xilas edə bilər. G.Çiçerin sonda onu da qeyd edirdi ki, Baris Leqranı ermənilərlə danışıqlar aparmaq üçün Qafqaza göndərmişdir.[927] Hələ may ayının 30-da Şantın rəhbərlik etdiyi erməni nümayəndə heyəti Moskvaya gəlmişdi və ertəsi gün L.Karaxanla danışıqlara başlamışdı. Bu danışıqlarda L.Karaxan daşnaklara təklif etmişdi ki, əgər Ermənistan hökuməti Böyük Ermənistan yaratmaq istəyindən imtina edərsə, onda Sovet Rusiyası Ankara hökumətindən köçürülmüş ermənilərin geri qaytarılmasını, Van və Bitlis vilayətlərinin Ermənistana verilməsini istəyəcəkdir.[928] Sovet Rusiyasının Qafqazdakı nümayəndəsi B.Leqran da 1920-ci il iyulun 31-də Ermənistan hökumətinin nümayəndələri A.Camalyan və A.Babalyanla Tiflisdə danışıqlara başladı və nəticədə avqustun 10-da Rusiya-Ermənistan müqaviləsi imzalandı. Müqaviləyə görə, Qarabağ, Zəngəzur və Naxçıvan sovetlərin müvəqqəti idarəçiliyində qalır, Gümrü-Şahtaxtı-Culfa dəmir yolu hərbi yüklər istisna olmaqla ermənilər tərəfindən

[926] Yerasimos S. Türk-Sovyet İlişkileri, s. 152-155.
[927] Yenə orada, s. 166.
[928] Yenə orada. s. 154.

istifadə edilə bilərdi.[929] Bundan əlavə, Sovet Rusiyası Anadoludan ermənilər üçün torpaq qoparmağa da söz verirdi.

Sovet Rusiyası erməni daşnakları ilə razılığa gəlib müqavilə imzaladıqdan sonra avqustun 13-də Moskvada ilk rus-türk rəsmi görüşü keçirildi. Bu görüş zamanı türk heyəti 10 avqustda imzalanmış Rusiya-Ermənistan müqaviləsindən xəbər tutdu və bundan öz narahatlığını ifadə etdi. G.Çiçerin isə, "erməni məsələsi"ni gündəmə gətirib bildirdi ki, Van və Bitlis vilayətlərinin Ermənistana verilməsi zəruridir və türklərə ediləcək yardımın bu əsasa söykəndiyini Xəlil və Camal paşalarla da müzakirə edib onların razılığını almışıq. Türk heyəti G.Çiçerinə cavabında açıq şəkildə bəyan etdi ki, belə bir davranış ilə Rusiyanın Anadolu ərazilərini öz işğalları altında saxlayan dövlətlərdən heç bir fərqi qalmayacaqdır, eyni zamanda Xəlil və Camal paşaların da Türkiyə adından danışmağa haqları yoxdur.[930] G.Çiçerinin əsassız tələbləri üzündən bu görüş soyuq bir ab-havada başa çatdı və heç bir nəticə hasil olmadı.

Türk nümayəndə heyəti böhranlı vəziyyətdən çıxış yolu kimi avqustun 14-də V.İ.Leninlə görüşdü. Türk heyəti RSFSR-lə daşnak Ermənistanı arasında imzalanmış müqavilə ilə bağlı öz narahatlığını bildirdi və eyni zamanda Anadoludan ermənilər üçün torpaq istəyən G.Çiçerinə təsir göstərməyi xahiş etdi. Lenin ermənilərlə imzalanmış müqavilənin bir zərurətin nəticəsi olduğunu bildirdi və qeyd etdi ki, "biz o müqaviləni imzalamaqla xəta etdiyimizi anladıq, düzəltməyə çalışacağıq. Biz düzəltməsək siz düzəldərsiniz".[931] Lenin onu da bildirdi ki, yaxın zamanlarda Ermənistan və Gürcüstanın sovetləşməsi ilə bütün məsələlər öz həllini tapacaqdır.[932] Bu görüş türklərdə müəyyən ümidlər yaratdı və danışıqların davam etdirilməsi qərara alındı.

[929] ATASE. BDH. K. 588, D. 36, F. 6-3.
[930] Tengirşek Y.K. Vatan Hizmetinde, s. 167-168.
[931] TBMM Gizli Celse Zabıtları. Devre: I. C. II. Ankara: Türkiye İş Bankası Kültür Yayınları, 1985, s. 166; Tengirşek Y.K. Vatan Hizmetinde, s. 163.
[932] Cebesoy A.F. Moskova Hatıraları (21/11/1921 – 2/6/1922), İstanbul; "Vatan" Neşriyatı, 1955, s. 72-73.

1920-ci il avqustun 17-də RSFSR Xalq Xarici İşlər Komissarlığı tərəfindən Sabanin və Adamov türklərlə imzalanacaq müqavilənin əsaslarını müzakirə etmək üçün sovet tərəfinin nümayəndələri təyin edildi. Bu nümayəndələr türk heyəti ilə birlikdə 17-24 avqust tarixləri arasında 8 maddədən ibarət bir müqavilə layihəsi hazırladılar.[933] Lakin G.Çiçerinin Anadoludan ermənilər üçün torpaq istəməsi ilə bağlı mövqeyinin dəyişilməz qalması bu müqavilənin imzalanması yolunda ən böyük əngəl oldu və nəticədə müqavilə imzalanmadı, danışıqlar kəsildi. Amma geri dönən türk nümayəndələri ilə Anadoluya sovet maliyyə və hərbi yardımları göndərildi.[934]

1920-ci ilin payızında Türkiyənin Ermənistana qarşı hərbi əməliyyatlara başlaması və nəticədə daşnak Ermənistanı ilə Gümrü müqaviləsini bağlaması Rusiyanın narahatlığına səbəb oldu. Digər tərəfdən, Türkiyənin Qərb dövlətləri ilə anlaşa biləcəyi ehtimalının çox olduğunu duyan Sovet Rusiyası "Şərqi Anadoluda ermənilərə torpaq verilməsi" ilə bağlı əvvəlki mövqeyini dəyişdi. Artıq Moskva hökumətinin Türkiyədəki təmsilçisi Budu (Polikarp) Mdivani "Ermənistana torpaq verilməsi" məsələsinin bir anlaşılmazlıqdan qaynaqlandığını ifadə edir[935], G.Çiçerin də Ankaraya göndərdiyi notada "Türkiyə Ermənistanı" ifadəsinə yer vermirdi və RSFSR hökumətinin Türkiyə ilə danışıqları davam etdirib müqavilə imzalamaq niyyətində olduğunu bildirirdi.[936] TBMM hökuməti də Moskvaya göndərdiyi 22 dekabr 1920-ci il tarixli teleqramında Sovet Rusiyasının bu istəyinə müsbət cavab verdi və Moskvaya gedəcək türk nümayəndə heyətinin tərkibini açıqladı.[937] Türkiyə hökuməti Rusiya ilə danışıqları Bakıda aparmaq istəyirdi. Lakin G.Çiçerin RSFSR xarici siyasət rəhbərlərinin işdən ayrılmasının qətiyyən yolverilməz olduğunu əsas gətirərək, danışıqların

[933] Tengirşek Y.K. Vatan Hizmetinde, s. 178-181.
[934] Yenə orada, s. 181.
[935] Atnur İ.E. Osmanlı Yönetiminden Sovyet Yönetimine Kadar Nahçıvan, s. 438.
[936] Документы внешней политики СССР, Т. III, с. 391-392
[937] Yenə orada. s. 436.

Bakıda deyil, Moskvada aparılmasını uyğun bildi və türk nümayəndə heyəti üçün Ermənistan və Novorossiysk üzərindən Ankara ilə daimi əlaqə yaradılacağına da zəmanət verdi.

Türkiyə hökuməti də öz növbəsində, Rusiya ilə münasibətlərin tezliklə nizama salınmasında və iki ölkə arasında münasibətləri tənzimləyəcək bir müqavilənin imzalanmasında maraqlı idi və buna ciddi səy göstərirdi. Birinci Moskva danışıqlarının müqavilə imzalanmadan sona çatması Türkiyədə narahatlıqla qarşılandı. TBMM hökuməti Rusiya ilə münasibətləri tezliklə nizama salmaq üçün Əli Fuad Cəbəsoyu 1920-ci il noyabrın 21-də Moskvaya səfir təyin etdi.[938] 1920-ci ilin dekabrında Moskva ilə Ankara arasında danışıqları yenidən davam etdirməklə bağlı nota mübadiləsi getdiyi zaman TBMM hökuməti artıq Rusiyaya gedəcək nümayəndə heyətini müəyyənləşdirdi və bu heyət dekabrın 14-də Ankaradan yola düşdü.[939] Nümayəndə heyətinə iqtisadiyyat naziri Yusif Kamal (sədr), maarif naziri Rıza Nur və hərbi nümayəndə olaraq Saffet (Arıkan) bəylər daxil idi.[940] Heyət 1921-ci il yanvarın 7-də Qarsa gəldi və burada müəyyən səbəblərə görə bir müddət ləngidikdən sonra yanvarın 15-də Rusiyaya səfir təyin olunan Ə.F.Cəbəsoyun heyəti ilə (Ə.F.Cəbəsoyun səfirlik heyəti dekabrın 16-da Qarsa gəlmişdi və burada Yusif Kamalın rəhbərlik etdiyi heyəti gözləyirdi.[941]) birlikdə Qars-Tiflis-Bakı-Moskva marşrutu ilə yola çıxdı. Yanvarın 29-da Bakıya gələn heyət burada Mirzə Davud Hüseynov və Nəriman Nərimanov tərəfindən qəbul edildi. Fevralın 6-da Bakıdan Behbud Şahtaxtinski ilə birlikdə Rusiyaya yola düşən türk heyəti fevralın 18-də Moskvaya çatdı.[942]

Türk heyəti Bakıdan Moskvaya yola düşər-düşməz N.Nərimanov bu heyətlə keçirdiyi görüş, apardığı danışıqlar və gəldiyi qənaətləri ümumiləşdirib V.İ.Leninə məktub göndərdi. Məktubda

---

[938] Cebesoy A.F. Moskova Hatıraları, s. 100-101.

[939] Tengirşek Y.K. Vatan Hizmetinde, s. 198-199; Yerasimos S. Türk-Sovyet İlişkileri, s. 206.

[940] Tengirşek Y.K. Vatan Hizmetinde, s. 199.

[941] Cebesoy A.F. Moskova Hatıraları, s. 111.

[942] Tengirşek Y.K. Vatan Hizmetinde, s. 200, 208, 215.

deyilirdi: "Türkiyə nümayəndə heyəti bizim nümayəndəmiz Behbud Şahtaxtinski ilə birlikdə Moskvaya gedir. Mən burada Türkiyə nümayəndə heyəti ilə ətraflı söhbət etdim. Mən qətiyyən şübhə etmirəm ki, türklər İngiltərəyə qarşı çıxaraq, özlərinin taleyini sidq ürəkdən bizimlə bağlamaq istəyirlər. Onlar üçün ən prinsipial məsələ erməni məsələsidir. Həmin məsələni özlərinin xeyrinə həll etmək üçün maksimum cəhd göstərdilər. Mən Batum və Axaltsıx barədə danışdım, lakin onlar dedilər: "Erməni məsələsi ölüm-dirim məsələsidir. Əgər biz bu məsələdə güzəştə getsək, kütlə bizim ardımızca getməz. Burası da var ki, həmin məsələnin bizim xeyrimizə həll edilməsi qüdrətimizi artırar".

Şübhəsiz, onlar Antantanın əleyhinədirlər; onlar bizimlə birlikdə son damla qanlarınadək İngiltərəyə qarşı vuruşmağa hazırdırlar, lakin Moskva erməni məsələsinə görə türkləri özündən uzaqlaşdırsa, onlar məyus olub, İngiltərəyə üz tuta bilərlər. O zaman nələr baş verə bilər?

...Əgər indi türklərdən üz döndərsək, biz müsəlman Şərqində bütün nüfuzumuzu itirərik, həm də bizim üçün fəlakətli nəticələr verə biləcək Şərq cəbhəsi açmış olarıq...

...İndi, Şərqdə son dərəcə gərgin bir şəraitdə biz türklərlə müharibəyə başlasaq, bu bizim Şərq siyasətimizin iflasının başlanğıcı olacaqdır. Əgər Qərbdə vəziyyətimiz möhkəm olsaydı, biz bundan qorxub çəkinməzdik.

Mən Sizi xəbərdar etməyə borcluyam: yoldaş Çiçerin Şərq məsələsini dolaşdırır, o, erməni məsələsinə həddən artıq uyur və məhz erməni məsələsi üzündən türklərlə aramızın dəyməsi nəticəsində nələr baş verə biləcəyini nəzərə almır. Mən qəti deyirəm – Qafqazda (Dağıstanda və Gürcüstanda) yaranmış indiki vəziyyətdə Azərbaycanı əlimizdə saxlamaq istəyiriksə, biz nəyin bahasına olursa-olsun türklərlə möhkəm ittifaq bağlamalıyıq..."[943]

Göründüyü kimi, N.Nərimanov "erməni məsələsi"ndə Türkiyəyə güzəştə gedilməsini istəyirdi. Amma onun bu mövqeyi heç

[943] Nəriman Nərimanovun V.İ.Leninə iki məktubu // "İqtisadiyyat" qəzeti, 26 aprel 2000-ci il; Neriman Nerimanov. Mektuplar. Hazırlayan: Hüseyin Adıgüzel. İstanbul: İleri Yayınları, 2005. s. 101-104.

də Türkiyənin haqlı tələblərinin müdafiə edilməsi ilə bağlı olmayıb, Anadolu hərəkatının İngiltərəyə üz tutacağı və bununla bağlı olaraq Sovet Rusiyası üçün Şərq cəbhəsinin yarana biləcəyi və ən əsası müsəlman Şərqində böyük nüfuza malik Türkiyəni bolşevizmin düşməninə çevirməklə Leninin Şərq siyasətinin iflasa uğrayacağından narahat olması ilə bağlı idi.

Moskvaya gələn türk nümayəndə heyəti elə həmin gün G.Çiçerin və L.Karaxanla qeyri-rəsmi bir görüş keçirdi. Həddindən çox gərgin keçən bu görüş soyuq bir halda başa çatdı və heç bir nəticə hasil olmadı. Türk heyəti kömək (Çiçerinə təsir göstərmək) üçün İ.Stalinə müraciət etdi və fevralın 22-də onunla görüşdü.[944] Bu görüş türk heyətində müəyyən ümidlər yaratdı.

Rəsmi görüşlər fevralın 26-da başladı. Moskva danışıqlarında Sovet Rusiyasını Georgi Çiçerin və Cəlal Qorxmazov təmsil edirdi. Türk nümayəndələrinin təkidinə görə erməni L.Karaxan danışıqlarda iştirak etmirdi. Konfransı açan G.Çiçerin ilk nitqində bildirdi ki, konfransın əsas məqsədi Rusiya ilə Türkiyə arasında ötən il ana xətləri cızılmış bir dostluq müqaviləsini imzalamaqdır.[945] Konfransa növbə ilə G.Çiçerin və Y.Kamal bəy sədrlik edirdi.

Moskva danışıqlarının getdiyi dövrdə Bəkir Sami bəyin başçılıq etdiyi digər bir türk heyəti də Londonda danışıqlar aparırdı. Həmin günlərdə Avropa mətbuatının yaydığı xəbərlərə görə, Böyük Britaniyanın baş naziri Lloyd Corc Bəkir Sami bəy ilə apardığı danışıqlarda "Türkiyənin Sovet Rusiyasına qarşı hərəkətə keçəcəyi təqdirdə neft Bakısı da daxil olmaqla bütün Cənubi Qafqazın Türkiyənin himayəsinə veriləcəyini" ona vəd etmişdi.[946] Sovet Rusiyasına qarşı olan bu danışıqlardan narahatlıq keçirən G.Çiçerin türk heyəti ilə apardığı müzakirələrdə "Bəkir Sami bəyin Londonda İstanbulu, yoxsa Ankaranı təmsil etməsi" ilə bağlı məsələyə aydınlıq gətirməyi tələb edirdi.[947] Qeyd edək ki, Londonda aparılan türk-ingilis danışıqları uğursuzluqla nəticələndi. İngilis siyasi-

[944] Sonyel S. Türk Kurtuluş Savaşı ve Dış Politika. C. II, s. 52-53.
[945] Yenə orada, s. 54.
[946] История внешней политики СССР, с. 144.
[947] Документы внешней политики СССР. Т. III. с. 589-590.

ləri də öz növbəsində, bu məlumatları mətbuata çıxarmaqla Moskva-Ankara yaxınlaşmasına mane olmaq niyyətində idilər.

Rusiya Moskva danışıqlarına Azərbaycan, Gürcüstan və Ermənistanın da qatılmasını israr edirdi. Rus diplomatiyası bununla Cənubi Qafqaz respublikalarının xarici siyasətlərini öz əlində cəmləşdirmək və bunları Türkiyəyə qarşı qoymaq niyyətində idi. Lakin Türkiyə nümayəndə heyəti Cənubi Qafqaz respublikaları ilə danışıqlar aparmaq üçün səlahiyyətli olmadığını bildirib qəti olaraq bu təklifə qarşı çıxdı. Bu arada Moskvada olan Azərbaycan nümayəndəsi B.Şahtaxtinski Azərbaycan SSR xalq xarici işlər komissarı M.D.Hüseynova göndərdiyi 26 fevral 1921-ci il tarixli teleqramında yazırdı: "...Türklər konfransda Azərbaycan və Ermənistan nümayəndələrinin iştirak etməsini istəmirlər. Bildirirlər ki, onlarla Azərbaycan arasında qətiyyən heç bir mübahisəli məsələ yoxdur. Azərbaycanla müqavilə xüsusi olaraq bağlanacaqdır. Ermənistan nümayəndəsinin iştirakına qarşı ona görə çıxırlar ki, onlar Aleksandropol müqaviləsini qüvvədə hesab edirlər və ondan imtina etmək istəmirlər. Rusiya isə (Türkiyənin – V.Q.) bizimlə ayrıca müqavilə bağlamasının əleyhinədir. O, əvvəlcə Azərbaycanın, sonra isə Ermənistanın nümayəndəsini konfransa salmaq istəyir. Mən şəxsən Azərbaycanın konfransda iştirakının əleyhinəyəm. Çünki mən orada heç nə haqqında qətiyyətli danışa bilmərəm. Xırda şeylərdə türklərin əleyhinə getmək bizə sərfəli deyil. Məhz mən onların üzərində təsirə malikəm. Məni Anadoluda çoxlu kombinasiyalar gözləyir və Azərbaycana heç bir aidiyyəti olmayan məsələlər barədə türklərə qarşı konfransda çıxış etsəm, bütün bunların hamısını itirə bilərəm. Rusiya türklərlə danışıqları dostluq və qardaşlıq haqqında aparır, ittifaq haqqında aparmır".[948]

Əslində Moskva konfransında Azərbaycanla bağlı məsələlər müzakirə mövzusu idi və bu məsələlər "Batum" məsələsindən sonra daha çox diskussiyalara səbəb olmuşdu. Azərbaycanla bağlı məsələlər ölkə üçün həyati önəmə sahib məsələlər idi ki, bunlar-

948 ARPİİSSA. f. 609. siy. 1, iş 94. v. 2.

dan biri "Naxçıvan", digəri isə "Azərbaycanın müstəqilliyi" məsələsi idi.

Türkiyə tərəfi istər danışıqlar ərəfəsində, istərsə də onun gedişində Naxçıvan məsələsinə böyük əhəmiyyət verirdi. Bu, bəzi daha önəmli strateji və geosiyasi amillərlə yanaşı, həm də Naxçıvanın Türkiyə-Azərbaycan əlaqələrində ən yaxın məsafə və hələlik yeganə nöqtə olması, bölgənin Moskva-Ankara diplomatik münasibətlərində başlıca vasitəçi rolu oynaması ilə əlaqədar idi.[949] Həmçinin, 4 iyun 1918-ci il tarixli Batum müqaviləsinə görə Naxçıvan Türkiyəyə keçdiyindən türklər bu bölgəyə öz əraziləri kimi baxırdılar.

Türk heyətinin rəhbəri Y.Kamal bəy Rusiyaya yola düşmək ərəfəsində, dekabrın 13-də M.Kamal paşa ilə görüşərkən "Paşam, ruslar Naxçıvan üzərində israr edərlərsə, nə edək?" deyə soruşduqda M.Kamal paşa: "Naxçıvan türk qapısıdır. Bu xüsusu nəzərə alaraq əlinizdən gələni edin" cavabını vermişdi.[950]

Moskva danışıqlarında Naxçıvanla bağlı əsas məsələlər konfransın 10, 12 və 14 mart tarixli iclaslarında gərgin müzakirə olundu. Türk heyəti Naxçıvanın Türkiyənin himayəsində qalmasını istəyirdi. Lakin Rusiya tərəfi bunu qətiyyətlə rədd edirdi. Naxçıvan məsələsi ilə bağlı G.Çiçerinlə aparılan müzakirələrin düyünə düşməsi türk heyətini yenidən İ.Stalinlə görüşməyə sövq etdi. İ.Stalin türk heyəti ilə Naxçıvan məsələsini müzakirə etdi. Azərbaycan nümayəndəsi B.Şahtaxtinski də bu müzakirədə iştirak edirdi. İ.Stalin Naxçıvan məsələsi ilə bağlı B.Şahtaxtinskinin fikrini soruşduqda, o bildirdi ki, "Naxçıvanın Rusiyanın himayəsində müstəqil bir dövlət olaraq qalması" məqbuldur.[951]

1921-ci il martın 10-da keçirilən iclasda Türkiyə nümayəndələri belə bir mövqedən çıxış edirdilər ki, Naxçıvan bölgəsi əhalisi-

---

[949] Musayev İ. Azərbaycanın Naxçıvan və Zəngəzur bölgələrində siyasi vəziyyət və xarici dövlətlərin siyasəti, s. 302.

[950] Mustafa Kamal Paşa. Nahçıvan Türk Kapısıdır. Dinleyip Nakleden: Faruk Sümer // Türk Dünyası Tarih Dergisi, Nisan 1992, Sayı 64, s. 5-6.

[951] Tengirşek Y.K. Vatan Hizmetinde, s. 222; Karabekir K. İstiklal Harbimiz, C. II. s. 1062.

nin türk qoşunlarını dəvət və qəbul etməsi faktı onun Türkiyənin himayəsi altında olduğunu göstərir. Qeyd edək ki, Gümrü müqaviləsində də Naxçıvanın Türkiyənin himayəsi altında olduğu təsbit edilmişdi.[952] Naxçıvanın Türkiyənin himayəsində qalması ilə bağlı təklif qəbul olunmadıqda, türk heyəti təklif etdi ki, Naxçıvan Türkiyə ilə Azərbaycanın müştərək himayəsi altında müstəqil bir dövlət olsun.[953] Lakin Rusiya tərəfi bu təklifi də qəbul etmədi. Belə olan təqdirdə türk heyəti bildirdi ki, Türkiyə bölgə üzərindəki bu himayəni Azərbaycanın üçüncü bir dövlətə güzəştə getməyəcəyinə dair öhdəlik götürdüyü təqdirdə ona verməyə razıdır.[954]

Rusiya nümayəndələri sadəcə Azərbaycanın himayəsi altında Naxçıvanın muxtariyyəti məsələsinin qoyulmasını və sərhədlərin müəyyənləşdirilməsini təklif edirdilər. Onlar bunu belə əsaslandırırdılar ki: 1) Türkiyənin öz himayəçilik hüququnu güzəştə getməsinə dair irəli sürdüyü formul qeyri-məqbuldur, çünki Gümrü müqaviləsi təsdiq olunmamışdır və onun qoşunlarının yerli əhali tərəfindən bölgəyə dəvət olunması lazımi hüquqi məna daşımadığından himayə üçün əsas sayıla bilməz; 2) Azərbaycan bu danışıqlarda rəsmən təmsil olunmadığından müvafiq öhdəlik də götürə bilməz. Bütün bunlara görə də Rusiya tərəfinin "Naxçıvan vilayətinin Azərbaycanla daimi əlaqədə olması və onun himayəsi altında muxtariyyətdən istifadə etməsi" formulu Türkiyənin "Azərbaycanın bu protektoratı hər hansı bir üçüncü dövlətə güzəştə getməməsi" şərti ilə tamamlandı. Naxçıvan mahalının sərhədlərinin müəyyənləşdirilməsi hərbi ekspertlərə tapşırıldı.[955]

Konfransın martın 12-də keçirilən iclasında əsasən Naxçıvan dairəsi və Ermənistan arasında müəyyənləşdirilən sərhədlər ətrafında mübahisələr getdi. Rusiya tərəfi bildirdi ki, ekspertlərin müəyyənləşdirdiyi sərhəd xətti Azərbaycanın maksimum tələblərini də ötüb keçir, çünki o, heç vaxt İrəvan qəzasının hər hansı bir

---

[952] ARDA, f. 28, siy. 1, iş 55, v. 86.
[953] Tengirşek Y.K. Vatan Hizmetinde, s. 222.
[954] ARPİİSSA, f. 609, siy. 1, iş 94, v. 41-46.
[955] Musayev İ. Azərbaycanın Naxçıvan və Zəngəzur bölgələrində siyasi vəziyyət və xarici dövlətlərin siyasəti, s. 302-303.

hissəsinə himayəçiliyə iddia etməmişdir. Rusiya tərəfinin fikrincə, sovet respublikaları arasında sıx əlaqələr olduğundan bu məsələ birinci dərəcəli əhəmiyyət kəsb etməsə də, Şərur-Dərələyəz dairəsinin sərhədini etnik prinsipə müvafiq çəkmək lazım gəlir. Türkiyə tərəfi isə haqlı olaraq məsələnin bu cür qoyuluşuna kəskin etiraz etdi və öz mövqeyini əsaslandırmaq üçün aşağıdakı dəlilləri gətirdi: a) Məhz bu yerlərdə məlum qanlı hadisələr baş vermiş və türk qoşunlarının bölgəyə gəlməsinə ehtiyac yaranmışdır; b) Bütün bu dairə müsəlmanlarla məskunlaşmışdır və s. Bütün bunlara görə həmin ərazi üzərində də himayə hüququ Azərbaycana verilməlidir.[956]

Türkiyə tərəfinin israrlı mövqeyinə baxmayaraq, rus diplomatları siyasi manevr edərək, gələcəkdə Naxçıvan ərazisindən Ermənistana torpaq güzəştə getməyə zəmin hazırlamaq üçün bildirirdilər ki, Naxçıvanla Ermənistan arasında müəyyən edilən sərhəd xətti müvəqqəti sayılmalıdır və gələcəkdə bu iki dövlətin birbaşa danışıqlarında sərhədlərlə bağlı edilə biləcək dəyişikliklər Azərbaycanın öz protektoratlığını güzəştə getməməyə dair öhdəliyinin pozulması kimi qiymətləndirilməməlidir. Lakin Türkiyə nümayəndələri bu məsələnin həm Azərbaycanın ərazi bütövlüyü, həm də Türkiyənin şərq sərhədlərinin təhlükəsizliyi baxımından mühüm əhəmiyyət kəsb etməsini nəzərə alaraq onun qəti həlli və Azərbaycanla Ermənistan arasında bununla bağlı hər hansı bir danışıqların mümkünlüyünün istisnası mövqeyində möhkəm dayandılar. Nəhayət, sonda Türkiyənin təklifi ilə Şərur-Dərələyəz dairəsinin Naxçıvana keçməsi və İrəvan dairəsinin mübahisəli hissələrində sərhədin Kömürlü dağ (6930) və Saray Bulaq (8071) dağlarından, Ararat stansiyasından başlaması barədə razılığa gəlindi və bütün bu məsələlərin Azərbaycan, Ermənistan və Türkiyə nü-

[956] ARPİİSSA, f. 609, siy. 1, iş 94, v. 48-54; Tengirşek Y.K. Vatan Hizmetinde. s. 239-240; Musayev İ. Azərbaycanın Naxçıvan və Zəngəzur bölgələrində siyasi vəziyyət və xarici dövlətlərin siyasəti. s. 303.

mayəndələrindən ibarət qarışıq komissiyanın razılaşdırılmasına verilməsi qərara alındı.[957]

Konfransın 1921-ci il martın 14-də keçirilən iclasında Naxçıvanın statusu tam olaraq müəyyənləşdirildi.[958] Beləliklə, danışıqlarda yaranmış gərginliklərə baxmayaraq, türk diplomatiyası göstərdiyi ciddi səylər sayəsində Moskva konfransında Azərbaycanın ərazi bütövlüyünün qismən də olsa, qorunmasına nail ola bildi. Naxçıvanın heç bir dövlətə güzəştə gedilməməsi şərti ilə Azərbaycanın tərkibində saxlanılması razılaşdırıldı.

Aralarındakı digər məsələləri də həll edən Türkiyə və Rusiya nümayəndələri 1921-ci il martın 18-də Moskva müqaviləsini imzaladılar. Lakin türk nümayəndə heyəti müqaviləyə 18 mart deyil, İstanbulun işğalının ildönümü günü olan 16 mart tarixinin yazılmasını təklif etdi. Ruslar da 16 mart 1921-ci il tarixində ingilislərlə bir ticarət müqaviləsi imzalamışdılar. Bu səbəbdən türk heyətinin təklifi İngiltərə ilə münasibətlərini normallaşdırmaq istəyən Rusiya üçün göydəndüşmə oldu və nəticədə qarşılıqlı razılığa əsasən müqaviləyə 16 mart tarixi qoyuldu.[959]

Müqaviləni Rusiya tərəfindən Georgi Çiçerin və Cəlal Qorxmazov, Türkiyə tərəfindən isə Yusif Kamal, Rıza Nur və Əli Fuad Cəbəsoy imzaladılar.[960] 16 maddə və 3 əlavədən ibarət olan "Dostluq və qardaşlıq" haqqında RSFSR-Türkiyə müqaviləsinin üçüncü maddəsində Naxçıvan məsələsinin həlli aşağıdakı kimi təsbit edildi: "Müqaviləni imzalayan tərəflər bu müqavilənin I (C) əlavəsində göstərilən sərhədlər daxilindəki Naxçıvan bölgəsinin, sahib olacağı himayə haqqını üçüncü bir dövlətə heç bir zaman

---

[957] ARPİİSSA. f. 609, siy. 1, iş 94, v. 53-54; Musayev İ. Azərbaycanın Naxçıvan və Zəngəzur bölgələrində siyasi vəziyyət və xarici dövlətlərin siyasəti, s. 303-304.

[958] ARPİİSSA. f. 609. siy. 1, iş 94. v. 58-59.

[959] Tengirşek Y.K. Vatan Hizmetinde, s. 230.

[960] ARDA, f. 28, siy. 1, iş 66, v. 19-22; iş 67, v. 1-4; ARPİİSSA, f. 609, siy. 1, iş 94, v. 93-95; Документы внешней политики СССР. T. III, c. 597-604; Tengirşek Y.K. Vatan Hizmetinde, s. 293-299; Soysal İ. Türkiye'nin Siyasal Antlaşmaları (1920-1945). C. I, Ankara: Türk Tarih Kurumu Yayınları, 1983, s. 32-38.

güzəştə getməmək şərtilə, Azərbaycanın himayəsində muxtar bir ərazi təşkil etməsi ilə bağlı razılığa gəlirlər.

Naxçıvan ərazisinin Araz telveg cizgisinin şərqi ilə Dağna dağı (3829) – Vəli dağ (4121) – Bağarsıq (6587) – Kömürlü dağı (6930) cizgisi arasında qalan üçbucaq bölgəsində bu ərazinin Kömürlü dağdan (6930) başlayıb Saray Bulaq (8071) – Ararat stansiyasından keçərək Karasunun Araz ilə birləşdiyi yerdə sona çatan sərhəd xətti Türkiyə, Azərbaycan və Ermənistan nümayəndələrindən ibarət bir komissiya tərəfindən müəyyən ediləcəkdir".[961]

Müqavilənin I (C) əlavəsində Naxçıvanın sərhədləri aşağıdakı kimi müəyyənləşdirildi: "Ararat stansiyası – Saray Bulaq dağı (8071) – Kömürlü dağı (6839) – (6930) – (3080) – Sayat dağ (7868) – Kürd-qulaq kəndi – Həməsur dağı (8160) – Yüksəklik (8022) – Kükü dağ (10282) və keçmiş Naxçıvan qəzasının şərq inzibati sərhədi".[962]

Türk diplomatiyası Naxçıvanı Türkiyənin himayəsinə ala bilməsə də, onun üzərindəki himayəçiliyin üçüncü bir dövlətə heç bir zaman güzəştə getməmək şərtilə Azərbaycana verilməsinə nail ola bildi. Bununla da Naxçıvan məsələsi türk diplomatiyasının əvəzedilməz əməyi sayəsində özünün ədalətli həllini tapdı. Azərbaycan SSR hökuməti tərəfindən Naxçıvanın yenidən Ermənistana verilməməsi üçün Türkiyə və Rusiya zəmanətçi rolunu öz üzərinə götürdülər. Naxçıvan məsələsinin bu cür həlli M.Kamal paşa tərə-

---

[961] ARDA, f. 28, siy. 1, iş 58, v. 143, 146; iş 66, v. 19a; iş 67, v. 1a; ARPİİSSA, f. 609, siy. 1, iş 94, v. 93-94; Документы внешней политики СССР. Т. III, с. 597-604; Tengirşek Y.K. Vatan Hizmetinde, s. 293-299; Soysal İ. Türkiye'nin Siyasal Antlaşmaları, s. 32-38; J.H.R. The Russo-Turkish Boundary of 1921 // The Geographical Journal (Mar., 1923), Vol. 61, No. 3, p. 209-211; Cornwall J.H.M. The Russo-Turkish Boundary and the Territory of Nakhchivan // The Geographical Journal (Jun., 1923), Vol. 61, No. 6, p. 447-448.

[962] ARDA, f. 28, siy. 1, iş 66, v. 22; iş 67, v. 4; Soysal İ. Türkiye'nin Siyasal Antlaşmaları, s. 33, 38; TBMM Zabıt Ceridesi, Devre: I, C. IX, Ankara: TBMM Matbaası, 1954, s. 206, 208; TBMM Zabıt Ceridesi, Devre: I, C. XI, Ankara: TBMM Matbaası, 1958, s. 321-325; Tengirşek Y.K. Vatan Hizmetinde, s. 302; Cornwall J.H.M. The Russo-Turkish Boundary and the Territory of Nakhchivan, p. 448.

findən də müsbət qarşılandı. Türk diplomatları Ankaraya dönən zaman Y.Kamal bəy M.Kamal paşaya "Möhtərəm Paşam! Naxçıvan üstündə əldən gələni etdik" dedikdə, o, "Yusif Kamal bəy! Qapımız mövcudiyyətini mühafizə edir, bizim üçün mühüm olan budur" deyə cavab vermişdi.[963]

Moskva müqaviləsinin imzalanmasından az sonra – 1921-ci il aprelin 16-da türk qoşunları Naxçıvanı tərk etdi. Moskva müqaviləsi 1921-ci il iyulun 20-də RSFSR Mərkəzi İcraiyyə Komitəsi, iyulun 21-də isə TBMM tərəfindən təsdiq edildi və ratifikasiya sənədləri sentyabrın 22-də Qarsda mübadilə edildi.[964]

Moskva danışıqlarında Azərbaycanla bağlı digər bir məsələ isə, TBMM hökumətinin Azərbaycanla ayrı bir müqavilə imzalamaq cəhdi idi. Türk tərəfinin bu mövqeyi Türkiyənin "sovetləşdirilmiş Azərbaycanın heç olmasa "müstəqilliyi"ni qorumaq" istəyindən irəli gəlirdi. Lakin Rusiya Türkiyənin Cənubi Qafqaz respublikaları ilə ayrı-ayrılıqda müqavilə imzalamasını istəmirdi, çünki sovetlərin siyasəti "sosialist mərkəzçiliyə" yönəlmişdi. Bununla belə, Rusiya Moskva danışıqlarında, özü istəməsə də, türk diplomatiyasının səyi nəticəsində Azərbaycanın müstəqil bir dövlət olaraq Türkiyə ilə ayrı bir müqavilə imzalaya biləcəyini qəbul etməli oldu. Amma konfransdan sonrakı dövrdə Rusiya belə bir müqavilənin imzalanmaması üçün bütün imkanlarını səfərbər etdi.

Moskva danışıqlarında Azərbaycanın iştirakına qarşı çıxan Türkiyə nümayəndə heyətinin əsas məqsədi Bakı hökuməti ilə ayrı bir müqavilə imzalayıb iki ölkə arasında qarşılıqlı münasibətləri aydınlaşdırmaq və ən əsası bu yolla Azərbaycanı müstəqil bir dövlət olaraq qəbul etdiklərini Rusiyaya göstərmək idi. Türk heyəti hətta Azərbaycanla imzalanacaq müqavilənin layihəsini də hazırlamışdı. Bu layihəyə görə, Şərqi azad etməkdə Türkiyə ilə Azərbaycan birləşməli və qüvvələrini imperializmə qarşı yönəltməli idilər; Türkiyə Antanta ilə müqavilə bağlayardısa, Azərbaycana silahlı dəstələr göndərməli idi; Emissarların maliyyələş-

---

[963] Mustafa Kamal Paşa. Nahçıvan Türk Kapısıdır, s. 6.

[964] Документы внешней политики СССР. Т. III, с. 604; Karabekir K. İstiklal Harbimiz. C. II, s. 1110; Varlık, 29 Eylül 1921. no. 5.

dirilməsini Azərbaycan öz üzərinə götürməli idi; Azərbaycan Şərqdə milli azadlıq hərəkatına dəstək verməli idi, lakin əhali istədiyi təqdirdə sovet quruluşu yaradıla bilərdi; Türkiyənin razılığı olmadan Azərbaycan Antanta ilə sazişə girə bilməzdi; Antanta tərəfindən hücum olardısa, Türkiyə Azərbaycana yardım göstərməli idi; Türkiyə Şərqdə inqilabi hərəkat apardığı müddətdə Azərbaycan onu neft və neft məhsulları ilə təchiz etməli idi.[965]

Rusiya ilə danışıqları uğurla yekunlaşdıran türk nümayəndə heyəti 1921-ci il aprelin 1-də sovet hökumətindən aldığı 4 milyon qızıl rubl yardımla Moskvadan Azərbaycana hərəkət etdi və aprelin 8-də Bakıya çatdı. Aprelin 19-na qədər Bakıda qalan türk heyəti bu müddət ərzində bir neçə dəfə Azərbaycan SSR hökuməti rəhbərləri ilə danışıqlar aparıb Azərbaycanla ayrı bir müqavilə imzalamağa cəhd etdi. Lakin Moskvanın əlində oyuncaq olan Azərbaycan hökuməti Türkiyə ilə ayrı bir müqavilə imzalamaqdan qəti surətdə imtina etdi.[966] Çünki G.Çiçerinin Azərbaycan SSR xalq xarici işlər komissarı M.D.Hüseynova göndərdiyi 9 aprel 1921-ci il tarixli teleqramında türk heyəti ilə Bakıda heç bir danışıqların aparılmaması bildirilir və qeyd edilirdi ki, Türkiyənin qarşısına vahid cəbhə şəklində çıxmaq üçün Azərbaycan və Ermənistan nümayəndələrinin də Tiflisə gəlib Türkiyə ilə ümumi konfransın burada keçirilməsi məqsədəuyğundur.[967] G.Çiçerin eyni zamanda, Azərbaycan, Gürcüstan və Ermənistan sovet respublikaları ilə Türkiyə arasında imzalanacaq müqavilənin layihəsini də Tiflisə göndərmişdi. Türklərin Bakı, İrəvan və Tiflisdə ayrı-ayrılıqda danışıqlar aparmağa cəhd edəcəklərini bildirən G.Çiçerin hər üç respublikanın Tiflisdə birlikdə hərəkət etməsi üçün lazımi hazırlıqların görülməsi təlimatını da verirdi.[968]

Azərbaycanın Türkiyə ilə müstəqil şəkildə hər hansı bir müqavilə imzalamasını heç bir şəkildə qəbul edə bilməyən Rusiya Bakı hökumətinə təzyiqlərini davam etdirirdi. G.Çiçerin M.D.Hü-

---

965 Qasımov M. Xarici dövlətlər və Azərbaycan. s. 140.
966 TBMM Gizli Celse Zabıtları. s. 231.
967 ARPİİSSA, f. 609, siy. 1, iş 15, v. 139.
968 ARPİİSSA. f. 609. siy. 1, iş 15. v. 139.

seynova 1921-ci il aprelin əvvəlində göndərdiyi teleqramında bildirirdi: "Azərbaycan hökuməti digər Qafqaz respublikaları ilə danışmadan türklərlə müqavilə imzalamağa qəti yanaşmasın. Türklərin əsas məqsədi Azərbaycanı öz protektoratlığı altına keçirib onun daxili işlərinə müdaxilə etməkdir. Mərkəzi Komitənin bu qərarını rəhbərliyə çatdırın. Qafqaz respublikaları bizim razılığımız olmadan türklərlə heç bir müqavilə imzalamasınlar".[969]

M.D.Hüseynov G.Çiçerinə göndərdiyi 12 aprel 1921-ci il tarixli cavab teleqramında yazırdı: "Türklər heç vaxt və heç bir formada Azərbaycan üzərində protektorat rolunu oynaya bilməzlər. Hökumətimizin qərarına görə, türklərə bir neçə yüz min pud neft məhsulu verilməsindən başqa onlarla tək tərəfli heç bir müqavilə imzalanmayacaqdır. Əgər indi danışıqlarda Cənubi Qafqaz respublikalarının cəbhəsini yaratmaq lazımdırsa, biz bu danışıqlarda iştirak edəcəyimizi türklərə deyə bilərik. Lakin türk heyətinə yalnız Tiflisdə danışıqlar aparmaq bəhanəsi ilə Bakını tərk etmələrini təklif edə bilmərik. Müzakirələr üçün Gürcüstan və Ermənistan nümayəndələrini Bakıya dəvət etmişik..."[970] M.D.Hüseynovun bu teleqramını alan G.Çiçerin elə həmin gün Bakıya göndərdiyi növbəti teleqramında bir daha qəti olaraq göstəriş verirdi ki, "Cənubi Qafqaz respublikaları Türkiyə ilə ümumi bir müqavilə bağlamalıdırlar".[971]

Sovet Rusiyasının bu təzyiqləri qarşısında "müstəqil" Azərbaycan hökuməti Bakıda türk nümayəndə heyətinə qarşı çox soyuq davrandı. Azərbaycan hökuməti nümayəndələrinin türklərlə təyin olunan görüşlərə belə gəlməmələrini Rıza Nur haqlı olaraq "türk heyətinin təhqir edilməsi" kimi qiymətləndirirdi.[972] Nəhayət bir neçə günlük tərəddüdlərdən sonra türk nümayəndə heyəti Azərbaycan SSR Xalq Komissarları Sovetinin sədri N.Nərimanov tərəfindən qəbul edildi. Xarici işlər komissarı M.D.Hüseynovun da iştirak etdiyi bu görüşdə N.Nərimanovla türk heyəti arasında

[969] ARPİİSSA, f. 609, siy. 1, iş 94, v. 195-197.
[970] ARPİİSSA, f. 609, siy. 1, iş 94, v. 203-206.
[971] ARPİİSSA, f. 609, siy. 1, iş 94, v. 214.
[972] TBMM Gizli Celse Zabıtları, s. 229.

sərt bir dialoq getdi. Bu dialoq mövzumuzla bağlı bir çox məsələlərə aydınlıq gətirdiyi üçün onu aşağıda olduğu kimi veririk:

"...N.Nərimanov: – Sizinlə imzalanacaq nə müqaviləmiz vardır?

Türk heyəti: – Bizim sizinlə imzalanacaq müqaviləmiz vardır, qısası, Naxçıvan məsələsi. Çünki biz Naxçıvanın himayəçilik haqqını Azərbaycana bir şərtlə tərk etdik. O da Azərbaycanın bu himayəçilik haqqını əsla üçüncü bir dövlətə verməməsi idi. Yəni bir gün ola bilər, aralarındakı kommunistlik münasibətləri üstün gələr, Azərbaycan Naxçıvanı Ermənistana və yaxud Rusiyaya verməyə cəhd edərsə, o zaman bizim Azərbaycanın Naxçıvanı himayəsi təəhhüdünə bağlı qalmasını təmin etmək üçündür... Sonra bizim Azərbaycanla təbəələrimizə aid bəzi işlərimiz də vardır.* Bizə deyirlər ki, biz sizinlə müqavilə bağlasaq da, bağlamasaq da, sizə də (neftdən – V.Q.) bir hissə ayıracağıq. Rusiya müqaviləsində digər şeylər də vardır...

N.Nərimanov: – Bizim sizinlə edəcəyimiz şey daha başqa bir şeydir.

Türk heyəti: – Nədir?

N.Nərimanov: – Biz üç respublika arasında bir ittihad qurmaq istəyirik. Bura Azərbaycan, Gürcüstan, Ermənistan və bəlkə Dağıstan da daxil olacaqdır. Bu hökumətlər arasında təşəkkül edəcək ittihad ilə Türkiyə arasında bir ittifaq bağlamaq istəyirik.

Türk heyəti: – Bu ittihad kimə qarşı olacaqdır?

N.Nərimanov: – İmperializmə qarşı olacaq.

Türk heyəti: – Haradan gələcək imperializmə qarşı?

N.Nərimanov: – Hər tərəfdən gələcək (imperializmə qarşı – V.Q.). Hətta Rusiyada sovet hökuməti devrilərsə, onun yerinə

* Türk heyətinin mövqeyinə görə, Azərbaycan hökumətindən bir sıra məsələlərin həlli də tələb edilməli idi. Bunlara Azərbaycandakı türkiyəli tacirlərin müsadirə olunan mallarının geri qaytarılması, bolşeviklərlə birləşən Mustafa Sübhi və onun yoldaşları tərəfindən "nasionalist" adı ilə edam olunan bir çox türk əsirləri ilə bağlı "hesab sormaq" və təzminat alınması, 1918-ci ildə Osmanlı hökuməti tərəfindən sabiq Azərbaycan hökumətinə verilən borcun geri qaytarılması və s. məsələlər daxil idi (TBMM Gizli Celse Zabıtları. s. 231).

mütləq imperialist hökumət gələcək, o imperialist hökumətə qarşı da ittifaq bağlayarıq.

Türk heyəti: – Bu ittifaq məsələsi yeni bir müzakirə mövzusu olduğundan biz bu haqda tam məlumata malik deyilik. İttifaq ilə danışıqlar aparıb müqavilə imzalamaq üçün hökumətimiz tərəfindən bizə heç bir səlahiyyət verilməmişdir".[973]

Bu danışıqlarda N.Nərimanovun daima eyni məsələni – Türkiyənin Gümrü müqaviləsindən imtina etməsini qabartmasına cavab olaraq türk heyətinin üzvü Rıza Nur üzünü "Şərqin Lenini"nə tutaraq belə bir sual verdi: "Sizin üçün hansı məsələ daha önəmlidir: Azərbaycan məsələsi, yoxsa erməni məsələsi?"

N.Nərimanov cavab verdi: Bəli, ilk öncə erməni məsələsini həll edərik.

Rıza Nurun "Yəni onları (erməniləri – V.Q.) himayəmi edəcəksiniz?" sualına N.Nərimanov təhdidkaranə tərzdə aşağıdakı cavabı verdi: "Lazım olsa ermənilərlə birləşib sizə qarşı müharibə də edərik".[974]

Türk heyəti Moskvada olarkən, 1921-ci il fevralın 21-də V.İ.Leninə göndərdiyi məktubunda "Türkiyə nümayəndə heyəti ilə danışıqlarda erməni məsələsi rol oynamamalıdır" deyən N.Nərimanov indi Mərkəzin təzyiqləri qarşısında əlacsız vəziyyətə düşüb türk heyətinə de-marş nümayiş etdirirdi.

N.Nərimanovun bu təhdidi qarşısında Türkiyə nümayəndə heyətinin üzvü Rıza Nur Azərbaycan hökumətinə bir etiraz notası verməyi təklif etsə də, bunun Rusiya ilə imzalanmış Moskva müqaviləsinə hər hansı bir xələl gətirə biləcəyindən çəkinən heyət rəhbəri Y.Kamal bəy buna lüzum görmədi və şifahi etirazla kifayətlənməyi məqbul saydı.[975] Türkiyənin etirazını şifahi şəkildə Azərbaycan hökumətinə çatdırmaq üçün məmur edilmiş Məmduh Şövkət bəy M.D.Hüseynovla görüşdü. Lakin Azərbaycanın xarici

---

[973] TBMM Gizli Celse Zabıtları. s. 227.

[974] Yenə orada, s. 229; Karabekir K. İstiklal Harbimiz, C. II, s. 1067, 1073.

[975] TBMM Gizli Celse Zabıtları. s. 227, 229.

işlər komissarı da N.Nərimanovun yuxarıdakı mövqeyini bir daha təkrar etdi.[976]

Rıza Nur TBMM-in 13 sentyabr 1921-ci il tarixində qapalı keçirilən iclasında sovetlərin Cənubi Qafqaz respublikaları ilə Türkiyə arasında vahid konfrans keçirmək istəyinə toxunaraq deyirdi: "İndi bu adamlar nə üçün konfrans istəyirlər? Konfrans istədiklərinin birinci səbəbi bizə Gümrü müqaviləsini ləğv etdirmək və ermənilәri himayə etməkdir. İş birliyi ilə bunu da bizə etdirəcəklər. Gümrü müqaviləsini bilirsiniz, bununla biz ermənilərin ərazisini təhdid etmişik və eyni zamanda onlara nəzarət qoymuşuq. Bu kimi şeyləri ruslar qətiyyən qəbul edə bilmirlər. Bunu ləğv edəcəklər. İkincisi, bir Qafqaz konfederasiyası təşkil etməkdir. Halbuki, bizim üçün Qafqaz konfederasiyası müzakirə mövzusu deyildir..."[977]

Azərbaycanın "müstəqil" sovet hökumətinin Türkiyə ilə ayrı müqavilə imzalamaq istəməməsi və "Cənubi Qafqaz respublikaları ilə Türkiyə arasında vahid müqavilə" mövqeyindən çıxış etməsi səbəbindən türk heyətinin Bakıda apardığı danışıqlar uğursuzluqla nəticələndi. Türk heyətinin Bakıdan yola düşdüyü gün – 19 aprel 1921-ci il tarixində heyətlə Azərbaycanın xarici işlər komissarı M.D.Hüseynov və ədliyyə komissarı B.Şahtaxtinski arasında keçirilən son görüşdə yalnız bir məsələdə – qarşıda Cənubi Qafqaz respublikaları ilə Türkiyə arasında Qarsda konfrans keçirilməsi barəsində razılıq əldə olundu.[978] Onu da qeyd edək ki, Y.Kamal bəyin Türkiyə ilə Cənubi Qafqaz respublikaları arasında ayrı-ayrılıqda müqavilə imzalamağın zəruriliyini əsaslandırmaq üçün gətirdiyi tutarlı arqumentlərin qabağında M.D.Hüseynov aşağıdakı cılız və bəsit arqumentini qoyurdu: "Biz onsuz da qardaşıq, onu kağıza köçürmək artıq şeydir".

Sonralar – 1922-ci il yanvarın 26-da Ankara hökumətinin xarici işlər naziri Y.Kamal bəy Azərbaycanın Türkiyədəki diplomatik nümayəndəsi İbrahim Əbilovla söhbətində qeyd etmişdi ki,

---

[976] TBMM Gizli Celse Zabıtları, s. 227.
[977] Yenə orada, s. 230.
[978] Yenə orada. s. 227.

"RSFSR-lə müqavilə bağlamaq üçün Moskvaya gedərkən biz Azərbaycanla, sonra isə Gürcüstanla və nəhayət, Ermənistanla müqavilələr imzalamaq niyyətində idik. Təəssüf ki, Azərbaycanda bu məsələyə bizim gözlədiyimiz kimi yanaşmadılar. Bundan məyus olan həmkarım Rıza Nur bəy dedi ki, Azərbaycan bizə burun göstərdi".[979]

M.D.Hüseynov türk heyətinin Bakıdan yola düşdüyü gün bu heyətlə aparılan danışıqlar barəsində dərhal G.Çiçerinə teleqramla məlumat verdi: "...Şahtaxtinski ilə birlikdə türklərlə apardığımız danışıqlarda Cənubi Qafqaz respublikaları ilə Türkiyə arasında vahid bir konfrans keçirilməsi üçün israr etdik. Türk tərəfi bizim mövqeyimizdən məmnun qalmasa da, konfrans keçirilməsinə razılıq verdi. Bir şərtlə razılıq verdi ki, imzalanacaq müqavilə hər dövlət ilə ayrı-ayrılıqda bağlanacaqdır. Biz bu şərti qəbul etdiyimizi bildirdik. Bundan başqa, türklər konfransın Qarsda keçirilməsini istəyirlər. Digər iki respublikanın (Ermənistan və Gürcüstanın) da razılığı alınarsa, Azərbaycan konfransın Qarsda keçirilməsinə etiraz etmir".[980]

Konfransın keçiriləcəyi yer kimi Azərbaycan tərəfi Bakını, Bakı qəbul edilmədiyi təqdirdə Tiflisi təklif edirdi. Türkiyə tərəfi isə Qarsı təklif edirdi.[981] Qarsla bağlı Azərbaycanla Türkiyə arasında müəyyən razılıq əldə olunsa da[982], Y.Kamal bəy TBMM hökuməti tərəfindən xarici işlər naziri vəzifəsinə təyin olunduğundan o, M.D.Hüseynova göndərdiyi 3 iyul 1921-ci il tarixli teleqramında konfransın keçiriləcəyi yer kimi Ankaranı təklif etdi və bunu işinin çox olması ilə əlaqədar Qarsa gələ bilməməsi ilə əlaqələndirdi.[983] Lakin sovet tərəfi bu təklifi qəbul etmədi.[984] Onu da qeyd etmək lazımdır ki, konfransın keçiriləcəyi yer ilə bağlı müzakirə-

---

[979] Musayev İ. Azərbaycanın Naxçıvan və Zəngəzur bölgələrində siyasi vəziyyət və xarici dövlətlərin siyasəti. s. 306.
[980] ARPİİSSA, f. 609, siy. 1, iş 94, v. 199.
[981] ARPİİSSA, f. 609, siy. 1, iş 94, v. 199; ARDA, f. 28, siy. 2, iş 27, v. 163.
[982] TBMM Gizli Celse Zabıtları, s. 227, 229.
[983] ARDA, f. 28, siy. 1, iş 49, v. 8; iş 66, v. 28.
[984] Документы внешней политики СССР. Т. IV. с. 227-228.

lərdə Azərbaycan tərəfinin qismən də olsa, müstəqil hərəkət etməsi Moskva hökumətinin Cənubi Qafqazdakı nümayəndəsi B.Leqranın ciddi narahatçılığına səbəb oldu. O, 1921-ci il iyunun 22-də M.D.Hüseynova və N.Nərimanova göndərdiyi teleqramında yazırdı. "Siz təcrid olunmuş halda hərəkət etməməlisiniz. Respublikalarla razılaşmalısınız. Mən sizdən qətiyyətlə xahiş edirəm ki, gələcəkdə RSFSR-in səlahiyyətli nümayəndəsinin xəbəri olmadan belə hərəkətlər etməyin".[985]

Nəhayət, konfransın keçiriləcəyi yer ilə bağlı Ankara-Bakı-Moskva-Tiflis-İrəvan arasında gedən diplomatik yazışmalar və müzakirələrin[986] yekununda Türkiyə ilə Cənubi Qafqaz respublikaları arasında konfransın Qarsda keçirilməsi qərarlaşdırıldı. Konfransın açılışı 1921-ci il sentyabrın 26-na təyin edildi.

Konfrans ərəfəsində – 1921-ci il sentyabrın 22-də türk və rus nümayəndə heyətləri 16 mart 1921-ci il tarixli Moskva müqaviləsinin ratifikasiya sənədlərini Qarsda mübadilə etdilər.[987]

Qars konfransı 1921-ci il sentyabrın 26-da saat 19:00-da açıldı. Konfransda Azərbaycanı fəhlə-kəndli nəzarəti komissarı Behbud Şahtaxtinski, Gürcüstanı hərbi və dəniz işləri komissarı Şalva Eliava və xarici işlər və maliyyə komissarı Aleksandr Svanidze, Ermənistanı xarici işlər komissarı Askanaz Mravyan və daxili işlər komissarı Poqos Makinisyan, Rusiyanı isə vasitəçi kimi Latviyadakı səlahiyyətli nümayəndə Yakov Qanetski təmsil edirdi.[988] K.Qarabəkir paşanın yazdığına görə, konfransa gələn bolşevik heyəti məmur və xidmətçilərlə birlikdə 150 nəfərdən ibarət idi.[989] Türkiyəni isə TBMM-in üzvü, Şərq cəbhəsinin komandanı Kazım Qarabəkir paşa (heyət sədri), TBMM-də Burdur millət vəkili Vəli bəy, Ankaranın Azərbaycan SSR-dəki diplomatik nümayəndəsi

---

[985] ARPİİSSA, f. 609, siy. 1, iş 96, v. 47.

[986] ARDA, f. 28, siy. 1, iş 49, v. 7-8; iş 66, v. 29; iş 133, v. 13, 19-22, 30, 32; siy. 2, iş 27, v. 163; ARPİİSSA, f. 609, siy. 1, iş 94, v. 199; iş 96, v. 47; Документы внешней политики СССР. Т. IV, с. 227-228, 255-256, 287-288, 292.

[987] Документы внешней политики СССР. Т. III, с. 604; Karabekir K. İstiklal Harbimiz. C. II, s. 1110; Varlık, 29 Eylül 1921, no. 5.

[988] ARDA, f. 28, siy. 1, iş 81, v. 136-141; ARPİİSSA, f. 1, siy. 10, iş 16, v. 84.

[989] Karabekir K. İstiklal Harbimiz. C. II, s. 1112.

Məmduh Şövkət bəy və Şərqi Anadolu Dəmir Yolları İnşaat baş mühəndisi Muxtar bəy təmsil edirdi.[990]

Qars konfransının açılmasından doqquz gün əvvəl – 17 sentyabr 1921-ci il tarixində TBMM hökumətinin xarici işlər naziri Y.Kamal bəy türk heyətinin konfransda necə hərəkət edəcəyi ilə bağlı K.Qarabəkir paşaya təlimat göndərdi. Təlimatda hər üç Cənubi Qafqaz respublikası ilə bağlı ayrı-ayrılıqda göstərişlər yer almışdı. Burada Azərbaycanla imzalanacaq müqavilə ilə bağlı aşağıdakı xüsuslar var idi: Azərbaycanla imzalanacaq müqavilənin mətni açıq türkcə yazılmalı* və müqəddimədə hər iki millətin həqiqətən də qardaş olması ilə bağlı ifadələr yer almalı idi; Azərbaycan və Türkiyə hökumətləri onlardan hər hansı birinə zorla qəbul etdirilən müqavilə və ya beynəlxalq aktları tanımamağı bir prinsip olaraq qəbul etməli idilər; Azərbaycan tərəfi Moskva müqaviləsi ilə ona verilən Naxçıvanın himayə haqqını heç vaxt heç bir dövlətə verməməyi təəhhüd etməli idi; Müqaviləyə Türkiyənin Azərbaycandakı və Azərbaycanın Türkiyədəki mühacirləri ilə bağlı ayrıca bir maddə salınmalı idi; Türkiyə hökuməti öz ərazisində olan azərbaycanlı mühacirləri onların istəklərinə uyğun olaraq türk təbəəliyinə götürməkdə sərbəst olmalı idi; Bakı neftindən Türkiyəyə də bir hissə (pay) verilməsi müqavilədə öz əksini tapmalı idi; Azərbaycanda təhsil sərbəst olmalı idi (Burada məqsəd ruslaşdırma siyasətinə qarşı milli məktəblərin qorunması idi); Gürcüstanla imzalanacaq müqavilənin Batum ilə bağlı maddəsinə Azərbaycanla imzalanacaq müqavilədə yer verilməməli, həmçinin Naxçıvanla bağlı maddə də Gürcüstanla imzalanacaq müqavilədə yer almamalı idi və s.[991]

---

[990] ARDA. f. 28. siy. 1. iş 81, v. 136-141; Karabekir K. İstiklal Harbimiz. C. II, s. 1111.

* Azərbaycandan fərqli olaraq, digər Cənubi Qafqaz respublikaları ilə imzalanan müqavilələrin gələcəkdə hər hansı bir anlaşılmazlıqların çıxmaması üçün bu dövrdə beynəlxalq aləmdə diplomatiya dili olan fransız dilində yazılması məqsədəuyğun hesab edilirdi (Karabekir K. İstiklal Harbimiz. C. II, s. 1115).

[991] Karabekir K. İstiklal Harbimiz. C. II, s. 1112-1116.

Qars konfransında Cənubi Qafqaz respublikalarının təmsilçiləri rus nümayəndələri ilə birlikdə vahid bir dövlətin nümayəndə heyəti kimi çıxış edirdilər. Konfransın elə ilk günündən başlayaraq danışıqlarda gərginlik müşahidə edilirdi. Əsas mübahisə doğuran məsələ müqavilənin vahid, yoxsa hər bir respublika ilə ayrı-ayrılıqda bağlanması ilə bağlı idi. Türk heyəti hər bir respublika ilə ayrı-ayrılıqda müqavilələr imzalanmasına dair öz əvvəlki mövqeyini bir daha təkrarlayıb israr etsə də, Rusiya və Cənubi Qafqazın "müstəqil" respublikaları buna razı olmadılar. Vahid müqavilə bağlamağı təklif edən Rusiya nümayəndəsi Y.Qanetski öz mövqeyini aşağıdakı dəlillərlə əsaslandırdı: Moskva müqaviləsi imzalandıqdan sonra Cənubi Qafqazda vəziyyət dəyişmişdir; üç qardaş xalq birləşməyə doğru gedir; onlar bu müddət ərzində sıx siyasi əlaqələr yaratmışlar; üç xalq Türkiyə ilə müqavilə bağlamağa getməyi sevinclə qarşılamışdır; üç respublika birlikdə vahid müqavilə imzalanmasına Türkiyə ilə sıx ittifaq kimi baxır; vahid müqavilənin imzalanması Cənubi Qafqaz və türk xalqlarının ümumi düşmənlərinə qarşı mübarizədə yeni imkanlar açır.[992] Y.Qanetskinin gətirdiyi dəlillər əslində Rusiyanın Cənubi Qafqaz respublikalarının xarici siyasətini ləğv etmək, özünə birləşdirmək, gələcəkdə isə vahid dövlət yaratmaq niyyətlərinə xidmət edirdi.

K.Qarabəkir paşa Y.Qanetskinin gətirdiyi dəlillərə qarşı tutarlı arqumentlərlə çıxış etdi və müqavilənin hər bir respublika ilə ayrı-ayrılıqda imzalanması ilə bağlı Türkiyənin mövqeyini yenidən təkrarladı.[993] Bu məsələ ilə bağlı türk və sovet heyətləri arasında mübahisələr kəskin şəkil aldı.

Konfransın sentyabrın 30-da keçirilən dördüncü iclasında K.Qarabəkir paşa təklif etdi ki, müqavilə iki hissədən ibarət olsun. Birinci hissədə hər üç Cənubi Qafqaz respublikası ilə bağlı məsələlər, ikinci hissədə isə hər bir respublika ilə ayrı-ayrılıqda ticarət və sərhəd məsələləri öz əksini tapsın. Lakin bu təklif də qəbul

---

[992] ARDA. f. 28. siy. 1, iş 81, v. 3.

[993] ARDA, f. 28, siy. 1, iş 81, v. 5; Karabekir K. İstiklal Harbimiz. C. II, s. 1125-1126.

edilmədi.[994] Mübahisələrə Azərbaycan nümayəndəsinin çıxışı son qoydu. B.Şahtaxtinski öz çıxışında Cənubi Qafqaz respublikalarının artıq iqtisadi, siyasi və hərbi cəhətdən birləşdiyini, vahid müqavilənin həm Cənubi Qafqaz respublikaları, həm də Türkiyə üçün faydalı olduğunu, inqilabi zərurətin bunu tələb etdiyini dilə gətirərək bildirdi ki, "mən Azərbaycan Respublikası adından müqavilənin vahid olmasını və bu müqavilədə hər bir respublikaya aid xüsüsi fəsillərin olmamasını təklif edirəm".[995] Yalnız bundan sonra türk nümayəndə heyəti öz mövqeyindən geri çəkildi və vahid müqavilənin imzalanmasına razılıq verdi.[996]

Qars konfransının gedişində Türkiyə və sovet tərəfləri bir-birlərinə qarşı müəyyən istəklər də irəli sürdülər. Sovet istəklərinin (Gürcüstanın Elviye-i Səlasədə arxeoloji tədqiqatlar aparmasına icazə verilməsi, Kulp duz mədənlərinin və Ani xarabalıqlarının, habelə Gümrüdən aparılan dəmir yol ləvazimatlarının Ermənistana verilməsi, İrəvanda aclıq çəkən əhaliyə yardım edilməsi və s.) əksəriyyəti Türkiyənin daxili işlərinə müdaxilə kimi qiymətləndirilərək rədd edildi, bəzi istəklər (ermənilərə dəmir yol ləvazimatları və ərzaq göndərilməsi) isə qəbul edildi.[997]

Türk istəkləri isə sovetlər tərəfindən türk vətəndaşlarından müsadirə edilən malların geri qaytarılması, daşınar əmlakın milliləşdirilməməsi, Bakı neftindən Türkiyəyə pay verilməsi və Türkiyənin Batum limanından sərbəst istifadə etməsini təmin etməkdən ibarət idi. Türkiyənin Batum limanından sərbəst istifadə etməsi ilə bağlı müqavilədə bir sıra imtiyazlar öz əksini tapsa da, Bakı neftindən pay verilməsi məsələsi müqaviləyə salınmadı. Azərbaycan nümayəndəsi B.Şahtaxtinski Bakı nefti məsələsi ilə bağlı bəyan etdi ki, Türkiyəyə xüsusi olaraq yardım göstəriləcəkdir, amma Azərbaycan bununla bağlı rəsmi bir təəhhüd altına girə bilməyəcəkdir.[998]

[994] ARDA, f. 28, siy. 1, iş 81, v. 21.
[995] ARDA, f. 28, siy. 1, iş 81, v. 30.
[996] ARDA, f. 28, siy. 1, iş 81, v. 30.
[997] Karabekir K, İstiklal Harbimiz, C. II, s. 1119-1120, 1121-1122.
[998] Yenə orada. s. 1120.

Konfransda Naxçıvan məsələsi ilə bağlı xüsusi müzakirələr getdi. Türkiyə heyəti Qars konfransına Moskva müqaviləsi əsasında hazırlanmış müqavilə layihəsini təqdim etdi. Cənubi Qafqaz respublikalarının Türkiyə nümayəndə heyətinə verdikləri memorandumda isə bir sıra məsələlərlə yanaşı, "sərhədlərinin Ermənistanın xeyrinə bəzi düzəlişləri ilə Azərbaycan SSR nəzdində muxtar Naxçıvan sovet respublikasının yaradılması"nın müzakirəsi təklif olunurdu. Azərbaycan və Ermənistan nümayəndələri hələ bu konfransadək – Tiflisdə Naxçıvan məsələsini müzakirə edərək razılığa gəlmiş, Qarsdakı məclisdə Türkiyəni fakt qarşısında qoyaraq artıq problemin həllinin onun tərəfindən hüquqi cəhətdən tanınmasına çalışmaq niyyətində olmuşdular. Konfransdakı bir məruzədən də aydın olur ki, tərəflər bununla Türkiyə nümayəndələrinin də daxil ediləcəyi qarışıq komissiyanın bölgəyə göndərilməsi imkanını aradan qaldırmaq, ümumiyyətlə isə Naxçıvan məsələsini rəsmi Ankaranın iştirakı olmadan yoluna qoyula biləcək daxili işə çevirmək istəmişdilər.[999]

Nəhayət, uzun sürən mübahisə və müzakirələrdən sonra 1921-ci il oktyabrın 13-də Rusiyanın iştirakı ilə, Türkiyə ilə Azərbaycan, Gürcüstan və Ermənistan arasında Qars müqaviləsi imzalandı. 20 maddə və 3 əlavədən ibarət olan Qars müqaviləsi bəzi kiçik dəyişikliklər nəzərə alınmazsa, 16 mart 1921-ci il tarixli Moskva müqaviləsinin eynidir.[1000]

Qars müqaviləsinin beşinci maddəsi Naxçıvanın ərazi mənsubiyyəti məsələsini qəti olaraq həll etdi. Burada deyilirdi: "Türkiyə hökuməti ilə Ermənistan və Azərbaycan sovet hökumətləri Naxçıvan vilayətinin bu müqavilənin 3 nömrəli əlavəsində müəyyən edilmiş sərhədlər daxilində Azərbaycanın himayəsi altında muxtar

---

[999] Musayev İ. Azərbaycanın Naxçıvan və Zəngəzur bölgələrində siyasi vəziyyət və xarici dövlətlərin siyasəti. s. 307.

[1000] ARDA, f. 28, siy. 1, iş 5, v. 136-141; iş 69, v. 9-19; iş 123, v. 122-125; ARPİİSSA, f. 609, siy. 1, iş 94, v. 110-115; Varlık, 14 Ekim 1921, no. 7; İstikbal, 23 Ekim 1921. no. 436; Документы внешней политики СССР. Т. IV, с. 420-429; Karabekir K, İstiklal Harbimiz, C. II, s. 1128-1132; Soysal İ, Türkiye'nin Siyasal Antlaşmaları, s. 41-47.

bir ərazi olduğu məsələsində müttəfiqdirlər".[1001] Müqavilə maddəsindən də göründüyü kimi, burada Moskva müqaviləsinin üçüncü maddəsinin müəyyən bir hissəsi, yəni, "Azərbaycanın bu himayəçilik haqqını üçüncü bir dövlətə heç bir zaman güzəştə gedə bilməməsi" öz əksini tapmamışdı.

"Naxçıvanın ərazisi" adlı 3 nömrəli əlavədə bölgənin sərhədləri aşağıdakı kimi müəyyənləşdirildi: "Urmiya kəndi, oradan düz xətlə Arazdəyən stansiyasına (bu stansiyanı Ermənistan SSR-də saxlamaqla), sonra düz xətlə qərbi Daş-Burun dağına (3142) və daha sonra suayırıcı xətlə şərqi Daş-Burun dağı (4108) və Cəhənnəmdərəsi çayından keçməklə "Bulaq"dan cənuba, Bağarsıq dağı (6607), (6587) suayırıcıları xətti ilə və buradan keçmiş İrəvan, Şərur-Dərələyəz qəzalarının inzibati sərhədi ilə 6625 yüksəkliyindən keçərək Kömürlü dağına (6839), (6930) və daha sonra 3080 – Sayatdağ (7868) yüksəklikləri ilə Kürd-qulaq kəndi, Həməsur dağı (8160), 8022 yüksəkliyi, Kükü dağ (10282) və keçmiş Naxçıvan qəzasının şərq inzibati sərhədi".

Qars müqaviləsinin təsdiqi Rusiyanın siyasi ambisiyaları üzündən xeyli ləngidi. Çünki müqaviləni bir tərəfdən Türkiyənin, digər tərəfdən isə Azərbaycan SSR, Ermənistan SSR və Gürcüstan SSR-in imzalamalarına baxmayaraq, Cənubi Qafqaz respublikaları Rusiyanın diqtəsi ilə onun vahid müqavilə kimi Cənubi Qafqaz dövlətlərinin ittifaqı (əslində hələki mövcud olmayan siyasi qurum) tərəfindən təsdiqlənməsində israr etdilər. Lakin Türkiyənin qəti olaraq buna qarşı çıxması və öz mövqeyində təkidlə dayanması sovet tərəfinin israrının iflasa uğraması ilə nəticələndi. TBMM 1922-ci il martın 17-də Qars müqaviləsini təsdiq etdi. Sovet tərəfinə gəldikdə isə, müqavilə 1922-ci il martın 3-də Azərbaycan, martın 20-də Ermənistan, iyunun 14-də Gürcüstan Mərkəzi İcraiyyə Komitələrində təsdiq edildi. 1922-ci il sentyabrın 11-

[1001] ARDA, f. 28, siy. 1. iş 5, v. 136-141; iş 69, v. 9-19; iş 123, v. 122-125; ARPİİSSA, f, 609, siy. 1, iş 94, v. 110-115; Документы внешней политики СССР. Т. IV. с. 423; Karabekir K. İstiklal Harbimiz. C. II, s. 1130.

də İrəvanda təsdiqnamə fərmanlarının mübadiləsi aparıldı və elə həmin gündən də Qars müqaviləsi qüvvəyə mindi.[1002]

Qars müqaviləsi ilə Ermənistan da Naxçıvanın Azərbaycan ərazisi olduğunu rəsmən təsdiq etdi. Müqavilənin ən əhəmiyyətli tərəflərindən biri də onun müddətsiz imzalanması idi.

Naxçıvan ölkə partiya təşkilatlarının 1923-cü il fevralın 23-də keçirilən III qurultayı Naxçıvanın Azərbaycan SSR-in tərkibinə daxil olmasını bölgənin iqtisadi, siyasi və mədəni inkişafı üçün mühüm zəruriyyət kimi qiymətləndirdi və belə bir qətnamə qəbul etdi: "Naxçıvan Sovet Sosialist Respublikası Azərbaycan SSR-in ayrılmaz hissəsi kimi tanınsın". 1923-cü il fevralın 27-də açılan III ümum-Naxçıvan Sovetlər qurultayı Naxçıvan SSR-in muxtariyyət hüquqlarında Azərbaycanın tərkibinə qatılması məsələsini geniş müzakirə etdi və ayrıca bəyanatla bölgənin ayrılmaz hissə kimi Azərbaycana daxil olmasını vacib saydı. 1924-cü il yanvarın 8-də Cənubi Qafqaz Mərkəzi İcraiyyə Komitəsi Azərbaycan MİK-in müvafiq qərarını müzakirə edərək Naxçıvan ölkəsini "Azərbaycan SSR tərkibində muxtar Naxçıvan SSR elan etməyi" qərara aldı. 1924-cü il fevralın 9-da Azərbaycan SSR MİK Naxçıvan muxtar ölkəsinin Naxçıvan Muxtar Sovet Sosialist Respublikasına çevrilməsi haqqında dekret verdi.[1003] Beləliklə, Azərbaycan SSR-in tərkibində özünün ali qanunvericilik və icra orqanları olan Naxçıvan MSSR yaradıldı. Onu da qeyd edək ki, Naxçıvanın muxtariyyəti siyasi deyil, inzibati muxtariyyət idi. Naxçıvan məsələsinin bu cür ədalətli, yəni Azərbaycanın tərkibində saxlanılmaqla həlli Türkiyə diplomatiyasının Moskva və Qars konfranslarındakı prinsipiallığı nəticəsində əldə etdiyi uğuru kimi qiymətləndirilməlidir.

[1002] Musayev İ. Azərbaycanın Naxçıvan və Zəngəzur bölgələrində siyasi vəziyyət və xarici dövlətlərin siyasəti, s. 311.

[1003] Yenə orada, s. 313-314.

## § 5. Azərbaycanın formal müstəqilliyinin ləğv edilməsi prosesi və Türkiyə

1920-ci il aprelin 27-də Bakını işğal edib Azərbaycan milli hökumətini devirən işğalçı XI rus Qızıl Ordusu ona verilmiş 23 aprel 1920-ci il tarixli direktivə əsasən hərəkət edərək ölkə ərazisini işğal etməyə başladı. Artıq mayın ortaları üçün XI Ordu Naxçıvan istisna olmaqla, demək olar ki, bütün Azərbaycan ərazisini işğal edib öz nəzarəti altına keçirdi. Qarşısına qoyulan vəzifəni müvəffəqiyyətlə yerinə yetirmiş XI Ordunun əsgər və zabitlərinə Rusiya hökuməti yüksək mükafatlar verdi. "Üçüncü İnternasional" zirehli qatar dəstəsinin komandanı M.Yefremovu hətta Azərbaycan SSR Mərkəzi İcraiyyə Komitəsi 1920-ci ildə iki dəfə Azərbaycanın "Qırmızı Bayraq" ordeninə layiq gördü. N.Nərimanov Azərbaycan SSR adından ona qiymətli daş-qaşla bəzədilmiş, dəstəyinə xatirə yazı həkk edilmiş qılınc bağışladı.[1004]

1920-ci il iyulun 28-də XI Qızıl Ordu hissələri Naxçıvana girdi. Türkiyənin Şərq cəbhəsinin komandanı K.Qarabəkir paşa hələ iyun ayının 23-də XI Ordu komandanlığına göndərdiyi məktubunda "ermənilərin törətdiyi qətliamların qarşısını almaq və Türkiyə ilə əlaqə yaratmaq üçün" Naxçıvana ordu hissələri göndərməyi xahiş etmişdi.[1005] Türklərin bolşeviklərlə əməkdaşlığı, həmçinin Azərbaycanın rus işğalına məruz qalmış digər bölgələrindən gələn sarsıdıcı xəbərlər Naxçıvandakı siyasi ab-havanı dəyişdi. Azərbaycan milli hökumətinin türk-rus iş birliyi zəminində devrilməsi və XI Qızıl Ordunun Azərbaycan xalqına qarşı törətdiyi ağlasığmaz cinayətlər haqqında yayılan xəbərlər Naxçıvan əhalisini türklərə qarşı çevirdi. Naxçıvan əhalisi türk-rus müttəfiqliyinə qarşı sərt mövqe nümayiş etdirirdi. "Türkiyə özünü xilas etmək üçün

---

[1004] Əhmədova F. Nəriman Nərimanov – İdeal və gerçəklik. Bakı: Elm və Həyat, 1998, s. 31; Qaffarov T. Azərbaycan tarixi (1920-1991). Bakı: Mütərcim, 1999, s. 12.
[1005] Karabekir K. Istiklal Harbimiz. C. II. s. 901.

bizi qurban verir, əgər bolşeviklərin xeyrinə hücumdan vaz keçməsəydilər, bu gün iki düşmən arasında qalmayacaqdıq" – deyə bəyan edən əhali nümayəndələri bölgədəki türk hərbi missiyasını üçüncü dərəcədə düşmən saymağa başlamışdılar. Ermənilərin qəsbkarlıq planlarına qarşı mübarizə aparmaqda olan əhali nümayəndələri bolşevik təhlükəsinə qarşı hətta ermənilərlə dil tapıb, birlikdə müqavimət göstərmək istəyirdilər. Lakin ermənilərin nə fikirdə olduqlarını bilən yox idi. İrəvana göndərilən heyəti ermənilər həbs etmiş və bir cavab da verməmişdilər.[1006]

Yaranmış vəziyyətdən narahat olan Naxçıvandakı türk hərbi missiyasının rəhbəri Veysəl bəy 11 iyul 1920-ci il tarixində bölgədəki vəziyyət haqqında tabe olduğu türk hərbi məqamlarına məlumat verdi.[1007] Naxçıvanda cərəyan edən hadisələri ardıcıl izləyən K.Qarabəkir paşa bu hadisələrin türk-sovet münasibətlərinə zərər verəcəyindən narahat idi. Buna görə də o, Veysəl bəyə dərhal aşağıdakı təlimatı göndərdi:

"1. Azərbaycan hərbi qüvvələrinin hansı şəkildə olursa olsun, Naxçıvanda qalmaları məqsədəuyğun deyildir. Çünki (...oxunmadı) bolşeviklər əleyhinə müqavimətə qalxacaq. Bu da bizim tərtibimizlə olduğu qənaəti verəcəyindən, həm bizim, həm də naxçıvanlıların labüd fəlakəti olar. Buna görə də bu hərbi qüvvəni tezliklə Bəyazidə cəlb etmək və buradan yola salmaq lazımdır.

2. Əgər bu hərbi qüvvə orada qalıb bolşeviklərə müxalifət mövqeyinə keçərsə, onda Naxçıvandakı qüvvələrimizi çəkib ermənilərin Naxçıvanı istilası halında yardım etməyəcəyimiz və bolşeviklərlə müharibə edərlərsə, biz də öz qüvvələrimizlə bolşeviklərə yardım etmək üçün Naxçıvana yürüyəcəyimiz onlara açıq şəkildə söylənməlidir".[1008]

Bütün bunların müqabilində isə AK(b)P MK Bürosunun 1920-ci il 13 iyul tarixli iclasında "Naxçıvan haqqında" məsələ müzakirə edilərək Azərbaycanın bu mübahisəsiz hissəsinin Türkiyə qoşunlarından təmizlənməsi qərara alındı və Nərimanov, Miko-

---

[1006] Ünüvar V. Naxçıvan: təlatüm və burulğanlar, s. 32.
[1007] ATASE, BDH, K. 924, D. 1, F. 1-2, 1-3.
[1008] ATASE, BDH, K. 924, D. 1, F. 1-1.

yan, Naneyşvili, Hüseynovdan ibarət nümayəndəliyin Xəlil paşa ilə müvafiq danışıqlar aparması razılaşdırıldı. Həm maraqlı, həm də təəccüblüdür ki, AK(b)P MK Bürosu Naxçıvanı Azərbaycanın mübahisəsiz ərazisi saymasına dair iki gün əvvəlki mövqeyini "unudaraq" iyulun 15-də Eqorov, Qarayev, Mikoyan, Orconokidze və başqalarının iştirakı ilə keçirilən iclasında belə bir dəhşətli qərar çıxardı: "...Naxçıvan və digər ərazilərdən imtina edilsin, onların rus qoşunları tərəfindən işğalı təklif olunsun..."[1009]

Müəyyən hazırlıq işlərini başa çatdırdıqdan və bölgə daxilində ideoloji zəmin hazırlandıqdan sonra XI Ordu hissələri 1920-ci il iyulun 28-də Naxçıvana daxil oldu.[1010] Naxçıvanın rus sovet orduları tərəfindən işğal edilməsinə TBMM hökuməti K.Qarabəkir paşa vasitəsilə əlindən gələn köməyi etdi.

Azərbaycan xalqı isə rus işğalı ilə barışmadı. 1920-ci il may ayının 26-dan başlayaraq Gəncədə, Tərtərdə, Ağdamda, Şuşada, Zaqatalada və digər bölgələrdə xalq rus işğalçılarına qarşı silahlı üsyana qalxdı. Sonrakı dövrdə bütün ölkə ərazisini üsyanlar bürüdü. Bütövlükdə, 1923-cü ilə qədər Azərbaycanda rus işğal rejiminə qarşı 53 silahlı üsyan baş verdi.[1011] Lakin qüvvələr qeyri-bərabər olduğundan bu üsyanlar qan içində boğuldu. Təkcə 1920-ci il aprelin 28-dən 1921-ci ilin avqustuna qədər Azərbaycanda 48 min adamın qırmızı terrorun qurbanı olması[1012] simvolik bir faktdır.

Qeyd edək ki, rus işğalçılarına qarşı Qarabağda başlanmış üsyana Nuru paşanın rəhbərlik etməsi Ankara hökuməti tərəfindən çox sərt qarşılandı. Ankaranın bolşeviklərlə iş birliyinə girib Anadoluya sovet yardımlarını təmin etməyə çalışdığı bir vaxtda Nuru paşanın Qızıl Orduya qarşı vuruşması Türkiyəyə qarşı bir etimadsızlıq mühiti yarada bilərdi. Buna görə də K.Qarabəkir paşa qərargah rəisi albay Kazım bəyə (Ənvər və Nuru paşaların kürəkəni)

---

[1009] Musayev İ. Azərbaycanın Naxçıvan və Zəngəzur bölgələrində siyasi vəziyyət və xarici dövlətlərin siyasəti, s. 250-251.

[1010] Karabekir K. Istiklal Harbimiz. C. II, s. 916.

[1011] Karaca A. Azerbaycanın Yakın Tarihine Kısa Bir Bakış. İstanbul: Azerbaycan Kültür Merkezi Yayınları, 1982, s. 20.

[1012] Ibrahimli X. Azərbaycan siyasi mühacirəti, s. 32.

aşağıdakı əmri verdi: "Dərhal Nuru paşaya yaz, əgər əlində olan qüvvələrlə yanıma gəlib etdiyi cinayətləri idrak edərsə qurtular. Əks halda "vətən əleyhinə düşmənlərimizlə hərəkət edir" cinayəti ilə ittihamdan onu kimsə qurtara bilməz..."[1013] İndi Türkiyə üçün Azərbaycan düşmənə, Rusiya isə dosta çevrilmişdi. Görünür, Ankara hökuməti bu dövrdə Azərbaycandakı bolşevik işğalının əsl mahiyyətini hələ anlamamışdı və ya sovet yardımları Anadolu üçün o qədər böyük əhəmiyyət daşıyırdı ki, türklər XI Ordunun Azərbaycanda həyata keçirdiyi ağlasığmaz cinayətləri susmaqla qarşılayır və bolşeviklərin əleyhinə olan üsyanda türk zabitinin iştirakını özləri üçün faciə bilirdilər.

Bolşeviklər Azərbaycanda öz hakimiyyətini möhkəmləndirmək üçün çıxış yolunu Qızıl Ordunun gücü hesabına sərt rejim yaratmaqda görürdülər. 1920-ci ilin sonlarında İ.Stalin V.İ.Leninə yazdığı qeydində Azərbaycana beş və ya altı yeni diviziya da göndərməyi məsləhət görürdü.[1014] Qızıl Ordu hissələrinin Azərbaycanda həyata keçirdiyi özbaşınalıqlar və cinayətlər o qədər kəskin xarakter almışdı ki, Azərbaycan SSR-in Moskvadakı səlahiyyətli nümayəndəsi B.Şahtaxtinski 1920-ci il sentyabrın 20-də bu məsələ ilə bağlı V.İ.Leninə müraciət etməli oldu. Müraciətdə deyilirdi: "...Qızıl Ordu bütün qüvvəsilə hətta Ermənistanla sərhəd vilayətlərdə belə müsəlman əhalisini tərksilah edir. Halbuki, daşnakların daimi hücumlarının müsəlman əhalisinin fiziki mövcudluğunu qəti təhlükə qarşısında qoyduğunu görmək çətin deyil... Qızıl Ordu əvvəlcə özünü yaxşı aparırdı, indi isə özünü irticaçı kimi göstərir... Yerlərdən sarsıdıcı məlumatlar alınır. İş o yerə çatıb ki, qızlar və qadınlar açıq şəkildə zorlanır... Azərbaycan kəndliləri ancaq bir şey haqqında xahiş edir və yalvarırlar: nə varsa, hamısını o saat, birdəfəlik alın və ailə ocaqlarımızı gündəlik, qeyri-mütəşəkkil və təhqiredici basqınlardan xilas edin... Hazırda kəndlilərin vəziyyəti həddən artıq ağırdır. Onlar hətta lampa nefti ala bilmirlər, çünki onların kəndə neft göndərdikləri arabalar yolda Qızıl Ordu tərəfindən müsadirə edilir... Öz çörəyi ilə dolanan Azərbaycan indi çö-

[1013] Karabekir K. İstiklal Harbimiz, C. II, s. 899.
[1014] Rafiyev B. Aysberqin sualtı hissəsi. s. 19.

rəksiz qalıb... Rusiyanın Azərbaycana aid məsələləri Ermənistanla müzakirə etməsi müsəlmanları daha çox pərt etmişdir, hətta Azərbaycan hökumətinin də bu danışıqlardan xəbəri olmamışdır".[1015]

Rusiyanın sovet Azərbaycanından daşnak Ermənistanı üçün torpaq qoparmaq cəhdləri xalq kütlələrinin haqlı narazılığına səbəb olurdu. Bu kütləvi narazılıqları N.Nərimanov da V.İ.Leninə göndərdiyi məktubunda açıq ifadə edirdi: "...Bizə birbaşa deyirlər: Siz tamamilə mübahisəsiz əraziləri Azərbaycana təhkim edə bilmirsiniz, ancaq Şərqin azad olunmasından danışırsınız".[1016]

1920-ci il aprelin 27-də bolşeviklərin Azərbaycan milli hökumətini devirib ölkəni "müstəqil" sovet sosialist respublikası elan etmələri sadəcə taktiki mülahizələrlə bağlı idi. Rusiya Azərbaycana heç vaxt müstəqillik verməyəcəkdi və vermədi də. Azərbaycana müvəqqəti olaraq verilən "müstəqillik" sadəcə formal səciyyə daşıyırdı. Azərbaycan yenidən Rusiyanın müstəmləkəsi altına düşmüşdü. Q.Orconokidze və S.Kirovun 1920-ci il mayın 2-də Bakıdan V.İ.Leninə göndərdiyi birgə şifrəli teleqramda deyilirdi: "Sizin Azərbaycana təbrikiniz və onu ümumi şəkildə tanımağınız zəruridir. Sovet Rusiyası ilə hərbi-təsərrüfat, iqtisadi cəhətdən birləşməni həyata keçirəcəyik. Təcrübə bütün Qafqaz üçün bizə bundan sonra da Xalq Komissarları Sovetinin səlahiyyətlərinin verilməsini tələb edir. Bunları bizə radio ilə verin, yaxud kiməsə göndərin, ancaq tezliklə. Nərimanova belə səlahiyyətlər verməyin".[1017] V.İ.Lenin də 1920-ci il mayın 5-də RSFSR Xalq Komissarları Soveti adından Azərbaycanın sovet hökumətinə təbrik teleqramı göndərdi və burada Azərbaycanı "müstəqil sovet respublikası" adlandırdı.[1018] Bu teleqram Azərbaycan SSR-in RSFSR tərəfindən tanınmasını bildirən tarixi sənəd kimi qarşılandı və bu mü-

[1015] Rəfiyev B. Aysberqin sualtı hissəsi. s. 14.
[1016] ARPİİSSA, f. 609, siy. 1, iş 71, v. 41-42.
[1017] Azərbaycan tarixi. 7 cilddə. VI c., s. 12; Əhmədova F. Nəriman Nərimanov – İdeal və gerçəklik, s. 34-35.
[1018] V.İ.Lenin Azərbaycan haqqında, s. 169; Azərbaycana xarici müdaxilə tarixindən. s. 196.

nasibətlə Bakıda bayram şənlikləri keçirildi. "Müstəqil Azərbaycan Sovet Respublikası" bəyannaməsini rəğbətlə qarşılayan xalq kütlələri məsələnin əsl mahiyyətindən xəbərsiz idilər. Əslində bu "müstəqillik" heç bir ciddi praktiki əhəmiyyət kəsb etməyən deklorasiyadan başqa bir şey deyildi. Bakını işğal edib Azərbaycan milli hökumətini devirən Sovet Rusiyası ölkədə öz mövqeyini möhkəmləndirdikdən sonra Azərbaycana verdiyi formal müstəqilliyi mərhələli şəkildə aradan qaldıracaqdı.

1920-ci il mayın 20-də RK(b)P MK Siyasi Bürosu "Azərbaycan haqqında məsələni" müzakirə etdi və sonda belə bir qərar qəbul etdi: "G.Çiçerinə tapşırılsın ki, qarşılıqlı münasibətləri müəyyənləşdirmək üçün danışıqlara başlamaq təklifi ilə Azərbaycan sovet hökumətinə müraciət etsin..."[1019] Bu qərar üzrə hərəkət edən RSFSR xalq xarici işlər komissarı G.Çiçerin mayın 26-da Azərbaycan SSR hökumətinin başçısı N.Nərimanova xüsusi nota göndərərək, "ümumi məqsədlərə nail olmaq naminə öz müntəzəm əməkdaşlığı yolunda hər iki respublikanın birgə fəaliyyətini asanlaşdıran daimi qarşılıqlı münasibət formaları yaratmaq haqqında" danışıqlara başlamağı təklif etdi və danışıqlar aparmaq üçün Moskvaya respublikadan səlahiyyətli nümayəndə göndərilməsinin vacibliyini vurğuladı.[1020]

1920-ci il iyulun 15-də Azərbaycan İnqilab Komitəsi xalq ədliyyə komissarı B.Şahtaxtinskini Moskvaya fövqəladə səlahiyyətli nümayəndə təyin etdi və ona "RSFSR hökuməti ilə bütün məsələlər, istər daxili, istər siyasi, istərsə də iqtisadi məsələlər barədə danışıqlar aparmaq və sonradan təsdiq olunmaq şərti ilə Azərbaycan SSR adından hər cür müqavilə və öhdəliklər imzalamaq üçün" mandat verdi.[1021]

1920-ci il avqustun 5-də RK(b)P MK plenumu V.İ.Leninin iştirakı ilə Azərbaycan SSR və RSFSR arasında qarşılıqlı münasibətlər haqqında məsələni müzakirə etdi və G.Çiçerin başda olmaqla komissiyaya müvafiq layihə hazırlamağı tapşırdı. Azərbaycan

---

1019 Azərbaycan tarixi. 7 clddə. VI c., s. 60.
1020 Yenə orada, s. 60.
1021 ARPİİSSA, f. 609, siy. 1. iş 21, v. 102.

SSR-in fövqəladə və səlahiyyətli nümayəndəsi B.Şahtaxtinski də müqavilənin hazırlanmasında fəal iştirak edirdi. Hazırlanmış müqavilə layihəsi Azərbaycanda da müzakirə olundu. RSFSR ilə Azərbaycan SSR arasında müqavilə haqqında məsələnin həlli prosesi bilavasitə partiya rəhbərliyi altında gedirdi. 1920-ci il sentyabrın 29-da V.İ.Leninin sədrliyi ilə RK(b)P MK plenumu Azərbaycan SSR ilə RSFSR arasında bağlanacaq müqaviləni təsdiq etdi.[1022]

Müqavilə 1920-ci il sentyabrın 30-da G.Çiçerin və B.Şahtaxtinski tərəfindən imzalandı. Bu "qardaşlıq ittifaqı" müqaviləsinə və bu müqaviləyə əlavə olaraq imzalanmış sazişlərə görə Azərbaycan öz iqtisadi qaynaq və vasitələrini (yeraltı və yerüstü sərvətlər, sənaye müəssisələri), müstəqil xarici ticarət haqlarını Moskvaya verir, eyni zamanda müstəqil maliyyə və nəqliyyat-rabitə hüquqlarından da imtina edirdi. Müqavilədə konkret olaraq göstərilirdi: "1. RSFSR hökuməti və Azərbaycan öz aralarında sıx hərbi və maliyyə-iqtisadi ittifaq bağlayırlar. 2. Müqavilə imzalandığı vaxtdan qüvvədədir və xüsusi ratifikasiya tələb etmir".[1023]

Bu müqavilə əslində RSFSR-in Azərbaycana münasibətdə yeritdiyi imperiya siyasətini pərdələmək vasitəsi idi və bununla "müstəqil" Sovet Azərbaycanı faktiki olaraq Rusiyanın bir əyaləti statusuna girmiş olurdu. Azərbaycanın əbədi xoşbəxtliyini Rusiyaya bağlayanlar bunu bayram edə bilərdilər. Aprel işğalından az sonra "Azərbaycan Respublikası Gürcüstan və Ermənistan sovetləşdirilənədək müstəqil olmalıdır, sonra isə baxarıq"[1024] deyə qəti şəkildə bəyan edən N.Nərimanov bu zaman deyirdi: "Biz demişdik ki, Azərbaycan müstəqil mövcud ola bilməz. Bunu tarix də sübut edir".[1025]

Bu zaman Türkiyə sovetləşdirilmiş Azərbaycanın heç olmasa "müstəqilliyi"ni qorumağa səy göstərirdi. Bəhs olunan dövrdə

---

[1022] Azərbaycan tarixi. 7 cilddə. VI c., s. 61-62.
[1023] ARPİİSSA, f. 1, siy. 2, iş 16, v. 25.
[1024] Nərimanov N. Ucqarlarda inqilabımızın tarixinə dair / İ.V.Stalinə məktub /. Bakı: Azərnəşr, 1992, s. 17.
[1025] Нериманов Н. Избранные произведения. Т. 2. с. 366.

Türkiyə-Azərbaycan, Türkiyə-Rusiya münasibətlərində müəyyən soyuqluq hökm sürürdü. TBMM hökuməti 12 avqust 1920-ci il tarixli qərarı ilə Məmduh Şövkət (Esendal) bəyi Azərbaycana diplomatik nümayəndə təyin etdi. M.Kamal paşa K.Qarabəkir paşaya göndərdiyi 25 avqust 1920-ci il tarixli teleqramda bildirirdi ki, "Azərbaycanla normal diplomatik münasibətlərin qurulmasına önəm verən TBMM hökuməti başlanğıc olaraq Məmduh Şövkət bəyi Bakıya nümayəndə olaraq təyin etmişdir. Azərbaycan sovet hökuməti Ankarada səfirlik açdığı zaman biz də Bakıdakı nümayəndəliyimizi səfirliyə çevirəcəyimizi qərarlaşdırmışıq".[1026] TBMM hökumətinin xaricdə ilk rəsmi nümayəndəsi olaraq təyin edilən M.Şövkət bəy 1920-ci il sentyabr ayının sonlarında Bakıya gəlib öz vəzifəsinin icrasına başladı. M.Şövkət bəy qısa vaxt ərzində Azərbaycanın hökumət dairələri ilə dostluq əlaqələri qurdu, həmçinin xalqın sevgisini qazandı. Onun gərgin əməyi sayəsində Azərbaycan hökuməti TBMM hökumətinə 1920-ci ilin noyabrında 100 min Osmanlı qızılı, 1921-ci il aprelin 1-də 1 milyon qızıl rubl məbləğində yardım etdi.[1027]

TBMM hökuməti Xariciyyə Vəkaləti 1920-ci ilin dekabrında Türkiyənin Bakıdakı nümayəndəliyini səfirlik səviyyəsinə yüksəltmək və M.Şövkət bəyi də səfir təyin etmək istədi. Lakin K.Qarabəkir paşa bu məsələdə tələsməməyi lazım bildi. Nəticədə Türkiyənin Bakıdakı nümayəndəliyinin səfirlik səviyyəsinə yüksəldilməsi məsələsi qapadıldı və bu məsələ bir daha gündəmə gə-tirilmədi.

1920-ci ilin aprel işğalından az sonra TBMM hökuməti artıq yaxşı anlayırdı ki, Sovet Azərbaycanına verilən müstəqillik heç bir əməli əhəmiyyəti olmayan formallıqdan başqa bir şey deyildir. Özünün birbaşa iştirakı və fəal yardımı ilə sovetləşdirilmiş Azərbaycanın heç olmasa dövlətçiliyini qorumaq istəyən Türkiyə Moskva konfransında Azərbaycanın iştirakına qarşı çıxdı. Türkiyə nümayəndə heyəti iki ölkə arasındakı qarşılıqlı münasibətləri aydınlaşdırmaq üçün Azərbaycanla ayrı bir müqavilə imzalamaq və

[1026] Şimşir B.N. Bizim Diplomatlar. İstanbul: Bilgi Yayınları, 1996, s. 76.
[1027] ARDA. f. 28, siy. 1, iş 25, v. 73; ARPİİSSA. f. 609, siy. 1, iş 25, v. 181.

bu yolla Azərbaycanı müstəqil bir dövlət olaraq qəbul etdiklərini Rusiyaya göstərmək istəyirdi. "Müstəqil" Azərbaycanın Türkiyə ilə ayrı bir müqavilə imzalaya biləcəyini qəbul edən Moskva hökuməti əməli olaraq belə bir müqavilənin imzalanmasına imkan vermədi. Rusiya ilə danışıqları uğurla yekunlaşdırıb Moskva müqaviləsini imzalayan Türkiyə nümayəndə heyəti 1921-ci il aprel ayının əvvəllərində Bakıya gəldi və burada bir neçə dəfə Azərbaycan hökuməti ilə danışıqlar aparıb müqavilə imzalamağa cəhd etdi. Lakin G.Çiçerinin göstərişləri üzrə hərəkət edən Azərbaycan hökuməti Türkiyə ilə ayrı bir müqavilə imzalamaqdan qəti surətdə imtina etdi.

TBMM hökuməti 1920-ci ilin avqust-sentyabr aylarında özünün Bakıda nümayəndəliyini açsa da, bunun qarşılığında Azərbaycan hökuməti Türkiyədə nümayəndəlik (və ya səfirlik) açmağa səy göstərmirdi. Bu məsələ ilə bağlı Türkiyənin etdiyi müraciətlər qarşısında rəsmi Bakı bir sıra bəhanələr gətirərək məsələnin həllini uzadırdı. Azərbaycanın xarici işlər komissarı M.D.Hüseynov "hökumətinin təşkilati-quruculuq işləri ilə çox məşğul olduğuna və Qafqaz respublikaları ilə münasibətləri tənzimləməklə başı qarışdığına görə Ankaraya öz səlahiyyətli nümayəndəsini göndərə bilmədiyindən təəssüfləndiyini" dilə gətirir və müvafiq məsələlər həll edilən kimi Türkiyənin bu istəyinin yerinə yetiriləcəyini bildirirdi.[1028]

Moskvanın razılığı olmadan Azərbaycanın Türkiyədə diplomatik nümayəndəlik açması qeyri-mümkün idi. Rusiya isə bu məsələdə maraqlı deyildi. Bunun da səbəbi Moskva konfransından sonra Sovet-Türkiyə münasibətlərində yaranan gərginliklər və xüsusilə də Rusiyanın Qafqazda "sosialist mərkəzçiliyi"nə yönələn siyasəti idi. Azərbaycanın Ankarada diplomatik nümayəndəliyinin açılmasının yubadılması Türkiyə ictimaiyyətində Azərbaycanın "müstəqilliyinin xarakteri" barədə müəyyən müzakirələrə yol açmışdı. Türkiyəyə sığınan müsavatçıların apardıqları antisovet təbliğat da ictimaiyyətdə sovetlərə qarşı mənfi bir ab-hava yaratmış-

[1028] ARDA, f. 28, siy. 1, iş 68, v. 82.

dı. Bu isə "sosialist inliqabı"nı ixrac etmək siyasəti yürüdən rəsmi Moskvanın maraqlarına zərbə demək idi. Bütün bunları nəzərə alan Moskva hökuməti Azərbaycanın "müstəqil" olduğunu türk siyasi və ictimai dairələrinə göstərmək üçün Ankarada Azərbaycanın diplomatik nümayəndəliyinin açılmasına razılıq verdi.

AK(b)P MK-nın 2 may 1921-ci il tarixli iclasında Azərbaycanı Ankarada təmsil edəcək diplomatik nümayəndəliyə İbrahim Əbilovun namizədliyi irəli sürüldü. Azərbaycanın Xarici İşlər Komissarlığı İ.Əbilovun namizədliyini G.Çiçerinə təqdim etdi. G.Çiçerin 26 may 1921-ci il tarixində M.D.Hüseynova göndərdiyi teleqramında "İ.Əbilovun namizədliyini bəyəndiyini" bildirdi.[1029] 1921-ci ilin iyununda İ.Əbilov Azərbaycanın Ankara hökuməti yanında səlahiyyətli nümayəndəsi təyin edildi.

1921-ci il oktyabrın 11-də İ.Əbilovun nümayəndəlik heyəti Ankaraya gəldi.[1030] Oktyabrın 14-də İ.Əbilov M.Kamal paşa tərəfindən qəbul edildi və etimadnaməsini ona təqdim etdi.[1031] Nümayəndəlik ilk əvvəl mehmanxanada yerləşdirildi. Az sonra, 1921-ci il noyabrın 18-də nümayəndəliyin Ankaranın Cəbəci səmtində yerləşən binası üstündə Sovet Azərbaycanının bayrağı qaldırıldı. İ.Əbilovun xahişi ilə bayrağı M.Kamal paşa qaldırdı.[1032]

Azərbaycan SSR-in Ankarada işə başlayan nümayəndəliyinin fəaliyyəti sözdə "TBMM hökuməti ilə sovetlər arasında müttəffiqlik münasibətlərinin yaradılması"na yönəlmişdi. İşdə isə bu, Sovet Rusiyasının xarici siyasətinin və Azərbaycanla əlaqədar yürütdüyü xəttin uğur qazanmasına xidmət edirdi.

Rusiya Azərbaycana verdiyi formal müstəqilliyi tədricən ləğv etməklə yanaşı ölkənin ərazi bütövlüyünə də qəsd etdi və Azərbaycan torpaqlarını alver predmetinə çevirdi. 1920-ci il noyabrın 9-da Bakıda AK(b)P MK və Bakı Komitəsinin birgə plenumunda

---

[1029] ARPİİSSA, f. 609, siy. 1, iş 96, v. 43.
[1030] ARPİİSSA, f. 609, siy. 1, iş 15, v. 127; Hakimiyet-i Milliye, 12 Ekim 1921, no. 320.
[1031] Hakimiyet-i Milliye, 15 Ekim 1921, no. 323.
[1032] ARPİİSSA, f. 609, siy. 1, iş 15, v. 135; Hakimiyet-i Milliye, 20 Kasım 1921, no. 357.

– RK(b)P MK Qafqaz Bürosu, Azərbaycan İnqilab Komitəsi və Bakı Sovetinin birgə iclasında "Zəngəzur məsələsi"nin müzakirəsi zamanı İ.Stalin açıq şəkildə bəyan etdi ki, "əgər Zəngəzur və Naxçıvanın kimə məxsus olmasını bilmək istəyirsinizsə, onları Ermənistanın indiki hökumətinə vermək olmaz, orada sovet hökuməti yaranarsa vermək olar".[1033]

Məsələnin həlli İ.Stalinin bəyan etdiyi şəkildə də həyata keçirilməyə başladı. Ermənistanın sovetləşdirilməsi (29 noyabr 1920) haqqında Ermənistan İnqilab Komitəsinin teleqramı Bakıya çatan kimi, 1920-ci il noyabrın 30-da AK(b)P MK Siyasi və Təşkilat bürolarının birgə iclası (iştirak edirdilər: Q.Orconokidze, N.Nərimanov, Q.Kaminski, Y.Stasova, M.B.Qasımov, Ə.Qarayev, Sarkis (S.A.Danielyan), M.D.Hüseynov, A.Serebrovski və b.) belə bir qərar qəbul etdi: a) ...Sovet və İnqilab Komitəsi adından Ermənistan hökumətinə bəyannamə ilə müraciət edilsin; b) Təbrik göndərilsin. Bildirilsin ki, Sovet Azərbaycanı ilə Sovet Ermənistanı arasında heç bir sərhəd mövcud deyildir; c) Zəngəzur və Naxçıvan Ermənistana keçirlər; d) Qarabağın dağlıq hissəsinə öz müqəddəratını təyin etmək hüququ verilir; e) Sovet Azərbaycanı Sovet Ermənistanı ilə qırılmaz hərbi və təsərrüfat ittifaqı bağlamağa hazırdır.[1034] Sonrakı bəndlərdə isə N.Nərimanova bütün bunlar barədə bəyanat hazırlamaq və onu Bakı Sovetinin iclasında elan etmək tapşırılırdı.

Bu qərar üzrə hərəkət edən N.Nərimanov 1920-ci il dekabrın 1-də Bakı Sovetinin Ermənistanda sovet hakimiyyətinin qurulması münasibətilə keçirilən təntənəli iclasında bəyanatla çıxış etdi. Tarixə "Nərimanovun Bəyanatı" kimi daxil olan bu sənəddə deyilirdi: "Sovet Azərbaycanı Ermənistan və Zəngəzurda ən yaxşı yoldaşlarımızın – kommunistlərin günahsız qanını tökmüş və tökən daşnakların hakimiyyətinə qarşı əməkçi erməni xalqının mübarizəsinə yardım edərək elan edir ki, bundan belə heç bir ərazi məsələləri əsrlərdən bəri qonşu olan iki xalqın: ermənilərin və müsəlmanların bir-birinin qanını tökməsi üçün səbəb ola bilməz; Zəngə-

[1033] ARPİİSSA, f. 1, siy. 1, iş 24, v. 30.
[1034] ARPİİSSA, f. 1. siy. 1, iş 24. v. 51-52.

zur və Naxçıvan qəzalarının ərazisi Sovet Ermənistanının bölünməz ərazisidir; Dağlıq Qarabağın əməkçi kəndlilərinə isə öz müqəddəratını təyin etmək hüququ verilir; Zəngəzur hüdudlarında bütün hərbi əməliyyatlar dayandırılır, Sovet Azərbaycanının qoşunları isə buradan çıxarılırlar".[1035]

Q.Orconokidzenin "bəşəriyyət tarixində nümunəsi olmayan mühüm əhəmiyyətli tarixi akt" kimi qiymətləndirdiyi bu bəyanatı İ.Stalin belə şərh etmişdi: "Dekabrın 1-də Sovet Azərbaycanı mübahisəli vilayətlərdən könüllü olaraq əl çəkir və Zəngəzur, Naxçıvan və Dağlıq Qarabağın (Bəyanatın məzmunu Yuxarı Qarabağla bağlı burada təhrif edilmişdir) Sovet Ermənistanına verilməsini elan edir".[1036]

Azərbaycan rəhbərliyinin bu beynəlmiləlçi güzəştləri 1920-ci il dekabrın 2-də RSFSR-lə Sovet Ermənistanı arasında imzalanan hərbi-siyasi sazişin xüsusi maddələri ilə daha da möhkəmləndirildi. Bu sazişin 3-cü maddəsində qeyd edilirdi ki, Rusiya Sovet hökuməti İrəvan quberniyasının..., Zəngəzur qəzasının Ermənistan SSR ərazisinin tərkibinə daxil olmasını mübahisəsiz tanıyır.[1037] Bununla da Rusiya ilə ermənilər arasında Azərbaycan torpaqları ətrafında növbəti sövdələşmə o mərhələ üçün bu şəkildə yekunlaşdırıldı. Azərbaycan özünün tərkib hissəsi olan Naxçıvandan ayrı salındı, onunla Türkiyə arasında əlaqə pozuldu. "Naxçıvan məsələsi" isə türk diplomatiyasının Moskva konfransındakı gərgin əməyi və əzmkarlığı sayəsində öz ədalətli həllini tapdı. "Nərimanovun Bəyanatı"nın Dağlıq Qarabağla bağlı müddəasını təhrif edərək təqdim edən rus-erməni şovinizmi sonrakı mərhələdə bu bölgənin Ermənistana birləşdirilməsinə nail ola bilməsə də, burada süni şəkildə "Dağlıq Qarabağ Muxtar Vilayəti"ni yarada bildi. Bu qondarma "Dağlıq Qarabağ problemi" vaxtaşırı Azərbaycana

---

[1035] Коммунист, 2 декабря 1920; Dekmejian R.H. Soviet-Turkish Relations and Politiks in the Armenian SSR // Soviet Studies, (Apr., 1968), Vol. 19, No. 4, p. 518.
[1036] Musayev İ. Azərbaycanın Naxçıvan və Zəngəzur bölgələrində siyasi vəziyyət və xarici dövlətlərin siyasəti, s. 268.
[1037] Yenə orada, s. 269.

qarşı bir alət kimi istifadə etmək üçün rus şovinizminə çox lazım idi.

N.Nərimanov V.İ.Leninə göndərdiyi məktubunda yazırdı: "...Dəhşətli vəziyyət yaranmışdır. Mərkəz Gürcüstan və Ermənistanın müstəqilliyini, Azərbaycanın istiqlaliyyətini tanımış, lakin eyni zamanda o, Mərkəz, Azərbaycanın tamamilə mübahisəsiz ərazilərini Ermənistana verir. Əgər bu ərazilər Gürcüstana verilmiş olsaydı, əfkari ümumiyyə ilə birtəhər mübarizə aparmaq olardı, lakin Ermənistana, daşnaklara vermək düzəldilməsi mümkün olmayan, pis nəticələr verəcək səhvdir. Bu barədə bizim nümayəndəmiz ətraflı danışacaqdır.

Bizi dəhşətli vəziyyətə qoyan Mərkəzin başqa bir münasibəti: Mərkəzdən hər gün nümayəndələr gəlib əllərində olan mandatlara əsasən bu və ya digər səbəbə görə tanınmış xalq komissarına tabe olmaq haqqında bizə göstəriş verirlər.

Əziz Vladimir İliç, məgər "Müstəqil Azərbaycan" Sizin dilinizdən çıxmamışdırmı? Axı məhz buna əsaslanaraq, biz Müsavatın qurduğu fitnəkarlığı məhv edə bildik.

İndi vəziyyət belə bir şəkil alır: həmişə Denikini müdafiə etmiş Ermənistan müstəqillik qazanmış və üstəlik də Azərbaycanın ərazilərini almışdır. İndiyə qədər ikili siyasət aparan Gürcüstan müstəqillik əldə etmişdir. Üç respublikadan birinci olaraq Sovet Rusiyasının qoynuna atılmış Azərbaycan isə həm ərazisini, həm də müstəqilliyini itirir.

Vladimir İliç! Çoxmillətli əhalinin hüquq və hissləri ilə belə zarafat etmək olmaz..."[1038]

1921-ci il fevralın 25-də Gürcüstan da silah gücünə sovetləşdirildikdən sonra Moskva hökuməti keçmiş rus çarizminin sərhədləri hüdudlarında yaratmaqda olduğu Sovet imperiyasını ilk dəfə Cənubi Qafqazda sınaqdan keçirdi. 1921-ci ilin martından başlayaraq Azərbaycan, Gürcüstan və Ermənistanın xalq kütlələri arasında belə bir məsələ ətrafında zəruri olan ictimai fikir yaradılması üçün güclü iş aparılmağa başladı ki, guya Cənubi Qafqaz respubli-

[1038] Nərimanov N. Ucqarlarda inqilabımızın tarixinə dair, s. 62.

kalarının əlaqələri olmadan və qüvvələri birləşdirilmədən regionun xalq təsərrüfatını bərpa və inkişaf etdirmək mümkün deyildir. Xalq kütlələrinin ideoloji cəhətdən hazırlanması ilə paralel olaraq praktiki iş də aparılırdı. Hər şey elə qurulurdu ki, guya Cənubi Qafqaz xalqları bir-biri ilə iqtisadi və siyasi ittifaq yaratmağı özləri arzu edirlərmiş. Mərkəzin göstərişi üzrə hərəkət edən Azərbaycan SSR-in Moskvadakı nümayəndəliyi 1921-ci ilin martında Cənubi Qafqazın üç respublikasının birləşməsinin zəruri olması haqqında məsələ qaldırdı və dərhal Azərbaycan və Gürcüstan inqilab komitələrinin nümayəndələri bir sıra təsərrüfat orqanlarının birləşdirilməsi ilə bağlı bəzi məsələlər barəsində ilkin danışıqlar apardılar. V.İ.Lenin 1921-ci il aprelin 9-da Q.Orconokidzeyə göndərdiyi teleqramında "bütün Cənubi Qafqaz üçün vilayət təsərrüfat orqanı yaratmağı" təkidlə tələb edirdi.[1039] Bundan iki gün sonra, aprelin 11-də o, ümum-Rusiya Həmkarlar İttifaqlarının Mərkəzi Şurasının iclasında Qafqaz respublikalarını vahid bir təsərrüfat mərkəzi halında birləşdirmək məsələsini qaldırdı.[1040] Tezliklə Cənubi Qafqaz respublikalarının dəmir yolları idarələrinin birləşdirilməsi haqqında saziş imzalandı (18.IV.1921), az sonra Cənubi Qafqaz respublikalarının və Dağıstan respublikasının xarici ticarət orqanları birləşdirildi (2.VI.1921), respublikalar arasında gömrükxanalar və sərhəd postları ləğv edildi və s. 1921-ci il dekabrın 8-də RK(b)P MK-nın qərarı ilə Cənubi Qafqaz respublikalarının xarici ticarəti tam olaraq Rusiyanın inhisarına alındı. Cənubi Qafqaz respublikalarının iqtisadi cəhətdən "birləşdirilməsi" məsələsi yalnız partiya direktivləri əsasında yuxarıdan həll edildi. Lakin bu iqtisadi "birləşdirilmə" özünün strateji hədəfləri olan rəsmi Moskva üçün kifayət deyildi. Çünki aksiyanın ən vacib hissəsi – siyasi rəhbərliyin birliyi məsələsi hələ həll edilməmişdi. Bunun üçün də növbəti mərhələyə – Cənubi Qafqaz respublikalarının öz aralarında və digər sovet respublikaları ilə siyasi cəhətdən birləşdirilməsinə start verildi.

[1039] V.İ.Lenin Azərbaycan haqqında. s. 223
[1040] Yenə orada, s. 227.

1921-ci il noyabrın 3-də RK(b)P MK Qafqaz Bürosunun plenumu Azərbaycan, Gürcüstan və Ermənistan sovet sosialist respublikaları arasında federativ ittifaqın bağlanması haqqında qərar qəbul etdi.[1041] Noyabrın axırlarında V.İ.Lenin "Cənubi Qafqaz respublikaları federasiyasının yaradılması haqqında təklif layihəsi"ni hazırladı. Həmin layihədə federasiya "tamamilə düzgün və hökmən yaradılmalı" hesab edilirdi. V.İ.Lenin həmçinin federasiya lehinə qızğın təbliğat aparmağı və bu federasiyanın yaradılması haqqında qərarı üç respublikadan hər birinin sovetlər qurultayından keçirməyi Cənubi Qafqaz partiya təşkilatlarına bir vəzifə olaraq tapşırdı. 1921-ci il noyabrın 29-da RK(b)P MK Siyasi Bürosu Cənubi Qafqaz federasiyasının yaradılması haqqında qətnamə qəbul etdi.[1042] Yalnız bundan sonra partiya iclaslarında birləşmək haqqında rəsmi müzakirələr başlandı.

Federasiya ideyasının həyata keçirilməsi kampaniyası heç də hər yerdə rəvan getmirdi. Təkcə rəhbərlikdə deyil, yerlərdə də birləşmənin prinsipləri barədə etirazlar, fikir ayrılığı var idi və Azərbaycanın mənafeyinin tapdalandığı bildirilirdi. Təsadüfi deyil ki, AK(b)P-nin IV qurultayı (2 fevral 1922-ci il) Cənubi Qafqaz respublikalarının federasiyasını əməli surətdə həyata keçirməyin zəruri olması haqqında xüsusi qətnamə qəbul etmiş və MK-ya tapşırmışdı ki, "hər cür millətçilik təmayülləri və partiya orqanlarının qərarlarına etinasızlıq göstərmək meylləri əleyhinə bütün vasitələrlə mübarizə aparsın".[1043] Mərkəzi Komitənin ciddi nəzarəti altında müxtəlif səviyyəli partiya təşkilatları federasiya məsələsini müzakirə etdilər və Cənubi Qafqaz federasiyasının yaradılmasının "zəruriliyini" əsaslandırdılar.

Yaradılmaqda olan "Cənubi Qafqaz Respublikalarının Federativ İttifaqı" haqqında yayılan məlumatlar Türkiyə mətbuatında həssaslıqla qarşılandı. Bir sıra mətbuat orqanlarında bu məsələ ilə bağlı etiraz xarakterli məqalələr dərc edildi. "İkdam" qəzeti bu məsələni "Rusiya Qafqaz respublikalarının müstəqilliyinə son qo-

[1041] Бакинский рабочий, 5 ноября 1921. № 254.
[1042] Azərbaycan tarixi. 3 cilddə. III c., I h., s. 309.
[1043] Azərbaycan tarixi. 7 cilddə. VI c., s. 161.

yaraq onları özünə ilhaq etdi" şəklində şərh etdi.[1044] "Vakit" qəzeti isə xarici mənbələrə istinad edərək belə bir iddia ilə çıxış etdi ki, "Cənubi Qafqaz federasiyasının yaradılması Ankara hökumətinin narazılığına səbəb olmuş və o, bu məsələ ilə bağlı öz narahatlığını Rusiya rəsmilərinə bildirmişdir".[1045] Milli azadlıq hərəkatını hələ aparmaqda olan Türkiyə qeyd edilən məsələ ilə bağlı hər hansı bir etiraz etsəydi belə, bunun elə bir əhəmiyyəti olmayacaqdı. Çünki Moskva hökuməti artıq öz mövqelərini kifayət qədər möhkəmləndirmişdi və indi onun siyasəti keçmiş rus çarizminin hüdudlarında unitar sovet imperiyasını yaratmağa yönəlmişdi.

Azərbaycanın Türkiyədəki diplomatik nümayəndəsi İ.Əbilov ilk əvvəl yaradılmaqda olan Cənubi Qafqaz federasiyası ilə bağlı Bakıdan rəsmən məlumatlandırılmamışdı. Bu səbəbdən o, türk mətbuatında "federasiya məsələsi" haqqında dərc edilən yazılara cavab verə bilmirdi. Buna görə də İ.Əbilov Azərbaycanın Xarici İşlər Komissarlığına göndərdiyi 21 noyabr 1921-ci il tarixli məxfi məktubda məlumat çatışmazlığından şikayətlənir və federasiya məsələsi ilə bağlı lazımi materialların ona göndərilməsini istəyirdi.[1046]

Cənubi Qafqaz respublikalarının "xarici siyasət"lərini tamamilə öz nəzarətinə götürən Rusiya Azərbaycanın Türkiyədəki səlahiyyətli nümayəndəliyinin fəaliyyətini də xeyli məhdudlaşdırdı. Mərkəzin göstərişi ilə nümayəndəlik lazımi informasiya ilə belə təmin edilmirdi. RSFSR-in Türkiyədə səlahiyyətli nümayəndəsi təyin olunan Semyon Aralovun 1922-ci ilin yanvarında Ankaraya gələrək öz səlahiyyətlərinin icrasına başlaması ilə Azərbaycan SSR-in Türkiyədəki diplomatik nümayəndəliyi faktiki olaraq öz fəaliyyətini dayandırdı. Onun mövcudluğu sadəcə rəmzi səciyyə daşıyırdı. G.Çiçerin Ankaradakı Rusiya missiyasına göndərdiyi məktubda yazırdı: "Cənubi Qafqaz respublikaları müstəqil xarici siyasət yeritmək istəyirlər. Buna görə də Mərkəzi Komitə onların hamısını RSFSR səlahiyyətli nümayəndəliyinə tabe etmək barədə

[1044] İkdam, 24 Ocak 1922, no. 8930.
[1045] Vakit, 27 Ocak 1922, no. 1483.
[1046] ARPİSSA, f. 609, siy. 1. iş 94, v. 135a.

qərar qəbul etmişdir".[1047] İ.Əbilov bu qərarı "qeyri-normal vəziyyət və tamamilə artıq" sayırdı və ona bu haqda məlumat verilməməsindən narazılıq edirdi. Onun fikrincə, Azərbaycanın diplomatik nümayəndəliyi onsuz da RSFSR nümayəndəliyi ilə qarşılıqlı surətdə fəaliyyət göstərdiyindən belə bir addım artıq idi. İ.Əbilov 1922-ci il 3 fevral tarixli məktubunda M.D.Hüseynovdan belə bir qərarı alıb-almadığını soruşur və bu barədə ona məlumat verilməsini istəyirdi. O, belə bir qərarın yerinə yetirilməsinin əleyhinə çıxırdı.[1048]

1922-ci il martın 12-də Azərbaycan, Gürcüstan və Ermənistan mərkəzi icraiyyə komitələrinin Tiflisdə keçirilən birgə konfransı Cənubi Qafqaz respublikaları arasında ittifaq müqaviləsini təsdiq etdi. Bu müqavilə ilə Cənubi Qafqaz Sovet Sosialist Respublikaları Federativ İttifaqının yaradıldığı elan olundu. Hərbi işlər, maliyyə, xarici siyasət, xarici ticarət, kommunikasiya vasitələri, iqtisadiyyata rəhbərlik və əksinqilaba qarşı mübarizə məsələləri İttifaq Sovetinin ixtiyarına verildi.[1049] Bununla razılaşmayan kommunistləri isə federasiya haqqında məsələnin mahiyyətini başa düşməməkdə və siyasi korluqda təqsirləndirdilər. 1922-ci il aprelin 28-də II ümum-Azərbaycan Sovetlər qurultayı ittifaq müqaviləsini ratifikasiya etdi.[1050]

Federativ ittifaqın yaradılmasından az sonra Azərbaycanın Türkiyədəki diplomatik nümayəndəliyinin də bu yeni struktura uyğunlaşdırılması məsələsi ortaya çıxdı. Qeyd edək ki, bu arada Türkiyə mətbuatında İ.Əbilovun geri çağırılması ilə bağlı müxtəlif səpkili məlumatlar yer almaqda idi.[1051] Bu məlumatlar içərisində o da qeyd olunurdu ki, İ.Əbilov geri çağırıldıqdan sonra Azərbaycan SSR Türkiyəyə yeni bir nümayəndə göndərməyəcək və RSFSR-in

[1047] Qasımov M. Xarici dövlətlər və Azərbaycan, s. 155.
[1048] Yenə orada, s. 155-156.
[1049] Azərbaycan tarixi. 3 cilddə. III c., I h., s. 310.
[1050] Бакинский рабочий, 1 мая 1922
[1051] Ikdam, 1 Mayıs 1922, no. 9025; Vakit, 22 Mayıs 1922, no. 1598.

Ankaradakı diplomatik nümayəndəsi S.Aralov burada eyni zamanda Azərbaycanı da təmsil edəcəkdir.[1052]

RSFSR Xarici İşlər Komissarlığının yaratdığı süni əngəllərdən dolayı artıq normal fəaliyyət göstərə bilməyən İ.Əbilov 1922-ci ilin mayında Rusiyanın Cənubi Qafqazdakı nümayəndəsi B.Leqrana teleqram göndərərək ailə vəziyyəti ilə əlaqədar olaraq onu əvəz etməyi və Ankaradan geri çağırmağı xahiş etdi. AK(b)P MK Rəyasət Heyətinin 6 may tarixli iclasında İ.Əbilovun istəyini yerinə yetirmək mümkün sayıldı, onun yerinə müavini Sultan Məcid Əfəndiyev təsdiq edildi. Bununla bağlı B.Leqran S.Kirov tərəfindən məlumatlandırıldı. AK(b)P MK Rəyasət Heyəti mayın 11-də İ.Əbilovu vəzifəsindən azad etmək xahişi ilə RK(b)P MK-ya müraciət etdi.[1053]

Sözsüz ki, qəti qərarı Moskva hökuməti verməli idi. Ona görə də yekun qərar verilənədək İ.Əbilovun öz vəzifəsində qalması qərarlaşdırıldı. Lakin RK(b)P-nin Qafqaz Diyar Komitəsi 1922-ci il sentyabrın 25-də keçirdiyi iclasında İ.Əbilovun Türkiyədəki fəaliyyətini təqdir edərək onun Cənubi Qafqaz Federativ İttifaqının Türkiyədəki diplomatik nümayəndəsi olaraq təyin edilməsinə qərar verdi.[1054] Bu qərar üzrə hərəkət edərək, 1922-ci il noyabrın 10-da Gürcüstanın xarici işlər komissarı Eliava və Ermənistanın xarici işlər komissarı Myasnikov öz hökumətlərini Türkiyədə təmsil etmək barədə İ.Əbilova mandat verdilər.[1055] İ.Əbilovun Cənubi Qafqazı Türkiyədə təmsil etməsi əslində formal səciyyə daşıyırdı. Çünki İ.Əbilovun nümayəndəliyi, qeyd etdiyimiz kimi, 1922-ci ilin yanvar ayından etibarən RSFSR-in Ankaradakı diplomatik missiyasının əlavəsinə çevrilmişdi, onun özü isə rəsmi olmasa da, S.Aralovun bir köməkçisi statusunda idi. İ.Əbilovun bu labüd acınacaqlı durumu ilə bağlı hələ onun sağlığında M.Ə.Rəsulzadə haqlı olaraq yazırdı: "Xaricə qarşı Azərbaycan yalnız iki yerdə təmsil olunuyordu: Ankara ilə Moskvada. Moskvada Azərbaycanı

---

1052 Vakit, 23 Mayıs 1922, no. 1599; İkdam, 14 Haziran 1922, no. 9067.
1053 Qasımov M. Xarici dövlətlər və Azərbaycan, s. 157-158.
1054 Aslan B. Türkiye-Azerbaycan İlişkileri ve İbrahim Ebilov, s. 269.
1055 ARPİİSSA, f. 276, siy. 5. iş 1, v. 92-93.

bir çox zaman moskvalı Salavyov namında birisi təmsil ediyordu. Ankarada isə Əbilov bəy təmsil ediyordu. Fəqət, Türkiyə əfkari-ümumiyyəsini iğfaldan (aldatmaqdan) başqa bir vəzifəsi olmayan bu yeganə mümәssili-siyasinin əcaib bir taleyi vardır. Əhibbadan (dostlardan) birisinin pək haqlı olaraq söylədiyi kibi o, dün Azərbaycanı təmsil ediyordu, bu gün Mavərayi-Qafqaz federasionunu təmsil ediyor. Yarın ehtimal Rusiyayı təmsil edəcək. O biri gün də mühəqqəq heç bir şeyi təmsil etməyəcəkdir!"[1056]

"Müstəqil" sovet respublikaları arasında mövcud olan müqavilə münasibətlərini aradan qaldırıb onları birbaşa Mərkəzin əmrinə tabe etmək məqsədilə Moskva hökuməti tərəfindən "bütün sovet respublikalarının vahid ittifaq dövlətində birləşdirilməsi" ideyası irəli sürüldü. 1922-ci ilin yayından etibarən Cənubi Qafqaz Federativ İttifaqının vahid Cənubi Qafqaz Federativ Respublikasına çevrilməsi və bunun Sovet Sosialist Respublikaları İttifaqına daxil edilməsi uğrunda kampaniya başladı.

1922-ci ilin avqustunda Moskvada sovet respublikaları arasında qarşılıqlı münasibətləri rəsmiyyətə salmaq məsələsinə həsr edilmiş müşavirə oldu. Burada qeyd edilən məsələni partiya plenumunun müzakirəsinə hazırlamaq üçün sovet respublikalarının nümayəndələrindən ibarət bir komissiya yaradıldı. Komissiya "muxtariyyətləşdirmə" haqqında İ.Stalin tərəfindən tərtib edilən tezisləri qəbul etdi. Bu tezislərdə "müstəqil" sovet respublikalarını muxtariyyət hüququ əsasında RSFSR-in tərkibinə daxil edilməsi nəzərdə tutulurdu. Lakin komissiyanın qərarı ilə tanış olan V.İ.Lenin "muxtariyyətləşdirmə" layihəsini ciddi tənqid etdi və İttifaq dövləti daxilində formal da olsa, respublikaların "suverenliyinin və bərabərliyinin" saxlanılmasını vacib bildi.

1922-ci il 10-13 dekabr tarixində Bakıda keçirilən Cənubi Qafqaz Sovetlərinin I qurultayı Cənubi Qafqaz Federativ İttifaqını Cənubi Qafqaz Sovet Federativ Sosialist Respublikasına çevirdi və Rusiya, Cənubi Qafqaz, Ukrayna və Belorusiya sovet respubli-

[1056] Rəsulzadə M.Ə. Azərbaycan Cümhuriyyəti. s. 83.

kalarından ibarət Sovet Sosialist Respublikaları İttifaqı (SSRİ) yaradılmasının zəruriliyi haqqında qərar qəbul etdi.

Cənubi Qafqaz, Ukrayna və Belorusiya sovet respublikalarının nümayəndələrinin iştirakı ilə 1922-ci il dekabrın 23-27-də keçirilən X ümum-Rusiya Sovetlər qurultayı SSRİ-nin yaradılması haqqında qərar qəbul etdi. 1922-ci il dekabrın 30-da Rusiya, Ukrayna, Belorusiya və Cənubi Qafqaz sovet respublikalarının səlahiyyətli nümayəndə heyətləri Moskvada SSRİ-nin yaradılması haqqında bəyannamə və müqavilə imzaladılar və SSR İttifaqında "könüllü surətdə" birləşdilər. Müqaviləyə görə, Azərbaycan SSR, habelə Gürcüstan SSR və Ermənistan SSR SSRİ-yə ayrı-ayrılıqda deyil, Cənubi Qafqaz Sovet Federativ Sosialist Respublikasının tərkibində daxil edildi.

SSRİ zahiri federativ quruluş pərdəsi altında tipik unitar rus dövləti idi. Azərbaycan SSR-in Cənubi Qafqaz Sovet Federativ Sosialist Respublikası tərkibində SSRİ-yə daxil edilməsi ilə Azərbaycanın formal müstəqilliyi dövrü də sona çatdı, onun rus sovet imperiyasının bir əyalətinə çevrilməsi prosesi tam olaraq yekunlaşdırıldı.

Türkiyə hökuməti Azərbaycanın formal da olsa, "müstəqilliyi"ni qorumaq üçün bütün mümkün vasitələrə əl atdı. Lakin son məqsədi keçmiş rus çarizminin hüdudlarında sovet imperiyası yaratmaq olan Moskva hökuməti buna imkan vermədi. Bəhs olunan dövrdə Rusiya müxtəlif vasitələrlə Anadolunu da sovetləşdirməyə cəhd edirdi. Buna görə də TBMM hökuməti bir tərəfdən Moskvanın bu məkrli siyasətinə qarşı mübarizə aparır, digər tərəfdən də Rusiya ilə münasibətlərini pozmaq istəmirdi. Belə bir vəziyyətdə Türkiyə Azərbaycanın formal müstəqilliyinin ləğv edilib onun rus Sovet imperiyasının tərkibinə qatılmasına qarşı seyrçi mövqe tutdu. Türkiyə bu prosesə hər hansı bir təsir etmək iqtidarında da deyildi. Moskvanın mövqeləri kifayət qədər möhkəmlənmiş, Türkiyədə isə azadlıq hərəkatı hələ davam etməkdə idi.

Azərbaycan SSR-in Türkiyədəki diplomatik nümayəndəsi İ.Əbilov 1923-cü il fevralın 23-də vəfat etdi [1057] Onun yerinə Ankaraya digər bir nümayəndə göndərilmədi və nümayəndəlik bağlandı. M.Şövkət bəyin rəhbərlik etdiyi Türkiyənin Bakıdakı nümayəndəliyinin 1924-cü il martın 31-də bağlanması ilə Türkiyə-Azərbaycan diplomatik münasibətləri də rəsmən sona çatdı.

---

[1057] BOA, HR.İM. no. 69/77, v. 1-2.

# NƏTİCƏ

1917-ci ilin fevralında Rusiyada 300 ildən artıq hökmranlıq edən və ölkəni xalqlar həbsxanasına çevirən Romanovlar sülaləsinin devrilməsi ilə çarizmin milli zülm siyasətindən cana doymuş xalqların, o cümlədən Azərbaycan xalqının milli azadlıq mübarizəsi görünməmiş şəkildə genişlənməyə başladı. Oktyabr çevrilişi ilə hakimiyyətə gələn bolşeviklərin siyasi təbliğat məqsədilə elan etdiyi "xalqların öz müqəddəratını təyin etmək" prinsipi rus imperiyasının pəncəsində əzilən xalqların istiqlal mübarizəsinə güclü təkan verdi. Bolşeviklərin hakimiyyətə gəlməsi ilə Rusiyanı cənginə alan vətəndaş müharibəsi və anarxiya imperiyanın dağılmasını sürətləndirdi. Oktyabr çevrilişindən sonra faktiki olaraq Rusiyadan uzaq düşmüş Cənubi Qafqazda komissarlıq, sonradan Seym təşəkkül tapsa da, gerçəklikdən uzaq olub, məcburiyyət qarşısında yaranan birlik olan bu federal qurumun dağılması ilə Azərbaycan öz milli istiqlalına qovuşdu.

1917-ci ilin oktyabrında baş vermiş bolşevik çevrilişindən sonra Rusiyanın birtərəfli qaydada Birinci dünya müharibəsindən çıxması ilə Cənubi Qafqazda yaranmış yeni siyasi və hərbi şərait böyük dövlətlərin Azərbaycan və bütövlükdə Qafqaz siyasətinə əsaslı təsir göstərdi. Çevrilişdən sonra Cənubi Qafqazın Mərkəzi Rusiya ilə inzibati tabeçilik statusunun qeyri-müəyyən olaraq qalması, Cənubi Qafqaz ilə Rusiya arasında münasibətlərin tam aydınlaşmaması, həmçinin bu dövrdən başlayaraq dünya müharibəsində neft amilinin önə çıxması, bolşevizmin yayılma təhlükəsi və s. amillər böyük dövlətlərin Qafqazda fəallaşmasına gətirib çıxardı. Məhz bu dövrdən başlayaraq özünün ən yüksək mərhələsinə qədəm qoyan Azərbaycan xalqının milli istiqlal mübarizəsi daxil-

dən daha çox xarici amillərlə – Türkiyə, Rusiya, Almaniya və İngiltərə arasında gedən gərgin mübarizə ilə bağlı idisə, Türkiyə ilə Rusiya arasında gedən mübarizədən birbaşa asılı idi. Osmanlı imperiyasının yüz ildən artıq bir dövr ərzində Rusiya ilə qarşı-qarşıya dayandığı Cənubi Qafqazda yaranan yeni siyasi və hərbi vəziyyət İstanbul hökumətinin bölgə ilə bağlı planlarını həyata keçirmək üçün geniş imkanlar açırdı. Rusiyanın başı daxildə vətəndaş müharibəsinə qarışsa da, rəngindən asılı olmayaraq Rusiyanı təmsil edən bütün qüvvələr Azərbaycana nəinki müstəqillik, heç muxtariyyət belə vermək istəmir və Osmanlı imperiyasının bölgəyə hakim olmasına qarşı əllərində olan bütün vasitələrlə mübarizə aparırdılar. 1917-ci il Oktyabr çevrilişindən sonra Osmanlı imperiyası ilə Rusiya arasında Qafqazda gedən mübarizənin əsas obyekti Azərbaycan olmuşdur.

Problemin ilkin mənbələr və geniş elmi ədəbiyyat əsasında araşdırılması nəticəsində əldə etdiyimiz yekunları ümumiləşdirərək aşağıdakıları qeyd edə bilərik:

Birinci Dünya müharibəsi ərəfəsində müharibəyə hazırlaşan dövlətlərin hər birinin dünyanın siyasi xəritəsini öz xeyrinə dəyişdirməklə bağlı planları var idi. Böyük dövlətlərin "qurdlar süfrəsi"ndə yem olmaq istəməyən Osmanlı imperiyası Fransaya, İngiltərəyə, daha sonra Rusiyaya belə hərbi-siyasi ittifaq təklif etsə də, Osmanlı imperiyasını parçalamaq istəyən bu dövlətlərdən heç biri İstanbul hökumətinin ittifaq təklifini qəbul etmədi. Nəhayət, Osmanlı hökuməti Ənvər paşanın təsiri və "əhvən-i şər" (pislərin ən yaxşısı) hesabı ilə Almaniyanın yanında yer aldı. "Əlavə yük olar" deyə ilk əvvəl Türkiyəni öz tərəfinə çəkmək istəməyən Almaniya az sonra Antantaya qarşı ikinci cəbhə açmaq zərurətindən dolayı Osmanlı imperiyası ilə ittifaq bağladı. Türk ordularının döyüş qabiliyyətinin zəif olmasını nəzərə alan Almaniya Şərq cəbhəsindəki rus ordularının bir qismini yayındırmaq məqsədilə Türkiyənin Qafqaz cəbhəsi açmasında maraqlı idi. İstanbulun Rusiyaya müharibə elan etməkdə ləng davrandığını görən Almaniya, Osmanlı imperiyasını hərəkətə gətirmək üçün "müharibənin zəfərlə başa çatacağı təqdirdə Qafqazın Türkiyəyə veriləcəyini" Osmanlı

hakim dairələrinə vəd etdi.

Müharibəyə girdikdən sonra Türkiyə xaricindəki iki yüz milyondan artıq müsəlmandan və xüsusilə də Rusiyadakı türk-müsəlman zümrələrindən geniş ölçüdə faydalanmaq məqsədilə Osmanlı imperiyası “cihad” elan etdi və bütün türk-islam aləmini Antanta dövlətlərinə qarşı müharibəyə çağırdı. Qafqazda isə “türkçülük” və “turançılığ”ın əsaslarına söykənən bir siyasətin gerçəkləşdirilməsi planlaşdırılmışdı. Ümumiyyətlə, ittihadçılar Türkiyədə iqtidarı ələ keçirdikdən sonra Yusif Akçura tərəfindən irəli sürülmüş “Osmanlılıq”, “İslamçılıq” və “Türkçülük” cərəyanlarının hər üçünə söykənən bir siyasət yeritməyə başladılar. Lakin Birinci dünya müharibəsi başladıqdan sonra baş verən ictimai, siyasi və hərbi proseslər nə “Osmanlılığ”ın, nə də “İslamçılığ”ın gerçəkləşməsinin mümkün olmayacağını ortaya çıxardı. Müharibə başladıqdan sonra ərəblərin ingilislərə, ermənilərin ruslara meyl etmələri və bunlarla bağlı baş verən hadisələr “Türkçülüy”ü və “Turançılığ”ı ön plana çıxardı. Osmanlı hakim dairələri bundan sonra Qafqaz və Orta Asiya ilə daha çox maraqlanmağa başladılar və “Turançılıq” Osmanlı hökumətinin rəsmi siyasətinə çevrildi. Müharibənin əvvəllərində Qafqazın gələcək statusu ilə bağlı aparılan danışıqlarda Osmanlı hakim dairələri erməni və gürcülərə muxtariyyət (sonradan gürcülərə müstəqillik) vəd etsələr də, Azərbaycanın müstəqilliyinə dair heç bir vəd vermir, onun gələcək Turan imperiyasının tərkibinə qatılmasını planlaşdırırdılar.

Sarıqamış fəlakəti Osmanlı hökumətinin turançı siyasətinin önünə sədd çəkdikdən sonra Ənvər paşa Əmiraslan Xan Xoyskinin irəli sürdüyü layihəni qəbul etməli oldu. Bu layihəyə görə Cənubi Qafqazda Osmanlı imperiyasının himayəsi altında Azərbaycan və Dağıstanı əhatə edəcək bir müsəlman dövləti yaradılmalı idi. Bununla da Qafqazda Rusiya ilə Osmanlı imperiyası arasında bufer rolunu oynayacaq bir dövlətin qurulması fikri ortaya atılmış oldu. Osmanlı hakim dairələrinin mövqeyinə görə, Türkiyənin himayəsində olacaq bu “İslam dövləti” Osmanlı şahzadəsinin idarəsində olmalı idi.

Osmanlı hökuməti Qafqaz müsəlmanlarını Rusiyaya qarşı

ayağa qaldırmağa böyük əhəmiyyət verirdi. Bu məqsədlə Xəlil bəyin, Ömər Nacinin və Şoybner-Rixterin ekspedisiyaları təşkil edilsə və Əmiraslan xan ilə bu barədə razılığa gəlinsə də, Qafqaz müsəlmanlarını Rusiyaya qarşı ayağa qaldırmaq cəhdləri nəticəsiz qaldı. Müharibənin başlanğıcından Brest-Litovsk sülhünə qədər olan dövrdə Almaniya öz Qafqaz siyasətini Osmanlı hökuməti ilə bərabər və İstanbul vasitəsilə həyata keçirdiyindən, bəhs olunan dövrdə türklərin Qafqaz müsəlmanlarını Rusiyaya qarşı üsyana təhrik etmək cəhdləri və Qafqazla bağlı digər fəaliyyətləri təkcə Osmanlı imperiyasının deyil, eyni zamanda Almaniyanın da Qafqaz siyasəti kimi xarakterizə olunmalıdır.

Osmanlı hökuməti Azərbaycan və bütövlükdə Qafqazla bağlı planlarını reallaşdırmaq üçün diplomatik-siyasi vasitələrdən də istifadə edirdi. Ənvər paşanın təlimatı və yardımı ilə Şimali qafqazlı, azərbaycanlı və gürcülərdən ibarət yaradılmış "Qafqaz Komitəsi" Qafqaz xalqlarının apardığı milli istiqlal mübarizəsini Türkiyənin himayəsi altında birləşdirməyə çalışır və Qafqazda bir neçə muxtar ölkədən ibarət vahid dövlətin yaradılmasını və bu dövlətin idarəsinin Osmanlı şahzadəsinə verilməsini təklif edirdi. Bu ideyanın gerçəkləşməsi üçün Almaniya və Avstriya-Macarıstanın dəstəyinə ehtiyac duyan Osmanlı hakim dairələri Qafqaz Komitəsinin nümayəndələrindən ibarət bir heyəti Vyana və Berlinə göndərdilər. Daha sonra Rusiya məhkumu olan millətlərdən Kazan, Türküstan və Krım nümayəndələrindən ibarət "Türk-tatar heyəti" təşkil edilərək Avropaya göndərildi. Bu heyətlərin təşkil edilməsində əsas məqsəd Rusiya müsəlmanlarının hüquqsuz vəziyyətini, çarizmin milli zülm siyasətini Avropaya çatdırmaq və rus imperiyasında yaşayan türk-müsəlman xalqların milli azadlıq mübarizəsinə Avropa dövlətlərinin dəstəyini almaq idi. Lakin bu səfərlər istənilən nəticəni vermədi.

Rusiya müharibənin əvvəllərində Azərbaycan xalqının milli azadlıq hərəkatının genişlənməsindən çəkinərək, azərbaycanlılara münasibətdə onları Osmanlıdan uzaq tutmağa, ölkədə sünni-şiə ixtilaflarından bir alət kimi istifadə etməyə çalışırdı. Rusiyada yaşayan müsəlmanlar, o cümlədən azərbaycanlılar hərbi xidmətə ça-

ğırılmırdılar. Çarizm orduda xidmət edən müsəlmanların cəbhələrdə Osmanlı ordusuna qarşı vuruşmayacağından və silahı rus müstəmləkəçilərinə qarşı çevirə biləcəyindən qorxurdu. Rusiya hakimiyyət orqanları müstəmləkə zülmü altında olan azərbaycanlılara və digər müsəlmanlara inanmadıqlarından, müharibə başladıqdan dərhal sonra onların üzərinə ciddi nəzarət qoydular, hətta 1916-cı ilin yayında Azərbaycanda fövqəladə vəziyyət elan etdilər. Milli ziyalılar təqib edilməyə başladı, qəzetlər üzərində ciddi senzura nəzarəti qoyuldu, rabitə və yazışmalar izlənildi və s. Ümumilikdə, müharibənin gedişində Rusiya Azərbaycana xammal mənbəyi, mühüm iqtisadi baza və Türkiyəyə hücum üçün hərbi-strateji məntəqə kimi baxırdı və burada Rusiya üçün hər hansı bir xoşagəlməz hadisənin baş verməməsi üçün bütün lazımi tədbirlər görülürdü.

Sovet Rusiyası "xalqların öz müqəddəratını təyin etmək" hüququnu elan etsə də, əslində bu gələcək sosialist mərkəzçiliyinə və ya unitar dövlətçiliyə keçid üçün sadəcə bir mərhələ idi. Bu "müqəddəratını təyin etmək" hüququ sovet hökumətinin siyasətini ört-basdır etmək, rus çarizminin əsarətdə olan xalqlara qarşı yeritdiyi siyasətin başqa formada davam etdirilməsi və azad olmaq istəyən xalqları boğmaqdan başqa bir şey deyildi. Bu prinsipin əsl mahiyyəti 1918-ci ilin martında Bakıda törədilmiş türk-müsəlman qırğınında tam mənası ilə üzə çıxdı.

Brest-Litovsk sülh konfransında Osmanlı hökumətinin reallaşdırmaq istədiyi üç böyük istəyindən biri – Sovet Rusiyasının elan etdiyi "xalqların öz müqəddəratını təyin etmək" hüququndan yararlanıb Qafqaz müsəlmanlarının müstəqilliyinə nail olmaq və Qafqazda Türkiyənin himayəsi altında bir "İslam dövləti" yaratmaq idi. Bu dövlətə Azərbaycan və Dağıstanın daxil edilməsi nəzərdə tutulurdu. Almaniya və Avstriya-Macarıstan dövlətləri Türkiyənin bu tələbini Rusiya ilə sülh üçün təhlükə kimi qiymətləndirdilər və dəstəkləmədilər. Bundan istifadə edən Sovet Rusiyası Türkiyənin bu tələbini qəti olaraq rədd etdi. Osmanlı hökumətinin konfransda ərazi məsələləri ilə bağlı irəli sürdüyü üç tələbindən ikisi – Şərqi Anadolu vilayətlərinin boşaldılması və Qars, Ərdəhan

və Batumun Türkiyəyə qaytarılması artıq reallaşdığından türklər sülhü təhlükəyə salmamaq üçün "Qafqaz müsəlmanlarının müstəqilliyi" məsələsində israr etmədilər, buna heç imkan da qalmamışdı.

Cənubi Qafqaz Komissarlığı yarandıqdan sonra Osmanlı hökuməti ilk əvvəl qəti olaraq bu qurumu tanımamaq siyasəti yeritdi. Lakin Ərzincan barışığından sonra Osmanlı hökuməti qəfil mövqeyini dəyişərək Cənubi Qafqaz hökumətinin "müstəqilliyi"ni tanımaq və bununla da Rusiyanın Qafqaza hakim olmasının qarşısını almaq qərarına gəldi. Türkiyə ilə Rusiya arasında Qafqazda bufer rolunu oynayacaq bir dövlətin yaranması bu dövrdə Osmanlı hökumətinin planlarına uyğun idi. Amma Osmanlı hakim dairələri bu dövləti erməni və gürcülərin üstünlük təşkil etdikləri Cənubi Qafqaz Komissarlığının timsalında deyil, Qafqaz müsəlmanlarının Türkiyənin himayəsi altında olacaq bir "İslam dövləti" kimi görmək istəyirdilər. Lakin Şərqi Anadolunun da bir hissəsi ruslar tərəfindən işğal edildiyindən türklər Qafqazdan uzaq düşmüşdülər və bölgədə baş verən hadisələrin gedişinə təsir etmək imkanında deyildilər. Bu səbəbdən Osmanlı hökuməti reallıqla barışıb Cənubi Qafqaz Komissarlığı ilə əlaqə yaratmaq və onun "müstəqilliyi"ni tanımaq qərarına gəldi. Amma komissarlıq özünü müstəqil dövlət deyil, Rusiyanın bir hissəsi hesab edirdi. Bir qədər sonra, Rusiyada Müəssislər Məclisinin qovulmasından dolayı Cənubi Qafqazda Seym yarandı. Osmanlı hökuməti Seymin yaranmasını Cənubi Qafqazın Rusiyadan ayrılması yolunda mühüm mərhələ kimi qiymətləndirdi və Seymin müstəqilliyinin elan edilməsinə çalışdı. Osmanlı hökuməti çalışırdı ki, Şimali Qafqazı da Cənubi Qafqaz Seyminə daxil etsin, burada müsəlman çoxluğuna nail olsun və bununla da Seymi tam olaraq öz nəzarətinə keçirsin. Lakin bu istək reallaşmadı. Belə olduqda, Osmanlı hökuməti Cənubi Qafqaz federasiyasının parçalanmasını uyğun bildi.

Oktyabr çevrilişindən sonra Antanta dövlətləri bir tərəfdən bolşevizmin yayılmasının qarşısını almaq, digər tərəfdən də Osmanlı imperiyasının Qafqaza doğru irəliləməsinə yol verməmək üçün Qafqazı ingilis zonası elan etdilər və göstərilən təhlükələrə

qarşı çıxış etmək hüququnu İngiltərəyə verdilər. İngilislər də Qafqaza türk irəliləyişinin qarşısını almaq üçün erməniləri silahlandırıb, onları türklərə qarşı dəstəklədilər və ermənilərin müqavimətini yaxşı təşkil etmək üçün bölgəyə bir hərbi kontingent göndərmək qərarına gəldilər. Nəticədə, Osmanlı imperiyası Brest-Litovsk sülhü ilə ona verilmiş ərazilərə silah gücünə yiyələndi. Bu da öz növbəsində, Batum konfransında türklərin mövqeyinin sərtləşməsinə gətirib çıxardı.

Brest-Litovsk sülhündən sonra Qafqazda fəallaşan Almaniya Batum konfransı ərəfəsində "Almaniya və Türkiyə ilə Cənubi Qafqaz Respublikası arasında bağlanacaq müqavilənin layihəsi"ni ortaya çıxartdı. Bu layihəyə görə, Cənubi Qafqaz tam olaraq Almaniyanın nəzarətinə keçirdi. Bölgə ilə bağlı özünün planları olan Osmanlı hökuməti qəti olaraq alman layihəsindən imtina etdi və mayın əvvəllərində özünün "Osmanlı imperiyası ilə Cənubi Qafqaz Respublikası arasında imzalanacaq müqavilənin layihəsi"ni ortaya qoydu. Bu layihə alman layihəsinə əks bir layihə idi. Osmanlı hökumətinin "Cənubi Qafqaz hökuməti sülh yolu ilə qəbul etməzsə, hərb yolu ilə ona qəbul etdirmək istədiyi" bu müqavilə layihəsi 1918-ci il iyunun 4-də cüzi dəyişikliklərlə türklər tərəfindən Cənubi Qafqaz respublikalarına qəbul etdirildi.

Cənubi Qafqaz Federativ Demokratik Respublikasının elan olunması Sovet Rusiyası tərəfindən çox mənfi qarşılandı və rəsmi Moskva Tiflis hökumətinə qarşı yönəlmiş təzyiqlərini gücləndirdi. Lakin bu dövrdə sovet hökumətinin başı daxildə vətəndaş müharibəsinə qarışdığından o, Cənubi Qafqaza qarşı hər hansı bir real hərbi müdaxilə etmək iqtidarında deyildi və yalnız diplomatik təzyiqlərlə kifayətlənməli oldu.

Osmanlı qoşunlarının Brest sülhü ilə Türkiyəyə verilmiş ərazilərə girməsi belə, Sovet Rusiyası tərəfindən etirazla qarşılandı. Sovet Rusiyası Cənubi Qafqaz hökumətini tanımamaq mövqeyini saxlamaqla Batum danışıqlarında iştirak etməyə cəhd göstərdi. Almaniya da Sovet Rusiyasının Batum danışıqlarında iştirakına çalışırdı və bundan Türkiyəyə qarşı bir təzyiq vasitəsi kimi istifadə etmək istəyirdi. Lakin Osmanlı və Cənubi Qafqaz heyətlərinin is-

rarlı müqaviməti nəticəsində bu baş tutmadı.

Batum müqaviləsinə görə, Azərbaycan da ərazi itkilərinə məruz qaldı. Trabzon konfransında Osmanlı hökumətinin Brest-Litovsk sülhü ilə bağlı tələblərini qəbul etməyən və bununla da müharibəyə rəvac verən erməni və gürcülərdən fərqli olaraq Azərbaycan nümayəndələrinin sülh tərəfdarı olmalarına və sonadək Türkiyə ilə müharibəyə qarşı mübarizə aparmalarına baxmayaraq, Türkiyə Cənubi Qafqaz ilə müharibədə axıdılmış qanların əvəzi olaraq Batum konfransında Ermənistan və Gürcüstanla paralel olaraq Azərbaycandan da bir sıra ərazilər tələb etdi və son nəticə etibarilə buna nail oldu. Bakının Sovet Rusiyasının qoruduğu Şaumyan rejiminin əlində olması, bolşevik-daşnak alyansı tərəfindən Azərbaycanın bir çox qəzalarında müsəlman əhaliyə qarşı törədilən qırğın və talanlar və bununla bağlı ölkədə tüğyan edən anarxiya qarşısında Osmanlı imperiyasının hərbi yardımına böyük ehtiyac duyan Azərbaycan nümayəndələri ölkəyə bu yardımı təmin etmək üçün türklərin tələblərini qəbul etməyə məcbur oldular. Nəticədə, Azərbaycan Cümhuriyyəti, eyni zamanda Gürcüstan və Ermənistan respublikaları Tiflis quberniyasının Abastuman və Askueri istisna olmaqla Axıska və Axalkələk qəzalarının, İrəvan quberniyasının Aleksandropol qəzasının qəza mərkəzi olan eyni adlı şəhər də daxil olmaqla qərb hissəsinin, Sürməli qəzasının tamamilə, Eçmiədzin qəzasının Sərdarabad hissəsinin, İrəvan qəzasının Kəmərli, Uluxanlı və Vedibasar bölgələrinin, Şərur-Dərələyəz qəzasının Şərur hissəsinin və Ordubad istisna olmaqla Naxçıvan qəzasının Osmanlı imperiyasına keçdiyini təsdiq etdilər. Həmçinin, Azərbaycan tərəfi İrəvan mərkəz olmaqla erməni dövlətinin yaradılmasını qəbul etməli oldu.

Batum müqavilələri ilə Azərbaycanda Türkiyəyə geniş fəaliyyət sərbəstliyi və müstəsna hüquqlar verildi, əvəzində ölkəyə Osmanlı hərbi yardımı təmin edildi. Azərbaycan Cümhuriyyətinin yaranmasının özü də Batum konfransının bir nəticəsi idi.

Osmanlı hökuməti Azərbaycan və bütövlükdə Qafqazla bağlı planlarını reallaşdırmaq üçün hələ 1918-ci ilin fevralında bölgəyə ordu hissələri göndərmək qərarına gəlmişdi. Lakin bu məsələ ilə

bağlı türk siyasi və hərbi dairələrində müəyyən fikir ayrılıqları var idi. Ənvər paşa Qafqazdan Orta Asiyaya qədər olan əraziləri ələ keçirərək böyük türk birliyi olan "Turan"ı gerçəkləşdirmək istəyirdi. Sarıqamış fəlakəti bu planın qarşısına sədd çəksə də, 1917-ci ilin Oktyabr çevrilişi yeni ümidlər yaratdı. 1917-ci ilin dekabrında Həsən Ruşeni bəyin rəhbərliyində İttihad və Tərəqqi partiyasının "Qafqaz şöbəsi" yaradıldı. Bakıda fəaliyyətə başlayan bu təşkilat təkcə Azərbaycanda deyil, Şimali Qafqaz və Türküstanda da Türkiyə lehinə təbliğat aparmalı, bu bölgələrin nümayəndələrindən onların Osmanlı imperiyasına ilhaq olunmasını tələb edən heyətlər təşkil edib İstanbula göndərməli idi. İttihad və Tərəqqi partiyasının "Qafqaz şöbəsi" xalq kütlələri arasında "Azərbaycanın xilasının yeganə yolu onun Osmanlı imperiyası ilə birləşməsi olduğu" istiqamətində geniş təbliğat işi aparırdı. "Qafqaz şöbəsi"nin təşkilatçılığı ilə Azərbaycanın ayrı-ayrı bölgələrindən İstanbul hökumətinə Azərbaycanın Osmanlı imperiyasına ilhaq edilməsi ilə bağlı müraciətlər göndərildi. Bir sözlə, "Azərbaycanın Osmanlı imperiyasına ilhaq edilməsi" ilə bağlı edilən müraciətlərin əsasında elə İstanbul hökumətinin öz turançı siyasəti dayanırdı. Gəncədə baş vermiş 1918-ci ilin "İyun böhranı" da məhz bu siyasətin bir nəticəsi idi. Halbuki, Osmanlı ordusu "Azərbaycan hökumətinin Batum müqaviləsinin dördüncü maddəsinə istinadən yardım üçün Türkiyəyə etdiyi müraciətə əsasən" Gəncəyə gəlmişdi və Azərbaycan hökumətinə tabe olmalı idi. Brest sülhü ilə Azərbaycanı Rusiyanın bir hissəsi kimi qəbul etmiş Osmanlı imperiyası buraya başqa cür gələ də bilməzdi. Əks təqdirdə Brest sülhünü pozmuş olurdu. Sovet Rusiyası onsuz da Türkiyənin bu müdaxiləsinə etiraz edirdi. Eyni zamanda, Almaniya da Türkiyənin Azərbaycan siyasətini dəstəkləmirdi. Əslində Azərbaycan nümayəndələrinin Batum müqaviləsinə istinadən hərbi yardım üçün Osmanlı hökumətinə müraciət etmələri sadəcə hüquqi prosedurları tamamlamaq məqsədi daşıyırdı və bu, Osmanlı hakim dairələri tərəfindən türk qoşunlarının Azərbaycana müdaxiləsinin beynəlxalq aləm qarşısında "işğal" faktı kimi dəyərləndirilməməsi üçün atılmış bir addım idi. Digər tərəfdən Batum müqaviləsi hələ rati-

fikasiya edilməmişdi. Osmanlı hökuməti bu müqaviləni sonadək ratifikasiya etmədi. İstanbul hökuməti Azərbaycanın ilhaqını Qafqazın beynəlxalq vəziyyətini aydınlaşdırandan və Bakının tutulmasından sonra həyata keçirəcəkdi.

Mudros barışığı ərəfəsində Ənvər paşanın Azərbaycanın müstəqilliyinin İngiltərə tərəfindən tanınması üçün göstərdiyi cəhdlər onun gəlib Azərbaycana yerləşmək, buradan Türkiyənin milli hüquqları uğrunda azadlıq mübarizəsinə başlamaq niyyətləri ilə bağlı idi. Lakin bu cəhdlər uğursuzluqla nəticələndi.

1918-ci ilin yayında Osmanlı imperiyası ilə Rusiya arasında neft Bakısına və bütövlükdə Azərbaycana sahib olmaq uğrunda gedən gərgin mübarizə Türkiyənin qələbəsi ilə başa çatdı. Bakı XKS süqut etdi və Qafqaz İslam Ordusu tərəfindən Bakı azad edildi. Müharibədə Türkiyənin müttəfiqi olan Almaniya, Sovet Rusiyası ilə separat danışıqlara gedib 27 avqust müqaviləsini imzalasa da, bunun elə bir əhəmiyyəti olmadı, müqavilə kağız üzərində qaldı. Bakı uğrunda mübarizədə özünəməxsus çəkisi olan Almaniya və İngiltərə dövlətləri mövcud şərtlər daxilində Türkiyənin bu uğuru ilə barışmalı oldularsa da, Bakıya öz ərazisi kimi baxan Sovet Rusiyası neft şəhərinin itirilməsi ilə qətiyyən barışa bilmədi.

"Bakı məsələsi" ilə bağlı Almaniya, Osmanlı və Rusiya arasında mövcud olan ziddiyyətlərin kəskinləşməsi "Azərbaycan məsələsi"ni 1918-ci ilin sentyabrında Berlində aparılan türk-alman-rus danışıqlarının əsas mövzusuna çevirdi. Osmanlı hökuməti Azərbaycanda Almaniyaya böyük iqtisadi güzəştlər verməklə Azərbaycan məsələsində almanlarla razılığa gələ bildi və bu razılıq 23 sentyabr 1918-ci il tarixli "Osmanlı-Alman protokolu"nda təsbit edildi. Lakin Sovet Rusiyası ilə razılığa gəlmək mümkün olmadı, hazırlanmış türk-rus protokolu imzalanmamış qaldı. Sovet Rusiyasının "Azərbaycan məsələsi"ndə Türkiyə ilə razılığa gələ bilməməsi iki ölkə arasında diplomatik münasibətlərin kəsilməsi ilə nəticələndi. Birinci dünya müharibəsində Almaniya-Osmanlı bloku məğlub oldu. 1918-ci il oktyabrın 30-da Osmanlı hökuməti Mudros barışığını imzaladı və bu barışığa görə türk qoşunları

Azərbaycandan çıxarıldı. Bu zaman Sovet Rusiyası Brest-Litovsk sülhünün qüvvədən düşdüyünü bəyan etdi və rus imperiyasını 1914-cü il sərhədlərində bərpa etmək uğrunda mübarizəyə başladı.

1919-cu ilin mayında Mustafa Kamal paşanın rəhbərliyi ilə Türkiyədə milli azadlıq hərəkatı başladı. Türkiyədə yaranmış ikihakimiyyətlilik Azərbaycan Cümhuriyyəti hökumətinin Türkiyəyə münasibətdə yeritdiyi siyasətində bir sıra çətinliklər yaratdı. Azərbaycan hökuməti bir tərəfdən rəsmi İstanbul hökuməti ilə münasibətlərini davam etdirir, digər tərəfdən maliyyə və hərbi yardımlara kəskin ehtiyac duyan Anadolu hərəkatına dəstək verir və yardım edirdi. Bu dövrdə ingilislərin nəzarətində olan Osmanlı sultanı Ə.Topçubaşovu Azərbaycan nümayəndəsi kimi deyil, sabiq Duma üzvü olması nəzərə alınaraq Rusiya nümayəndəsi tək qəbul etməyə məcbur olduğu kimi, ölkənin ingilislərin köməyi ilə beynəlxalq arenada tanınmasına çalışan Azərbaycan hökuməti də Anadolu hərəkatına açıq formada yardım göstərə bilmirdi. Lakin Anadolu hərəkatının liderləri bunu diqqətə almırdılar. Anadolu hərəkatının ehtiyac duyduğu böyük miqdarda yardımları Azərbaycan hökuməti təmin edə bilməsə də, Bakıdakı Türkiyə nümayəndələrinin Sovet Rusiyasının nümayəndələri ilə apardıqları danışıqlarda bolşeviklər türklərə hər cür hərbi və maliyyə yardımlarının göstəriləcəyini vəd etdilər. Bu yardımların müqabilində türklər Azərbaycan milli hökumətinin devrilməsində bolşeviklərə kömək etməli idilər. Bolşeviklərlə razılığa gəlmiş Bakıdakı Anadolu nümayəndələri Azərbaycan hökumətinin Türkiyəyə yardım etmək istəyinə etinasız yanaşdılar və hətta bu yardımın gerçəkləşməsinə belə mane oldular.

Sovet Rusiyası nəyin bahasına olursa-olsun keçmiş rus imperiyasını bərpa etməyi qarşısına məqsəd qoymuşdu. Bu məqsəd rəngindən asılı olmayaraq Rusiyanı təmsil edən bütün qüvvələrin amalı idi. 1920-ci ilin əvvəllərində Rusiyada vətəndaş müharibəsi əsasən başa çatdıqdan sonra bolşevizm təhlükəsi Azərbaycanı təhdid etməyə başladı. Dağılmış rus iqtisadiyyatını bərpa etmək üçün neft Bakısı sovetlər üçün həyati əhəmiyyət daşıyırdı. Bu səbəbdən bolşeviklər Azərbaycanın işğalını tezliklə həyata keçirməyə tələ-

sirdilər. Yerli bolşeviklər Azərbaycanın yenidən Rusiya tərəfindən işğal edilməsində xüsusi rol oynasalar da, sovet tarixşünaslığında yer almış "Bakı proletariatı silahlı üsyan yolu ilə "Müsavat" hökumətini devirib Azərbaycanı Sovet Sosialist Respublikası elan etdi" tezisinin heç bir elmi əsası yoxdur. XI Qızıl Ordu heç bir rəsmi dəvət olmadan Azərbaycan sərhədini keçdi və Azərbaycanı işğal etdi. Azərbaycana verilmiş "müstəqillik" formallıqdan başqa bir şey deyildi. Bir qədər sonra bu formal müstəqillik də ləğv edildi və Azərbaycanın Sovet imperiyasına daxil edilməsi hüquqi cəhətdən də təsbit edildi.

Türkiyə ilə Sovet Rusiyasını hər iki ölkənin Antantaya qarşı aparmaqda olduqları mübarizə və beynəlxalq aləmdə təklənmələri yaxınlaşdırdı. Azərbaycan Rusiyanı öz istiqlalı üçün real təhlükə hesab etdiyi halda, Anadolu hərəkatı bolşevikləri təbii müttəfiq sayırdı. Rusiyaya münasibət baxımından Azərbaycanla Türkiyənin mənafeyi bir-birinə zidd idi. Türkiyənin xilası üçün Sovet Rusiyasının böyük miqdarda hərbi və maliyyə yardımlarına ehtiyac duyan Anadolu hərəkatı Azərbaycan Cümhuriyyətinin süqutunda müstəsna rol oynadı. Məhz Azərbaycandakı Anadolu hərəkatı nümayəndələrinin birbaşa iştirakı və fəal yardımı ilə Sovet Rusiyası 1920-ci ilin 27 aprel istilasını həyata keçirdi. Türkiyənin bu mövqeyi onun "özünü xilas etmək zərurəti"ndən qaynaqlanırdı. Bolşeviklər Türkiyəyə ediləcək yardımların gerçəkləşməsi üçün Azərbaycanın sovetləşdirilərək Rusiyanın nüfuz dairəsinə keçirilməsini və bu "sovetləşdirmə əməliyyatı"nda Türkiyənin Azərbaycandakı nüfuzundan istifadə edilməsini şərt qoymuşdular.

Türkiyə ilə bolşeviklər arasında "Azərbaycanın sovetləşdirilməsi və bunun müqabilində Anadoluya sovet yardımlarının təmin edilməsi" ilə bağlı danışıqlar 1919-cu ilin payızında başlamışdı və 1920-ci ilin əvvəlində tərəflər arasında bu barədə razılıq əldə edildi. Bakıda Anadolu nümayəndələrindən ibarət Türk Kommunist Firqəsi quruldu və bu firqə Azərbaycan milli hökumətini devirməyi özünün əsas məqsədi elan edib bolşeviklərlə iş birliyinə girdi, nəticədə Azərbaycanın faciəsi həyata keçirildi. M.Kamal paşanın Moskvaya göndərdiyi 26 aprel 1920-ci il tarixli məktub isə,

"Azərbaycan və Ermənistanı istila edəcək bolşevik ordularının Elviye-i Səlasədə türk orduları ilə qarşılaşacaqları zaman hər hansı bir xoşagəlməz hadisənin baş verməsinin qarşısını almaq" zərurətindən meydana gəlmişdi. Çünki XI Qızıl Ordu 1914-cü il sərhədlərini hədəf götürmüşdü. Bu da öz növbəsində, Anadolu hərəkatının Osmanlı hökumətinin Brest-Litovsk sülhü ilə əldə etdiyi ərazilərin itirilməsi təhlükəsi ilə üz-üzə qalması demək idi. M.Kamal və K.Qarabəkir paşaların narahatçılığı bu məsələ ilə bağlı idi və 26 aprel tarixli məktub da bu təhlükənin sovuşdurulması məqsədilə yazılmışdı. Azərbaycanın faciəsinə isə bu məktubdan xeyli əvvəl imza atılmışdı. Azərbaycanın sovetləşdirilməsi əməliyyatında göstərdiyi yardım müqabilində 1920-1922-ci illərdə Sovet Rusiyası Türkiyəyə böyük miqdarda hərbi yardımla yanaşı, 17.466.800 qızıl rubl məbləğində maliyyə yardımı göstərdi.

Birinci dünya müharibəsindən sonra hər iki ölkəni təhdid edən qalib dövlətlərə qarşı mübarizədə maraqların eyniliyinə baxmayaraq, Sovet Rusiyasının M.Kamal paşanın simasında Türkiyə üçün bolşevik lideri hazırlamaq planları baş tutmadı. Antantaya qarşı mübarizədə sinfi maraqlara deyil, xalqın milli iradəsinə dayanan M.Kamal paşa Rusiya ilə yaxınlıq etsə və Azərbaycanın Türkiyənin yardımı ilə sovetləşdirilməsini qəbul etsə də, bolşevik ideyalarını öz ölkəsinə buraxmadı.

Moskva konfransında türk-rus heyətləri arasında Azərbaycanın ərazi bütövlüyü məsələsi ətrafında qızğın müzakirələr getdi. Türk heyəti Naxçıvanın Türkiyənin himayəsində qalmasına çalışdı, lakin ruslar bunu qətiyyətlə rədd etdilər. Sovet Azərbaycanının nümayəndəsi Naxçıvanı Rusiyanın himayəsində müstəqil bir dövlət olaraq görmək istəyirdi. Belə olduqda türk heyəti Naxçıvanın Türkiyə və Azərbaycanın müştərək himayəsi altında müstəqil bir dövlət olmasına çalışdı. Bu da qəbul olunmadıqda, Türkiyə Naxçıvan üzərindəki himayəçilik hüququnu Azərbaycanın üçüncü bir dövlətə güzəştə getməyəcəyinə dair öhdəlik götürdüyü təqdirdə ona verməyə razılaşdı və gərgin əməyi sayəsində bu formulu Rusiyaya qəbul etdirdi. Bu, Azərbaycanın kommunist rəhbərliyinin Naxçıvanı Ermənistana yenidən hədiyyə etmək cəhdinin qarşısını

aldı.

Türkiyə bu dövrdə sovet quruluşunda da olursa-olsun, Azərbaycanın müstəqil qalmasına çalışırdı. Bu məqsədlə Türkiyə Bakıya diplomatik nümayəndə göndərdi, Azərbaycanla ayrıca müqavilə imzalamağa cəhd etdi və s. Lakin Moskvanın əlində oyuncaq olan Azərbaycanın sovet rəhbərliyi Türkiyə ilə müstəqil olaraq müqavilə imzalamaqdan imtina etdi. Cənubi Qafqaz respublikaları ilə Türkiyə arasındakı Qars konfransında türk heyətinin göstərdiyi bütün cəhdlərə baxmayaraq, Rusiya Türkiyənin Qafqaz respublikaları ilə ayrı-ayrılıqda müqavilə bağlamasına imkan vermədi. Qars konfransı cüzi dəyişikliklərlə Moskva konfransının qərarlarını bir daha təsdiq etdi.

Türkiyənin Azərbaycanın formal da olsa, müstəqilliyini qorumaq cəhdləri uğursuzluqla nəticələndi. Çünki Moskva hökumətinin son məqsədi keçmiş rus çarizminin hüdudlarında Sovet imperiyasını yaratmaq idi. Bu məqsəddə Azərbaycanın formal müstəqilliyinə də yer yox idi. Artıq Sovet Rusiyasının mövqeləri kifayət qədər möhkəmlənmiş, Türkiyədə isə milli azadlıq hərəkatı hələ davam etməkdə idi. Belə bir vəziyyətdə Ankara hökuməti Azərbaycanın formal müstəqilliyinin ləğv edilib onun Sovet imperiyasının tərkibinə qatılmasına qarşı seyrçi mövqe tutdu. Türkiyə bu prosesə hər hansı bir təsir etmək iqtidarında da deyildi.

Azərbaycan xalqı ölkənin suverenliyinin Rusiya tərəfindən bu cür tapdalanması ilə barışmadı və milli istiqlal mübarizəsinə qalxdı. Uzun illər boyu sovet rəhbərliyinin həyata keçirdiyi bütün qeyri-insani və dəhşətli cəza tədbirləri də Azərbaycan xalqının milli istiqlal əzmini qıra bilmədi və nəticədə 1991-ci ildə Azərbaycan yenidən öz istiqlalına qovuşdu.

1918-1922-ci illərdə mövcud olmuş beynəlxalq münasibətlər, Azərbaycanın təbii sərvətləri və strateji əhəmiyyətinə görə böyük güclərin toqquşan maraq dairələrində olması, Azərbaycanın ərazi bütövlüyü və suverenliyi üçün mövcud və yarana biləcək təhlükələr və s. bu gün də başqa formada eyni mahiyyətdə mövcuddur. Buna görə də Azərbaycan 1918-1922-ci illər təcrübəsini dərindən öyrənməli, ondan dərs almalı, nəticə çıxarmalı, bütün diqqətini öl-

kənin inkişafına və güclənməsinə yönəltməli, onun ərazi bütövlüyü və suverenliyi üçün yaranan istənilən təhlükəni öz gücünə arxalanaraq dəf etməli və bunu etmək iqtidarında olmalıdır.

# İSTİFADƏ EDİLMİŞ MƏNBƏ VƏ ƏDƏBİYYAT

## I. Arxiv sənədləri


1. Azərbaycan Respublikası Dövlət Arxivi (ARDA), fond (f.) 28, siyahı (siy.) 1, iş 5.
2. ARDA, f. 28, siy. 1, iş 25.
3. ARDA, f. 28, siy. 1, iş 49.
4. ARDA, f. 28, siy. 1, iş 55.
5. ARDA, f. 28, siy. 1, iş 58.
6. ARDA, f. 28, siy. 1, iş 66.
7. ARDA, f. 28, siy. 1, iş 67.
8. ARDA, f. 28, siy. 1, iş 68.
9. ARDA, f. 28, siy. 1, iş 69.
10. ARDA, f. 28, siy. 1, iş 81.
11. ARDA, f. 28, siy. 1, iş 123.
12. ARDA, f. 28, siy. 1, iş 133.
13. ARDA, f. 28, siy. 2, iş 27.
14. ARDA, f. 894, siy. 1, iş 25.
15. ARDA, f. 894, siy. 2, iş 88.
16. ARDA, f. 894, siy. 10, iş 47.
17. ARDA, f. 894, siy. 10, iş 66.
18. ARDA, f. 894, siy. 10, iş 98.
19. ARDA, f. 894, siy. 10, iş 106.
20. ARDA, f. 894, siy. 10, iş 107.
21. ARDA, f. 894, siy. 10, iş 139.
22. ARDA, f. 894, siy. 10, iş 144.
23. ARDA, f. 894, siy. 10, iş 145.
24. ARDA, f. 894, siy. 10, iş 149.
25. ARDA, f. 894, siy. 10, iş 150.
26. ARDA, f. 894, siy. 10, iş 151.
27. ARDA, f. 894, siy. 10, iş 188.
28. ARDA, f. 894, siy. 10, iş 192.
29. ARDA, f. 897, siy. 1, iş 86.
30. ARDA, f. 970, siy. 1, iş 1.

31. ARDA, f. 970, siy. 1, iş 3.
32. ARDA, f. 970, siy. 1, iş 4.
33. ARDA, f. 970, siy. 1, iş 68.
34. ARDA, f. 970, siy. 1, iş 112.
35. ARDA, f. 970, siy. 1, iş 138.
36. ARDA, f. 970, siy. 1, iş 157.
37. ARDA, f. 970, siy. 1, iş 224.
38. Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi Siyasi Sənədlər Arxivi (ARPİİSSA), f. 1, siy. 1, iş 2a.
39. ARPİİSSA, f. 1, siy. 1, iş 24.
40. ARPİİSSA, f. 1, siy. 2, iş 16.
41. ARPİİSSA, f. 1, siy. 10, iş 16.
42. ARPİİSSA, f. 276, siy. 3, iş 117.
43. ARPİİSSA, f. 276, siy. 5, iş 1.
44. ARPİİSSA, f. 276, siy. 9, iş 1.
45. ARPİİSSA, f. 277, siy. 2, iş 7.
46. ARPİİSSA, f. 277, siy. 2, iş 8.
47. ARPİİSSA, f. 277, siy. 2, iş 9.
48. ARPİİSSA, f. 277, siy. 2, iş 27.
49. ARPİİSSA, f. 609, siy. 1, iş 15.
50. ARPİİSSA, f. 609, siy. 1, iş 21.
51. ARPİİSSA, f. 609, siy. 1, iş 25.
52. ARPİİSSA, f. 609, siy. 1, iş 71.
53. ARPİİSSA, f. 609, siy. 1, iş 94.
54. ARPİİSSA, f. 609, siy. 1, iş 96.
55. Türkiye Cumhuriyeti Genelkurmay Askeri Tarih ve Stratejik Etüd Dairesi Başkanlığı Arşivi (ATASE), Birinci Dünya Harbi (BDH) Koleksiyonu, Klasör (K.) 17, Dosya (D.) 83.
56. ATASE, BDH, K. 151, D. 678.
57. ATASE, BDH, K. 152, D. 679.
58. ATASE, BDH, K. 152, D. 681.
59. ATASE, BDH, K. 153, D. 682.
60. ATASE, BDH, K. 243, D. 1009.
61. ATASE, BDH, K. 268, D. 1105.
62. ATASE, BDH, K. 324, D. 1308.

63. ATASE, BDH, K. 340, D. 1366.
64. ATASE, BDH, K. 529, D. 2067.
65. ATASE, BDH, K. 586, D. 34.
66. ATASE, BDH, K. 588, D. 36.
67. ATASE, BDH, K. 924, D. 1.
68. ATASE, BDH, K. 1854, D. 120.
69. ATASE, BDH, K. 2697, D. 284.
70. ATASE, BDH, K. 2897, D. 398.
71. ATASE, BDH, K. 2905, D. 433.
72. ATASE, BDH, K. 2906, D. 438.
73. ATASE, BDH, K. 2908, D. 444.
74. ATASE, BDH, K. 2909, D. 452.
75. ATASE, BDH, K. 2912, D. 468.
76. ATASE, BDH, K. 2914, D. 475.
77. ATASE, BDH, K. 2914, D. 477.
78. ATASE, BDH, K. 2917, D. 493.
79. ATASE, BDH, K. 2918, D. 496.
80. ATASE, BDH, K. 2919, D. 499.
81. ATASE, BDH, K. 2920, D, 506.
82. ATASE, BDH, K. 2921, D. 510.
83. ATASE, BDH, K. 2921, D. 511.
84. ATASE, BDH, K. 2922, D. 512.
85. ATASE, BDH, K. 2928, D. 545.
86. ATASE, BDH, K. 2930, D. 553.
87. ATASE, BDH, K. 3182, D. 15.
88. ATASE, BDH, K. 3195, D. 90.
89. ATASE, BDH, K. 3818, D. 2.
90. ATASE, BDH, K. 3823, D. 22.
91. ATASE, BDH, K. 3827, D. 38.
92. ATASE, BDH, K. 3939, D. 153.
93. ATASE, BDH, K. 4324, D. 200.
94. ATASE, BDH, K. 4801, D. 14.
95. Türkiye Cumhuriyeti Cumhurbaşkanlığı Devlet Arşivləri Başkanlığı Osmanlı Arşivi (BOA), BEO, A.VRK, Dosya / Gömlek no. (no.) 817/40.

96. BOA, BEO, no. 4539/340383.
97. BOA, BEO, no. 4553/341401.
98. BOA, DH.EUM.KLH, no. 1/22.
99. BOA, DH.EUM.SSM, no. 62/73.
100. BOA, DH.EUM, 2.Şb., no. 5/41.
101. BOA, DH.ŞFR, no. 641/67.
102. BOA, DH.ŞFR, no. 658/81.
103. BOA, HR.HMŞ.İŞO, no. 55/2.
104. BOA, HR.HMŞ.İŞO, no. 106/8.
105. BOA, HR.HMŞ.İŞO, no. 107/7.
106. BOA, HR.HMŞ.İŞO, no. 123/74.
107. BOA, HR.HMŞ.İŞO, no. 124/13.
108. BOA, HR.HMŞ.İŞO, no. 124/19.
109. BOA, HR.HMŞ.İŞO, no. 124/20.
110. BOA, HR.İM, no. 60/3.
111. BOA, HR.İM, no. 69/77.
112. BOA, HR.İM, no. 89/65.
113. BOA, HR.MTV, no. 639/1.
114. BOA, HR.SYS, no. 2296/1.
115. BOA, HR.SYS, no. 2303/11.
116. BOA, HR.SYS, no. 2303/14.
117. BOA, HR.SYS, no. 2371/6.
118. BOA, HR.SYS, no. 2372/1.
119. BOA, HR.SYS, no. 2372/3.
120. BOA, HR.SYS, no. 2373/1.
121. BOA, HR.SYS, no. 2373/4.
122. BOA, HR.SYS, no. 2374/1.
123. BOA, HR.SYS, no. 2374/2.
124. BOA, HR.SYS, no. 2375/8.
125. BOA, HR.SYS, no. 2397/6.
126. BOA, HR.SYS, no. 2398/4.
127. BOA, HR.SYS, no. 2398/5.
128. BOA, HR.SYS, no. 2398/7.
129. BOA, HR.SYS, no. 2399/1.
130. BOA, HR.SYS, no. 2415/51.

131. BOA, HR.SYS, no. 2457/60.
132. BOA, HR.SYS, no. 2463/61.
133. BOA, HR.SYS, no. 2885/19.
134. BOA, İ.DUİT, no. 12/29.
135. Türk İnkılap Tarihi Enstitüsü (TİTE) Arşivi, 132/19543.

**II. Dövri mətbuat**

136. Azərbaycan / Азербайджан (Bakı)
137. Бакинский рабочий (Bakı)
138. Вестник Бакинского Совнаркома (Bakı)
139. Известия Бакинского Совета (Bakı)
140. Коммунист (Bakı)
141. Alemdar (İstanbul)
142. Ati (İstanbul)
143. Hakimiyet-i Milliye (Ankara)
144. İleri (İstanbul)
145. İkdam (İstanbul)
146. İstikbal (Trabzon)
147. Sabah (İstanbul)
148. Tanin (İstanbul)
149. Tasvir-i Efkar (İstanbul)
150. Türk Dünyası (İstanbul)
151. Vakit (İstanbul)
152. Varlık (Sarıqamış)
153. Yeni Gün (İstanbul)

**III. Ədəbiyyat**

*a) Azərbaycan dilində*

154. Azərbaycan Cümhuriyyəti (1918-1920). N.Ağamalıyevanın redaktəsi ilə. Bakı: Elm, 1998.
155. Azərbaycan Cümhuriyyəti Hökumətinin qanun və binagüzarlıq məcmuəsi. 1919, № 1.
156. Azərbaycan Xalq Cümhuriyyəti (1918-1920). Parlament (Stenoqrafik hesabatlar). 2 cilddə. C. I-II. Bakı: Azərbaycan, 1998.

157. Azərbaycan Xalq Cümhuriyyəti Ensiklopediyası. İki cilddə. Baş redaktor: Y.Mahmudov. I c., Bakı: Lider, 2004; II c., Bakı: Lider, 2005.
158. Azərbaycan Xalq Cümhuriyyətinin 80 illiyinin keçirilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı – 30 yanvar 1998 / http://axc.preslib.az/az/page/_8bQ4nzv76X
159. Azərbaycan Xalq Cümhuriyyətinin 90 illik yubileyi haqqında Azərbaycan Respublikası Prezidentinin sərəncamı – 15 fevral 2008 / http://archive.president.az/ articles.php? item_id= 20080215094224869&sec_id=30
160. Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı – 16 may 2017 / http://www.president.az/articles/23701
161. Azərbaycan tarixi. 3 cilddə. III c., I h., Bakı: Elm, 1973.
162. Azərbaycan tarixi. 7 cilddə. V c., Bakı: Elm, 2001; VI c., Bakı: Elm, 2000.
163. Azərbaycana xarici müdaxilə tarixindən. 1918-1920-ci illər. Sənədlər və materiallar // Azərbaycan arxivi, 1988, № 1-2 (31-32), s. 15-196.
164. Azərbaycanda sosialist inqilabının qələbəsi uğrunda bolşeviklərin mübarizəsi. Sənədlər və materiallar. 1917-1918-ci illər. Tərtib edən: Z.İ.İbrahimov. Bakı: Azərnəşr, 1960.
165. Baykara H. Azərbaycan istiqlal mübarizəsi tarixi. Bakı: Azərnəşr, 1992.
166. Çıraqzadə V. İstiqlal yollarında. Bakı: Azərnəşr, 1992.
167. Əhmədova F. Nəriman Nərimanov – İdeal və gerçəklik. Bakı: Elm və Həyat, 1998.
168. Əliyev X.A. Azərbaycanda sosialist inqilabının bir sıra xüsusiyyətləri. Bakı: Azərnəşr, 1970.
169. Əliyev M.B. Qanlı günlərimiz (1918-1920. Naxçıvan). Bakı: Azərnəşr, 1993.
170. Əliyev N. Antantanın, Üçlər İttifaqı ölkələrinin və Sovet Rusiyasının Xəzər bölgəsində geostrateji rəqabəti və Azərbaycan // Tarix və onun problemləri, 2003, № 2, s. 70-78.

171. Əzizbəyova P.Ə. Azərbaycanda Sovet hakimiyyətinin qurulmasında böyük rus xalqının qardaşlıq köməyi. Bakı: Birləşmiş nəşriyyat, 1954.
172. Fətəli Xan Xoyski. Həyat və fəaliyyəti. Sənəd və materiallar. Bakı: Azərbaycan, 1998.
173. Həsənli C. Azərbaycan Xalq Cümhuriyyətinin Xarici Siyasəti (1918-1920). Bakı: "Garisma" MMC, 2009.
174. Həsənli C. SSRİ-Türkiyə. soyuq müharibənin sınaq meydanı. Bakı: Adiloğlu, 2005.
175. Həsənov C. Azərbaycan beynəlxalq münasibətlər sistemində (1918-1920-ci illər). Bakı: Azərnəşr, 1993.
176. Həsənov C. 1918-ci ilin martı: vətəndaş müharibəsi, yoxsa türk-müsəlman soyqırımı? "Azadlıq" qəzeti, 31 mart 1994.
177. Həsənov H. Nəriman Nərimanovun milli dövlətçilik baxışları və fəaliyyəti. Bakı: Elm, 2005.
178. Hətəmov R. Almaniyanın Şərq siyasətində yeni meyllər və Qafqaz uğrunda mübarizə (1917-ci ilin sonu – 1918-ci ilin mayı) // Tarix və onun problemləri, I məqalə, 1998, № 4, s. 58-66; II məqalə, 1999, № 1, s. 127-132.
179. İbrahimli X. Azərbaycan siyasi mühacirəti (1920-1991). Bakı: Elm, 1996.
180. İbrahimov Z. İngilis-amerikan müdaxiləçilərinə qarşı Azərbaycan xalqının mübarizəsi. Bakı: Uşaqgəncnəşr, 1950.
181. İbrahimov Z. Sosialist inqilabı uğrunda Azərbaycan zəhmətkeşlərinin mübarizəsi (1917-1918-ci illər). Bakı: Azərnəşr, 1957.
182. İbrahimov Z. V.İ.Lenin və Azərbaycanda sosialist inqilabının qələbəsi. Bakı: Azərbaycan Dövlət Nəşriyyatı, 1970.
183. İsgəndərov A. Azərbaycanda türk-müsəlman soyqırımı probleminin tarixşünaslığı 1918-1920. Bakı: Adiloğlu, 2006.
184. İsgəndərov A. 1918-ci il mart qırğınının tarixşünaslığı. Bakı: Mütərcim, 1997.
185. Qaffarov T.B. Azərbaycan tarixi (1920-1991). Bakı: Mütərcim, 1999
186. Qasımov M. Birinci dünya müharibəsi illərində böyük döv-

lətlərin Azərbaycan siyasəti (1914-1918-ci illər). 3 hissədə, I hissə (1914-cü il avqust – 1917-ci il oktyabr). Bakı: Qanun, 2000; II hissə (1917-ci il noyabr – 1918-ci il noyabr). Bakı: Adiloğlu, 2001; III hissə (sənədlər, materiallar, xəritələr, şəkillər). Bakı: Adiloğlu, 2004.
187. Qasımov M. Xarici dövlətlər və Azərbaycan (Aprel işğalından SSRİ yaradılana qədərki dövrdə diplomatik-siyasi münasibətlər). Bakı: Qanun, 1998.
188. Qocatürk U. Atatürk. Bakı: Elm, 1991.
189. Quliyev C.B. V.İ.Lenin və Azərbaycanda Sovet hakimiyyətinin qələbəsi və möhkəmləndirilməsi uğrunda mübarizə. Bakı: Azərnəşr, 1957.
190. Maksvell N. Azərbaycan Demokratik hökumətinin siyasətində neft məsələsi (1918-1920-ci illər) // Azərbaycan Neft Sənayesi Tarixinə dair Birinci Beynəlxalq Konfrans. 7 iyul 1996-cı il. Hyuston, 1997, s. 39-45.
191. Mehdizadə M. Beynəlmiləl siyasətdə petrol. Bakı: Azərbaycan Dövlət Nəşriyyatı, 1994.
192. Məmmədov X. Azərbaycan xalqının milli istiqlal mübarizəsi (XIX yüzilliyin sonları – XX yüzilliyin əvvəlləri). Bakı: Elm, 2005.
193. Məmmədzadə M.B. Milli Azərbaycan hərəkatı. Bakı: Nicat, 1992.
194. Musayev İ. Azərbaycanın xarici siyasəti (XX əsr). I hissə. Bakı: İqtisad Universiteti Nəşriyyatı, 2001.
195. Musayev İ. Azərbaycanın Naxçıvan və Zəngəzur bölgələrində siyasi vəziyyət və xarici dövlətlərin siyasəti (1917-1921-ci illər). Bakı: Bakı Universiteti Nəşriyyatı, 1996.
196. Nəcəfov B. Azərbaycan Demokratik Respublikası: daxili və xarici siyasəti. Bakı. Bilik, 1992.
197. Nəriman Nərimanovun V.İ.Leninə iki məktubu // "İqtisadiyyat" qəzeti, 26 aprel 2000-ci il.
198. Nərimanov N. Ucqarlarda inqilabımızın tarixinə dair / İ.V.Stalinə məktub /. Bakı: Azərnəşr, 1992.
199. Nəsibzadə N. Azərbaycan Demokratik Respublikası. Bakı:

Elm, 1990.
200. Nəsibzadə N. Azərbaycanın xarici siyasəti (1918-1920). Bakı: Ay-Ulduz, 1996.
201. Nəsibzadə N. Bölünmüş Azərbaycan, bütöv Azərbaycan. Bakı: Ay-Ulduz, 1997.
202. Nuru Paşa. Qafqaz İslam Ordusu Hərəkatı / M.Süleymanov. Nuru Paşa. Bakı: Hərbi Nəşriyyat, 1999, s. 123-141.
203. Ratqauzer Y.A. Bakıda inqilab və vətəndaş müharibəsi: 1917-1918-ci illər. I hissə. Bakı: Azərnəşr, 1928.
204. Ratqauzer Y.A. Şura Azərbaycanı uğrunda mübarizə: Aprel inqilabı tarixinə dair. Bakı: Azərnəşr, 1929.
205. Rəfiyev B. Aysberqin sualtı hissəsi. Bakı: Azərnəşr, 1995.
206. Rəsulzadə M.Ə. Azərbaycan Cümhuriyyəti. Bakı: Elm, 1990.
207. Rəsulzadə M.Ə. Əsrimizin Siyavuşu. Çağdaş Azərbaycan ədəbiyyatı. Çağdaş Azərbaycan tarixi. Bakı: Gənclik, 1991.
208. Sofiyev M. Güney Qafqaz respublikaları Sovet-Türkiyə əlaqələrində (1922-1936). Bakı: Çaşıoğlu, 2000.
209. Süleymanov M. Qafqaz İslam Ordusu və Azərbaycan. Bakı: Hərbi Nəşriyyat, 1999.
210. Süleymanov M. Nuru paşa. Bakı: Hərbi Nəşriyyat, 1999.
211. Swietochowski T. Rusiya və Azərbaycan: sərhədyanı bölgə keçid dövründə. Bakı: Xəzər Universitəsi, 2000.
212. Şahgəldiyev H. Azərbaycanda Sovet hakimiyyətinin qələbəsində rus xalqının köməyi. Bakı: Azərnəşr, 1960.
213. Şaumyan S. Seçilmiş əsərləri. 2 cilddə. II c., Bakı: Azərnəşr, 1978
214. Şeyxzamanlı N. Azərbaycan istiqlal mücadiləsi xatirələri. Bakı: Azərbaycan, 1997.
215. Topçubaşov Ə.M. Azərbaycanın təşəkkülü // Azərbaycan SSR Elmlər Akademiyasının Xəbərləri. Tarix, fəlsəfə və hüquq seriyası, 1990, № 3, s. 114-134.
216. Topçubaşov Ə.M. Paris məktubları. Tərtib edən: V.Quliyev. Bakı: Azərnəşr, 1998.
217. Ünüvar V. Naxçıvan: təlatüm və burulğanlar (1920-1921).

Türk dilindən tərcümə edən: Ə.A.Quliyev. Naxçıvan: Əcəmi, 2006

218. V.İ.Lenin Azərbaycan haqqında. Tərtib edən: C.B.Quliyev. Bakı: Azərbaycan Dövlət Nəşriyyatı, 1970.
219. Yaqublu N. Məmməd Əmin Rəsulzadə. Bakı: Gənclik, 1991.
220. Yusifzadə S. Birinci dünya müharibəsinin sonunda ingilis işğalı və Bakının azad edilməsi // Tarix və onun problemləri, 1999, № 2, s. 114-122.
221. Zaqafqaziya Seyminin Müsəlman fraksiyası və Azərbaycan Milli Şurası iclaslarının protokolları. Azərbaycan Respublikasının Milli Arxiv İdarəsi. Məsul red: A.O.Paşayev. Bakı: Adiloğlu, 2006.

*b) Türk dilində*

222. Akçura Y. Üç Tarz-ı Siyaset. Ankara: Türk Tarih Kurumu Yayınları, 1998.
223. Akşin A. Atatürk'ün Dış Politika İlkeleri ve Diplomasisi. Ankara: Türk Tarih Kurumu Yayınları, 1991.
224. Allen W.E.D., Muratoff P. Kafkas Harekatı. 1828-1921 Türk-Kafkas Sınırındaki Harplerin Tarihi. Ankara: Genelkurmay Basımevi, 1966.
225. Arslan A. I Dünya Savaşı ve Milli Mücadele Döneminde Ahıska-Ahılkelek (1914-1921) // Kafkas Araştırmaları, 1997, Sayı: 3, s. 93-115.
226. Aslan B. Türkiye-Azerbaycan İlişkileri ve İbrahim Ebilov (1920-1923) İstanbul: Kaynak Yayınları, 2004.
227. Aslan B. Yeni Belgeler Işığında Karakol Cemiyeti, Uşak Konqresi ve Karakol Cemiyeti'nin Bolşeviklerle Yaptığı Anlaşma // Atatürk Dergisi, Ocak 2004, IV/1, s. 29-63.
228. Aslan Y. Türkiye Komünist Fırkası'nın Kuruluşu ve Mustafa Suphi. Ankara: Türk Tarih Kurumu Yayınları, 1997.
229. Atatürk M.K. Nutuk. C. III. Ankara: Türk Tarih Kurumu Yayınları, 1989.
230. Atnur İ.E. Osmanlı Yönetiminden Sovyet Yönetimine Kadar

Nahçıvan (1918-1921). Ankara: Türk Tarih Kurumu Yayınları, 2001.

231. Avcı C., Kara A. Bağımsızlığa Giden Yol. Türk İnkılabının Tarihi. İstanbul: İQ Yayınları, 2007.
232. Avcıoğlu D. Milli Kurtuluş Tarihi (1838-1965). C. II. İstanbul: İstanbul Matbaası, 1974.
233. Aydemir Ş.S. Makedonya'dan Ortaasya'ya Enver Paşa. C. III. 1914-1922. İstanbul: Remzi Kitapevi, 1985.
234. Aydın M. Milli Mücadele Dönemi'nde TBMM Hükümeti Tarafından İstanbul'da Kurulan Gizli Gruplar ve Faaliyetleri. İstanbul: Boğaziçi Yayınları, 1992.
235. Azerbaycan Maddesi // İslam Ansiklopedisi. C. II. İstanbul: Maarif Matbaası, 1942.
236. Bal H. Kuzey Kafkasya'nın İstiklalı ve Türkiye'nin Askeri Yardımı (1917-1918) // Kafkas Araştırmaları, İstanbul, 1997, Sayı 3, s. 29-91.
237. Bayat A.H. Hüseynzade Alibey. Ankara: Atatürk Kültür Merkezi Başkanlığı Yayınları, 1998.
238. Bayur Y.H. Türk İnkılabı Tarihi. C. III. 1914-1918 Genel Savaşı. Kısım I-IV, Ankara: Türk Tarih Kurumu Yayınları, 1983.
239. Bilsel M.C. Lozan. C. I. İstanbul: Sosyal Yayınları, 1998.
240. Birinci Dünya Harbinde Türk Harbi. Kafkas Cebhesi. 3. Ordu Harekatı. C. II. Ankara: Genelkurmay Basımevi, 1993.
241. Budak M. Nuri Paşa'nın Kafkas İslam Ordusu Hakkındaki Raporu // Kafkas Araştırmaları, İstanbul, 1998, Sayı: 4. s. 61-105.
242. Budak M. Osmanlı-Rus İlişkilerinde Kafkasya // Avrasya Etüdleri, 1995, C. I, S. 4, s. 101-128.
243. Carr E.H. Lenin'den Stalin'e Rus Devrimi. 1917-1929. Çeviren: Levent Cinemre. İstanbul: Mer Yayınları, 1992.
244. Carr E.H. Sovyet Rusya Tarihi. Bolşevik Devrimi. 1917-1923. C. III. Çeviren: Tuncay Birkan. İstanbul: Metis Yayınları, 2004
245. Cebesoy A.F. Milli Mücadele Hatıraları. İstanbul: "Vatan"

Neşriyatı, 1953.
246. Cebesoy A.F. Moskova Hatıraları (21/11/1921 – 2/6/1922). İstanbul: "Vatan" Neşriyatı, 1955.
247. Çağlayan K.T. Birinci Dünya Savaşı Sonlarında Kafkasya'da İngilis Faaliyetleri // Türk Tarih Kurumu. Belleten, Ağustos, 2000, C. LXIV, Sayı: 240, s. 487-507.
248. Çağlayan K.T. I Dünya Savaşı Sonunda Enver Paşanın Kafkasya'daki Planları ve İngiltere // Atatürk Araştırma Merkezi Dergisi, Temmuz 1998, C. XIV, Sayı: 41, s. 513-520.
249. Çakmak F. Büyük Harpte Şark Cebhesi Hareketleri. Ankara: Genelkurmay Matbaası, 1936.
250. Çolak M. Alman İmperatorluğu'nun Doğu Siyaseti Çerçivesinde Kafkasya Politikası (1914-1918). Ankara: Türk Tarih Kurumu Yayınları, 2006.
251. Erat M. Kazım Karabekir'in Nahçıvan ve Çevresindeki Faaliyetleri (1918) // Kafkas Araştırmaları, İstanbul, 1998, Sayı: 4, s. 39-59.
252. Erel Ş. Azerbaycan Politikacılarının Yanlışları. İstanbul: Baha Matbaası, 1968.
253. Ermeni Komitelerinin İhtilal Hareketleri ve Besledikleri Emeller. Hazırlayan: İsmet Parmaksızoğlu. Ankara: DSİ Basım ve Foto-Film İşletme Müdürlüğü, 1981.
254. Ermetin S.K. Anadolu'da ve Azerbaycan'da Türklere Uygulanan Bitmeyen Soykırım. İstanbul: Töre Yayınları, 2003.
255. Ertürk H. İki Devrin Perde Arkası. Hatıraları Kaleme Alan: Samih Nafiz Tansu. İstanbul: Ararat Yayınevi, 1969.
256. Gürsel H.F. Tarih Boyunca Türk-Rus İlişkileri. İstanbul: AK Yayınları, 1968.
257. Gürün K. Türk-Sovyet İlişkileri (1920-1953). Ankara: Türk Tarih Kurumu Yayınları, 1991.
258. Haley Ch.D. Son Savaşçı Enver Paşa. Tercüme: Necdet Özbek. İstanbul: Fener Yayınları, 2000.
259. Halil Paşa. İttihat ve Terakki'den Cumhuriyet'e Bitmeyen Savaş. Hazırlayan: Taylan Sorgun. İstanbul: Kamer Yayınları, 1997.

260. Hayit B.M. Türkistan Devletleri'nin Milli Mücadeleleri Tarihi. Ankara: Türk Tarih Kurumu Yayınları, 1995.
261. İşyar Ö.G. Bölgesel ve Global Güvenlik Çıkarları Bağlamında Sovyet-Rus Dış Politikaları ve Karabağ Sorunu. İstanbul: Alfa Yayınları, 2004.
262. Jaeschke G. Kurtuluş Savaşı İle İlgili İngiliz Belgeleri. Ankara: Türk Tarih Kurumu Yayınları, 1991.
263. Kahraman S.S. İstiklal Mücadelesi ve Enver Paşa (Trabzon ve Kars Hatıraları). İzmit: Selülöz Yayınları, 1949.
264. Karabekir K. İstiklal Harbimiz. C. I-II. İstanbul: Yapı Kredi Yayınları, 2006.
265. Karabekir K. İstiklal Harbimizde İttihat Terakki ve Enver Paşa. C. I. Hazırlayan: Orhan Hülagü. İstanbul: Emre Yayınları, 2001.
266. Karaca A. Azerbaycanın Yakın Tarihine Kısa Bir Bakış. İstanbul: Azerbaycan Kültür Merkezi Yayınları, 1982.
267. Karal E.Z. Osmanlı Tarihi. C. VIII. Ankara: Türk Tarih Kurumu Yayınları, 1988.
268. Keskin M. Milli Mücadelede Azerbaycan Cumhuriyeti'nin Kuva-yi Milliye İçin Nakdi Yardım Göndermesi // Türk Yurdu, Kasım 1988, C. IX, S. 22, s. 20-22.
269. Kılıç S. Türk-Sovyet İlişkilerinin Doğuşu. İstanbul: Ülke Kitapları, 1998.
270. Kurat A.N. Brest-Litovsk Müzakereleri ve Barışı // Belleten, Ankara: 1967, Cilt: XXXI, Sayı: 123, s. 375-413.
271. Kurat A.N. Türkiye ve Rusya. Ankara: Kültür Bakanlığı Yayınları, 1990.
272. Leverkuehn P. Sonsuz Nöbette Görev. Çeviren: Zakiye Hasançebi. İstanbul: Arba Yayınları, 1998.
273. Mahmut M.P. Maziye Bir Nazar. Berlin Muahedesi'nden Harbi Umumi'ye Kadar Avrupa ve Türkiye-Almanya Münasebetleri. İstanbul: Matbaay-i Ahmed İhsan ve Sürekası, 1341.
274. Memmetzade M.B. Devletler Arası Münasebetlere Dair Vesikalar // Azerbaycan Yurt Bilgisi, Temmuz-Ağustos 1934,

S. 31-32, s. 261-264.
275. Mustafa K.P. Nahçıvan Türk Kapısıdır. Dinleyip Nakleden: Faruk Sümer. Türk Dünyası Tarih Dergisi, Nisan 1992, Sayı 64, s. 5-6.
276. Neriman Nerimanov. Mektuplar. Hazırlayan: Hüseyin Adıgüzel. İstanbul: İleri Yayınları, 2005.
277. Nur R. Hayat ve Hatıratım. C. III. İstanbul: Altındağ Yayınları, 1968.
278. Oran B. Türk Dış Politikası. 1919-1980: Kurtuluş Savaşından Bugüne Olgular, Belgeler, Yorumlar. C. I. İstanbul: İletişim Yayınları, 2002.
279. Osmanlı Devleti İle Azerbaycan Türk Hanlıkları Arasındaki Münasebetlere Dair Arşiv Belgeleri. C. II. (1575-1918). Ankara: T.C. Başbakanlık Devlet Arşivleri Genel Müdürlüğü Osmanlı Arşivi Daire Başkanlığı, 1993.
280. Özalp K. Milli Mücadele: 1919-1922. C. I. Ankara: Türk Tarih Kurumu Yayınları, 1971.
281. Perinçek M. Atatürk'ün Sovyetler'le Görüşmeleri (Sovyet Arşiv Belgeleriyle). İstanbul: Kaynak Yayınları, 2005.
282. Pomiankowski J. Osmanlı İmperatorluğu'nun Çöküşü. "1914-1918. I Dünya Savaşı". Çeviren: Kamal Turan. İstanbul: Kayıhan Yayınları, 1990.
283. Renouvin P. Birinci Dünya Savaşı ve Türkiye. 1914-1918. Türkcesi: Örgen Uğurlu. İstanbul: Örgün Yayınevi, 2004.
284. Sabis A.İ. Birinci Dünya Harbi. Harp Hatıralarım. C. I-IV. İstanbul: Nehir Yayınları, 1990; 1991.
285. Sanders L. Türkiye'de Beş Sene. Çeviren: Osmanlı Genelkurmayı Askeri Tarih Encümeni Tercüme Heyeti. Hazırlayan: Muzaffer Albayrak. İstanbul: Yeditepe Yayınevi, 2007.
286. Saray M. Atatürk ve Türk Dünyası. Ankara: Türk Tarih Kurumu Yayınları, 1995.
287. Sayılqan A. Solun 94 Yılı. 1871-1965: Başlanğıçtan Günümüze Türkiye'de Sosyalist-Komünist Hareketler. Ankara: Mars Yayınları, 1968.
288. Selek S. Anadolu İhtilali. C. II. İstanbul: Burçak Yayınları,

1966.

289. Selvi H. Birinci Dünya Savaşı'ndan Lozan'a Ermeni Sorunu. Sakarya: Sakarya Üniversitesi Yayınları, 2004.
290. Sonyel S. Türk Kurtuluş Savaşı ve Dış Politika. C. I-II. Ankara: Türk Tarih Kurumu Yayınları, 1987; 1986.
291. Soysal İ. Türkiye'nin Siyasal Antlaşmaları (1920-1945). C. I. Ankara: Türk Tarih Kurumu Yayınları, 1983.
292. Suny R.G. Baku Komünü. Rus Devriminde Sınıf ve Ulusallık. Türkcesi: Kudret Emiroğlu. İstanbul: Belge Yayınları, 1990.
293. Sünbül T. Azerbaycan Dosyası. Ankara: Kök Yayınları, 1990.
294. Swietochowski T. Atatürk ve Transkafkasya // Tarih İncelemeleri Dergisi. XIII. Cumhuriyet'in 75 Yılına Armağan. Bornova-İzmir: Ege Universitesi Basımevi, 1998, s. 245-249.
295. Swietochowski T. Müslüman Cemaatten Ulusal Kimliğe Rus Azerbaycanı 1905-1920. İstanbul: Bağlam Yayınları, 1988.
296. Şahin E. Rus İhtilallerinden Mondros Mütarekesine Kadar Türkiye-Mavera-yı Kafkasya İlişkileri (1917-1918) // Yeni Türkiye Dergisi. Türkoloji ve Türk Tarihi Araştırmaları Özel Sayısı II. Siyasi Tarih. Mart-Nisan 2002, Yıl 8, S. 44, s. 348-369.
297. Şahin E. Trabzon ve Batum Konferanslarında Kuzey Kafkasya'nın Bağımsızlığı İle İlgili Gelişmeler // Atatürk Universitesi Türkiyat Araştırmaları Enstitüsü Dergisi. Erzurum: 1996, S. 4, s. 71-88.
298. Şahin E. Türkiye-Mavera-yı Kafkasya İlişkilerinden Bir Kesit: Trabzon Konferansı (14 Mart – 14 Nisan 1918) // Cumhuriyet'in 75, Osmanlı Devleti'nin 700 Yılında Trabzon Tarihi İlmi Toplantısı (6-8 Kasım 1998). Bildiriler. Trabzon: 1999, s. 489-524.
299. Şamsutdinov A. Kurtuluş Savaşı Yıllarında Türkiye-Sovyetler Birliği İlişkileri. Çeviren: A.Hasanoğlu. İstanbul: Yeni

Gün Yayınları, 2000.

300. Şimşir B.N. Bizim Diplomatlar. İstanbul: Bilgi Yayınları, 1996.
301. Tansel S. Mondros'tan Mudanya'ya Kadar. C. III. İstanbul: Milli Eğitim Bakanlığı Yayınları, 1991.
302. TBMM Gizli Celse Zabıtları. Devre: I. C. II. Ankara: Türkiye İş Bankası Kültür Yayınları, 1985.
303. TBMM Zabıt Ceridesi. Devre: I. C. VI, IX, XI. Ankara: TBMM Matbaası, 1943, 1954, 1958.
304. Temir A. Yusuf Akçura. Ankara: Türk Kültürünü Araştırma Enstitüsü Yayınları, 1987.
305. Tengirşek Y.K. Vatan Hizmetinde. İstanbul: Bahar Matbaası, 1967.
306. Tevetoğlu F. Türkiye'de Sosyalist ve Komünist Faaliyetler: 1910-1960. Ankara: Ayyıldız Matbaası, 1967.
307. Togan Z.V. Bugünkü Türk İli Türkistan ve Yakın Tarihi. C. I. İstanbul: Enderun Yayınları, 1981.
308. Toksoy N. Rusya'nın Trans-Kafkas Politikası ve Komisserlikle Münasebetleri // Atatürk Araştırma Merkezi Dergisi, Temmuz 2000, C. XVI, S. 47, s. 491-536.
309. Topuz H. Devrim Yılları. İstanbul: Remzi Kitapevi, 2004.
310. Tuğaç H. Bir Neslin Dramı. İstanbul: Çağdaş Yayınları, 1975.
311. Tuncer B. Türk İnkılap Tarihi ve Atatürk İlkeleri. İstanbul: İQ Yayınları, 2006.
312. Türk ve Tatar Heyeti, Türk Yurdu, 1331, IX/100, Osmanlıcadan aktaran: Tutibay Yayınları, Ankara: 1999.
313. Türkgeldi E.A. Brest-Litovsk Konferansı Hatıraları // Belgelerle Türk Tarihi Dergisi, Ankara: 1986, Sayı 13, s. 46-53.
314. Türk İstiklal Harbi I. Mondros Mütarekesi ve Tatbikatı. Yazan: Tevfik Bıyıklıoğlu. Ankara: Genelkurmay Basımevi, 1962.
315. Türk İstiklal Harbi. C. VII. İdari Faaliyetler. 15 Mayıs 1919 – 2 Kasım 1923. Ankara: Genelkurmay Basımevi, 1975.
316. Türk Silahlı Kuvvetleri Tarihi. TBMM Hükümeti Dönemi:

(23 Nisan 1920 – 29 Ekim 1923). C. IV, K. 1. Ankara: Genelkurmay Başkanlığı Yayınları, 1984.
317. Ülken H.Z. Türkçülüyün ve Türk Sosyalizminin Babası Ali Turan (Hüseynzade Ali Bey) // Yeni İnsan, Ocak 1970, VIII/85, s. 6-11, 23-28.
318. Wallach J.L. Bir Askeri Yardımın Anatomisi. Çeviren: Fahri Çelikar. Ankara: Genelkurmay Basımevi, 1977.
319. Yalçın H.C. İttihatçı Liderlerin Gizli Mektupları. (Bir Devri Aydınlatan Tarihi Mektuplar). Hazırlayan: Osman Selim Kocahanoğlu. İstanbul: Temel Yayınları, 2002.
320. Yel S. Brest-Litovsk Barış Konferansında Sovyet Rusya'nın Ermeni Politikası // Atatürk Araştırma Merkezi Dergisi, 2002, C. XVIII, S. 54, s. 829-848.
321. Yerasimos S. Milliyetler ve Sınırlar. Balkanlar, Kafkasya ve Ortadoğu. Türkçeye çeviren: Şirin Tekeli. İstanbul: İletişim Yayınları, 1994.
322. Yerasimos S. Türk-Sovyet İlişkileri. Ekim Devriminden "Milli Mücadele"ye. İstanbul: Gözlem Yayınları, 1979.
323. Yıldırım H. Türk-Rus-Ermeni Münasebetleri (1914-1918). Ankara: Kök Yayınları, 1990.
324. Yılmaz V. 1nci Dünya Harbi'nde Türk-Alman İttifakı ve Askeri Yardımlar. İstanbul: Cem Ofset Matbaacılık Sanayi A.Ş., 1993.
325. Yüceer N. Birinci Dünya Savaşı'nda Osmanlı Ordusu'nun Azerbaycan ve Dağıstan Harekatı. Azerbaycan ve Dağıstan'ın Bağımsızlığını Kazanması 1918. Ankara: Genelkurmay Basım Evi, 1996.
326. Zenkovski A.S. Rusya'da Pantürkizm ve Müslümanlık. Tercüme: İzzet Kantemir. Ankara: İpek Matbaası, 1971.
327. Zürcher E.J. Milli Mücadelede İttihatçılık. Çeviren: Nüzhet Salihoğlu. İstanbul: Bağlam Yayınları, 2003.

*c) Rus dilində*

328. Авалов З. Независимость Грузии в международной политике (1918-1921). Воспоминания. Очерки. Париж:

Navarre, 1924.
329. Адрес-календарь Азербайджанской Республики. Под. ред. А.М.Ставровского. Баку: 1920.
330. Азербайджанская Демократическая Республика (1918-1920). Армия (Документы и материалы). Баку: Азербайджан, 1998.
331. Азербайджанская Демократическая Республика (1918-1920). Внешняя политика. (Документы и материалы). Баку: Азербайджан, 1998.
332. Азербайджанская Демократическая Республика (1918-1920). Законодательные акты. (Сб. Документов). Баку: Азербайджан, 1998.
333. Азимов Г.С. Великий Октябрь в Азербайджане. Баку: Азернешр, 1987.
334. Аршаруни А., Габидуллин К. Очерки Пан-Исламизма и Пан-Тюркизма в России. Москва: Издательство Безбожник, 1931.
335. Багиров Ю.А. Из истории советско-турецких отношений в 1920-1922 гг. (По материалом Аз. ССР). Баку: Изд. АН Аз. ССР, 1965.
336. Балаев А. Азербайджанское национальное движение в 1917-1918 гг. Баку: Элм, 1998.
337. Балаев А. Азербайджанское национально-освободительное движение в 1917-1920 гг. Баку: Элм, 1990.
338. Беленький С., Манвелов А. Революция 1917 года в Азербайджане. Баку: Аз. Изд., 1927.
339. Борян Б.А. Армения, международная дипломатия и СССР. В двух томах. Москва-Ленинград: Государственное Издательство, 1928.
340. Братья навеки. Документы и материалы об исторической дружбе русского и азербайджанского народов. Т. 1. Баку: Азернешр, 1987.
341. Буденный С.М. Пройденный путь. Воспоминания. Москва: Воениздат, 1965.
342. Буниятов З. Сборник документов “за семью печатями”.

Баку: Şərq-Qərb, 1992.

343. Великий Октябрь и народы Востока. Сборник. 1917-1957. Отв. ред. и введ. А.А.Губера. Москва: Изд. Вост. лит., 1957.

344. Верҗховский Д.В., Ляхов В.Ф. Первая мировая война. 1914-1918. Москва: Воениздат, 1964.

345. Гаджибейли Дж.А. Избранное. Сост.: М.Теймуров, А.Асланов. Баку: Азернешр, 1993.

346. Готлиб В.В. Тайная дипломатия во время первой мировой войны. Москва: Соцэкиздат, 1960.

347. Гулиев Дж.Б. Борьба Коммунистической партии за осуществление ленинской национальной политики в Азербайджане. Баку: Азернешр, 1970.

348. Гусейнов М.Д. Тюркская демократическая партия федералистов "Мусават" в прошлом и настоящем. Баку: Загкнига, 1927.

349. Гусейнов Т. Октябрь в Азербайджане. Баку: Аз. Изд., 1927.

350. Дарабади П.Г. Военные проблемы политической истории Азербайджана в начале XX века. Баку: Элм, 1991.

351. Декреты Советской власти. Т. I. Ред. комис: Г.Д.Обичкин и др. Москва: Политиздат, 1957.

352. Денстервиль Л. Британский империализм в Баку и Персии. 1917-1918. Воспоминания. Пер. с англ. Б.Руденко. Тифлис: Советский Кавказ, 1925.

353. Джордж Л. Правда о мирных договорах. Т. I-II. Москва: Изд. Иностранная литература, 1957.

354. Документы внешней политики СССР. В 22-х томах. Т. I. (7 ноября 1917 г – 31 декабря 1918 г. Ред. коллегия: И.Н.Земсков и др.). Москва: Госполитиздат, 1957; Т. II. (1 января 1919 г – 30 июня 1920 г. Ред. коллегия: Г.К.Деев и др.). Москва: Госполитиздат, 1958; Т. III. (1 июля 1920 г – 18 марта 1921 г. Ред. коллегия: Г.А.Белов и др.). Москва: Госполитиздат, 1959; Т. IV. (19 марта

1921 г – 31 декабря 1921 г. Ред. коллегия: Л.С.Гапоненко и др.). Москва: Госполитиздат, 1960.

355. Документы и материалы по внешней политике Закавказья и Грузии. Тифлис: Типография Правительства Грузинской Республики, 1919.
356. Документы по истории гражданской войны в СССР. Под. ред. И.Минца и Е.Городецкого. Т. 1. Первый этап гражданской войны (1917-1918). Москва: Госполитиздат, 1940.
357. Дубнер А. Бакинский пролетариат в годы революции 1917-1920 гг. Баку: Аз.ГНИИ, 1931.
358. Жордания Н.Н. За два года (с 1 марта 1917 года по 1 марта 1919 года). Доклады и речи. Тифлис: Типография Грузинского Правительства, 1919.
359. Записки Джемал паши (1913-1919 гг.). Пер. с англ. Б.Т.Руденко. С предисловием Сим. Такаева. Тифлис: Изд. Заккрайкома РКП(б), 1923.
360. Ивашин И.Ф. Очерки истории внешней политики СССР. Москва: Госполитиздат, 1958.
361. Интернациональная помощь XI Армии в борьбе за победу Советской власти в Азербайджане. Документы и материалы. 1920-1921 гг. Баку: Азернешр, 1989.
362. Искендеров М. Из истории борьбы коммунистической партии Азербайджана за победу Советской власти. Баку: Азернешр, 1958.
363. История Азербайджана по документам и публикациям. Под. ред. акад. З.М.Буниятова. Баку: Элм, 1990.
364. История внешней политики СССР. В 2-х томах. 1917-1985. Т. 1. 1917-1945. Москва: Наука, 1986.
365. Кадышев А.Б. Интервенция и гражданская война в Закавказье. Москва: Воениздат, 1960.
366. Караев А.Г. Из недавнего прошлого. Баку: Бак. Рабочий, 1926.
367. Качазнуни Ов. Дашнакцутюун больше ничего делать. Баку: Элм, 1990.

368. Корсун Н.Г. Первая мировая война на Кавказском фронте Оперативно-стратегический очерк, Москва: Воениздат, 1946.
369. Корсун Н.Г. Сарыкамышская операция на Кавказском фронте в мировой войне 1914-1915 гг. Москва: Госвоениздат, 1937.
370. Кочерли Т.К. Исторический поворот в судьбах Азербайджанского народа. Баку: Азернешр, 1980.
371. Кулиев М. Враги Октября в Азербайджане. Баку: Аз. Изд., 1927.
372. Лорей Г. Операция германо-турецких морских сил в 1914-1918 гг. Пер. с нем. Е.Шведе. Москва: Государственное Военное Издательство, 1937.
373. Лудшувейт Е.Ф. Турция в годы первой мировой войны. 1914-1918 гг. Военно-политический очерк. Москва: Изд. МГУ, 1966.
374. Людендорф Э. Мои воспоминания о войне 1914-1918 гг. В двух томах. Пер. с 5-го нем. изд., под ред. А.Свечина. Москва: Госиздат, Т. 1, 1923; Т. 2, 1924.
375. Миллер А.Ф. Очерки новейшей истории Турции. Москва-Ленинград: Наука, 1948.
376. Мурадалиева Э.Б. Кровь земная-нефть Азербайджана и история. Баку. Мутарджим, 2005.
377. Нариманов Н. Избранные произведения. В трех томах. Том 2. Баку: Азернешр, 1989.
378. Новичев А.Д. Турция. Краткая история. Москва: Наука, 1965
379. Нотович Ф.И. Дипломатическая борьба в годы первой мировой войны. Москва: Изд. АН СССР, 1947.
380. Пипия Г.В. Германский империализм в Закавказье в 1910-1918 гг. Москва: Наука, 1978.
381. Пипия Г.В. Политика Германии в Закавказье в 1918 г. (Сб. Документов). Тбилиси: Сабчота Сакартвело, 1971.
382. Раевский А. Английская интервенция и мусаватское правительство. Из истории интервенции и контррево-

люции в Закавказье. Баку: Истпарт, 1927.
383. Раевский А. Английские “друзья” и мусаватские “патриоты”. Баку: Аз. Гиз., 1927.
384. Раевский А. Мусаватское правительство на Версальской конференции. Донесения представителей Азербайджанской мусаватской делегации. Баку: Изд-во АзГНИИ, 1930.
385. Сеф С. Борьба за Октябрь в Баку. Тифлис: Загкнига, 1930.
386. Сеф С. Борьба за Октябрь в Закавказье. Тифлис: Загкнига, 1932.
387. Сеф С. Как большевики пришли к власти в 1917-1918 г. г. Бакинском районе (доклад т. Сефа С.Е. на кружке текущей политики БК АКП (б) 16/II-27 года). Баку: АзГИЗ, 1927.
388. Сеф С. Революционный пролетариат в борьбе за власть. Баку: 1928.
389. Сеф С. Революция 1917 года в Закавказье. Документы. Материалы. Тифлис: 1927.
390. Советско-германские отношения от переговоров в Брест-Литовске до подписания Рапалльского договора. Сборник документов. Ред. коллегия: С.Дернберг и др. Т. 1. 1917-1918 гг. Москва: Политиздат, 1968.
391. Ставровский А. Закавказье после Октября. Взаимоотношения с Турцией в первой половине 1918 г. Москва-Ленинград: Гос. Изд.-во, 1925.
392. Стеклов А. Армия Мусаватского Азербайджана. Баку: Аз. Гиз, 1928.
393. Токаржевски Е.А. Из истории иностранной интервенции и гражданской войны в Азербайджане. Баку: Изд. АН Аз. ССР, 1957.
394. Топчибашев А.А. Дипломатические беседы в Стамбуле (записи чрезвычайного посланника и полномочного министра Азербайджанской Республики). 1918-1919 гг. Баку: Эргюн, 1994.

395. Фурсенко А.А. Нефтяные тресты и мировая политика. 1880-е годы – 1918 г. Москва-Ленинград: Наука, 1965
396. Хейфец А.Н. Советская Россия и сопредельные страны Востока в годы гражданской войны. Москва: Наука, 1964.
397. Черчилль У. Мировой кризис. Пер. с англ. с предисл. И. Минца. Москва-Ленинград: Государственное Военное Издательство, 1932.
398. Шаумян С.Г. Статьи и речи 1917-1918 гг. Баку: 1929.
399. Шаумян Сур. Бакинская Коммуна. Баку: 1927.

*ç) Qərbi Avropa dillərində*

400. Altstadt A.L. The Azerbaijani Turks: Power and Identity Under Russian Rule. Stanford, California: Hoover İnstitution Press, 1992.
401. Baumgart W. Deutsche Ostpolitik 1918. Von Brest-Litovsk bis zum Ende des Ersten Weltkrieges. Wien-München: R. Oldenbourg Verlag, 1966.
402. Bihl W. Die Kaukasus Politik der Mittelmächte. İhre Basis inder Orient-Politik und ihre Aktionen 1914-1917. Teil I. Wien-Köln-Graz: Böhlau Verlag, 1975.
403. Bihl W. Die Kaukasus Politik der Mittelmächte. Die Zeit der versuchten kaukasischen Staatlichkeit (1917-1918). Teil II. Wien-Köln-Weimar: Böhlau Verlag, 1992.
404. Caucasian Boundaries: Documents and Maps. 1802-1946. Edited by Anita L.P.Burdett. Richmond: Archive Editions, 1996
405. Cornwall J.H.M. The Russo-Turkish Boundary and the Territory of Nakhchivan // The Geographical Journal (Jun., 1923), Vol. 61, No. 6, pp. 445-450.
406. Dekmejian R.H. Soviet-Turkish Relations and Politiks in the Armenian SSR // Soviet Studies (Apr., 1968), Vol. 19, No. 4, pp. 510-525.
407. Hovannisian R.G. Armenia on the Road to Independence 1918. Los Angeles: Berkeley, 1967.

408. Jaschke G. Der Turanismus der Jungturken. Zur Osmanischen Aussenpolitik im Weltkriege. Die Welt des İslams, Band 23, Heft 1/2. Leipzig: 1941, pp. 1-54.
409. J.H.R. The Russo-Turkish Boundary of 1921 // The Geographical Journal (Mar., 1923), Vol. 61, No. 3, pp. 209-212.
410. Kazemzadeh F. The Struggle for Transcaucasia (1917-1921). New-York: Philosophical Library, 1951.
411. Pipes R. The Formation of the Soviet Union. Communist and Nationalism. 1917-1923. Cambridge: Harvard University Press, 1964.
412. Sonyel S. The Great War and the Tragedy of Anatolia. Ankara: Turkish Historical Society Printing House, 2000.
413. Wheeler-Bennet J.W. Brest-Litovsk. The Forgotten Peace. March 1918. London: Macmillan, 1963.
414. Zürrer W. Kaukasien 1918-1921. Der Kampf der Grobmächte um die Landbrücke zwischen Schwarzem und Kaspischem Meer. Düsseldorf: Droste Verlag, 1978.

# Qeydlər

# Qeydlər

VASİF VAQİF OĞLU QAFAROV

# AZƏRBAYCAN TÜRKİYƏ-RUSİYA MÜNASİBƏTLƏRİNDƏ (1918-1922)

Çapa imzalanıb: 20.10.2020.
Formatı: 60x90 1/16. Həcmi: 29,5 ç.v.
Tiraj: 500.

"RS Poliqraf" MMC-nin mətbəəsində
hazır diapozitivlərdən çap olunmuşdur.